# HEYDƏR ƏLİYEV

---

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

***o t u z  d ö r d ü n c ü   k i t a b***

***may, 2001 -  iyun, 2001***

**AZƏRNƏŞR**

**BAKI-2011**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**

**Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2011, 488 səh.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan çoxcildlik əsərlərinin bu cildində ölkəmizin tərəqqisi naminə görülən işlər, dövlətimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatına, həmçinin xarici ölkələrlə əlaqələrin daha da genişlənməsinə aid zəngin materiallar dərc olunmuşdur.

Kitabda ulu öndərin MDB ölkələrinin dövlət başçıları şurasının Minskdə keçirilən toplantısında, GUÖAM təşkilatının dövlət başçılarının Yaltadakı zirvə görüşündə iştirakına, kütləvi informasiya vasitələri nümayəndələrinə verdiyi müsahibələr öz əksini tapmışdır.

Bu cilddə unudulmaz rəhbərin Azərbaycana gələn Türkiyə, Rusiya, Ukrayna, Almaniya, Livan, Norveç, İran və Polşanın dövlət və hökumət nümayəndə heyətləri ilə, türk dünyasının böyük oğlu, alim İhsan Doğramacı, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi ilə yüksək səviyyəli görüşlərin materialları, 28 May – Respublika gününə həsr olunmuş təntənəli mərasimdə parlaq nitqi, 8-ci Beynəlxalq «Xəzər, neft, qaz, neftayırma və neft kimyası» sərgisi açılışında çıxışı, çoxsaylı məktubları və sair sənədlər verilmişdir.

**VVK -32**

$Я\frac{0801000000}{М-651(07)-2011}$ **BBK-32**

© Azərnəşr, 2011

# KİTABIN İÇİNDƏKİLƏR


**GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ GECƏDƏ ÇIXIŞ**
*28 aprel 2001-ci il*.................... *9*

**TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI AYTAC YALMAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*1 may 2001-ci il*.................... *11*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**
*3 may 2001-ci il*.................... *13*

**GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN VƏ BİR SIRA DİGƏR DÖVLƏTLƏRİN TİCARƏT VƏ SƏNAYE PALATALARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 may 2001-ci il*.................... *14*

**ATƏT-in MİNSK QRUPUNUN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAN OLAN HƏMSƏDRİ KERİ KAVANO İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*5 may 2001-ci il*.................... *19*

**BÖYÜK BRİTANİYANIN bp ŞİRKƏTİNİN ÖLKƏMİZDƏ HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏRİN TƏQDİMAT MƏRASİMİNDƏ SÖHBƏT**
*7 may 2001-ci il*.................... *20*

**BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ, İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 56-cı İLDÖNÜMÜ – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ MÜHARİBƏ VETERANLARI İLƏ SÖHBƏT**
*9 may 2001-ci il*.................... *28*

**NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA**
*11 may 2001-ci il*.................... *33*

**NORVEÇİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YENS STOLTENBERQƏ**
*12 may 2001-ci il*.................... *34*

**TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, SƏFİR YİGİT ALPOĞLAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*13 may 2001-ci il*.................... *35*

**TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*14 may 2001-ci il*.................... *37*

**RUSİYA FEDERASİYASI ALİ ARBİTRAJ MƏHKƏMƏSİNİN SƏDRİ VENİAMİN YAKOVLEV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*16 may 2001-ci il*.................... *42*

**RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*15 may 2001-ci il*.................... *45*

**RUSİYA XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, RUSİYA FEDERASİYASI PREZİDENTİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ VYAÇESLAV**

**TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*15 may 2001-ci il*……………………………………………………………………………. 51

**MDB ÖLKƏLƏRİNİN MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*15 may 2001-ci il*……………………………………………………………………………. 53

**ZAQAFQAZİYA ÖLKƏLƏRİ ONKOLOQLARININ İKİNCİ KONQRESİNİN İŞTİRAKÇILARINA**
*17 may 2001-ci il*……………………………………………………………………………. 56

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN ƏMƏKDAŞLARINA**
*17 may 2001-ci il*……………………………………………………………………………. 57

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA**
*17 may 2001-ci il*……………………………………………………………………………. 58

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**
*17 may 2001-ci il*……………………………………………………………………………. 59

**UKRAYNANIN MÜDAFİƏ NAZİRİ, ORDU GENERALI ALEKSAND KUZMUK VƏ «QIZIL TALE» BEYNƏLXALQ AÇIQ MƏŞHURLUQ REYTİNQİNİN BAŞ DİREKTORLUĞUNUN SƏDRİ DMİTRİ AKİMOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*18 may 2001-ci il*……………………………………………………………………………. 60

**ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ KERİ KAVANO (ABŞ), FİLİP DÖ SUREMEYN (FRANSA), NİKOLAY QRİBKOV (RUSİYA) VƏ ONLARI MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*18 may 2001-ci il*……………………………………………………………………………. 62

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
*21 may 2001-ci il*……………………………………………………………………………. 67

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER, AFR BUNDESTAQI SƏDRİNİN MÜAVİNİ XANIM ANTYE FOLLMER VƏ ONLARI MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*21 may 2001-ci il*……………………………………………………………………………. 68

**GÖRKƏMLİ ŞAHMATÇI ANATOLİ KARPOVA**
*21 may 2001-ci il*……………………………………………………………………………. 70

**AVROPA İTTİFAQI – AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM URSULA ŞVAYSERİN BAŞÇILIĞI İLƏ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*22 may 2001-ci il*……………………………………………………………………………. 71

**AZƏRBAYCANDA QONAQ OLAN TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ PROFESSOR İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*24 may 2001-ci il*……………………………………………………………………………. 77

**DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ KEÇİRİLMƏSİ HAQQINDA**
*24 may 2001-ci il*……………………………………………………………………………. 80

**MONQOLUSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NATSAGİYN BAQABANDİYƏ**
*24 may 2001-ci il*……………………………………………………………………………… *82*

**GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**
*24 may 2001-ci il*……………………………………………………………………………… *83*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERNANDO DE LA RUAYA**
*24 may 2001-ci il*……………………………………………………………………………… *84*

**İORDANİYA HAŞİMİLƏR MƏMLƏKƏTİNİN MƏLİKİ ƏLAHƏZRƏT II ABDULLAYA**
*24 may 2001-ci il*……………………………………………………………………………… *85*

**28 MAY – RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*26 may 2001-ci il*……………………………………………………………………………… *86*

**«QAFQAZDA SÜLH VƏ İNKİŞAF» BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSINA**
*28 may 2001-ci il*……………………………………………………………………………… *96*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEFAN MESİÇƏ**
*28 may 2001-ci il*……………………………………………………………………………… *97*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ**
*28 may 2001-ci il*……………………………………………………………………………… *98*

**MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*28 may 2001-ci il*……………………………………………………………………………… *99*

**TƏLƏBƏLƏRİN, ŞAGİRDLƏRİN VƏ İDMANÇILARIN BİR QRUPUNA AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞININ İLK ŞƏXSİYYƏT VƏSİQƏLƏRİNİ TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ**
*29 may 2001-ci il*……………………………………………………………………………… *106*

**BMT-nin AZƏRBAYCANDAKI REZİDENT–ƏLAQƏLƏNDİRİCİSİ ERCAN MURAT VƏ BU TƏŞKİLATIN ÖLKƏMİZDƏKİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*30 may 2001-ci il*……………………………………………………………………………… *108*

**LİVAN RESPUBLİKASI BAŞ NAZİRİNİN ŞƏXSİ NÜMAYƏNDƏSİ, PARLAMENTİN ÜZVÜ ƏKBƏR ŞUHEYB İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*30 may 2001-ci il*……………………………………………………………………………… *110*

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QAPALI İCLASI**
*1 iyun 2001-ci il*……………………………………………………………………………… *112*

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ İCLASI**
*1 iyun 2001-ci il*……………………………………………………………………………… *113*

**MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MİNSK ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ NÖVBƏTİ GÖRÜŞÜNDƏN QAYIDARKƏN, BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ**
*1 iyun 2001-ci il*……………………………………………………………………………… *114*

**NORVEÇİN NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT**

KATİBİ XANIM BYORD SANDALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 iyun 2001-ci il……………………………………………………………………………..….. 117*

XALQ ARTİSTİ XURAMAN QASIMOVAYA
*5 iyun 2001-ci il ……………………………………………………………………………..…. 119*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MOŞE KATSAVA
*5 iyun 2001-ci il………………………………………………………………………………..... 120*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ARİEL ŞARONA
*5 iyun 2001-ci il………………………………………………………………………………… 121*

8-ci BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*5 iyun 2001-ci il ........................................................................................................................ 122*

DƏMİR YOLLARI ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR MÜŞAVİRƏSİNİN XXIX SESSİYASININ İŞTİRAKÇILARINA
*6 iyun 2001-ci il......................................................................................................................... 127*

GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YALTAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA VERDİYİ CAVAB
*6 iyun 2001-ci il......................................................................................................................... 128*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV YALTA ZİRVƏ GÖRÜŞÜNDƏ
*6 iyun 2001-ci il....................................................................................................................... 131*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GÜRCÜSTANIN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*6 iyun 2001-ci il......................................................................................................................... 132*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*6 iyun 2001-ci il......................................................................................................................... 133*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN UKRAYNANIN PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*6 iyun 2001-ci il......................................................................................................................... 134*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*6 iyun 2001-ci il......................................................................................................................... 135*

GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*7 iyun 2001-ci il..................................................................................................................... 136*

GUÖAM-ın YALTA XARTİYASI *139*

GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA, VƏTƏNƏ QAYIDARKƏN BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ
*7 iyun 2001-ci il......................................................................................................................... 141*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJİ SAMPAYYUYA
*8 iyun 2001-ci il*........................................................................................................................ *145*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ
*8 iyun 2001-ci il*........................................................................................................................ *146*

RUSİYANIN YOLLAR NAZİRİ NİKOLAY AKSYONENKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*8 iyun 2001-ci il*........................................................................................................................ *147*

RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ İŞLƏRİ, FÖVQƏLADƏ HALLAR VƏ TƏBİİ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI NAZİRİ SERGEY ŞOYQU BAŞDA OLMAQLA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*8 iyun 2001-ci il* ....................................................................................................................... *151*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*9 iyun 2001-ci il*........................................................................................................................ *154*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL ARROYOYA
*9 iyun 2001-ci il*........................................................................................................................ *155*

İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAVUR RAQNAR QRİMSSONA
*9 iyun 2001-ci il*........................................................................................................................ *156*

«BAKILI OĞLANLAR» ŞƏN VƏ HAZIRCAVABLAR KLUBU KOMANDASININ YENİ PROQRAMLA ÇIXIŞINA BAXDIQDAN SONRA KOMANDANIN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*10 iyun 2001-ci il*...................................................................................................................... *157*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ
*11 iyun 2001-ci il*...................................................................................................................... *159*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETAYA
*11 iyun 2001-ci il*...................................................................................................................... *160*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*11 iyun 2001-ci il*...................................................................................................................... *161*

RUSİYANIN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*12 iyun 2001-ci il*...................................................................................................................... *162*

İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏHƏD QƏZAİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*13 iyun 2001-ci il*...................................................................................................................... *165*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA
*14 iyun 2001-ci il*...................................................................................................................... *168*

MDB ÖLKƏLƏRİ – BELARUS, QAZAXISTAN, QIRĞIZISTAN, GÜRCÜSTAN,

MOLDOVA, RUSİYA, TACİKİSTAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN İŞLƏR İDARƏLƏRİ MÜDİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN GÖRÜŞ İŞTİRAKÇILARI İLƏ SÖHBƏT
*14 iyun 2001-ci il*............................................................ *169*

POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSU RƏHBƏRİNİN MÜAVİNİ, NAZİR MAREK DUKAÇEVSKİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*15 iyun 2001-ci il*............................................................ *172*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ ƏMƏLİYYAT RƏİSİ, KORPUS GENERALI KÖKSAL KARABAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*15 iyun 2001-ci il*............................................................ *173*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ CƏNAB TONİ BLEYRƏ
*16 iyun 2001-ci il*............................................................ *176*

AZƏRBAYCAN RESPUBLİKASININ TİBB İŞÇİLƏRİNƏ
*16 iyun 2001-ci il*............................................................ *178*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN AVROPA VƏ AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ, XƏZƏR DƏNİZİNİN STATUSU MƏSƏLƏSİ ÜZRƏ İRANIN XÜSUSİ NÜMAYƏNDƏSİ ƏLİ AHƏNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 iyun 2001-ci il*............................................................ *179*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT ASSAMBLEYASININ XVII PLENAR SESSİYASININ İŞTİRAKÇILARINA
*20 iyun 2001-ci il*............................................................ *181*

BAKI ALİ BİRLƏŞMİŞ KOMANDİRLƏR MƏKTƏBİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ
*20 iyun 2001-ci il*............................................................ *182*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYA-HƏZRƏT KRALİÇA II YELİZAVETANIN AD GÜNÜ MÜNASİBƏTİLƏ HƏMİN ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*20 iyun 2001-ci il*............................................................ *186*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ
*21 iyun 2001-ci il*............................................................ *188*

*QEYDLƏR*............................................................ *189*

*Şəxsi adlar göstəricisi*............................................................ *210*

*Coğrafi adlar göstəricisi*............................................................ *214*

## GÖRKƏMLI ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ GECƏDƏ ÇIXIŞ

*Rəşid Behbudov adına Mahnı Teatrı*

*28 aprel 2001-ci il*

*Gözəl insan, görkəmli oftalmoloq alim, tibb elmləri doktoru, əməkdar elm xadimi, professor, Respublika Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı laureatı Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gecədə iştirak etmək üçün Mahnı Teatrına gəldi.*

*Sükut çökmüş salonda həzin musiqi səsləndi, «Elegiya» filmindən kadrlar göstərildi. Filmdə Zərifə xanıma həsr olunmuş sənət əsərləri, ailəvi fotoşəkillər, vaxtilə onunla birgə işləmiş, ünsiyyətdə olmuş həmkarlarının xatirələri əksini tapmışdır.*

*Görkəmli dövlət xadimi, elm təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım çox kübar, ziyalı, işgüzar, xalqını, vətənini, torpağını ürəkdən sevən bu ailənin layiqli övladı olmuşdur. O, respublikamızda tibb elminin, xüsusilə oftalmologiyanın inkişafında böyük rol oynamış, bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi axtarışları təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildi ki, o, Azərbaycan oftalmoloqları arasında Averbax adına mükafata layiq görülmüş yeganə alim idi. Zərifə xanımın elmi tədqiqatları bilavasitə xalqa xidmət edirdi. Humanist alim ömrünün ən mənalı illərini ata-anasız qalmış, uşaq evlərində yaşayan balaların korluqdan xilas olunmasına, fəhlələr arasında peşə xəstəliklərinin qarşısının alınmasına həsr etmişdir.*

*Zərifə xanım hərtərəfli inkişaf etmiş parlaq şəxsiyyət idi. O, istedadlı alim olmaqla yanaşı, ədəbiyyatı, incəsənəti, musiqini sevir, gözəl bilirdi.*

*Gecədə Zərifə xanımın həyat və fəaliyyətinin müxtəlif məqamları barədə məlumat verildi, ona həsr olunmuş şeirlərdən parçalar oxundu. Tanınmış müğənnilərin ifasında muğam və xalq mahnıları səsləndi.*

*Sevil xanım Əliyevanın şair Fikrət Qocanın şeirinə bəstələdiyi «Ana» mahnısının «Bəri bax» ansamblı üzvlərinin ifasında səslənməsi gecəyə toplaşanlara bir daha xatırlatdı ki, Zərifə xanım həm də xalqımızın ən gözəl mənəvi xüsusiyyətlərini özündə birləşdirən əsl Azərbaycan qadını, ailəsinə bağlı, övladları ilə nəfəs alan ana, gözəl ailənin xanımı idi.*

*Bütün ömrünü zülmətlə mübarizəyə həsr etmiş bu nurlu şəxsiyyətin xatirəsi təkcə onun doğmaları və yaxınlarının deyil, xalqımızın qəlbində beləcə daim yaşayacaqdır.*

**H e y d ə r   Ə l i y e v:** Mərhum Zərifə xanımın xatirəsinə həsr olunmuş bu gecənin, xatirə gecəsinin təşkilatçılarına və bu ədəbi-musiqili kompozisiyanın iştirakçılarının hamısına ürəkdən təşəkkür edirəm. Bu, xatirə gecəsidir, amma hesab edirəm ki, burada bizim incəsənət ustalarının çıxışları, eyni zamanda bizim mədəniyyətimizdə, incəsənətimizdə müxtəlif janrları çox məharətlə nümayiş etdirmək qabiliyyətinin olduğunu göstərir. Mən sizin hamınıza təşəkkür edirəm.

Bilirəm ki, bunun rejissoru bizim hörmətli mədəniyyət xadimi Cənnət xanımdır. Cənnət xanım, sizə təşəkkür edirəm. Bütün iştirakçılara təşəkkür edirəm. Çox təsirli idi. Eyni zamanda Zərifə xanımı xatırlamaq üçün, bəlkə mənim üçün bu daha da təsirlidir. Çünki Zərifə xanım mənim həyat yoldaşım idi. Bəlkə də mənim qədər onu tanıyan, onu mənim qədər hiss edən adam olmayıbdır. Hətta bəlkə onun valideynləri də. Təbiidir ki, valideynləri onu bəsləyiblər, böyüdüblər, təhsil veriblər, ona həyat veriblər. Ancaq mən onunla həyat qurandan sonra birgə yaşadığımız dövrdə, təbiidir ki, mənim fikirlərim onun haqqında bütün deyilənlərdən daha genişdir. Ancaq, təbii, mən burada heç bir şey demək istəmirəm. Bunlar hamısı insanın qəlbində yaşayır və hər bir insanın, dünyasını dəyişmiş insanın, insanı tanıyanların qəlbində yaşayır. Siz isə, əziz incəsənət ustalarımız, xadimlərimiz, bununla Zərifə xanım haqqında mənim qəlbimdə yenidən hisslər oyatdınız. Güman edirəm ki, bu xatirə gecəsinə zəhmət çəkib gəlmiş insanları da təsirləndirdiniz və Zərifə xanımın nə qədər gözəl insan olduğunu burada bir daha nümayiş etdirdiniz.

Onun haqqında çox sözlər dediniz və çox sözlər də demək olar. Ancaq mənim üçün o, birinci növbədə, böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi, qəlbimdə yaşayır. Sizə təşəkkür edirəm. Çox sağ olun. Eyni zamanda bu gecəyə zəhmət çəkib gəlmiş dostlarımızın hamısına təşəkkürümü bildirirəm.

Çox sağ olun ki, siz də zəhmət çəkib bu gün bu gecədə bizimlə bərabərsiniz. Çox sağ olun. Təşəkkür edirəm. Sizə yeni uğurlar arzulayıram.

Təbiidir ki, bu, xatirə gecəsidir və siz də xatirə gecəsində onun bizdən ayrılığı ilə əlaqədar həm sözlərinizlə, həm çıxışlarınızla, həm də ifanızla bizim üçün bu ayrılığın nə qədər çətin olduğunu göstərmək istədiniz. Ona görə də burada bir kədər, qəm, qüssə əhval-ruhiyyəsi yarandı.

Ancaq eyni zamanda bu gün onun anadan olan günüdür. Biz həmişə bu günü öz ailəmizdə, ancaq öz ailəmizdə qeyd edirdik. Mən bunu xüsusi vurğulamaq istəyirəm. Çünki bizim ailəmizdə geniş mərasimlər keçirmək, ad günləri keçirmək adəti olmayıbdır. Yəqin ki, bu da həm Zərifə xanımın xasiyyətindən, həm də mənim xasiyyətimdən irəliyə gələn haldır. Ancaq bu gün onun doğum günüdür. Indi Allahın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan gedibdir.

Xatirimdədir, Moskvada xəstəxanada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. Ancaq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o, vəfat etdi.

Yenə də deyirəm, bu gün onun ad günüdür, doğum günüdür. Bu qəm-qüssə mənim üçün təbiidir. Ancaq mən istəməzdim ki, bu gün xatirə gecəsinə zəhmət çəkib gəlmiş adamlar qəm-qüssə, kədər hissi ilə dağılsınlar. Əksinə, biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhval-ruhiyyə salondan götürülsün. Görürəm ki, masaların üzərində çox yeməli şeylər var, şirniyyat var. Hesab edirəm ki, biz bununla onun ruhunu daha da şad edərik. Ona görə də hamınızdan xahiş edirəm. Sağ olun.

* * *

*Respublikamızın rəhbəri Heydər Əliyev tanınmış elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri ilə görüşdü, onlarla səmimi söhbət etdi, ədəbiyyat haqqında düşüncələrdən, xalqımızın, gənc nəslin ədəbiyyata, sənətə olan kütləvi marağından danışdı. Dövlətimizin başçısı məktəb və gənclik illərində özünün də Qərb, dünya ədəbiyyatına böyük marağı olduğunu bildirdi.*

*Prezident Heydər Əliyev Türkiyəyə son rəsmi və işgüzar səfərlərini, Böyük Millət Məclisindəki çıxışını, keçirdiyi görüşləri xatırladı, Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanması sahəsində aparılan danışıqlardan, müzakirələrdən bəhs etdi, ermənilərin uydurma «soyqırımı» məsələsi, daşnaqların azərbaycanlılara, türklərə qarşı törətdiyi soyqırımı siyasəti barədə, ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması və s. məsələlər haqqında danışdı, müəyyən fikirlərini açıqladı.*

*Yaradıcı ziyalılar, elm və mədəniyyət xadimləri prezident Heydər Əliyevə səmimi söhbətə görə təşəkkür etdilər, onun fikirləri ilə tamamilə razı olduqlarını bildirdilər, xalqımızın ağır və ağrılı problemlərinin uğurla həlli yolunda, gələcək işlərində respublikamızın rəhbərinə uğurlar arzuladılar.*

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyev Xalq rəssamı Oqtay Sadıqzadəyə, Xalq artisti Nəsibə xanım Zeynalovaya, Xalq yazıçısı Rüstəm İbrahimbəyova, Xalq artisti, kinorejissor Eldar Quliyevə, Xalq rəssamı Ömər Eldarova və digər tanınmış şəxslərə yaxınlaşdı, onlarla səmimi görüşdü, vəziyyətləri ilə maraqlandı.*

*Mədəniyyət və incəsənət xadimləri gözəl insan mərhum Zərifə xanımın Azərbaycan xalqı qarşısındakı xidmətlərinin daim yaşayacağını vurğuladılar, onlara göstərilən diqqət və qayğıya görə prezident Heydər Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.*

**TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI AYTAC YALMAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*1 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli ordu generalı, xoş gəlmisiniz. Azərbaycanı ziyarət etməyinizdən çox məmnunam. Xüsusən ona görə ki, siz Azərbaycanı ilk dəfə ziyarət edirsiniz.

**A y t a c Y a l m a n:** Bəli, hörmətli cənab Prezident, bu mənim Azərbaycana ilk ziyarətimdir.

**H e y d ə r Ə l i y e v:** Bilirəm. Bizim Daxili İşlər naziri mənə məlumat veribdir ki, burada xeyli işlər görmüsünüz, amma görüləsi işlər də çoxdur.

**A y t a c Y a l m a n:** Hörmətli Prezident, daha da çox işlər görəcəyik. Bundan sonra da görüləsi işimiz çoxdur.

**H e y d ə r Ə l i y e v:** Bəli, görülməli işlər çoxdur.

Bizim Daxili İşlər Nazirliyi ilə Türkiyənin Jandarm Qüvvələri arasında yaranmış əlaqələr çox əhəmiyyətlidir. Biz buna çox böyük önəm veririk. Mən indiyə qədər görülən işləri müsbət qiymətləndirirəm. Ancaq siz dediniz ki, görüləsi işlər də çoxdur. İndiyə qədər görülən işlər bizim daxili qoşunların bəzi problemlərinin həll edilməsində yardımçı olubdur. İndiki səfəriniz, təbiidir ki, sizin üçün əhəmiyyətli olduğu kimi, bizim üçün də çox əhəmiyyətlidir. Ona görə mən çox məmnunam.

**A y t a c Y a l m a n:** Hörmətli Prezident, çox təşəkkür edirəm. Əvvəla, çox qiymətli vaxtınızı ayırıb məni qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Həqiqətən vətəninizdə, icazə versəydiniz deyərdim ki, mənim də vətənimdə – Azərbaycanda olduğuma görə çox məmnunam. Bu gözəl ölkənizdə zati-alinizlə, belə kamil, yüksək səviyyəli insanlarla görüşməkdən çox məmnun və bəxtiyar olduğumu ifadə etmək istəyirəm. Öz adımdan, məmləkətim adından bildirirəm ki, mənim bu səfərim dost və qardaş Azərbaycan üçün çox müsbət nəticələr verəcəkdir və mən buna möhkəm əminəm.

Mən 1992-ci ildən bu günə qədər gerçəkləşən tədbirlərin nəticələrini görmək imkanı əldə etdim. Zati-alinizin buyurduğu kimi, həm fiziki, həm də mənəvi hazırlıq mənasında çox mühüm işlər görülmüşdür. Amma bu günə qədər görülən işlərdən fərqli bir məqamı da gördüm, daha böyük nəticələr əldə olunduğunu müşahidə etdim. Xüsusi məktəbdə dörd il təhsil alan məzunların sonra Daxili Qoşunlar üçün kadr hazırlayan məktəbdə təkrar təhsilə cəlb ediləcəyini öyrəndim. Bu, kadr hazırlığına, təhsil sahəsinə daha yaxşı, fərqli münasibəti göstərir. Məndə belə bir fikir yarandı ki, beləliklə, Azərbaycanda təhsil məsələsi daha geniş miqyasda, daha dürüst həll olunur. Bu iş yeni proqram və üsulla daha mükəmməl aparılacaqdır. Bütün bunların hamısı faydalıdır.

Mən Türkiyəyə dönməmiş göstəriş verdim, hazırlıq görməyə başladıq. Mütəxəssislərimiz Azərbaycana gələcək, yüksək səviyyəli zabitlər hazırlanmasında iştirak edəcəklər.

Gələcəkdə hansı işlər görmək mümkündürsə, onları birlikdə yerinə yetirəcəyik.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl, çox məmnunam. Bir neçə gün bundan öncə mən sizin vətəninizdə – Türkiyədə idim. Orada Türkdilli Dövlətlər Birliyinin VII zirvə görüşü keçirilirdi.

**A y t a c Y a l m a n:** Mən onu izləyirdim.

**H e y d ə r Ə l i y e v:** İzləmisiniz. Zirvə toplantısı çox yüksək səviyyədə keçdi. Türkiyə Cümhuriyyəti və Cümhur başqanı hörmətli Əhməd Necdət Sezər VII zirvə görüşünü yaxşı hazırlamışdılar və onu çox mütəşəkkil, yüksək səviyyədə keçirdilər. Bizim hamımız bu görüşün iştirakçısı idik. Amma Türkiyə ev sahibidir. Çünki bütün əziyyət, bütün işlər Türkiyənin üzərində idi. Mən hesab edirəm ki, Türkdilli Dövlətlər Birliyinin varlığı çox əhəmiyyətlidir. Biz ildən-ilə irəli gedirik. Doğrudur, bəlkə də nailiyyətlərimiz bir o qədər böyük deyil, ancaq irəliyə gedirik. Lakin türkdilli dövlətlər içərisində Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr xüsusi əhəmiyyət daşıyır. Deyə bilərəm ki, bu bəzi dövlətlərlə münasibətlərdən fərqlənir. Bu da təbiidir. Çünki biz həmişə Türkiyə ilə daha yaxın olmuşuq. Türkiyə də Azərbaycanla daha yaxın olubdur. Tarixən belə olubdur. Ona görə də biz bu əlaqələrə, görüşlərə, toplantılara çox böyük əhəmiyyət veririk.

Sizin sahənizdə, yəni, Jandarm Qüvvələri, Daxili İşlər Nazirliyi arasındakı əməkdaşlıq da çox əhəmiyyətlidir. Çünki bizim Daxili İşlər Nazirliyinin Daxili Qoşunları keçmiş sovet dövründə yaranmış qoşunlardır. Onların çoxu hələ ki, keçmiş prinsiplərə əsasən işləyirlər. Ancaq biz indi yeni dövrdə yaşayırıq, müstəqil dövlətik. Ona görə də indi Daxili Qoşunların qarşısında duran vəzifələr keçmişdə, sovet dövründə olan vəzifələrdən çox fərqlidir.

Sizin təcrübəniz çoxdur. Ona görə də sizin təcrübənizin bizə verilməsi, təhsil işlərinin aparılması və digər yardımların edilməsi bizim üçün əhəmiyyətlidir. Buna görə də mən sizə təşəkkür edirəm. Jandarm Qüvvələrinin komandanı, ordu generalı kimi, sizin Azərbaycana gəlməyiniz, ölkəmizi ziyarət etməyiniz, bu məsələlərlə şəxsən tanış olmağınız və lazımi tədbirlər görməyiniz onu göstərir ki, siz Türkiyə–Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verirsiniz.

General Usubov da hər dəfə mənə bu əməkdaşlıqdan razılığını bildirir. Güman edirəm ki, bu dəfə görülən işlər daha da əhəmiyyətli olubdur. Sağ olun, yəqin ki, biz bu barədə söhbət edəcəyik.

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və dost Polşa xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm.

Əminəm ki, ikitərəfli əlaqələrimiz daim genişlənib inkişaf edərək xalqlarımızın rifahının yüksəlməsinə, regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 may 2001-ci il*

## GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN VƏ BİR SIRA DİGƏR DÖVLƏTLƏRİN TİCARƏT VƏ SƏNAYE PALATALARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Şadam ki, GUÖAM ölkələri və onlarla birlikdə Şərqi Avropanın digər ölkələri, Baltikyanı dövlətlər fikir mübadiləsi aparmaq, məsələləri müzakirə etmək və qarşılıqlı münasibətlərin, əlaqələrin daha da genişləndirilməsi imkanlarını araşdırmaq üçün ticarət-sənaye palataları səviyyəsində toplaşmağı qərara almışlar. Bu görüşü Azərbaycanda keçirmək barədə belə bir təşəbbüs olduğunu mənə deyəndə, buna böyük diqqətlə yanaşdım və onu alqışladım, mən sizi də alqışlayıram.

Mənə məlumdur ki, siz burada səmərəli işləmisiniz. Respublikamızın Baş naziri Artur Rasizadə dünən sizin simpoziumun açılışında oldu. Ondan xahiş etdim ki, mənim salamımı sizə yetirsin. Yəqin ki, yetirib. İndi işiniz sona çatır və mənimlə görüşmək istədiyinizi bildirmisiniz. Sizinlə görüşə mən də şadam. İndi sizi dinləmək istərdim.

**S ü l e y m a n  T a t l ı y e v** (*Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti*): Hörmətli Prezident, hər şeydən öncə, icazə verin, qonaqlarımız adından Sizi ürəkdən salamlayım, bizimlə görüşməyə vaxt tapdığınıza görə təşəkkür edim. Bilirik ki, Siz dövlət işləri ilə çox məşğulsunuz, Sizin üçün hər dəqiqə qiymətlidir. Ona görə də bizi qəbul etməyə vaxt tapdığınız üçün Sizə səmimi-qəlbdən minnətdarıq və təşəkkür edirik.

Bu simpoziumu keçirmək ideyası bizdə Siz – GUÖAM-ın üzvü olan ölkələrin rəhbərləri Nyu-Yorkda minilliyin zirvə toplantısı çərçivəsində görüşdüyünüz vaxt yaranmışdı. Orada siz regionda sülhün, təhlükəsizliyin təmin olunmasına, iqtisadi əlaqələrin genişləndirilməsinə dair çox mühüm məsələləri müzakirə etdiniz. Siz İpək Yolunun bərpası ilə bağlı ətraflı söhbətlər apardınız. Bundan sonra bizdə belə bir ideya yarandı ki, biz palatalar səylərimizi birləşdirib, bu əzəmətli proqramların yerinə yetirilməsi işinə nə üçün qoşulmayaq? Biz həmkarlarımıza müraciət etdik. Onlar təklifimizə böyük məmnuniyyətlə cavab verdilər və biz iki gün ərzində iclas keçirdik. İş çox faydalı oldu, əvvəlcə ümumi iclaslar keçirdik, sonra isə beş sessiya – diskussiyada çox müxtəlif məsələlər müzakirə edildi. Bunlar ticarət və sənaye palatalarına aid sırf peşə məsələləri idi. Biz iqtisadi əlaqələrimizi genişləndirmək məsələlərini müzakirə etdik. Bu gün işimizə yekun vurduq, Litva Respublikası, Çexiya, Latviya Respublikası ilə gələcək əməkdaşlıq haqqında birgə sazişlər imzaladıq.

Ümidvaram ki, bugünkü simpozium bizə iqtisadi, ticarət əlaqələrimizi daha da genişləndirməyə imkan verəcəkdir ki, Sizin qarşımıza qoyduğunuz vəzifələrin yerinə yetirilməsinə təsir göstərə bilək.

**Q u r a m  A x v l e d i a n i** (*Gürcüstan Sənaye və Ticarət Palatasının prezidenti*): Zati-aliləri, çox hörmətli cənab Prezident, bizə, GUÖAM ölkələri ticarət və sənaye palatalarının birinci simpoziumunun iştirakçılarına Sizin tərəfinizdən qəbul edilmək kimi böyük şərəf nəsib oldu. Diqqətinizə görə Sizə təşəkkür edirik və bunu ittifaqımızın möhkəmlənməsinə və inkişafına maraq göstərməyinizin ifadəsi kimi qiymətləndiririk. Simpozium bizə bir çox iqtisadi məsələləri nəzərdən keçirməyə, onların həllində ticarət-sənaye palatalarının rolunu aydınlaşdırmağa imkan verdi. Ümidvarıq ki, diskussiyalarımız və imzalanmış rəsmi məlumat GUÖAM ölkələrinin biznesmenləri arasında əlaqələrin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Biz simpoziumun yüksək səviyyədə keçirildiyini xüsusi qeyd etmək istərdik. Bu işdə köhnə dostumuz Süleyman Tatlıyevin, Azərbaycan Ticarət və Sənaye Palatası əməkdaşlarının böyük xidməti var. Mən sizin gözəl şəhəriniz Bakı haqqında çoxdan qəlbimdə olan hissləri də ifadə etməyi özümə rəva görərdim.

Dünyada elə xalqlar tapmaq çətindir ki, etnos, dil və din arasındakı bütün fərqlərə baxmayaraq, öz mövcudluğunun bütün tarixi ərzində belə dost və mehriban qonşu olsunlar. Biz 1918-ci il mayın 26-da ilk dəfə Gürcüstanı müstəqil respublika elan etdikdən iki gün sonra, Fətəli Xan Xoyski və onun silahdaşları Tbilisidə müstəqil Azərbaycan Respublikasını elan etdilər. Bizim həmyerlimiz Əlimərdan bəy Topçubaşov isə Azərbaycan parlamentinin ilk sədri oldu.

Dərk etmək bizə xoşdur ki, Azərbaycanın tarixinin, elm və mədəniyyətinin bəzi əlamətdar hadisələri Gürcüstanla bağlıdır, eləcə də Gürcüstanın bir çox görkəmli xadimləri Azərbaycanla bağlıdırlar. Zati-aliləri, Siz və Gürcüstan prezidenti Eduard Şevardnadze ən parlaq siyasi liderlərdənsiniz. Millətin və dövlətin mənafelərini GUÖAM-ın əhatə etdiyi regionda iqtisadi siyasətlə və inteqrasiya prosesləri ilə necə əlaqələndirməyi Sizin timsalınızda öyrənə bilərik. Sizin təşəbbüsünüzlə başlanmış Bakı–Tbilisi–Ceyhan və Böyük İpək Yolu kimi

qlobal dövlətlərarası layihələrin gerçəkləşdirilməsi ölkələrimizin iqtisadiyyatına dinamika verəcək və xalqlarımızın həyatını dəyişdirəcəkdir.

Gürcüstan bu tarixi proseslərdə Sizin rolunuzu xüsusi qiymətləndirir. Zati-aliləri, diqqətə görə və belə mötəbər görüşdə çıxış etmək üçün verilmiş imkana görə Sizə, ev sahiblərinə, burada olanların hamısına bir daha təşəkkürümü bildirirəm.

**Viktor Yanovski** (*Ukrayna Ticarət və Sənaye Palatasının birinci vitse-prezidenti*): Çox hörmətli Heydər Əliyeviç, hər şeydən öncə, dövlət fəaliyyətinizlə bağlı iş cədvəlinizin çox gərgin olmasına baxmayaraq, bizə vaxt ayırdığınıza və Sizinlə görüşmək imkanına görə mən də Ukrayna nümayəndə heyəti adından təşəkkür etmək istərdim.

Buraya bizim üçün çox maraqlı və mühüm simpoziumun – GUÖAM ölkələri arasında əməkdaşlığa həsr olunmuş və belə əməkdaşlığa maraq göstərən digər ölkələrin də cəlb edildiyi simpoziumun işində iştirak üçün Azərbaycan Ticarət və Sənaye Palatasının dəvəti ilə gəlmişik. Bizi Azərbaycanın Ticarət və Sənaye Palatası ilə çoxdan sıx dostluq telləri bağlayır. Əməkdaşlıq haqqında sazişimiz var və ilk növbədə işgüzar iqtisadi informasiya mübadiləsi aparırıq. Bu isə sahibkarlarımıza daha sıx əlaqələr yaratmağa kömək edir.

Bakıda biz – çoxumuz buraya ilk dəfə gəlmişik – Azərbaycanda iqtisadi vəziyyətin real sürətdə yaxşılaşdığının, sənaye istehsalının artdığının, xalqın rifahının yüksəldiyinin şahidi olduq.

Biz görürük ki, Azərbaycan iqtisadiyyatına sərmayələr, o cümlədən xarici sərmayələr qoyulur və bu, Azərbaycan prezidentinin müəyyənləşdirdiyi xəttin təsdiqinə və həyata keçirilməsinə əyani sübutdur.

Hörmətli Heydər Əliyeviç, görkəmli dövlət xadimi kimi, ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə şəxsən böyük töhfə verən insan kimi, Ukraynada Sizə dərin ehtiram bəsləyir, hörmət edirlər. Ukrayna prezidenti Leonid Daniloviç Kuçma ilə şəxsi dostluğunuzu da yüksək qiymətləndirirlər. Dövlətlərin prezidentləri dostluq edirlərsə, təbii olaraq, nəinki Azərbaycanın və Ukraynanın, həm də ümidvaram ki, digər bütün üzv ölkələrin ticarət–sənaye palatalarının prezidentləri də dostluq edirlər. Regionumuzda əməkdaşlığı gücləndirmək üçün, biznesin yeni imkanlarını axtarmaq üçün ticarət və sənaye palatalarının nə edə biləcəklərini aşkara çıxarmağı qarşısına başlıca vəzifə qoyan simpoziumumuz da məhz bu cür dostluq və əməkdaşlıq mühitində keçdi. Müstəqilliyimizin 10 ili ərzində bir çox əlaqələr itirildiyindən onları bərpa etmək və eyni zamanda yeni iqtisadi əlaqələr yaratmaq lazımdır. Əlbəttə, ona görə də ticarət və sənaye palatalarının rolu informasiya mübadiləsində sahibkarlara hər cür kömək etməkdən, sərgi fəaliyyətində də, müxtəlif sertifikatlar – o cümlədən malların hərəkətinə dair – verilməsində də bütün mümkün xidmətlər və bir çox digər xidmətlər göstərilməsindən ibarətdir.

Dünya təcrübəsi təsdiqləyir ki, 1999-cu ildə Parisdə özünün 400 illiyini qeyd etmiş ticarət və sənaye palatalarının çox böyük əhəmiyyəti var. Qeyri dövlət təşkilatları olan, bununla yanaşı, sahibkarların mənafelərini təmsil edən palatalar hakimiyyət orqanlarının tərəfdaşlarıdır. Öz növbəsində bir çox ölkələrdə, o cümlədən Azərbaycanda hakimiyyət orqanları palataların fəaliyyətini dəstəkləyir, ticarət və sənaye palataları haqqında qanunlar qəbul edirlər. Şadıq ki, ölkəmizdə də Ticarət və Sənaye Palatası haqqında qanun var və o, dövlət iqtisadiyyatında təşkilatımızın statusunu müəyyənləşdirir. Bizim simpoziumun iştirakçıları ticarət-sənaye palatalarının əlaqələndirici orqanının – ölkələrimizin işgüzar dairələrinə yardım göstərilməsi sahəsində təşkilatlarımızın razılaşdırılmış fəaliyyətinə kömək edə biləcək orqan yaradılmasının zəruriliyini də bildirdilər. Ümidvarıq ki, belə bir orqan yaradıldıqdan sonra o, GUÖAM-da bu əməkdaşlıq çərçivəsində yaradılacaq digər əlaqələndirmə orqanları ilə sıx ünsiyyətdə işləyəcəkdir.

İcazə verin, diqqətə və çıxış etmək imkanına görə Sizə bir daha təşəkkürümü bildirim.

**Georgi Kuku** (*Moldova Ticarət Palatasının prezidenti*): Zati-aliləri, çox hörmətli Heydər Əliyeviç, bizim simpozium, işimiz başa çatdıqdan sonra Sizinlə görüşmək şəxsən mənim üçün, zənnimcə, burada olanların hamısı üçün də böyük şərəfdir. Demək istəyirəm ki, ticarət-sənaye palatalarının çoxtərəfli əlaqələri var, biz müxtəlif forumlarda görüşürük. Lakin Sizin hökumətin, xüsusən Azərbaycan Ticarət və Sənaye Palatası prezidentinin köməyi ilə burada, Azərbaycanda təşkil edilmiş belə forum, belə səmərəli, ciddi işi indiyədək olmayıbdır.

Biz fəaliyyətimizin bir çox məsələlərini və GUÖAM çərçivəsində gələcək işimizlə bağlı məsələləri iki gün ərzində, həqiqətən, səylə və çox ciddi şəkildə müzakirə etdik. Çox maraqlı təkliflər verildi, çoxlu mülahizələr söylənildi. Biz bunların hamısını götür-qoy etdik və görünür, sənədlər üzərində hələ xeyli işləməli olacağıq.

Çox hörmətli Heydər Əliyeviç, mən, bizim hamımız buradan Azərbaycan haqqında, ölkənizdə baş verən dəyişikliklər barədə səmimi, yaxşı təəssüratlarla ayrılırıq. Keçmiş prezidentimiz Luçinski buraya gələrkən mənə onun rəsmi nümayəndə heyətində olmaq şərəfi nəsib olmuşdur. Nə qədər irəlilədiyinizi, xarici və daxili siyasətdə nə qədər düzgün, müdrik addımlar atdığınızı görürəm. Hər şeyə görə, bu simpoziumun təşkilinə görə Sizə təşəkkürümü bildirmək və Sizi əmin etmək istəyirəm ki, ticarət-sənaye palataları GUÖAM-ın siyasətinin həyata keçirilməsində yol yoldaşı olacaqdır.

**Müzəffərbəy Sabirov** (*Özbəkistan İstehsalçılar və Sahibkarlar Palatasının prezidenti*): Hörmətli cənab Prezident, Sizin gözəl şəhərinizdə olmağıma və burada Özbəkistan sahibkarlarını təmsil etməyimə çox

şadam. Düşünürəm ki, bugünkü forum bütün GUÖAM ölkələrində və simpoziumun işində bilavasitə iştirak etmiş ölkələrdə biznesin inkişafına təkan verəcəkdir. Mənimlə birlikdə Özbəkistan sahibkarları da gəlmişlər. Onlar burada fəal işlədilər və elə indi də işləyirlər. Zənnimcə, bu nəticələr Özbəkistan iqtisadiyyatının inkişafı üçün yaxşı zəmin yaradacaqdır.

Özbəkistanda güclü inkişaf prosesi gedir. Siz yəqin ki, bunu müşahidə edirsiniz. Bu, dünən bölmə iclaslarında da qeyd olundu. Zənnimcə, bu, GUÖAM-ın üzvü olan bütün ölkələr üçün, bilavasitə Azərbaycan üçün qarşılıqlı surətdə faydalı olacaqdır. Bildiyiniz kimi, bizim öz limanımız yoxdur. Bir çox mallar Xəzərdəki liman vasitəsilə idxal və ixrac edilir və bu əməkdaşlıq qarşılıqlı surətdə faydalı olacaqdır.

Biz həmkarlarımızla birlikdə rəsmi məlumat qəbul etdik. Sənəddə malların bu nəqliyyat arteriyası ilə hərəkətinə maneələrin aradan götürülməsi üçün və bu mexanizmin bu gün bizim hamımıza bağışlanmış saat kimi ahəngdar işləməsi üçün öz ölkələrimizin hökumətlərinə müraciət var. Biz öz ölkələrimizin iqtisadiyyatının inkişafına xidmət edəcəyik, cənab Prezident, Sizə isə müstəqil Azərbaycanın rifahı naminə işinizdə uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Əvvəla, çoxməzmunlu çıxışlara görə təşəkkür edirəm. Mənə elə gəlir ki, bu çıxışlar təkcə burada olanların deyil, simpoziumun bütün iştirakçılarının da rəyini ifadə edir. Şadam ki, siz simpoziumun keçirilməsi faktından və görülmüş işdən razısınız. Ən başlıcası budur. Çünki hər hansı iş fayda gətirməlidir, formal xarakter daşımamalıdır. Bütün bu çıxışlardan belə başa düşdüm ki, tədbiriniz məhz belə olmuşdur. Burada təmsil olunan ölkələrin ticarət-sənaye palataları arasında daha sıx əlaqələr yaranmasının çox böyük əhəmiyyəti var. Mən belə başa düşdüm ki, bunun təşəbbüsçüsü GUÖAM ölkələrinin – Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın ticarət və sənaye palatalarıdır. Bununla bərabər, Şərqi Avropanın bir çox ölkələrinin və Baltikyanı dövlətlərin nümayəndələri bu simpoziumda eyni hüquqla iştirak etmişlər. Mən bunu tamamilə qanunauyğun, təbii hal sayıram, çünki regionlarımız bir-biri ilə çox sıx bağlıdırlar. Əlbəttə, dünyanın bütün ölkələri ilk növbədə öz iqtisadiyyatını inkişaf etdirməyə, möhkəmlətməyə və öz xalqlarının rifahını yüksəltməyə çalışırlar. Bu isə dünya iqtisadiyyatı sisteminə inteqrasiya vasitəsilə, mal dövriyyəsi vasitəsiylə və digər vasitələrlə baş verir.

Müstəqilliyinə bu yaxınlarda, on il əvvəl qovuşan ölkələrimiz mürəkkəb bir dövr yaşayır. Çünki biz bir sosial-iqtisadi, siyasi sistemdən digərinə keçirik. Amma bəzən kimlərsə deyir ki, bu keçid dövrü çox uzun çəkdi. Əlbəttə, onlar yanılırlar. Ona görə ki, 70 il ərzində sosialist iqtisadiyyatı şəraitində, kommunist ideologiyası şəraitində, bütün xarici aləmdən təcrid olunmuş şəraitdə yaşamış ölkələr indi, müstəqillik qazandıqdan sonra öz aralarındakı, keçmişdə Sovetlər İttifaqının tərkibinə daxil olmuş respublikalar arasındakı iqtisadi inteqrasiya əlaqələrini itirdiklərinə görə, əlbəttə, bir-iki ilin içində müstəqil, suveren dövlətlərini qura bilməzlər, öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirmək üçün iqtisadi islahatlar, digər islahatlar – həm siyasi, həm hüquqi, həm də ictimai-siyasi islahatlar apara bilməzlər. Bundan ötrü vaxt lazımdır.

Mən şadam ki, Sovetlər İttifaqının süqutundan sonra müstəqillik əldə edən ölkələrimizdən hər biri bu on ildə böyük yol keçmişdir. Bu, nümayəndələri burada iştirak edən keçmiş sovet respublikalarının da, Sovetlər İttifaqının tərkibinə daxil olmasalar da, sosialist iqtisadiyyatı qanunları və kommunist ideologiyası ilə yaşamış Şərqi Avropa ölkələrinin də timsalında aydın görünür. Şərqi Avropa ölkələrinin üstünlüyü, sadəcə olaraq, bundadır ki, onlar müstəqil dövlət idilər, biz isə yox. Amma onlar da, biz də kommunist ideologiyası şəraitində, sosialist iqtisadiyyatı şəraitində, ümumiyyətlə, sosializmin tələb etdiyi şəraitdə yaşayırdıq. Ona görə də fərq böyük deyildir, ancaq, hər halda, var. Sovetlər İttifaqına daxil olmuş ölkələrimiz barəsində də, o vaxtlar Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) və hərbi ittifaqdan danışsaq, Varşava müqaviləsinə daxil olmuş ölkələr barəsində də deyirəm ki, biz eyni bir yol keçirik.

Hesab edirəm ki, bu müddət ərzində biz Azərbaycanda böyük yol keçmişik. Əgər Azərbaycanın müstəqilliyə qovuşduğu dövrdə qonşu Ermənistanla müharibə vəziyyətində olduğunu nəzərə alsaq, Azərbaycan ərazisinin bir hissəsinin hətta Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini, sonrakı hərbi əməliyyatların da, Azərbaycan ərazisinin ümumən 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalına və oradan bir milyondan artıq azərbaycanlının qovulmasına gətirib çıxardığını nəzərə alsaq, onda görərsiniz ki, biz öz müstəqil dövlətimizi hansı şəraitdə qururuq, islahatları nə kimi şəraitdə keçiririk.

Deyilənlərə onu da əlavə etmək lazımdır ki, Azərbaycan hərbi münaqişə vəziyyətində idi və indi də bu vəziyyətdədir. Doğrudur, indi hərbi əməliyyatlar yoxdur. Azərbaycanda daxili siyasi vəziyyət çox mürəkkəbləşmişdi. Burada hakimiyyət bir neçə dəfə dəyişmişdi, dövlət çevrilişi cəhdləri olmuşdu və s. Ona görə müstəqilliyimizi 1991-ci ilin axırlarında əldə etsək də, Azərbaycanda iqtisadiyyatın inkişaf etdirilməsinə, adamların həyatının yaxşılaşdırılmasına və islahatlar aparılmasına, əslinə qalsa, yalnız 1995-ci ildə normal surətdə başlamışıq. 1991-ci ildən 1995-ci ilin axırlarını, daha dəqiq desək, 1996-cı ilədək olan dövrü nəzərdə tuturam – bizim üçün çox ağır olmuşdur. Biz müharibəni dayandırmalı idik, onu dayandırdıq. Biz burada gah bu, gah da digər qruplara xidmət edən, hakimiyyət uğrunda mübarizə aparan qanunsuz silahlı dəstələri tərksilah etməli idik. Bir neçə silahlı dövlət çevrilişi cəhdini, bir neçə terror cəhdini və xüsusən Azərbaycan prezidentinə qarşı terror

cəhdini dəf etməli idik. Biz bunların hamısını edə bildik. Başlıcası isə, öz dövlət müstəqilliyimizi qoruyub saxlaya bildik. Bu ən önəmlisidir. O illərdə isə Azərbaycanın dövlət müstəqilliyi ciddi təhlükə qarşısında idi. Biz bu mərhələni keçdik. İndi siz Azərbaycanda çox yaxşı, sakit ictimai-siyasi vəziyyət görürsünüz. Yəqin ki, bu günlərdə şəhəri görmək imkanınız oldu, axşam və hətta gecə Bakı şəhərində gəzə bildiniz. Halbuki, vaxt var idi, burada axşam saat 7-dən sonra heç kim öz mənzilindən bayıra çıxmırdı, çünki çoxlu qanunsuz silahlı dəstələr var idi, onlar avtomat, tapança və s. ilə silahlanaraq reketlə, bir çox digər cinayətkar əməllərlə məşğul olurdular.

Ötən illər ərzində biz iqtisadi islahatlar apara bildik, çoxlu sərmayə, xüsusən energetika sektorumuz üçün sərmayə ala bildik. Dünyanın bir çox neft şirkətləri ilə iqtisadi əlaqələr yarada bildik. İndi burada dünyanın 32 ən iri şirkəti ölkəmizin, xüsusən Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsində bizimlə birlikdə iştirak edir. Bütün bunlar və iqtisadiyyatın yenidən qurulması son illər bizə iqtisadiyyatı dirçəltmək, daxili ümumi məhsulu, sənaye istehsalını, kənd təsərrüfatı istehsalını artırmaq imkanı verir. Məsələn, bizdə özəlləşdirmə çox uğurla gedir. Torpaq islahatı aparmışıq və demək olar, bütün torpaqları kəndlilərə paylamışıq. İndi bütün kənd təsərrüfatı məhsulunun 98 faizi özəl sektordan götürülür. Biz daha pambığı, üzümü necə əkib-becərməklə məşğul olmuruq.

Bunu ona görə deyirəm ki, keçmiş vaxtlarda mən burada Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi idim və daha çox bu işlə məşğul olurdum. Səpini necə aparmalı, məhsulu necə yığmalı, hər toyuqdan neçə yumurta almalı – yəqin siz bunların hamısını xatırlayırsınız, axı Sovetlər İttifaqında yaşamısınız. Artıq indi adamlar özəl mülkiyyətə öyrəşiblər. Xüsusən də kənd yerlərində, çünki onlar torpaq almışlar. Bizdə mal-qaranın sayı olduqca çoxalmışdır, bütün kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Əlbəttə, bazar olmadığına görə bəzi gərəksiz məhsullar istehsalı azalmışdır. Bunun hesabına başqa məhsullar artmışdır. Məsələn, sovet hakimiyyəti illərində biz Ukraynadan, Belarusiyadan və Rusiyadan ət, ət-süd məhsulları gətirirdik. İndi isə bizdə belə problemlər yoxdur. Özümüzün mal-qaramız kifayət qədərdir, hətta ixrac etmək də olar.

Lakin bizim bir milyon qaçqınımız var, onların əksəriyyəti çadırlarda yaşayır. Bu bizim üçün çox ağır yükdür. Əgər bu olmasaydı, əgər 7-8 il əvvəl işğal edilmiş bərəkətli torpaqlarımız məhz bu adamların ixtiyarında olsaydı, biz daha böyük nəticələr əldə edərdik. Əvvəla, biz bu torpaqlardan hələ istifadə edə bilmirik. İkincisi isə, bu torpaqlardan qovulmuş insanlar istədikləri kimi işləyə bilmirlər, çünki onların işləmək üçün lazımi şəraiti yoxdur. Axı çadırlarda yaşayırlar.

Buna baxmayaraq, tikinti işləri aparılır. Məsələn, Bakıda evlər tikilir, özü də onları biz tikmirik, özəl sektor tikir. İndi biz yaşayış evləri və ya inzibati binalar tikmək iqtidarında deyilik. Üstəlik, şərait də dəyişmişdir. Əvvəllər biz olduqca çox yaşayış evi tikir və onları adamlara pulsuz paylayırdıq. İndi isə, əvvəla, bizim belə imkanımız yoxdur. İkincisi, indi bazar iqtisadiyyatıdır. Lakin səciyyəvi haldır ki, xarici sərmayəçilər də, yerli biznesmenlərimiz də 12 mərtəbəli, 14 mərtəbəli evlər tikir və mənzilləri satırlar. Bu mənzilləri alırlar.

Bəzən düşünürəm ki, iqtisadi vəziyyət, adamların rifahı, həqiqətən lazımi səviyyədə deyildir. Bu, doğrudan da belədir. Bizdə yoxsullar da var. İndi biz BMT ilə birlikdə yoxsulluğun aradan qaldırılmasına dair proqram işləyib hazırlayırıq. Bizdə işsizlər çoxdur. Ona görə ki, Azərbaycanda iri sənaye müəssisələri vardı, indi isə həmin sənaye müəssisələri nəinki tam gücü ilə işləyə bilmir, hətta cəmi 20 faiz gücü ilə işləyir. Vaxtilə 10 min adamın çalışdığı boruyayma zavodunda indi  min adam işləyir. Gördüyünüz kimi, böyük fərq var. Onların çoxu işsizdir. Şübhəsiz ki, bütün bunlar sosial gərginlik yaradır.

Buna baxmayaraq, biz özəl biznesə yol açmışıq, bazar iqtisadiyyatı yolu ilə gedirik. Öz biznesmenlərimiz, mülkiyyətçilərimiz meydana çıxmışdır, onların vəsaiti var, bizneslə məşğul olur, evlər tikirlər və artıq bəzi sənaye müəssisələri tikməyə başlamışlar. Deməliyəm ki, çox yaxşı, müasir müəssisələrdir. Lakin qarşımıza qoyduğumuz vəzifələrin yerinə yetirilməsinə nail ola bilməyimiz üçün hələ vaxt lazımdır. Məqsədimiz isə odur ki, müstəqil dövlətimiz bütün əhalinin, bütün vətəndaşların tələbatını ödəməli və inkişaf etməli, iqtisadi cəhətdən qabaqcıl ölkələrin səviyyəsinə çatmalıdır.

Bu baxımdan bizim enerji sektorunda işlər yaxşı gedir. Burada xarici şirkətlər işləyirlər. Əvvəla, onlar burada çoxdur, hər bir şirkətdə bizim də çoxlu adamlarımız çalışırlar. İkincisi isə, artıq nəticələr var. Biz birgə müqavilələrdən neft alırıq və bu nefti onlarla birlikdə satırıq, mənfəət götürürük. Gürcüstana Bakı–Supsa neft kəməri çəkmişik. O bizim dost respublikalarımızı birləşdirir. Biz artıq bütün işi görüb qurtarmışıq, tezliklə Bakı–Tbilisi–Ceyhan iri neft kəmərinin inşasına başlayacağıq. Ceyhan Türkiyədə, Aralıq dənizində limandır. Boru kəmərinin uzunluğu təxminən 2 min kilometrdir. Bu kəmərlə ildə təqribən 50–60 milyon ton neft vurulacaqdır. Əlbəttə, bundan böyük gəlir götürüləcəkdir. Amma bunun üçün vaxt keçməlidir. Ancaq perspektivlər yaxşıdır.

Bizim Ticarət və Sənaye Palatası bir ingilis firması ilə birlikdə hər il burada neft-qaz sərgisi keçirir. Mənə dedilər ki, indiyədək çoxlu sifariş alınmışdır. Nə qədər firma iştirak edəcəkdir?

**S ü l e y m a n  T a t l ı y e v:** 15 ölkədən təxminən 300 firma.

**H e y d ə r Ə l i y e v:** Biz bu sərgini hər il iyunda keçiririk. Bu, beynəlxalq sərgidir, çox ölkələr iştirak edir, bir çox neft və qaz şirkətləri öz işlərini nümayiş etdirirlər. Sərgi artıq ənənəyə çevrilmişdir və 8 ildir keçirilir. Bu, böyük hadisədir. Odur ki, mən gələcəyin çox yaxşı olacağını görürəm. Bu gün də nəticələr var. Amma istərdim ki, daha çox olsun.

Bütün bunlarda isə iqtisadi inteqrasiya çox mühüm yer tutur. Ticarət və sənaye palataları məhz elə orqandır ki, onlar hər bir ölkənin digər ölkə ilə iqtisadi əlaqələrdən fayda götürməsi üçün, təbii olaraq, öz iqtisadi vəziyyətini yaxşılaşdırması üçün çox işlər görə bilərlər. Ona görə də sizin buraya toplaşmağınız, fikir mübadiləsi aparmağınız, bir-birinizi görməyiniz, bir-birinizlə şəxsən tanış olmağınız çox önəmlidir. Mənim üçünsə çox önəmlidir ki, siz xalqımızla, respublikamızla, şəhərimizlə tanış oldunuz. Bu, mühüm hadisədir. Mən buna şadam və sizə, əvvəla, uğurlar diləyirəm. İkincisi, burada təmsil olunmuş ölkələrin ticarət-sənaye palataları arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsini, üçüncüsü isə, təmsil etdiyiniz hər bir xalqa, hər bir ölkəyə bu keçid dövrünün çətinliklərini tezliklə aradan qaldırmağı, ayaq üstündə möhkəm durmağı və inkişaf etməyi arzulayıram. Hesab edirəm ki, burada təmsil olunmuş ölkələrin hər birinin buna imkanları var.

Burada Böyük İpək Yolundan danışdılar. Bu, həqiqətən, epoxal əhəmiyyətli proqramdır. Axı Böyük İpək Yolu orta əsrlərdə çox böyük rol oynamışdır. İndi, Avropa Birliyinin bu işə girişdiyi və TRASEKA proqramını irəli sürdüyü, sonra da Böyük İpək Yolunun bərpasına dair hamımız birlikdə proqram irəli sürdüyümüz vaxtda isə bunun nə kimi nəticələr verdiyini bilirik. Özbəkistan nümayəndəsi çıxış etdi və indi onlarda yolun nə qədər qısaldığından və təbii olaraq, daşımaların dəyərinin xeyli azaldığından danışdı. Artıq onlar öz yüklərini bu yolla daşıyırlar.

Bu, yalnız başlanğıcdır. 1998-ci ildə biz burada geniş konfrans – Böyük İpək Yolunun bərpasına dair ilk beynəlxalq konfrans keçirdik. Konfransda Yaponiya və Çindən tutmuş, Avropada İspaniyaya qədər 32 ölkə təmsil olunmuşdu. 15 beynəlxalq təşkilat saziş imzaladı, bu təşkilatın daimi katibliyi var, o, Bakıda yerləşir. Bu da çox perspektivli proqramdır. Yeri gəlmişkən, mən burada Bolqarıstan, Rumıniya və başqa ölkələrin nümayəndələrini görürəm. Bolqarıstan, Rumıniya prezidentləri də burada idilər. Biz bu konfransı birlikdə keçirdik.

Bir sözlə, böyük imkanlar açılıbdır. Bu imkanlardan səmərəli istifadə edilməsi ilə çox fəal məşğul olmalıyıq. Sizə cansağlığı arzulayıram. Xahiş edirəm, mənim ən xoş arzularımı xalqlarınıza, dövlətlərinizə və ölkələrinizin prezidentlərinə yetirəsiniz. Görüşə görə sağ olun. Xudahafiz.

## ATƏT-in MİNSK QRUPUNUN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAN OLAN HƏMSƏDRİ KERİ KAVANO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*5 may 2001-ci il*

**H e y d ə r   Ə l i y e v:** Hörmətli cənab Kavano, mən sizi Azərbaycanda yenidən görməkdən çox məmnunam. Sizinlə bizim aramızda, yəni Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında çox yaxşı dostluq münasibətləri yaranıbdır. Amma bu məsələlərin həllində siz bilavasitə Amerika Birləşmiş Ştatlarını təmsil edirsiniz. Ona görə də bizim şəxsi əlaqələrimizin də böyük əhəmiyyəti var.

Ki-Uest danışıqlarından az bir zaman keçibdir. Siz bizə gözəl yerlər göstərdiniz. Eyni zamanda öz vətəninizi göstərdiniz. Mən bundan çox məmnunam. Çünki başqa bir vaxt belə yerləri görmək mümkün olmazdı. Hesab edirəm ki, doğrudan da biz çox gərgin, eyni zamanda səmərəli iş gördük. Ondan sonra prezident cənab Corc Buş ilə də görüşümüz çox böyük əhəmiyyət kəsb etdi. Ancaq o məsələni ki, biz sizinlə həll etmək istəyirik, bu, həddindən artıq mürəkkəb bir məsələdir. Ona görə bir dəfə, üç dəfə, beş dəfə, on dəfə müzakirə etməklə bu məsələni həll etmək çox çətindir.

Mən məmnunam ki, siz indi Bakıya gəlmisiniz. Bilirəm, sizin Avropada proqramınız çox böyükdür. Ancaq çox vacibdir ki, biz Ki-Uest danışıqlarının davamını müəyyən qədər apara bilək. Mən sizi bir də salamlayıram.

Mənə dedilər, gecə yol gəlmisiniz. Amma görünür ki, 12 saat yatmış adamsınız. Yəqin təyyarədə yaxşı yata bilmisiniz.

**K e r i   K a v a n o:** Cənab Prezident, bu xoş qəbulunuza görə Sizə təşəkkürümü bildirirəm. Mənim belə gümrah olmağım, görünür, Azərbaycana gələrkən burada qarşılaşdığım xoş münasibətdən doğur.

Sizin mənim vətənimə, ölkəmə, doğulduğum yerə gəlməyinizi çox məmnunluqla qarşıladım. Çox məmnun oldum ki, biz Floridada irəliyə doğru böyük tərəqqi əldə etdik. Hesab edirəm ki, oranın isti havası da bu işə yardımçı oldu.

**H e y d ə r   Ə l i y e v:** Bəli.

**K e r i   K a v a n o:** Görünür, dəniz kənarında yerləşən şəhərlərin özünəməxsus xüsusiyyəti var. O şəhərlərdə daha çox iş görmək, səmərəli işləmək mümkün olur.

**H e y d ə r   Ə l i y e v:** O cümlədən Azərbaycanda, Bakıda.

**K e r i   K a v a n o:** Çünki pəncərədən dənizə baxarkən orada üfüqü görürsən. Lakin üfüqün arxasında da hələ çox şeylərin olduğunu dərk edirsən, anlayırsan. Bu, adamı ona sövq edir ki, fikirləri daha çox gələcəyə yönəltsin.

İcazənizlə, Ki-Uest danışıqlarından sonra baş vermiş hadisələr barədə məlumat vermək istərdim. Baxmayaraq ki, bu danışıqlardan cəmi bir neçə həftə keçibdir, amma hadisələr barədə Sizi məlumatlandırmaq istəyirəm.

**H e y d ə r   Ə l i y e v:** Sizə deyim ki, mən Ki-Uestdə dənizə daha çox baxırdım. Mənim burada pəncərələrim dənizə baxır, amma bu iş otağımda oturarkən dənizə bir dəfə də baxa bilmirəm.

Güman edirəm ki, indi biz sizinlə Ki-Uestdən sonra görülən işlər haqqında ətraflı fikir mübadiləsi aparmalıyıq. Ona görə də mən mətbuat nümayəndələrinə təşəkkür edirəm.

## BÖYÜK BRİTANİYANIN *bp* ŞİRKƏTİNİN ÖLKƏMİZDƏ HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏRİN TƏQDİMAT MƏRASİMİNDƏ SÖHBƏT

*Prezident sarayı*

*7 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** *bp*-nin başçısı cənab Vudvord Azərbaycanda artıq uzun müddətdir işləyən *bi-pi* və onun ətrafında birləşmiş konsorsiumun fəaliyyəti haqqında, bu gün bizim ölkəmizdə görülən və gələcəkdə görüləcək işlər haqqında məlumat vermək istəyir. Bir az başqa cür desək, gördükləri işləri təqdim etmək istəyirlər. Mən bundan çox məmnunam.

Məlumdur ki, gedən bu işlər daim bizim nəzarətimiz altındadır. Biz bunları bilirik. Ancaq bunun yığcam şəkildə təqdim olunması, bizə məruzə edilməsi, eyni zamanda gələcəkdə nə vaxt, hansı işlər görüləcək, nə nəticələr əldə olunacaq – bunların bu gün həm bizim üçün, həm də ictimaiyyət üçün açıqlanması çox əhəmiyyətlidir. Ona görə də mən *bp*-nin bu təklifini qəbul etdim və sizi bu məqsədlə buraya dəvət etmişəm. Cənab Vudvorda söz verirəm və yəqin ki, sonra bəzi suallar, dəqiqləşdirmələr ola bilər.

**D e v i d V u d v o r d** ( *bp şirkətinin Azərbaycandakı baş təmsilçi prezidenti*): Cənab Prezident, mən və həmkarlarım çox böyük məmnuniyyət hissi ilə bu imkandan istifadə edərək, Azərbaycanda gördüyümüz işlər haqqında Sizə dəqiq məlumat vermək istəyirik. Həmçinin bizim həyata keçirdiyimiz layihələr çərçivəsində gələcək planlarımız haqqında da Sizə tam məlumat vermək istəyirik.

Cənab Prezident, biz təqdimata başlamazdan əvvəl, icazə verin, ilk öncə Sizi və Azərbaycan xalqını qarşıdakı iki böyük, mühüm hadisə münasibətilə təbrik edim, təbriklərimi çatdırım. Bunlardan birincisi, Qələbə günüdür, ikincisi isə, cənab Prezident, Sizin ad gününüzdür.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

**D e v i d V u d v o r d:** Cənab Prezident, təqdimatımızın mövzusu ondan ibarətdir ki, Azərbaycanda həyata keçirdiyimiz layihələr yeni mərhələyə qədəm qoymaq ərəfəsindədir. Bununla əlaqədar Azərbaycandakı işlərimiz o qədər genişlənəcək ki, bu vaxta qədər həyata keçirdiyimiz ilkin neftin çıxarılması layihəsi ilə müqayisə etsək, onda bu, indiyə qədər görülmüş işlərdən on dəfə çox, genişmiqyaslı bir fəaliyyət olacaqdır. Bu işlərin uğuru üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə, dövlət və hökumət idarələri ilə məhz sıx əməkdaşlığımız layihələrin vaxtında, cədvəl üzrə həyata keçirilməsi üçün çox mühüm əhəmiyyət kəsb edir.

Cənab Prezident, indi isə icazənizlə, təqdimatımıza başlayaq. Bunun bir nüsxəsi ekranda göstəriləcək. Bir nüsxəsi də Sizin qarşınızdadır.

Birinci slaydımız mənim indicə Sizin nəzərinizə çatdırmaq istədiyim məsələni əhatə edir. Yəni layihələrimiz elə bir mərhələyə qədəm qoyur ki, burada çox geniş, dünya miqyaslı nəhəng tikinti işləri başlayacaqdır.

Cənab Prezident, üzümüzə gələn 12 ay ərzində işlərimiz elə bir miqyası əhatə edəcək ki, həyata keçirdiyimiz layihələr üzrə təxminən 8-9 milyard dollar sanksiya verəcəyik. Ona görə də bu cür irimiqyaslı, nəhəng layihələrin həyata keçirilməsi üçün, bizim işimizin Sizə deyəcəyimiz cədvəl üzrə irəliləməsi üçün dövlət və hökumət idarələri ilə yaxından əməkdaşlığımız, həmçinin onların yaxın dəstəyi çox mühüm əhəmiyyət kəsb edir.

**H e y d ə r Ə l i y e v:** Xahiş edirəm, bir dəqiqə dayanın.

Siz bu birinci cədvəldən ümumi məlumat verdiniz. Mənim də qarşımda, təbiidir ki, orada yazılanlar var. Mən bunları da görürəm. Amma yaxşı olardı ki, siz bunu bir az detallaşdıraydınız. Məsələn, burada yazmısınız ki, dünya miqyaslı nəhəng tikinti işləri. Bunu dediniz. «Şahdəniz»: Hasilat və boru kəməri 2,5 milyarddan 2,7 milyarda qədər. Bu çox vacibdir. «Azəri»–«Çıraq»–«Günəşli» – birinci mərhələdə 6 milyarddan 6,5 milyarda qədər. Qalanları isə, təbiidir, qərarların vaxtında təsdiq edilməsi, layihələrin uğurla həyata keçirilməsi üçün lazımi dəstək, filan. Bunlar məlumdur. Ona görə xahiş edirəm, bu rəqəmləri öz nitqinizdə söyləyəsiniz, hamı bilsin.

**D e v i d V u d v o r d:** Cənab Prezident, bu, yalnız giriş slaydı idi. Niyyətimiz bu idi ki, girişdən sonra həmin rəqəmlər, layihələr üzərində təfərrüatı ilə, ətraflı şəkildə dayanaq. Bunları bildirdikdən sonra əgər Sizin sualınız olarsa, yenidən söhbətə qayıda bilərik.

**H e y d ə r Ə l i y e v:** Yaxşı.

**D e v i d V u d v o r d:** Əgər nəsə lazımi təfərrüatlı məlumat olmasa, onda əminəm ki, Siz suallar verəcəksiniz və biz mütləq izah edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Razıyam.

**D e v i d   V u d v o r d:** Cənab Prezident, növbəti slaydda görülmüş işlərimiz çərçivəsində əsas addımları nəzərinizə çatdırırıq. Sözsüz ki, Siz bunların hamısını çox gözəl bilirsiniz. Bu, 1994-cü ildə «Azəri»–«Çıraq»–«Günəşli» yataqları üzrə hasilatın pay bölgüsü müqaviləsinin imzalanmasından başlayır. 1996-cı ildə «Şahdəniz» yatağı üzrə müqavilənin, sonra isə alqı-satqı sazişinin imzalanması, Bakı–Tbilisi–Ceyhan üzrə sazişlərin imzalanmasıdır. Sonuncu isə «Şahdəniz» üzrə Türkiyə ilə imzalanmış qaz alqı-satqı sazişidir ki, bu da cari ilin mart ayında əldə olundu. Bu gün hər üç layihəmiz üzrə – Bakı–Tbilisi–Ceyhan, «Azəri»–«Çıraq»–«Günəşli» və «Şahdəniz» üzrə gələcək planlarımızı açıqlayacağam.

Cənab Prezident, aşağıdakı cədvəldə bu layihələr üzrə irəliləyiş planını nəzərə çatdırırıq. Bakı–Tbilisi–Ceyhan üzrə iyun ayının ortasında biz ətraflı, müfəssəl mühəndis-layihə işlərinə başlayacağıq. Bu bizə imkan verəcək ki, gələn ilin ortasında sanksiya verilsin və Bakı–Tbilisi–Ceyhanın tikintisinə başlayaq. Əgər gələn ilin ortasında tikinti başlanarsa, onda 2004-cü ildə həmin layihə üzrə tikilmiş boru kəməri istifadəyə verilə bilər.

«Azəri»–«Çıraq»–«Günəşli»nin birinci fazası üzrə tikinti üçün bu ilin iyul ayında sanksiya veriləcəkdir. Həmin layihənin birinci faza üzrə aparılan tikinti işləri təxminən 2004-cü ildə başa çatacaqdır və qurğular istifadəyə veriləcəkdir.

Əgər hazırda Gürcüstan tərəfi ilə aparılan danışıqlar vaxtında başa çatarsa və lazımi sazişlər əldə olunarsa, sonra isə Azərbaycanla müvafiq sazişlər vaxtında əldə edilərsə, «Şahdəniz»in müfəssəl mühəndis-layihə işləri üzrə sanksiya bu il verilə bilər. Torpaq alınması məsələsi vaxtında, bu ilin sonunda başa çatarsa, yəni bu işləri bu il tamamlasaq, onda «Şahdəniz» üzrə tikinti işləri gələn ilin əvvəlindən başlaya bilər. Mənim həmkarım Qordon Birrel indi Sizə «Şahdəniz» layihəsi haqqında daha ətraflı məlumat verəcəkdir.

**Q o r d o n   B i r r e l** *(«bp Eksploreyşn»in Azərbaycan üzrə prezidenti, «Şahdəniz» layihəsinin rəhbəri)*: Cənab Prezident, icazənizlə, ötən bir neçə il ərzində «Şahdəniz» layihəsi çərçivəsində əldə olunmuş bir sıra nailiyyətlərimizi nəzərinizə çatdırmaq istəyirəm. Cənab Devidin dediyi kimi, «Şahdəniz» üzrə hasilatın pay bölgüsü müqaviləsi 1996-cı ildə imzalanmışdır. «İstiqlal» qazma qurğusu modernləşdirilmiş və bu iş başa çatdıqdan sonra həmin qazma qurğusundan 1999-cu ildə açılmış qaz-kondensat yatağının kəşfi üçün istifadə olunmuşdur.

*bp* və onun «Şahdəniz» üzrə tərəfdaşları bu ilin mart ayında kəşfiyyat işlərini başa çatdırmışlar. Cənab Prezident, həmçinin bu il Sizin dəstəyinizlə Türkiyə ilə Azərbaycan arasında qaz alqı-satqı sazişi imzalanmışdır. «Şahdəniz» çərçivəsində ilkin mühəndis-layihə işləri üzümüzə gələn bir neçə ay ərzində başa çatdırılacaqdır.

Cənab Prezident, gördüyünüz bu slayd «Şahdəniz»in birinci mərhələsi çərçivəsində hasilat üçün istifadə olunacaq qurğuları göstərir. Burada bəzi təfərrüatları Sizin nəzərinizə çatdırmaq istəyirəm.

«Şahdəniz» yatağı bir neçə mərhələdə istismar olunacaq, işləniləcəkdir. Bu yalnız birinci mərhələni əhatə edir. Biz birinci mərhələdə yatağın şərq cinahında tikiləcək platformadan istifadə edəcəyik. Bu platforma suyun 100 metr dərinliyində tikiləcəkdir. Həmin platformanı Səngəçal terminalı ilə yeni tikiləcək 2 boru kəməri birləşdirəcəkdir. Sonrakı mərhələdə isə bəzi sualtı işlər görüləcək ki, platformanı stasionar platformaya çevirsin.

Cənab Prezident, bu slaydda «Şahdəniz» qazının ixracı üçün istifadə olunacaq boru kəmərlərinin sxemini təqdim etmişik. Bu qazı ixrac etmək üçün hazırda Azərbaycanda mövcud olan qaz kəmərinə paralel olaraq yeni boru kəməri tikiləcək və bunun vasitəsilə qaz Azərbaycan–Gürcüstan ərazilərindən Türkiyəyə çatdırılacaqdır. Tikiləcək yeni boru kəmərinin uzunluğu 700 kilometrdir. Bu, boru kəmərinin Gürcüstan sərhədinə qədər olan hissəsidir. Türkiyə hissəsini isə Ərzuruma qədər «Botaş» şirkəti tikəcəkdir.

Cənab Prezident, «Şahdəniz» çox böyük, həm də çox çətin layihədir. Növbəti slaydda biz məhz bu il ərzində həyata keçirəcəyimiz əsas tədbirləri göstərmişik. Bu addımlar imkan verəcək ki, «Şahdəniz» qazını hasil edək və göstərildiyi kimi, təxminən 2004-cü ildə ilk qazı Türkiyəyə çatdıra bilək. Azərbaycan Dövlət Neft Şirkətindəki həmkarlarımızla birlikdə biz gərək bir neçə gün ərzində Gürcüstanla lazım olan sazişləri əldə edə bilək. Eyni tipli sazişlər Azərbaycanla da əldə olunmalıdır. Əgər bunlar vaxtında əldə olunarsa, onda bu bizə imkan verəcək ki, noyabr ayında layihənin başlanması haqqında qərar verə bilək. Bayaq dediyim kimi, «Şahdəniz» layihəsinin birinci mərhələsi çox böyük və çətindir. Ona görə də bu çərçivədə biz 2,7 milyard dollar investisiya qoymağı planlaşdırırıq. Mən Devid Vudvordun fikrini bir daha təsdiq edərək deyirəm ki, qarşıda duran bu çətin işləri, əsas tədbirləri həyata keçirmək üçün hökumət və dövlət idarələrindən, ümumiyyətlə, kimlərlə işləyəcəyiksə, onların hamısından yaxın əməkdaşlıq və dəstək gözləyirik ki, lazımi sənədləri vaxtında təsdiq edək, cədvələ əməl edə bilək. İndi isə sözü yenidən cənab Vudvorda verirəm ki, o, «Azəri»–«Çıraq»–«Günəşli» layihəsi, həmçinin Bakı–Tbilisi–Ceyhan layihəsi haqqında ətraflı məlumat versin.

**D e v i d   V u d v o r d:** Cənab Prezident, növbəti slaydda «Azəri», «Çıraq», «Günəşli» yataqlarının tammiqyaslı işlənilməsinin birinci fazasını əks etdirən rəqəmlər və əsas texniki göstəricilər verilmişdir. Hazırda birinci fazanın müfəssəl mühəndis-layihə işləri mərhələsini başa çatdırmaqdayıq. Bu işlər çərçivəsində artıq tenderlər elan etmişik, şirkətlər öz təkliflərini bizə göndəriblər. Tenderlər əsasən təchizat və tikinti xidmətləri üzrədir. İndi biz şirkətlər tərəfindən təqdim olunmuş təklifləri qiymətləndiririk.

Birinci faza çərçivəsində biz dənizdə iki böyük platforma tikməyi planlaşdırırıq. Onlardan biri yalnız neft hasilatı üçün nəzərdə tutulmuş platformadır. İkincisi isə ona bitişik olan platformadır, bu oradan neftlə birlikdə

çıxan səmt qazını yenidən rezervuara vurmaq üçün, yaxud da bir qismini sahilə, istehlakçılara çatdırmaq üçün nəzərdə tutulur.

**H e y d ə r Ə l i y e v:** «Çıraq» yatağında?

**D e v i d V u d v o r d:** Cənab Prezident, bu, «Azəri» yatağıdır. «Çırağ»a bitişik olan ikinci yataqdır.

Platformaların üst hissələrinin hamısı Azərbaycanda, Bakıda yığılacaq, tikinti-quraşdırma işləri sahildə aparılacaqdır. Platformaların üst hissəsi quraşdırılmış vəziyyətdə, bütöv şəkildə gəmiyə yüklənərək, dənizdə tikilmiş özülün üzərinə hazır formada oturdulacaqdır. Bu, yeni texnologiyadır və biz ona özülə oturdulma deyirik. Yəni böyük ağır yükü gəmi aparır və oradan birbaşa özülün üzərinə oturdulur. Gəminin aparacağı platformanın üst hissəsinin çəkisi 14.600 tondur. Deməк, texnika vasitəsilə biz 14.600 tonluq yükü birbaşa özülün üstünə oturdacağıq. Bu da dünya rekordu deməkdir. Yəni ilk dəfədir ki, bu ağırlıqda yük gəmidən birbaşa özül üzərinə oturdulacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bizdə belə bir gəmi var?

**D e v i d V u d v o r d:** Bəli, belə bir barj var. O elə bir barjdır ki, bu işin öhdəsindən gələ biləcək. Amma ona bəzi dəyişikliklər edəcəyik. Tələb olunan bəzi işləri biz edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Görürsünüz, Azərbaycanda hər şey var. Sizin dünya rekordu qazanmağınız üçün də lazımi ləvazimatlar var.

**D e v i d V u d v o r d:** Cənab Prezident, elədir. Bu bizə həm vaxta qənaət etməyə, həm də işi daha səmərəli görməyə imkan verəcəkdir.

Bu slayd Səngəçal terminalının genişləndirilməsi planını göstərir. Çünki Səngəçal terminalı genişləndirilərək iki böyük layihənin – həm «Şahdəniz», həm də «Azəri»–«Çıraq»–«Günəşli» layihəsi üzrə hasilatın öhdəsindən gəlməlidir. Yəni «Şahdəniz»dən çıxarılacaq həm qaz, həm də neft oraya çatdırılacaqdır. Həmçinin «Azəri»–«Çıraq»–«Günəşli»nin birinci fazasında, sonra isə növbəti, ikinci və üçüncü fazalarında çıxarılacaq neft də bu terminala daşınacaqdır. Bunun üçün də terminalın genişləndirilməsi nəzərdə tutulur. 2004-cü ilin sonuna qədər bu terminal o vəziyyətə gətirilməlidir ki, ildə 26,5 milyon ton neft və kondensatı, 11 milyard kubmetrdən artıq qazı qəbul etmək gücündə olsun. Saxlamaq üçün, anbarlara doldurulmaq üçün Səngəçalın tutum gücü 600 min kubmetrdən çox olmalıdır.

Növbəti slaydda isə bu il üçün qarşıdan gələn aylarda birinci faza çərçivəsində görüləcək əsas tədbirləri göstərmişik. Bayaq dediyim kimi, artıq birinci faza üçün tenderlərin qalibləri olan şirkətlərdən təklifləri almışıq. Bir-iki ay ərzində təklifləri qiymətləndirəcəyik. İyul və avqust ayları ərzində sanksiya vermək məqsədi ilə müzakirələr aparacağıq. Daxili təsdiqlərdən sonra layihə Rəhbər Komitəyə təqdim olunacaqdır. Rəhbər Komitə təsdiq etdikdən sonra tikinti işlərinə başlaya biləcəyik. Biz oktyabra qədər tender çərçivəsində müqavilələri bağlayacağıq və yekun mühəndis-layihə işlərini tamamlayacağıq, digər maddi-texniki təchizat və s. işlərə başlayacağıq.

Bu slaydda Bakıdan Ceyhana qədər çəkiləcək boru kəmərinin marşrutu təqdim edilib. Orada boru kəməri üzrə bəzi texniki göstəricilər də var. Bu marşrut Azərbaycanda, Gürcüstanda və Türkiyədə artıq müvafiq hökumət və dövlət idarələrinə təqdim olunmuşdur və hazırda onların cavabını gözləyirik. Hesablamalara görə, boru kəmərinin ümumi uzunluğu təxminən 1745 kilometrə bərabər olacaqdır.

Bu slayd isə Bakı–Tbilisi–Ceyhan layihəsi üzrə 2001-ci ildəki əsas addımları göstərir. Bayaq dediyimiz kimi, bu layihə üzrə ilkin mühəndis-layihə işləri artıq başa çatmaq üzrədir. Bu ilin iyun ayında ilkin mühəndis-layihə işləri qurtardıqdan sonra müfəssəl mühəndis-layihə işlərinə başlamağı planlaşdırırıq. Bu, Bakı–Tbilisi–Ceyhan üzrə tərəfdaşların daxili qərarından sonra olacaqdır. 12 ay davam edəcək müfəssəl mühəndis-layihə işlərinin ardınca biz yeni qərar qəbul edəcəyik. Yəni maliyyələşdirmə məsələsini və bununla bağlı digər işləri həll edəcəyik.

Növbəti slaydda «Azəri»–«Çıraq»–«Günəşli» və «Şahdəniz» layihələri üzrə mühüm nəticələri göstərmək istəmişik. Bu cədvəldən görünür ki, biz «Çıraq» yatağında hazırkı hasilatı davam etdirəcəyik. Bu da təqribən bir neçə il ərzində ildə 6 milyon tona bərabər olacaqdır. 2004-cü ilin sonundan başlayaraq, biz birinci faza çərçivəsində «Azəri» yatağından da neft hasilatına başlayacağıq ki, bu da ümumi hasilatın həcmini sonrakı illərdə hər il 20 milyon tondan yuxarı qaldıracaqdır. Gələcək mərhələlərdə əldə olunacaq hasilat, həmçinin «Şahdəniz» yatağındakı kondensatın hasilatı bizə imkan verəcək ki, 2007-ci ildən başlayaraq Azərbaycanda hasil edəcəyimiz neftin miqdarını ildə 50 milyon tona çatdıraq.

**H e y d ə r Ə l i y e v:** 2007-ci ildə?

**D e v i d V u d v o r d:** Bəli, 2007-ci ilin sonundan.

**H e y d ə r Ə l i y e v:** 50 milyon ton?

**D e v i d V u d v o r d:** Bəli, o vaxtdan başlayaraq biz ildə 50 milyon ton hasil edəcəyik. Hətta 2008-ci ildə, ola bilsin ki, lap zirvəyə çataq, 50 milyon tondan çox olsun.

**H e y d ə r Ə l i y e v:** Siz «Şahdəniz»dən alınacaq kondensatı da buraya daxil edirsiniz?

**D e v i d  V u d v o r d:** Bəli, biz «Şahdəniz»dəki kondensatı da buraya daxil etmişik. Amma yalnız «Şahdəniz»in birinci mərhələsi çərçivəsində hasil ediləcək kondensat daxildir. Növbəti mərhələlərdə, sözsüz ki, kondensatın ümumi həcmi artacaqdır.

Gözləyirik ki, «Şahdəniz»in birinci mərhələsində, 2004-cü ilin sonundan başlayaraq, qaz hasilatı ixrac üçün imkan verəcəkdir. Yəni qazın ilk ixracına 2004-cü ilin sonundan başlanacaqdır. Birinci mərhələ çərçivəsində gözləyirik ki, ildə 8 milyard kubmetr qaz hasil edəcəyik və bu rəqəmə 2007-ci ildə çatacağıq.

Cənab Prezident, növbəti slaydda «Azəri»–«Çıraq»–«Günəşli» layihəsi ilə bağlı indiyə qədər görülmüş işləri, Azərbaycanın bu günə qədər birbaşa əldə etdiyi mənfəəti göstərməyə çalışmışıq. Göründüyü kimi, indiyə qədər Azərbaycana çatmış mənfəətə bonuslar, Azərbaycan şirkətləri ilə bağlanmış müqavilələrdən gələn gəlirlər, azərbaycanlı əməkdaşlara verilən maaşlar və Azərbaycanın mənfəət neftindən, «Çıraq»dan gələn gəlirlər daxildir. Azərbaycana indiyə qədər birbaşa 1 milyard 240 milyon dollar mənfəət çatmışdır.

**H e y d ə r  Ə l i y e v:** Bu, Azərbaycana gələn mənfəətdir?

**D e v i d  V u d v o r d:** Cənab Prezident, bəli. Bu rəqəm birbaşa Azərbaycana çatmış mənfəətdir. Buna əlavə olaraq, biz Azərbaycanda xarici şirkətlərlə, onların filialları ilə bağlanmış layihələr vasitəsilə də təxminən 1 milyard 800 milyon dollar sərmayə qoymuşuq.

**H e y d ə r  Ə l i y e v:** Yox, mən burada sizinlə bir az razı deyiləm. Çünki 360 milyon dollar bonus, bu aydındır. Bu, Azərbaycana birbaşa gələn mənfəətdir. *bp*-nin azərbaycanlı əməkdaşlarının maaşı 108 milyon dollardır. Bu, Azərbaycana gələn mənfəət deyildir. Siz burada öz işçilərinizə maaş verirsiniz və məlumdur ki, Azərbaycandan olan işçilərinizə verilən aylıq maaşın həcmi ölkənizdən gətirilən işçilərə verilən maaşdan azdır. Bu heç, o sizin öz işinizdir. Əgər siz 108 milyon dolları Azərbaycanda işləyən insanlara maaş vermisinizsə, bu, Azərbaycana çatan mənfəət deyildir. Siz deyə bilərsiniz ki, əgər bu olmasaydı, onlar işləyə bilməzdi və bu qədər maaş ala bilməzdilər. Mən bunu anlayıram. Məhz çox səbəblərə görə, o cümlədən bu səbəbə görə də biz sizinlə müqavilələr imzalamışıq ki, burada siz də mənfəət götürəsiniz, biz də mənfəət götürək. Ancaq hər bir işçiyə – istər mühəndisə, istər fəhləyə, yaxud da başqa işçiyə maaş vermisinizsə, o, zəhmət çəkib maaşını alıbdır. Mən mənfəət onu hesab edirəm ki, bu, neftdən dövlətə gələn mənfəət olsun. Mən sizinlə razı deyiləm.

Sonra, burada yazırsınız ki, Azərbaycan şirkətləri və birgə müəssisələrlə mallar və xidmətlər üçün bağlanmış müqavilələrin dəyəri 525 milyon dollardır. Dəyəri o demək deyil ki, bu müqavilələrdən gəlir alınıbdır. İkincisi, siz yenə də Azərbaycan şirkətləri ilə çox az iş görürsünüz. Gördüyünüz işlərə daha çox Qərb ölkələrinin şirkətlərini cəlb edirsiniz. Düz deyirəm, ya düz demirəm? Elədirmi?

**Ə l i  Ə s ə d o v** (*prezidentin köməkçisi*): Cənab Prezident, bəli, düz deyirsiniz.

**H e y d ə r  Ə l i y e v:** Ona görə onları cəlb edəndə, gördükləri işə görə siz onların haqqını verdiyiniz kimi, Azərbaycanın şirkətlərini də cəlb edəndə, onların gördükləri işin haqqını verirsiniz. Məsələn, siz «İstiqlal» qurğusunu bərpa etdiniz. Elədirmi? Düzdür?

**D e v i d  V u d v o r d:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Mən bilirəm ki, onun qiyməti təxminən 200 milyon dollar idi. Əgər yadımda düzgün qalıbsa. Doğrudurmu?

**D e v i d  V u d v o r d:** Bəli, doğrudur.

**H e y d ə r  Ə l i y e v:** Ondan 10 milyon dollar bizim Gəmi Təmiri zavoduna, onların gördüyü işə görə vermişdiniz. Amma qalanını başqa şirkətlərə vermişdiniz. Yaxud sizinlə işləyən adamlara vermişdiniz. Əgər Gəmi Təmiri zavodu sizin sifarişinizi yerinə yetiribsə, sizə 10 milyon dollarlıq iş görübsə, bu onun haqqıdır. Bu, Azərbaycana verilən mənfəət deyildir.

Sonra, Azərbaycanın mənfəət karbohidrogenləri (İlkin «Çıraq» nefti) 246 milyon. Bu nə deməkdir?

**N a t i q  Ə l i y e v** (*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti*): Cənab Prezident, neftdən alınan gəlirdir. Neft Fonduna verilən mənfəətdir.

**H e y d ə r  Ə l i y e v:** Neft Fonduna.

Buna görə də, əziz dostum, demək, bizim nağd mənfəətimiz bir 360 milyon dollar bonusdur, bir də ki, 246 milyon dollar neftdən alınan gəlirdir. Siz qalanları bizim ayağımıza nahaq yazırsınız və deyirsiniz ki, Azərbaycana 1 milyard 240 milyon dollar mənfəət vermisiniz. Mən bu fikirlə razı deyiləm. Amma bunun qiymətləndirilməsini düzgün aparmaq lazımdır.

Siz öz ölkənizdən, İngiltərədən, Amerikadan, filandan mühəndislər gətirirsiniz. Yaxud başqa mütəxəssislər gətirirsiniz. Onları burada işlədirsiniz. Dediyim kimi, onlara bizim Azərbaycan vətəndaşlarından 2-3 qat artıq maaş verirsiniz. Bu o demək deyil ki, siz Böyük Britaniyaya, ya da Amerikaya mənfəət verirsiniz. Belədir? Mən bunu belə anlayıram.

Mən etiraz etmirəm ki, Azərbaycandan sizinlə bir yerdə çalışan, bu layihələrin həyata keçirilməsinə cəlb olunan, yaxud, məsələn, sizin mərkəzi aparatda işləyən – tutaq ki, elə bu tərcüməçidən başlayaraq – insanların hamısına maaş verirsiniz. Bunu müftə vermirsiniz ki? Bu adam səhərdən axşama kimi sizə tərcüməçilik edir, siz də onun maaşını verirsiniz. Yaxud, sizin aparatdakı başqa adamlar – biri kompüterin qarşısında oturubdur, biri başqa yerdə işləyib öz haqqını alır. Eləcə də xaricdən gələn sizin adamlar. Yəni inkar etmirəm ki, bu, Azər-

baycan əhalisinin, Azərbaycan vətəndaşlarının, o cümlədən Azərbaycanın bəzi şirkətlərinin konsorsiumun burada işləməsi ilə əlaqədar əldə etdikləri gəlirdir. Əgər bu konsorsium olmasaydı, təbiidir ki, bu gəlirlər də olmazdı.

Mən sizə deyirəm, biz sizinlə, yaxud başqa şirkətlərlə müqavilələr imzalayanda hər şeyi nəzərdə tuturuq. Nəzərdə tuturuq ki, siz gəlib burada yaşayacaqsınız, haqq verəcəksiniz. Nəzərdə tuturuq ki, siz gəlib burada müxtəlif işlər görəcəksiniz, haqq verəcəksiniz. Azərbaycanın vətəndaşlarını cəlb edəcəksiniz, haqq verəcəksiniz. Məsələn, əgər siz gəlməsəydiniz, Azərbaycanın neftçilərinin çoxunun – indi görürsünüz, bizim necə yaxşı mütəxəssislərimiz var – işi yox idi. Yaxud da ki, lap az bir işdən az maaş alacaqdılar. Bunlar təbiidir və biz konsorsiumu təşkil edəndə, sizinlə və başqa şirkətlərlə müqavilələr bağlayanda bunu da nəzərə alırdıq. Amma gəlin haqq-hesabı düz aparaq. Düzü düz, əyrini əyri.

Burada insanlar işləyiblər, maaş alıblar. 108 milyon dollar alıblar və öz maddi vəziyyətlərini yaxşılaşdırıblar. Başqa şeylər də olubdur. Yaxud bizim şirkətlər də işləyiblər. Nəinki texnikalarından istifadə ediblər, zehnindən istifadə ediblər, fiziki əməyindən istifadə ediblər və maaş alıblar, yaxud da haqq alıblar. Bu, təbii bir şeydir. Ona görə nağd, yəni Azərbaycanın təmiz gəliri 360 milyon dollar bonusdur, bir də 246 milyon dollar neftdən gələn gəlirdir. Cəmi 606 milyon dollar. Ona görə gəlin, hesabımızı həmişə düz aparaq.

Mən heç də demirəm ki, siz bizi bu barədə aldatmaq istəyirsiniz. Yox, bizi aldatmaq da olmaz. Onu da bilməlisiniz, bu, çətin məsələdir. Sizin təcrübəniz çoxdur, amma bizim də başımız bir az işləyir. Bunlara, bu rəqəmlərə mən etiraz etmirəm. Amma bunların hansının nə olmasını düzgün yazmaq lazımdır. Neftçilər, mən düz deyirəm, yoxsa yox?

**N a t i q  Ə l i y e v:** Cənab Prezident, düz deyirsiniz.

**H e y d ə r  Ə l i y e v:** Bəs onda bunları yazmağa niyə qoyursunuz?

**N a t i q  Ə l i y e v:** Onların hesabatları belədir.

**H e y d ə r  Ə l i y e v:** Hesabatları belədir, sən də belə olmağa qoyma.

**N a t i q  Ə l i y e v:** Onlar vergi verirlər. Yəni azərbaycanlı əməkdaşlarının maaşlarından vergi tutulur. Onu nəzərə alırlar.

**H e y d ə r  Ə l i y e v:** Vergi verməlidir də. Yaxşı, burada işləyir, vergi verir, gedib Amerikada işləsə, ikiqat artıq vergi verəcəkdir. Hə? Biz hələ vergini alacağıq. Amerikada, yaxud da ki, Almaniyada işləsə, bundan da artıq vergi verəcəkdir. Vergi təbii bir şeydir. Düz deyirəmmi?

**D e v i d  V u d v o r d:** Bəli, bir sıra Qərb ölkələrində vergilər çox yüksəkdir. Cənab Prezident, düz deyirsiniz. Siz düzgün buyurursunuz, burada biz, sadəcə olaraq, əks etdirmək istəmişik ki, ümumiyyətlə, Azərbaycan hökumətinə, Azərbaycan xalqına və ölkənizin şirkətlərinə nə qədər gəlir gəlibdir.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycanın vətəndaşlarına işlədikləri üçün, Azərbaycanın şirkətlərinə bu işlərdə iştirak etdikləri üçün. Amma Azərbaycan bu neftin sahibi, konsorsiumun iştirakçısı olaraq buradan öz gəlirini götürməlidir. O gəlir də dediyim kimidir. Bilirsinizmi, bunun ikinci tərəfi də vardır. Sonra xalq bizdən tələb edəcəkdir. Siz bir milyard 240 milyon dollar gəlir almısınız. Bu haradadır? Amma biz xalqa elan etmişik: Neft Fondundadır. 360 milyon dollar bonuslardan əvvəl gələn bonusların bir hissəsi Neft Fonduna getməyibdir. Məlumdur ki, bizim Milli Dövlət Bankındakı valyuta ehtiyatlarına gedibdir. Neft Fondu yaradılandan sonra bonusların – təkcə sizdən gələn yox, başqalarının da – bir qismi Neft Fonduna gedibdir. Bir də ki, bu 246 milyon dollar Neft Fonduna gedən təmiz puldur. Ona görə siz bunu bir az ayırın.

Yenə də deyirəm, mən indi xalqın qarşısındayam – görürsənmi neçə kamera var – sabah mənim sözlərimdən tutacaqlar ki, cənab Prezident, sən bizə düz demirsən, bir milyard 240 milyon dollar mənfəət veribdir, amma sən deyirsən ki, Neft Fondunda bu qədər, valyuta ehtiyatında bu qədər pul vardır. Mən bunu sizə də, həm Dövlət Neft Şirkətinə, həm də bizim yeni nazirə tapşırıram. Bu barədə onlarla işləyin. Bilirsiniz, birgə işləmək lazımdır. Belə deyil ki, bunlar elə nə cür istəyirlər, o cür yazırlar. Biz bir yerdə işləyirik. Bu bizim müştərək işimizdir. Ona görə də məsələlər həmişə razılaşdırılmalıdır.

**D e v i d  V u d v o r d:** Cənab Prezident, növbəti slaydda isə biz gələcək mənfəətləri proqnozlaşdırmağa çalışmışıq. Bir daha nəzərə çatdırmaq istəyirəm ki, buraya Azərbaycan vətəndaşlarının maaşları və Azərbaycan şirkətləri ilə bağlanmış müqavilələrdən əldə olunacaq mənfəət daxil deyildir. Bu, Azərbaycan dövlətinə çatacaq xalis mənfəətdir. Buraya mənfəət nefti, bonuslar daxildir və vergilər daxil olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Bu, təmiz mənfəətdir?

**N a t i q  Ə l i y e v:** Bəli, bu, neftin satışından gələn mənfəətdir.

**H e y d ə r  Ə l i y e v:** Neftin satışından gələn mənfəətdir. Çox gözəl. Hər şey aydındır.

**D e v i d  V u d v o r d:** Azərbaycanın gəlir neftindən əldə olunan mənfəətinin həcmi hazırda ildə təqribən 150 milyon dollardır. Bu həcmin 2004-cü ilə qədər davam edəcəyini gözləyirik. Əlbəttə, neftin qiymətləri indiki səviyyədə qalarsa.

**H e y d ə r  Ə l i y e v:** Bir barrel neftin qiyməti 25 dollar olarsa, deməli, 2004-cü ilə qədər bu səviyyədə olacaqdır.

**D e v i d  V u d v o r d:** Bəli, ildə 150 milyon dollar həcmində qalacaqdır.

**H e y d ə r Ə l i y e v:** Sonra?

**D e v i d V u d v o r d:** Bu, 2004-cü ilə qədər davam edəcəkdir. 2005-ci ildən başlayaraq, «Azəri» və «Çıraq» yataqlarının tammiqyaslı istismarının birinci mərhələsində biz hasilat əldə edəcəyik, həmçinin «Şahdəniz»dən də neft hasil edilməyə başlanacaqdır. Sözsüz ki, onda Azərbaycanın gəlir neftindən əldə ediləcək mənfəət artacaqdır. 2006-cı ildən başlayaraq karbohidrogen ehtiyatlarından ildə bir milyard dollardan artıq mənfəət gözlənilir.

**H e y d ə r Ə l i y e v:** Bir milyard təmiz mənfəət?

**D e v i d V u d v o r d:** Bəli. Gəlir neftindən əldə olunacaq mənfəət get-gedə artacaq, Azərbaycanın milli gəlirinin çox mühüm bir hissəsini təşkil edəcəkdir. Cədvəldən də göründüyü kimi, 2011-ci ildən gəlir neftindən götürüləcək mənfəət, haradasa, ildə 5 milyard dollardan yuxarı olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Ancaq bu iki layihədən? «Azəri»– «Çıraq»–«Günəşli», bir də «Şahdəniz»dən?

**D e v i d V u d v o r d:** Bəli. Cənab Prezident, özü də nəzərinizə çatdırım ki, bu, yalnız «Şahdəniz» yatağının istismara verilməsinin birinci mərhələsindən əldə ediləcək hasilatla bağlı rəqəmlərdir. Biz «Şahdəniz»in istismarının növbəti mərhələlərindən daxil olacaq mənfəət rəqəmlərini oraya əlavə edə bilməmişik. Çünki biz hələ onların konsepsiyasını işləməmişik.

**H e y d ə r Ə l i y e v:** Bəli, bu barədə də mənə bir sözünüz varmı? Mən bu cədvəli görürəm. Bu, «Şahdəniz» yatağında qaz hasilatına dair rəqəmlərdir. Siz burada maksimum 8 milyard kubmetr qaz hasil etməyi nəzərdə tutmusunuz. Amma siz bizə məlumat vermisiniz ki, «Şahdəniz» yatağında bir trilyon kubmetr qaz vardır. Elədirmi?

**D e v i d V u d v o r d:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Deməli, bir trilyon kubmetr qaz vardırsa, ildə 8 milyard kubmetr yox, yəqin ki, 5 dəfə artıq qaz sata bilərik. Çünki bir trilyon kubmetr qazı hasil etmək üçün nə qədər vaxt lazımdır? Yəqin ki, 50–60 il. Hələ o vaxta kimi yeni yataqlar da tapacaqsınız. Mən bilirəm, çünki bu məsələ ilə maraqlanmışam. Siz burada bazar məsələsini müəyyən etmək istəyirsiniz.

Bazar məsələsi haqqında da lazımi işlər aparacağıq. Birincisi, bu, Türkiyə ilə bizim ilkin sazişimizdir. Ona görə də hələ qaz vermək imkanına malik olmadığımız üçün Türkiyəyə deyə bilməzdik ki, biz sizə 15 milyard kubmetr qaz verəcəyik. Məsələn, bilirsiniz ki, Türkmənistan Türkiyə ilə müqavilə bağlamışdı və Türkiyəyə ildə 15 milyard kubmetr qaz verməli idi.

Türkmənistan bundan imtina etdi. Ancaq nə üçün bu müqavilə imzalanmışdı? Çünki artıq qaz yataqları hazırdır, sadəcə olaraq, qaz kəmərini tikib istifadəyə vermək lazımdır. Biz indidən onlarla – Türkiyə ilə, məsələn, ildə 10, 15, yaxud 20 milyard kubmetr qaz satmaq barədə danışıq apara bilmərik. Çünki hələ ki, biz 2 milyard, sonra 3 milyard kubmetrdən artıq qaz verə bilmərik. Mən bilirəm, siz indi olan imkanlara görə bunu nəzərə alırsınız.

Ancaq gərək biz də işləyək, siz də işləyəsiniz ki, yaxın zamanlarda – 2-3 il ərzində dünyada qaz satmaq üçün özümüzə bazar tapaq. Bu qazı satmaq üçün bazar kimi, mən birincisi, Türkiyəni görürəm. Çünki onların təbii qaza ehtiyacı çoxdur. İndi onlarda da bəzi qruplar vardır ki, qazı biri oradan, digəri buradan almaq istəyir. Siz bunu yaxşı bilirsiniz. Amma Türkiyə ilə bizim əlaqələrimiz dostluq, qardaşlıq əlaqələridir. Əgər Türkiyə Türkmənistandan, Xəzər dənizindən çəkiləcək kəmərlə ildə 15 milyard kubmetr qaz almaq istəyirsə, ildə 15 milyard kubmetr qaz vermək imkanına malik olarıqsa, biz Türkiyəyə bunu satacağıq. Yaxud da ki, təkcə Türkiyəyə yox, İranın da bizim təbii qazımıza ehtiyacı var. Biz bundan da imtina edə bilmərik. Türkiyə bundan artıq ala bilmir, qaz da yatıb qalsın orada, biz də sərvətlərimizdən istifadə edə bilməyək – bu, mümkün deyildir. Ona görə də mən sizin bu proqnozlarınızı düzgün hesab edirəm, buna etirazım yoxdur.

Ancaq mən bizim Nazirlər Kabinetinə, Nazirliyə və Neft Şirkətinə tapşırıram ki, bu barədə ciddi işləsinlər. İndidən, artıq 3 il, 4-5 il bundan sonra üçün bazar müəyyən etmək lazımdır. Bazar müəyyən olunarsa, burada da işlər görüləcəkdir. Mən sizi başa düşürəm. Siz oraya vəsait qoyacaqsınız, amma bazar müəyyən olunmasa, qazı sata bilməsəniz, vəsaitdən xeyir götürə bilməyəcəksiniz. Bunu mən anlayıram. Ona görə də mən bizim üzərimizə düşən vəzifəni deyirəm və sizə bildirirəm ki, bunları edəcəyik. Siz isə fikirləşin, öz planlarınızı elə qurun ki, biz bazar tapan kimi, oraya təcili olaraq qaz verə biləsiniz. Düz deyirəmmi?

**D e v i d V u d v o r d:** Cənab Prezident, əlbəttə, hər şeyi çox düzgün deyirsiniz. Həm də onu deyim ki, Siz bizim biznesi çox gözəl başa düşürsünüz.

**H e y d ə r Ə l i y e v:** Mən də burada sizin kimi biznesmen olacam.

**D e v i d V u d v o r d:** Nəhayət, sonuncu slaydda biz Azərbaycanda qarşıdakı bir neçə il ərzində başlayacağımız və həyata keçirəcəyimiz layihələrin doğrudan da dünya miqyaslı, geniş, nəhəng layihələr olduğunu bir daha vurğulamaq istəyirik. Hətta müqayisə etsək, onu deməliyik ki, *bp*-nin dünyanın digər yerlərində – həm Meksika körfəzində, həm Anqolada, həm də başqa ölkələrdə həyata keçirdiyi layihələrlə müqayisədə, Azərbaycanda görüləcək işlər həm miqyas etibarilə, həm də xərcləyəcəyimiz pul baxımından ən böyük layihələr olacaqdır.

Çünki bayaq da dediyim kimi, qarşıdakı 12 ay ərzində biz layihələrə, haradasa, 8-9 milyard dollar investisiya qoyulmasına sanksiyalar verəcəyik, qərarlar qəbul edəcəyik. Bu layihələrlə əlaqədar görüləcək işlərə sərf olunacaq polad və digər materialların çəkisi təxminən 1,5 milyon tona bərabər olacaqdır. «Çıraq» yatağında hasil ediləcək ilkin neft layihəsi üçün sərf olunmuş metal, polad və digər materiallarla müqayisə etsək, deyə bilərik ki, burada təxminən 10 dəfə çox material məsrəfi gözlənilir. Sadəcə, müqayisə üçün demək istəyirəm ki, hər gün Azərbaycandan və Gürcüstandan əlavə 400 yük maşını hərəkət edəcəkdir. Bu maşınlar boru kəmərinin çəkilməsi üçün bizim tikinti sahələrimizə materiallar daşıyacaqdır. Hər gün Azərbaycanın və Gürcüstanın dəmir yollarında əlavə 8 qatar Qara dənizdəki Poti limanından bizə materiallar daşıyacaqdır. Onu da deyim ki, bizim işlərimiz üçün Volqa–Don kanalı ilə hər ay 10 gəmi və 3 barj yük daşıyacaqdır.

Bütün bu tikinti işlərində biz, əlavə olaraq, təxminən 8500 azərbaycanlı işçi qüvvəsindən bilavasitə istifadə edəcəyik. Sözsüz ki, dediklərimdən əlavə, biz digər işçiləri – Azərbaycan vətəndaşlarını da işə götürəcəyik. Onlar xidmət sahələrində və digər yerlərdə işə cəlb olunacaqlar.

İrəlidə bizi çox mühüm işlər, mühüm addımlar, çətin vəzifələr gözləyir. Cənab Prezident, biz əminik ki, şəxsən Sizin dəstəyinizlə, rəhbərliyinizlə, Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq nəticəsində biz bu çətinliklərin, qarşımızda duran vəzifələrin öhdəsindən uğurla gələ biləcəyik.

Cənab Prezident, bu, bugünkü təqdimatımızın sonuncu məsələsi idi ki, Sizin diqqətinizə çatdırmaq istəyirdik. Əgər Sizin suallarınız varsa, onlara böyük məmnuniyyətlə, təfsilatı ilə cavab verərdik. Sonra isə biz Sizinlə başqa bir məsələni müzakirə etmək istəyirik.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Sualı olan var? Sizlərdən kiminsə sualı varmı? Yoxdur.

Mən suallarımı verdim. Ümumiyyətlə, sizin gördüyünüz işlər, proqnozlar və gələcəkdə görəcəyiniz işlər haqqında təqdim etdiyiniz materiallar, məlumatlar, bu təqdimat hesab edirəm ki, sizinlə əməkdaşlığımızın tarixində xüsusi yer tutur. Birincisi, bu bir daha təsdiq edir ki, böyük təcrübəyə malik olan, dünyanın böyük bir məşhur neft şirkəti kimi, siz Xəzər dənizini, Azərbaycanı çox düzgün seçmisiniz. İkincisi, onu təsdiq edir ki, Azərbaycanın müəyyən olunmuş, 1993–1994-cü illərdən başlayan neft strategiyası öz müsbət nəticələrini verir. Mən heç şübhə etmirdim ki, belə olacaqdır. Əgər şübhə etsəydim, 1994-cü ilin sentyabr ayında ilk müqavilənin imzalanmasına getməzdim. Amma bilirsiniz ki, həmin o ilk müqavilənin imzalanması da Azərbaycanın, o cümlədən mənim başıma nə qədər bəlalar gətirdi.

Mən müqaviləni imzalayandan sonra, bizim həbsxanadan çox qatı cinayətkarlar qaçırıldı. Ondan sonra burada dövlət çevrilişinə cəhd göstərildi. Sonra bizim iki nəfər dövlət xadimi terror nəticəsində öldürüldü. Nəhayət, bunların hamısı mənim aradan götürülməyim üçün idi.

Xatirimdədir, o vaxt bizim içərimizdə olan bəzi əleyhdarlarımız – hansılar ki, dövlət çevrilişinə cəhd etdilər – 1994-cü ilin sentyabr ayında biz «Gülüstan» sarayında müqaviləni imzalayanda deyirdilər ki, bir neçə gündən sonra onlar bu müqaviləni cırıb atacaqlar. Amma onlar bunu edə bilmədilər. Çünki bizimlə bacarmaq çətindir. Ondan sonra da bizim həyatımızda çox çətinliklər oldu.

İndiyə qədər də mən deyə bilmərəm ki, dünyada hamı bizim bu layihələri bəyənir. Bəziləri, məsələn, Bakı–Ceyhan layihəsinin, digər layihələrin həyata keçirilməsinə maneçilik törətmək istəyirlər. Bilirsiniz, bəziləri də sizi və başqa şirkətləri Azərbaycandan ayırmaq üçün Qərb mətbuatında, o cümlədən ABŞ-ın, hətta elə Böyük Britaniyanın, Avropanın başqa ölkələrinin mətbuat orqanlarında belə yazılar verirlər ki, guya Xəzər dənizi, Azərbaycan haqqında vaxtilə irəliyə sürülmüş proqnozlar özünü doğrultmadı, yaxud da Xəzər dənizində o qədər də böyük karbohidrogen ehtiyatları yoxdur. Beləliklə də şirkətləri Azərbaycandan uzaqlaşdırmağa çalışırlar. Demək istəyirəm ki, bu mübarizə indiyə qədər də gedir. Biz daha mübarizə etmək istəmirik. Biz doğru olduğumuzu işlə göstəririk, sübut edirik. Sizin bugünkü təqdimatınız buna əyani sübutdur. Məsələn, mən böyük məmnuniyyət hissi ilə indi sizdən eşitdim ki, *bp* kimi dünyanın böyük, çox nəhəng şirkəti dünyanın heç bir yerində, heç bir nöqtəsində indi bizim bu layihələrə sərf edəcəyi 8-9 milyard dollar məbləğində vəsait heç vaxt xərcləməmişdir.

*bp* təcrübəli bir şirkətdir. Özü də əbəs yerə 1 dollar da xərcləməz. Desəm ki, 1 dollar ver, sizdən bunu almaq olmaz. Ona görə də *bp* yaxşı bilir ki, harada nə var. Ötən illərdə sizin, *bp*-nin burada olan nümayəndələrinin gördüyü iş şirkətinizin rəhbərlərinə də sübut etdi ki, bəli, burada neft var, burada qaz var. Bunların hasil olunması və nəql edilməsi üçün imkanlar var. Neft və qazın satılması üçün bazarlar vardır. *bp* burada özünə lazım olan mənfəəti götürə bilər.

Təbiidir ki, əgər biz Azərbaycanda indi mövcud olan ictimai-siyasi sabitliyi yarada bilməsəydik, əgər 1993-cü ilə qədər olan vəziyyət, hətta 1995-ci ilə qədər olan vəziyyət davam etsəydi, siz burada işləyə bilməyəcəkdiniz. Bir azdan sonra gəlib görəcəkdiniz ki, burada küçəyə çıxmaq, rahat yaşamaq mümkün deyildir. Reketlə, terrorla məşğul olanları görəcəkdiniz. Ona görə də çıxıb gedəcəkdiniz.

Amma biz bu şəraiti, sabitliyi yaratdıq. Azərbaycanda indi elə mühit yaranıbdır ki, xarici ölkədən gələn hər bir şirkət burada özünü öz evində olduğu kimi hiss edir. Bəlkə ondan da yaxşı hiss edir.

Əgər iqlim nöqteyi-nəzərindən baxsanız, Bakının iqlimi həm Londonun, həm də Edinburqun iqlimindən yaxşıdır. Elədirmi? Ona görə də burada işləmək hər cəhətdən xeyirlidir.

Bizim birgə işimizin bu cür yaxşı nəticələr verməsi və belə proqnozların artıq əldə olunması həm sizin üçün, həm də bizim üçün tarixi hadisədir.

İndi Azərbaycan əgər 2-3 ildən sonra məhz bu müqavilələrdən ildə 500 milyon dollar gəlir əldə edəcəksə və 2011-ci ildə təkcə bu müqavilədən sizin dediyiniz 5-6 milyard dollar gəlir əldə olunacaqsa, onda görün, biz gördüyümüz işlərlə Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, ölkəmizi inkişaf etdirmək üçün, Azərbaycanı çiçəklənən, inkişaf edən ölkəyə çevirmək üçün nələr edirik.

Mən həmişə demişəm ki, bizim neft strategiyamız, imzaladığımız bütün bu müqavilələr Azərbaycanın gələcəyi üçündür. Mən burada çox zəhmət çəkmişəm. Ancaq düşünürəm ki, bunların hamısının nəticəsini, şəxsən mən görməyəcəyəm. Çünki hər insanın ömrünün bir həddi var. Ancaq bu məni darıxdırmır. Çünki bunu mən özüm üçün etmirəm. Mən bunu xalqım, millətim üçün, gənclərimiz üçün, Azərbaycanın gələcəyi üçün edirəm. Gələcək də bax, burada görünür.

Təbiidir ki, siz Azərbaycana gəlmiş bütün şirkətlərdən ən irəlidə olanısınız. Siz indi bu yataqlardan başqa, digər yerlərdə də iş aparırsınız. Elədirmi? Məsələn, «İnam» yatağında siz iş aparırsınız və hiss edirəm ki, oradan da yaxşı proqnozlar gözləyirsiniz. Başqa yerlərdə də iş aparırsınız. Amma sizdən savayı, başqa şirkətlər də var. «Şevron» da, «Eksson» da, «Mobil» də var, o birisi də, bu birisi də var. Sizin bu nümunəniz onları da hərəkətə gətirəcəkdir. Çalışacaqlar ki, sizdən geri qalmasınlar. Çünki siz ABŞ-ın «AMOKO» şirkətini aldınız. Əgər digərləri geri qalsalar, siz onları da alacaqsınız.

Bunların hamısı həm sizin üçün, yəni bizimlə dost olan Avropa ölkələri üçün, ABŞ üçün, həqiqətən çox fayda gətirən işlərdir. Eyni zamanda, bunlar Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün, xalqımızın rifah halını yüksəltmək üçün, ölkəmizin müstəqil dövlət kimi yaşaması üçün əsas şərtlərdən biridir. Ona görə indi bizə çox paxıllıq edənlər var. Ancaq iş təkcə paxıllıqla qurtarsaydı, mən narahat olmazdım. Kim paxıllıq edir, qoy etsin. Amma təkcə paxıllıq deyildir. Azərbaycanda söz vardır, «badalaq vurmaq» istəyənlər var. Bizə birbaşa təxribat etmək istəyənlər vardır. Ancaq biz artıq ayaq üstə möhkəm durmuş dövlətik. Biz indi əvvəlkindən daha çox iradəliyik.

Mən sizə təşəkkür edirəm. Gördüyünüz işləri yüksək qiymətləndirirəm. Sizin bu təqdimatınız indi Azərbaycan ictimaiyyəti üçün də xüsusi bir hadisədir. Ölkəmizin vətəndaşlarında gələcəyə böyük ümid yaradan hadisədir. Azərbaycan–Böyük Britaniya dostluğunun möhkəmlənməsi üçün böyük bir hadisədir. Sizə bu işdə bax, burada oturanlarla – siz üç nəfərsiniz, burada oturanlar görürsünüzmü nə qədərdir – birlikdə uğurlar arzulayırıq.

Mənə dedilər ki, *bp*-nin prezidenti cənab Con Braun iyunun 22-də buraya gəlmək istəyir. Əgər onun belə bir fikri varsa, ona çatdırın ki, Azərbaycana gəlsin, mən onunla məmnuniyyətlə görüşərəm. Biz onunla oturub 1994-cü ilin sentyabr ayında müqavilənin imzalanması gününü birlikdə yada salarıq və bu gün əldə olunan nəticələri nəzərdən keçirərik.

Sizə bir daha təşəkkür edirəm. Bu işlərdə və gələcək fəaliyyətinizdə sizə uğurlar arzulayıram.

**D e v i d  V u d v o r d:** Cənab Prezident, çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun.

**BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ,
İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 56-cı İLDÖNÜMÜ – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ MÜHARİBƏ VETERANLARI İLƏ SÖHBƏT**

*9 may 2001-ci il*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın qəhrəman oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, dövlət və hökumət nümayəndələri respublikamızın rəhbəri Heydər Əliyevi mehribanlıqla, hörmət və ehtiramla, alqışlarla qarşıladılar. Prezidentə gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı Heydər Əliyev müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi.*

**M ə z a h i r A b b a s o v** (*tarix elmləri doktoru, Respublika Veteranlar Şurası Nəsimi rayon şöbəsinin sədri*): Cənab Prezident, 1995-ci il yadınızdadır, ad gününüz münasibətilə Sizi təyyarədə təbrik etdik. Yenə də təbrik edir, Sizə cansağlığı, uzun ömür arzulayırıq. Azərbaycanı işıqlı yola ancaq Siz çıxardınız. Biz veteranlara bu bayramı yenidən Siz bəxş etdiniz. 1993-cü ilə qədər biz çox əziyyət çəkdik. Sonra Siz veteranlar haqqında qanun qəbul etdiniz. Orada yazdınız ki, 9 May Qələbə günü kimi qeyd olunsun. Azərbaycanın 25 min 250 nəfər Böyük Vətən müharibəsi veteranı o vaxtdan başlayaraq bu bayramı yenidən yüksək əhval-ruhiyyə ilə keçirir, Sizə dua edirlər.

**H e y d ə r Ə l i y e v:** Yenə də kitablar yazırsan. Dünən sənin kitablarını aldım.

**M ə z a h i r A b b a s o v:** Bəli. Kitablarımdan Sizə də verdim.

**H e y d ə r Ə l i y e v:** İndi görürsən, bu orden və medallardan əlavə, müstəqil Azərbaycanın da mükafatları var.

**M ə z a h i r A b b a s o v:** Bəli, mən bunları şərəflə daşıyıram. Mən Yeni Azərbaycan Partiyasının üzvü deyiləm. Ancaq Sizin şəkliniz həmişə mənim ürəyimin üstündədir.

**D ü r r ə M ə m m ə d o v a** (*Böyük Vətən müharibəsi veteranı*): Cənab Prezident, Sizə uzun ömür arzulayırıq. Siz bütün veteranlara ikinci həyat bəxş etdiniz. Siz xalqımızın yeganə inamı, ümidisiniz. Sabah Sizin anadan olan gününüzdür. Sizə cansağlığı, uzun ömür arzulayırıq.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Mən səni 30 ildir görürəm. 30 ildir ki, dəyişilmirsən. 30 il bundan qabaq da belə idin.

**D ü r r ə M ə m m ə d o v a:** Cənab Prezident, bir gün Şeyx Şamilin yubileyi ilə əlaqədar keçirilən tədbirə gedirdim. Mən avtobusa minəndə iki qadın oturmuşdu. Dedilər ki, Heydər Əliyevlə Dürrə xanım heç vaxt qocalmırlar. Mən onlara dedim ki, ay xanımlar, azərbaycanlı deyilsiniz, maşallah deyin. Çünki günün 24 saatı nə möhtərəm prezidentimizə, nə də mənə bəs edir.

Sizə möhkəm cansağlığı diləyirik.

**M ə z a h i r A b b a s o v:** Cənab Prezident, biz bir qələbə gününü, erməni faşizmi üzərində qələbəni də səbirsizliklə gözləyirik. Allah qoysa, Sizin rəhbərliyinizlə, köməyinizlə onu da qeyd edəcəyik.

**H e y d ə r Ə l i y e v:** İnşallah, onu da qeyd edəcəyik.

* * *

* * *

*1941–1945-ci illərin ağır və çətin sınaqlarından mətanətlə çıxmış, böyük şücaətlər göstərmiş digər veteranlar da onlara göstərdiyi diqqət və qayğıdan razılıqla danışaraq, respublikamızın rəhbərinə dərin minnətdarlıqlarını bildirdilər, onu Qələbə bayramı və ad günü münasibətilə səmimi-qəlbdən təbrik etdilər, uzun ömür, cansağlığı arzuladılar. Dövlətimizin başçısına vaxtilə çəkilmiş fotoşəkillər təqdim edən veteranlar dedilər:*

Cənab Prezident, Allah Sizi Azərbaycanın üstündən əskik eləməsin. Xalq Cəbhəsi hakimiyyəti bizi saya salmırdı. Siz gələndən sonra veteranları Respublika sarayına topladınız, bizi, necə deyərlər, şah etdiniz. Biz də Sizin qulluğunuzda hər zaman hazırıq, siyasətinizi həmişə dəstəkləyəcəyik. Həmişə xoşbəxtlik nümunəsi olasınız.

**H e y d ə r Ə l i y e v:** Çünki siz şah olmağa layiqsiniz. O layiqli adınızı sizə qaytardım.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev xarici ölkələrin Bakıdakı səfirləri ilə, ölkəmizin dövlət və hökumət xadimləri ilə səmimiyyətlə görüşdü, onları əziz bayram münasibətilə təbrik etdi.*

* * *

*Respublikamızın rəhbəri Heydər Əliyev daha sonra tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, 9 May Qələbə günü münasibətilə onları təbrik etdi.*

**H e y d ə r Ə l i y e v:** Yaxşı nəvə və nəticələri var. Gözəl-gözəl qızlardır.

**H ə z i A s l a n o v** (*Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun nəvəsi*): Cənab Prezident, icazə verin, Həzi Aslanovun ailəsi adından Sizə dərin minnətdarlığımızı bildirim. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik. Qələbə bayramı və ad gününüz münasibətilə Sizi təbrik edir, möhkəm cansağlığı, uzun ömür arzulayıram.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Görürsünüz, abidənin ətrafını da gözəl düzəldiblər.

**H ə z i A s l a n o v:** Cənab Prezident, dərin minnətdarlığımızı bildiririk.

## İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önündə nitq

Əziz veteranlar!

Hörmətli xanımlar və cənablar!

Sizi, bütün Azərbaycan xalqını, Azərbaycanın bütün vətəndaşlarını Qələbə günü münasibətilə, alman faşizmi üzərində qələbənin 56-cı ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq, rifah arzulayıram.

Bu Qələbə günü bütün dünya ölkələri üçün əlamətdar bir hadisədir. Çünki 1945-ci ilin may ayının 9-da alman faşizmi üzərində qələbə çalındı, faşizmin bütün bəşəriyyətə gətirdiyi və gətirəcəyi bəlaların qarşısı alındı. Ona görə də bu Qələbə gününü dünyanın hər yerində qeyd edirlər. O ölkələr ki, İkinci dünya müharibəsində alman faşizminə qarşı mübarizə ediblər və hətta İkinci dünya müharibəsinə qatılmayan insanlar da, ölkələr də, dövlətlər də yaxşı bilirlər ki, əgər 1945-ci ilin may ayında alman faşist qüvvələri o vaxt Almaniyada sovet ordusunun hərbi əməliyyatlarına rəhbərlik edən marşal Jukov və onun silahdaşları qarşısında təslim haqqında akta imza atmasaydılar, faşizm bütün dünyanı bürüyəcəkdi.

Faşizm dünyaya nə qədər faciələr gətirib, insanlara nə qədər bəlalar gətirib – bunu hamı yaxşı bilir. İkinci dünya müharibəsi məhz alman faşizminin, Hitler ordusunun dünyaya hakim olmaq iddiası ilə başlandı. Məlumdur ki, onlar çox qısa bir zamanda Avropanın bir çox ölkələrini işğal etdilər, xalqları əzdilər. Ondan sonra isə Sovetlər İttifaqına qarşı, yəni həm hərbi nöqteyi-nəzərdən, həm də insanların vətəni qorumaq ruhu, vətənpərvərlik hissləri nöqteyi-nəzərindən onlar üçün ən qorxulu ölkəyə, xalqa qarşı hücum etdilər. Müharibə çox ağır getdi. İkinci dünya müharibəsi bütün Avropanı, hətta təkcə Avropanı yox, bir çox başqa qitələri də bürümüşdü. Məlumdur ki, Uzaq Şərqdə bu müharibəyə Yaponiya da qoşulmuşdu. Avropanın faşistləşmiş bəzi dövlətləri də bu müharibəyə qoşulmuşdu. Ancaq insanların yaşamaq arzusu, bəşəriyyətin belə bir təhlükənin qarşısını almaq üçün birləşməsi alman faşizmi üzərində qələbə çalınmasının əsasını yaratdı və beləliklə də, XX əsrdə bütün dünya, bəşəriyyət bu faciədən xilas ola bildi.

Sovetlər İttifaqı alman faşizminin darmadağın edilməsi və onun üzərində qələbə çalınmasında həlledici və aparıcı rol oynamışdır. Məlumdur ki, Hitler ordusunun hərbi hissələri qəflətən Sovetlər İttifaqının sərhədlərini pozaraq hücuma başlayandan sonra və bu hücumu çox sürətlə apardıqlarına görə, o vaxt Sovetlər İttifaqının Avropa hissəsi alman faşist ordusu tərəfindən zəbt edilmişdi. Artıq Hitler ordusu Moskvanın lap yaxınlığında idi. Stalinqradda ölüm-dirim müharibəsi gedirdi. Hitler ordusu Qafqaz dağlarına gəlib çıxmışdı və tarixdən hamıya yaxşı məlumdur ki, Qafqazı, xüsusən Azərbaycanı, Bakını zəbt etmək, işğal etmək Hitlerin müharibə strategiyasının əsas istiqamətlərindən biri idi. Ancaq vətənpərvər insanlar və bir ittifaqa daxil olmuş ölkələrin, yəni SSRİ, Amerika Birləşmiş Ştatları və Böyük Britaniyanın, habelə zəbt olunmağına baxmayaraq, Fransanın birgə səyləri nəticəsində alman faşizmi, Hitler ordusu darmadağın oldu.

Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, qələbənin çalınmasında Azərbaycan xalqının da, Azərbaycan Respublikasının da payı var, haqqı var. Özü də çox böyük payı var. Bu da ondan ibarətdir ki, o vaxt Azərbaycan Respublikasının əhalisindən 600 minə qədər döyüşçü ordu sıralarına səfərbər olundu, onlar qəhrəmancasına vuruşdular, rəşadət göstərdilər və Azərbaycan oğlunun hansı yüksək mənəvi, fiziki keyfiyyətlərə, vətənpərvərlik hisslərinə malik olduğunu sübut etdilər. Biz həmin müharibədə böyük qəhrəmanlıq göstərmiş və Sovet İttifaqı Qəhrəmanı adı almış öz həmvətənlərimizi bu gün xatırlayırıq.

Biz bu gün Azərbaycanın qəhrəman oğlu, müharibə başlayandan həlak olana qədər ön cərgədə, cəbhədə vuruşaraq qəhrəmanlıq göstərmiş sərkərdənin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı önündə

toplaşmışıq. Bu heç də təsadüfi deyildir. Çünki biz burada qəhrəmanlıqda ən yüksək səviyyəyə çatmış general Həzi Aslanovun məzarı qarşısında qələbənin 56-cı ildönümünü bayram edərək, Azərbaycanın bütün mərd oğullarının şücaətinə, vətənin qorunmasında göstərdikləri qəhrəmanlıqlara münasibətimizi, yüksək hörmət və ehtiramımızı bildiririk. Eyni zamanda Həzi Aslanovun məzarı qarşısında baş əyərək, Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində həlak olmuş həmvətənlərimizin hamısının ruhu qarşısında baş əyirik.

Alman faşizmi üzərində qələbə çalınmasının Azərbaycan üçün xüsusi əhəmiyyəti bir də ondan ibarətdir ki, Azərbaycan vətəndaşları, mərd, qəhrəman Azərbaycan oğulları cəbhədə vuruşan zaman, bu müharibədə qələbəni təmin etmək üçün ən vacib vasitələrdən biri olan neft və neft məhsullarının hasilatı, istehsalı ilə məşğul olurdular. Onlar gecə-gündüz neft buruqlarında, mədənlərdə neft hasilatı ilə məşğul idilər, neft məhsulları istehsal edirdilər. Bütün bunların hamısını arasıkəsilmədən cəbhəyə göndərirdilər. İndi bəzi kinoxronika nümunələrinə baxarkən, bir tərəfdən, təəccüb edirsən ki, belə bir qəhrəmanlıq doğrudan da ağlasığmaz bir şeydir. İkinci tərəfdən də, fəxr edirsən ki, Azərbaycan həm cəbhədəki döyüşçülərinin qəhrəmanlığı ilə, həm də arxa cəbhədəki insanların fədakarlığı ilə qələbəyə böyük töhfə vermişdir. İkinci dünya müharibəsi süvarilərin müharibəsi, piyadaların müharibəsi deyildi. Bu, motorlar müharibəsi idi. Bu, tanklar müharibəsi, zirehli maşınlar müharibəsi idi. Bu, qırıcı təyyarələr müharibəsi, bombardmançı təyyarələr müharibəsi idi. Ancaq əgər neft məhsulları olmasaydı, bunlar işləyə bilməzdilər və qələbəni təmin edə bilməzdilər. O vaxt bütün Sovetlər İttifaqında hasil olan neftin 70 faizindən çoxu Azərbaycanda, Bakıda hasil edilirdi və Xəzər dənizi vasitəsilə cəbhəyə göndərilirdi.

Təsəvvür edin, Hitler ordusunun hissələri gəlib Qafqazda durmuşdular, Dağıstanın sərhədlərinə yaxınlaşmışdılar. Bakıya hücum etmək istəyirdilər. Məlumdur ki, Hitler ordusunun bir neçə təyyarəsi gəlib Azərbaycanın səmasına çıxmışdı. Artıq bütün dünyaya məlumdur ki, Hitlerin ad gününə hazırlanmış böyük tortun üzərində Azərbaycanın xəritəsi, Bakı göstərilmişdi. Həmin o vaxt deyilmişdi ki, əgər Bakını ələ keçirə bilsək, qələbəni artıq əldə etmiş olacağıq. Bunda həqiqət var. Çünki Stalinqrad ağır vəziyyətdə müharibə aparırdı. Şimali Qafqaz Hitler ordularının işğalı altında idi. Uralda, Orta Asiyada, başqa yerlərdə silahlar, tanklar, təyyarələr hazırlanırdı. Ancaq bütün bu motorların işləməsi üçün əsas şərt neft, neft məhsulları idi. Ona görə də Hitler buraya can atırdı, Bakını zəbt etmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Çünki vətəni qoruyan döyüşçülər mərdlik göstərdilər və Hitler ordusu Azərbaycana daxil ola bilmədi.

Ondan sonrakı dövr məlumdur. Xüsusən Amerika Birləşmiş Ştatları ilə, Böyük Britaniya ilə ittifaq bağlanandan və 1944-cü ildə Hitler ordusuna qarşı Avropada və Şimali Afrikada ikinci cəbhə açılandan sonra sovet ordusunun ardıcıl hücumları başlandı. Sovet ordusu Hitler ordusunu nəinki Sovet İttifaqının hüdudlarından çıxardı, eyni zamanda Avropada, xüsusən Şərqi Avropada alman qoşunlarını darmadağın etdi və o xalqları da azadlığa çıxartdı.

Müharibənin tarixi böyükdür. Bu haqda çox danışmaq olar. Ancaq mən bir neçə məqamları xatırladaraq, həm bugünkü nəsillərə, həm də gələcək nəsillərə İkinci dünya müharibəsinin nə qədər dəhşətli, nə qədər ağır və bütün bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu bir daha yada salmaq istəyirəm. Demək olar ki, İkinci dünya müharibəsi dünya tarixində aparılan müharibələrdən həm miqyasca, həm də vurduğu zərərlərə görə, insan tələfatına görə ən böyüyüdür. Faşistlər işğal etdikləri yerlərdə hər şeyi darmadağın edirdilər. Təkcə Sovetlər İttifaqından döyüşlərdə, işğal edilmiş torpaqlarda 27 milyon insan həlak olmuşdu. Azərbaycandan cəbhəyə gedən 600 min nəfərdən 300 mini qayıtmamışdır. Hamı bunlardan dərs almalıdır, nəticə çıxarmalıdır.

Doğrudur, İkinci dünya müharibəsindən sonra böyük müharibələr yoxdur. Amma dünyanın müxtəlif yerlərində lokal müharibələr baş veribdir. Lakin, təəssüflər olsun ki, bu lokal müharibələri aparanlar, yaxud onlara təşəbbüs göstərənlər İkinci dünya müharibəsindən özləri üçün nəticə çıxarmayıblar.

Dünyanın bir neçə bölgələrində hərbi münaqişələr var. Onlardan biri də Qafqazdır, Cənubi Qafqazdır. Xüsusən. Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması. Həmin o alman faşistləri kimi, Hitler kimi, hitlerçilər kimi, ermənilər də işğal edilmiş yerlərdə hər şeyi dağıdıblar. Əsrlər boyu yaşayıb-yaradıb, qurub özlərinə şəhərlər, yaşayış məntəqələri salmış, istehsal müəssisələri, təhsil müəssisələri yaratmış insanların, demək olar ki, 100–200 illik zəhməti nəticəsində meydana gəlmiş şəhərlər, kəndlər darmadağın olubdur. Erməni işğalçılarının Hitler ordusundan, alman faşizmindən heç də fərqi yoxdur. Ona görə də mən deyirəm ki, bəzi ölkələr, dövlətlər, xalqlar İkinci dünya müharibəsindən və onun nəticələrindən özləri üçün nəticə çıxarmalıdırlar.

Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcək, ərazi bütövlüyü bərpa olunacaqdır. Yerindən-yurdundan didərgin düşmüş həmvətənlərimiz öz torpaqlarına qayıdacaqlar. Ancaq bu, işin birinci hissəsidir. Buna nail olmalıyıq və nail olacağıq. Amma işin ikinci hissəsi ondan ibarətdir ki, həmin o darmadağın olunmuş torpaqlarda yenidən həyat qurmaq, insanların yaşaması üçün şərait yaratmaq lazımdır. Azərbaycanın taleyi XX əsrin sonunda çox ağır və çətin olub, bu gün də çətindir. Amma bununla belə, biz gələcəyə nikbinliklə baxırıq.

Hitler və onun ordusu dünyada, demək olar, ən böyük hərbi-texniki potensial toplayaraq İkinci dünya müharibəsini başladı və bunun nəticəsində də məğlub oldu, məhv oldu. Faşizm bütün dünya tərəfindən bir faciə, bir vəba kimi insanların hafizəsində yaşayacaqdır. Ancaq bəşəriyyət bir daha imkan verməz ki, faşizm meydana

gəlsin. Eləcə də indi müxtəlif yerlərdə müharibə aparanlar və xüsusən, öz ölkəmiz haqqında, Azərbaycana təcavüz edənlər haqqında demək istəyirəm, onlar bilməlidirlər ki, onlara heç vaxt bəraət qazandırılmayacaqdır. Onlar hesab etməsinlər ki, bu gün Şuşanın işğalını bayram edirlər və bu da onlar üçün əbədidir. Yox! Çoxəsrlik tarix belə hadisələri artıq kitablarda əks etdiribdir. Bunlar hamısı məlumdur – təcavüzkar həmişə cəzalandırılmalıdır. Təcavüzkar öz cəzasını almalıdır. İnsanları vəhşicəsinə öldürən, xəstəxanaları, məktəbləri dağıdan, evləri yandıran insanlar cəzalarını almalıdır və alacaqlar.

Bu gün bizim veteranların bir qrupu buradadırlar. Onlar bizim cəmiyyətimizdə ən hörmətli insanlardır. Onlar canlarını qoyublar, özlərini oda atıblar, güllə qarşısına atıblar. Çoxu həlak olubdur. Amma həlak olmayanlar da yaralar alıblar, çox əziyyətlər çəkiblər. Nə böyük xoşbəxtlikdir ki, onlar bu gün də bizimlə bir yerdədirlər, yaşayırlar. Allahdan arzu edirəm ki, onlar daim yaşasınlar. Ona görə veteranlara, həm müharibə veteranlarına, həm də İkinci dünya müharibəsində Azərbaycanda fəaliyyət göstərmiş insanlara, əmək veteranlarına – mən bunları bərabərləşdirirəm – xüsusi qayğı göstərilməlidir, onlara həmişə hörmət edilməlidir onların vətəni qorumaq, faşizm üzərində qələbə çalmaq sahəsində xidmətləri heç vaxt unudulmamalıdır.

Burada veteranlarla görüşəndə bir neçəsi mənə deyir ki, Siz bizə bayramımızı qaytardınız. Bilirsiniz, mən doğrudan da bununla fəxr edə bilərəm. Çünki 1991–92–93–cü illərdə Azərbaycanda Qələbə bayramının keçirilməsi qadağan edilmişdi. Mənim xatirimdədir, Naxçıvanda işlədiyim zaman biz həmişə Qələbə bayramını qeyd edirdik, veteranlarla görüşürdük. Orada da cəbhədə vuruşmuş, qəhrəmanlıq göstərmiş çox insanlar var. Onlarla yığışırdıq. Ancaq, təəssüflər olsun ki, o vaxt özlərini «böyük demokrat» adlandıran Xalq Cəbhəsinin hakimiyyəti dövründə onlara düşmən gözü ilə baxırdılar.

Mənim yadımdadır, Naxçıvanda işləyəndə Xalq Cəbhəsinin nümayəndələrindən birini Naxçıvan Muxtar Respublikasının Baş naziri qoymuşdum. Veteranlar onun yanına gedirdilər, o da onları qovurdu. Sonra isə deyirdi ki, ilanın yarpızdan zəhləsi getdiyi kimi, mənim də veteranlardan zəhləm gedir. Görün nə qədər mənfur fikirli, nə qədər mənəviyyatdan kənar olan insanlar idilər. Əlbəttə ki, onlar özlərini «demo- krat» adlandıraraq, bilmirlər, yaxud da bilmək istəmirlər ki – bütün bunların hamısı tarix kitablarında yazılıbdır – 1941–1945-ci illər Azərbaycan xalqı üçün nə qədər ağır illər olubdur. Mən o illəri yaşamış adamam. İndi bəzən bir yerdə elektrik işığı olmayanda, bir yerdə qaz gəlməyəndə, nə bilim, bir yerdə nəsə çatmayanda hay-küy edirlər və belə bir termin meydana çıxıb, «kütləvi aksiya» keçirmək istəyirlər.

Amma o vaxt mən özüm də o həyatı görmüşəm, o insanları da görmüşəm. Biz elektrik işığının nə olduğunu bilmirdik, qazın nə olduğunu bilmirdik. Xatirinizdədir, adi çörəyi kartoçka ilə alırdıq. Mən hələ arxa cəbhədə olanları deyirəm. İşləyən adama 600 qram çörək verirdilər. İşləməyən adama, yəni ailə üzvünə 400 qram çörək verirdilər. Bundan savayı heç bir şey yox idi. İnsanlar bununla yaşayırdı. Mənim özüm də bu həyatı görmüşəm.

Həmin bu «demokratların» – əlbəttə, onlar demokrat olan deyillər – ataları, babaları o cür əziyyətləri çəkiblər, vətəni qoruyublar, saxlayıblar və əziyyət çəkərək, çox şeylərdən məhrum olaraq Azərbaycanı bu cür gözəl bir diyara çeviriblər. Bəs necə ola bilər ki, sən bunlara nəinki hörmət etməyəsən, hətta nifrət hissi yaradasan. Bu o deməkdir ki, onlar öz atasına, öz anasına belə hisslə yaşayan insanlardır.

Xatirimdədir, burada veteranlardan bir qismi məlumat almışdı ki, biz Naxçıvanda 9 May Qələbə bayramını keçiririk. Onlar burada imkanları olmadığına görə, oraya, Naxçıvana gəlirdilər. Buradan təyyarə ilə uçub, çətinliklərlə gəlirdilər. Nə üçün? Bu bayram gününü qeyd etmək üçün. Bu bayram günü hamımız üçün əzizdir və biz gənclərə də tərbiyə verməliyik ki, onlar üçün də əziz olsun. Amma bu insanlar üçün ən əzizdir.

Mənim xatirimdədir, 1993-cü ilin may ayının 9-da biz səhərdən Qələbə bayramını keçirməyə hazırlaşırdıq. Şəhərdə müəyyən işləri gördük, Şəhidlər xiyabanına getdik, başqa işləri gördük. Ondan sonra gəlib salona toplaşarkən gördüm ki, başda mərhum Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov olmaqla, bir dəstə müharibə veteranı bayramı məhz bizimlə keçirmək üçün gəliblər. Mən buna sevindim. Amma onlar nə qədər sevindilər! Mən bunu gördüm və şahidi oldum.

Təəssüflər olsun ki, biz belə dövrləri yaşamışıq. Çox təəssüflər olsun. Ancaq belə dövrlər müvəqqətidir. Bu heç vaxt daimi ola bilməz. Xalq bunlara yol verə bilməz. Biz tariximizin heç bir səhifəsini unutmamalıyıq. Tariximizin faciəli səhifələri də var. Bəli, xalqımıza təcavüz olubdur, repressiyalar olubdur. Buradan, Azərbaycandan günahsız adamlar sürgün ediliblər, ailələr dağılıb, günahsız adamlar öldürülüblər. Bu da var. Bunu da unutmamalıyıq. Ancaq İkinci dünya müharibəsini və İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbə çalmaqda bilavasitə iştirak edən insanları heç vaxt unutmamalıyıq. Biz nə qədər varıq, siz varsınız, əziz veteranlar, sizə qayğı olacaq, sizə hörmət olacaqdır. Siz Azərbaycanın ən mötəbər adamlarısınız. Amma bu gün buraya az gəlmisiniz. Deyirlər, qalanları o biri rayonlarda yığışıblar.

Əziz veteranlar!

Mən sizi bir də təbrik edirəm, hər birinizə cansağlığı arzu edirəm. Veteranlarımız nə qədər əziyyət çəkiblərsə də, bir o qədər də iradəli adamlardırlar. Baxıram, bəziləri heç qocalmır da. İndi mən Zoya xanımla – sənin əsl adın Dürrədir, sənə o vaxt Zoya deyirdik – görüşürəm. Deyirəm, səni 30 il bundan qabaq da görmüşəm, elə beləsən. Nə cür idinsə, indi də eləsən. Mən başa düşürəm niyə belədir. Çünki bunlar bərkə-boşa düşmüş adamlardır. O ağır dövrü keçirən adam mütləq daha da möhkəm olur, daha da iradəli olur. Hansısa xəstəlik

gəlirsə, onun qarşısını özü alır. Mən arzu edirəm ki, siz bundan sonra da yaşayasınız, müstəqil Azərbaycanın həyatında fəal iştirak edəsiniz. Bizim gənc nəslin tərbiyəsində iştirak edəsiniz. Siz də bilin ki, həm dünyadan gedənləri, həm də bu gün yaşayanları xalq, millət, dövlət heç vaxt unutmayacaqdır. Sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı arzu edirəm. Sağ olun.

**NORVEÇİN KRALI**
**ƏLAHƏZRƏT V HARALDA**

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və dost Norveç xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Norveç arasındakı münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 may 2001-ci il*

**NORVEÇİN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YENS STOLTENBERQƏ**

Hörmətli cənab Baş nazir!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və dost Norveç xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında gündən-günə genişlənməkdə olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimizin hərtərəfli inkişafı xalqlarımızın və ölkələrimizin rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 may 2001-ci il*

## TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, SƏFİR YİGİT ALPOĞLAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*13 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mən çox məmnunam ki, Ankarada, sonra İstanbulda olarkən, yəni prezidentlə, Xarici İşlər naziri ilə danışıqlar apararkən siz də bizimlə bərabər idiniz və bu danışıqlarda çox fəal iştirak edirdiniz.

Hörmətli prezident Əhməd Necdət Sezər doğum günümü təbrik etmək üçün mənə telefon etmişdi. Eyni zamanda mənə dedi ki, siz buraya gələcəksiniz, sizinlə bəzi məsələləri müzakirə edəcəyik, onun bəzi fikirlərini mənə çatdıracaqsınız.

Birincisi, onu demək istəyirəm ki, mən son vaxtlarda iki dəfə Türkiyədə olmağımdan çox məmnunam. Hesab edirəm, mənim mart ayındakı rəsmi səfərim çox uğurlu keçdi və Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsi üçün yeni bir addım oldu. İkinci dəfə isə İstanbulda olmağımı, yəni türkdilli ölkələrin dövlət başçılarının toplantısını da çox əlamətdar hadisə hesab edirəm. Çünki bəzən bu toplantı alınmır, bəzən vaxtı keçir, filan olur. İndi bəzi dəyişikliklər olduğuna görə də mən narahat idim ki, necə olacaq. Amma bir il keçəndən sonra İstanbulda vaxtında toplaşdıq. Çox da gözəl təşkil olunmuşdu. Xatirinizdədir, bunu mən orada həm toplantıdan sonra, həm də ziyafətdəki nitqimdə söylədim. Çox gözəl təşkil olunmuşdu. Mən çox məmnunam. Hesab edirəm ki, bütün digər cümhur başqanları da məmnundurlar. Yaxşı da mətbuat konfransı keçirdik. Biz orada bir bəyanat imzaladıq və bu, türkdilli dövlətlərin gələcəkdə bir-birinə daha da yaxınlaşması üçün çox əhəmiyyətlidir.

Mən dəfələrlə demişəm ki, bunda Türkiyənin rolu çox böyükdür. Çünki Türkiyə bu işin əsasını qoyandır. Türkiyə bu birliyin təşəbbüskarıdır. İndi də əgər hamımız toplaşırıqsa, Türkiyənin ətrafında toplaşırıq. Ona görə mən çox məmnunam. Bakıya dönəndən sonra mən hörmətli prezident Əhməd Necdət Sezərə telefon edib bunları demişdim. Eyni zamanda orada sizinlə başqa məsələləri də müzakirə etmişdik. Yenə də deyirəm, cümhur başqanı mənə söylədi ki, siz buraya gəlirsiniz. Çox məmnunam. Çünki siz həm Ankarada, həm də İstanbulda bizim görüşlərimizdə bilavasitə iştirak etdiniz və biz məsələləri birlikdə təhlil edirdik. Buyurun.

**Y i g i t  A l p o ğ l a n:** Hörmətli Prezidentim, sağ olun. Hər şeydən əvvəl, Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Mayın 10-u Sizin doğum gününüz olduğunu bilirdim. Bununla bağlı Sizə çoxlu salam gətirmişəm. Bizim prezidentimiz Əhməd Necdət Sezər Sizə sevgilərini, salamlarını, hörmət və ehtiramını, xoş diləklərini göndərdi. Mənim nazirim də Sizə xoş arzularını bildirdi. İnşallah, burada yaxşı danışıqlar aparacağımızı söylədi.

Sizə bir salam da var. O da Ərtan Paşadan. Ərtan Paşa ilə mən görüşə bilmədim.

**H e y d ə r  Ə l i y e v:** Onun qardaşı sizin Qazaxıstandakı səfirinizdir.

**Y i g i t  A l p o ğ l a n:** Bəli, onun qardaşı orada böyük elçidir. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündən sonra cərrahiyyə əməliyyatı keçiribdir. İndi müalicə olunur.

**H e y d ə r  Ə l i y e v:** Onu bilirəm.

**Y i g i t  A l p o ğ l a n:** Mən dünən Gülhanə xəstəxanasında onu, səfirimizi ziyarətə getmişdim. Orada Ərtan Paşaya, onun ailəsinə, xanımına buraya gələcəyimi söylədim. Dedim ki, bir istəyiniz, sözünüz varsa, çatdıraram. Onlar da ad gününüz münasibətilə Sizə səmimi təbriklərini çatdırmağı xahiş etdilər, hörmətlərini bildirdilər. Mən bunları Sizə çatdırmaq istəyirdim.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun.

**Y i g i t  A l p o ğ l a n:** Hörmətli Cümhur başqanım, dediyiniz kimi, Türkiyədə sizinlə olan görüşlərdən böyük məmnuniyyət duyanlar vardır. Biz iki qardaş dövlət, eyni millətik. Bu mənada Türkiyədə hər kəs Sizə, Azərbaycana kömək, yardım, dəstək verməyə hazırdır. Biz son dərəcə məmnunuq ki, işbirliyimiz bu sahədə də davam edir və fikir mübadiləsində biz çox böyük fayda görürük. Məni də buraya bu iş üçün göndərdilər. Sizə bəzi məsələləri ərz edəcəyəm, bilgilər verəcəyəm. Sizin tapşırıqlarınızı da Ankaraya çatdıracağam. Onlar məndən xəbər gözləyirlər.

**H e y d ə r  Ə l i y e v:** Biz çox yaxşı işbirliyi qurmuşuq. Mən sizin yanınızda hörmətli nazir İsmayıl Cəmə də söyləmişdim. Sonra hörmətli prezident Sezərə də söyləmişdim ki, bizim bəzi işlərimizin daha da səmərəli getməsi üçün belə imkanlardan istifadə edilməsi lazımdır.

**Y i g i t  A l p o ğ l a n:** Doğrudur.

**H e y d ə r   Ə l i y e v:** Məsələn, lazım olanda oradan siz, ya digər bir adam gəldiniz. Yaxud da ki, mən buradan kimisə göndərim. Gözləməyək ki, biz nə vaxt görüşəcəyik, məsələləri o vaxt müzakirə edəcəyik. Ona görə də biz o vaxt sözləşmişdik. Mən çox məmnunam ki, bu, həyata keçirilir. İndi biz sizinlə bir neçə məsələləri müzakirə edəcəyik.

## TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*14 may 2001-ci il*

**A k k a n  S u v ə r:** Çox hörmətli Cümhur başqanımız!

Əziz şərəf başqanımız!

Zati-aliləri Heydər Əliyev!

Sözlərimə başlamazdan öncə, doqquzuncu cümhur başqanımız, çox hörmətli Süleyman Dəmirəlin salamlarını, hörmət və ehtiramını Sizə yetirirəm.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun.

**A k k a n  S u v ə r:** Yeni yaşa qədəm qoyduğunuz bu günlərdə Sizə uzun ömür diləyir, ad gününüzü təbrik edirik.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun.

**A k k a n  S u v ə r:** Məlumunuz olduğu kimi, ötən ilin may ayında zati-dövlətinizə bu salonda keçən ilin hesabatını vermişdik. Bu gün də icazənizlə, 2000-ci ilin may ayından indiyə qədər gördüyümüz işlər barədə məlumatı Sizə çatdırmaq istəyirəm. Çünki Siz bizim şərəf başqanımızsınız.

**H e y d ə r  Ə l i y e v:** Buyurun.

**A k k a n  S u v ə r:** Möhtərəm Prezidentimiz, «Mərmərə Qrupu» vəqfi olaraq çalışmamızı üç əsas istiqamətdə həyata keçiririk. Birincisi, milli sahədə gördüyümüz işlərdir. Bunlara misal olaraq aylıq toplantılarımızı göstərə bilərik. Türkiyənin siyasi, sosial həyatı ilə bağlı hər ay keçirdiyimiz toplantılarda ölkənin gündəlik həyatını müzakirə etməyə çalışdıq. Dövlət nazirimiz hörmətli Yüksəl Yalova, Dünya Bankının Türkiyə təmsilçisi Ajay Çibber, Cümhuriyyət Xalq Partiyasının yeni Baş katibi Dəniz Baykal və başqaları bu ilki toplantılarımızda çıxış etdilər.

Keçən il Sizi ziyarət edəndən sonra vəqfimizin 15 illiyini qeyd etdik. Bu yubileyimizdə İstanbulun bələdiyyə başqanı, valisi, İstanbuldan olan millət vəkilləri, iş adamları iştirak etdilər. Bildirirəm ki, bu gözəl günümüzdə azərbaycanlı qardaşlarımız da bizi yalqız buraxmadılar. Milli Məclisin deputatı, xalq yazıçısı Anarın rəhbərliyi ilə deputatlar – Aslan Abbasov, Asya Manafova, professor Vaqif Arzumanlı, jurnalist Ramiz Əsgər və hörmətli professor Vaqif Qasımov tədbirimizə təşrif buyurdular və bizi sevindirdilər. Sizin qarşınızda onlara bir daha təşəkkür edirəm.

Hər il olduğu kimi, bu il də İstanbulda Din işləri başqanımız Məhəmməd Nuri Yılmazın rəhbərliyi ilə «Dinlərarası dialoq» adlı iftar yeməyimizi yunan, erməni patriarxlarının, Musəvi xaxamının və başqalarının iştirakı ilə gerçəkləşdirdik. Ona aid ingilis dilində nəşr olunmuş qəzeti Sizə təqdim etmək istəyirəm.

(*Cənab Akkan Suvər qəzetin bir nüsxəsini prezident Heydər Əliyevə təqdim edir*).

Çox hörmətli cümhur başqanımız, işimizin ikinci istiqamətini təşkil edən beynəlxalq sahədəki fəaliyyətimizin ən böyüyü Üçüncü Avrasiya İqtisadi Zirvə Toplantısı və Avrasiya Qadınlar Konqresi idi. Ötən il bunları uğurlu nəticə ilə sona çatdırdıq. Avrasiya ölkələri ilə yanaşı, Orta Avropa ölkələrini də özündə birləşdirən zirvə toplantımızda 32 ölkədən 192 nəfər iştirak etdi. Onların 17 nəfəri nazir idi.

Böyük minnətdarlıq hissi ilə qeyd edirəm ki, bizim bu toplantımıza zati-dövlətinizin hər zaman yüksək önəm verən mesajınız hamımızı şərəfləndirdi. Bizə verdiyiniz dəstəyə görə Sizə öz adımdan və həmkarlarım adından minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

Azərbaycanın nümayəndə heyəti bu zirvə toplantısında bizi şərəfləndirdi. Hüzurunuzda xanım Zəhra Quliyevaya, hörmətli İslam Tağıyevə, Rəfiqə Hüseynzadəyə, Asya Manafovaya, Zeynəb Xanlarovaya, Mələk Bayramovaya, Mail Dəmirliyə, Ramiz Əsgərə, Xalid Niyazova və Vaqif Qasımova təşəkkürlərimi bildirirəm.

Üçüncü Avrasiya İqtisadi Zirvə Toplantısında cümhur başqanımız hörmətli Əhməd Necdət Sezərin həyat yoldaşı Səmra Sezərin himayəsində Avrasiya Qadınlar Təşkilatı da gerçəkləşdirildi. Hörmətli Zəhra Quliyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanın qatıldığı bu zirvə toplantısı uğurla başa çatdı.

Dəyərli Cümhur başqanımız!

İşimizin üçüncü istiqaməti isə Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələrimizin möhkəmlənməsidir. Siz bilirsiniz, noyabr ayında Belarusda keçirilən seçkilər zamanı «Mərmərə Qrupu» vəqfinin iki təmsilçisi BMT tərəfindən müşahidəçi kimi Minskə göndərilmişdi. Bu bizim üçün ilk məsul işdir və bunun sevincini zati-alinizlə paylaşırıq.

Keçən ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda keçirilən illik sessiyasında iştirak edərək, ölkəmizi təmsil etməkdən şərəf duyuruq. Vəqfimizin insan haqları platforması çərçivəsində bu il türk–yunan qadınlarının barış toplantısı keçirilmişdir. Bolqarıstanın əski cümhur başqanı hörmətli Jelyu Jelev vəqfimizi ziyarət etmişdir. Moldovanın, Rumıniyanın, Albaniyanın, Bolqarıstanın, Türkiyənin əski cümhur başqanları və Yunanıstanın əski Baş naziri Balkan klubu yaratmaq arzusunda olduqlarını bildirmiş, sivil təşkilat kimi, «Mərmərə Qrupu» vəqfinin ona rəhbərlik etməsini istədiklərini söyləmişlər.

Əziz cümhur başqanım, bütün bunlarla yanaşı, vəqfimizin insan haqları platforması, mədəniyyət qrupu qadınlarla bağlı bir sıra proqramları həyata keçirir. Vəqfin İstanbul qrupu tərəfindən hər il 120 qadına 3 aylıq təlim kursları keçilir.

Əziz şərəf başqanımız!

Bu il noyabrın 8-9-10-da 4-cü Avrasiya İqtisadi Zirvə Toplantısını keçirəcəyik. Əgər imkanınız olsa, təşrif buyurmağınızı, imkanınız olmasa, mesajınızla bizi şərəfləndirmənizi istərdik. Arzu edirik ki, həmişə olduğu kimi, Azərbaycan nümayəndə heyətini yanımızda görməkdən sevinc hissi duyaq. Bu il keçiriləcək zirvə toplantısında Hindistanın da nümayəndələri iştirak edəcəklər. Həmin tarixdə gerçəkləşdirəcəyimiz Avrasiya Qadınlarının İkinci Konqresinə həm mesajınızı gözləyirik, həm də yüksək nümayəndə heyətininizin bu tədbirdə iştirak etməsinə icazə verməyinizi istərdik.

Yeri gəlmişkən, bir təşəkkürümü də ərz edim. Bu da Sizin şəxsinizdə Azərbaycan alimlərinə olan minnətdarlığımdır. Onlar mənə doktor adı verdilər. Mən bunu şəxsi adıma deyil, bütün Türkiyə adına qəbul edirəm. Siz bu doktorluq adını bütün Türkiyəyə verdiniz. Sizə bir daha minnətdarlığımı bildirirəm.

Hörmətli Prezidentim, bir gözəl xəbərimiz də vardır. Vəqfimiz «Heydər Əliyev Kültür Mərkəzi»nin yaradılması barədə böyük həvəslə qərar qəbul etmişdir. «Heydər Əliyev Kültür Mərkəzi»nin təşkili üçün sənədlər əldə edilməsi barədə bizə yardım göstərməyiniz rica olunur.

Siz şərəf başqanımız olduğunuz üçün tam məlumatınız olsun deyə, birillik hesabatımızı zati-dövlətinizə ərz etdik. Siz bizə güvənirsiniz. Biz də Sizlərə layiq xidmətlər göstərməyə çalışırıq. Bizi qəbul edib dinlədiyiniz üçün Sizə öz adımdan və həmkarlarım adından ən dərin sayğılarımızı bildirir, doğum gününüzü bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

Hörmətli dostlar, siz mənim yaxın dostlarımsınız. Bir neçə ildir ki, bizim bu dostluğumuz daha da möhkəmlənir.

Mənim doğum günümü təbrik etdiyinizə görə sizə təşəkkür edirəm. Mən sizin təbrik məktubunuzu almışam. İndi burada şəxsən də bu sözləri dediniz. Təşəkkür edirəm. Çalışacağam ki, sizin arzularınızı və istəklərinizi bundan sonra da yerinə yetirim. Nə qədər ki, yaşayacağam, o qədər də çalışacağam.

Mənim əziz dostum, qardaşım, Türkiyənin 9-cu cümhur başqanı Süleyman Dəmirəldən gətirdiyiniz salama, hörmət və ehtirama görə də təşəkkür edirəm. Məlumdur ki, «Mərmərə Qrupu» vəqfinin iki şərəf başqanı vardır. Birincisi hörmətli Süleyman Dəmirəldir, ikincisi də məni seçmisiniz. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm. Sizin vəqfdə böyük bir toplantıda nitq edən zaman vəqfiniz haqqında, mənə göstərdiyiniz hörmət və ehtirama, məni şərəf başqanı seçdiyinizə görə öz minnətdarlığımı bildirmişdim. Bu gün minnətdarlığımı bir daha bildirirəm.

Siz gördüyünüz işlər haqqında burada mənə məlumatlar verdiniz. Mən bəzi bilgiləri alıram. Amma indi siz tam şəkildə bunu mənə verdiniz. Bu bilgilərdən görünür ki, «Mərmərə Qrupu» vəqfi, həqiqətən çox böyük işlər görür. İndi elan etdiyiniz böyük nailiyyətlərə görə sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, vəqfiniz bundan sonra da bu cür çalışacaqdır. Ən önəmlisi odur ki, «Mərmərə Qrupu» vəqfi Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etməsində böyük rol oynayır.

Türkiyədə vəqflər çoxdur. Onların bir çoxu ilə Azərbaycanın yaxınlığı var. Amma sizin vəqf kimi, Azərbaycana diqqət, qayğı və maraq göstərən başqası yoxdur. Ona görə də mən çox sevgi-məhəbbətlə sizi qəbul edirəm və gördüyünüz işlər məni sevindirir. Güman edirəm ki, bundan sonra da işlər hələ çoxdur, görüləcəkdir.

Mənim Türkiyəyə mart ayındakı rəsmi ziyarətim, hesab edirəm ki, çox uğurlu oldu. Mən təxminən bir həftə Türkiyədə oldum. Hörmətli prezident, əziz dostum Əhməd Necdət Sezər ilə, Baş nazir hörmətli Bülənd Ecevitlə, Baş nazirin müavini Dövlət Baxçalı ilə, Baş Qərargah rəisi Hüseyn Kıvrıqoğlu ilə və digərləri ilə çox ətraflı danışıqlar apardıq.

Böyük Millət Məclisində, Türkiyənin 550 millət vəkilini toplamış belə bir parlamentdə yenidən xitab etməyim mənim üçün böyük şərəfdir. Siz bilirsiniz ki, mən də bundan lazımi qədər istifadə etdim. Mən orada hər bir şeyi açıq-aydın söylədim. Həm Azərbaycan haqqında, həm də Türkiyə–Azərbaycan əlaqələri haqqında.

Eyni zamanda indi ermənilərin, erməni diasporunun Türkiyəyə qarşı apardığı təbliğata və erməni lobbisinin Türkiyəyə ədalətsiz iddialarına qarşı Azərbaycanın, həm xalqın, həm dövlətin, həm də bütün siyasi-ictimai qurumların – hamısının birlikdə fikirlərini Böyük Millət Məclisinin toplantısında millət vəkilləri qarşısında elan etdim.

Nəhayət, qısa zamandan sonra İstanbula gəldim, sizinlə yenə görüşdük. Orada türkdilli ölkələrin dövlət başçılarının görüşü keçirilirdi. Bu məni çox sevindirdi. Çünki bir il bundan öncə aprel ayında bu toplantı Azərbaycanda keçirilmişdi və biz burada «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini birlikdə qeyd etdik. Eyni zamanda türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə görüşünü keçirdik. Düz bir ildən sonra, yenə də aprel ayında bu zirvə görüşünün keçirilməsi məni çox sevindirdi. Çünki sizdə hakimiyyət dəyişikliyi olmuşdu.

Mən bilirəm ki, bəzən türkdilli ölkələrin başqanlarını bir yerə yığmaq o qədər asan olmur. Ona görə yox ki, istəmirlər, ona görə ki, hərənin bir proqramı var, hərənin bir işi var. Bir gün birinə münasib deyil, o biri gün o birisinə münasib deyildir. Mənim bu ay və gələn ay o qədər böyük proqramlarım var ki, birini oradan deyirlər, birini buradan deyirlər. Bu gəlir bunun üzərinə düşür, o gəlir onun üzərinə düşür. Mən birinə, yəni bir hökumətə, dövlətə, təşkilata deyəndə ki, buraya gələ bilmərəm, deyirlər ki, biz beş cümhur başqanı ilə razılaşdırmışıq, sən gəlməsən bu pozulacaqdır. Amma mən bunu da poza bilmərəm. Yəni bizim işimizdə belə çətinliklər var. Təkcə məndə yox, belə çətinliklər hamıda var. Amma Türkiyə, hörmətli Əhməd Necdət Sezər vaxtı çox gözəl seçmişdi və yaxşı danışıqlar aparmışdı. Bizim hamımız, türkdilli ölkələrin dövlət başçıları toplaşdıq. Orada iki gün gözəl müzakirələr keçirildi və hesab edirəm ki, bunun bizim Türkdilli Dövlətlər Birliyinin daha da inkişaf etməsi üçün çox böyük əhəmiyyəti oldu.

Mən çox məmnunam ki, orada sizinlə də görüşdüm, söhbət etdik. Siz demişdiniz Azərbaycana gələcəksiniz. Amma mən fikirləşirdim ki, bəlkə gəlməyəcəksiniz, işiniz olacaqdır. Amma gəlmisiniz. Mənə dedilər ki, üç gündür buradasınız. Azərbaycanı yenidən görünüz. Bizim həyatımızı görürsünüz, insanlar necə yaşayır, onu görürsünüz.

Mənə dedilər ki, sizə Təfəkkür Universitetində fəxri doktor adı veriblər. Mən sizi bu münasibətlə də təbrik edirəm və çox sevinirəm. Siz fəxri doktor adına çoxdan layiqsiniz. Bəlkə də bir universitetdə yox.

Mən Türkiyənin universitetlərinin çoxunda fəxri doktor adını almışam. Amma indi sayını itirmişəm. Bir neçəsi də mənə çoxdan fəxri doktor adı veribdir. Məsələn, Ərzurum Atatürk Universitetidir, Bilkənd Universitetidir və başqaları.

**Akkan Suvər:** Sizə İspartada Süleyman Dəmirəl adına Universitet də fəxri doktor adı veribdir.

**Heydər Əliyev**: Mən aldıqlarımı demirəm, aldıqlarımı almışam. Amma bundan sonra da alacağam.

**Akkan Suvər:** İnşallah.

**Heydər Əliyev:** Bu dəfə Ankarada olanda Ankara Universitetində aldım. Aldıqlarımı çox almışam. Mən 7-8 Universitetin fəxri doktoruyam. Təbiidir ki, bu da Azərbaycana Türkiyənin universitetləri tərəfindən göstərilən yüksək qiymətdir. O cümlədən mənim şəxsiyyətimə və gördüyüm işlərə verilən qiymətdir. Mən bunlara görə də təşəkkür edirəm.

Mən sizin vəqfə bir daha uğurlar arzulayıram. Bizim tərəfimizdən nə lazımsa bundan sonra da edəcəyik ki, vəqfiniz yaşasın, inkişaf etsin. Xüsusən, Azərbaycanla Türkiyə arasındakı əlaqələrin inkişaf etməsi üçün bundan sonra daha da çox iş görsün.

**Akkan Suvər:** Möhtərəm Cümhur başqanım, hörmətli Şamil Ayrım vəqfimizin qurucularından biri, Ali Məsləhət Şurasının üzvü, eyni zamanda Türkiyə Böyük Millət Məclisinin deputatıdır.

**Heydər Əliyev:** Yaxşı tanıyıram. Mənim əski dostumdur.

**Akkan Suvər:** Çox gözəl. Siz İstanbulda olarkən hörmətli Koray Böyükasar bizimlə birlikdə idi. O, «Mərmərə Qrupu» vəqfinin İcra Şurasının üzvüdür. Hörmətli Vaqif Qasımovu isə tanıyırsınız.

**Heydər Əliyev:** O da sizin ailədəndir.

**Akkan Suvər:** Çox düz buyurursunuz. Şamil Ayrımın Sizə deyəcəyi gözəl sözləri var. O, eyni zamanda Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri və Türkiyə parlamentinin NATO-dakı nümayəndə heyətinin üzvüdür.

**Heydər Əliyev:** Buyurun.

**Şamil Ayrım:** Hörmətli Cümhur başqanım, əvvəlcə çox təşəkkür edirəm. Sizi doğum gününüz münasibətilə təbrik edir, uzun ömür arzulayıram. İnanıram ki, Azərbaycan Sizin kimi liderin sayəsində Ermənistanla olan problemlərini sülh yolu ilə ən qısa zamanda çözəcəkdir.

Mən Sizin Amerikadakı görüşlərinizi istər İnternet vasitəsilə, istərsə də qəzetlər vasitəsilə çox yaxından izləyirdim. Sizin oradakı çıxışlarınızı, ikili görüşlərinizi çox həssaslıqla dinləyirdim. İnanıram ki, önümüzdəki mərhələdə Azərbaycan çox gözəl addım atacaqdır. Çünki digər liderlərlə müqayisədə Sizin zəngin təcrübəniz vardır. Bu problemin sülh yolu ilə aradan qaldırılmasını səmimi-qəlbdən arzu edirik. İnşallah, bu olacaqdır.

Akkan bəyin dediyi kimi, mən Türkiyə parlamentinin NATO-dakı nümayəndə heyətinin üzvüyəm. Bu ayın sonunda, mayın 27-də Vilnüsdə NATO-nun toplantısı olacaqdır. Mən parlament sədrinin müavini Ziyafət Əsgərovla da görüşdüm. O da NATO-nun toplantısında iştirak edəcəkdir.

Azərbaycanın bu tədbirdə iştirak etməsi son dərəcə önəmlidir. Biz Türkiyə olaraq, bunu ən yaxından dəstəkləyirik. Orada nəticə əldə etməyimiz lazımdır. Gücümüz çatan qədər əlimizdən gələni edəcəyik. İstərdik bunu biləsiniz.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bildirirəm ki, Azərbaycanla bağlı ən doğru işləri görmək üçün ziyarətə gəldim. Biz həmkarlarımızın fəaliyyətini ürəkdən dəstəkləyirik. Sizin bu qədər dəstək verməyiniz, şəxsinizdə azərbaycanlı qardaşlarımızın dəstək verməsi bizim üçün çox önəmlidir. Ona görə də göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri kimi, üzərimə nə düşərsə, Azərbaycana hər zaman hər cür dəstəyə hazıram. Əlbəttə, Türkiyə hökumətinin yeritdiyi siyasət çərçivəsində səmimi duyğularımızla həmişə Sizin yanınızdayıq. Bizi qəbul etdiyiniz üçün Sizə bir daha hörmət və ehtiramımı bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Sən mənim əski dostlarımdansan.

**Ş a m i l A y r ı m:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Həm Böyük Millət Məclisində, həm də başqa yerlərdə çox işlər görürsən və xüsusən, Azərbaycan ilə Türkiyə arasındakı dostluğun möhkəmləndirilməsində çox böyük işlər görürsən.

Siz Naxçıvanda Hüseyn Cavidin abidəsinin açılışına da gəldiniz. Mən onda çox sevindim. Çünki Hüseyn Cavid təkcə Azərbaycanın yox, həm də Türkiyənin böyük yazarı, alimi idi. Sən bilirsən, onun cənazəsini, yəni nəşini mən hələ 1981-ci ildə Sibirdən gətirtmişdim. Çünki Cavidi 1938-ci ildə oraya sürgün etmişdilər. Orada vəfat etmişdi və onu orada dəfn etmişdilər. Mən onu aradım, tapdım gətirdim. Mən sənə o vaxt da söylədim, əlbəttə, məmnun oldum. Çünki o, böyük bir şəxsiyyət idi. Onda söylədilər ki, onu burada torpağa verək – Bakıda şərəfli adamlar üçün Fəxri xiyaban var, bilirsiniz. Mən isə dedim yox. Onu Naxçıvanda torpağa vermək lazımdır. Çünki onun vətəni Naxçıvandır, orada doğulubdur. Orada torpağa vermək lazımdır. Mənə dedilər yox, Naxçıvan kiçik bir yerdir. Amma o, böyük bir adamdır. Dedim, bizim Fəxri xiyabanda böyük adamlar çoxdur. Amma Naxçıvanda qəbiristanlıqda yox, şəhərin mərkəzində ona bir abidə ucaldıb nəşini oraya qoysaq, bu daha yaxşı olacaqdır. Mənim bu təklifim qəbul edildi. Baxmayaraq ki, etiraz edənlər çox idi. Amma görün, həyat nə cür oldu.

Mən ondan sonra Moskvaya işləməyə getdim. Orada çalışdım. Sonra da bilirsiniz ki, mən bütün işlərdən kənar oldum. 1990-cı ildə isə Sovetlər Birliyi Azərbaycana hərbi təcavüz etdiyinə görə mən buna etiraz etdim, Kommunist Partiyasından çıxıb buraya gəldim. Məni burada da yaşamağa qoymadılar. Naxçıvana getdim. Məni Naxçıvanda xalq çox hərarətlə qarşıladı. Amma soruşdum, Hüseyn Cavidin qəbri mən dediyim kimi yaradılıbdır, yoxsa yox? Dedilər ki, yox. Bəs haradadır? Oradadır, üstündə bir daş var. Mən evimdən çıxdım – mitinq var idi, Naxçıvanın hər yerindən 50 minə qədər insan toplaşmışdı – mitinqə getməmişdən öncə dedim, mən Hüseyn Cavidin məzarını ziyarət edəcəyəm. Gəldim, çox pis bir vəziyyətdə gördüm. Çox məyus oldum.

Naxçıvanda çalışan zaman istədim ki, orada bir türbə, abidə yaradım. Ancaq onda imkanım, param yox idi. Naxçıvan blokadada idi. Yaşamaq mümkün deyildi, elektrik işığı yox, filan yox. Amma buraya gələndən sonra imkanlarım oldu və onu etdim. Çox gözəl abidə yarandı, səninlə bir yerdə açdıq. İndi ora ziyarətgah olubdur. Müqəddəs bir yer kimi, insanlar oraya ziyarətə gedirlər.

**Ş a m i l A y r ı m:** Bəli. Doğrudur.

**H e y d ə r Ə l i y e v:** Amma bir şey də etdim. Onun xanımını da, oğlunu da – xanımının nəşini buradan apardım, oğlu da İkinci dünya müharibəsi zamanı Naxçıvanda vəfat etmişdi, orada dəfn olunmuşdu – orada dəfn etdirdim. Üçü də bir yerdə. Bu mənim vətəndaşlıq borcum idi, bunu da etdim.

Bunu ona görə bir də söyləyirəm ki, çox məmnunam ki, siz o vaxtlar oraya gəldiniz. Bir yerdə bu işi gördük. Elə bir bu deyil axı. Mən hər dəfə Türkiyəyə gələndə sizinlə görüşürəm. Bilirəm ki, siz Azərbaycan–Türkiyə əlaqələrinin inkişaf etməsi üçün çox işlər görmüsünüz. Buna görə də sizə çox təşəkkür edirəm.

**Ş a m i l A y r ı m:** Hörmətli Cümhur başqanım, sağ olun.

**A k k a n S u v ə r:** Biz bu gün oğlunuz İlham bəyi də ziyarət edəcəkdik. Amma yox idi, görüşə bilmədik. Ona aid iki xatirə hədiyyəmiz var. Biz onu vəqfimizin üzvü seçdik. Onun üzvlük hədiyyəsi ilə, eyni zamanda mənim bir hədiyyəm də var. O da boks ilə bağlıdır. Çünki mən Türkiyədə uzun illər Boks Federasiyasının vitse-prezidenti olmuşam.

**H e y d ə r Ə l i y e v:** Siz onunla görüşmək istəyirsinizsə, mən deyərəm. O bizim Milli Olimpiya Komitəsinin prezidentidir. Azərbaycanda idmanın inkişaf etməsi üçün yeni-yeni idman mərkəzləri tikir. Dünən axşam mənə söylədi ki, şəhərdən bir az uzaqda Maştağa qəsəbəsi var, orada idman mərkəzi yaratmaq istəyir, səhərdən oraya gedəcəkdi. Ola bilər, oraya getmiş olsun. Amma əgər siz istəyirsinizsə, mən ona indi telefon edərəm. Onunla da görüşərsiniz.

**A k k a n S u v ə r:** Çox məmnun olardıq. Onun hədiyyələrini də özünə təqdim edərik.

**H e y d ə r Ə l i y e v:** Özünə verərsiniz.

**A k k a n S u v ə r:** Cənab Prezident, Sizdən bir xahişimiz var. Bizim zirvə toplantımızda plaketləri Süleyman bəy təqdim edirdi. Amma Vaqif Qasımovun plaketini isə bizim şərəf başqanımız kimi, Sizin təqdim etməyinizi istəyirik. O, üç ildir xidmət göstərir. Bu plaketi qarşımızda Vaqif bəyə versəniz, çox sevinərdik.

**H e y d ə r Ə l i y e v:** Sizə təqdim edim?

**A k k a n S u v ə r:** Yox. Vaqif bəyə.

**H e y d ə r  Ə l i y e v:** Vaqif bəyə təqdim edərəm. Mən əskidən, keçmişdə burada Vaqif bəylə çalışmışam. O burada vəzifələrdə çalışıbdır. İndi son illərdir sizinlə bərabər çox önəmli işlər görür. Ona görə vəqfin bu plaketini sizin şərəf başqanı kimi, çox böyük məmnuniyyətlə ona təqdim edirəm.

(*Prezident Heydər Əliyev «Mərmərə Qrupu» vəqfinin plaketini Vaqif Qasımova təqdim edir*).

**V a q i f  Q a s ı m o v:** Cənab Prezident, çox sağ olun. Mənə bu plaketin ilk dəfə verilməsində Sizin nüfuzunuzun çox böyük rolu olmuşdur. Sizə dərin minnətdarlığımı bildirirəm.

**A k k a n  S u v ə r:** Hörmətli cümhur başqanım, siz İstanbulda «Konrad» otelini ziyarət etmişdiniz. Siz oranı sevirsiniz.

**H e y d ə r  Ə l i y e v:** «Konrad» çox gözəl oteldir. Oradan hər yer görünür.

**A k k a n  S u v ə r:** Biz bu rəsm əsərini Azərbaycanın böyük övladı, cümhur başqanımız və şərəf başqanımız zati-aliləri Heydər Əliyevə doğum günü münasibətilə səmimi diləklərlə hədiyyə edirik. Bu bizim tanınmış rəssamımız Taner Ercan bəyin çəkdiyi rəsm əsəridir. Bunu böyük məmnuniyyətlə Sizə təqdim edirik.

**H e y d ə r  Ə l i y e v:** Çox gözəl rəsmdir. Təşəkkür edirəm.

Siz mərkəz yaratmaq istəyirsiniz?

**A k k a n  S u v ə r:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Mən buna etiraz edə bilmərəm. Amma eyni zamanda deyə bilmərəm ki, yaradın. Bu sizin işinizdir. İstəsəniz yaradarsınız, istəsəniz yaratmazsınız. Təşəkkür edirəm.

**RUSİYA FEDERASİYASI ALİ ARBİTRAJ MƏHKƏMƏSİNİN SƏDRİ VENİAMİN YAKOVLEV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*16 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycanda, deyəsən, çoxdan olmayıbsınız? Yoxsa, heç olmayıbsınız?

**V e n i a m i n Y a k o v l e v:** Buraya ilk dəfədir gəlirəm, hərçənd gəlməyə dəfələrlə hazırlaşmışdım.

**H e y d ə r Ə l i y e v:** Mən çox şadam. Siz burada seminar keçirirdiniz? Seminar necə keçdi?

**V e n i a m i n Y a k o v l e v:** Mənə elə gəlir ki, o, gözlənildiyindən də yüksək səviyyədə oldu. Biz düşünürdük ki, seminar uzun fasilədən və sıx əlaqələrdən sonra maraqlı olacaq, amma gözlədiyimizdən də maraqlı keçdi. Bu bir çox səbəblərə görə, ilk növbədə ona görə belə oldu ki, hüquqşünaslarda həmişə məsələlər yığılıb qalır və bunlar mülki qanunvericilik baxımından ümumi maraq doğurur. Rusiyada Mülki Məcəllə artıq altı ildir qüvvədədir, Azərbaycanda yeni Mülki Məcəllə var və biz onunla, demək olar, tanış deyilik. Bir sözlə, seminar bizim üçün Azərbaycanın Mülki Məcəlləsi, məhkəmə sisteminin işi, xüsusən iqtisadiyyat, sahibkarlıq sahəsində məhkəmə müdafiəsinin səmərəliliyi ilə tanış olmaq imkanı idi. Gün yarım ərzində çox intensiv işlədik.

**C ə f ə r V ə l i y e v** (*Azərbaycan İqtisad Məhkəməsinin sədri*)**:** Cənab Prezident, demək olar ki, bu, arbitraj məhkəmələrinin yaradıldığı vaxtdan bəri ilk seminarımızdır.

**H e y d ə r Ə l i y e v:** Mən sizi salamlamağıma şadam. Bazar iqtisadiyyatının inkişaf etdiyi indiki vaxtda İqtisad Məhkəməsinin, yaxud sizdə deyildiyi kimi, Arbitraj Məhkəməsinin əhəmiyyəti artır. Mən dövlət arbitrajına yaxşı bələdəm. Zənnimcə, yadınızdadır ki, mən Moskvada işləyərkən dövlət arbitrajına kuratorluq edirdim.

**V e n i a m i n Y a k o v l e v:** Çox yaxşı yadımdadır.

**H e y d ə r Ə l i y e v:** Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, öz fəaliyyətimdə bunu mühüm nailiyyət sanıram ki, arbitraj haqqında qanunu ilk dəfə biz qəbul etdik. Çünki o vaxt arbitraj Nazirlər Sovetinə tabe idi, halbuki arbitraj müəssisələr, nazirliklər arasında yaranan məsələləri araşdırır. O vaxt arbitraj bir növ formal idi, ona görə ki, hər şey Nazirlər Sovetinin ixtiyarında idi. Biz qarşıya vəzifə qoyduq ki – əslinə qalsa, bu, Siyasi Büronun qoyduğu vəzifə idi – hər halda, arbitraj haqqında qanun işləyib hazırlamaq lazımdır. Bu qanunun hazırlanması işinə mən rəhbərlik edirdim, çünki arbitraj mənim kuratorluğumda idi.

Bilirsinizmi, o dövrdə, islahatlar aparmağa başladığımız ilk dövrdə hansı çətinliklərlə üzləşdik? Əvvəla, Nazirlər Sovetinin Aparatı etiraz etməyə başladı. Bizdə hələ Stalin dövründə işləmiş bir əməkdaş – hüquq şöbəsinin müdiri Şumilin vardı. Ağıllı, bacarıqlı adam idi, düzgün məsləhətlər verirdi. O bir neçə dəfə yanıma gəlib dedi: «Siz nə edirsiniz? Biz arbitraja müstəqillik verə bilmərik». Sonra işlər müdiri Smerdyukov vardı. O da Stalinin kadrı idi. O da mənimlə mübahisə edirdi. Lakin buna baxmayaraq, mən hüquqşünaslarla məsləhətləşib, hər halda, belə bir fikri qəbul etdirdim ki, arbitrajı heç kəsdən asılı olmayan müstəqil məhkəməyə çevirmək lazımdır. Odur ki, bütün sənədləri, qərar layihəsini hazırladım. Mən onları Nazirlər Sovetinin iclasına çıxardıqda, orada çox güclü müqavimətlə üzləşdim. Ancaq sonra mən Nazirlər Sovetinin Rəyasət Heyətini də, Siyasi Büronu da inandırdım. Bax, buna beləcə birmənalı yanaşılmırdı. Hesab edirəm ki, bu, o vaxt üçün tarixi bir qərar idi. İndi artıq həyatın özü də təsdiqləyir ki, məhz belə də olmalı idi. Onda biz düzgün yolda idik.

Dövlət arbitrajının sədri uzun müddət Anisimov oldu. O, qanunun hazırlanmasında iştirak etmişdi, sonra biz qanunu qəbul etdikdə çox böyük sevinclə yanıma gəldi. Axı onlara müstəqillik, sərbəstlik verilmişdi.

Biz burada hər şeyi tamamilə yenidən təşkil etdik, hüquq islahatı apardıq və ona görə də İqtisad Məhkəməsi yaratdıq. Əlbəttə, o, keçmiş arbitrajdan fərqlənir. Yəqin ki, sizə bu barədə danışıblar. Biz məhkəmə, prokurorluq orqanlarında çox böyük islahat apardıq. Hərçənd bizdə də böyük müqavimət oldu. Bilirsinizmi, sistem təşəkkül tapmışdır, adamlar neçə illərdir işləyirlər, buna vərdiş etmişlər və təbii ki, hüquqları var. Məsələn, prokurorluq haqqında qanun az qala iki il yatıb qaldı, ona görə ki, qanun bizim aparatda hazırlanmışdı, prokurorluqda isə onun əleyhinə çıxdılar, bizi qorxutmağa başladılar ki, bilirsinizmi, əgər prokurorluq bu hüquqlardan məhrum olsa, bu, dövlətə, cinayətkarlıqla mübarizəyə ziyan vuracaqdır. O vaxt, sadəcə olaraq, təsəvvür edə bilmirdilər ki, həbs üçün sanksiyanı təkcə prokuror deyil, hakim də verə bilər. Struktur yenidən təşkil edildikdə isə, təbii ki, ixtisar aparılır. İndi hamı hesab edir ki, bu, normal haldır. Yaxud, götürək

hakimlərin test üsulu ilə seçilməsini. Mənə deyirlər ki, Ali Məhkəmənin nəhəngləri sayılan bəzi məşhur üzvləri test imtahanından keçə bilməyib kənarda qalmışlar.

Dünən mən televiziyadan eşitdim ki, Dövlət Dumasında Rusiyada hüquq islahatı məsələsi müzakirə edilir, bildirdilər ki, ilin sonunadək ya qanun qəbul olunacaq, ya da Rusiyada hüquq sisteminin islahatı həyata keçiriləcəkdir. Gördüyünüz kimi, bu işdə biz sizi bir qədər qabaqlayırıq.

**V e n i a m i n  Y a k o v l e v:** Sizin dediklərinizi eşitmək mənə çox xoşdur. Ona görə ki, dövlət arbitrajının hökumətdən asılı olmayan orqana – iqtisadi mübahisələri həll etməyi bacaran orqana çevrilməsi məhkəmənin iqtisadiyyata gəlməsinə doğru tarixi addım idi.

Demək olar ki, həmin andan dövlət arbitrajı əslində nəinki iqtisadi mübahisələri həll edən məhkəmə orqanının funksiyalarını yerinə yetirməyə başladı, həm də mahiyyətcə məhkəmə səviyyəsinə yaxınlaşdı. Bax, onda məni ittifaqın Baş dövlət arbitri təyin etdilər, bir müddətdən sonra isə biz Sovet İttifaqının Ali Arbitraj Məhkəməsinin yaradılması haqqında qanun qəbul etdik, beləliklə də dövlət arbitrajı artıq qəti şəkildə məhkəməyə çevrildi. Sizin başladığınız işi biz davam etdirdik. Rusiyada da bu cür prosedur getdi, Rusiyanın Ali Arbitraj Məhkəməsi yaradıldı, sonra yerlərdə dövlət arbitrajı orqanları yaradıldı. Artıq 9 ildir ki, onlar arbitraj məhkəmələri kimi, lakin əslində kommersiya, ticarət məhkəmələri kimi fəaliyyət göstərirlər.

Əslinə qalsa, biz inqilabdan əvvəlki məhkəmə sistemini bərpa etmişik, çünki Rusiyada həmişə ümumi yurisdiksiya təsisatları ilə yanaşı, kommersiya məhkəmələri də olmuşdur. Bu sistem imperator 1 Nikolayın fərmanı ilə yaradılmış və 1917-ci ilədək qalmışdı. Biz onu əslində bərpa etmişik. İndi o, kifayət qədər səmərəlidir. Biz sahibkarlar, o cümlədən əcnəbi sahibkarlar arasında baş verən mübahisələrə baxırıq. Onlar bizim məhkəmənin fəaliyyətini yüksək qiymətləndirir, mübahisələrə baxılması üçün həvəslə müraciət edirlər. Bizdə bu müstəqil məhkəmə sisteminin üç səviyyəsi var. Bunlar vilayətlərin, diyarların, respublikaların arbitraj məhkəmələridir, sonra 10 məhkəmə dairəsi, nəhayət, ali məhkəmə orqanı kimi, Ali Arbitraj Məhkəməsi gəlir. Bir çox əcnəbi sahibkarlar hesab edirlər ki, iqtisadi mübahisələrin həlli üçün belə ixtisaslaşdırılmış məhkəmə sisteminin olması iqtisadi dəyişikliyə lazımınca təkan vermişdir. Ona görə ki, əgər belə sistem olmasaydı, təkcə ümumi yurisdiksiya məhkəmələri olsaydı, onda, çox güman, iqtisadi mübahisələrin həlli ilə bağlı böyük çətinliklər yaranardı. Əvvəla, ümumi məhkəmələrdə mütəxəssislər yoxdur. İndi bütün dünyada ixtisaslaşdırılmış məhkəmələrin yaradılması isə məhkəmə sisteminin inkişaf etdirilməsinin, necə deyərlər, strateji yolu sayılır, çünki ədalət məhkəməsinin keyfiyyəti yüksəlir. Bundan əlavə, əgər bu işlər ümumi yurisdiksiya məhkəmələrində olsaydı, onda ön sırada cinayət işləri, sonra da əmək məsələləri olardı, kommersiya mübahisələri isə axırıncı yerdə qalardı. Biz isə, sahibkarların fikrincə, kommersiya mübahisələrini kifayət qədər tez, peşəkarlıqla həll edirik.

Lakin buna baxmayaraq, indi hüquq, məhkəmə sistemini daha da təkmilləşdirmək zərurəti yaranmışdır. Amma bununla belə, bu sistemin mahiyyəti dəyişmir, sadəcə olaraq, məhkəmələrin kadr tərkibi güclənir, hakimlərin statusu təkmilləşir. Yəqin ki, hakimlərin əmək haqqı artırılacaqdır. Yeri gəlmişkən, siz bunu həyata keçirmisiniz. Biz isə hələ etməliyik. Biz hakimlərin üzərinə düşən yükü bir qədər tənzimləyirik ki, pozuntular olmasın. Bir sözlə, söhbət ədalət məhkəməsinin səmərəliliyini yüksəltməkdən gedir.

Biz burada mülki qanunvericilik barədə fikir mübadiləsi aparmaqla yanaşı, məhkəmə sistemini də müzakirə etdik. Bizim oxşar cəhətlərimiz olduqca çoxdur, ona görə ki, sizdə üç məhkəmə sistemi – aşağı məhkəmə, Apellyasiya Məhkəməsi, Konstitusiya Məhkəməsi mövcuddur.

**H e y d ə r  Ə l i y e v:** Bizdə dairə məhkəmələri var?

**C ə f ə r  V ə l i y e v:** Birinci instansiya rayon məhkəməsidir, sonra Apellyasiya Məhkəməsi gəlir, kassasiya isə sonra, Ali Məhkəmənin kollegiyasında olur.

**V e n i a m i n  Y a k o v l e v:** Dünən yeganə olaraq bunu eşitdim: nəzərə almaq lazımdır ki, kassasiya instansiyası Ali Məhkəmədə deyil, İqtisad Məhkəmələri sistemində olmalıdır. Bir çox respublikalarda instansiyaların üçü də iqtisad məhkəməsinin tərkibindədir.

**H e y d ə r  Ə l i y e v:** Baxmaq lazımdır, axı biz bir-birimizin ən yaxşı təcrübəsini öyrənmək üçün görüşürük, fikir mübadiləsi aparırıq, seminarlar keçiririk.

**V e n i a m i n  Y a k o v l e v:** Dünən sahibkarlar dedilər ki, Apellyasiya Məhkəməsi kommersiya qanunvericiliyini yaxşı bilən mütəxəssislərdən ibarətdir. Kassasiya instansiyası isə Ali Məhkəməyə daxil olan kiçik bir kollegiyadır. Bax, məhz burada qeyri-mütəxəssislər işləyirlər. Onlar isə göstərmək istəyirlər ki, mütəxəssisdirlər və ona görə də qərarları ləğv edirlər. Dünən bu barədə sahibkarlar danışdılar.

**C ə f ə r  V ə l i y e v:** Cənab Prezident, Konstitusiyada Ali İqtisad Məhkəməsi yazılmışdır, mən Sizə bu barədə məlumat vermişəm. İndiki sistem Konstitusiyanın 132-ci maddəsinə ziddir.

**V e n i a m i n  Y a k o v l e v:** Zənnimcə, bu, Konstitusiyaya əməl olunmasını təmin etmək baxımından, həqiqətən, düzgün olardı. Dünən universitet alimləri bu barədə dedilər, bir mütəxəssis kimi, mənə elə gəldi ki, onlar haqlıdırlar.

**H e y d ə r  Ə l i y e v:** Mən sizinlə görüşə şadam. Məndən salam yetirin. O vaxtlar arbitrajda işləmiş kadrlardan indi kimlərinsə qalıb-qalmadığını bilmirəm. Mən onlarla çox işləmişəm. Onlar məni xatırlamalıdır.

**V e n i a m i n  Y a k o v l e v:** Sizin salamınızı böyük məmnuniyyətlə yetirəcəyəm. Mən Sizi ali məktəbin kuratoru kimi də xatırlayıram. Mən əvvəllər ali məktəbdə işləmişəm.

**H e y d ə r  Ə l i y e v:** Mən eyni zamanda həm ali Təhsil Nazirliyinin, həm Maarif Nazirliyinin, həm də Texniki Peşə Təhsili Komitəsinin kuratoru idim. Mən bundan əlavə, təxminən 18 nazirliyə də kuratorluq edirdim. Bir sözlə, çox böyük yük idi. Özü də bunlar bir-birindən tamamilə fərqlənən sahələr idi. Ali məktəb və tədqiqat, arbitraj və səhiyyə, mədəniyyət. Yük böyük olsa da, biz çox işlər gördük.

**V e n i a m i n  Y a k o v l e v:** Həqiqətən, olduqca çox yaxşı işlər görülmüşdü. Mənim də yadımdadır, siz ali məktəb sisteminə əsaslı surətdə təsir göstərdiniz...

**H e y d ə r  Ə l i y e v:** O vaxtlar, hər halda, ilk orta təhsil islahatı keçirdik. Yeri gəlmişkən, bu həmin sahədə ilk qanun idi və mən bu barədə SSRİ Ali Sovetinin sessiyasında məruzə etmişdim. Bu hələ Andropovun dövründə olmuşdu. Bu, orta təhsil sisteminin islahatı idi. Sovetlər İttifaqının təhsil sistemi yaranandan bəri heç vaxt islahat aparılmamışdı. Bundan sonra isə biz ali təhsil sisteminin islahatına başladıq. Bir sözlə, xatırlamalı çox şey var.

## RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VLADİMİR RUŞAYLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*15 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli Vladimir Borisoviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram, buraya gəlməyinizə şadam və qeyd etməyi lazım bilirəm ki, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana rəsmi səfərindən sonra aramızda bütün istiqamətlərdə əlaqələr genişlənmişdir, tez-tez görüşürük. Əlbəttə, məsələ təkcə bunda deyildir. Başlıcası odur ki, yaxşı dialoq gedir və bu, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə kömək edir. Biz buna həmişə çalışmışıq və indi də çalışırıq. Ona görə də sizin nümayəndə heyətinin indiki səfəri bu fikri bir daha təsdiqləyir.

Hesab edirəm ki, bu zəruridir, çünki bu baxımdan keçmişdə biz bir qədər vaxt itirmişik. Lakin bunda kimin daha çox, kimin daha az təqsirkar olduğunu gəlin araşdırmayaq. Başlıcası odur ki, biz irəliyə baxmalıyıq. Bununla əlaqədar mən çox şadam ki, Vladimir Vladimiroviç Putin prezident olduqdan sonra Rusiya tərəfindən Azərbaycana diqqət artmışdır və bu, təbii olaraq, cavab reaksiyası doğurur. Axı məhəbbət həmişə qarşılıqlı olmalıdır, o, birtərəfli ola bilməz.

Bizim əməkdaşlıq etdiyimiz və əməkdaşlıq edə biləcəyimiz problemlər, məsələlər olduqca çoxdur. Ancaq əməkdaşlığın hansı səviyyədə olması isə, əlbəttə, hər iki tərəfdən asılıdır. Bu yaxınlarda Moskvada hökumətlərarası komissiyanın iclası keçirildi. Biz bu barədə burada yanvarın 9-da, Vladimir Vladimiroviç Putin rəsmi səfərdə olarkən razılığa gəlmişdik. Mənə bildirdilər ki, iclas yaxşı keçdi. Hətta mayın 10-da Vladimir Vladimiroviç məlum hadisə ilə əlaqədar mənə zəng vurarkən, orada hökumətlərarası komissiyanın iclası keçirilirdi. O bundan böyük məmnunluq duyduğunu bildirdi. Mən onunla tamamilə razılaşdım.

Rusiyanın və Azərbaycanın təhlükəsizlik şuraları arasında münasibətlər yaranmışdır. Deməliyəm ki, bu orqanlar sizdə də, bizdə də çoxdan mövcuddur. Amma aralarında əslində heç bir əlaqə yox idi. Bu əlaqələr də Rusiya Federasiyasının rəhbərliyi dəyişdikdən sonra yaranmışdır. Elə sizin səfəriniz də göstərir ki, bu sahədə Rusiya üçün də, Azərbaycan üçün də bir çox mühüm məsələlərdə birgə səylərimizi, təbii ki, qarşılıqlı fəaliyyətimizi gücləndirməyə lüzum var.

Ona görə də buraya gəlməyinizə şadam. Ramiz Mehdiyev mənə məlumat verdi ki, artıq sizin görüşləriniz, söhbətləriniz olmuşdur və bu gün onlar yəqin ki, davam etdiriləcəkdir. Qarşıda isə daha bir gün var. Odur ki, bir çox məsələlər barəsində fikir mübadiləsi aparmaq imkanına malikik.

**V l a d i m i r  R u ş a y l o :** Hörmətli Heydər Əliyeviç!

Azərbaycan torpağında bizə göstərilmiş qonaqpərvərliyə görə Sizə təşəkkür etmək istərdim. Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin tapşırığını yerinə yetirmək və ikitərəfli münasibətlərimizə dair, Qafqaz dördlüyünün qarşıdakı görüşünə dair Sizinlə məsləhətləşmələr aparmaq mənə xüsusilə xoşdur. Görüb vurulduğum və ilk növbədə Sizin səyləriniz, Azərbaycan xalqının səyləri sayəsində gözəlləşən Bakı şəhərində olmaq xüsusilə xoşdur.

Mən 2000-ci il fevralın 5-də Bakıda keçirilmiş əvvəlki görüşümüzü səmimiyyətlə xatırlayıram. Biz Sizinlə ikitərəfli münasibətlərimizə aid məsələləri müzakirə etdik. Rusiya Federasiyasında seçkilər ərəfəsində bizim indiki prezidentimiz Vladimir Vladimiroviç Putin haqqında necə böyük hörmət və səmimiyyətlə danışdığınız yadımdadır. O, ən xoş arzularını Sizə yetirməyi xahiş etdi və Sizinlə görüşü gözləyir.

Demək istərdim ki, son vaxtlar ikitərəfli münasibətlərimizin yaxşılaşması meyli əmələ gəlmişdir. Bu gün biz həmin məsələni Ramiz Ənvəroviç Mehdiyevlə saat yarımdan çox müzakirə etdik. Biz bu barədə Sizə daha ətraflı məlumat verəcəyik. Təhlükəsizlik şuraları aparatlarının fəaliyyətini yaxşılaşdırmağa dair, ikitərəfli münasibətlərin səviyyəsini yaxşılaşdırmaq üçün prezidentlərimizə təklif edə biləcəyimiz mexanizmlərə dair tam bir sıra təkliflər, o cümlədən konstruktiv təkliflər var.

Şübhəsiz ki, Rusiyanın Qafqazda maraqları, o cümlədən ilk növbədə ölkəmizin təhlükəsizliyi ilə bağlı maraqları var. Regional münaqişələr meydana gələndə biz də narahatlıq keçiririk. Ona görə də, şübhəsiz, Sizinlə birlikdə daha sabit şərait yaradılmasına çalışacağıq.

Hörmətli Heydər Əliyeviç, Sizin Qafqazda sabitliyə nail olmaq məqsədlərinə yönəldilmiş səylərinizi qiymətləndiririk. Bu, Rusiyada Sizə dərin ehtiram qazandırmışdır. Moskvada yaxşı xatırlayırlar ki, Siz Sovet

İttifaqında yüksək dövlət vəzifələrində olarkən, o vaxtkı vahid dövlətimizin təhlükəsizliyinin möhkəmlənməsi üçün olduqca çox işlər görmüsünüz.

Fürsətdən istifadə edərək, Sizi ad gününüz münasibətilə bir daha təbrik etmək, Sizə cansağlığı, Azərbaycan xalqının rifahı naminə və Rusiya–Azərbaycan münasibətlərinin inkişafı üçün uzun illər coşğun, səmərəli fəaliyyət arzulamaq istərdim.

Bizim üçün qarşılıqlı maraq doğuran bəzi məsələləri müzakirə etmək istərdik. Təhlükəsizlik şuralarının xətti ilə haqqında bayaq dediyim əməkdaşlıq və şübhəsiz, beynəlxalq terrorizmlə mübarizə məhz belə məsələlərdəndir. Mən bilən, bu problem bizim üçün də, sizin üçün də olduqca aktualdır. O, ümumi təhlükəsizliyin təmin edilməsi baxımından Müstəqil Dövlətlər Birliyinin bütün ölkələri üçün də aktualdır. Terrorizmlə mübarizədə Rusiya Federasiyasına göstərilmiş köməyə görə şəxsən Sizə və bütün hüquq-mühafizə strukturlarına, ilk növbədə Daxili İşlər nazirinə və onun əməkdaşlarına minnətdarlığımı bildirmək istərdim. Belə ki, bir ildən bir qədər artıq müddətdə bir sıra birgə əməliyyatlar aparılmış, bu əməliyyatlar nəticəsində Azərbaycan ərazisində bir sıra təhlükəli terrorçular yaxalanmışlar. Hazırda onlar Rusiya tərəfinə qaytarılıb və məhkəmə qarşısında cavab verirlər. Onlar ağır cinayətlər – partlayışlar törətmişlər, nəticədə günahsız insanlar zərər çəkmişlər.

Ona görə də biz Sizin mövqeyinizi qiymətləndiririk. Bizə göstərilmiş köməyə görə Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin minnətdarlığını da Sizə çatdırmaq istərdim.

Biz başlanmış işi davam etdirmək istərdik. Bu gün biz Daxili İşlər naziri Ramil İdrisoviç Usubovla da görüşəcək və ümumən hüquq-mühafizə strukturlarımız arasında və daxili işlər nazirlikləri arasında qarşılıqlı fəaliyyət məsələlərini müzakirə edəcəyik.

Ötən il ərzində çox böyük iş görülmüşdür. Biz əməkdaşlığımızı müsbət qiymətləndiririk. Birgə əməliyyatlar aparılmış və onların nəticəsində üç mindən çox cinayət işi qaldırılmışdır. Azərbaycan ərazisində ağır cinayətlər törətmiş 800-dək cinayətkar son il yarımda Rusiya Federasiyasının ərazisində axtarılıb tutulmuş və Azərbaycan tərəfinə verilmişdir. Düşünürəm ki, bu, ümumi işə əsl töhfədir və əlbəttə, bu birgə işi davam etdirmək istərdik.

Azərbaycan bütün sahələrdə – istər regional səviyyədə, istərsə də ümumrusiya səviyyəsində bizim üçün ənənəvi tərəfdaşdır. Bizi belə bir fakt xüsusilə sevindirir ki, qarşılıqlı məqbul əməkdaşlığa Rusiya Federasiyasının subyektləri də qoşulmuşlar. Rusiyada Azərbaycan Respublikasının mədəniyyət günləri uğurla keçmişdir. Bu, humanitar əməkdaşlığımızın fəallığını yüksəltməyə imkan verir. Azərbaycan diasporu da böyük fəallıq göstərməyə başlamışdır. O, paytaxtın və Rusiyanın digər şəhərlərinin daxili həyatına getdikcə daha yaxından cəlb olunur.

Azərbaycan tərəfinin təşəbbüsünü xüsusi qeyd etmək istərdim. Zaqafqaziyada xidmət etmiş sərkərdələr, səhv etmirəmsə, altı ildir ki, mayın 10-da Azərbaycan Respublikasının səfirliyinə yığışırlar, orada Qələbə günü qeyd olunur. Ən yaxşı insanlar bir yerə toplaşırlar, bu isə Azərbaycan və Rusiya xalqları arasında dostluğu, əlaqələri möhkəmləndirir. Son vaxtlar getdikcə daha çox dəstəklənən bu təşəbbüslərə görə mən də Sizə minnətdarlığımı bildirmək istərdim.

Hörmətli Heydər Əliyeviç, nümayəndə heyətimizə haqqında bayaq danışdığınız ikitərəfli hökumətlərarası komissiyanın Rusiya tərəfindən ticarət-iqtisadi əməkdaşlıq üzrə nümayəndəsi İqor Nikolayeviç Kareyev də daxildir. O da müvafiq iş aparır və bu gün də qarşılıqlı iqtisadi əməkdaşlığımıza dair bir sıra məsləhətləşmələr keçiriləcəkdir.

Son vaxtlar, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinlə Sizin görüşləriniz nəticəsində dialoqumuz yeni vüsət aldıqdan sonra az iş görülməmişdir, o cümlədən də təhlükəsizlik şuraları aparatlarının xətti ilə. Bu, xarici siyasət, iqtisadiyyat, hüquq-mühafizə və güc strukturlarına aiddir. Biz bu istiqamətdə işimizi inkişaf etdirmək niyyətindəyik. Üstəlik, Ramiz Ənvəroviç Mehdiyevlə bugünkü birgə iş nəticəsində biz birgə iş planı hazırlamışıq. Onu günün sonunadək təsdiqləmək ümidindəyik və razılaşdırmaq üçün Sizə təqdim edəcəyik. Ona görə ki, Heydər Əliyeviç, biz bilən, əvvəlki plan Sizin protokolunuzla təsdiq olunmuşdu.

Xüsusi demək istərdim ki, ölkələrimiz arasında iqtisadi əlaqələr möhkəmlənir. Ticarət-iqtisadi məsələlər üzrə hökumətlərarası komissiyanın bu yaxınlarda Moskvada keçirilmiş iclası ölkələrimizin qarşılıqlı surətdə faydalı bazar münasibətlərini inkişaf etdirməyə çalışdıqlarını bir daha göstərmişdir. Qarşılıqlı maraq burada da nəzərə çarpır. Bu baxımdan Azərbaycanın sənaye müəssisələrinin yenidən qurulmasına və modernləşdirilməsinə Rusiyanın maliyyə vəsaitinin cəlb edilməsi bizə perspektivli görünür. Siz razılıq versəniz, bu istiqamətdə daha təfərrüatlı işləmək olar.

Zənnimizcə, yanacaq-energetika kompleksi obyektlərinin özəlləşdirilməsində Rusiya təşkilatlarının da iştirakı Azərbaycan üçün faydalı olardı və bu, həmin kompleksi keyfiyyətcə daha yüksək səviyyəyə qaldırmağa imkan verərdi. Qara və əlvan metallurgiyada, mədən sənayesində, aqrar-sənaye kompleksində və nəqliyyatda da bu məsələləri nəzərdən keçirmək olar.

Biz neftin hasilatı, emalı və nəqli sahəsində Rusiya–Azərbaycan əməkdaşlığının əhəmiyyətini xüsusi vurğulamaq istərdik. Ekspertlərimiz bunun üzərində də işləyir və qarşılıqlı surətdə faydalı razılaşmalara gəlirlər.

Bir çox illər ərzində bir qədər durğunluq vəziyyətində olmuş hərbi-texniki əməkdaşlığımızda nəzərə çarpan irəliləyişi məmnunluqla qeyd edirik. Bununla əlaqədar, sovet dövründə istehsal olunmuş silahların, hərbi texnikanın modernləşdirilməsi, hərbi təyinatlı obyektləri yenidən qurmaq sahəsində xidmətlər göstərilməsi barədə hərbi mütəxəssislərin məsləhətləşmələri, Rusiya Müdafiə Nazirliyinin tədris müəssisələrində hazırlıq keçilməsi kimi əməkdaşlıq formalarının inkişaf etdirilməsi ümumi maraqlarımıza uyğun olardı. Rusiya Federasiyasının Müdafiə naziri Sergey Borisoviç İvanov yaxın günlərdə Azərbaycana gələcək və həmin sahəyə aid hələ bir sıra danışıqlar və məsləhətləşmələr aparacaqdır.

Biz Qafqaz dördlüyünün işindən də söz açmaq istərdik. İndi bu istiqamətdə hazırlıq işi görürük. Deyə bilərəm ki, dördlük üçün əməkdaşlığımızın mexanizmini biz birlikdə işə salmağa müvəffəq olmuşuq. Burada Cənubi Qafqazdakı münaqişələrin dincliklə aradan qaldırılması, beynəlxalq terrorizmlə mübarizə sahəsində əməkdaşlıq da daxil olmaqla, regional təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri, habelə humanitar sahədə və digər sahələrdə inkişafın, qarşılıqlı fəaliyyətin perspektivləri etimad şəraitində müzakirə edilir. Bizə elə gəlir ki, yaxın vaxtlarda Minskdə olacaq görüş məhz bu istiqamətdə işin genişləndirilməsinə yeni təkan verəcəkdir. Zənnimizcə, dördlüyün potensialı yenicə üzə çıxmağa və addım-addım irəliləməyə başlayır. Şübhəsiz, dövlət başçılarının mövqelərindən çox şey asılıdır. Ümidvarıq ki, dövlət başçılarının görüşü zamanı müsbət qərarlar tapılacaqdır.

Rusiyada bunu son dərəcə mühüm hesab edirlər ki, yüksək səviyyədə Rusiya–Azərbaycan danışıqlarında ən kəskin problemlər barəsində qarşılıqlı anlaşma tapmaq mümkün olur. Ümidvarıq ki, Minskdə keçiriləcək növbəti zirvə toplantısı Qafqazda qarşıda duran problem məsələləri daha keyfiyyətlə həll etməyə imkan verəcəkdir.

Biz 2000-ci ilin iyunundakı zirvə toplantısında razılaşdırılmış ideyanın, Qafqazın problemlərinə dair elmi-praktiki konfransın – onu mayın axırlarında Moskvada keçirmək nəzərdə tutulub – gerçəkləşdirilməsindən də danışarkən ümid edirik ki, Azərbaycan alimləri gündəliyə daxil olan məsələlərin müzakirəsinə fəal qoşulacaqlar. Çünki biz hesab edirik ki, onlar bu sahədə çox böyük potensiala malikdirlər. Güman edirik ki, bu forumda dörd ölkənin alimləri regionun gələcəyi və tərəqqisi naminə birgə işləmək əzmində olduqlarını nümayiş etdirəcəklər.

Dörd Qafqaz ölkəsini yaxınlaşdıran, ümumi mənafeləri göstərən və münaqişələrin nizama salınmasına kömək edən amilləri maksimum aydınlığı ilə müəyyənləşdirmək lazımdır. Biz burada Azərbaycan tərəfi ilə əməkdaşlığı yüksək qiymətləndiririk və bir sıra məsələlərdə eyni mövqe tuturuq. Konfransın yekunlarını Qafqaz dördlüyü ölkələri prezidentlərinin Minskdə keçiriləcək görüşündə müzakirə etmək planlaşdırılır. Ümumiyyətlə, ümidvarıq ki, bugünkü görüşümüz də, ekspertlərimizin işi də bizə mövqelərimizi yaxınlaşdırmağa, Rusiya–Azərbaycan münasibətlərini inkişaf etdirmək və yaxşılaşdırmaq üçün daha dəqiq yollar tapmağa imkan verəcəkdir.

**Heydər Əliyev:** Sağ olun, Vladimir Borisoviç. Mən sizin fikirlərinizlə razıyam. Mühüm haldır ki, biz bir çox məsələlərdə, ən əvvəl, beynəlxalq terrorizm ilə bağlı məsələlərdə bir-birimizi başa düşürük. Beynəlxalq terrorizm təkcə Rusiya üçün deyil, Azərbaycan üçün də, Qafqaz ölkələri üçün də artıq təhlükəli hadisəyə çevrilmişdir. Bu, bütün beynəlxalq birlik üçün təhlükəyə çevrilmişdir. Ola bilsin ki, ayrı-ayrı ölkələr haradasa, nə vaxtsa beynəlxalq terrorizmi ya təşviq etmiş, ya da buna göz yummuşlar. Beynəlxalq terrorizm artıq yayıldıqdan sonra və əvvəllər bundan kənarda olmuş və buna fəal qarışmaq istəməmiş bir çox ölkələrin özləri indi beynəlxalq terrorizm prosesinə cəlb edilməyə başlandıqdan sonra, görürəm ki, getdikcə çox ölkələr yaxından əməkdaşlıq etmək arzusundadırlar. Təbii ki, hərə öz xətti ilə lazımi tədbirlər görür.

Sizinlə biz bu məsələni eyni cür başa düşürük. Azərbaycanda biz terrorizm, o cümlədən beynəlxalq terrorizm nəticəsində çox müsibətlər çəkmişik. Bu gün də çox təhlükə olduğunu görürük. Ona görə də bu məsələdə sizinlə əməkdaşlıq bizim üçün öncül xarakter daşıyır. Siz ötən illər ərzində əldə edilmiş birgə uğurlardan danışdınız. Mən sizə, Rusiya hökumətinə, hüquq-mühafizə orqanlarına və xüsusən bu yaxınlaradək başçılıq etdiyiniz Daxili İşlər Nazirliyinə təşəkkürümü bildirirəm, ona görə ki, sizin orqanlar Rusiyanın müxtəlif regionlarında gizlənmiş bu qədər cinayətkarı, çox təhlükəli cinayətkarları aşkara çıxarmağa və bizə verməyə müvəffəq olmuşlar. Burada isə nəinki onlar özləri müvafiq cəzalarını almışlar, eləcə də hər bir bu cür hal bizə bir sıra digər cinayətləri də açmağa imkan vermişdir.

Amma, təəssüf ki, Qafqaz buna daha çox məruz qalmışdır və görünür, burada da ilk vaxtlar ona lazımi əhəmiyyət verilməmişdir. İndi isə bunun nə demək olduğunu və nə etmək lazım gəldiyini hamı görür. Məhz bizim regionda – mən Rusiyanı və Azərbaycanı nəzərdə tuturam – birgə işimiz öz nəticələrini verir. Şadam ki, siz bizim tərəfimizdən görülmüş işləri qiymətləndirirsiniz. Mən Rusiya tərəfindən görülmüş işləri yüksək qiymətləndirirəm və sizi əmin edə bilərəm ki, biz bu istiqamətdə əməkdaşlığı daha da genişləndirəcək və gücləndirəcəyik.

Haqqında danışdığınız digər məsələlərə gəldikdə, əlbəttə, daim işləməyə ehtiyac var. Nail olduğumuz nə varsa, bunlar ümumən yaxşıdır. Qarşıda daha nə kimi işlər durur, daha nə etmək lazımdır – bu, əlbəttə, işləmək üçün, xüsusən qarşılıqlı tədbirlərimiz üçün, birgə fəaliyyətimiz üçün çox geniş meydandır. Biz məhz belə hərəkət etmək mövqelərində möhkəm dayanmışıq.

İqtisadi əməkdaşlığımız, deyildiyinə görə, daha yaxşı inkişaf etməyə başlayır. Azərbaycanın müxtəlif müəssisələrinin modernləşdirilməsində və ya özəlləşdirilməsində Rusiyanın işgüzar dairələrinin iştirakı barədə təkliflərinizi bizim üçün çox faydalı iş kimi qiymətləndirirəm. Biz sizinlə bu sahədə, o cümlədən energetika kompleksində və başqa sahələrdə əməkdaşlıq etməyə hazırıq. Bizim vaxtilə Sovet İttifaqının ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş olduqca çox sənaye müəssisələrimiz var. Belə istehsal həcmi, belə məhsul nomenklaturası olan bu qədər müəssisə Azərbaycanın özünə, şübhəsiz, lazım deyildi. Lakin biz ayrılandan və inteqrasiya əlaqələri qırılmağa başlayandan sonra, əlbəttə, biz də zərər çəkdik, siz də.

Mən bizim maşınqayıranlarla, neft maşınları istehsalçıları ilə söhbət etmişəm. Onlar deyirlər ki, bu məsələdə canlanma var. Yəni, iki-üç il bundan əvvəllə müqayisədə, indi onlar neft sənayesi üçün avadanlıq istehsalı barədə Rusiyanın ayrı-ayrı regionlarından sifarişlər alırlar. Bizim böyük neft maşınqayırma kompleksimiz var. Dediyiniz kimi, alüminium sənayesində də, başqa sahələrdə də belədir. Bir sözlə, hesab edirəm ki, bu məsələdə bizim aramızda fikir ayrılıqları yoxdur. Sadəcə olaraq, elə etmək lazımdır ki, məsələyə bizim tərəfimizdən də, sizin tərəfinizdən də işgüzarlıqla yanaşılsın.

Hazırda biz dövlət sektorunda, xüsusən iqtisadi sektorda çox böyük struktur dəyişiklikləri aparırıq və düşünürəm ki, bu, əməkdaşlığın inkişafı üçün, xüsusən Azərbaycana sərmayələr qoyulması üçün daha böyük imkanlar açacaqdır. Biz bir çox nazirlikləri birləşdirmişik və qarşıda hələ görüləsi işlər var. Yəni, nazirliklərin sayını azaldırıq, onları birləşdiririk. Çünki eyni bir məsələni həll etməli olan müxtəlif nazirliklər çox böyük bürokratik çətinliklər yaradırlar. Biz onları birləşdirərək belə hesab edirik ki, bürokratik əngəllərdən xeyli dərəcədə azad olacağıq. Hərçənd, bürokratizmə tamamilə son qoyulması böyük zəhmət tələb edir.

Daxili İşlər Nazirliyi ilə, Milli Təhlükəsizlik nazirliyi ilə bilavasitə əlaqələr çox böyük əhəmiyyətə malikdir. Ayın 18-də burada MDB ölkələri müdafiə nazirlərinin görüşü olacaqdır, yeri gəlmişkən, bu, Azərbaycanda ilk dəfədir. Rusiyanın Müdafiə naziri kimi, İvanov da gələcəkdir. Yəqin ki, onunla hərbi əməkdaşlıq məsələlərini müzakirə edəcəyik. Bir sözlə, bizim bu sahədə də olduqca çox imkanlarımız var.

Qafqaz dördlüyü barədə.

Əslinə qalsa, o, Vladimir Vladimiroviç Putinin təşəbbüsüdür və mən bu işə çox müsbət yanaşıram. Hərçənd, deməliyəm ki, Qafqaz dördlüyünün fəaliyyətinin səmərəli olması üçün münaqişələri, xüsusən Ermənistanla Azərbaycan arasındakı münaqişəni həll etmək lazımdır. Gürcüstanda da münaqişə var, Şimali Qafqazda da münaqişələr var. Amma onlar məhdud xarakter daşıyır. Ermənistanla Azərbaycan arasında baş verənlər isə Qafqaz dördlüyünə daxil olan iki ölkə arasında hərbi münaqişədir.

Ona görə mən əvvəllər də, bu görüş Moskvada keçirilən vaxtda da demişəm və bu gün də deyirəm ki, Qafqaz dördlüyünün sözdə yox, həqiqətən uğurla işləyə bilməsi üçün münaqişə məsələsini, münaqişənin dincliklə nizama salınması məsələsini həll etmək lazımdır. Sadəcə olaraq, ona görə yox ki, o, Qafqaz dördlüyü adlanır, məhz ona görə ki, bura Rusiya üçün də böyük əhəmiyyəti olan geniş regionu və bizim yaşadığımız regionu əhatə edir.

Bilirsiniz ki, bu sahədə müəyyən iş görülür. Bizim axırıncı görüşümüz Birləşmiş Ştatlarda, Ki-Uestdə olmuşdur. Amerika Birləşmiş Ştatlarının nümayəndəsi Keri Kavano bu yaxınlarda buraya gəlmişdi, onunla ətraflı söhbət oldu. Bu gün mən həmin məsələ ilə əlaqədar Vyaçeslav İvanoviç Trubnikovla da görüşəcəyəm. Sonra, məncə ayın 18-də Minsk qrupu həmsədrlərinin hamısının buraya gəlməsi gözlənilir. Bir sözlə, mən bu fəallığı alqışlayıram. Ona görə ki, bir müddət əvvəl bu iş də donmuş vəziyyətdə idi. Mən qarşılıqlı məqbul qərarlar tapılmasına yönəldilmiş bu fəallığı alqışlayıram. Məhz qarşılıqlı məqbul qərarlar. Əgər belə bir qərar olmasa – təəssüf ki, Ki-Uestdə bu baxımdan heç də hər şey baş tutmadı – onda münaqişə həll edilə bilməz. Əgər münaqişə həll edilməmiş qalsa, onda Qafqaz dördlüyü üzrə də işimiz formal xarakter daşıyacaqdır. Çünki Qafqaz dördlüyünün fəaliyyəti bütün sahələri – terrorizmlə mübarizəni də, təhlükəsizlik məsələlərini də, bir çox digər məsələləri də, iqtisadi əməkdaşlığı da əhatə etməlidir.

Məsələn, biz Rusiya ilə iqtisadi əməkdaşlığın artıq yaxşı perspektivinə malikik. Bizim Gürcüstanla normal iqtisadi əməkdaşlığımız var. Lakin biz Ermənistanla hərbi münaqişə vəziyyətində olduğumuza görə, onunla hətta azacıq belə iqtisadi əməkdaşlığa malik ola bilmərik – hərçənd, hərdən bizi buna sövq edirlər – baxmayaraq ki, Ermənistan bu əməkdaşlığa can atır.

Siz bilirsiniz, 1992-ci ildə Birləşmiş Ştatlar Konqresdə Azərbaycan haqqında çox ədalətsiz akt qəbul etmişdir. Bu bədnam 907-ci maddə Amerika Birləşmiş Ştatlarının bütün dövlət orqanlarının Sovetlər İttifaqının süqutundan sonra müstəqillik qazanmış digər ölkələrə göstərdikləri yardım kimi, Azərbaycana da yardım göstərməyi qadağan edir. O cümlədən Ermənistan çox böyük yardım alır, Gürcüstan da çox böyük yardım alır.

Biz Birləşmiş Ştatlar qarşısında dəfələrlə məsələ qaldırmışıq ki, bu, ədalətsiz qərardır. Onlar özləri də başa düşürlər ki, o, ədalətsiz qərardır. Prezident Klinton da dəfələrlə bildirmişdi, hətta Vaşinqtonda onunla imzaladığımız birgə bəyanatımızda, onun imzaladığı sənəddə yazılmışdır ki, 907-ci maddəni aradan götürmək lazımdır. Amma onlar bunu edə bilmədilər. Klinton öz səlahiyyətlərini yeni prezidentə verməzdən üç gün əvvəl mən ondan məktub aldım. Məktubda deyilirdi ki, əgər siz Ermənistana tərəf hər hansı bir jest etsəniz, sərhədin hər hansı bir kiçik sahəsində ticarət üçün imkan açsanız, biz 907-ci maddəni ləğv edə bilərik. Mən imtina etdim. İmtina edib bildirdim

ki, biz indiyədək 907-ci maddə ola-ola yaşamışıq və bundan sonra da yaşayacağıq, amma bunu edə bilmərik. Əsas məsələni həll etmək lazımdır. Münaqişəni aradan qaldırmaq lazımdır. Sülhü bərqərar etmək lazımdır. İşğal olunmuş Azərbaycan torpaqlarını azad etmək lazımdır. Sülh olandan sonra, münaqişə aradan qaldırıldıqdan sonra bütün işlər çox uğurla gedəcəkdir.

Xüsusən də Ermənistanda necə ağır iqtisadi vəziyyət olduğu sizə və hamıya məlumdur. Onların iqtisadi əməkdaşlığa ehtiyacı var. Ərazimizi işğal edərək, məhz özlərinin bağladıqları kommunikasiyalara onların ehtiyacı var. Əgər onların buna ehtiyacı varsa, əgər onlar bunun açılmasını istəyirlərsə, onda münaqişə məsələsini həll etmək lazımdır. Münaqişə məsələsini həll etmədən hər hansı əməkdaşlığın olmasına müəyyən cəhdlər göstərilməsinə biz yol verə bilmərik. Qətiyyən yol verə bilmərik.

Vladimir Vladimiroviç Putinlə biz Qafqaz dördlüyünün Minskdə keçiriləcək görüşü barədə, sonra isə Vladimir Vladimiroviçin, Ermənistan prezidentinin və Azərbaycan prezidentinin üçtərəfli görüşü barədə telefonla danışdıqda, mən buna razılıq verdim. İndi hesab edirəm ki, bu görüşlər keçirilməlidir. Lakin eyni zamanda Qafqaz dördlüyü ilə əlaqədar çox böyük çətinlik var. Bu çətinlik bizdən asılı deyildir. Biz sülh istəyirik. Məsələni dinc yolla həll etmək istəyirik. Biz istəyirik ki, Azərbaycanın işğal olunmuş əraziləri dinc yolla azad edilsin, çadırlarda yaşayan qaçqınlar – onlar təxminən bir milyon nəfərdir – öz yaşayış yerlərinə qayıtsınlar. Əgər bütün bunlar olmasa, biz Ermənistanla lap az da olsa, necə ticarət edə bilərik? Əvvəla, biz bunu edə bilmərik. İkincisi isə, xalqımız bunu bizə bağışlamaz.

Ona görə də düşünürəm ki, təhlükəsizliyin təmin edilməsi üçün də, beynəlxalq terrorizmlə daha uğurlu mübarizə üçün də, yeri gəlmişkən, narkotiklərlə, onların nəqli ilə mübarizə üçün də, bir çox digər işlər və iqtisadi əməkdaşlıq üçün də Qafqazda ən başlıca, ümdə məsələ Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması və sülhün bərqərar olunması məsələsidir. Olduqca çox şey itirməmizə, insanları itirməyimizə, işğal edilmiş ərazilərdə hər şeyin talanmasına baxmayaraq, biz buna gedirik. Həmin əraziləri bərpa etmək üçün nəinki illər, hətta on illər lazımdır. Odur ki, biz sülh əldə edildikdən sonra da böyük çətinliklər çəkəcəyik.

Bununla belə, sülh gərəkdir. Artıq hər yerdə, hər yanda hamı yəqin edir ki, sülh gərəkdir. Münaqişələr heç zaman heç kimə fayda gətirmir. Əgər indi onlar, məsələn, işğal olunmuş ərazilərimizdə məskən salmışlarsa, bu o demək deyil ki, hansısa böyük fayda qazanıblar. Yox, onlar heç nə qazanmayıblar. Əksinə, sizə də, bizə də məlumdur ki, onların iqtisadi vəziyyəti çox mürəkkəbdir və bundan da mürəkkəb olacaqdır. İqtisadi vəziyyət isə əsas məsələdir. Normal iqtisadi vəziyyət olsa, insanlar yaşayacaqlar, iqtisadiyyat inkişaf edəcək, islahatlar həyata keçiriləcək, bazar iqtisadiyyatı uğurla irəliləyəcəkdir. Bir sözlə, bu barədə mənim fikrim belədir, mən bunu demək istəyirdim.

O ki qaldı Rusiyanın və Azərbaycanın təhlükəsizlik şuraları arasında konkret əməkdaşlığa, bəli, həqiqətən, belə protokol var idi, indi onu təzələmək olar, biz bunu istəyirik və mən onu fəal surətdə dəstəkləyirəm.

**V l a d i m i r R u ş a y l o:** Heydər Əliyeviç, sağ olun. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Sizin narahatlığınıza şərikəm. Biz Bakı ilə Yerevan arasında yüksək səviyyədə davam edən birbaşa dialoqa böyük ümidlər bəsləyirik. Biz onu əsas tuturuq ki, Azərbaycan və erməni xalqları üçün məqbul və qeyri-məqbul hallar arasındakı həddi Sizinlə prezident Köçəryandan başqa heç kəs hiss edə bilməz, münaqişə vəziyyətindən çıxmağa imkan verəcək kompromisli təklifləri formalaşdıra bilməz. Şübhəsiz ki, Rusiya tərəfi Ermənistan prezidenti ilə razılığa gələcəyiniz nizamasalma formulunu qəbul etməyə hazır olardı. Biz əldə edilmiş sazişin təminatçısı ola bilərdik. Amma təbii ki, qərar qəbul etmək səlahiyyəti Sizə məxsusdur. Qərarı Siz və Ermənistan prezidenti qəbul etməlisiniz. Əlbəttə, vəziyyətin mürəkkəbliyini başa düşürük və bu məsələnin həlli üçün lazım gələn köməyi göstərməyə hazırıq.

Təhlükəsizlik Şurasının aparatı ilə qarşılıqlı fəaliyyətimizə gəldikdə, Siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, qarşılıqlı fəaliyyətimizin səviyyəsini yüksəltmək məqsədəuyğundur. Bu gün biz də bundan danışdıq. Biz görülmüş işi nəzərdən keçirib araşdırdıq. İlə təxminən iki görüş düşür. Görüşlər ya Bakıda, ya da Moskvada keçirilmişdir. Bu gün biz Ramiz Ənvəroviçlə belə bir qənaətə gəldik ki, bu, şübhəsiz, azdır, bugünkü münasibətlərimizin səviyyəsinə uyğun deyildir. Ona görə də belə bir qənaətə gəldik ki, görüşlərin sayını artırmaq məqsədəuyğundur. Həm də vacib deyil ki, bu, katiblərin, yaxud da onların müavinlərinin görüşləri olsun. Bu, işgüzar səviyyədə görüşlər, ekspertlərin görüşləri olmalıdır və onların sayı konkret məsələlərin həlli üçün tələb edilən qədər olmalıdır. Əgər Siz bu işdə bizi dəstəkləsəniz, onda bu qərarları həyata keçirmək üçün qəbul edirik.

**H e y d ə r Ə l i y e v:** Bilirsinizmi, əlavə etmək istərdim, biz çox məmnunuq ki, son vaxtlar Rusiya Minsk qrupunun tərkibində öz fəaliyyətini gücləndirmişdir. Bu çox müsbət haldır. Mən bunu alqışlayıram. Yeri gəlmişkən, prezident Vladimir Vladimiroviç Putinlə görüşlərimiz zamanı biz bu barədə bir neçə dəfə danışmışıq. Bu fəallaşma hiss edilir. Bu gün mən Vyaçeslav İvanoviçlə də bu mövzuda danışacağam. İstərdim ki, Minsk qrupunun – Rusiya ötən vaxtlarla müqayisədə burada çox fəal mövqe tutur – yaranmış bax, bu fəallığı davam etsin. Bunsuz biz bir qərara gələ bilmərik. Gələ bilmərik.

**V l a d i m i r R u ş a y l o:** Heydər Əliyeviç, sağ olun. İcazə versəydiniz, İqtisadi İnkişaf və Ticarət Nazirliyinin departament rəhbəri İqor Nikolayeviç Kareyev bir neçə kəlmə demək istərdi.

**İ q o r   K a r e y e v** (*Rusiya Federasiyasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin departament rəhbəri*)**:** Hörmətli Heydər Əliyeviç, Sizin yanvar ayındakı razılaşmalarınızla bağlı yalnız bir neçə söz demək istəyirəm. Biz azərbaycanlı həmkarlarımıza bir neçə təklif gətirmişik. Bu gün Sizin razılaşmaların həyata keçirilməsi sahəsində, sadəcə, tədbirlər planı deyil, həm də uzunmüddətli iqtisadi proqramın hazırlanması üçün yaxşı baza olduğu aydın görünür. Hökumətimiz bu işi əlaqələndirməyi bizim nazirliyə tapşırmışdır. Bizim müəyyən təcrübəmiz var. Proqramda qarşılıqlı münasibətlərin əslində bütün sahələri əhatə olunmuşdur. Etiraz etmirsinizsə, Sizin rəsmi səfərinizə qədər belə bir sənədin hazırlanması üçün İqtisadi İnkişaf Nazirliyinizdəki həmkarlarımızla birlikdə işləyə bilərdik.

**H e y d ə r   Ə l i y e v:** Mən bunu tamamilə dəstəkləyirəm və nümayəndələrimizə bir daha göstəriş verəcəyəm. Xahiş edirəm, siz də mənim sizə dediklərimə doğru istiqamət götürün, fəal işləyin, mən isə bu sənədi prezident Vladimir Vladimiroviç Putinlə birlikdə məmnuniyyətlə imzalayacağam.

## RUSİYA XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, RUSİYA FEDERASİYASI PREZİDENTİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ VYAÇESLAV TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*15 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən sizi Azərbaycanda salamlayıram. Bu yaxınlarda biz sizinlə bir neçə gün Ki-Uestdə olduq və işlədik. Nəticənin necə olacağını söyləmək çətindir, hər halda, bu, Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması sahəsində ATƏT-in Minsk qrupunun işində çox mühüm mərhələ idi. Mən onda da demişdim və oradan qayıtdıqdan sonra Vladimir Vladimiroviç Putinlə telefonla söhbətimdə də demişəm ki, bu, yeni formatdır, özü də başqa keyfiyyətdə işdir. Vyaçeslav İvanoviç, mən bu işdə sizin iştirakınızı xüsusi qeyd etdim. Bu barədə Vladimir Vladimiroviçə də dedim və hesab edirəm ki, bu çox mühüm idi. İndi Rusiya Minsk qrupunun tərkibində lazımi fəallıq göstərir. Mən bu barədə demişəm, lakin çox təəssüf ki, əvvəllər belə olmamışdır. Bunun ümumən təkcə bizim üçün deyil, Minsk qrupunun fəaliyyətinin güclənməsi üçün də böyük əhəmiyyəti var. Ona görə də mən Ki-Uestdəki görüşlərimizi böyük səmimiyyət hissi ilə xatırlayıram. İş də gərgin idi, eyni zamanda, görüş yeri də yeni idi. Hər halda, mənim üçün. Yəqin siz də orada ilk dəfə olurdunuz.

**V y a ç e s l a v  T r u b n i k o v:** Bəli, ilk dəfə idi.

**H e y d ə r  Ə l i y e v:** Mən Kubada olmuşam. Kuba oradan uzaqda deyildir. Amma bu adada olmamışdım. Maraqlı yerlərdir. Prezident Vladimir Vladimiroviç Putinin salamını mənə yetirdiyinizə görə sağ olun, mənim də salamımı, ən xoş arzularımı ona çatdırın. Lap bu yaxınlarda, ayın 10-da biz onunla telefonla danışdıq və mən xahiş etdim ki, siz imkan tapıb buraya gələsiniz. O, həmişəki kimi, yenə də sözünün üstündə durdu və dedi ki, siz yaxın günlərdə burada olacaqsınız. Mən onu nəzərdə tuturam ki, biz çox mühüm məsələ barəsində fikir mübadiləsini davam etdirməliyik. Bilirsiniz ki, ondan sonra bəzi görüşlər olmuşdur. Kavano buraya gəlmişdi, bizim onunla uzun sürən görüşümüz oldu. Sonra Minsk qrupunun həmsədrləri Vyanaya toplaşdılar. Sonra mənə məlum oldu ki, Minsk qrupunun həmsədrləri Nyu-Yorkda prezident Köçəryanla da görüşmüşlər. Yeri gəlmişkən, ayın 18-də biz Minsk qrupunun həmsədrlərini Azərbaycanda gözləyirik. Gərək ki, sonra onlar Ermənistana da getməyi planlaşdırırlar.

İndi bu işin belə fəal, intensiv getməsini mən nəinki bəyənir və dəstəkləyirəm, həm də buna çox şadam. Gərək iş elə getsin ki, əməli nəticələr əldə olunsun. Yoxsa ki, Cenevrə görüşü zamanı və sonra nəyinsə imzalana biləcəyi barədə bəzi inandırmalar, əlbəttə, adamlarda çox böyük ümid doğurur.

Çünki respublikamızın sakinləri Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə nizama salınacağına artıq daxilən hazır idilər. Odur ki, indiki halda, ATƏT-in Minsk qrupu həmsədrlərinin bu cür intensiv işi və eyni zamanda Rusiyanın fəaliyyətinin güclənməsi, təbii olaraq, razılıq hissi doğurur.

**V y a ç e s l a v  T r u b n i k o v:** Cənab Prezident, səmimi qəbula görə Sizə təşəkkür edirəm.

Həmsədrlər qrupu çərçivəsində Rusiyanın roluna və fəallığımıza yüksək qiymət verdiyinizə görə də sağ olun. Əmin olun ki, bu fəallığın azalmaması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Biz işi irəlilətmək üçün bir çox istiqamətlərdə işləyirik. Mən tamamilə razıyam ki, əsassız olaraq böyük ümidlər vermək lazım deyildir. Bu, həmişə çaşdırır, həmişə karıxdırır. Bu, ictimai rəyi də çaşdırır. Bu, əhalini də çaşdırır, Azərbaycanda da, Ermənistanda da, bütövlükdə dünyada da mövcud olan siyasi qüvvələri çaşdırır. Biz yəqin ki, realist olmalıyıq. Biz Sizinlə Ki-Uestdə, bax, bu barədə danışdıq. Bu, olduqca vacibdir.

Lakin ən başlıcası, bu gün göstərilən səylərin intensivliyini itirməməkdir. Bu gün hər hansı real dincliklə nizamasalmanın axtarışı yolunda əngələ çevrilən ümdə problemlərin həlli yollarını aramaq lazımdır. Əgər bütün diqqəti başlıca problemlərin həlli üzərində cəmləşdirsək, yəqin ki, bu, nəticə etibarilə bizə bir qərara gəlmək imkanı verəcəkdir. Əgər bu gün biz ikinci dərəcəli problemlər barədə söhbətlərə vaxt itirsək, zənnimcə, vaxtı, sadəcə, hədər yerə sərf etmiş olarıq. Əgər biz bu problemin həllini istəyiriksə, işə ciddi girişməliyik. Bunu etmək niyyətindəyiksə, onda, görünür, ən başlıca məsələlərə yanaşmaq lazımdır. Onlar ən mürəkkəb, ən ağır məsələlərdir və buna görə də onların sabah həll olunacağını güman etmək özünü aldatmaq, xülyaya qapılmaq demək olardı və biz xalqımız, ictimai rəy qarşısında da qeyri-səmimi olardıq. Odur ki, mürəkkəb vəziyyətlərdən real çıxış yolları axtaracağıq. Ən başlıcası, səyləri dayandırmamaqdır.

Mən burada məmnunluqla demək istəyirəm ki, Ki-Uestdən sonra ötən dövrü hədər keçirməmişik. Biz Minsk qrupu çərçivəsində görüşmüşük, üçüncü ölkələrin nümayəndələri ilə söhbət etmişik. Məsələn, mənim İran səfiri ilə ciddi, uzun söhbətim olmuşdur. Nizamasalmanın İranın mənafelərinə hər hansı bir şəkildə təsir göstərə biləcək cəhətləri onu da narahat edirdi. Zənnimcə, razılaşdığımız kimi, amerikalı tərəfdaşlarımız Türkiyə ilə yəqin ki, işləmişlər. Qonşularının bu ən mürəkkəb məsələsinin necə həll ediləcəyini Türkiyə də nəzərə almaya və özü üçün əhəmiyyətli saymaya bilməz.

Biz vaxtı hədər yerə itirməmişik. Mən demək istəmirəm ki, indi bizdə qərarın hazır variantları var. Bu da qeyri-səmimilik və özünüaldatma olardı. Lakin Vyana danışıqlarında olmuş Aleksey Nikolayeviç hesab edir ki, nizamasalma danışıqlarının indiki mərhələsinin izah olunması üçün az iş görülməmişdir.

Biz Ki-Uestdəki formatı mütləq saxlamaq niyyətindəyik. O, səmərəli olduğunu göstərdi. Demək istəyirəm ki, biz Cenevrədə mütləq görüşəcəyik, iki prezidentin – Azərbaycan prezidentinin və Ermənistan prezidentinin bu və ya digər ölkə üçün nəyin məqbul ola biləcəyi barədə düşünə bilməsi üçün həmsədrlərin Cenevrəyə yeni variantlar, yeni təkliflər gətirməsinə çalışacağıq. Bildiyiniz kimi – mən burada Vladimir Vladimiroviçə istinad edirəm – həm bu, həm də digər tərəfi razı salacaq hər hansı qərar Rusiya üçün məqbul olacaqdır. Biz bunun üçün maksimum mümkün olan işləri görməyə hazırıq və ən başlıcası isə, əgər bu qərarlar hər iki tərəfi razı salsa, biz nizamasalmanın təminatçısı olmağa hazırıq. Zənnimcə, bu, az əhəmiyyətli amil deyildir – hər halda, Rusiyanın Azərbaycan kimi qonşusu var.

Heydər Əliyeviç, Şimali Qafqazdakı problemlərimizə münasibətinizə görə biz Sizə çox minnətdarıq. Bu, Rusiya üçün, istər Çeçenistan olsun, istərsə də Dağıstan, fərqi yoxdur – Şimali Qafqazda sülh və təhlükəsizlik üçün çox ciddi problemdir. Odur ki, problemlərimizi dəstəkləməyiniz, əlbəttə, bütövlükdə Qafqazda sülhün möhkəmlənməsi işinə böyük töhfədir.

Güman edirəm ki, heç də az əhəmiyyəti olmayan Qafqaz dördlüyü formatında da, bizim də çox böyük ümid bəslədiyimiz üçlük formatında da qarşıdakı Minsk görüşləri, əlbəttə, Azərbaycan–Ermənistan münasibətlərinin nizama salınması işini irəlilədəcəkdir. Biz buna çox ümid bəsləyirik, çünki nəinki səlahiyyətə malik, həm də, ən başlıcası, çox böyük təcrübəyə və siyasi məsuliyyətə malik adamlar bir araya gələcəklər. Biz bunu əsas tuturuq ki, Minskdəki bu görüş Minsk qrupunun həmsədrləri kimi, bizə də nəsə verməlidir. Bundan sonra işi irəlilətmək asan olacaqdır. Biz buna çox ümid bəsləyirik.

**Heydər Əliyev:** Minsk görüşünə mən də böyük ümidlər bəsləyirəm. Siz burada, Bakıda çoxdan olmayıbsınız?

**Vyaçeslav Trubnikov:** Deməzdim ki, çoxdan olmamışam. Buna baxmayaraq, bu gün başqa vəzifədə gəlmişəm. O vaxt siz məni Xarici Kəşfiyyat Xidmətinin direktoru kimi qəbul etmişdiniz. Burada bizim Sizinlə ciddi, uzun sürən söhbətimiz oldu. Mən bunu da səmimiyyətlə xatırlayıram. Bu gün biz Bakının ponoramını seyr etdik. Deməliyəm ki, təəssüratımız olduqca yaxşıdır. Şəhər tikilir, gözəlləşir. Sahil parkı çox gözəl görünür. Ötən dəfə o çox da gözəl görünmürdü. Elə İçərişəhər də gözəldir.

**Heydər Əliyev:** Vyaçeslav İvanoviç, sağ olun. İndi Biz sizinlə Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması probleminə daxil olan məsələlər barəsində fikir mübadiləsi aparacağıq.

## MDB ÖLKƏLƏRİNİN MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*15 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, dostlar!

Mən sizi Azərbaycanda salamlayıram. Şadam ki, siz öz növbəti görüşünüz üçün bizim ölkəmizdə, Bakıda toplaşmısınız. Hələ indiyədək belə olmayıbdır. Görünür, müəyyən bir növbəlilik var. Yəqin ki, indi növbə Azərbaycana da çatmışdır.

Sizin şura Müstəqil Dövlətlər Birliyinin fəaliyyəti üçün çox böyük əhəmiyyətə malikdir. Doğrudur, tərkibi bir qədər müxtəlifdir. Elə ölkələr var ki, MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsinə daxildir, elə ölkələr də var ki, oraya daxil deyildir, hətta bitərəf olan ölkə də var. Buna baxmayaraq, Azərbaycanın nümayəndə heyəti, Azərbaycanın Müdafiə naziri müxtəlif respublikalarda keçirilmiş bütün görüşlərdə iştirak etmişlər. Biz bu görüşlərdə iştirakı müəyyən fəaliyyət sahələrində əməkdaşlıq üçün çox faydalı bilirik.

Zənnimcə, siz görüşərək fikir mübadiləsi apardınız. Bu faktın özü çox böyük əhəmiyyətə malikdir. İkincisi isə, yəqin ki, səmərəli işləmisiniz. Ona görə də sizin razı qalmağa əsasınız var. Azərbaycan prezidenti kimi, mənim üçünsə sizin ölkəmizdə, Bakı şəhərində olmağınız əhəmiyyətlidir. Yəqin ki, kimsə əvvəllər burada olubdur, kimsə olmayıbdır. Hər halda, əgər sizlərdən kimsə əvvəllər burada olubsa, müstəqilliyin on illiyinin sonuna yaxınlaşdığımız vaxtda bugünkü Azərbaycanın, bugünkü Bakının, şübhəsiz, keçmişdəkindən fərqləndiyini görür. Hamınız hələ də cavansınız, gəncsiniz, on il keçmişdir, bu isə artıq böyük müddətdir.

Şadam ki, siz burada, Bakıda bir-birinizlə ünsiyyətdə olmaq, işləmək, həm də müəyyən dərəcədə xalqımızla təmasda olmaq və şəhərimizlə tanış olmaq imkanına maliksiniz. Yəqin ki, işiniz də qarşılıqlı anlaşma ruhunda keçib və buna görə uğurla başa çatmışdır. Mən isə şadam ki, sizinlə görüşürəm. Sergey Borisoviç, siz yəqin ki, bir şey deyəcəksiniz?

**S e r g e y  İ v a n o v** (*Rusiyanın Müdafiə naziri*): Biz tam qarşılıqlı anlaşma ruhunda işlədik və hesab edirəm ki, uğurla işlədik. Biz bir çox məsələlərə dair 20-dən artıq saziş, sənəd imzaladıq. Mən onları şərti olaraq belə adlandırardım:

Birinci blok – nazirliklərimizə bilavasitə aid olan hərbi və hərbi-texniki məsələlər.

İkinci blok – maliyyə, inzibati, təsərrüfat xarakterli məsələlər.

Üçüncü blok – kadr məsələləri.

Lakin deməyə bilmərəm – hərçənd yəqin ki, bu qeyri-təvazökarlıqdır – mən ikiqat məmnunam və minnətdaram, həm də ona görə ki, hər şeydən əlavə, bu gün məni MDB Ölkələri Müdafiə Nazirləri Şurasının sədri seçdilər.

**H e y d ə r  Ə l i y e v:** Təbrik edirəm.

**S e r g e y  İ v a n o v:** Çox sağ olun. Əlbəttə, mən bunu böyük etimad kimi qiymətləndirirəm və şuramızın MDB-yə daxil olan bütün ölkələrin təhlükəsizliyi naminə maksimum səmərəli, məhsuldar işləməsi üçün hər şeyi etməyə çalışacağam. Bizim aramızda prinsipial xarakterli heç bir iri problem, mübahisə olmadı. Məncə biz, dövlətlərdən hər biri müstəqillik yolu ilə irəlilədikcə, daha da aydın görürük ki, əməkdaşlıq etmədən, qarşılıqlı fəaliyyət göstərmədən, birgə tədbirlər görmədən keşməkeşli zəmanəmizdə mövcud təhlükələri dəf etmək çox çətindir. Bu təhlükələr mövcuddur, mən ən əvvəl terrorizmi, ekstremizmi nəzərdə tuturam. Onlar postsovet məkanının qərbində, cənub-qərbində də var, Cənubi Qafqazda da, Mərkəzi Asiya regionunda da, necə deyərlər, nizamsızlıq, mübahisələr var. Ona görə də ümidvaram və əminəm ki, qəbul etdiyimiz qərarlar bu təhlükələri təklikdəkinə nisbətən birlikdə daha asan aradan qaldırmağımıza kömək edəcəkdir. Mən bunları deyərək, bizi qəbul etməyə imkan tapdığınıza görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Həqiqətən, şuramız bəlkə də spesifikdir, hərçənd, gördüyünüz kimi, mülki geyimdə olanlar getdikcə çoxalır...

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, siz mülki geyimdəsiniz, mən bunu başa düşürəm. Bəs onlar niyə mülki geyimdədirlər? Onlar da mülki nazirlər olmuşlar?

**S e r g e y  İ v a n o v:** Bizdə beləiəri var. Mülki nazir tək mən deyiləm.

---

* Görüşdə Azərbaycanın, Rusiyanın, Ukraynanın, Gürcüstanın, Qazaxıstanın, Qırğızıstanın, Moldovanın, Tacikistanın, Özbəkistanın müdafiə nazirləri, Belarus Müdafiə nazirinin hərbi siyasət məsələləri üzrə köməkçisi, MDB-nin hərbi əməkdaşlığın əlaqələndirilməsi üzrə qərargahında Ermənistan silahlı qüvvələrinin nümayəndəsi, MDB-nin hərbi əməkdaşlığın əlaqələndirilməsi üzrə qərargahının rəisi, MDB Ölkələri Müdafiə Nazirləri Şurasının katibi iştirak edirdilər.

**H e y d ə r Ə l i y e v:** Siz nümunə göstərirsiniz?

**S e r g e y İ v a n o v:** Yox. Biz təhrik etmək istəmirik, sadəcə olaraq, belə proses getməyə başlamışdır.

**H e y d ə r Ə l i y e v:** Tezliklə hamı poqonları çıxaracaqdır.

**S e r g e y İ v a n o v:** Baxaq görək, bundan nə çıxacaqdır. Tezliklə dövlət başçılarının Minskdə görüşü olacaqdır. Vladimir Vladimiroviç görüşə hazırlaşır, Sizə salam yetirməyi xahiş etdi. Əlbəttə, görüşməyə ümid bəsləyir, inanır. Ümid edəcəyik ki, Minsk görüşü təkcə bizə deyil, başqalarına – hökumət başçılarına da, xarici işlər nazirlərinə də növbəti ciddi impuls verəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Fürsətdən istifadə edərək, demək istəyirəm ki, son vaxtlar, Rusiyada rəhbərlik dəyişdikdən sonra, yəni Vladimir Vladimiroviç Putin prezident seçildikdən, bunun ardınca biz onu Birlik ölkələrinin Dövlət Başçıları Şurasının sədri seçdikdən sonra, açığını, düzünü deyəcəyəm, təşkilatımız – MDB daha dəqiq, daha məqsədyönlü, nə gizlədim, səmərəli işləməyə başlamışdır.

Deyirlər keçmişdən xüsusi danışmağa dəyməz, mən buna əməl edirəm. Bilirsinizmi, bununla belə, dövlət başçılarının bir çox görüşləri şəxsən məni o qədər də cəlb etmirdi. Ona görə ki, görüş sanki keçirilirdi, kimlərsə nəsə deyirdi, hansısa sənədlər qəbul edilirdi. Amma, əvvəla, onların icrası çox yarıtmaz olurdu. İkincisi, bilirsiniz, ümumən MDB-də və xüsusən dövlət başçılarının qarşılıqlı münasibətlərində lazımi ab-hava duyulmurdu. Şükürlər olsun ki, bunların hamısı arxada qalmışdır. Açığını deyəcəyəm, indi MDB daha dəqiq işləyir. Buna xeyli dərəcədə Dövlət Başçıları Şurasının sədri Vladimir Vladimiroviç Putin kömək edir və üstəlik, planauyğunluq da əmələ gəlmişdir. Tarix elan edilir, həmin tarixədək hazırlıq görülür, sonra isə növbəti tarix elan olunur. Bilirsinizmi, əvvəllər bütün bunlar ixtiyari xarakter daşıyırdı. Vaxt keçib gedirdi, biz isə nə vaxt toplaşmaq lazım gələndə, bunu dövlət başçıları ilə razılaşdırırdıq, birinin imkanı olurdu, o birisinin olmurdu və görüşü başqa vaxta keçirirdik.

Yeri gəlmişkən, Yarov bütün MDB ölkələrində, o cümlədən Azərbaycanda da olmuşdur. O, sənədlər yığılmış qalın-qalın qovluqlar göstərdi. Bu sənədlər MDB katibliyinin necə gərgin iş gördüyünü göstərir. Katiblik qəbul etdiyimiz qərarların həyata keçirilməsi sahəsində də, yeni iclasın hazırlanması sahəsində də işlər görür. Biz əvvəllər belə şey görmürdük. Məsələ kağızların miqdarında – çoxluğunda və ya azlığında deyildir. Məsələ məhz bundadır ki, görüşümüzdən sonra nə kimi işlər görüldüyünü və gələcəkdə nə edəcəyimizi, hansı sənədlərin hansı vəziyyətdə olduğunu çox konkret, dəqiq, aydın şəkildə təsəvvür edirsən.

Buna görə də mənə elə gəlir ki, bu cür iş üsulu digər səviyyələrdə də, xüsusən də MDB ölkələri müdafiə nazirlərinin görüşlərində də öz təcəssümünü tapmalıdır və yəqin ki, tapmışdır. Terrorizmlə, ekstremizmlə, dini fanatizmlə, davakar separatizmlə mübarizə hazırda bizim hamımız üçün xüsusi əhəmiyyət kəsb edir.

Əlbəttə, biz – MDB-yə daxil olan ölkələr sülh mövqeyində durmuşuq və biz də, bütün ölkələr də sülhsevər siyasət aparırıq. Ona görə ki, hər hansı hərbi əməliyyatların, hətta məhdud əməliyyatların – mən hələ hansısa böyük müharibəni demirəm – yenidən başlanması heç kimə fayda gətirməyəcəkdir. Şükürlər olsun ki, İkinci dünya müharibəsi hadisələrindən hamımızın nəticə çıxarmaq imkanı var. Amma bununla yanaşı, sual olunur, bəs bu müdafiə nazirlikləri nəyə gərəkdir? Məsələn, biz Azərbaycan dövlətinin siyasətinin mövqelərini əsas tutaraq hesab edirik ki, öz suverenliyimizi, öz dövlətçiliyimizi, öz torpaqlarımızı istənilən vaxt qoruya bilməyimiz üçün bizə ordu gərəkdir, bizə Müdafiə Nazirliyi gərəkdir.

Məsələn, biz heç kimlə müharibə etmək və heç kimə hücum etmək istəmirik. Bu, başlıca prinsipdir və düşünürəm ki, başqaları da mənimlə razıdırlar. Amma bununla belə, təəssüf ki, bu və ya digər ölkələrin ərazilərinə soxulan ayrı-ayrı xarici qüvvələr ölkələri, hər halda, mübarizə aparmaq zərurətinə cəlb edirlər.

Sizin dediyiniz kimi, burada beynəlxalq terrorizmlə mübarizə xüsusi əhəmiyyət kəsb edir. Özü də əgər əvvəllər bu terrorizm haradasa, hansısa bir məhdud sahədə, MDB məkanında idisə, indi bütün bunlar getdikcə daha geniş yayılır. Ona görə də biz bu istiqamətdə səyləri birləşdirməliyik. Terrorizm də dəhşətlidir, ekstremizm də. Dini ekstremizm, dini fanatizm bizim üçün, zənnimcə, Mərkəzi Asiya ölkələri üçün də böyük təhlükə törədir. Hesab edirəm ki, bunun bizə daha mürəkkəb problem yaratmaması üçün çox vacib tədbirlər görməliyik.

Əlbəttə, indiyədək mövcud olan münaqişələr də. Bir baxın, biz Müstəqil Dövlətlər Birliyindəyik, biz hamımız bir yerdəyik. Amma MDB-nin mövcud olduğu bu 10 ildə münaqişələrə son qoyulmayıbdır. Əlbəttə, ən ağır, məncə, ən çətin münaqişə Ermənistanla Azərbaycan arasındakı münaqişədir. Bu münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilmişdir, bir milyon adam qaçqın düşmüşdür. Onların böyük əksəriyyəti çadırlarda yaşayır. Çadırlarda bir il, iki il, üç il yaşamaq olar, amma səkkiz, doqquz il çadırda yaşamaq, sadəcə olaraq, ağlasığmaz haldır. Respublikamızın, ölkəmizin belə itkilərə məruz qalmasına baxmayaraq, biz sülh mövqeyindəyik, münaqişənin dincliklə nizama salınması mövqeyindəyik. Ermənistan və Azərbaycan prezidentləri arasında son vaxtlar keçirilən görüşlərdə, ATƏT-in Minsk qrupu həmsədrlərinin – Rusiyanın, Birləşmiş Ştatların və Fransanın fəallaşması da müəyyən ümid yaradır ki, biz bu məsələnin qarşılıqlı kompromislər yolu ilə dincliklə həllinə nail ola bilərik. Amma kompromislər bu tərəf üçün də, o tərəf üçün də məqbul olmalıdır.

Azərbaycan MDB-yə daxil olanda – bu, 1993-cü ildə baş vermişdir, çünki 1992-ci ildə Azərbaycan MDB-də iştirakdan imtina etmişdi – birinci iclasda məsələ qaldırdım, ona görə ki, mən bundan bir qədər əvvəl prezident seçilmişdim və özüm istəyirdim ki, Azərbaycan MDB-yə qoşulsun. Yeri gəlmişkən, bu proses asan olmadı,

çünki respublikada bu baxımdan əhval-ruhiyyə mənfi idi. Lakin razılıq əldə etmək üçün, Azərbaycanın da MDB tərkibində olması üçün işləmək lazım gəldi. Mən indi də hesab edirəm ki, bu, düzgün addım idi və özünü tamamilə doğruldur. Hərçənd bizim müxalifətdən bəziləri məni qınayır ki, bunu etmək nəyə lazım idi. Lakin bu onların öz işidir. Hərənin öz siyasəti, öz xətti var.

O vaxt birinci iclasda dedim: bilirsinizmi, təşkilatımızın həqiqətən yüksək beynəlxalq səviyyədə olması üçün, Birlik ölkələrinin fəal əməkdaşlığı üçün hər şeydən öncə bütün maneələri aradan götürmək lazımdır. Burada isə Ermənistanla Azərbaycan arasındakı münaqişə, Qafqaz münaqişəsi, Osetiya münaqişəsi, Dnestryanı bölgədəki münaqişə birinci yerə çıxır. Sonra Çeçenistan münaqişəsi meydana gəldi.

Ona görə də mənə elə gəlir ki, bu ən başlıca vəzifədir. Biz onu birlikdə yerinə yetirməliyik. Mənim fikrim belədir, bu münaqişələri ancaq münaqişə vəziyyətində olan ölkələrin həll edə biləcəyinə ümid bəsləmək, qalanlarının isə buna dəxli olmadığını və ya biganə qalmalı olduğunu düşünmək, hesab edirəm ki, düzgün deyildir. Budur, indi Orta Asiyada, Mərkəzi Asiyada münaqişə ocaqları meydana gəlmişdir. Bax, mən 1993-cü ildə birinci iclasda danışanda belə şey yox idi. O vaxt əslində Çeçenistanda da münaqişə yox idi. Yəni, mən açıq demək istəyirəm ki, MDB ölkələrinin ümumi təhlükəyə etinasız münasibəti və eyni cür yanaşmaması bu təhlükənin daha da artmasına gətirib çıxarır. Biz bunun şahidiyik.

Ona görə də biz hər bir ölkənin təhlükəsizliyinə, suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qorxu törədən təhlükələrin bütün növləri ilə mübarizə mövqeyində möhkəm dayanmışıq. Məsələn, mən Ermənistanla Azərbaycan arasındakı münaqişənin dincliklə həllini, sülhün bərqərar edilməsini və bizim üçün çox mühüm olan mehriban qonşuluq əməkdaşlığının bərqərar edilməsini özümüz üçün nə qədər vacib bilirəmsə, Çeçenistandakı münaqişənin həllini, Gürcüstandakı münaqişənin aradan qaldırılmasını, Mərkəzi Asiyanın qarşılaşdığı və açığını deyək, orada vəziyyəti mürəkkəbləşdirən bəzi beynəlxalq terrorizm faktlarının yayılmamasını da bir o qədər əhəmiyyətli sanıram.

Ona görə də mən məhz bundan başladım ki, silahlı qüvvələr bizə müdafiə üçün gərəkdir. Hərbi doktrinamız da məhz bundan ibarətdir – öz dövlətimizi qorumaq üçün, sülhə, bəşəriyyətə qarşı, hər halda, MDB-ni əhatə edən regionumuza qarşı ümumi təhlükə ilə mübarizədə səyləri birləşdirmək üçündür.

Mən bu fikri dövlət başçıları ilə görüşlər zamanı da söyləmişəm və fürsətdən istifadə edərək, bu gün də deyirəm, düşünürəm ki, hamı bununla razıdır, amma əməllər, təəssüf ki, fikirlərə o qədər də uyğun gəlmir. Mən bunu başa düşürəm. Hesab edirəm ki, belə görüşlər, əməkdaşlıq, mövqelərin yaxınlaşması, qarşılıqlı anlaşma fikirlərin də, əməllərin də tamamilə uyğun olmasına gətirib çıxaracaqdır. Ona görə də mən bu görüşü çox mühüm və faydalı sayıram.

## ZAQAFQAZİYA ÖLKƏLƏRİ ONKOLOQLARININ İKİNCİ KONQRESİNİN İŞTİRAKÇILARINA

Sizi – Zaqafqaziya ölkələri onkoloqlarının Bakı şəhərində keçirilən ikinci konqresinin iştirakçılarını Azərbaycan torpağında ürəkdən salamlayıram.

Keçirdiyiniz elmi forum təcrübə mübadiləsi, yeni yaradıcılıq ideyalarının gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir və əminəm ki, o, son nəticədə onkologiya elminin gələcək inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Keçid dövrünün iqtisadi problemləri, Qafqazda hələ həllini tapmamış münaqişələr, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun ağır nəticələri regionda illər boyu təşəkkül tapmış elmi və mədəni əməkdaşlıq ənənələrinə ciddi xələl gətirmiş və bu qəbildən olan forumların işində uzunmüddətli bir fasilə yaratmışdır. Təqdirəlayiq haldır ki, insanlarımızın sağlamlığı naminə Zaqafqaziya alimlərinin göstərdiyi əməkdaşlıq cəhdləri sayəsində onkoloqlar öz konqreslərini yenidən keçirməyə nail olmuşlar. Bu mötəbər elmi toplantının işində Müstəqil Dövlətlər Birliyinin digər respublikalarından olan həmkarlarınızın iştirak etməsi isə onun elmi sanbalını daha da artırır.

Onkologiyanın mürəkkəb problemlərinin həlli yollarına həsr olunmuş forumunuz bəşəriyyəti bu qorxulu bəladan qurtarmaq naminə səylərinizi birləşdirmək işinə xidmət edir. Sizin bu konqresinizin yeni yüzilliyin və yeni minilliyin ilk ilində keçirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu gün Yer kürəsinin müxtəlif guşələrində milyonlarla adam onkoloji xəstəliklərdən əziyyət çəkir. Məhz buna görə də təbabətin bu sahəsində qazanılmış hər hansı nailiyyəti insanlar səbirsizliklə gözləyirlər. İnanıram ki, XXI əsrdə onkologiya elminin inkişafı sayəsində əldə ediləcək müvəffəqiyyətlər onkoloji xəstəliklərin müalicəsində dönüş yaradacaq və bu bəlaya düçar olmuş insanların həyat ümidini artıracaqdır.

Hörmətli konqres iştirakçıları! Müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə gəlişinizdən, onunla yaxından tanışlıqdan da böyük məmnunluq duyacağınıza əminəm və sizə konqresin işində uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2001-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN ƏMƏKDAŞLARINA**

Sizi – Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tanınmış elm və müalicə-profilaktika ocaqlarından biri olan Milli Onkologiya Mərkəzinin əməkdaşlarını 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Onkologiya üzrə xüsusi elmi mərkəzin yaradılması səhiyyəmizin tarixində əlamətdar bir hadisə olmuşdur. Onun təşəkkül tapması XX əsrin ən təhlükəli bəlalarından sayılan xərçəng xəstəlikləri ilə mütəşəkkil mübarizə ehtiyacından doğan zərurət idi. Bu gün minlərcə xəstəyə konkret praktiki yardım göstərməklə yanaşı, səmərəli elmi araşdırmalar aparan Milli Onkologiya Mərkəzi Azərbaycan tibb elminin inkişafına qiymətli töhfələr vermişdir. Sevindirici haldır ki, mərkəzin apardığı uğurlu elmi-tədqiqat işləri onun beynəlxalq elm aləmində nüfuzunu sürətlə artırmaqdadır.

Milli Onkologiya Mərkəzi ölkəmizdə bu sahədə ixtisaslaşmış yardımın koordinasiyası ilə məşğul olan əsas qurumdur. Onun bu illər ərzində hazırladığı yüksək ixtisaslı kadrlar respublikada onkoloji xidmətin inkişaf etmiş şəbəkəsinin yaradılmasına imkan vermişdir. Hal-hazırda respublikanın bir neçə bölgəsində onkoloji mərkəzlərin və əksər xəstəxanalarında müvafiq kabinetlərin uğurla fəaliyyət göstərməsi məhz sizin mərkəzin xidmətidir.

Xalqımızın sağlamlığı keşiyində dayanmaq bu gün müstəqil Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdəndir. Bu məqsədlə ölkəmizdə ekoloji problemlərin həlli, ətraf mühitin çirklənməsinin qarşısının alınması, qida məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi istiqamətində məqsədyönlü iş aparılır. İnanıram ki, əhali arasında onkoloji xəstəliklərin ilkin diaqnostikası, profilaktikası və müalicəsinə yönəldilmiş fəaliyyətinizlə Azərbaycan dövlətinin sosial siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsi yolunda əlinizdən gələni əsirgəməyəcək, ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı naminə bundan sonra da öz layiqli payınızı verəcəksiniz.

İnsanlarımızı xəstəlikdən qorumaq kimi olduqca nəcib fəaliyyətinizdə sizə yeni-yeni uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2001-ci il*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB POL BİYYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublikanın elan edilməsi günü münasibətilə Sizi və dost Kamerun xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Kamerun Respublikası arasında təşəkkül tapan dostluq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2001-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı – Birlik günü münasibətilə Sizi və dost Yəmən xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Yəmən Respublikası arasında təşəkkül tapmış münasibətləri yüksək qiymətləndirirəm. Ümidvaram ki, qarşılıqlı səylərimiz xalqlarımızın və ölkələrimizin rifahına mühüm töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2001-ci il*

## UKRAYNANIN MÜDAFİƏ NAZİRİ, ORDU GENERALI ALEKSAND KUZMUK VƏ «QIZIL TALE» BEYNƏLXALQ AÇIQ MƏŞHURLUQ REYTİNQİNİN BAŞ DİREKTORLUĞUNUN SƏDRİ DMİTRİ AKİMOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*18 may 2001-ci il*

**A l e k s a n d r  K u z m u k:** Çox hörmətli Heydər Əliyeviç, zati aliləri!

Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın tapşırığını yerinə yetirərək, onun salamını və möhkəm cansağlığı, Azərbaycan dövlətinin quruculuğunda uğurlar və Azərbaycan xalqına tərəqqi arzularını Sizə çatdırmaqdan yüksək şərəf duyuram.

Hörmətli Prezident, icazə verin, Sizə bildirim ki, səkkiz il əvvəl Ukraynada «Qızıl tale» Beynəlxalq Açıq Məşhurluq Reytinqi yaradılmışdır. Müstəqil Ukraynanın ilk prezidenti Leonid Kravçukun, Milli Elmlər Akademiyasının prezidenti Boris Patonun, Milli Tibb Akademiyasının prezidenti akademik Şalimovun və bəndənizin daxil olduqları reytinqin Rəyasət Heyəti hər ilin ən məşhur dövlət xadimlərini, siyasətçilərini, sahibkarlarını, alimlərini müəyyənləşdirir və mükafatlandırır. Bu yaxınlarda Beynəlxalq Açıq Məşhurluq Reytinqi Rəyasət Heyətinin növbəti iclası keçirilmişdir.

Əziz Heydər Əliyeviç, bu gün səhər Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının üzvləri Azərbaycan xalqının ziyarətgahına əklillər qoyanda, mən həyəcanlı hisslər keçirdim. Mən qədim Bakının gözəl mənzərəsinin seyrinə daldım. Bu gün onu qeyri-adi fon zinətləndirir – bu, saysız-hesabsız qülləli kranlardır, gözəl Azərbaycan torpağının paytaxtında nəhəng tikinti işləri gedir. Başqa şəhərlərdə belə şey yoxdur. Mən dənizə baxdıqda yüklə-boşal gözləyən gəmilərin sayına heyran qaldım. Bütün bunlar sübut edir ki, Azərbaycanda iqtisadi yüksəliş baş verir. Azərbaycan xalqı tərəqqi üçün etibarlı perspektivlərə malikdir.

Hörmətli Heydər Əliyeviç! İcazə verin, Sizə bildirim ki, biz hamımız hələ də ötən ilin martında Ukrayna prezidentinin rəsmi səfəri zamanı Sizin ona göstərdiyiniz qonaqpərvərliyin təsiri altındayıq. Biz öz evimizdə idik, qardaşlarımızın yanında idik. Biz bunu həmişə xatırlayırıq və xatırlayacağıq.

Mən MDB ölkələrinin müdafiə nazirlərinə verdiyiniz atalıq xeyr-duasının və xoş arzuların təsiri altındayam. Sülhün nə demək olduğu və onun qədir-qiyməti bizə daha aydındır.

Sizə bildirirəm ki, «Qızıl tale» Beynəlxalq Açıq Məşhurluq Reytinqinin Rəyasət Heyəti Sizin, görkəmli dövlət xadiminin, Ukrayna və Azərbaycan dövlətləri arasında münasibətlərin, xalqlarımız arasında dostluğun möhkəmlənməsi və inkişafı üçün böyük səylər göstərmiş müdrik siyasətçinin reytinqin ali mükafatı – «Qloriya Populi» qızıl ulduzu ilə təltif olunması haqqında qərar qəbul etmişdir. Bu mükafatın qədim tarixi var, onun tarixi qədim Kiyev Rus dövləti dövründən başlayır. İndi o bəzi ölkələrin ali mükafatıdır. Rəyasət Heyətinin iradəsini yerinə yetirmək və indi bu mükafatı Sizə təqdim etmək bizim üçün böyük şərəfdir. Müsaidənizlə, reytinqin sədri Dmitri Akimova söz verək.

**H e y d ə r  Ə l i y e v:** Aleksandr İvanoviç, sağ olun.

**D m i t r i  A k i m o v:** Hörmətli Heydər Əliyeviç! «Qızıl tale» Beynəlxalq reytinqi yeddi ildir mövcuddur, bu il avqustun 24-də – Ukraynanın Müstəqilliyi günündə onun səkkiz yaşı tamam olacaqdır. Son vaxtlar reytinqin ali mükafatına Roma Papası İoann II Pavel, Nobel Komitəsi layiq görülmüşlər. Bu komitənin nizamnaməsində yazılmışdır ki, o, ancaq mükafatlar təqdim edir. Odur ki, Nobel Komitəsinin yüz illik tarixində bu onun ilk mükafatı idi. Dünyanın 42 dövlətinin vətəndaşları reytinqin mükafatını almışlar.

Bu gün biz buraya reytinqin ali mükafatını – «Qloriya Populi» ulduzunu Sizə təqdim etmək üçün gəlmişik. O, Kiyev zərbxanasında hazırlanmışdır və onun nömrəsi 002-dir. İcazə versəydiniz, Rəyasət Heyətinin üzvü Aleksandr İvanoviç bu mükafatı Sizə təqdim edərdi.

(*Aleksandr Kuzmuk «Qloriya Populi» ulduzunu Azərbaycan prezidenti Heydər Əliyevin pencəyinin yaxasına sancdı*).

**H e y d ə r  Ə l i y e v:** Aleksandr İvanoviç, sağ olun.

**D m i t r i  A k i m o v:** Tale ilahəsi ilə həmişə birlikdə təsvir olunan bolluq buynuzunu Azərbaycan və Ukrayna xalqları arasında dostluğun rəmzi kimi Sizə təqdim etmək istərdik. İcazə verin, diplomun Ukrayna dilində yazılmış məzmununu oxuyum: « «Qızıl tale» Beynəlxalq Açıq Məşhurluq Reytinqi Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyevi büllur bolluq buynuzu ilə təltif edir».

(*O, mükafatı Azərbaycan prezidentinə təqdim etdi*).

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

Hörmətli Aleksandr İvanoviç!

Hörmətli qonaqlar, dostlar!

Əlbəttə, bu mükafat mənim üçün gözlənilməz oldu. Mənə yalnız dünən bildirdilər ki, təltif olunmuşam və siz bu yüksək mükafatı mənə təqdim etmək istəyirsiniz. Mənim əməyimi və yəqin ki, xidmətlərimi də qiymətləndirmiş və məni bu yüksək mükafatla təltif etmiş Beynəlxalq reytinqin Rəyasət Heyətinə təşəkkürümü bildirirəm. Hər bir mükafat, xüsusən də kökü qədim zamanlara gedib çıxan belə məşhur beynəlxalq mükafat insandan bu mükafata layiq olmağı tələb edir. Söz verirəm ki, mən ona gələcəkdə də layiq olacağam.

Eyni zamanda bunu həm mənim fəaliyyətimə, həm də respublikamıza, ölkəmizə, Azərbaycan xalqına böyük diqqət, hörmət kimi qiymətləndirirəm.

Hörmətli Aleksandr İnavoviç, siz bildirdiniz ki, Azərbaycanda qısa müddətdə baş verənləri gördünüz, dediniz ki, Azərbaycan inkişaf edir. Bəli, siz haqlısınız. Bizim hamımızın birlikdə yaşadığımız keçid dövrünün çətinliklərinə və Ermənistan–Azərbaycan münaqişəsi ilə – mən onun barəsində bu gün sizinlə görüş zamanı danışdım – bağlı çətinliklərə baxmayaraq, Azərbaycan yüksəlişdədir, inkişaf edir və onun yaxşı perspektivləri var. Biz dövlətimizin müstəqilliyini qoruyub saxlamağı və möhkəmlətməyi, bütün demokratik islahatları həyata keçirməyi, ölkə iqtisadiyyatını bazar iqtisadiyyatının standartlarına uyğun inkişaf etdirməyi başlıca vəzifəmiz bilirik. Hesab edirəm ki, biz doğru yol seçmişik.

Ukrayna ilə bizim çox səmimi münasibətlərimiz var. Bu münasibətlər təsadüfi xarakter daşımır. Şübhəsiz, onlar tarixi köklərə malikdir. Lakin bununla yanaşı, müstəqillik illərində dövlət səviyyəsində baxışlarımızın, xüsusən müstəqilliyin, dövlətçiliyin möhkəmləndirilməsi məsələlərində mövqelərimizin uyğun gəlməsi, əslinə qalsa, dostluq münasibətlərimizin rəhnidir.

Bəli, Leonid Daniloviç Kuçmanın Azərbaycana səfəri, özü də ikinci dəfə səfəri, mənim Kiyevə səfərim – məhz bunlar əməkdaşlığımız üçün çox güclü hüquqi baza yaratmışdır.

Məsələ heç də təkcə sənədlərdə deyildir. Məsələ məhz real gerçəklikdədir. Real gerçəklik isə ondan ibarətdir ki, biz bu dostluğa sadiqiq. Bu dostluq münasibətlərini qoruyub saxlayacağıq və zənnimcə, bu, həm Ukraynanın, həm də Azərbaycanın xeyrinə olacaqdır.

Mən bu mükafatı böyük minnətdarlıqla qəbul edirəm. Bir daha demək istəyirəm ki, bu mənim üçün yüksək şərəfdir. Xahiş edirəm, mənim təşəkkürümü reytinqin Rəyasət Heyətinin bütün üzvlərinə, yetirəsiniz – Aleksandr İvanoviç, reytinqin Rəyasət Heyətinin üzvü kimi, ilk növbədə sizə təşəkkürümü bildirirəm – habelə ən xoş arzularımla birlikdə təşəkkürümü dostum Leonid Daniloviç Kuçmaya çatdırasınız. İşinizdə uğurlar, qardaş, dost Ukrayna xalqına tərəqqi və səadət diləyirəm. Sağ olun.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ KERİ KAVANO (ABŞ), FİLİP DÖ SUREMEYN (FRANSA), NİKOLAY QRİBKOV (RUSİYA) VƏ ONLARI MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*18 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar!

Hörmətli həmsədrlər!

Azərbaycana xoş gəlmisiniz. Mən sizinlə yenidən görüşməyimdən məmnunam. Ümumiyyətlə, müəyyən bir dövr mürgülədikdən sonra son aylarda Minsk qrupunun fəal hərəkətə gəlməsi məni çox sevindirir. Ki-Uest danışıqlarından sonra xeyli vaxt keçibdir. Bu müddətdə siz də görüşlər keçirmisiniz. Mən də sizin bəziləriniz ilə görüşlər keçirmişəm. Bu görüşlərin hamısı Minsk qrupunun həmsədri olan ölkələrin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barəsində ciddi niyyətlərinin olduğunu bir daha göstərir. Bu çox gözəl haldır. Çünki biz neçə ildir bunu gözləyirik. Bu məsələnin həll olunması, düşünürəm ki, Azərbaycan üçün, eyni zamanda Ermənistan üçün, bütün Cənubi Qafqaz üçün çox həlledici xarakter daşıyır. Mən sizi bir daha salamlayıram və sizdən yeni addımlar gözləyirəm.

**K e r i K a v a n o:** Cənab Prezident, səmimi qəbula görə minnətdarlığımı bildirirəm, çox sağ olun. İcazə verin, bildirim ki, biz də Azərbaycana yenidən gəlməyimizdən məmnunuq. Mənim üçün bu, on iki günlük ayrılıqdan sonra yenidən buraya qayıtmaq deməkdir.

Siz mürgüləmək dediniz. Mən onu demək istəyirəm ki, Minsk qrupunun həmsədrləri artıq heç yatmağa vaxt tapmırlar.

**H e y d ə r Ə l i y e v:** Son vaxtlar.

**K e r i K a v a n o:** Bəli, doğrudan da biz son dövrlər çox intensiv işləyirik. Biz Sizinlə tamamilə razıyıq ki, bu münaqişənin həll olunması olduqca vacib bir məsələdir. Lakin Siz də, prezident Köçəryan da sülhün əldə olunması üçün gərgin səylər qoymasaydınız, bizim belə intensiv iş rejiminə keçməyimiz mümkün olmayacaqdı. Biz özümüz müşahidə etmişik ki, son il ərzində siz iki prezident bir-birinizlə intensiv təmaslarda olmusunuz. Bu da öz növbəsində, bizim bu işə daha fəal qoşulmağımıza kömək edibdir. Onu da anlayırıq ki, bu hər bir lider üçün ən çətin problemlərdən, vəzifələrdən biridir. Elə məsələlər olur ki, yalnız bir qrup insanın taleyi ilə əlaqədar olur, onlarla bağlı olur. Amma bu elə bir köklü məsələdir ki, sizin xalqların taleyi, problemləri ilə bağlıdır.

Son dövrdə biz həmsədrlərdə görünən bu enerji məhz Sizinlə prezident Köçəryan arasında aparılan danışıqlardan sirayət etmişdir.

Biz Parisdə və Floridada nəzərəçarpacaq irəliləyişin olduğunu qeyd etməkdən məmnunuq. Onu da anlayırıq ki, hələ görüləcək çox işlər vardır. Bir daha bildirmək istəyirəm ki, belə köklü məsələlərin həllində müəyyən vaxt tələb edən mərhələlərin olması heç kimi təəccübləndirməməlidir. Sülhün əldə olunması üçün cəsarətli addımların atılmasına ehtiyac vardır. Çox çətin güzəştlərin edilməsinə ehtiyac vardır. Sülh çox ehtiyatlı təhlillər aparılmasını tələb edir.

Mən həmsədrlər ilə söhbət etmişəm. Cənab Trubnikov ilə də danışmışam. Hətta deyə bilərəm ki, təmsil etdiyimiz ölkələrin prezidentləri də bir-biri ilə öz aralarında danışıblar. Ümumi fikir belədir ki, sülhün əldə olunması üçün süni surətdə müəyyən bir günü təyin etmək mümkün deyildir. Sülh nə zaman əldə edilməsi mümkündürsə, o zaman reallığa çevrilə bilir.

Cənab Prezident, biz Sizin sülhə sadiqliyinizi görmüşük. Biz prezident Köçəryanın münaqişənin dinc yolla həll olunmasına sadiqliyini görmüşük. Bu da bizə ümid veribdir ki, münaqişənin həlli yollarını tapmaq mümkün ola bilər. Düzdür, bu bizim yuxumuza haram qatıbdır. Amma bunun üçün işləməyə və yatmamağa dəyər. Əslində, sülhün olmaması ucbatından çoxsaylı insanların qarşılaşdıqları əzab-əziyyətləri görəndə, ümumiyyətlə, yatmaq məsələsini yada salmağa ehtiyac qalmır.

Əvvəlki ziyarətlərimiz zamanı olduğu kimi, biz bu dəfə də təkcə Sizinlə və prezident Köçəryanla görüşlərimizi yekunlaşdırmayıb, bu münaqişədən əziyyət çəkmiş insanlarla da təmasda olmaq niyyətindəyik. Biz sabah Ağcabədi rayonuna gedib qaçqın düşərgələrində olacağıq. Bilirik ki, orada olan ailələr həyatlarının ən çətin günlərini yaşayırlar. Hətta onların bəziləri təsəvvüredilməz dərəcədə ağır şəraitdə yaşayırlar. Biz istəyirik onları bir daha əmin edək ki, var qüvvəmizlə çalışırıq ki, sülhün tezliklə əldə edilməsinə nail ola bilək.

Cənab Prezident, Sizin və prezident Köçəryanın təklif etdiyiniz kimi, biz çalışırıq ki, sülh əldə olunduqdan sonra ona yardım, dəstək verməsi üçün beynəlxalq ictimaiyyətin qüvvələrinin, vəsaitlərinin, ehtiyatlarının

səfərbər edilməsi işinə də yardımçı olaq. Ona görə də biz bu səfərimiz zamanı Ağdam rayonunda insanların yenidən məskunlaşarkən hansı ehtiyaclarının olacağını bir daha görmək, orada yolların, dəmir yollarının çəkilməsi, infrastrukturların qurulması üçün necə böyük işlərin görülməsinə ehtiyac olacağını bir daha öz gözlərimizlə görmək və gələcəyə hazırlaşmaq niyyətindəyik.

Cənab Prezident, Sizinlə Ki-Uestdə danışıqlarımız zamanı belə bir fikir mövcud idi ki, biz burada yalnız sülh sazişi üzərində işləmirik, həmçinin gələcək üzərində çalışırıq. Sizin xalqınız üçün tamamilə fərqli ola biləcək gələcəyin quruculuğu uğrunda işləyirik. Məhz buna görə də bir daha bildirirəm ki, biz Azərbaycana yenidən gəlməyimizdən və sülh məşəlini irəli aparmağa davam etməkdən məmnunuq. Sizin xalqınızla da bir daha görüşmək imkanı əldə etdiyimizdən məmnunuq.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Danışmaq istəyənlər var?

**Nikolay Qribkov** (*ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri):* Hörmətli Heydər Əliyeviç, bir qədər gec də olsa, üç həmsədr adından Sizi ad gününüz münasibətilə ürəkdən təbrik etmək, Sizə səadət, dost Azərbaycan xalqının rifahı naminə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmlənməsi naminə və əlbəttə, Dağlıq Qarabağ probleminin tezliklə həll olunması naminə uzun, səmərəli ömür arzulamaq istərdim. Sizi əmin etmək istərdim ki, bu nəcib işdə Siz istər Rusiyanın, istərsə də Birləşmiş Ştatlardan və Fransadan olan həmsədr həmkarlarımın köməyinə və dəstəyinə həmişə ümid bəsləyə bilərsiniz.

Bilirəm ki, bir neçə gün bundan əvvəl Vladimir Vladimiroviç Putinlə Sizin çox yaxşı söhbətiniz olmuşdur. O da Sizi ad gününüz münasibətilə təbrik etmiş və Sizə ən xoş arzularını diləmişdir. O, ölkələrimiz arasında dostluq münasibətlərinin yaxşılaşması və daha da möhkəmlənməsi işində Sizin rolunuzu yüksək qiymətləndirmişdir. Son vaxtlar, həqiqətən, mühüm hadisələr baş verir – mən Qarabağ mövzusundan bir qədər yayınacağam – münasibətlərimiz çox ciddi şəkildə fəallaşır. Xatırlatmaq kifayətdir ki, təkcə bu həftə Rusiyanın az qala beş naziri burada olmuşdur. Özü də səfirimiz hesab edir ki, bu hələ azdır və fəallığı daha da artırmaq lazımdır.

Mən Bakıya dünən gəldim və şəhərə bir az baxmağa, küçələri gəzib dolaşmağa macal tapdım. Bilirsinizmi, şəhər çox gözəlləşir, adamın gözləri qarşısında gözəlləşir. Sahil parkı vaxtı xoş keçirmək üçün gözəl yerdir. Lakin hər dəfə buraya gələndə məndə istər-istəməz belə bir fikir yaranır ki, əgər Qarabağ problemi olmasaydı, əgər biz bu münaqişənin nizama salınması ilə bağlı bu qədər enerji, bu qədər vəsait sərf etməli olmasaydıq, əgər biz humanitar vəzifələrin və təsərrüfat vəzifələrinin həllinə keçə bilsəydik, onda, zənnimcə, Azərbaycanda vəziyyət bambaşqa olardı. Bax, buna görə də Minsk qrupunun üç həmsədri – Rusiya, ABŞ və Fransa hər iki xalqı razı sala biləcək qərarın tez bir zamanda tapılmasında Sizə və Robert Sedrakoviç Köçəryana kömək göstərmək üçün mümkün olan hər şeyi etməyə çalışırlar. Özü də mən «kömək göstərmək» deyirəm, çünki, hər halda, bunu əsas tuturam ki, belə bir qərarın tapılması üçün başlıca məsuliyyət iki tərəfin üzərinə düşür. Öz növbəmizdə, biz də hazır olacağıq, təşəbbüs göstərəcək, ən ciddi və ən mübahisəli problemlərin həllinin ən müxtəlif variantlarını Sizə təklif edəcəyik. Üç həmsədr dövlətin rəhbərləri arasında çox yaxşı münasibətlərin təşəkkül tapması da məndə nikbin əhval-ruhiyyə yaradır.

Siz bilirsiniz ki, Vladimir Vladimiroviç Putin, prezident Corc Buş və prezident Jak Şirak arasında Dağlıq Qarabağ probleminə dair daim məsləhətləşmələr aparılır. Onlar öz aralarında danışır, rəyləri müqayisə edir, Qarabağ düyününün açılmasını, hər halda, yaxınlaşdırmaq üçün gələcəkdə nə kimi addımlar atılmasının zəruriliyi barədə düşünürlər. Əlbəttə, çox mühüm və müsbət haldır ki, Siz və Ermənistan prezidenti Köçəryan bu problemin həlli yolunun axtarışında konstruktiv əhval-ruhiyyədəsiniz.

Ola bilsin ki, mənim dediklərim problemin həllinin uzaqda olmaması xülyası yaradır. Təəssüf ki, bu, yəqin belə deyildir. Adamlarda hansısa müstəsna təsəvvürlər yaratmaq olmaz. Məsələ bundadır ki, iki xalqı çox ciddi problem ayırır. Buna baxmayaraq, yarı yolda dayanmaq olmaz. Problemin həlli yollarının axtarışını davam etdirmək, birlikdə razılığa gəlməyə çalışmaq lazımdır. Çox hörmətli Heydər Əliyeviç, bununla əlaqədar Sizi bir daha əmin etmək istəyirəm ki, Siz Minsk qrupunun həmsədri olan üç dövlətin köməyinə və hər cür yardımına tamamilə ümid bəsləyə bilərsiniz.

**Heydər Əliyev:** Yeri gəlmişkən, cənab Qribkovun çıxışı ilə əlaqədar mən bir neçə söz deyəcəyəm, sonra isə hörmətli Fransa nümayəndəsini dinləyərik. Mən ümumən danışacağam.

Ad günüm münasibətilə təbriklərə görə təşəkkür etmək istəyirəm. Lakin mənim üçün ən həqiqi ad günü sülh müqaviləsini imzalayacağımız gün, torpaqlarımızın azad ediləcəyi gün olacaqdır. Ona görə də bu məsələ ilə məşğul olduğum bütün ötən illər ərzində mənim üçün bayram da bayram olmayıbdır, xüsusən də ad günü. Ümumiyyətlə, mən ad günüm olduğunu unutmuşam, çünki beynimdə, fikrimdə ancaq bu problem dolaşır. Cənab Suremeyn, buyurun.

**Filip dö Suremeyn** (*ATƏT-in Minsk qrupunun fransalı həmsədri*): Cənab Prezident, icazə verin, prezident Jak Şirakın təbriklərini, şəxsən Sizə ünvanlanan təbrikləri, həm də Ermənistan ilə Azərbaycan arasında sülh prosesinə aid olan arzularını Sizə çatdırım. Cənab Şirak həmçinin Sizinlə onun arasında formalaşmış etimad münasibətlərini necə yüksək qiymətləndirdiyini də Sizə çatdırmağımı tapşırdı. O, son vaxtlar iki dəfə Sizi Parisdə qəbul etməkdən böyük məmnunluq duyduğunu da söyləməyimi məsləhət gördü.

Sizin özünüzün də müşahidə etdiyiniz kimi, Minsk qrupunun üç həmsədrinin burada iştirak etməsi beynəlxalq ictimaiyyətin sülh prosesinə nə dərəcədə əhəmiyyət verdiyini sübut edir. Bu problem yaddan çıxarılmamış, unudulmamışdır və beynəlxalq informasiya məkanında öz əksini tapmışdır. Şübhəsiz ki, bizim ən böyük arzumuz Sizin lazım bildiyiniz köməyi göstərməkdir ki, bu proses tez bir zamanda başa çatsın.

Üç həmsədr bir-biri ilə sıx, əlbir şəraitdə işləyir. Bizi o da həvəsləndirmişdir ki, ölkələrimizin prezidentləri də bu sülhün tezliklə əldə olunması üçün çalışırlar. Biz tamamilə aydın başa düşürük ki, aradan qaldırılması lazım olan çətinliklər çoxdur. Həmçinin başa düşürük ki, bu münaqişə hər iki tərəf üçün böyük əzab-əziyyət yaratmışdır. Biz həm Sizin, həm də Ermənistan prezidentinin iradəsinə inanırıq. Bu, iki dövlətin iqtisadi və sosial inkişafına təkan verəcək sülhün əldə olunmasına gətirib çıxara bilər.

Bakı həddindən artıq qeyri-adi müxtəlifliyə malik şəhərdir. Dərhal müşahidə etmək olar ki, bu, beynəlxalq dörd yol ayrıcında yerləşən şəhərdir. Müşahidə etmək olar ki, Bakı və bütövlükdə Azərbaycan sülhün bağlanmasından nə dərəcədə mənfəət əldə edə bilər. Beynəlxalq ictimaiyyətin bu məsələyə verəcəyi kömək təkcə mənəvi dəstəkdən ibarət deyildir. Bu həmçinin iqtisadi xarakter daşıyacaqdır. Biz hamımız başa düşürük ki, əgər Azərbaycan, Qafqaz regionu çiçəklənərsə, onda hamımız mənfəət əldə edərik. Bu bizim ümumi marağımızdır və hamımız bu marağı müdafiə edirik. Sizə minnətdarlığımı bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Sağ olun.

Mən burada söylədiyiniz fikirlərlə əlaqədar sizin hər üçünüzə təşəkkür edirəm və bu sözlərdən, fikirlərdən çox məmnun olduğumu bildirmək istəyirəm.

Yadınızdadır, siz bir neçə dəfə narazılığınızı bildirmisiniz ki, mən Minsk qrupunun həmsədrlərini tez-tez tənqid edirəm. Hətta yadınızdadır, Ki-Uestdə də mən öz bəyanatımda bu tənqidimdən əl çəkmədim. Ümumiyyətlə, tənqid pis şey deyildir. Ancaq mən indi bunu özümə, nə təhər deyərlər, nailiyyət kimi büruzə vermək istəmirəm. Sadəcə, demək istəyirəm ki, yəqin mənim bu ardıcıl tənqidlərimdən siz nəticə çıxarmısınız.

Ona görə də mən bu gün tənqid etmirəm. Əksinə, sizin son vaxtlar gördüyünüz işləri və gərgin işinizi yüksək qiymətləndirirəm. Ən əsası odur ki, üç həmsədr arasında, ölkələr arasında, ölkələrin prezidentləri arasında – prezident cənab Buş, prezident cənab Putin, prezident cənab Şirak arasında məsələnin sülh yolu ilə həll olunması üçün lazımi səylər göstərmək həmfikirliliyi yaranıbdır. Bu bizdə çox böyük ümidlər doğurur.

Mən bilirəm, sizin hər biriniz ötən günlərdə, Ki-Uestdən sonra çox işləmisiniz. Bilirəm ki, cənab Kavano həm Almaniyada, həm Vyanada, həm Nyu-Yorkda, həm də Bakıda olmuşdur. Siz də həmçinin gecə yatmamısınız. Gecə yol getmisiniz, gündüz işləmisiniz. Mən bunların hamısını bilirəm. Hətta mən məlumat aldım ki, cənab Kavano Nyu-Yorkda Azərbaycan icmasının nümayəndələri ilə də görüşübdür. Bu, indiyə qədər görünməyən bir haldır. Doğrudur, bizim orada o qədər böyük diasporumuz yoxdur. Amma sizin onlara diqqət göstərməyiniz və onların fikirlərini öyrənməyiniz özlüyündə bu məsələnin həll olunması üçün nə qədər səylər qoyduğunuzu bir daha göstərir.

Siz bilirsiniz ki, həqiqətən, 1999-cu ildən, iki prezident, Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa danışıqlar başlayandan sonra biz müəyyən konkret bir yol ilə gedirik. Ancaq 1999-cu ilin axırında məsələnin həll olunmasına çox yaxınlaşmağımız, təəssüf ki, birdən-birə kəsildi. Məhz o vaxt aparılan danışıqlara inanaraq mən bəyan etmişdim ki, 2000-ci ildə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həllini gözləmək olar. Amma sizə məlumdur ki, Ermənistanın möqeyində ciddi dəyişikliklər əmələ gəldiyinə görə, biz bu barədə irəliləyə bilmədik.

İndi bəziləri Azərbaycanda məni tənqid edirlər və günahlandırırlar ki, prezident demişdi bu məsələ 2000-ci ildə həll olunacaq, amma edilmədi. İndi də hansısa bir vaxt hesab olunacaq ki, sadəcə, prezident xalqı aldadır və məsələnin həll olunması görünmür. Təbiidir ki, mən bu tənqidləri qəbul etmirəm. Rədd edirəm. Çünki bunu deyən adamlar həqiqəti bilmirlər. Yaxud da ki, bilərək, ümumiyyətlə, bu məsələnin həll olunmasına maneçilik törətmək istəyirlər. Ona görə mən sizin fikirlərinizlə razıyam ki, indi demək olmaz sülh sabah olacaq, o biri gün olacaq, ya bir müddətdən sonra olacaq, nə vaxt olacaq. Ancaq sizin fikirlərinizlə razıyam ki, əgər biz intensiv işləsək, sülhü yaxınlaşdıra bilərik. Mən görürəm ki, siz intensiv işləyirsiniz.

Siz hər dəfə deyirsiniz ki, bu məsələ iki prezidentin bir-biri ilə razılığa gəlməsindən asılıdır. Mənim buna etirazım yoxdur. Ancaq iki prezident bir-biri ilə razılığa gəlmiş olsaydı, bu məsələ çoxdan həll edilmiş olardı.

Əgər hələ 1992-ci ildə məsələnin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu yaranıbsa, ATƏT-in Minsk qrupuna indi dünyanın ən böyük dövlətləri – Amerika, Rusiya və Fransa rəhbərlik edirlərsə, demək, bu onu göstərir ki, iki ölkə, iki prezident bir-biri ilə məsələnin həll olunması üçün razılığa gələ bilmirlər.

Təbiidir, deyə bilərsiniz ki, siz özünüz öz işinizi görün, biz öz üzərimizə niyə yeni bir vəzifə götürməliyik. Ancaq güman edirəm ki, siz heç vaxt belə düşünməyəcəksiniz. Çünki birincisi, ATƏT, hansı ki, hamımız birlikdə oraya daxilik, bu barədə qərar çıxarıbdır. Qərarı yerinə yetirmək lazımdır. İkincisi də, böyük dövlətlər dünyanın müxtəlif regionlarında sülhü təmin etməsələr, münaqişələrin qarşısını almasalar, bu bütün dünyanı bürüyəcəkdir. Ona görə mən hesab edirəm ki, siz bundan sonra da bu məsələnin həll olunması ilə ardıcıl surətdə məşğul olacaqsınız. Ümid edirəm ki, hamımızın birlikdə səyi nəticəsində biz sülh əldə edə biləcəyik.

Sizin bu dəfə bölgəyə ziyarətiniz zamanı planınız məni çox sevindirir. Çünki burada, yaxud da Yerevanda danışıqlardan əlavə, siz bəyan etdiniz ki, Ağcabədi rayonunda qaçqın düşərgəsində olacaqsınız. Sonra cəbhə xəttini keçəcəksiniz, Ağdamda olacaqsınız. Bu bizim üçün çox vacibdir.

Xatirimdədir, cənab Kavano, siz bir dəfə Ağdamda olarkən oradan Ağdam məscidinin balaca bir qırığını mənə gətirmişdiniz.

Onu mənə verəndə gördüm ki, Siz də çox təsirləndiniz. Mən də təsirləndim. Çünki həmin işğal olunmuş rayonlarda əsrlər boyu qurulmuş, yaradılmış nəinki məscidlər, hər şey dağılıbdır. Siz özünüzlə jurnalistlər gətirmisiniz, yəqin onlar da sizinlə gedəcəklər, güman edirəm, görəcəksiniz ki, heç olmasa, bir rayonda vəziyyət necədir. Siz dediyiniz kimi, orada müəyyən edəcəksiniz ki, sülh bağlanandan sonra bir rayonda nə qədər iş görmək lazımdır. Amma bir rayon deyil, yeddi rayondur. Mən ona görə yeddi rayon deyirəm ki, Dağlıq Qarabağda elə bir dağıntı yoxdur. Siz bunları da müşahidə etmisiniz. Bu müharibə ilə əlaqədar Ermənistanda da heç bir dağıntı yoxdur. Dağıdılanların hamısı Azərbaycan ərazisindədir.

Mən sizin fikrinizlə razıyam ki, sülh həm Ermənistana, həm də Azərbaycana lazımdır. Ancaq tərəziyə qoysaq, bu, eyni çəkidə deyildir. Sülhün bağlanması Azərbaycana həddindən çox lazımdır. Qaçqınları Ağcabədidə görəcəksiniz, amma onlardan Azərbaycanın hər yerində var.

Bir sözlə, mən sizin həm səfərinizdən, həm də planınızdan razıyam. Arzu edirəm ki, burada da, Ermənistanda da apardığınız və aparacağınız danışıqlar məsələni irəliyə apara bilsin. Təşəkkür edirəm.

**K e r i  K a v a n o:** Cənab Prezident, icazənizlə, işimizə yüksək qiymət verdiyinizə görə Sizə təşəkkürümü bildirim. Siz haqlısınız ki, bəzən tənqid insanları daha çox işləməyə sövq edir və kömək edir. Amma onu da deməliyəm ki, insanları daha çox iş görməyə, irəli getməyə tərəqqidən çox vadar edən başqa bir şey yoxdur. Əldə olunmuş ilkin müvəffəqiyyətlər daha çox işləməyə sövq edir. Ona görə də bildirmək istəyirəm ki, gördüyümüz bu işlər əsasən indiyə qədər əldə edilmiş həmin tərəqqinin üzərində qurulubdur.

Siz çox haqlı olaraq, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında yüksək səviyyədə prezident Buş, prezident Putin, prezident Şirak arasında əməkdaşlığın olduğunu və onların bu işə bilavasitə səy qoyduğunu qeyd etdiniz. Hesab edirəm ki, onların arasında olan təmasların, bir-biri ilə əlaqə saxlamalarının və eyni zamanda üç həmsədr arasındakı əməkdaşlığın əvvəllər heç bir presedenti olmamışdır. Bu məsələyə ardıcıl diqqətin yönəlməsinin özü də çox faydalı bir vasitədir. Təmsil etdiyimiz ölkələrin hər üç prezidenti indi münaqişənin həll olunması üçün nadir imkanın olduğuna inanır. Bizim prezidentlər sülh naminə çətin addımlar atmağa və iki prezidentə yardımçı olmaq üçün ciddi səylər qoymağa hazır olduqlarını bəyan ediblər.

Cənab Prezident, icazə verin, bunu da deyim, Siz onda da haqlısınız ki, sülh yalnız Sizinlə prezident Köçəryandan asılı olan bir iş deyildir. Anlayırıq ki, bu məsələyə kənardan da yardım göstərilməsi mühümdür. ATƏT də mümkün olduğu qədər bu işə yardımçı olmağa çalışır. Bu baxımdan ATƏT-in üzvü olan üç mötəbər dövlət bu prosesdə liderliyi üzərlərinə götürmüşlər.

Bizim bu fəaliyyətimiz dənizdə üzən gəmini xatırladır. Biz yalnız yardımçı ola bilirik, kömək edə bilirik. Biz gəmiyə enerji, yanacaq verilməsi, onun xəritələrinin, hərəkət istiqamətlərinin müəyyənləşdirilməsi məsələlərində yardımçı ola bilərik. Siz sülh limanına yaxınlaşanda, biz daha çox yardım göstərəcəyik. Amma bu gəmini sürmək üçün bizə iki prezident lazımdır. Bu iki prezident gəmini eyni istiqamətdə sürəndə, hamı sülhə doğru istiqamət almış olur. Amma iki prezident gəminin sükanını hərəsi bir tərəfə dartsa, onda bu gəmiyə nə qədər yanacaq versək, xəritə düzəltsək, istiqamətləri müəyyənləşdirsək də, heç zaman həmin gəmini ağır qayalara toxunmaqdan sığortalaya bilməyəcəyik. Prezident Buş, prezident Putin, prezident Şirak görəndə ki, hər iki prezident həmin sülh gəmisinin sükanından möhkəm yapışaraq eyni istiqamətdə sürməyə meyllidir, onda bizə tapşırıq veriblər ki, sülh limanına gedən yola yardımçı olmaq üçün daha ciddi, daha gərgin işləyək. Biz bunun üçün çox çalışırıq və həmin sülh limanını sizin lövbər salmağınız üçün hazırlayırıq.

Sülh əldə olunduqdan sonra Azərbaycan və Ermənistan xalqlarının görmək istəyəcəkləri vəsaitləri və ehtiyatları onlara çatdırmaq üçün biz əlavə işlər görürük. Yenə də deyirəm, Siz haqlı qeyd etdiniz ki, bu məsələnin həll olunması yalnız Sizdən və prezident Köçəryandan asılı deyildir. Amma müəyyən mənada da bu elə iki prezidentdən asılıdır. Çünki bizim hamımız sizin hər ikinizin hansı yolu tutduğunuzu görmək istəyirik və bu işdə sizə yardımçı olmaq istəyirik.

Bu mövzunu bir az da irəli aparsaq, onu demək istəyirəm ki, anlayırıq, dənizdə tufanlar da olur. Bəzən də sualtı axınlar da olur. Cənab Prezident, amma Siz haqlı olaraq qeyd etdiniz ki, son iki il ərzində sülhə getdikcə yaxınlaşmışıq. Hesab edirəm ki, bu gün sülh sadəcə, bir xülya, röya deyildir. Sülhü üfüqdə görmək də mümkündür . Ona görə də bizim, həmsədrlərin qarşısında duran bugünkü vəzifə sülhün hazırlanmasına yardımçı olmaq və bu prosesi daha da irəli aparmaq üçün səylə çalışmaqdır. Sizinlə prezident Köçəryanın qarşısında duran vəzifənin isə ümumi istiqaməti saxlamaq olduğunu da yaxşı anlayırıq.

Mən Sizin ötən ilki ad gününüzdən öncə burada olmağımızı və Ağdamı ziyarət etdikdən sonra Bakıya gəldiyimizi yaxşı xatırlayıram. Biz işğal olunmuş rayonları bu dəfə də ziyarət etdikdən və orada olan insanlarla, qaçqınlarla təmasda olduqdan sonra indiyə qədər topladığımız təcrübəni bir az da artıracağıq. Çünki anlayırıq ki, əslində, sülhün əldə olunmasında ən həlledici rol oynaya biləcək insanlar da məhz elə qaçqınlardır. Həm

sizin səyləriniz, həm də bizim səylərimiz ona yönəlibdir ki, Azərbaycan və Ermənistan xalqlarını sülhün əldə olunmasına hazırlayaq və bu işdə onlara yardımçı olaq. Bu çox çətin bir vəzifədir. Bu çətin işdir. Lakin bir daha deyirəm ki, qaçqınların yaşadıqları əzab-əziyyətlərlə müqayisədə, üzərimizə düşən yük o qədər də ağır deyildir.

Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim regiona bu dəfəki səfərimiz sülh prosesini irəli aparmağa, sülhə hazırlaşmağa yardımçı olur və ümumiyyətlə, uzun sürən hərtərəfli sülhün əldə olunması üçün hər iki ölkəyə yardımçı olmaq məqsədinə xidmət edir.

Cənab Prezident, icazə verin, qısaca bir məsələyə də toxunum. Biz Ki-Uestdə gördük ki, Siz çox yaxşı gəmi sürürsünüz. Çünki küləklər əsəndə Siz sükanı əldə necə saxlamağı göstərdiniz. Həmin o səyahət çox uğurla başa çatdı. Biz limana sağ-salamat və dinc halda, dinc şəraitdə döndük. Ümidvarıq ki, bu dəfəki dəniz səyahətimiz də uğurlu olacaqdır.

**H e y d ə r Ə l i y e v**: Sağ olun. Təşəkkür edirəm.

Mən söhbəti uzatmaq istəmirəm. Ancaq gəmi və prezidentlərin gəmi sürməsi haqqında iki kəlmə demək istəyirəm. Əgər gəmini sürən iki kapitan, yaxud iki prezident eyni istiqamətdə hərəkət edərlərsə və bir-birinə sağlam münasibət göstərərlərsə, onda təbiidir ki, gəmi sahilə sağ-salamat çatacaqdır. İndi bu, bizim üçün çətindir. Ona görə gərək prezident Buş da, prezident Putin də və prezident Şirak da o gəmiyə otursunlar. Siz də onların yanında. Kim hansı tərəfə əysə, onu qoymasınlar.

Doğrudan, mən Ki-Uestdə gəmini sürürdüm. Amma mənim yanımdakı çox təcrübəli kapitan hərdənbir mənə deyirdi ki, buranı belə döndər, onu düz döndərmədin. Mən eyni şeyi indi də istəyirəm. Bizdən təcrübəli kapitanlar, üç nəfər gəmidə otursunlar. Onda biz sahilə tez çatarıq. Sağ olun.

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*21 may 2001-ci il*

*Qonağı mehribanlıqla salamlayan dövlətimizin başçısı Heydər Əliyev AFR-in vitse-kansleri, xarici işlər nazirinin ölkəmizə səfərini Azərbaycan–Almaniya əlaqələrinin daha da inkişaf etdirilməsində mühüm hadisə kimi dəyərləndirdi.*

*Səmimi qəbula və qonaqpərvərliyə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Yoşka Fişer böyük təcrübəyə malik görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyev ilə görüşmək imkanından çox məmnun olduğunu vurğuladı.*

*Azərbaycanla bütün sahələrdə əlaqələrin durmadan genişləndirilməsinə Almaniyanın böyük maraq göstərdiyini nəzərə çatdıran cənab Fişer respublikamıza bu səfəri zamanı onun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində xeyli iş adamı olduğunu bildirdi. O, Bakıda keçirdikləri görüşlərdən, apardıqları danışıqlardan razı qaldığını söylədi, Almaniya Federativ Respublikasının Azərbaycana bundan sonra da sərmayələr qoymağa hazır olduğunu vurğuladı.*

*Avropanın çox nüfuzlu dövlətlərindən biri olan AFR-in iş adamlarının Azərbaycandakı fəaliyyətindən məmnunluqla bəhs edən dövlətimizin başçısı Heydər Əliyev Almaniyanın respublikamıza sərmayələr qoymasına ölkəmizin maraq göstərdiyini nəzərə çatdırdı.*

*Bir sıra nüfuzlu beynəlxalq təşkilatlarda ölkələrimizin əməkdaşlığından məmnunluqla bəhs edən cənab Yoşka Fişer Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə prezident Heydər Əliyevi bir daha səmimi-qəlbdən təbrik etdi və Almaniya Federativ Respublikasının bu nüfuzlu təşkilatda Azərbaycanla işbirliyinə hazır olduğunu söylədi.*

*Müstəqil Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsində aparılan islahatlardan, demokratik inkişaf və bazar münasibətləri yolunu seçmiş ölkəmizin əldə etdiyi uğurlardan bəhs edən dövlətimizin başçısı Heydər Əliyev respublikamız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söhbət açdı.*

*1988-ci ildən başlanmış münaqişə və Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs edən respublikamızın rəhbəri bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün 1992-ci ildə yaradılmış və Almaniyanın da üzvü olduğu Minsk qrupunun fəaliyyətindən, habelə 1996-cı ildən Minsk qrupuna həmsədrlik edən Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın bu sahədəki səylərindən geniş danışdı.*

*Münaqişənin sülh yolu ilə həll edilməsinə Azərbaycanın tərəfdar olduğunu, bu problemin aradan qaldırılması üçün ölkəmizin konstruktiv mövqe tutduğunu nəzərə çatdıran dövlətimizin başçısı Heydər Əliyev Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlardan, bu ilin aprel ayında ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində Amerika administrasiyasının vasitəçiliyi, dövlət katibi Kolin Pauellin, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə keçirilmiş görüşlərdən söhbət açdı.*

*Cənab Yoşka Fişer Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Almaniya Federativ Respublikasının öz fəallığını artırmağa hazır olduğunu bildirdi.*

*Söhbət zamanı beynəlxalq aləmdə, regionda vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER, AFR BUNDESTAQI SƏDRİNİN MÜAVİNİ XANIM ANTYE FOLLMER VƏ ONLARI MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*21 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli vitse-kansler!
Hörmətli vitse-spiker!
Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram və sizə ən xoş arzularımı bildirirəm. Mən çox məmnunam ki, hörmətli nazir, vitse-kansler, siz Azərbaycana ziyarətə gəlmisiniz və özünüzlə də çox böyük tərkibdə nümayəndə heyəti gətirmisiniz.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Almaniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələri yaranıbdır. Bu əlaqələrin inkişaf etməsi üçün ötən illərdə hər iki tərəfdən səylər göstərilibdir. Biz Azərbaycanda Almaniya ilə həm siyasi sahədə, həm iqtisadi sahədə, həm humanitar sahədə, həm də bütün başqa sahələrdə əlaqələrimizə çox böyük əhəmiyyət veririk. Ona görə də sizin Azərbaycana bu ziyarətiniz, hesab edirəm ki, bizim əlaqələrin bundan sonra inkişaf etməsi üçün çox böyük bir vasitədir.

Mən çox məmnunam ki, sizinlə bir yerdə gəlmiş iş adamları bu gün bizim bir neçə nazir ilə çox səmərəli görüş keçiriblər və siz də orada iştirak etmisiniz. Güman edirəm ki, bunların müsbət nəticəsi olacaqdır. Çünki indiyə qədər bu sahədə biz artıq müəyyən nailiyyətlər əldə etmişik. Almaniyanın çoxsaylı şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Biz Almaniyanın bank sistemindən müxtəlif sahələr üçün təxminən 300 milyon dollara qədər kreditlər almışıq. Azərbaycanın enerji sektorunda çox böyük proqramların həyata keçirilməsi qarşıda durubdur. Biz bu proqramların həyata keçirilməsində Almaniyanın şirkətlərinin də iştirak etməsini arzulayırıq.

Hörmətli cənab Fişer, biz Sizinlə bu gün təkbətək, demək olar ki, bütün məsələləri müzakirə etdik. Məmnuniyyətlə deyə bilərəm ki, biz, demək olar, bütün məsələlərdə qarşılıqlı anlaşmaya və gələcəkdə daha da səmərəli əməkdaşlıq etmək fikrinə gəldik. Mən sizinlə apardığım bu danışıqlardan çox məmnunam. Güman edirəm ki, bundan sonra sizin nümayəndə heyətləri və şəxsən Siz də Azərbaycana tez-tez gələcəksiniz.

Ümidvarıq ki, Minsk qrupunun üzvü kimi, Almaniya bizim üçün əsas məsələ olan Ermənistan–Azərbaycan münaqişəsinin həlli sahəsində – Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 20 faiz torpaqlarının azad olunması və işğal edilmiş torpaqlardan qaçqın düşmüş azərbaycanlıların öz yerlərinə qayıtması sahəsində bundan sonra fəaliyyətini daha da artıracaqdır.

Almaniya ilə bizim əlaqələrimizin qədim tarixi var. Bilirsiniz ki, vaxtilə burada almanlar yaşayıblar və hələ əsrin əvvəlində Almaniyanın şirkətləri, o cümlədən «Siemens» şirkəti Azərbaycanda neft sənayesində və energetika sahəsində işlər görübdür. Biz bir müəssisəni bərpa edəndə oradan elektrik telləri çıxdı və məlum oldu ki, o, «Siemens»in hələ əsrin əvvəlində Azərbaycanda gördüyü işlərin əlamətidir. Almaniyaya Azərbaycanda münasibət çox xoşdur. İnsanlar alman dilini daha da çox öyrənmək istəyirlər. Sizin səfiriniz də bu barədə yardım edir. Çox məsələlər haqqında danışmaq olar. Ancaq hesab edirəm ki, o məsələlər barəsində biz Sizinlə təkbətək çox danışdıq. Sizə bir daha «Xoş gəlmisiniz!» deyirəm. Buyurun.

**Y o ş k a F i ş e r**: Cənab Prezident, çox sağ olun. Bu səmimi görüşə və fikir mübadiləsi imkanına görə Almaniya Bundestaqı sədrinin müavini xanım Antye Follmer başda olmaqla, məni müşayiət edən parlament nümayəndə heyəti adından da təşəkkürümü bildirmək istəyirəm.

Bu gün biz nazirlərlə, Milli Bankın sədri və ilk növbədə, həmkarım cənab Xarici İşlər naziri ilə səmərəli görüşlər keçirdik. Özlüyündə aydındır ki, qonşu region kimi, biz Cənubi Qafqaz regionunda sülh və sabitliyin olmasını çox istəyirik. Biz ATƏT-in üzvüyük. ATƏT Dağlıq Qarabağ münaqişəsinin dincliklə həllinə nail olmaq üçün çox ciddi səylər göstərir. Siz ATƏT-in Minsk qrupunu xatırlatdınız. Almaniya da Minsk qrupunun üzvüdür və bu münaqişənin dincliklə nizama salınmasına öz imkanları – əlbəttə, imkanlar məhduddur – daxilində kömək edir. Əlbəttə, bu əsla sadə məsələ deyil və münaqişənin kəskinləşməsinə yol verməmək üçün onun həlli yolunu danışıqlar vasitəsilə tapmaq lazımdır. Biz buna öz töhfəmizi verəcək, əlimizdən gələni əsirgəməyəcəyik.

Ölkələrimiz Avropa Şurasının da üzvüdürlər. Azərbaycan Avropa Şurasına yaxınlarda qəbul edilmişdir və bu təşkilatda üzvlük Avropa Şurasının prinsiplərinə uyğun surətdə demokratiyanın inkişafına, insan haqlarının və hüquqi dövlətin inkişafının təmin olunmasına kömək etməyi təkcə Azərbaycanın deyil, həm də şuranın bütün

üzvlərinin qarşısında bir vəzifə kimi qoyur. Həmin sahədə tərəqqi əldə edilərsə, bu, Azərbaycanda sülhün, sabitliyin möhkəmlənməsinə və iqtisadiyyatın inkişafına daha bir həlledici töhfə olacaqdır.

Demokratikləşdirmə, insan haqlarına hörmət – bunlar bizim xarici siyasətimizin mühüm cəhətləridir. Bu, parlamentimiz üçün də vacibdir və ona görə də hər yerdə bəyan edirik ki, regionda, o cümlədən də Azərbaycanda hüquqi dövlət qurulması, demokratikləşdirmə sahəsində daha böyük səylər göstərilsin. Üstəlik, biz qəti əminik ki, müasir iqtisadiyyat yalnız hüquqi dövlət zəminində inkişaf edə bilər.

Cənab Prezident, Siz diqqət yetirdiniz ki, məni böyük bir iqtisadi nümayəndə heyəti müşayiət edir. Bu, sənaye müəssisələrimizin, habelə banklarımızın Almaniya ilə Azərbaycan arasında qarşılıqlı iqtisadi münasibətlərin gücləndirilməsinə maraq göstərdiklərinə sübutdur.

Bizim uzun bir tarixə malik olan yaxşı münasibətlərimiz var. Siz «Siemens» firmasını və bir müddət əvvəl böyük məbləğdə sərmayə qoyulduğunu xatırlatdınız. Biznesmenlərimizin Azərbaycana marağı bu gün də çox güclüdür və şadam ki, əməkdaşlıq heç də təkcə neft, qaz, maşınqayırma, tikinti, avadanlıq kimi ənənəvi sahələri əhatə etməklə qalmır. Müəssisələrimiz Bakıda filarmoniyanın yenidən qurulmasında iştirak etmək, bununla da mədəniyyətə töhfə vermək istəyirlər. Bu sahədə də uğurlar qazana bilsəydik, mən çox şad olardım.

**H e y d ə r Ə l i y e v:** Filarmoniya ilə ilk növbədə məşğul olmaq lazımdır.

**Y o ş k a F i ş e r:** Bu olduqca vacibdir. Əgər iqtisadi dairələr maraq göstərirsə, ona baxmaq gərəkdir.

**H e y d ə r Ə l i y e v:** Buna bir çox firmalar maraq göstərirlər. Amma biz bu qərara gəlmişik ki, almanlar bu işi hamıdan yaxşı görərlər.

**Y o ş k a F i ş e r:** İndicə dediyiniz kimi, biz tikəndə çox sanballı tikirik.

Ümumiyyətlə, qarşılıqlı münasibətlərimizin daha da fəallaşdırılması və yaxşılaşdırılması üçün iqtisadi və siyasi baxımdan çox yaxşı imkanlar var. Bu münasibətlər elə indinin özündə də çox yaxşıdır, amma hesab edirəm ki, bu yüksək səviyyədə belə, onların daha da genişləndirilməsi üçün bir sıra imkanlar mövcuddur. Əgər mənim səfərim buna kömək etsə, onu uğurlu saymaq olar. Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Siz bir şey demək istəyirsinizmi? Mən Sizinlə gərək ki, 1996-cı ildə, Bonnda rəsmi səfərdə olarkən görüşmüşəm.

**A n t y e F o l l m e r:** Bir siyasətçi kimi, keçmişdə mədəni siyasətlə də məşğul olduğumu nəzərə alaraq, bu fürsətdən istifadə edib, Bremen qalereyasına məxsus rəsm əsərlərinin qaytarılmasına görə şəxsən Sizə təşəkkürümü bildirmək istəyirəm. Bunu bizdə mühüm hörmət əlaməti kimi qarşıladılar. İkincisi, Sizə bildirmək istərdim ki, bu gün siyasi partiyalar və vətəndaş cəmiyyəti nümayəndələri ilə maraqlı görüşümüz oldu. Diqqət yetirdim ki, Sizin sülh uğrunda fəal mübarizə aparan çox güclü qadınlarınız var. Mən bu münasibətlə Sizi təbrik etmək istəyirəm. İstərdim ki, onlar parlamentin işində daha yüksək rol oynasınlar.

**H e y d ə r Ə l i y e v:** Onları məhz böyük rol oynamaq üçün seçmişlər. O ki qaldı mənə, onları bu baxımdan nəinki sadəcə olaraq dəstəkləyəcəyəm, həm də onların böyük rol oynamasına sevinəcəyəm. Almaniyadakı kimi, bizdə də yaxşı qadınlar var.

**A n t y e F o l l m e r:** Məhz bu proses üçün qadınlar xüsusilə gərəkdirlər, çünki bəzən onlar elə ideyalar verirlər ki, bu, kişilərin heç ağlına da gəlmir. Yaxşısı budur, indi belə diskussiyaya varmayaq.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, gəlin bununla kifayətlənək. Bizim aramızda tam qarşılıqlı anlaşma var. Bu səfərə görə sizin hamınıza təşəkkürümü bildirirəm. Xahiş edirəm, mənim salamımı və ən xoş arzularımı federal kansler cənab Şröderə, federal prezidentə və parlamentin sədrinə yetirəsiniz.

**Y o ş k a F i ş e r:** Xanım Follmer yetirər.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

**GÖRKƏMLİ ŞAHMATÇI ANATOLİ KARPOVA**

Hörmətli Anatoli Yevgenyeviç, əlamətdar yubiley – anadan olmağınızın 50 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz XX əsrin ən yaxşı şahmatçılarındın biri, dəfələrlə dünya çempionusunuz, dünya şahmat sənətinin tarixinə həmişəlik daxil olmusunuz.

Sizin son dərəcə nadir istedadınız, yorulmaz əməyiniz parlaq qələbələrin rəhni olmuş və Sizə dünya şöhrəti qazandırmışdır.

Siz seçdiyiniz işə dərindən sadiq qalaraq, şahmat ənənələrinin təbliğinə və yayılmasına, şahmatçıların yeni nəslinin yetişdirilməsinə özünüzə xas məqsədyönlüklə, tükənməz enerji və fədakarlıqla olduqca böyük töhfə verirsiniz.

Siz uzun müddət Beynəlxalq Sülh Fondları Assosiasiyasına başçılıq edərək, coşğun ictimai fəaliyyətinizlə ölkələr və xalqlar arasında dostluğun, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək edirsiniz. Sizə möhkəm cansağlığı, səadət və çoxsahəli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 may 2001-ci il*

## AVROPA İTTİFAQI – AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM URSULA ŞVAYSERİN BAŞÇILIĞI İLƏ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*22 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, siz Azərbaycana xoş gəlmisiniz. Avropa Birliyinin belə mötəbər, çoxsaylı nümayəndə heyətinin Azərbaycana gəlməsini çox müsbət qiymətləndirirəm. Amma sizin qarşınızda o qədər kağız görürəm ki, əgər onların hamısına baxsaq, gərək üç saat danışaq. Bunu zarafat edirəm, nə qədər istəsəniz danışarıq.

Avropa Birliyi ilə Azərbaycanın əlaqələri 1996-cı ildə bizim əməkdaşlıq haqqında imzaladığımız sənəd əsasında qurulubdur. Mən çox məmnunam ki, biz bunu vaxtilə imzalamışıq. Gərək ki, Lüksemburqda imzaladıq. Mən orada iştirak edirdim, özüm imzaladım. Bundan sonra da bizim əməkdaşlığımız inkişaf edir. Konkret nəticə nöqteyi-nəzərindən Avropa Birliyi ilə əməkdaşlıq başqa beynəlxalq təşkilatlara nisbətən daha da nəticəlidir.

Hələ 1992–1993-cü illərdən başlayaraq Avropa Birliyinin bizim regiona, Qafqaz, Orta Asiya regionuna marağı artmışdır. Bir neçə proqramların – TASİS proqramının, TRASEKA proqramının, İNOQEYT proqramının yaranması Avropa Birliyinin, həqiqətən, bizim regiona çox diqqətlə yanaşmasını göstərir. Biz bu proqramların həyata keçirilməsində fəal iştirak edirik. Ölkəmizin coğrafi vəziyyəti, coğrafi-strateji vəziyyəti belədir ki, bu proqramlar Azərbaycansız həyata keçirilə bilməz.

Burada xeyli işlər görülübdür. Biz bu sahədə Avropa Birliyindən iqtisadiyyatımızın bəzi sahələrini inkişaf etdirmək üçün aldığımız yardımları və kreditləri də qiymətləndiririk.

Nəhayət, bilirsiniz ki, biz Avropa Birliyi ilə birlikdə 1998-ci ilin sentyabr ayında Azərbaycanda böyük bir konfrans keçirdik. Bu konfransın əsas məzmunu TRASEKA proqramı üzrə tarixi Böyük İpək Yolunun bərpa olunması məsələsi idi. Mən çox məmnunam ki, bu konfrans Azərbaycanda keçirildi. Biz burada, hesab edirəm ki, çox vacib bir saziş imzaladıq. Qədim İpək yolunun bərpası ilə əlaqədar təşkilat yaratdıq, onun katibliyi Azərbaycanda yerləşir. Bir müddət bundan öncə o katibliyə yaxşı bir bina verdik və o binanın açılışında özüm şəxsən iştirak etdim.

Biz Böyük İpək Yolunun bərpası proqramına çox ciddi yanaşırıq. Hesab edirik ki, bunun böyük perspektivi var. Bu, Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirən, məsafəcə ən yaxın və təhlükəsizliyi təmin edən bir marşrutdur.

Ancaq biz Avropa Birliyi ilə əməkdaşlığımızı təkcə bu proqramlar çərçivəsində nəzərdə tutmuruq. Siz Avropa Birliyinin parlamentinin nümayəndələrisiniz.

Mən çox məmnunam ki, Azərbaycan parlamenti ilə sizin aranızda çox işgüzar əlaqələr yaranıbdır və dünən, bu gün burada çox yaxşı konfrans keçirilibdir, məsələlər müzakirə olunubdur. Biz bunları özümüz üçün çox əlamətdar hadisə hesab edirik və Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığına böyük ümidlərlə baxırıq.

Bilirsiniz ki, biz yanvar ayında Avropa Şurasına həqiqi üzv kimi qəbul olunduq. Avropa Şurasında çox dövlət var, 43 dövlət var. Oraya daxil olmaq üçün xeyli vaxt imtahanlardan keçdik. Bəzən də «imtahan edən müəllimlər» bizə qarşı ədalətli deyildilər. Amma onlara sübut etdik ki, biz Avropa Şurasının üzvü olmağa layiqik. Bilirəm ki, Avropa Birliyinin 15 üzvü var, amma növbədə də çox ölkə var. Sizin şərtləriniz daha da ciddidir. Biz realistik. Hesab etmirik ki, biz buna tezliklə nail ola bilərik. Amma Avropa ailəsinin üzvü kimi, Azərbaycan, təbiidir ki, bu istiqamətdə də irəliləmək istəyir. Ona görə parlamentlərarası əlaqələrin çox böyük əhəmiyyəti var. Güman edirəm ki, siz bu iki gündə Azərbaycanın bugünkü reallığını görürsünüz. Təbiidir ki, bizim ölkəmizdə hər şey istədiyimiz kimi deyildir. Ancaq, hər halda, son beş-altı ildə Azərbaycanda iqtisadi inkişaf var və bizim yaxşı perspektivlərimiz var.

Sizə artıq bunu deyiblər ki, bizim bütün bu işlərimizə mane olan Ermənistan–Azərbaycan münaqişəsidir. Güman edirəm, bilirsiniz ki, bu münaqişənin günahkarı biz deyilik. Ermənistan Azərbaycanın torpaqlarının bir hissəsini, Dağlıq Qarabağı özünə birləşdirmək üçün bu münaqişəni başlayıbdır. Sonra bu münaqişə qanlı müharibəyə çevrilibdir və müxtəlif səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin 20 faizini işğal etməyə nail olubdur. İşğal edilmiş torpaqlardan bir milyon insan zorla yerindən çıxarılıb və indi artıq yeddi-səkkiz ildir ki, qaçqın vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır.

Təbiidir ki, XXI əsrin əvvəlində dünyada, Qafqaz bölgəsində belə bir münaqişənin olması özlüyündə indi gedən proseslərə uyğun deyildir. Amma təəssüf ki, biz beynəlxalq ictimaiyyəti bu münaqişənin sülh yolu ilə həll olunması üçün fəal cəlb edə bilməmişik. Müharibənin yenidən başlanması nə Ermənistan üçün, nə də Azərbaycan üçün heç də xeyirli ola bilməz. Amma eyni zamanda, Azərbaycanın torpaqlarının bir qisminin işğal olunmasına və oradan Azərbaycan vətəndaşlarının zorla çıxarılmasına, onların ağır vəziyyətdə yaşamasına biz dözə bilmərik. Ona görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Güman edirəm ki, Avropa Birliyi də bu məsələlərə öz münasibətini bildirməli və öz fəaliyyətini göstərməlidir.

Düşünürəm ki, bizim şəhərimizlə də tanış oldunuz. Hər halda, şəhər pis deyildir. Brüssel də yaxşı şəhərdir, amma Bakı, Azərbaycan da pis deyildir. Buyurun.

**Ursula Şvayser:** Cənab Prezident, hər şeydən öncə, icazə verin, bu gün bizi qəbul etdiyinizə görə nümayəndə heyətinin adından Sizə təşəkkürümü bildirim. Bu görüşün və bizim səfərimizin uğurlu təşkil olunmasında göstərdikləri xidmətə görə xüsusi olaraq Avropa Birliyinin buradakı səfirlərinə də təşəkkürümü bildirirəm. Son dövrlər Azərbaycan tarixi günlərini yaşayır. Burada olduqca mühüm hadisələr baş verir. Siz doğru qeyd etdiniz, bu ilin əvvəlində Azərbaycan Avropa Şurasında üzvlüyə başlayıbdır. Bu da sizin həyatınızda tarixi hadisə olubdur. Bilirik ki, qeyd etdiyiniz münaqişənin dinc yolla aradan qaldırılması üçün son dövrdə intensiv danışıqlar aparılır. Ermənistan prezidenti ilə danışıqlarınızdan da xəbərimiz var. Hesab edirik ki, bu bölgədə hələlik tərəfdaş olmayan iki ölkənin rəhbərləri arasında sülh danışıqlarının davam etdirilməsinin özü də mühüm hadisədir və biz bu danışıqların aparılmasını alqışlayırıq.

Biz burada olduğumuz dövrdə sizin parlamentin nümayəndələri ilə işgüzar danışıqlar aparmışıq. Bilirik, danışıqlarda da duymuşuq ki, sizin iki əsas probleminiz var. Birincisi, şübhəsiz ki, Qarabağ problemidir. Biz arzu edirik ki, bu münaqişə, bu problem tezliklə dinc yollarla həll olunsun.

Düşünürəm ki, bu münaqişənin dinc yolla aradan qaldırılması üçün Sizin kimi şəxsiyyətlərə böyük ehtiyac var. Məhz böyük şəxsiyyətlərin iradəsi sayəsində bu problemi aradan qaldırmaq mümkün ola bilər.

Hesab edirik ki, sizin xalqınız dövlətinizin hansı inkişaf mərhələsinin başlanğıcında olduğunu yaxşı anlayır. Bu baxımdan biz Azərbaycanda gördüklərimizi nikbinliklə qarşıladıq. Azərbaycanın böyük gələcəyin başlanğıcında olduğunu gördük.

Şübhəsiz ki, bizim nümayəndə heyətimizin üzvlərinin Sizə ünvanlamaq istədikləri bəzi suallar olacaqdır. Mən istərdim, öncə nümayəndə heyətinin üzvlərini Sizə təqdim edim. Cənab Stefano Zappala Avropa Parlamentinin üzvüdür. O, İtaliyanı təmsil edir. Avropa Parlamentində Ətraf Mühitin Qorunması Komitəsinin üzvüdür. Cənab Olivyer Dupui də İtaliyanın təmsilçisidir. O, Avropa Parlamentində mənim də fəaliyyət göstərdiyim Konstitusiya Komitəsinin üzvüdür. Xanım Mari-ann İsler Bequin Fransanı təmsil edir. Cənab Zappala kimi, o da Ətraf Mühitin Qorunması Komitəsinin üzvüdür. Cənab Dmitrios Kulurianos isə Yunanıstanı təmsil edir. O, Avropa Parlamentində Kənd Təsərrüfatı Komitəsinin üzvüdür.

Çox məmnunam ki, bizim bugünkü nümayəndə heyətimizdə cənab Per Qarton da iştirak edir. O, Avropa Parlamentinin Xarici Əlaqələr və İnsan Haqları komissiyasının üzvüdür. Bundan əlavə, o, Avropa Parlamentində Cənubi Qafqaz üzrə məruzəçi qrupunun rəhbəridir. Cənab Qarton Avropa Parlamentinin Xarici Əlaqələr və İnsan Haqları komissiyasında Azərbaycana və Cənubi Qafqaza aid məruzə ilə çıxış etdikdən, orada müzakirələr aparıldıqdan sonra biz bu ilin sentyabr–oktyabr aylarında Avropa Parlamentində ümumi müzakirələrin keçirilməsini planlaşdırırıq.

Hesab edirik ki, bu müzakirələr Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıqda mühüm rol oynayacaqdır. Bildirmək istəyirəm ki, biz bu payız keçiriləcək müzakirələrdən çox şey gözləyirik. Çünki bu yaxınlarda Avropa Birliyinin üçlüyü regionda olmuşdur. Yunanıstandan olan səfirimizin verdiyi məlumatlara əsasən bilirik ki, son həftələr burada sülh danışıqları ilə əlaqədar intensiv işlər aparılıbdır. Bundan əlavə, son dövrlər sizin ölkənizi çoxlu nümayəndə heyətləri, o cümlədən mənim təmsil etdiyim Almaniyanın da böyük nümayəndə heyəti ziyarət edibdir. Hesab edirik ki, payızda müzakirələrə çıxarmaq üçün çoxlu məsələlərimiz olacaqdır.

Hesab edirəm ki, nümayəndə heyətinin səfəri zamanı biz Azərbaycan ilə əməkdaşlığımızın çoxtərəfli qaydada aparılması üçün bütün sahələrə nəzər salmaq imkanı əldə etdik. Burada müxtəlif mövzular ətrafında müzakirələr apardıq. Hesab edirəm ki, Sizin dəstəyinizlə biz Azərbaycan ilə əməkdaşlığımızın yeni mərhələsini başlaya bilərik.

**Heydər Əliyev:** Mən belə başa düşdüm ki, suallar verəcəksiniz. Onda bunu belə başa düşürəm ki, siz Avropa Birliyinə bizim yaxınlaşmağımız üçün imtahana gəlmisiniz. Buyurun.

**Olivyer Dupui** (*Avropa Parlamentinin üzvü, İtaliya*): Cənab Prezident, hesab edirəm tamam əksinə olacaqdır. Yəni imtahanı Sizin özünüzün aparmağınıza ehtiyac olacaqdır. Çünki Avropa çox ləng işləyir. Bu gün Avropanın özündə belə inteqrasiya prosesləri heç də böyük sürətlə getmir. Təəssüf ki, Avropada, Brüsseldə heç də hamı sizin ölkənizin nə qədər böyük əhəmiyyət kəsb etdiyini anlamır.

**Heydər Əliyev:** Bunu çox düz deyirsiniz.

**O l i v y e r  D u p u i:** Ona görə də biz məhz Sizdən, eyni zamanda sizin müttəfiqiniz olan Gürcüstandan daha ciddi siqnallar gözləyirik. Yəni Avropa Birliyinə və Brüsselə ünvanlanmış siqnal ki, onun nəticəsində orada oturan insanlar sizin regionun nə qədər mühüm əhəmiyyət kəsb etdiyini daha yaxşı anlasınlar. Hesab edirəm ki, Avropa Birliyinə üzv qəbul olunmağın özü böyük bir prosesdir. Amma biz həm Azərbaycandan, həm də sizin müttəfiqiniz Gürcüstandan gözləyirik ki, sizin hökumətlər Avropa Birliyinə rəsmi surətdə üzv olmaq üçün prosesə və danışıqlara başlamaqla əlaqədar müraciət qəbul etsinlər. Düşünürəm ki, əgər Sizin tərəfinizdən və Gürcüstanın rəhbərliyi tərəfindən Avropa Birliyinə üzvlük üçün Polşa, Bolqarıstan kimi ölkələrin keçdiyi uzun bir prosesə başlamaq müraciəti olsa, onda Brüsseldə sizin regionun – Azərbaycanın və Gürcüstanın nə qədər böyük əhəmiyyət daşıdığını daha aydın dərk edə bilərlər. Hər halda, bu regionunuzun əhəmiyyətinin başa düşülməsində mühüm elementlərdən biri ola bilər. Ona görə də gərək Siz bir az bizə dərs verəsiniz. Biz gərək Sizdən bəzi dərsləri alaq.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonağımız, təşəkkür edirəm. Mən məmnunam ki, Siz bizim regiona, xüsusən Azərbaycan və dostumuz olan qonşu Gürcüstana bu qədər əhəmiyyət verirsiniz.

Mən Sizin fikirlərinizlə razıyam ki, Brüsseldə, Avropa Birliyində bizim regionun və bizim ölkələrimizin – Azərbaycanın və Gürcüstanın Avropa üçün nə qədər vacib ölkələr olduğunu hələ indiyə qədər tam dərk edə bilmirlər.

Ancaq düzü, Avropa Birliyi haqqında belə bir təsəvvür var ki, ölkələr bir neçə il çalışırlar Avropa Birliyinə daxil olsunlar, ola bilmirlər.

Biz Avropa Şurasına daxil olanda bizi o qədər o tərəfə-bu tərəfə çəkdilər ki, gözümüz qorxub. Ona görə cəsarət etmirik. Amma siz bu cür bəyanat verəndən sonra, əlbəttə ki, bizdə də daha çox cəsarət əmələ gələcəkdir.

Mən deyə bilmərəm ki, Azərbaycan, ya Gürcüstan Avropa Birliyinə müəyyən bir nümunə ola bilər, yaxud dərs verə bilər. Çünki bu birliyin tərkibində Avropanın ən inkişaf etmiş ölkələri var. Biz hələ inkişaf mərhələsindəyik. Amma gələcəyimizə çox nikbin baxırıq. Ona görə də mən Sizin bu məsləhətinizi məmnuniyyətlə qəbul edirəm. Təşəkkür edirəm.

**D m i t r i o s  K u l u r i a n o s** (*Avropa Parlamentinin üzvü, Yunanıstan*): Biz hamımız Yer kürəsi adlanan bir məkanda yaşayırıq. XXI əsr ideologiyaların sonu kimi deyil, amma ehkamçı fikirlərin sonu kimi başladı. Avropa təkcə xəritə deyil, o bir ideyadır, ideologiyaların məzmunudur və Ümumavropa mədəniyyəti deməkdir. Biz də Avropada yaşayan xalqların seçilmiş nümayəndələriyik, onları təmsil edirik. Biz Ümumavropa ideyasını, Ümumavropa mədəniyyətini və ideologiyasını bütün dünyaya yaymağı çox istəyirik. Biz coğrafiyaların qurbanı olmaqla razılaşmaq istəmirik. O baxımdan tam əmin ola bilərsiniz ki, sizin ölkənizdə və regionunuzda da Avropa ideologiyasının və Avropa mədəniyyətinin geniş yayılması üçün əlimizdən gələni edəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli deputat, təşəkkür edirəm. Mən sizin fikirlərinizlə razıyam. Sizinlə bizim aramızda böyük fərq vardır. O da ondan ibarətdir ki, XX əsrdə biz 70 il ehkamın təsiri altında yaşamışıq. Sizin ölkələrdə də ehkamlar olubdur. Sizin ölkələr də böyük mərhələlərdən keçiblər. Məsələn, İkinci dünya müharibəsini götürsək, faşizm həm Almaniyada idi, həm İtaliyada idi, həm də Avropanın başqa ölkələrində idi. Bu da sizin ölkələrə məxsus olan ehkam idi. Yəni bizim öz ehkamımız olub, sizin də öz ehkamınız olubdur. Amma siz İkinci dünya müharibəsindən sonra bu ehkamlardan tezliklə xilas ola bildiniz. Avropa, sizin ölkələriniz İkinci dünya müharibəsindən sonra böyük yol keçiblər və böyük tərəqqi əldə ediblər.

Ancaq biz cəmisi 10 il bundan öncə ehkamdan xilas olmuşuq. Bu on il də bizim üçün rahat illər olmayıbdır. Buna görə də siz, təbiidir ki, bütün sahələrdə bizdən irəlidəsiniz. Bizim Avropa ailəsində olmaq arzumuz da məhz tezliklə sizin dəyərlərinizə daha da yaxınlaşmaqla bağlıdır. Amma bunun təkcə bizim üçün yox, sizin üçün də, Avropa üçün də çox böyük faydası olacaqdır.

Bizim kimi ölkələrin Avropa Birliyinə daxil olması, hesab edirəm ki, Avropanın mənəviyyat, ənənələr cəhətindən zənginləşdirilməsinə gətirib çıxaracaqdır. Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Hesab edirəm ki, Avropa dəyərlərinin üzərinə bunu əlavə etsək, bu da oraya qatılsa, Avropa dəyərləri daha da zəngin olacaqdır. Buna görə biz əməkdaşlıq edirik. Siz də gərək bizə yardım edəsiniz. Çünki 1945–1946-cı illərdə sizin atdığınız addımları biz indi – XX əsrin sonunda, XXI əsrin əvvəlində atırıq. Təbiidir ki, biz sizdən sürətlə gedəcəyik. Çünki elə olmasa, biz gəlib sizə çata bilmərik. Amma buna baxmayaraq, bizə sizin yardımlarınız çox lazımdır.

**D m i t r i o s  K u l u r i a n o s:** Cənab Prezident, bir söz demək olar? O içkiləri ki, qatışdırıb içirlər, onlar daha ləzzətli olur.

**H e y d ə r  Ə l i y e v:** Mən buna razıyam.

**D m i t r i o s  K u l u r i a n o s:** Marafon yarışında kimin qaçışa birinci başlaması o qədər önəm kəsb etmir. Kimin finişə birinci çatması əhəmiyyətli olur.

**H e y d ə r  Ə l i y e v:** Doğrudur. Amma eyni zamanda, birisi marafona bir saat əvvəl başlayırsa, o biri marafonçu nə qədər güclü olsa da, gəlib ona çata bilməz. Amma içkilər haqqında dediyinizlə razıyam. İtaliyada

bunu mən çox yoxlamışam. Yunanıstanda da yaxşı içkilər var. Doğrudur, səfir məni hələ oraya aparmayıbdır. Amma bilirəm ki, orada çox yaxşı içkilər var.

**M e r k u r i o s K a r a f o t i a s** (*Yunanıstanın Bakıdakı səfiri*): Zati-aliləri, Siz bizə razılıq verdiyiniz an, biz Sizi orada salamlamaqdan, qarşılamaqdan məmnun olarıq. Biz bunu özümüzə yalnız şərəf bilərik.

**H e y d ə r Ə l i y e v:** Mən bunu bilirəm. Təşəkkür edirəm.

**Xanım M a r i - A n n İ s l e r B e q u i n** (*Avropa Parlamentinin üzvü, Fransa*): Cənab Prezident, icazə versəydiniz, mən fransızca danışardım.

Cənab Prezident, artıq ikinci dəfədir ki, biz Azərbaycana gəlmək və Sizinlə görüşmək şərəfinə nail oluruq. Elə buna görə də Sizə dərin minnətdarlığımı bildirirəm. Sizinlə elə əvvəlki görüşlərimizdə də razılaşmışdıq və belə bir fikir irəli sürmüşdük ki, Azərbaycanla bir xartiya, regional ətraf mühit xartiyası imzalayaq.

Cənab Prezident, biz artıq bununla bağlı müxtəlif yerlərdə müzakirələr aparmışıq, fikir mübadiləsi etmişik. Ümumiyyətlə, biz sizin Cənubi Qafqaz regionunun ekologiyası, ətraf mühitin çirklənməsi problemləri haqqında geniş danışmışıq. Zənnimcə, bu hamımızın marağına cavab verərdi ki, biz doğrudan da belə mərkəzin yaradılmasına gəlib çıxaq.

Cənab Prezident, o vaxt bununla bağlı Sizinlə söhbət aparanda, qəti cavab verməsəniz də, bu mövzuya çox maraq göstərdiniz. Böyüklüyünüz bir də ondan ibarət oldu ki, həmin görüşümüzdən sonra Brüsselə qayıtdıqdan yalnız bir neçə gün keçmiş xəbər tutduq ki, Siz həmin xartiyanı imzalamısınız.

Cənab Prezident, elə buna görə də mən indi artıq bu büroda–mərkəzdə işləyənlərin hamısının adından Sizə öz dərin minnətdarlığımı bildirirəm. Mən Sizin nəzərinizə çatdırmaq istəyirəm ki, bu gün artıq Tbilisidə ekologiya, ətraf mühitin çirklənməsi problemləri ilə məşğul olan belə bir mərkəz fəaliyyət göstərir. Sizinlə bu görüşümüzdən istifadə edərək xahiş edirəm ki, bəlkə bu mərkəzin Azərbaycanda, yəni Bakıda da ofisinin açılmasına razılıq verəsiniz. Mənə elə gəlir ki, ekologiya, ətraf mühitin çirklənməsi məsələləri Azərbaycan üçün də çox böyük aktuallıq kəsb edir və biz də sizinlə birlikdə bu sahədə fəaliyyət göstərərdik. Ümumiyyətlə, müəyyən proqramlar hazırlayarıq, müəyyən texniki kömək edərik. Zənnimcə, bununla biz yaxşı nəticələrə gəlib çıxa bilərik.

Cənab Prezident, o vaxt Siz qeyd etmişdiniz ki, ümumiyyətlə, Azərbaycan regional proqramları imzalamaq məsələsinə yalnız Ermənistan–Azərbaycan münaqişəsinin həllindən sonra baxa bilər, yəni belə bir addım ata bilər. Lakin biz Sizin böyüklüyünüzü bir daha gördük, hiss etdik. Çünki doğrudan da həyatda, bizim indiki dövrümüzdə elə məsələlər vardır ki, onlar bəlkə daha təcili, daha vacib məsələlərdir. Ona görə də Siz bu siyasi məsələnin həll olunmamasına baxmayaraq, belə bir addım atıb bu proqramı, xartiyanı imzaladınız.

**H e y d ə r Ə l i y e v:** Hörmətli xanım, təşəkkür edirəm. Sizin bu fikirləriniz çox əhəmiyyətlidir. İndi ətraf mühitin qorunması bütün bəşəriyyət üçün bir nömrəli məsələdir.

O cümlədən Azərbaycanın buna çox böyük ehtiyacı var. Burada, həm Azərbaycanın ərazisində ətraf mühitin qorunması məsələsi durur, həm də başlanğıcını Türkiyədən götürən, Gürcüstan və Ermənistan torpaqlarından keçərək Azərbaycana gələn Kür, Araz çayları həmin ölkələrdə çox çirklənir. Biz isə o çayların sularından insanların su təchizatında istifadə edirik. Həm də ki, kənd təsərrüfatı sahəsində bu sulara böyük ehtiyacımız vardır. Mən sülh yaranana qədər Ermənistanla bütün başqa sahələrdə əməkdaşlıq etməyin əleyhinəyəm. Amma bu sahədə əməkdaşlıq etməyə hazıram. Hələ keçmişdə, Sovetlər İttifaqı zamanı Ermənistan öz ərazisindən keçən Araz çayını çox çirkləndirirdi. Onların ərazisində kiçik qızıl yataqları tapılmışdı. Orada qızıl mədənindən çıxarılan filizin yuyulması üçün Arazın qırağında zavod yaratmışdılar. Çünki, bu proses zamanı çoxlu su lazımdır və filiz yuyulmuş su ən zəhərli sudur.

O vaxt biz bir dövlətin tərkibində olduğumuza görə, mən çox səylər göstərdim. SSRİ Nazirlər Soveti bu işə qarışdı və müəyyən tədbirlər gördük. İndi isə mən bilmirəm ki, orada nə vardır. Amma əməkdaşlıq etsək, qarşılıqlı inspeksiya keçirə, çox məsələləri aradan qaldıra bilərik.

Yaxud da Xəzər dənizinin çirklənməsi məsələsi... Xəzər dənizi 5 Xəzəryanı dövlətə mənsubdur. Bu dövlətlər arasında indiyə qədər həm ekologiya barəsində, həm bioresurslar barəsində, həm neft-qaz hasilatı barəsində heç bir müqavilə olmadığına görə, hərə öz ərazisindən çirkab sularını dənizə axıdır. Eyni zamanda Xəzər dənizində dünyada çox nadir hesab olunan balıqlar məhv olmaq təhlükəsi altındadır.

Mən bilirəm ki, Qərbdə balıq kürüsünü çox sevirlər. Amma işlər belə getsə, bunun qarşısını almasaq, 5-6 ildən sonra balıq kürüsü olmayacaqdır. Ona görə də bu, böyük bir problemdir. İndi bütün bəşəriyyət qarşısında duran bir nömrəli problemdir. Neçə xartiya istəyirsinizsə, mən imzalayım. Ancaq əməli iş görmək lazımdır. Amma gərək bir təşəbbüskar mərkəz olsun. Biz Azərbaycanda bu mərkəzi mütləq yaradarıq. Amma Tbilisidə olan mərkəz, Azərbaycanda olan mərkəz, başqa yerlərdə olan mərkəzlər – gərək bunların işləri əlaqələndirilsin.

Əgər Avropa Birliyi bu məsələ ilə konkret, əməli surətdə məşğul olsa, bu, bəşər tarixində Avropa Birliyinin böyük xidməti olacaqdır.

**P e r Q a r t o n** (*Avropa Parlamentinin üzvü, İsveç*): Cənab Prezident, mən öz həmkarlarımla tam razıyam ki, bu region bizim üçün önəmli əhəmiyyət daşıyan bir regiondur. Sizin fikrinizlə razıyam ki, sizin regionunuz

Avropada kifayət qədər tanınmayıbdır. Ona görə də mən Avropa Birliyi, Avropa Parlamenti üçün hazırlayacağım məruzədə bu regionun nə qədər böyük əhəmiyyət daşıdığına xüsusi diqqət yetirəcəyəm.

Avropada bu regionla əlaqədar daha geniş yayılmış məlumat bu regionda uzun müddətdən bəri davam edən, təəssüf ki, hələ də tam sülhlə nəticələnməyən və çox mürəkkəb bir münaqişənin davam etməsi barədədir. Ondan da xəbərimiz vardır ki, son dövrlər Siz şəxsən çoxlu səylər göstərirsiniz, Ermənistan prezidenti ilə birlikdə bu münaqişənin dinc yolla, sülh yolu ilə aradan qaldırılması üçün çoxsaylı görüşlər keçirmisiniz və sonuncu görüşünüz Floridada olmuşdur. Bildiyimizə görə, Ermənistan prezidenti ilə sülh danışıqlarını davam etdirmək üçün Cenevrədə də növbəti görüşünüz gözlənilir.

Cənab Prezident, mən bu çoxsaylı sülh görüşləri barədə – həm Ermənistan prezidenti ilə Sizin keçirdiyiniz birbaşa görüşlər, həm də ümumiyyətlə, sülh səyləri barədə çoxlu hesabatlar oxuyuram. Bu hesabatlardan belə duyulur və bir fikir formalaşır ki, münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çox nikbin yanaşırlar. Hətta belə fikirlər də səslənir ki, Ermənistan prezidenti ilə Siz sülhün əldə edilməsi üçün olduqca yaxınlaşmısınız. Bununla birlikdə, belə bir fikir də mövcuddur ki, Ermənistan prezidenti ilə sülhə nə qədər yaxınlaşsanız da, hər iki ölkədə onun həyata keçirilməsinə maneçilik törədə biləcək, ona etiraz edəcək ciddi və güclü qruplar vardır. Onlar bu sülh prosesinin, əldə oluna biləcək hər hansı sazişin həyata keçirilməsinə etiraz edə bilərlər. Beləliklə də Sizi və Ermənistan prezidentini çıxılmaz, çətin bir vəziyyətə sala bilərlər. Şübhəsiz ki, mən sülh danışıqlarının müfəssəl təfərrüatı barədə danışmağınızı istəmirəm. Bilirəm ki, bu, məxfi görüşlərdir, məxfi danışıqlardır. Amma hesab edirəm ki, əgər bizə Ermənistan prezidenti ilə apardığınız danışıqların, ümumiyyətlə, sülh prosesinin indiki durumu barədə məlumat versəydiniz, bu, vəziyyəti daha dolğun dərk etməkdə bizə çox yardımçı olardı.

**H e y d ə r Ə l i y e v:** Bilirsinizmi, mən bu gün görüşümüzün əvvəlində bildirdim ki, bu münaqişəni Ermənistan başlayıbdır, Azərbaycan başlamayıbdır. Nəticədə Ermənistan həm Dağlıq Qarabağı, həm də onun ətrafında olan digər əraziləri – Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. Orada yaşayan insanları həmin torpaqlardan zorla çıxardıbdır. Müharibə zamanı, döyüşlər gedərkən çoxlu qan tökülübdür. 1994-cü ilin may ayında biz atəşin dayandırılması haqqında razılığa gəlmişik. O vaxtdan indiyə qədər, artıq 7 ildir ki, biz atəşkəs şəraitində yaşayırıq. Onu da qeyd etmək istəyirəm ki, bizim aramızda başqa ölkələrin sülhməramlı qüvvələri yoxdur. Atəşkəsi biz, yəni Azərbaycan və Ermənistan qoruyub saxlayırıq. Bütün bu 7 ildə biz ATƏT-in Minsk qrupu vasitəsilə məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Nəhayət, 1999-cu ildən Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında vaxtaşırı bilavasitə görüşlər keçirilir və danışıqlar aparılır. Son görüşümüz Amerika Birləşmiş Ştatlarında, Floridada Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa nümayəndələrinin iştirakı ilə olmuşdur.

Ermənistan prezidenti ilə biz danışıqlara başlayanda belə fikirdə olduq ki, sülh əldə etmək üçün qarşılıqlı kompromislərə getmək lazımdır. Əgər belə bir razılıq əldə olundusa və biz buna nail ola bilməmişiksə, deməli, hansı tərəfin kompromisə nə qədər getməsini biz müəyyən edə bilməmişik. Ermənistan öz üstünlüyündən istifadə edərək – yəni Azərbaycanın torpaqlarını işğal edibdir, onun silahlı qüvvələri orada oturubdur, Azərbaycanın əhalisi öz yerindən-yurdundan olubdur – çox böyük tələblər ortaya qoyur. Azərbaycan isə, əlbəttə ki, bu şərtlərlə razı ola bilmir. Ona görə də biz bu məsələni indiyə qədər həll edə bilməmişik.

1999-cu ilin sonunda biz bir variantda çox yaxınlaşmışdıq. Ancaq sonra Ermənistan bu variantdan imtina etdi. Məsələ bu qədər uzandığına görə və Azərbaycan əhalisi, bir milyondan çox insan ağır vəziyyətdə yaşadığına görə, təbiidir ki, bizim cəmiyyətdə narazılıq artır.

Ermənistanın torpağı işğal olunmayıbdır. Əhalisi qovulmayıbdır. Doğrudur, Azərbaycandan köçüb gedən bəzi ermənilər Ermənistan üçün müəyyən problemlər yaradıblar. Amma əsas zərər Azərbaycana dəyibdir. Ona görə də bu, nəzərə alınmalıdır.

Nəzərə alınmır, məsələ uzanır. Azərbaycanda da narazılıq get-gedə artır. İnsanlarda yenidən müharibə etmək, işğal olunmuş torpaqları müharibə yolu ilə azad etmək əhval-ruhiyyəsi genişlənir.

Bizim müxalifət, təbiidir ki, bundan istifadə edir. Bizi sağdan da, soldan da tənqid edir. Hətta ittiham edir ki, nə üçün bu münaqişəni indiyə qədər həll etmirsiniz. Gəlin müharibəni başlayaq, gedək torpaqları işğaldan azad edək. Bu isə cəmiyyətin bəzi təbəqələrinə sirayət edir. Ona görə də təhlükəli bir vəziyyət yaranıbdır. Mətbuatdan görünür ki, Ermənistanda da bəzi qüvvələr, Ermənistanın hətta kiçik bir kompromisə getməsinə razı deyillər. Buna görə də vəziyyət belədir.

Əgər biz həqiqətən tarazlı kompromisə gələ bilsək, onu həyata keçirmək yenə də çox çətin olacaqdır. Amma onda əldə olunmuş razılığı həyata keçirmək üçün mübarizə aparmaq olar. Əgər belə olmasa, onda prezident kimi, mən də – baxmayaraq ki, mənə çox böyük ümidlər bəsləyirlər, çox hörmət edirlər – bu vəziyyətdə heç bir şey edə bilmərəm və etmərəm də. Ona görə də müharibə amili get-gedə artacaqdır.

Ona görə də mən Minsk qrupunun həmsədrlərindən – bunlar böyük dövlətlərdir, Rusiyadır, Amerika Birləşmiş Ştatlarıdır, Fransadır, bunların Ermənistana təsir etmək imkanları vardır – həmişə xahiş edirəm ki, onlar öz imkanlarından istifadə etsinlər. Onlar isə deyirlər ki, iki prezident hansı razılığa gələrsə, biz onu qəbul edəcəyik.

Belə olan halda, onda 1992-ci ildə nə üçün ATƏT-in Minsk qrupu yaradıldı? Belə olan halda nə üçün üç böyük dövlət – Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları öz üzərinə bu vəzifəni götürüblər?

Ona görə də çox çətin vəziyyət yaranıbdır. Hər halda, mən bunları deməklə sizdə belə bir təsəvvür yaratmaq istəmirəm ki, daha hər şey tükənibdir. Sizin sualınıza cavab verərək mən real vəziyyəti bildirirəm. Ancaq hesab edirəm ki, məsələnin sülh yolu ilə həll olunması üçün bundan sonra da çalışmaq lazımdır.

**P e r Q a r t o n:** Üzr istəyirəm, bir əlavə sual da vermək istəyirəm. Sizin sülh səylərinizin dəstəklənməsi üçün indiyə qədər gördüyümüz işlərdən əlavə, Avropa Birliyindən hansı işlərin görülməsini istərdiniz?

**H e y d ə r Ə l i y e v:** İşləri biz görmüşük. Siz bizə kömək edin ki, sülh yaransın. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlar azad edilsin və bir milyon azərbaycanlı öz yerinə-yurduna qayıtsın. Baxmayaraq ki, onların yaşadıqları yerlərdə hər şey dağıdılıb, hər şey viran olubdur. Ancaq onlar, sadəcə, öz torpaqlarına qayıtmaq istəyirlər. Mənim sizdən istədiyim budur.

**U r s u l a Ş v a y s e r:** Çox sağ olun. Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələrimiz və danışıqlarımız oldu. Bizim üçün olduqca əhəmiyyətli idi ki, mövcud hazırkı vəziyyətin dəyərləndirilməsini bilavasitə Sizdən eşidək, mövcud reallıqları Sizin necə qiymətləndirdiyinizi bilək. Bundan sonra biz öz aramızda əlavə müzakirələr aparacağıq. Sizin səylərinizin və arzularınızın həyata keçirilməsi üçün hansı işləri görə biləcəyimiz barədə əlavə müzakirələr aparacağıq.

Mən çox məmnunam ki, cənab Qartonun hazırlayacağı məruzə çox ətraflı olacaqdır. Beləliklə, bu, təkcə Avropa Parlamenti, Avropa Birliyi üçün hazırlanmış məruzə olmayacaq, bu, mövcud vəziyyətin bütün dünyaya aydınlaşdırılmasında, açıqlanmasında rol oynayacaqdır. Sizə təşəkkür edirik.

**H e y d ə r Ə l i y e v:** Cənab Qarton, mən Sizin əsas sualınıza cavab verdim – Avropa Birliyi nə edə bilər? Xahiş edirəm, buna çox ciddi yanaşasınız. Sağ olun.

## AZƏRBAYCANDA QONAQ OLAN TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ PROFESSOR İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*24 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mən həmişə Sizi görəndə çox xoşbəxt oluram. Mən bilirəm ki, əlinizə çəlik almağın səbəbi var. Zəhmət çəkib buraya gəlmisiniz. Doğrudan da mənim ürəyim istəyir ki, siz buraya gələsiniz. Ancaq bu qədər yolu keçib zəhmət çəkmək məni bir az incidir. Daha yaxşı olardı ki, mən Ankaraya gəlim, sizinlə görüşüm.

**İ h s a n D o ğ r a m a c ı:** Bu ayın 10-cu günü sizin ad gününüz münasibətilə buraya gəlməyi planlaşdırmışdıq. Fəqət ondan iki gün öncə təsadüfən ayağımın baş barmağını itirmişəm. Bu da gənclik çağlarımdakı səhvim üzündən baş vermişdir. Bununla bağlı həkimlər başqa yerə getməyi mənə yasaq etdilər. Onun üçün Sizi ziyarət edə bilmədim.

**H e y d ə r Ə l i y e v:** Bu təbiidir.

**İ h s a n D o ğ r a m a c ı:** Mən Sizin üçün çox darıxmışam. Həkimlərdən izin aldıqdan sonra ilk səfərimi buraya etdim. Çox şadam ki, məni qəbul etdiniz. Hər zaman dediyim kimi, bura mənim ikinci vətənim deyil, iki vətənimdən biridir.

**H e y d ə r Ə l i y e v:** Elədir.

**İ h s a n D o ğ r a m a c ı:** Onun üçün mən burada özümü öz vətənimdə hiss edirəm. Əlinin də, bəlkə eşitmisiniz, bir il bundan əvvəl xərçəng xəstəliyindən müalicəsini Nyu-Yorkda etdilər.

**H e y d ə r Ə l i y e v:** Bununla əlaqədar mən sizə bir neçə dəfə zəng etmişdim.

**İ h s a n D o ğ r a m a c ı:** Elədir, etmişdiniz. Onun müalicəsini Nyu-Yorkda etdilər. Allaha şükür, indi yaxşıdır.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Əli xəstələnəndə mən sizə bir neçə dəfə zəng etdim. Hətta Nyu-Yorka da sizə zəng vurdum.

**İ h s a n D o ğ r a m a c ı:** Bəli, zəng etdiniz. Siz Ankarada olarkən biz Sizi Nyu-Yorkda televiziya vasitəsilə seyr edirdik. Səfir dedi ki, prezidentimiz onun ad gününü keçirməyə izin verməz. Ona görə də mən Sizinlə görüşəcəyimiz bu günü gözləyirdim.

**H e y d ə r Ə l i y e v:** Ankaraya gələndə mən sizi soruşdum, səfir mənə dedi ki, siz Nyu-Yorkdasınız.

**İ h s a n D o ğ r a m a c ı:** Amma ondan daha öncə Qurban bayramı ilə əlaqədar bir tədbirimiz var idi. Mən proqramı ona görə hazırlamışdım. Sonra Siz gec gəldiniz.

**H e y d ə r Ə l i y e v:** Elədir. Hər halda, xoş gəlmisiniz, səfa gətirmisiniz.

**İ h s a n D o ğ r a m a c ı:** Xoş gününüz olsun.

**H e y d ə r Ə l i y e v:** Yenə də deyirəm, sizinlə görüşümdən çox məmnunam. Çünki mənim çox əziz dostum, qardaşımsınız. On il müddətində bizim aramızda yaranmış bu dostluq və qardaşlıq əlaqələri o qədər möhkəmdir, mənim üçün o qədər əzizdir ki, hər dəfə sizi görməkdən məmnun oluram.

Ya burada, ya da Ankarada. Ancaq mən onu da unutmuram ki, mən Klivlenddə cərrahiyyə əməliyyatı keçirən zaman siz Türkiyədən təyyarə ilə 18 saat uçub, Çikaqodan keçib gəlmişdiniz. Klivlenddə oldunuz, bir yerdə olduq. Orada mənim doğum günümü bir yerdə qeyd etdik.

**İ h s a n D o ğ r a m a c ı:** Mən həyatımda çox mükafatlar almışam. Amma Sizinlə dostluğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz.

İcazə versəydiniz, ad gününüz münasibətilə Sizə bu hədiyyəni təqdim edərdim *(İhsan Doğramacı Azərbaycan Respublikasının qızıl təbəqədən hazırlanmış xəritəsini və prezident Heydər Əliyevin kiçik barelyefini göstərərək):*

Əfəndim, bu, Azərbaycan torpağıdır, bu da cənab Heydər Əliyevdir. Bunlar qızıldan hazırlanmışdır. Hədiyyənin üzərindəki bu sözləri oxumaq istəyirəm:

«*Bu torpaqların yetirdiyi ən böyük dövlət adamı Heydər Əliyevə sağlıq, uzun ömür və böyük uğurlar arzulayıram.*
İhsan Doğramacı».

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Elə sizi görməyimin özü mənə mükafatdır, hədiyyədir.

---

* Görüşdə xalqımızın böyük dostu İhsan Doğramacının həyat yoldaşı Ayser Doğramacı və oğlu, Bilkənd Universitetinin rektoru Əli Doğramacı da iştirak edirdilər.

Amma siz mənim üçün xüsusi bir hədiyyə hazırlamısınız.

Siz həm çox təcrübəli, həm də orijinal adamsınız. Ona görə sizin hədiyyələriniz həmişə xüsusi xarakter daşıyır.

**İhsan Doğramacı:** Bu, səmimi bir hissdir, ifadə edirik. Bunun maddi qiyməti, bəlkə də çox deyil, amma mənəvi qiyməti var.

**Heydər Əliyev:** Yox, maddi qiyməti bizim kimi adamlar üçün əhəmiyyətli deyildir. Əsas onun mənəvi tərəfidir, mənasıdır.

**İhsan Doğramacı:** Bunlar çox səmimi sözlərdir. Allah Sizə ömür versin. Yalnız Azərbaycan üçün deyil, bütün türkdilli ölkələr üçün.

**Heydər Əliyev:** Bəli, çox gözəl sözlər yazmısınız. Amma mən gərək bundan sonra da çalışam ki, o sözlərə layiq olam.

**İhsan Doğramacı:** Əfəndim, dünən yox, srağagün mən Sizi televiziyadan seyr etdim.

**Heydər Əliyev:** İndi bizim televiziyanın verilişlərini Türkiyədə yayımlayırlar.

**İhsan Doğramacı:** Bəli, Avropa Şurasının nümayəndə heyəti burada idi. Həmin nümayəndə heyətinə də Almaniyadan olan bir nəfər rəhbərlik edirdi. O, almanca danışdı. O birilər də ingilis dilində, Fransadan olan nümayəndə isə fransız dilində danışdı. Fəqət Sizin onlara verdiyiniz cavablar çox mükəmməl, çox xoş idi. Cavablarınızdan birində 10 il bundan əvvəl sovetlərdə «ehkam»dan bəhs edilirdi. Siz dediniz ki, Avropada da «ehkam» olubdur. Almaniyada «nasizm», «faşizm» – onlar ehkam deyildimi? Onlar dedilər ki, bizdə sərbəstlik idi, demokratiya vardı. Siz dediniz ki, «...düzdür, amma bəs faşizmə, nasizmə nə deyərsiz»?

Ekologiya söhbəti də çox yaxşı oldu.

**Heydər Əliyev:** Çox gözəl mövzu idi.

**İhsan Doğramacı:** Təbii, həmişəki kimi, iftixar hissi keçirdim.

**Heydər Əliyev:** Çox sağ olun. Mən çox məmnunam ki, siz bunu çox diqqətlə dinləmisiniz.

**İhsan Doğramacı:** Sonra Ermənistan mövzusunda da çox gözəl cavab verdiniz. Dediniz ki, onlar bizim ərazimizi işğal ediblər. Yəni onu demək istədiniz ki, əgər lazım gəlsə, qeyri-sülh yolu ilə bu münaqişəni həll edə bilərsiniz. Sizdən bu məlumatları aldılar.

**Heydər Əliyev:** Bəli, aldılar. «Ehkam» məsələsi belədir ki, onlar gəlmişdilər ki, söhbət edək. Amma mənə dedilər ki, bizim sizə suallarımız var. Mən də onlarla zarafat etdim. Dedim ki, Avropa Şurasına daxil olmaq üçün biz dörd il imtahanlardan keçmişik.

**İhsan Doğramacı:** Düzdür, belə də dediniz.

**Heydər Əliyev:** Dedim ki, biz imtahanlardan keçmişik, bütün imtahanları da vermişik. Ona görə də Avropa Şurasına qəbul olmuşuq. İndi Avropa Birliyi gəlibdir. Siz də bizi imtahan etmək istəyirsiniz. Dedim ki, suallarınızı verin. Hər halda, çalışaram ki, burada da imtahandan keçim.

**İhsan Doğramacı:** Amma onlar bu imtahandan yaxşı qiymət almadılar.

**Heydər Əliyev:** Onu da deyim ki, o sualları ki, mənə verdilər, bu həmin məsələlər haqqında fikirlərimi deməyə yaxşı imkan yaratdı.

**İhsan Doğramacı:** Çox yaxşı oldu.

**Heydər Əliyev:** Əgər o olmasaydı, mənim onlara «mühazirə» oxumağım yaxşı olmazdı.

**İhsan Doğramacı:** Onların özləri məruzə istədilər.

**Heydər Əliyev:** Onların hər bir sualı mənə imkan verdi ki, bu suallardan istifadə edib fikrimi bildirim.

**İhsan Doğramacı:** Orada hər millətdən – İtaliyadan, Yunanıstandan, Fransadan, Finlandiyadan nümayəndələr vardı. Hamısı orada idi.

**Heydər Əliyev:** Elədir. O «ehkam» məsələsini heç gözləmirdim. O sualların da heç birisini gözləmirdim. Nə bilərdim ki, mənə elə suallar veriləcək. Dedim «ehkam» doğrudur. Biz 70 il «ehkam»ın içərisində yaşamışıq. Dedim ki, sizdə də ehkam olubdur. Faşizm ehkamı içərisində yaşamısınız. Ehkam təkcə bizimki deyil, həm də sizinkidir. Sizinki bizimkindən də təhlükəlidir.

**İhsan Doğramacı:** Çox düzgün demisiniz. Onlar gözləmirdilər belə söhbət alınsın.

**Heydər Əliyev:** Dedim ki, Almaniyada da faşizm vardı, İtaliyada da, İspaniyada da vardı. Nümayəndə heyətində italyanlar da, almanlar da vardı.

Çox yaxşı danışığımız oldu. Ekologiya haqqında da. Çünki ekologiya indi çox böyük bir problemdir.

**İhsan Doğramacı:** Dediniz ki, onların çox sevdikləri qara kürü tükənəcəkdir. Yaxşı balıqların nəsli kəsiləcəkdir.

**Heydər Əliyev:** Dedim ki, Xəzər dənizi indi beş ölkəyə mənsubdur. Hərə də bir tərəfdən balıq tutur, o biri tərəfdən də dənizi çirkləndirirlər. Yəni beş il belə getsə, onda sizin ən çox sevdiyiniz qara kürünü görməyəcəksiniz.

**İhsan Doğramacı:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Çox məmnunam ki, siz Azərbaycanla həmişə maraqlanırsınız. Azərbaycan televiziyası bu yaxın zamanlarda Türkiyəyə yayımlanmağa başlayıbdır.

**İ h s a n  D o ğ r a m a c ı:** Harada olursa-olsun, istər televiziyada, istər Avropanın qəzetlərində olsun, mən Azərbaycan haqqında gedən materiallarla maraqlanıram.

**H e y d ə r  Ə l i y e v:** Çox gözəl, çox gözəl.

Ayser xanım da, maşallah çox yaxşıdır. Onu həmişə olduğu kimi, çox gözəl görürəm. Heç dəyişilmir. Heç sən də dəyişilmirsən, o da dəyişilmir.

**İ h s a n  D o ğ r a m a c ı:** Mən bir az topal olmuşam. Amma həkimlər mənə dedilər ki, bu çəliyi iki həftədən sonra atacaqsan. Mənim də iki həftə gözləməyə səbrim çatmır, indi atmaq istəyirəm.

**H e y d ə r  Ə l i y e v:** Əli də, maşallah, çox yaxşıdır. Heç deməzsən ki, xəstə olubdur. Yaxşı müalicə etdirmisiniz.

**İ h s a n  D o ğ r a m a c ı:** Müalicəsi yaxşı oldu.

**Ə l i  D o ğ r a m a c ı:** Çox sağ olun. Sizin verdiyiniz mənəvi dəstək sağalmağım üçün mənə qüvvət verdi. Təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Çox sağ olun.

Əziz dostum, mən sənə və Ayser xanıma və bütün ailənizə bir daha təşəkkür edirəm. Bəzi adamlar doğum gününü böyük hadisə hesab edirlər. Amma mən bunu adi bir hadisə hesab edirəm. Mən burada kiməsə dedim ki, mənim bir dəfə doğum günüm olubdur, Naxçıvanda. Orada biz çox ağır şəraitdə yaşayırdıq.

**İ h s a n  D o ğ r a m a c ı:** Siz doğum günü deyirsiniz, biz isə anadan olma günü deyirik. Anadoluda doğum günü deyirlər.

**H e y d ə r  Ə l i y e v:** Keçmişdə, mən 50, 55, 60 yaşlarında olanda, səhər işə gedirdim, unudurdum ki, mənim anadan olan günümdür. İşdən hər dəfə evə dönəndə xanımım, qızım məni qarşılayırdılar. Qapını açırdılar, qızım deyirdi ki, ata, səni təbrik edirəm.

**İ h s a n  D o ğ r a m a c ı:** Ad günündür.

**H e y d ə r  Ə l i y e v:** Yox, demirdi ad günündür, deyirdi təbrik edirəm. Deyirdim, nə üçün təbrik edirsən? O mənə deyirdi ki, bu gün sənin anadan olan günündür. Görürdüm ki, evdə xanımım müəyyən şeylər hazırlayıbdır. Mən heç bir qonaq, filan dəvət etməzdim. Amma həyatımda bir dəfə anadan olduğum günü qeyd etmişəm. O da Naxçıvanda. Biz orada çox ağır şəraitdə yaşayırdıq. Mənim də 70 yaşım tamam olmuşdu. Orada mənim ətrafımda olan adamlar dedilər ki, gəlin bunu bir yerdə oturub qeyd edək. Dedim ki, məndə belə bir adət olmayıbdır, etməyəcəyəm. Dedilər ki, sən böyük vəzifələrdə olmusan, ona görə də olmayıbdır. Amma indi burada sadə adamlar toplaşıbdır. Toplaşdıq, ondan bir gün öncə Bakıdan da çox adam gəlmişdi.

**İ h s a n  D o ğ r a m a c ı:** Naxçıvana?

**H e y d ə r  Ə l i y e v:** Naxçıvana, məni təbrik etməyə. Məcbur oldum. Onda bir məclis düzəltdilər, Naxçıvanda da bir-iki yaxşı müğənni, mahnı oxuyanlar vardı. Naxçıvanın da özünəməxsus musiqisi var. Amma bundan başqa heç bir şey olmayıbdır. Yəni bununla onu demək istəyirəm ki, bu mənim üçün böyük bir təntənə, filan deyildi. Amma Siz oradan buraya gəlməyinizlə məni şərəfləndirdiniz. Çox sağ olun, təşəkkür edirəm.

Mən Sizə demişəm, 85 yaşınızı bayram etdik.

**İ h s a n  D o ğ r a m a c ı:** İndi 90 yaşımı gözləyirik.

**H e y d ə r  Ə l i y e v:** İndi 90-ı gözləyirsiniz? 4 il qalıbdır. 4 ildən sonra Azərbaycanda, yenə də...

**İ h s a n  D o ğ r a m a c ı:** Yenə də Siz prezidentsiniz.

**H e y d ə r  Ə l i y e v:** Bəli, mən prezidentəm. Əlbəttə ki, mən ömrümün axırına qədər prezidentəm.

**İ h s a n  D o ğ r a m a c ı:** Sizin sağlığınız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

**H e y d ə r  Ə l i y e v:** Ona görə də siz nə qədər yaşayacaqsınızsa, mən də o qədər yaşayacağam.

**İ h s a n  D o ğ r a m a c ı:** Həyatda daim nikbin olmaq əsas şərtdir.

**H e y d ə r  Ə l i y e v:** Elədir.

**İ h s a n  D o ğ r a m a c ı:** Mən bütün həyatım boyu nikbin olmuşam.

**H e y d ə r  Ə l i y e v:** Mən də nikbinəm. Baxmayaraq ki, mən həyatda, bilirsiniz, çox çətin yollardan keçmişəm, amma həmişə nikbin olmuşam. Heç vaxt ruhdan düşməmişəm. Ona görə dörd ildən sonra Azərbaycanda yubiley keçirərik. Ondan sonra da o biri yubileyi keçirəcəyik.

**İ h s a n  D o ğ r a m a c ı:** İnşallah.

**DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ KEÇİRİLMƏSİ HAQQINDA**

Bu il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə – Azərbaycanın dövlət müstəqilliyinin 10 illik yubileyi geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr edilən tədbirlər planı təsdiq olunmuş və onun həyata keçirilməsi üçün ölkəmizin bütün guşələrində əməli işlər aparılır. Azərbaycanın onillik müstəqil inkişaf yolunun təhlilinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilir, bu müddət ərzində əldə olunmuş nailiyyətləri əks etdirən sərgilər, kinofilmlər nümayiş etdirilir, çap məmulatı hazırlanır, müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərə baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət – on il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan vermişdir. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycanda artıq sosial-iqtisadi inkişafın yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Müstəqil dövlət kimi, Azərbaycan bütün dünyada tanınır və Dünya Birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinliklə və böyük inamla baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bütün dünya azərbaycanlılarının əcdadlarının məskəni, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq, dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədi ilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-cı illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr – Dünya Azərbaycanlıların Həmrəyilk günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onların arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını gündən-günə möhkəmləndirir. Azərbaycan icmalarının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görürlər. Bu qurumlar bir-biri ilə, habelə Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələr yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Müstəqil Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolda bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili

göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurla yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq **qərara alıram:**

1. 2001-ci il noyabrın 9–10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirilsin.
2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2001-ci il*

**MONQOLUSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NATSAGİYN BAQABANDİYƏ**

Hörmətli cənab Prezident!

Monqolustanın prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Monqolustan arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2001-ci il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Hörmətli Eduard Amvrosiyeviç!

Milli bayram – Dövlət müstəqilliyinin bərpa olunması günü münasibətilə Sizi və dost Gürcüstan xalqını ürəkdən təbrik edirəm.

Xalqlarımızın çoxəsrlik dostluğu bu gün Azərbaycanla Gürcüstan arasında hərtərəfli əməkdaşlığın inkişafı üçün möhkəm təməldir. Əminəm ki, ikitərəfli əlaqələrimiz, qarşılıqlı anlaşmamız və strateji tərəfdaşlığımız ölkələrimizin çiçəklənməsi, Qafqazda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət və dövlət fəaliyyətinizdə uğurlar, qardaş Gürcüstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2001-ci il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FERNANDO DE LA RUAYA**

Hörmətli cənab Prezident!

Argentina Respublikasının milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizi və dost Argentina xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2001-ci il*

**İORDANİYA HAŞİMİLƏR MƏMLƏKƏTİNİN MƏLİKİ ƏLAHƏZRƏT II ABDULLAYA**

Əlahəzrət!

İordaniya Haşimilər məmləkətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost İordaniya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə İordaniya arasında yaranmış möhkəm dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsinə xüsusi əhəmiyyət verirəm. Əminəm ki, ikitərəfli əlaqələrimiz bundan sonra da xalqlarımızın mənafeyi naminə möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2001-ci il*

## 28 MAY – RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Respublika sarayı*

*26 may 2001-ci il*

Əziz həmvətənlər!
Əziz bacılar və qardaşlar!
Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycanın milli bayramı – İstiqlaliyyət, Respublika günü münasibətilə təbrik edirəm və bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

28 May günü Azərbaycan xalqı üçün əziz gündür. Çünki 1918-ci ildə məhz 28 Mayda Azərbaycanın qabaqcıl insanları Azərbaycanın müstəqilliyi haqqında istiqlal bəyannaməsini qəbul ediblər və ondan sonra da Azərbaycan Xalq Cümhuriyyəti qurulubdur.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında tarixi bir hadisədir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, o dövrdə Azərbaycanın öz istiqlaliyyətini bəyan etməsi heç də təsadüfi hadisə deyildi. Hələ XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərindən xalqımızın mütəfəkkir şəxsiyyətlərinin, qabaqcıl insanlarının fəaliyyəti nəticəsində Azərbaycanda milli oyanış, milli dirçəliş hissləri get-gedə artmışdı. Artıq XX əsrin əvvəllərindən, demək olar ki, xalqımız, onun qabaqcıl şəxsiyyətləri müstəqillik arzusu ilə yaşamışlar. 1917-ci ildə baş vermiş Oktyabr inqilabı, rus-çar imperatorluğunun dağılması və o zaman onun ərazisində müxtəlif proseslərin meydana çıxması Azərbaycanın istiqlaliyyətinin elan edilməsi və Xalq Cümhuriyyətinin yaradılması üçün şərait yaratdı.

İstiqlal bəyannaməsi 1918-ci il may ayının 28-də Tiflis şəhərində elan olundu. Xalq Cümhuriyyəti bir müddət Gəncədə, sonra da Azərbaycanın paytaxtı Bakıda fəaliyyət göstərdi. Az müddətdə, 23 ay ərzində çox işlər görüldü. Bu işlərin ən əsas məzmunu, mənası ondan ibarətdir ki, Azərbaycanda müstəqillik, azad yaşamaq və müstəqil dövlət kimi həyat sürmək fikirləri artıq geniş yayıldı.

23 aydan sonra Xalq Cümhuriyyəti süqut etdi. Bunun da tarixi səbəbləri vardır. O vaxt kommunist-bolşevik hakimiyyəti öz dövlətini qurub, eyni zamanda keçmiş çar Rusiyasının ərazisinin hamısını öz ideologiyası altına almaq və yeni bir böyük dövlət yaratmaq istəyirdi. Məhz ona görə də artıq Rusiyanın mərkəzində hakimiyyət yaranandan sonra, uzun illər Rusiyanın müstəmləkəçiliyi altında yaşamış xalqların da həyatında bu dəyişiklikləri etmək üçün güclü fəaliyyət göstərdi. Onlar Qafqaza hücum etdilər. Təbiidir ki, gənc, hələ tam möhkəmlənməmiş müstəqil Xalq Cümhuriyyəti belə bir ordunun hücumunun qarşısında durmaq imkanında deyildi.

Doğrudur, o vaxt burada başqa səbəblər də var idi. Xalq Cümhuriyyətinin daxilində lazımi birliyin olmaması, çəkişmələr və müxtəlif proseslər bu dövləti zəiflətdi.

Ancaq mən hesab edirəm ki, əgər o dövlət heç zəifləməsə də, o vaxt sovet hakimiyyətinin, kommunist ideologiyasının yayılmasının qarşısında dura bilməyəcəkdi.

Azərbaycanın XX əsrdə sonrakı 70 illik dövrü sovet hakimiyyəti dövrü olmuşdur.

Bu illər bizim xalqımız, millətimiz üçün, bir tərəfdən, faciələr, itkilər, məhrumiyyətlər illəri olmuş, eyni zamanda xalqımızın maariflənməsi, təhsil alması, inkişaf etməsi, Azərbaycanda böyük iqtisadi potensialın yaranması, xalqımızın dünya mənəvi dəyərlərinə qovuşması sahəsində müsbət rol oynamışdır. Doğrudur, biz müstəqil olmamışdıq. Ancaq bu həqiqəti də demək lazımdır ki, o vaxt kommunist ideologiyası dünyada və xüsusən Rusiyanın ərazisində böyük qüvvəyə malik olduğuna görə, insanların bir çoxu çar hakimiyyəti dövründə ağır şəraitdə yaşadığına görə yeni bir quruluş, sosialist quruluşu, kommunist quruluşu insanlar üçün müəyyən qədər cazibədar olmuşdur. Məhz buna görə də insanlar müxtəlif faciələrə, məhrumiyyətlərə dözmüş – təkcə Azərbaycanda yox, bütün keçmiş SSRİ məkanında – amma eyni zamanda, dediyim kimi, xeyli nailiyyətlər də əldə etmişdi. Beləliklə, əgər Azərbaycan özünün mütəfəkkir şəxsiyyətlərinin fəaliyyəti nəticəsində hələ əsrin əvvəlində dünyəvi dəyərlərə meyl göstərirdisə və dünyəvi dəyərlər artıq Azərbaycanda yayılırdısa, sonrakı illərdə bu proses daha da sürətlə getdi.

Məsələn, Azərbaycanda qadınlara azadlıq verilməsi, Azərbaycan qadınının çadranı atması böyük tarixi hadisə olmuşdur. Hansı quruluşun, hansı siyasi- iqtisadi sistemin daxilində olub-olmamasından asılı olmayaraq, bu, böyük tarixi hadisə idi. Yaxud da Azərbaycanın mədəniyyətinin yüksəlməsi və Azərbaycanın Avropanın ən qabaqcıl ölkələrinin yüksək dünyəvi mədəniyyəti səviyyəsinə çatması da bizim XX əsrdə əldə etdiyimiz nailiyyətdir.

Beləliklə, Azərbaycanda bu ziddiyyətli dövr – 70 il bir tərəfdən, insanlara fəlakət, faciələr, məhrumiyyətlər gətirib, ikinci tərəfdən də, xalqımızın inkişafı üçün şərait yaradıbdır. Məhz buna görə də XX əsrin sonunda

xalqımız, Azərbaycan Respublikası yüksək mədəniyyətə, ali təhsilə, kütləvi maarifə malik olan bir ölkə olmuşdur. Azərbaycan Respublikası güclü iqtisadi potensiala, yüksək intellektual potensiala malik bir ölkə olmuşdur. Ancaq insanlarda müstəqil, azad yaşamaq və dünyəvi dəyərlərdən biri olan demokratiya şəraitində yaşamaq əhval-ruhiyyəsi get-gedə artmağa başlamışdı.

XX əsrin sonunda dünyada və Sovetlər İttifaqında gedən ictimai-siyasi, iqtisadi proseslər nəticəsində SSRİ dağılmış və bunun nəticəsində də Azərbaycan SSRİ-yə daxil olmuş bütün başqa müttəfiq respublikalarla eyni vaxtda müstəqillik əldə etmək şəraitinə malik olmuş və öz dövlət müstəqilliyini elan etmişdir.

Doğrudur, o illər, məsələn, mən 1990-cı ilin əvvəllərini götürürəm – xalqımızın arasında müstəqillik arzusu ilə yaşayanlar da çox idi. Amma bunu anlamayanlar və elə SSRİ tərkibində yaşamaq istəyənlər ondan da çox idi. 1991-ci ilin mart ayında Azərbaycan Ali Sovetinin sessiyasında gedən müzakirə mənim xatirimə gəlir. Müzakirə ondan ibarət idi ki, o vaxt SSRİ rəhbərliyi artıq SSRİ-nin dağılmasını müşahidə edərək, müxtəlif cəhdlərlə onu qoruyub saxlamağa çalışırdı və buna nail olmaq üçün SSRİ-nin saxlanılması haqqında mart ayında referendum keçirmək qərara alınmışdı. Bu referendumu da keçirmək üçün hər bir müttəfiq respublika öz fikrini bildirməli, öz qərarını verməli idi. 1991-ci ilin mart ayının 7-də Azərbaycanın Ali Soveti bu məsələni müzakirə etdi. Təsəvvür edin, bu qızğın müzakirədən sonra səsvermədə 350 deputatdan yalnız 45-i və yaxud 46-sı referendumdan imtina etmək və müstəqillik elan etmək haqqında öz fikirlərini bildirdi. Böyük hissəsi, demək olar ki, 300-ə qədər deputat SSRİ-nin saxlanmasına səs verdi. Nə qədər təəccüblü olsa da, bu da həqiqətdir.

Beləliklə, 1918-ci ildə ilk dəfə Azərbaycanda müstəqilliyin elan edilməsi və müstəqil yaşamaq üçün Xalq Cümhuriyyətinin qurulması çox ağır və çətin bir şəraitdə keçmişdir.

Azərbaycanın istiqlaliyyətini elan edənlər, Xalq Cümhuriyyətini qurub-yaradanlar və ona sona qədər sadiq olan insanlar Azərbaycanın ən mötəbər, ən görkəmli insanlarıdır. Xalq Cümhuriyyətinin rəhbərləri Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, onların silahdaşları və o illərdə müstəqillik uğrunda mübarizə aparan və hakimiyyət orqanlarında fəaliyyət göstərən insanlar Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacaqlar. Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar.

Ancaq bundan fərqli olaraq, 1991-ci ildə, demək olar ki, Azərbaycan üçün dövlət müstəqilliyi tabaqda gətirilib Azərbaycan rəhbərliyinin qarşısına qoyulduğu halda, hələ fikirləşirdilər ki, biz müstəqil dövlət olmalıyıq, ya olmamalıyıq. Ancaq tarix bunların hamısına cavab verdi. SSRİ dağıldı və onun dağılması tarixi zəruriyyətdən irəli gələn hadisə idi. SSRİ-nin dağılması nəticəsində Azərbaycan da öz müstəqilliyini elan etdi. Baxmayaraq ki, bu müstəqilliyə meyli olmayan, yaxud onu istəməyən adamlar nə qədər müqavimət göstərsələr də, heç bir şeyə nail ola bilmədilər.

1991-ci il oktyabrın 18-də Azərbaycanın Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi. Bu tarix Azərbaycanın müstəqilliyinin başlanğıcı günü oldu. Baxmayaraq, Azərbaycanda hələ bəziləri gözləyirdilər ki, bəlkə də SSRİ yaşayacaq. Bunu deməyə mənim əsasım vardır. Çünki əgər oktyabr ayının 18-dən müstəqillik haqqında Konstitusiya aktı qəbul olundusa, demək, dərhal referendum keçirmək lazım idi. Referendum yalnız 1991-ci il dekabr ayının 29-na təyin olundu. Ancaq dekabrın 29-da artıq SSRİ yox idi. SSRİ-nin rəhbərliyi və onun o vaxtkı prezidenti Mixail Qorbaçov həmin dövrdə artıq istefa vermişdilər və SSRİ dağılmışdı.

Mən bununla onu demək istəyirəm ki, xalqımız əsrin əvvəlindən öz qabaqcıl, mütəfəkkir şəxsiyyətlərinin simasında özünə milli azadlıq, müstəqillik qazanmaq arzusunda olmuşdur. Ancaq təəssüflər olsun ki, sonrakı dövrdə sovet hakimiyyətindən bəhrələnən və xalqının gələcəyi haqqında düşünə bilməyən insanlar isə 1991-ci ildə belə bir fürsət yarandığı zaman bundan nəinki istifadə etməmişdilər, hətta istifadə etməkdən imtina etmişdilər. Ancaq tarixin gedişatı, proseslər elə sürətlə hərəkət edirdi ki, artıq heç kəs onun qarşısını ala bilməzdi. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, əsrin sonunda bütün çətinliklərə, maneələrə baxmayaraq Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi.

Bu il Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinin 10-cu ildönümüdür. Oktyabr ayında biz bu tarixi hadisənin onilliyini layiqincə qeyd edəcəyik. Mən bu barədə xüsusi fərman vermişəm. Müxtəlif tədbirlər planı hazırlanıb və biz onillik yubileyi qeyd etmək üçün ciddi hazırlaşmalıyıq və onunla bir daha nümayiş etdirməliyik ki, bütün çətinliklərə baxmayaraq, Azərbaycan xalqı 10 il müstəqil yaşayıb və bundan sonra da daim müstəqil yaşayacaqdır.

Bizim xalqımızın aqibəti tarixin bir çox mərhələlərində çox ağır və çətin olubdur. Bu baxımdan Azərbaycan öz dövlət müstəqilliyini əldə etdiyi zaman çox ağır bir dövr yaşayırdı. Çünki 1988-ci ildən Ermənistanın Azərbaycana torpaq iddiası ilə başlanmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizdə ağır vəziyyət yaratmışdı. Müharibə gedirdi. Dağlıq Qarabağda Azərbaycan dövlətinin hakimiyyəti artıq yox idi. Dağlıq Qarabağın ətrafında da bəzi bölgələr işğal edilmişdi. Belə bir dövrdə, təbiidir ki, xalqımız gərək öz gücünü iki istiqamətdə səfərbər edəydi. Birincisi, Ermənistanın təcavüzündən xilas olmaq, torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü saxlamaq, ikincisi isə, eyni zamanda müstəqilliyi möhkəmləndirmək idi. Ancaq təəssüflər olsun ki, o illər hər iki istiqamətdə nailiyyət olmadı, əksinə, biz çox mənfi və

Azərbaycana böyük zərbələr vurmuş hadisələrlə rastlaşdıq. Ermənistanın təcavüzünün qarşısını almaq üçün xalqı birləşdirmək lazım idi.

Doğrudur, o vaxt Azərbaycanın mütəşəkkil ordusu yox idi. Ancaq vətənpərvər insanlar torpaqlarımızı, Azərbaycanın ərazisini qorumaq əzmi ilə yaşayırdılar. Bundan səmərəli istifadə etmək lazım idi. Ancaq edilmədi. Edilmədi ona görə ki, o vaxt Azərbaycanda müxtəlif dəstələr, qruplar, o cümlədən hakimiyyətdə olan şəxslər öz hakimiyyətlərini qoruyub saxlamaq, digərləri isə belə bir fürsətdən istifadə edib hakimiyyətə gəlmək uğrunda mübarizə aparırdılar. Ona görə də müxtəlif qüvvələrə xidmət edən ayrı-ayrı silahlı dəstələrin hamısı cəmləşib Azərbaycan torpaqlarının qorunmasına səfərbər olunmaq əvəzinə, onların hərəsi öz qüvvəsinə xidmət edirdi və bundan da Ermənistan təcavüzkarları çox məharətlə istifadə etmişdilər.

O illərdə şiddətli döyüşlər getmişdir. 1994-cü ilin may ayında atəşkəs elan edilənə qədər Azərbaycanın qəhrəman, cəsur övladları torpaqlarımızı, vətənimizi qorumaq yolunda döyüşmüş, qan tökmüş, həlak olmuş, şəhid olmuşlar. Biz bu gün Azərbaycanın dövlət müstəqilliyini bayram edərkən respublikamızın ərazi bütövlüyü, ölkəmizin müstəqilliyi uğrunda döyüşmüş, şəhid olmuş insanları yad etməliyik. Xahiş edirəm, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmək üçün ayağa qalxasınız. Allah onlara rəhmət eləsin!

Azərbaycanın on illik müstəqillik dövrü də bir neçə mərhələdən ibarətdir. Deyə bilərəm ki, keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar və bizimlə eyni vaxtda müstəqillik əldə etmiş respublikaların əksəriyyətindən fərqli olaraq, Azərbaycan öz dövlət müstəqilliyini ağır bir şəraitdə bəyan etdi və müstəqil dövlət kimi yaşamağa başladı.

Qeyd etdim ki, bunun iki səbəbi vardı. Birincisi, Ermənistanın Azərbaycana təcavüzü və ona lazımi cavab verilməməsi, Azərbaycanın torpaqlarının bir qisminin işğal olunması, ikincisi də, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyin pozulması və müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi idi. Bunlar müstəqilliyin ilk illərində nəinki müstəqilliyi möhkəmləndirmək, inkişaf etdirmək işinə xidmət etmirdi, əksinə, Azərbaycanın, gənc müstəqil dövlətin müstəqilliyini itirməsinə şərait yaradırdı, insanların arzusunu, yəni müstəqil dövlətdə yaşayıb əvvəlki illərə nisbətən daha da yaxşı yaşamaq arzusunu təmin edə bilmirdi. Bunların hamısı Azərbaycanı böyük fəlakətlərə gətirdi. O illər Azərbaycanda hakimiyyət mübarizəsi o qədər sürətlə gedirdi ki, 1988-ci ildən 1993-cü ilə qədər Azərbaycanda 5-6 dəfə hakimiyyət dəyişikliyi baş verdi.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlandı. Ölkəmiz parçalanmaq təhlükəsi qarşısında qaldı. Respublikamızın həyatı tamamilə ağırlaşdı. Ona görə də müstəqillik elan ediləndən 1993-cü ilə qədər, demək olar ki, Azərbaycanı müstəqil bir dövlət kimi təşkil etmək, onun təsisatlarını yaratmaq və müstəqillikdən bəhrələnmək imkanları olmamışdır. Ondan sonrakı dövrdə isə yenə də biz çətin bir zaman yaşadıq. 1993-cü ildə başlanmış vətəndaş müharibəsinin, Azərbaycanın parçalanması təhlükəsinin qarşısını almaq – vaxt keçdikcə insanlar bəlkə də bunu unudurlar – asan məsələ deyildi. Amma biz o hadisələrin, təhlükələrin qarşısını aldıq və Azərbaycanın daxilində tədricən ictimai-siyasi sabitlik yaratmağa başladıq. Beləliklə də müstəqil dövlətin dövlət təsisatlarını yaratmağa başladıq.

Ancaq yenə də bizə bunu etməyə imkan vermirdilər. 1994-cü ilin oktyabr ayında Azərbaycanda hakimiyyətə qarşı silahlı dövlət çevrilişi cəhdi xatirinizdədir. Xalqın birliyi, xalqın iradəsi həmin o təhlükəli hadisənin qarşısını aldı və Azərbaycanın müstəqil dövlət kimi yaşamasına imkan verdi.

Ümumiyyətlə, Azərbaycan o illərdə nəinki daxildə müxtəlif qüvvələrin hakimiyyət mübarizəsindən zərbələr alırdı, eyni zamanda Azərbaycanın xaricində də ölkəmizin müstəqilliyini istəməyənlər, respublikamızın müstəqil bir dövlət kimi gələcəkdə böyük imkanlara malik olacağını görənlər ölkəmizə müxtəlif tərəflərdən zərbələr vururdular. Ona görə də daxildəki dağıdıcı qüvvələr, eyni zamanda xaricdən Azərbaycanı dağıtmaq, parçalamaq və respublikamızdan istifadə etmək məqsədi daşıyan qüvvələr birlikdə Azərbaycanda bu gərgin vəziyyəti yaradırdılar.

Bəli, 1994-cü ilin oktyabr hadisələrində biz məhz belə halla rastlaşdıq. Ondan az sonra, 1995-ci ilin mart hadisələrində çox güclü, keçmiş OMON şəxsi heyətinin hakimiyyət uğrunda mübarizə aparması və bir çox siyasi partiyalarla və xarici kəşfiyyat orqanları ilə əlaqə qurması Azərbaycanı böyük təhlükə altında qoymuşdu. Biz onun da qarşısını aldıq. Ondan sonrakı bir neçə təxribat, terror halları da, təbiidir ki, Azərbaycan hakimiyyətini, dövlətini sarsıtmaq və artıq Azərbaycanda yaranmış daxili ictimai-siyasi sabitliyi pozmaq məqsədi daşıyırdı. Biz bunların da qarşısını aldıq.

Beləliklə, əgər biz artıq bu ilin sonunda Azərbaycanın dövlət müstəqilliyinin onillik yubileyini qeyd edəcəyiksə, bunu iki dövrə bölmək lazımdır. Birinci dövr – müstəqillik elan edildikdən sonra 1995–1996-cı ilə qədər Azərbaycanda müstəqilliyi qoruyub saxlamaq və həm daxildən, həm də xaricdən müstəqilliyə qarşı edilən bütün cəhdlərin, təxribatların qarşısını almaq dövrüdür. İkinci dövr isə, bunların qarşısını alaraq Azərbaycanda ictimai-siyasi sabitlik yaradıb müstəqil dövlətin qarşısında duran vəzifələri sürətlə həyata keçirməkdən ibarət olmuşdur.

Beləliklə, biz on illik müstəqilliyimizdə, demək olar ki, beş ili itirdik. Amma itirsək də, əsas nailiyyətimiz odur ki, biz bütün çətinliklərdən keçərək, bütün zərbələrin qarşısını alaraq müstəqilliyimizi qoruduq, saxladıq və yaşadırıq.

Mən dedim, 1991-ci ildə müstəqilliyi elan etmək çətin bir məsələ deyildi. Çünki bu, tarixi zərurətdən irəli gəlmiş bir hadisə idi. SSRİ dağılırdı, istəsən də, istəməsən də sən öz respublikanın aqibətini müəyyən etməli idin. Burada da müstəqillikdən savayı başqa yol yox idi. Amma bu müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi.

Eləcə də 1918-ci ildə. Yaranmış tarixi şərait nəticəsində Azərbaycanda ilk Xalq Cümhuriyyəti yaradıb, ölkəmiz öz dövlət müstəqilliyini elan etdi. Bu, böyük tarixi hadisə idi. Ancaq o, müstəqilliyi sona qədər saxlaya bilmədi. Artıq dedim, o vaxtkı başqa gücə malik olan yeni qurulan sovet hakimiyyəti buna imkan vermədi. Əgər paralel olaraq götürsək, 1991-ci ildə tarixi zəruriyyətdən meydana gələn müstəqillik də Azərbaycan xalqı üçün ən böyük tarixi bir hadisə idi. Ancaq bu müstəqilliyi qorumaq, saxlamaq, yaşatmaq və indi artıq on il müstəqillik şəraitində yaşamaq ondan qat-qat, heç müqayisə edilməyəcək dərəcədə çətin bir şeydir.

Biz bütün bu çətinliklərdən keçdik, bütün bu maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq.

Bizim müstəqil dövlətimizin təsisatlarını qurmaq işi 1994–1995-ci illərdən başlayıbdır. Bilirsiniz ki, 1995-ci ildə biz ilk demokratik Konstitusiya qəbul etdik, Milli Məclisə demokratik şəraitdə seçkilər keçirdik. Müstəqil dövlətimizin, ölkəmizin dövlət quruculuğu prosesinə başladıq. Bizim dövlət quruculuğu prosesinin yolu məlumdur – Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurmaqdır. Biz əvvəldən bu yolu tutmuşuq və bu yolla ardıcıl olaraq gedirik və gedəcəyik. Əgər bunu vaxtında biz bəyan edirdiksə, elan edirdiksə, hesab edirəm ki, bunun özü xalqımızın mənafeyinə cavab verən bir hadisə idi. Ancaq indi biz bu bəyanatlarımızı yerinə yetirdiksə və bütün çətinliklərə baxmayaraq nailiyyətlər əldə ediriksə, artıq hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi gedir və bu dövlət yaranıb, qurulubdur. Təbiidir ki, bu bizim 5, 6, 7 il bundan öncə etdiyimiz bəyanatdan daha da qiymətlidir, yəni əsasdır.

Bu illər çox iş görülübdür. Görülən işlərin hamısı Azərbaycanda məhz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu konsepsiyası çərçivəsində görülür və bundan sonra da görüləcəkdir. Biz bunun üçün müxtəlif sahələrdə, demək olar ki, həyatımızın bütün sahələrində lazım olan islahatlar keçiririk, bunlar üçün lazım olan qanunlar, məcəllələr qəbul olunubdur. Artıq biz o qədər qanunlar, tarixi əhəmiyyətə malik olan məcəllələr qəbul etmişik ki, indi onlar Azərbaycanda dövlət quruculuğunu bütün sahələrdə təmin etmək üçün əsas yaradıbdır.

Bizim islahatlarımız, dediyim kimi, bütün sahələrdə gedir. təbiidir ki, biz birinci növbədə iqtisadiyyatda dəyişikliklər etməli idik, yəni iqtisadiyyatın vəziyyətini düzəltməli idik. Çünki iqtisadiyyat hər şeyin əsasıdır. Azərbaycan dövlət müstəqilliyi əldə edən zaman çox güclü iqtisadi potensiala malik bir ölkə olmuşdur. O vaxtlar SSRİ-yə daxil olan 15 müttəfiq respublikanın içərisində yalnız Azərbaycan və Rusiya özü-özünü təmin etməyə qadir olan respublikalar idilər. Ancaq təəssüflər olsun ki, 1988–1989-cu illərdən başlayaraq Azərbaycan-da gedən dağıdıcılıq prosesi ölkəmizin iqtisadiyyatına böyük zərbələr vurmuşdu. Artıq ölkəmiz öz dövlət müstəqilliyini əldə edən zaman və ondan sonrakı illərdə Azərbaycanın iqtisadiyyatı nəinki inkişaf etməyib, ilbəil aşağı düşübdür, tənəzzülə uğrayıbdır. Ona görə biz bu tənəzzülün qarşısını almalı idik. Bu da asan məsələ deyildi. Çünki çox şey dağılmışdı. Biz yalnız 1995-ci ildə iqtisadiyyatda tənəzzülün qarşısını aldıq. 1996-cı ildən Azərbaycanda iqtisadiyyatın inkişafını təmin etməyə başladıq.

Mən bu gün böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycanın iqtisadiyyatı bütün sahələrdə ildən-ilə inkişaf edir və yaranmış əsas gələcək inkişaf üçün böyük zəmindir.

Təbiidir ki, bunları həyata keçirmək üçün həm böyük təşkilati işlər görmək, həm də ki, iqtisadi islahatlar aparmaq lazım idi. Biz bunları etdik. Torpaq islahatının keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, özəlləşdirmə proqramının yerinə yetirilməsi və sahibkarlığa imkan yaradılması, nəhayət, torpaq almış sahibkarlara, kəndlilərə o torpaqdan istifadə etmək üçün maksimum imkanlar yaradılması – bunların hamısı iqtisadiyyatın tədricən inkişafını təmin etdi.

Bir neçə rəqəmi sizin nəzərinizə çatdırmaq istəyirəm ki, mənim dediyim bu sözlər konkret rəqəmlərlə təsdiq olunsun.

1991–1994-cü illərdə Azərbaycanda ümumi daxili məhsul – bu, iqtisadiyyatın əsas göstəricisidir – ildə orta hesabla 20–25 faiz azalırdısa, gördüyümüz işlər nəticəsində 1996-cı ildən 2000-ci ilə qədər 39 faiz artmışdır. Təsəvvür edin, biz bu tənəzzülün qarşısını aldıq, iqtisadiyyatda sabitlik yaratdıq, sonra ildən-ilə onun inkişafını təmin etdik və cəmi 5 il ərzində ümumi daxili məhsul 39 faiz artdı. İqtisadiyyatı bilən adamlar yaxşı dərk edə bilirlər ki, bu, nə deməkdir.

Azərbaycanın böyük sənaye potensialı vardı. Təəssüflər olsun ki, onun çox hissəsi dağıdılıbdır. Bəziləri Sovet İttifaqının dağılması ilə əlaqədar ayrı-ayrı müəssisələrin keçmiş SSRİ-nin başqa regionları ilə inteqrasiya əlaqələrinin pozulması ilə bağlıdırsa, çox hissəsi isə, sadəcə, bu müəssisələrin başlı-başına buraxılması və onların imkanlarından səmərəli istifadə edilməməsi ilə bağlıdır. Mən yenə də bunu rəqəmlərlə təsdiq etmək istəyirəm. 1991–1994-cü illərdə sənaye məhsulunun istehsalı orta hesabla 20–24 faiz azalırdı. Biz bunun qarşısını aldıq. 1996-cı ildə tənəzzülü dayandırdıq, sənaye istehsalında sabitlik yaratdıq. 1996-cı ildən 2000-ci

ilə qədər Azərbaycanda sənaye istehsalı 13,4 faiz artmışdı. Bilirsinizmi, bu bizim şəraitimizdə çox dəyərli göstəricidir.

İqtisadiyyatın böyük bir hissəsi kənd təsərrüfatı sahəsidir. Bu, keçmişdə də belə olubdur, bu gün də belədir və yəqin ki, hələ gələcəkdə də belə olacaq, bu nisbət davam edəcəkdir. Çünki Azərbaycan əhalisinin, demək olar ki, 50 faizi, ola bilər, ondan bir qədər az hissəsi kənd yerlərində yaşayır, kənd təsərrüfatı ilə məşğuldur.

1991–1994-cü illərdə kənd təsərrüfatı məhsullarının istehsalı hər il orta hesabla 15–20 faiz azalmışdır. Biz bunun qarşısını aldıq .

1996–2000-ci illərdə isə, tənəzzülün qarşısı alındıqdan sonra kənd təsərrüfatı istehsalı ildən-ilə artmağa başladı və bu illərdə, artıq beş il içərisində ümumi artım 19 faiz təşkil edir. Bu, 1995–1996-cı illərdən başlayaraq Azərbaycanda torpaq islahatının həyata keçirilməsinin bilavasitə nəticəsidir. Onu da deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan keçmiş SSRİ respublikalarının bəzilərində, bəlkə də çoxunda hələ indiyə qədər torpaq islahatını həyata keçirə bilməyiblər. Biz 1300 kolxoz və sovxoz dağıtdıq. Amma bəzi respublikalarda kolxoz da, sovxoz da, ümumi mülkiyyət də – hamısı yaşayır. Biz çox cəsarətli addımlar atdıq. Ancaq biz həmin rəqəmlərə təkcə bununla nail olmadıq. Biz torpaq sahiblərinə yardımlar etdik. Nəhayət, iki il bundan öncə, kənd təsərrüfatı istehsalı ilə əlaqədar kənd sahibkarlarını, yəni torpaq sahiblərini, istehsalçıları torpaq vergisindən savayı, bütün başqa vergilərdən azad etdik.

Bilirsinizmi, bu, asan məsələ deyildir. Ancaq bu cəsarətli addımı ataraq biz o məqsədi güdürdük ki, kəndliyə imkan verək, aldığı torpağı istifadə edə bilsin. Əgər o, torpaqdan hələ təkbaşına istifadə etməyə çətinlik çəkirsə, bir tərəfdən, traktor tapa bilmirsə, başqa maşın tapa bilmirsə, bir yandan da vergi verməlidirsə – onda bunun işinin istənilən nəticəsi olmayacaqdır. Ona görə də biz bu vergilərin hamısını ləğv etdik.

Kənd təsərrüfatında çalışan vətəndaşlarımız bilsinlər ki, biz bundan sonra da fermerlərə, kənd təsərrüfatı ilə məşğul olan torpaq sahiblərinin hamısına əlavə yardımlar edəcəyik.

Kənd təsərrüfatımızın bütün sahələrində artım vardır. Mən bunu dəfələrlə demişəm. Bu salonda oturanların çoxunun yəqin ki, xatirindədir, o cümlədən mənim də. Mən Azərbaycana rəhbərlik etdiyim zaman 1980-1981-1982-ci illərdə əhaliyə əti, yağı talonlarla verirdilər. Nə üçün? Çünki biz bir çox məhsullar – pambıq, üzüm və sair istehsal edib SSRİ-yə göndərirdik. Onda SSRİ-də ümumi ixtisaslaşma getmişdi. Bizə isə Ukraynadan, Belarusiyadan heyvandarlıq məhsulları – ət, yağ, süd, başqa məhsullar göndərilməli idi. İstənilən qədər göndərilmirdi, şəxsi təsərrüfat da yox idi. İnsanların şəxsi mal-qarası da, təbiidir ki, Azərbaycanın bütün əhalisini təmin edə bilməzdi. Ona görə də belə bir şəraitdə yaşayırdıq. Amma indi mal-qara artıb, Azərbaycanda ətin qiyməti ucuzdur – təbii ki, başqa yerlərə nisbətən. Artıq bizim haradansa heyvandarlıq məhsulları gətirməyə ehtiyacımız yoxdur.

Biz islahatlar apararaq iqtisadiyyatın bütün sahələrində liberallaşdırma prosesinə xüsusi fikir vermişik. Bu bizim islahatlarımızın əsasını təşkil edibdir. Məhz buna görə də yaxşı nəticələr əldə edə bilmişik. Məsələn, xarici ticarət dövriyyəsi 1993-cü ildə 1 milyard 300 milyon dollar, 1994-cü ildə 1 milyard 400 milyon dollar idi. 2000-ci ildə isə 2 milyard 900 milyon dollara çatmışdır. Təsəvvür edin, 1993-cü ildə 1 milyard 300 milyon dollar, 2000-ci ildə isə 2 milyard 900 milyon dollar, yəni təxminən 3 milyard dollar. Çox əhəmiyyətli bir məsələni də qeyd etmək istəyirəm. Keçən il Azərbaycanın xarici ticarət dövriyyəsində ilk dəfə ixrac idxaldan çox olmuşdur. Yəni artıq Azərbaycanda daxili istehsal onun dünya bazarına çıxarılmasına imkan verir və eyni zamanda daxili istehsal həm ölkəni təmin edir, həm də başqa ölkələrin bazarlarına çıxarılmasını təmin edir. Ona görə də idxala, yəni xaricdən gələn mallara artıq əvvəlki kimi ehtiyac yoxdur.

Hesab edirəm ki, bizim iqtisadiyyatdakı nailiyyətlərimizin əsaslarından birini təşkil edən Azərbaycanın dövlət neft strategiyasıdır. Bilirsiniz ki, 1994-cü ildən başlayaraq biz Azərbaycanın dövlət neft strategiyasını hazırlayıb həyata keçirməyə başladıq. Bu gün mən iftixar hissi ilə, heç kəsdən çəkinmədən deyirəm ki, biz Azərbaycanın Xəzər dənizindəki sektorunda böyük təbii sərvətlərin–neft və qazın dünya üçün istifadə olunmasının əsasını qoyduq. Biz 1994-cü ildə ilk müqaviləni imzaladıq. Ondan sonrakı illərdə müqavilələr imzaladıq. İndi 21 müqavilə imzalanıbdır. Dünyanın 32 böyük neft şirkəti bu müqavilələrdə bizimlə birlikdə işləyir. Bunların hamısı birlikdə Azərbaycana 2000-ci ilə qədər 5,8–6 milyard dollar xarici investisiya gətirmişdir. Biz artıq birinci müqavilədən neft hasil edirik, mənfəət götürürük. Artıq Neft Fondu yaranıbdır. Neft Fondunda təxminən 360 milyon dollar vəsait vardır. Mən bütün Azərbaycan xalqına bildirmək istəyirəm ki, Neft Fondu prezidentin nəzarəti altındadır və bu fonddan hansı sahəyə nə xərclənəcəksə, onların hamısı şəffaf olacaq, bütün xalqa çatdırılacaqdır. Ancaq mənim məqsədim başqa sahələrdən gəlir götürüb bu Neft Fondunu – hansı ki, ilbəil artacaqdır – Azərbaycanın gələcək nəsilləri üçün saxlamaqdır.

İndi Azərbaycanın valyuta ehtiyatları 1 milyard dollara qədərdir. Ancaq 1994-cü ildə Azərbaycanın valyuta ehtiyatı 10 milyon dollar idi. Təsəvvür edin, 10 milyon dollar bir milyard dollara çatıbdır. Neçə dəfə artıbdır! Yüz dəfə. Qısa bir zamanda. Nəyin səbəbinə? Bizim apardığımız düzgün iqtisadi siyasətin nəticəsində və bununla yanaşı, Azərbaycanın sərvətlərinin və xüsusən valyutasının qorunub saxlanması və onun dağıdılmasına imkan verilməməsi nəticəsində olubdur.

Həm iqtisadiyyatımızın inkişafı üçün, həm xalqın rifah halının yaxşılaşdırılması üçün əsas amillərdən biri odur ki, biz inflyasiyanın qarşısını ala bildik. 1994-cü ildə Azərbaycanda inflyasiya 1600–1800 faiz idi. Bu o demək idi ki, Azərbaycan manatının qiyməti gündən-günə aşağı düşürdü və beləliklə, Azərbaycan vətəndaşının da aldığı maaş və yaxud da onun qazancı istədiyi qədər mallar almasına imkan vermirdi. Biz bunun qarşısını aldıq və inflyasiyanı ildən-ilə azaltdıq. Dedim ki, 1994-cü ildə inflyasiya 1600–1800 faiz olduğu halda, 1996-cı ildən başlayaraq onun qarşısı alınıbdır və hazırda onun səviyyəsi cəmi 2 faizdir. Bu illərdə bizdə heç bir iqtisadi böhran yoxdur.

Görürsünüzmü, dünyanın bəzi böyük ölkələrində iqtisadi böhran, inflyasiya – bunların hamısı insanların maddi, maliyyə vəziyyətinə çox güclü mənfi təsir göstərir. Amma biz bu məsələyə diqqət verdik, biz bunu qoruyuruq, saxlayırıq və beləliklə, 1996-cı ildən bəri artıq neçə ildir ki, Azərbaycanda inflyasiyanın qarşısı alınıbdır. Bu nə deməkdir? Demək, manatın dollara nisbətən dəyəri möhkəmlənib, istehlak mallarının qiyməti artmayıb və hətta azalıbdır. Vətəndaşlarımızın alıcılıq imkanları daha da çoxalıbdır.

İqtisadiyyatın bütün sahələrində – həm kənd təsərrüfatında, həm sənayedə, həm ticarətdə və başqa sahələrdə aparılan islahatlar artıq Azərbaycanda özəl sektorun inkişafını təmin edibdir. İndi Azərbaycanda ümumi daxili məhsul istehsalında özəl sektorun payı 68 faizdir. Sənaye məhsulunun 44 faizi özəl sektorda istehsal olunubdur. Kənd təsərrüfatı istehsalının 99 faizi, ticarətin 98 faizi, tikintinin 64 faizi, yükdaşımaların 54 faizi, sərnişin daşınmalarının 83 faizi özəl sektorun hesabınadır. Özəl sektor nə deməkdir? İnsanlar mülk sahibidirlər, onlar müxtəlif işlər görürlər, həm xalqa xidmət edirlər, həm Azərbaycanda istehsalı artırırlar, həm də özlərinin, onların ətrafında işləyən adamların rifah halını yaxşılaşdırırlar.

Azərbaycanda dövlət büdcəsi ilbəil artır. Məsələn, 1994-cü ildə Azərbaycan dövlət büdcəsi 682 milyard manat olubdur. 2001-ci ildə isə büdcəmiz 6,7 dəfə artıbdır. 1995–2000-ci illərdə dövlət büdcəsinin sosialyönümlü xərcləri 2,8 dəfə artmışdır. Bilirsiniz ki, büdcədən maliyyələşdirilən sahələrin işçilərinin hamısının maaşları son illər bir neçə dəfə artırılıb və mən sizə bəyan edirəm ki, bundan sonra da artırılacaqdır.

Azərbaycanda pensiyalar, maaşlar vaxtlı-vaxtında verilir. Amma Müstəqil Dövlətlər Birliyinə daxil olan bir çox ölkələrdə insanlar 10–15 ay maaş ala bilmirlər. Amma bizdə hər ayın axırında mənə məlumat verməlidirlər: pensiyalar təmin olundu, maaşlar verildi. Bəzən ayın axırına olmur, o biri aydan 10–15–20 gün keçəndə verilir. Bu olur. Amma bu, necə deyərlər, böyük bir bəla deyildir. Bəla odur ki, 15 ay işləyib maaş ala bilməyəsən. Özü də dövlətin mühüm sahələrində. Elə bizim Cənubi Qafqaz ölkələrində də vəziyyət belədir. Bir neçə başqa ölkələrdə belədir.

Orta aylıq əməkhaqqı artmışdır. Orta aylıq pensiyaların məbləği yüksəlmişdir. 1998-ci ildən başlayaraq mən köçkün vəziyyətində yaşayan insanlara çörək pulu müavinətini ilbəil artırıram. Bu, 3 il müddətində 3,5 dəfə artmışdır. Bu gün bəyan edirəm ki, bundan sonra da artacaqdır.

Bəlkə də bu təntənəli bayram günündə sizin beyninizi bu rəqəmlərlə yükləməyə ehtiyac yoxdur. Ancaq siz bunu bilməlisiniz. Real vəziyyəti bilməlisiniz. Hər şey müqayisə ilə qiymətləndirilir. Mən bunları deyərək, heç də Azərbaycanda hər şeyin çəhrayı rəngdə olduğunu bildirmək istəmirəm. Mən həmişə həqiqəti demişəm, indi də deyirəm və bundan sonra da həqiqəti deyəcəyəm.

Bu nailiyyətlərimizlə yanaşı, bizim bütün səviyyələrdə işlərimizdə nöqsanlar da çoxdur. Əldə etdiyimiz nailiyyətlər, həyata keçirdiyimiz islahatlar hələ ki, Azərbaycan əhalisinin hamısının rifah halını lazımi səviyyəyə qaldırmağa imkan verməyibdir. Azərbaycanda yoxsullar da az deyildir. Kasıbçılıq içərisində yaşayanlar da vardır.

Biz indi beynəlxalq təşkilatlarla birlikdə yoxsulluqla mübarizə haqqında proqram hazırlayırıq. Başqa proqramlar da hazırlayırıq. Ancaq mən əvvəldə dedim ki, biz müstəqilliyimizin 10 ilinin 5 ilini itirmişik, 5 ilində də bu nailiyyətləri əldə etmişik. Amma mən bunu kafi hesab etmirəm, bununla qane ola bilmirəm. Mən hesab edirəm ki, bizim hələ xalqımız qarşısında, Azərbaycanın vətəndaşları qarşısında borcumuz çoxdur. Borcumuz ondan ibarətdir ki, biz gərək Azərbaycan iqtisadiyyatının bütün imkanlarından istifadə edək, xalqın rifah halını daha da yüksəldək. Ağır maddi şəraitdə yaşayan insanların vəziyyətini normallaşdıraq. Bunların hamısını edəcəyik. Çünki birincisi, Azərbaycanın təbii sərvətlərinin və başqa iqtisadi potensialının böyük imkanları var. Bu imkanlardan biz səmərəli istifadə edəcəyik və Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edəcək və xalqın rifah halı yaxşılaşacaqdır. Bunu edəcəyik ona görə ki, mən, Azərbaycan prezidenti xalqın qarşısında məsuliyyətimi dərk edirəm. Mənim məqsədim, həyatımın mənası və məzmunu xalqa xidmət etmək və bu xidmətin əməli nəticələrinə nail olmaqdır.

Biz dövlət quruculuğunda, bir çox başqa sahələrdə də islahatlar keçirmişik. Onlar da bir tərəfdən, vətəndaşlarımızın azad, müstəqil yaşaması üçün imkanlar yaradıb, ikinci tərəfdən, bir çox bürokratik əngəllərin aradan qaldırılmasını təmin ediblər.

Bilirsiniz ki, Azərbaycanda demokratiya ardıcıl surətdə, get-gedə inkişaf edir. Azərbaycanda insanlara bütün azadlıqlar verilibdir. Vicdan azadlığı, söz azadlığı, din azadlığı — bütün azadlıqlar verilibdir. Hər bir vətəndaş sərbəstdir.

Azərbaycanda siyasi plüralizm təmin olunubdur. Ölkəmizdə mətbuat azadlığı, bəlkə də hər şeydən çoxdur. İndi desələr ki, Azərbaycanda ən çox şey nədir, mən cavab verə bilərəm ki, qəzetlər – gündən-günə artan qəzetlər və o qəzetlərin əksəriyyətində yazılan yalanlar, böhtanlar...

Bəzən insanlar keçmişi yada salaraq düşünürlər, niyə buna yol verilir? Heydər Əliyev buna nə üçün yol verir? Bəzən bizim rəhbər işçilər haqqında məqalə yazırlar – ədalətsiz, filan... Həmin adam mənim yanıma gəlir ki, baxın, bunu yazıblar, onu yazıblar, filan ediblər... Deyirəm, neçə dəfə sənin haqqında yazıblar? Deyir ki, 1-2-3 dəfə. Deyirəm, mənim haqqımda neçə dəfə yazıblar? Hər gün. Bu ədalətlidirmi? Ədalətli deyildir. Mən heç də demirəm ki, bizim hakimiyyət orqanlarında işləyən adamların qüsuru yoxdur. Qüsurları var, bəzilərininki çoxdur. Biz indi Azərbaycanda struktur dəyişiklikləri aparırıq. Bu struktur dəyişiklikləri Azərbaycanda idarəetmə sisteminin təkmilləşdirilməsinə yönəldilibdir.

Biz indi Azərbaycanda bir çox nazirlikləri, komitələri və s. birləşdiririk. Bu, müəyyən ixtisara gətirib çıxaracaqdır. Bəzi adamların narazılığına səbəb olacaqdır. Ancaq nə etməli? Əgər bu narazılıq həmin o işini itirən adamlarda olacaqsa, o müxtəlif instansiyalarda bir-birini təkrarlayan təşkilatların bürokratik əngəllərindən isə daha çox insanlar əziyyət çəkir, zərər görür və təbiidir ki, narazı olur. İndi onlar da ixtisara görə narazı olacaqlar. Amma güman edirəm ki, bizim struktur dəyişiklikləri və dövləti idarəetmənin təkmilləşdirilməsi Azərbaycanın dövlət orqanlarında bürokratizmin, rüşvətxorluğun qarşısını alacaq, korrupsiya ilə mübarizəni gücləndirəcəkdir. Beləliklə, bu sahədə də biz dünya standartlarına yaxınlaşacağıq.

Azərbaycanda keçirilən hüquq islahatları çox böyük əhəmiyyət daşıyır. Məhkəmə sistemi, prokurorluq, polis, Daxili İşlər Nazirliyi, bütün başqa hüquq-mühafizə orqanları haqqında müvafiq qanunlar qəbul olunub və bu qanunların hamısı beynəlxalq standartlara uyğundur. Qəbul olunan hər bir belə qanun beynəlxalq təşkilatlar tərəfindən əvvəlcədən ekspertizadan keçirilir, onların fikri öyrənilir və nəhayət, biz bu qanunları qəbul edirik.

Qanunları qəbul etmişik. Bu, yaxşı əsas yaradıbdır. Ancaq indi lazımdır ki, bizim bütün hüquq-mühafizə orqanlarımız bu qanunları yerinə yetirsinlər, öz fəaliyyətlərini yalnız və yalnız qanun əsasında qursunlar. Qanunu pozmasınlar, əksinə, hamısı qanunun keşiyində dursun, qanunun aliliyini təmin etsin.

Azərbaycan bu ilin əvvəlində Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. Bilirsiniz ki, bir neçə il idi biz orada qonaq statusu ilə iştirak edirdik. Azərbaycanın bu beynəlxalq təşkilata qəbul olunması prosesi gedirdi. Mən sizə deyim ki, Avropa Şurasına daxil olmuş heç bir ölkə bizim qədər, yəni Azərbaycan qədər müxtəlif maneələrlə rastlaşmamışdı. Ermənistanla Azərbaycan arasındakı münaqişəmizdə Ermənistana tərəfdar olan ölkələr, istər-istəməz, Azərbaycanın Avropa Şurasına daxil olmasının əleyhinə çıxırdılar. Təkcə onlar yox, bəzi başqaları da. Məsələn, Ermənistanla Azərbaycanı eyni zamanda qəbul etmək istəyirdilər. Amma deyirdilər ki, Ermənistan Avropa Şurasına qəbul olunmağa hazırdır, lakin biz bunu saxlayırıq ki, Azərbaycan da hazır olsun, bir yerdə qəbul edək. Nə üçün? Nə bilim, Azərbaycanda insan hüquqları pozulur, demokratiya yoxdur və sair.

Mən bir neçə dəfə demişəm – ola bilər, siz televiziya vasitəsilə bunu müşahidə etmisiniz – insan hüquqlarının pozulması, təbiidir ki, vətəndaş cəmiyyətində, sivil ölkələrdə dözülməz haldır. Əgər Azərbaycanda kiminsə hüququ pozulursa, təbiidir ki, bunun qarşısı alınmalıdır və belə hallara yol verilməməlidir. Ancaq Ermənistan öz hərbi təcavüzü ilə bir milyon adamın hüquqlarını pozub, Azərbaycan torpaqlarını işğal edib və bu insanlar 8-9 ildir ki, ağır şəraitdə, çadırlarda yaşayırlar və siz hesab edirsiniz ki, Ermənistanda insan hüquqları pozulmur, Azərbaycanda pozulur? Bu qədər ədalətsizlik olarmı?

Dünyada ikili standartlar mövcuddur .

Əziz həmvətənlərim!

Əziz dostlarım!

Təəssüflər olsun və biz bütün bu ikili standartları dəf edərək, öz işimizin ədalətli olduğunu sübut edərək, bax, bu demokratiya yolu ilə gedirik və gedəcəyik. Məhz bunun nəticəsidir ki, Azərbaycan Avropa Şurasına daxil olubdur. Bu, tarixi hadisədir, bu hadisə münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm.

Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordumuzun yaranmasıdır. Mən dəfələrlə demişəm və bu gün də deyirəm: biz heç bir dövlətə təcavüz etmək istəmirik. Heç bir dövlətin torpağında gözümüz yoxdur. Dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı dostluq, əməkdaşlıq əlaqələri qururuq və bundan sonra da bunu davam etdirəcəyik. Bu işdə bizim çox böyük nailiyyətlərimiz var. Azərbaycan artıq dünya miqyasında, beynəlxalq təşkilatlarda öz yerini tutubdur və hər yerdə cəsarətlə öz sözünü demək, öz tələblərini qoymaq imkanına malikdir. Ancaq eyni zamanda Azərbaycan bir tərəfdən, Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən, təkcə bu gün yox, gələcəkdə də həmişə öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır.

Mən bu gün sizə deyirəm ki, əgər müstəqilliyimizin on ilində beş il ordu quruculuğunda itirilibsə, ikinci dövrdə, ikinci beşillikdə Azərbaycanda ordu quruculuğunda çox işlər görülüb, ölkəmizdə mütəşəkkil, güclü ordu var. Azərbaycanın torpaqlarını, mənafeyini müdafiə etməyə qadir olan əsgərlərimiz, zabitlərimiz, Milli Ordumuz vardır.

Əziz həmvətənlər, əgər biz Ermənistanın təcavüzünə məruz qalmasaydıq, nailiyyətlərimiz daha da çox ola bilərdi. Bu həqiqətdir ki, Ermənistan Azərbaycana torpaq iddiası ilə çıxış edəndən, 1988-ci ildən indiyə qədər

Azərbaycan çox böyük zərbələr alıbdır. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətində yaşayır. Dediyim kimi, şiddətli döyüşlərdə çox dəyərli insanlarımızı, gənclərimizi itirmişik. Ancaq bunlar hamısı Azərbaycanın torpaqlarının qorunub saxlanılmasını təmin etməyibdir. Ona görə də 1994-cü ilin may ayında hər iki tərəfin – həm Ermənistanın, həm də Azərbaycanın razılığı ilə atəşin dayandırılması haqqında saziş əldə olunubdur. Azərbaycan–Ermənistan münaqişəsində 7 ildir ki, atəşkəs rejimi hökm sürür. Bu, müsbət haldır ki, bütün dünyanın başqa bölgələrindən fərqli olaraq, Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs rejimi yalnız bu iki ölkənin iradəsinin nəticəsində qorunub saxlanılır. Yəni bizi bir-birimizdən ayıran, yaxud da ki, atəşkəs rejimimizi qoruyan heç bir başqa qüvvə yoxdur. Bu onu göstərir ki, Ermənistan da məsələnin sülh yolu ilə həll olunmasında maraqlıdır. Biz də 1994-cü ildən indiyə qədər məsələnin sülh yolu ilə həll olunmasına üstünlük vermişik və mən bu gün də buna üstünlük verirəm.

Bilirsiniz ki, Minsk qrupu bununla məşğuldur. Mənim dəfələrlə, əgər statistika aparsalar, neçə yüz dəfə, bəlkə də min dəfə Minsk qrupunun rəhbərləri ilə, onların təmsilçiləri ilə, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri ilə apardığım danışıqların 90 faizi Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasına, Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edilmişdir. Ancaq reallıq bundan ibarətdir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyinə görə və əvvəldən qarşısına Dağlıq Qarabağı Ermənistana bağlamaq məqsədi qoymaqla bu münaqişəni başladığına görə, öz üstünlüyündən istifadə edib lazım olan güzəştləri qəbul etmir.

Bizim apardığımız son danışıqlar hər iki tərəfin güzəştlərə getməsi ilə əlaqədardır. Bəzi hallarda razılaşırıq, bəzi hallarda razılaşa bilmirik. Ona görə də məsələlər belə uzanır. Bilirsiniz ki, Minsk qrupu həmsədrlərinin və Amerikanın təşəbbüsü ilə son görüş ABŞ-ın Florida ştatının Ki-Uest adasında oldu. Bir neçə gün orada olduq. Bu görüşün əvvəlkilərdən fərqi ondan ibarətdir ki, həmsədrlərin hamısı bu məsələyə çox ciddi yanaşırdılar. İndiki yaranmış vəziyyətin keçmişdəkinə nisbətən müsbət cəhəti ondan ibarətdir ki, həmsədrlər – həm Rusiya, həm Amerika Birləşmiş Ştatları, həm də Fransa həqiqətən əməkdaşlıq etmək istəyirlər və bu münaqişəni həqiqətən aradan qaldırmaq istəyirlər. Ancaq Ki-Uestdə aparılan danışıqlar da bu nəticəyə gətirib çıxarmadı.

Baxmayaraq ki, mən fevral ayında Milli Məclisdə geniş müzakirə apardım, yaranmış vəziyyəti dedim, indi bizim ölkəmizdə müxalifət, ayrı-ayrı qüvvələr bir tərəfdən, müharibə əhval-ruhiyyəsini yaymağa çalışırlar, ikinci tərəfdən – dünyadan bixəbər olduqlarına görə – bunu belə etmək lazımdır, elə etmək lazımdır deyirlər. Hətta bəziləri, necə deyərlər, elə bir dərəcəyə eniblər ki, gedib xalqdan imza toplamaq istəyirlər ki, sən müharibənin tərəfdarısan, yoxsa yox. Bilirsiniz, bunlar hamısı bizim dövlətimizə, cəmiyyətimizə xas olmayan şeylərdir. Ancaq nə edək, biz hər şeyə azadlıq vermişik. Müstəqil televiziyalar da azaddır, qəzetlər də azaddır, insanlar da azaddır. Hərə öz fikrini deyə bilər.

Mən dəfələrlə müraciət etmişəm ki, fikrinizi deyin ki, əgər biz indiyədək nəsə edə bilməmişiksə, siz gəlin fikirlərinizi deyin, bəlkə sizin fikirlərinizlə bunu edə bilək. İndi son vaxtlar bəziləri deyir ki, ancaq müharibə etmək lazımdır, torpaqlarımızı ancaq müharibə ilə almaq lazımdır. Bu adamlar bilməlidirlər ki, biz nə vaxt lazım olarsa, müharibə etməyə hazırıq və edə bilərik. Amma indi buna heç bir zərurət yoxdur. Ayrı-ayrı siyasətçilər özlərinə ucuz şöhrət, xal qazanmaq üçün «Müharibə edək, torpaqlarımızı azad edək» deyirlər. Özü də bunlar o adamlardır ki, onlar elə 90-cı ildən həmin bu müharibənin içindədirlər, müxtəlif vəzifələrdə bu müharibənin içində olan adamlardır. Əgər müharibə edə bilirdinizsə, nə üçün torpaqların işğal olunmasının qarşısını almadınız? Nə üçün almadınız?

Televiziyada görürəm, eşidirəm – bəziləri deyirlər ki, Ermənistan prezidenti öz mövqeyini açıqlayıbdır, Azərbaycan prezidenti mövqeyini açıqlamır. Mən hər gün mövqe açıqlamalıyam? Azərbaycan prezidenti olaraq mən Ki-Uestdə aprel ayının 3–4-də Azərbaycanın mövqeyini öz bəyanatımla açıqladım. Bildirmək istəyirəm ki, biz oraya toplaşanda Amerikanın Xarici İşlər naziri və ümumiyyətlə, Minsk qrupunun həmsədrləri hansısa bəyanat verməyin əleyhinə idilər. Çünki deyirdilər ki, biz buraya yığışmışıq ki, kompromislər axtaraq, sülhə yaxınlaşaq. Mən isə artıq sizə məlum olan, mətbuatda dərc edilmiş bəyanatı vermək tələbini etdim. Onlar buna etiraz edirdilər, mənə imkan vermirdilər. Mən isə məsələni çox kəskin qoydum ki, əgər bu bəyanatı verməsəm və bu bəyanatım televiziya tərəfindən çəkilməsə, dünyaya, ölkəmizə yayılmasa, onda heç bir danışıqlarda iştirak etməyəcəyəm. Mən orada həmin bəyanatın verilməsinə yalnız bu yolla nail oldum. Bu bəyanat sizə məlumdur, onu sizə izah etməyə ehtiyac yoxdur. Ondan sonra mən gündə nə bəyanat verəcəyəm? Nə bəyanat verəcəyəm?

Bəyanat odur, prinsiplərimiz odur. Həmin bəyanat mətbuatımızda dərc olunubdur. Onu deyə bilərəm ki, mənim həmin bəyanatımdan sonra Amerika mətbuatında bir çox məqalələr dərc olundu. Bu məqalələrdən göründü ki, Ermənistan–Azərbaycan münaqişəsinin əsas səbəbləri, hissələri heç həmin qəzetlərə məlum deyildir. Çünki orada çox müsbət məqalələr dərc olundu. Bunlar isə orada ictimai fikrə böyük təsir göstərdi.

Yenə də deyirəm, mən bəyanatımı vermişəm. Mən hər gün bəyanat verməyəcəyəm. Baxmayaraq ki, biz Ki-Uestdə lazımi razılığa gələ bilmədik, ancaq hesab edirəm ki, Minsk qrupunun həmsədrləri, yəni Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçıları indi bir-biri ilə çox yaxın təmasdadırlar və əməkdaşlıq edirlər, məsələnin

sülh yolu ilə həll olunması üçün səylər göstərirlər. Biz bundan istifadə etməliyik və məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq və buna nail olmalıyıq.

Mən inanıram ki, müəyyən kompromislər nəticəsində buna nail olmaq mümkündür. Bilirsiniz, görünür ki, bəzi adamlar kompromislər haqqında lazımi təsəvvürə malik deyillər. Bəli, yaranmış vəziyyətdə, əgər kompromislər olmasa, sülh əldə etmək olmaz. Amma hər iki tərəf kompromisə getməlidir. Kompromislər bərabər olmalıdır. Mən bunu Ki-Uestdə də demişəm və başqa yerlərdə də demişəm. Ona görə də siz əmin ola bilərsiniz, Azərbaycan prezidenti kimi, mən gecə və gündüz bu problemlərlə məşğul oluram və vaxtımın, demək olar ki, tam əksər hissəsi buna həsr edilir.

Son dəfə həmsədrlər Azərbaycana gəldilər, getdilər Ağcabədi rayonunda qaçqınları gördülər. Oradan cəbhə xəttindən Ağdama keçdilər, Ağdamın nə vəziyyətdə olduğunu gördülər, başqa şeylər də gördülər. Güman edirəm ki, bunların hamısı Azərbaycanın günahsız olduğunu və ölkəmizə qarşı təcavüz edildiyini bir daha onlara sübut etdi. Güman edirəm ki, bu yolla biz məsələnin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik.

Beləliklə, əziz dostlar, biz bu gün XX əsrə yekun vururuq. XX əsrdə Azərbaycan xalqının keçdiyi yol bütün tədqiqatçılar, alimlər tərəfindən dərindən təhlil olunmalıdır və hər şey ədalətli, düzgün, obyektiv yazılmalıdır. Hesab edirəm ki, onillik müstəqillik dövrümüz də çox ədalətli, obyektiv təhlil olunmalıdır, hər şey yazılmalıdır. Onillik yubileyə hazırlıq tədbirlərində bunlar nəzərdə tutulubdur. Mən bütün vətəndaşlarımıza müraciət edirəm ki, bu barədə öz səylərini əsirgəməsinlər. Ancaq bunların hamısı, yəni müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi, yaşaması, Azərbaycanın inkişaf etməsi ölkəmizdə vətəndaş birliyinin, həmrəyliyinin əsasında olmalıdır. Təəssüf ki, biz Azərbaycanda buna nail ola bilmirik. Təəssüf ki, ayrı-ayrı adamlar hakimiyyət iddiası ilə yaşayaraq, xalqımızın ümummilli mənafelərində Azərbaycan dövlətinə yardım etmirlər. Əksinə, onlar maneçilik də törədirlər. Mən dedim, biz Avropa Şurasına daxil olanda bəzi ölkələr bizə maneçilik edirdi. Ancaq təkcə ölkələrmi? Azərbaycanda olan müxalifət qüvvələri dəridən-qabıqdan çıxırdılar ki, Azərbaycan Avropa Şurasına daxil olmasın. Nə üçün? Əgər sən doğrudan da Azərbaycanın milli mənafeyini hər şeydən üstün tutursansa – sənin kimdən xoşun gəlir-gəlmir, prezident sənin xoşuna gəlir, ya gəlmir – xalq, millət var. Heç kəs nə xalqı, nə də milləti əvəz edə bilməz. Onu düşünmək lazımdır. Doğrudur, biz Avropa Şurasına daxil olandan sonra nümayəndə heyətimizdə həm hakimiyyət, həm də müxalifət qüvvələri çox səmərəli əməkdaşlıq edirlər. Bu məni sevindirir. Mən istərdim ki, bu kiçik çərçivədə olan əməkdaşlıq Azərbaycanda bütün qüvvələr arasında səmimi, Azərbaycanın milli mənafelərini təmin etmək üçün geniş əməkdaşlığa çevrilsin. Mən istərdim ki, hamı Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi haqqında düşünsün. Mən istərdim ki, hamı Azərbaycanın Ermənistanın işğalından xilas olunması haqqında düşünsün, öz şəxsi ambisiyaları haqqında yox. Nə vaxt hakimiyyətə gələcək, o haqda düşünməsin. Nə vaxt gələ bilər, gəlsin. Amma gələ biləcəksə...

Mən bir daha xalqımızı, millətimizi, vətəndaşlarımızı, Azərbaycanda mövcud olan müxtəlif siyasi, ictimai qüvvələri Azərbaycanın bu günü və gələcəyi naminə birliyə, həmrəyliyə dəvət edirəm.

Bir daha bəyan edirəm ki, bütün bu imtahanlardan, çətinliklərdən keçmiş bugünkü Azərbaycan hakimiyyəti bundan sonra da qarşıya çıxan hər bir çətinliyin öhdəsindən gəlməyə qadirdir və biz Azərbaycanı demokratiya yolu ilə, ardıcıl surətdə irəliyə aparacağıq, ölkəmizin müstəqilliyini göz bəbəyimiz kimi qoruyacağıq, Azərbaycanın müstəqilliyini daimi edəcəyik, əbədi edəcəyik.

Mən Azərbaycanın bütün vətəndaşlarını bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Azərbaycan əsgərini, Azərbaycanın keşiyində duran, hüdudlarında, cəbhə xəttində duran Azərbaycan əsgərini, bizim Milli Ordumuzun dəyərli zabitlərini, bütün şəxsi heyətini ürəkdən təbrik edirəm.

Şəhid ailələrini, müharibə əlillərini, bütün Azərbaycan xalqını bir daha təbrik edirəm.

Əmin ola bilərsiniz ki, Azərbaycanın sükanı etibarlı əllərdədir.

Əmin ola bilərsiniz ki, biz müstəqilliyimizi yaşadacağıq. Ona görə də yaşasın, yaşasın, yaşasın müstəqil Azərbaycan !

## Respublika gününə həsr olunmuş təntənəli mərasimdən sonra mərasimdə iştirak edən respublikamızın incəsənət ustaları ilə görüşdə çıxış

**H e y d ə r Ə l i y e v:** Bayramınız mübarək olsun!

Bu gün hamımız üçün əziz bayramdır. Siz mahnılarınız, rəqsləriniz, musiqilərinizlə bugünkü mərasimi xeyli gözəlləşdirdiniz. Mən sizə təşəkkür edirəm və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Görürəm ki, bu gün səhnəmizdə gənclər daha da çoxdur. Keçmişdə bir neçə məşhur incəsənət xadimi var idi, konsertlərdə də həmişə onlar çıxış edirdilər, oxuyurdular. Amma son illər mən hər dəfə görürəm ki, Azərbaycanda yeni-yeni istedadlar meydana gəlib. Bu da təbiidir. Çünki ölkəmiz yaşayır, inkişaf edir, gənclər böyüyür. Dünən orta məktəblərdə «Son zəng» çalınmışdır. Mən televiziyada baxdım, xaricdən qonaqlarım da var idi. Onlar şəhərdə, Milli parkda və başqa yerlərdə olmuşdular. Dedilər ki, nə qədər gözəl, yaxşı geyinmiş uşaqları görüblər, hamısının da əlində gül dəstələri. Mən təsəvvür edə bilmirəm, bu qədər gül haradandır? Azərbaycanda bu qədər gül əkilmir ki. Yəqin ki, gülü haradansa gətirirlər. Bu güllər üçün hətta xərc çəkirlər. Bunlar

məni həddindən çox sevindirir. Uşaqlar bizim gələcəyimizdir. Siz isə gənclərsiniz, siz də ölkəmizin gələcəyisiniz. Ona görə də mən sizə baxdıqca daha da çox sevinirəm ki, Azərbaycanın gəncləri və o cümlədən mədəniyyət, incəsənət sahəsində olan gənclər ölkəmizi daha da gözəlləşdirəcəklər.

Mən sizin hamınıza təşəkkür edirəm. Bayramınız mübarək olsun. Sizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

**«QAFQAZDA SÜLH VƏ İNKİŞAF»**
**BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSINA**

Hörmətli konfrans iştirakçıları!

Sizi–Qafqaz regionunun olduqca mühüm və aktual problemlərinə həsr edilmiş beynəlxalq konfransın bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır və işinizdə sizə uğurlar diləyirəm. Forumunuzun yeni əsrin və yeni minilliyin ilk ilində Rusiya Elmlər Akademiyası və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin himayəsi altında keçirilməsi faktı onun əhəmiyyətini göstərir.

Həqiqətən, indi Qafqaz öz coğrafi-siyasi vəziyyətinə görə xüsusi əhəmiyyət kəsb edir. Qafqazın müstəqil dövlətlərinin Avropa Şurasına daxil olması, onların TASİS, TRASEKA, İNOQEYT kimi proqramlarda uğurlu iştirakı bütün dünya ictimaiyyətinin bizə olan böyük diqqətinə dəlalət edir. Azərbaycan siyasi, iqtisadi, mədəni və başqa sahələrdə dostluq əlaqələrinin və hərtərəfli əməkdaşlığın formalaşmasına hər cür yardım göstərərək, ölkələrimizin intensiv inkişafını təmin etmək işinə öz layiqli töhfəsini verir. Bizim strategiyamız 1998-ci ilin sentyabrında Bakıda keçirilmiş Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır. Bu konfrans iqtisadi inkişafın olduqca böyük perspektivlərini açmış və bir daha sübut etmişdir ki, Qafqaz Şərqlə Qərb, Avropa ilə Asiya arasında əlaqələrin təmin edilməsində böyük rol oynamağa qadirdir.

SSRİ dağıldıqdan sonra ötən illər ərzində bölgənin dünya iqtisadi sisteminə inteqrasiyası yolunda böyük işlər görülmüşdür. Lakin bununla belə, nə qədər ki, münaqişə ocaqları söndürülməyib və qarşıdurma aradan qaldırılmayıbdır, Qafqazda iqtisadi inkişaf sahəsində qazanılan uğurlar, eləcə də sabitlik və əmin-amanlıq üçün, hələ ki, tam təminat yoxdur.

Biz Qafqazda cərəyan edən bütün münaqişələrin sülh yolu ilə həllinə çalışmaq istəyində olduğumuzu bəyan edir, bölgə ölkələrinin, beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətindəki səylərini olduqca yüksək qiymətləndiririk. Azərbaycanın əzəli torpaqlarını öz ərazisinə birləşdirmək məqsədilə Ermənistanın başladığı bu münaqişə Dağlıq Qarabağ ətrafında qanlı müharibəyə, Azərbaycan torpaqlarının iyirmi faizinin işğal olunmasına, yüzlərlə nadir mədəniyyət abidəsinin və sosial sferanın dağıdılmasına gətirib çıxarmışdır. Minlərlə adam qətlə yetirilmiş və şikəst olmuşdur. Erməni silahlı dəstələri tərəfindən işğal olunmuş torpaqlardan bir milyon vətəndaşımız qovulmuş, bu qaçqınların və məcburi köçkünlərin əksəriyyəti indi də çadırlarda yaşayır.

Bütün müharibə və münaqişələr mütləq sülhlə nəticələnir. Məhz bizim buna olan inamımız, sülh və dinamik inkişaf edən Qafqaz ideyasına bağlılığımız Qafqaz dövlətləri başçılarının Bakı və Tbilisi bəyannamələrində öz əksini tapmışdır. Regionumuzun təcili həllini tələb edən vacib problemlər bu gün nəinki siyasətçiləri və alimləri narahat edir, həmçinin minlərlə sadə insan üçün taleyüklü əhəmiyyət kəsb edir.

Ümidvaram ki, konfransınızın uğurlu işi maraqlı tərəflərin əksəriyyətinin səyləri ilə yanaşı, Qafqazda sülh və sabitliyin bərqərar olmasına əlverişli şərait yaradacaqdır.

Konfransınızın hər bir iştirakçısına xoşbəxtlik, sağlamlıq və müvəffəqiyyət arzusu ilə.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2001-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STEFAN MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizi və dost Xorvatiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2001-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BÜLƏND ECEVİTƏ**

Hörmətli Bülənd Ecevit!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz bütün fəaliyyətiniz boyu daim Atatürk ideallarına sədaqətlə xidmət etmisiniz və bu gün də qardaş türk xalqının rifahı naminə yorulmaq bilmədən çalışırsınız.

Ölkələrimiz və xalqlarımız arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi işinə verdiyiniz töhfələr çox dəyərlidir.

Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 may 2001-ci il*

## MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*28 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Moskvanın və bütün Rusiyanın müqəddəs patriarxı, hörmətli qonaqlar, mən sizi Azərbaycanda ürəkdən salamlayır və təşəkkür edirəm ki, müqəddəs patriarx, Siz tarixdə ilk dəfə olaraq Azərbaycana səfər etdiniz. Mən bu səfəri ölkəmiz üçün, xalqımız üçün, Azərbaycanda yaşayan pravoslavlar üçün son dərəcə mühüm hadisə kimi, eləcə də Rusiya–Azərbaycan münasibətlərində mühüm hadisə kimi qiymətləndirirəm.

Ona görə də mən sizi bir daha salamlayır və sizə təşəkkür edirəm ki, belə zəhmətə qatlaşaraq Azərbaycana gəlmisiniz. Mənə məlum olduğuna görə, siz iki-üç gündür ki, buradasınız və ölkəmizlə, xalqımızla və əlbəttə, Azərbaycanda yaşayan pravoslavlarla tanış ola bilmisiniz.

Biz Rusiya ilə uzun müddət – keçmişdə, Rusiya imperiyasında da, müttəfiq respublika kimi hamımız Sovet İttifaqına daxil olduğumuz dövrdə də birlikdə olmuşuq. Ona görə də əlaqələrimizin çox böyük tarixi və Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında dostluğu səciyyələndirən çox parlaq səhifələri var.

Azərbaycanda, xüsusən XIX–XX əsrlərdə rusların, özü də təkcə rusların deyil, bütün pravoslavların sayı getdikcə artırdı. Ona görə də burada Pravoslav kilsəsi fəxri yer tuturdu. Bir vaxtlar, Azərbaycan Rusiya imperiyasının tərkibində olarkən, azərbaycanlıların bir çoxu imperator sarayı ilə də, kilsə ilə də sıx əlaqə saxlayırdı. O vaxtlar bizim bir çox görkəmli adamlarımız Rusiyanın müxtəlif universitetlərində, ali məktəblərində təhsil almışlar. Zəngin ailələrdən olan neçə-neçə azərbaycanlı çar ordusunda zabit kimi də xidmət edirdi, azərbaycanlı generallar da çox idi. Onlar Rusiya uğrunda savaşlarda döyüşmüşlər. Məsələn, məşhur general Əlağa Şıxlinski XX əsrin əvvəllərində Rusiya–Yaponiya müharibəsi zamanı Port-Arturda igidliklə döyüşmüşdür və bütün Rusiyada onu «Rus artilleriyasının allahı» adlandırırdılar. Bu sözləri general Səməd bəy Mehmandarov və ya bir neçə naxçıvanlı general haqqında da demək olar. Şübhəsiz, bütün bunlar Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin səhifələridir, özü də çox gözəl səhifələridir.

Xalqlarımız müxtəlif dinlərə mənsubdurlar və burada təəccüblü bir şey yoxdur. Çünki dünyada vahid din yoxdur, bir Allah var. Xalqlar müxtəlif dinlərə etiqad edirlər, amma bununla belə, dini mənsubiyyətdəki fərq bədxah münasibətləri, ədavət və düşmənçiliyi, yaxud xoşagəlməz daha nəyisə heç zaman şərtləndirmir.

Ona görə də Azərbaycanda rus əhali və ümumiyyətlə, pravoslavlığa etiqad etmiş olanların və etiqad edənlərin hamısı hüquq bərabərliyi şəraitində yaşamışlar. Bu, keçmiş vaxtlarda da olmuşdur, bu, Sovet İttifaqı illərində – dinin yasaq edildiyi, lakin bununla belə, mövcud olduğu illərdə də olmuşdur. Əks halda, sizin gördüyünüz bu məbədlər, sadəcə, olmazdı, axı onlar heç də indi tikilməyibdir. Bu sözləri məscidlər haqqında da demək olar. Yasaq vardı, din elədir ki, o, bütün əsrlərdə həm sıxıntılara, həm də təqiblərə məruz qalmışdır. Bunu istənilən dinin tarixinə aid etmək olar. Lakin bununla belə, din həmişə həyata yol açmış, mövcud olmuşdur və indiyədək mövcuddur.

Sovetlərin dövründə burada insanlar tam hüquq bərabərliyi şəraitində yaşayırdılar, hərçənd indi, adətən, belə hesab edirlər ki, sovetlərin dövründə insanların hüquq bərabərliyi ümumən olmamışdır. İndi mən bu mübahisələrə qoşulmaq istəmirəm, çünki dini mənsubiyyət baxımından hüquq bərabərliyi Azərbaycanda kiminsə rus, ukraynalı, azərbaycanlı, belarus olmasından asılı olmayaraq, tam şəkildə vardı. İndi isə biz bir-birimizdən ayrılmışıq. Rusiya öz dövlət suverenliyini Sovet İttifaqının bütün müttəfiq respublikalarından əvvəl elan edərək, Sovet İttifaqının dağılması prosesinin bünövrəsini qoydu. Digər respublikalar da, görünür, birlikdə olsalar da, müstəqillik, azadlıq haqqında daha çox düşünürdülər. Odur ki, 1991-ci ildə Azərbaycan da özünün dövlət suverenliyini, müstəqilliyini elan etdi. Biz bu ilin axırlarında dövlət müstəqilliyinin bərpa olunmasının 10-cu ildönümünü qeyd edəcəyik. 1918-ci ildə məhz bu gün – mayın 28-də Azərbaycan ilk dəfə öz dövlət müstəqilliyini bəyan etmiş və demokratiya prinsipləri əsasında Xalq Cümhuriyyəti yaranmışdı. Lakin o çox yox, 23 ay yaşadı, sonra isə sosialist inqilabı, bolşevizm dalğası Qafqaza da gəlib çıxdı. Ona görə də bu suveren dövlət, təbii ki, daha mövcud ola bilmədi, sovet hakimiyyəti quruldu. Sonrakı tarix isə sizə yaxşı məlumdur.

Yeri gəlmişkən, çox maraqlı və bəlkə də hətta rəmzi haldır ki, bu gün mən sizinlə milli bayramımız günü – Azərbaycanın Müstəqilliyi günü, Respublika günü görüşürəm. Biz bu günü təntənə ilə qeyd edirik, ayın 26-da böyük təntənəli yığıncaq keçirdik. İnsanlar bu bayram gününü dünən də qeyd etmişlər, bu gün də qeyd edirlər.

1991-ci ildə Sovet İttifaqı dağılarkən Azərbaycan öz müstəqilliyini bəyan etdi və 1920-ci ildə itirilmiş dövlət müstəqilliyini bərpa etdi. Bu on ildə Azərbaycanda mürəkkəb proseslər baş vermişdir. Lakin ölkədə vəziyyəti ən çox mürəkkəbləşdirmiş və bu gün də qalmaqda olan hadisə budur ki, hələ 1988-ci ildə Ermənistanın

Azərbaycana qarşı ərazi iddiaları ilə, yəni əzəli Azərbaycan torpağını – Dağlıq Qarabağ vilayətini özünə birləşdirmək arzusu, niyyəti ilə əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişə başlanmışdır.

Ona görə də 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdə o, Ermənistanla, əslində, müharibə vəziyyətində idi. Bundan başqa, Azərbaycanda daxili xarakterli olduqca çox çətinliklər, mürəkkəb hallar var idi. Əlbəttə, sizə çox yaxşı məlumdur, mən bunu bütün insan əxlaqı prinsiplərinə və mənəvi prinsiplərə zidd olan çox kədərli, ağır bir fakt hesab edirəm ki, 1990-cı ilin yanvarında sovet hökuməti Azərbaycanda ancaq bir şeyi – Ermənistanla münaqişədə Azərbaycana ədalətli münasibət göstərilməsini tələb edən xalqın çıxışını yatırmaq üçün sovet qoşunlarının iri bir kontingentini göndərdi. Halbuki, bundan ötrü buraya bu qədər qoşun yeritmək lazım deyildi, o mənada ki, Azərbaycanda sovet qoşunları kifayət qədər idi. Sizin ziyarət etdiyiniz qəbiristanlıq – Şəhidlər xiyabanı da əslində, elə onda yaranmışdır. Bu, şübhəsiz, adamların əhval-ruhiyyəsinə müəyyən təsir göstərdi, çünki o vaxt insanların çoxu sovet rəhbərliyini Rusiya ilə, yaxud da, məsələn, Sovet İttifaqındakı bütün xalqların nümayəndələrinin, o cümlədən də azərbaycanlıların xidmət etdikləri sovet qoşunlarını Rusiya qoşunları ilə eyniləşdirirdi. Açığını deyəcəyəm, ona görə də o vaxt antirus, antirusiya əhval-ruhiyyəsi burada geniş yayıldı. Doğrudur, o vaxt mən burada yaşamırdım, buna baxmayaraq, bütün o illər, o günlər mənə yaxşı məlumdur. Odur ki, o vaxt rus əhalisinin müəyyən hissəsi buradan köçüb getdi. Sonra daxili proseslər başlandı, ölkəmizdə sabitlik pozuldu və əlbəttə, bəzi adamlar belə qeyri-sabit şəraitdə qalmaq istəməyərək, özlərinə, sadəcə olaraq, başqa yaşayış yeri axtarırdılar. Ona görə də, məsələn, 1990-cı ildə baş vermiş hadisələrdən əvvəlki dövrlə müqayisədə, burada rusdilli əhalinin sayı azaldı.

Lakin biz bu məsələni sabitləşdirdik və siz yəqin bunu bilirsiniz. 1993-cü ildən, burada vətəndaş müharibəsinin qarşısını almağa və Azərbaycanda vəziyyəti ardıcıl surətdə sabitləşdirməyə müvəffəq olduğumuz vaxtdan başlayaraq, bütün millətlərdən olan adamlar, o cümlədən və ilk öncə ruslar Azərbaycanda rahat yaşamağa imkan tapdılar.

Şübhə yoxdur ki, rus xalqı Azərbaycan xalqının həyatında olduqca böyük rol oynamışdır – mən elmin, təhsilin, mədəniyyətin inkişafını, iri sənaye kompleksləri tikilməsini nəzərdə tuturam.

İlk universitet Azərbaycanın müstəqilliyini elan etmiş həmin hökumətin qərarı ilə 1919-cu ildə yaradılmışdır. Lakin bizim öz kadrlarımız yox idi, professor-müəllim heyəti əsasən yerli ruslardan və ya rusdilli millətlərin nümayəndələrindən ibarət idi, yaxud bu kadrlar Rusiyadan dəvət edilmişdilər. Ona görə də biz XX əsrdə ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, ümumən iqtisadiyyatın bütün sahələrinin inkişafında Rusiyanın rolunu, rus xalqının rolunu çox yüksək qiymətləndiririk.

Bunların hamısı öz izini qoymuşdur və gərək ki, sizin bunu şəxsən yəqin etməyə imkanınız olmuşdur. Mənə dedilər ki, burada çoxlu kilsə var. Mən bunu bilirdim, ancaq sizin gəlişinizlə əlaqədar dedim ki, mənə daha dəqiq rəqəmlər verin. Siz bir neçə il əvvəl burada Bakı və Xəzəryanı bölgə yeparxiyası yaratdınız. Bu, əvvəllər var idi, lakin sonralar ləğv edilmişdi, indi siz onu yenidən yaratdınız. Yeri gəlmişkən, sizin burada çox layiqli nümayəndəniz var, onunla görüşmək, söhbət etmək həmişə xoşdur, çox ağıllı adamdır. Bir sözlə, din yaşayır, mövcuddur, bütün dini adətlər – müsəlman adətləri də, pravoslav adətləri də, başqa dinlərin adətləri də bərpa olunmuşdur. Biz ümidvarıq ki, bu, hər bir ölkənin, hər bir xalqın inkişafına kömək edəcəkdir. Çünki biz onu əsas tuturuq ki, din həmişə müsbət rol oynamalıdır, xüsusən də insanın mənəvi inkişafında, insanların mənəvi tərbiyəsində və onların yüksək mənəviyyat, yüksək əxlaq prinsipləri əsasında sıx birləşməsində. Ümidvaram ki, siz bu günlər ərzində müəyyən təəssürat toplaya bildiniz. Mən bu görüşdən istifadə edərək, özüm də bəzi şeylər söyləməyi qərara aldım. İndi sözü sizə verirəm.

**II A l e k s i:** Mən çıxışımın birinci hissəsini ayaq üstündə söyləmək istərdim, çünki bu gün Azərbaycan Respublikası üçün əlamətdar gündür və belə əlamətdar gündə, Respublika günündə Siz bizi qəbul edirsiniz. Ona görə də, icazə verin, zati-aliləri, çox hörmətli Heydər Əliyeviç, Sizi nümayəndə heyətimizin adından, şəxsən öz adımdan Azərbaycanın bizim də iştirakçısı olduğumuz bu milli bayramı münasibətilə ürəkdən təbrik edim və Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan Respublikasına xeyir-dualı uğurlar və tərəqqi arzulayım. Biz də ümidvarıq ki, Azərbaycan həqiqətən inkişaf edəcəkdir. Sizin müdrik siyasətçi olmağınız, danılmaz nüfuza malik olmağınız, Azərbaycanda vəziyyəti sabitləşdirməyiniz bunun böyük rəhnidir. Əlbəttə, çətinliklər də var, lakin hər halda, XXI əsrə başlayaraq, biz həmişə təzə əsrə ümidlə baxırıq ki, o, Sovet İttifaqının yeni yol – suverenlik və müstəqillik yolu tutmuş keçmiş respublikalarından hər birinə tərəqqi və uğur gətirəcəkdir. Sizi bugünkü bayram – Respublika günü münasibətilə ürəkdən təbrik edirəm və bu gün Sizinlə görüşməyimizi əlamətdar hadisə bilirik.

**N i k o l a y R y a b o v** (*Rusiyanın Azərbaycandakı səfiri*): Heydər Əliyeviç, icazə verin mən də ayağa qalxım. Milli bayram münasibətilə Rusiya prezidentinin Sizə təbrikini oxumaq istəyirəm *(Sonra səfir təbrik teleqramını oxuyur).* Müsaidənizlə, bu teleqramı Sizə verim.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun.

**N i k o l a y R y a b o v:** Mən də bu təbriklərə qoşulmaq və xalqımız arasında hamının sevdiyi, hörmət və ehtiram bəslədiyi bütün Rusiya patriarxının səfərinə göstərdiyiniz çox böyük qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm.

**II  A l e k s i:** Zati-aliləri, indi icazə verin, sözümə davam edim. Bu gün bizi qəbul etdiyinizə görə ürəkdən təşəkkürümü bildirirəm, xalqlarımız arasında qarşılıqlı münasibətlərin tarixinə toxunduğunuza görə çox sağ olun. Buraya səfərimiz, ünsiyyətdə olmağımız bizim üçün son dərəcə faydalı oldu. Bir var eşidəsən, bir də var ki, görəsən. Bunlar başqa-başqa şeylərdir.

Bakı öz gözəlliyi, səliqə-sahmanı, təmizliyi ilə bizə həqiqətən çox xoş təsir bağışladı, insanlar bugünkü dövlət bayramını qeyd edir və bu bayrama sevinirlər. Əlbəttə, rus və Azərbaycan xalqları arasında keçmişdə olmuş və bu gün də inkişaf edən birgə əməkdaşlıq əvəzsizdir. Faciəli səhifələr olmuşdur və buraya gəldiyimiz elə ilk gün Şəhidlər xiyabanını ziyarət etdik və o faciəli günlərdə şəhid olanlara ehtiramımızı bildirdik.

Biz orada azərbaycanlıların da, rusların da familiyalarını gördük, onların ruhuna dua oxuduq.

Biz dövlət xadimləri, şəhərin rəhbərləri ilə də görüşdük, İçərişəhərlə tanış ola bildik və daim münasibətlərimizin inkişaf tarixini xatırladıq. Bu gün təsdiqləmək olar ki, rusdilli əhali burada həqiqətən bütün hüquqlara, bərabər hüquqlara malikdir. Onlar özlərini ikinci dərəcəli adamlar kimi hiss etmirlər və pravoslavlar öz dininə, öz imanına heç bir maneə olmadan etiqad edirlər, təəssüf ki, bu hətta bəzi pravoslav ölkələrində də yoxdur.

Möhtərəm şeyxlə bizim aramızda artıq neçə illərdir ən xoş qarşılıqlı münasibətlər mövcuddur, onunla tanışlığımız və əməkdaşlığımız 1988-ci ildən başlamışdır. Bu illər ərzində biz bəzən ən faciəli anlarda, Dağlıq Qarabağda qan axıdıldığı günlərdə, qan tökülməsini dayandırmaq lazım olduğu vaxtlarda rus pravoslav kilsəsinin təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Rusiya ruhani liderlərinin dörd dəfə üçtərəfli görüşünü keçirmişik. Din xadimləri vəziyyətdən çıxış yolunu görür və böhrandan çıxmaq üçün öz yollarını təklif edirdilər.

Elə dünən biz səfərimizə yekun vuraraq, bəyannamə imzaladıq. Biz bu bəyannamədə mövcud problemin həll edilməsinə tərəfdar olduğumuzu və Azərbaycanın, Ermənistanın dövlət rəhbərlərinə indi bu iki ölkə qarşısında duran problemin siyasi yolla aradan qaldırılmasını arzuladığımızı bildiririk. Bizə gəlincə, daha bir üçtərəfli görüş keçirmək və bu problemin həllini necə təsəvvür etdiyimizi bildirmək niyyətindəyik.

Ev-eşiklərindən məhrum olmuş, yurd-yuvasından məhrum olmuş və bu gün burada yaşayaraq, dövlət üçün müəyyən iqtisadi çətinliklər törədən qaçqınlarla görüşmək, zənnimcə, bizim üçün çox vacib idi, çünki 8 milyon əhalinin 1 milyonunun qaçqın olması müəyyən dərəcədə böyük iqtisadi problem yaradır. İnsanların öz müsibətlərindən necə danışdıqlarını eşitmək və bu müsibətləri görmək din xadimləri üçün də – biz onlarla görüşə qardaşımız Şeyx Paşazadə ilə birlikdə getmişdik – olduqca ağır idi. Odur ki, kilsə də, dinlər də həmişə öz diqqətini əzab-əziyyət çəkənlərə, müsibətlərə məruz qalanlara, ev-eşiyindən məhrum olanlara yönəldir. Ona görə də qeyd etmək istərdim ki, qaçqınlarla görüşlər zamanı səslənmiş bütün çıxışlarda Ermənistandan və Dağlıq Qarabağdan, digər rayonlardan didərgin salınmış bir çox ruslar şeyx qardaşımızla bizdən xahiş edirdilər ki, bu problemin həllinə kömək göstərək. Onlar bunu ancaq sülh yolu ilə aradan qaldırmaqda görürlər, çünki bu müharibədə hərbi əməliyyatlar zamanı tökülən qanları, xalqların verdikləri qurbanları, itkiləri xatırlayırlar.

Hələ inqilabdan əvvəl dövlətlərimizin inkişafına rusların da, azərbaycanlıların da necə qarşılıqlı surətdə töhfə verdiklərini bizə Siz də xatırlatdınız. Biz elə sovet dövründə də milli mənsubiyyətlərə ayrılmadan bir ailə kimi yaşayırdıq. Vaxtilə mövcud olmuş ənənəvi əlaqələr, əlbəttə, Sovet İttifaqı dağıldıqdan sonra pozuldu, canlı əlaqə itirildi, lakin mənə elə gəlir ki, bu əlaqə tədricən bərpa edilir və burada təhsil almış, neft sənayesinin təşkilində təcrübə toplamış bir çox sahibkarlar indi Rusiyada işləyir və məsul vəzifələr tuturlar.

Xüsusi qeyd etmək istərdim ki, burada rus dilində çoxsaylı məktəb var, bu məktəblərdə təkcə rusdillilər deyil, azərbaycanlılar da oxuyurlar. Biz Slavyan Universitetinə getdik. Orada slavyan xalqlarının mədəniyyəti, dilləri öyrədilir. Bütün bunlar yadlaşmanın xalqlarımız arasında kök atmaması üçün edilir.

Zənnimcə, bu baxımdan Azərbaycan ərazisində ənənəvi dinlərimiz çox mühüm rol oynayırlar. Biz məscidləri də, fəaliyyətdə olan üç pravoslav məbədini də, səfirliyin ərazisində tikilmiş kiçik kilsəni də ziyarət etdik. İbadət etməyə gələn çoxsaylı pravoslav dindarlar gördük. Məhəmməd peyğəmbərin nəvəsinin uyuduğu yerdə Sizin zəhmət və qayğılarınızla bərpa olunmuş məscidi ziyarət etdik. Gözəl məsciddir. İndi o, müsəlmanların ziyarətgahına çevrilmişdir. Biz görürük ki, dini həyat, həqiqətən dirçəlir. Düşünürəm ki, bu dirçəliş insanların öz əməyinə, vəzifələrinə münasibətində müsbət rol oynayacaqdır. Onlar öz borcuna və öz vəzifələrinə vicdanla yanaşacaqlar.

Elə bu gün mən müsahibə verərkən bildirdim ki, bəzən ölkələrimizdə deyirlər ki, bu məsələləri məhz prezident, hökumət həll etməlidir. Mən isə deyirəm ki, ölkənin gələcəyi, xalqın gələcəyi hər bir kəsin töhfəsindən asılıdır və buna görə də hər bir vətəndaşın üzərinə məsuliyyət düşür.

Pravoslavlar din xadimlərinin ağsaqqalı kimi, müxtəlif millətlərin və müxtəlif dinlərin nümayəndələrinin necə birgə yaşamasına, əməkdaşlıq etməsinə gözəl nümunə olduğuna görə, şeyx qardaşımız Paşazadəyə çox minnətdardılar. Zənnimcə, Azərbaycan yeganə dövlətdir ki, burada müsəlmanların dini başçısı həm sünnilərin, həm də şiələrin başçısıdır. Odur ki, bu nümunə İslamın iki qolu arasında bəzən qarşıdurmaların baş verdiyi bir çox ölkələr üçün örnək olmağa layiqdir. Elə qardaşım da mənə dedi ki, İrana gedir, çünki orada məhz bu təcrübəyə ehtiyac duyulur.

Bu gün biz haqq-taalanın xeyir-dua verdiyi qonaqpərvər Azərbaycan torpağına səfərimizi başa çatdırırıq, özümüzlə ən xoş və nurlu təəssüratlar aparırıq. Mənə elə gəlir ki, XXI əsr və üçüncü minillik dövlətlərimiz arasında inkişaf etməkdə olan intensiv əlaqələrlə başlanır. Vladimir Vladimiroviç Putinin səfəri də, parlamentin sədri başda olmaqla, parlamentin böyük bir nümayəndə heyətinin Rusiya Federasiyasına səfəri də belə əlaqələrdəndir. Əgər bizim səfərimiz də buna öz töhfəsini verərsə, çox şad olarıq. Bizi ənənəvi Qafqaz mehribanlığı və qonaqpərvərliyi ilə hər yerdə həqiqətən çox səmimiyyətlə, gülərüzlə qarşılayırdılar. Aldığımız təəssüratlar olduqca zəngindir. Budur, indi biz zati-alilərinizin qəbulundayıq, bizdə belə bir məsəl var ki, işin sonu onun bəzəyidir. Ona görə düşünürəm ki, zati-alilərinizlə bugünkü görüş də bizim səfərimizin bəzəyidir. Öz xalqınız üçün və Azərbaycan torpağında yaşayan xalqlar üçün gördüyünüz bütün işlərə görə Sizə səmimi təşəkkürümüzü bildirmək istərdik. Siz qan tökülməsini dayandırdınız, Siz bu torpaqda yaşayan insanlara bərabər hüquqlar verilməsinə, dindarların öz dininə, öz imanına etiqad etməsinə, hamının çiyin-çiyinə işləməsinə və bir-birinə qarşı durmamasına nail oldunuz, onlara bu hüquqları verdiniz.

Ənənəvi dinlərin fəaliyyətinə eyni dərəcədə diqqət yetirdiyinizə və qiymət verdiyinizə görə rus pravoslav kilsəsi adından Sizə təşəkkürümüzü bildirmək istərdik. Eyni zamanda, müxtəlif təriqətlərin, başabəla missionerlərin Azərbaycan ərazisində, habelə bütün keçmiş Sovet İttifaqı respublikalarının ərazilərində həyata keçirməyə çalışdıqları dini ekspansiyalarla əlaqədar dövlət səviyyəsində də narahatlıq ifadə edilir, bu narahatlıq ənənəvi dinlərin başçıları səviyyəsində də bildirilir. Mən qəti əminəm ki, belə missionerlərin fəaliyyəti adamları maarifləndirməyə yox, adamların arasına həm də dini etiqad əlamətinə görə rəxnə salmağa yönəldilmişdir. Təhlükə də, bax, bundadır.

Çünki tamamilə yad olan, heç bir kökü, ənənələri olmayan təriqətlər, missionerlər torpağımıza gəlir və 70 illik ateizm tərbiyəsindən və dini dəyərlərin inkarından sonra yaranmış mənəvi boşluğu doldurmağa can atırlar. Onlar Rusiyanı və keçmiş Sovet İttifaqının digər ölkələrini mənəvi boşluq adlandırır və ona görə də buraya gəldiklərini bildirirlər. Biz bununla razı deyilik. Biz bu təhlükəni dünən qəbul etdiyimiz bəyannamədə də xatırlatmışıq. Çünki bu, xalqları bir-birindən ayırır.

Qüvvələrin birləşdirilməsi prinsipi isə, zənnimcə, hər bir ölkədə olmalıdır. Ona görə ki, hər bir ölkənin gələcəyi birlikdədir. Odur ki, çox hörmətli Heydər Əliyeviç, birlikdə çalışan və birlikdə işləyən bu vahid cəmiyyətin yaradılmasında Sizin xidmətiniz bu baxımdan olduqca böyükdür.

Siz din xadimləri üçün, dini başçılar üçün çox işlər görürsünüz və möhtərəm şeyxin də, Sizin də Yepiskop Aleksandra yüksək qiymət verməyiniz bu qəbildəndir. Biz, həqiqətən, bir neçə il əvvəl burada Yeparxiya yaratdıq və onun statusuna xüsusi əhəmiyyət vermişik, çünki o, suveren dövlətin ərazisindədir. Üstəlik, biz hansısa bir yeni adamı təyin etmədik, əksinə, elə bir adamı təyin etdik ki, o, artıq burada xidmət etmiş, hörmət-nüfuz qazanmışdır, onu tanıyırlar və Siz onu özünüzünkü, burada böyüyüb başa çatmış adamınız kimi qəbul etmisiniz. Biz ağsaqqal Şeyx Paşazadənin rəhbərliyi ilə ənənəvi dinlər – islam, pravoslav və iudaizm arasında həyata keçirilən əməkdaşlığa çox şadıq. O bəlkə də yaşca hamıdan böyük deyildir, amma zəngin həyat və mənəvi təcrübəsinə görə qalan bütün ənənəvi dinlərin rəhbərləri üçün, həqiqətən, ağsaqqaldır.

Azərbaycanda yaşayan pravoslavlar ibadət etmək imkanına malikdirlər. İndidən belə Bakının üç kilsəsində pravoslav dindarlar – təkcə ruslar deyil, ukraynalılar da, belaruslar da ibadət edəcək, mənən kamilləşəcəklər. Biz zati-alilərinizin böyük diqqətini bunda da görürük.

Xalqların barışması işinə, Azərbaycanın və onun xalqının rifahı naminə fəaliyyət göstərən ənənəvi dinlərin dəstəklənməsinə verdiyiniz çox böyük töhfəyə dərin ehtiram əlaməti olaraq, mən rus pravoslav kilsəsinin ordenini Sizə təqdim etmək istərdim. Bizim verdiyimiz qiymətin əlaməti olaraq, birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordenini qəbul etməyinizi xahiş edirəm.

Bu ordeni bizdən nəinki Azərbaycanın inkişafına və möhkəmlənməsinə, həm də mənəvi, əxlaqi dəyərlərin, inam, haqq-ədalət dəyərlərinin Azərbaycan xalqının həyatına qaytarılmasına verdiyiniz çox böyük töhfənin qiymətləndirilməsi kimi qəbul edin.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

**II A l e k s i**: «Rus pravoslav kilsəsinin Bakı və Xəzəryanı bölgə Yeparxiyasına göstərdiyi diqqətə, köməyə və dəstəyə görə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyeviç Əliyev rus pravoslav kilsəsinin birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordeni ilə təltif edilir».

Yepiskop Aleksandrın simasında Bakı və Xəzəryanı bölgə Yeparxiyası mənim səfərimlə əlaqədar medal buraxmışdır. Mənə icazə verin, görüşümüz münasibətilə bu medalı Sizə təqdim edim.

**H e y d ə r Ə l i y e v:** Necə gözəl ordendir. Şübhəsiz ki, bu, ilk kilsə ordenidir. Keçmişdə aldığım ordenlərdən qat-qat gözəldir. Çox sağ olun, mən sizə çox təşəkkür edirəm.

**II A l e k s i:** Moskva knyazı Daniil Moskvanı yaratmış və birləşdirmiş knyazdır.

Bu orden Azərbaycanın yaradıcısı, Azərbaycan xalqlarının vəhdət halında birləşdiricisi kimi, Sizə təqdim olunur.

Bu ordeni qəbul etməyinizi xahiş edirəm.

**H e y d ə r Ə l i y e v:** Hörmətli müqəddəs Patriarx, söylədiyiniz bütün sözlərə görə, bölüşdüyünüz təəssüratlara görə, insanlar arasında etimadın möhkəmlənməsi və dinin inkişaf etməsi, hər bir adamın Konstitusiyamıza müvafiq surətdə vicdan azadlığı hüququndan istifadə edə bilməsi üçün şərait yaradılması sahəsində ölkəmizin, xalqımızın, dövlətimizin işinə verdiyiniz qiymətə görə çox sağ olun. Bu, Konstitusiyamızın ən mühüm müddəalarından biridir. Mənə çox xoşdur ki, Azərbaycanda olduğunuz müddətdə sizdə yaxşı təəssürat yarandı və siz doğru dediniz ki, bir var eşidəsən, bir də var ki, görəsən. Zənnimcə, sizin eşitdikləriniz prinsipcə görmək istədikləriniz üçün əsas olmuşdur.

Biz Sizi çoxdan, dəfələrlə dəvət etmişdik. Mən də dəvət edirdim, şeyx həzrətləri də dəvət edirdi. Əlbəttə, biz inanırdıq ki, dəvətimiz qəbul ediləcək və siz Azərbaycana gələcəksiniz. İndi isə bunların hamısı gerçəkliyə çevrilmişdir. Siz Azərbaycana gəldiniz, bir neçə gün burada oldunuz və bu gün səfəriniz başa çatır və siz evinizə, Moskvaya qayıdırsınız.

Mən sizin bütün fikirlərinizlə razıyam və əlbəttə, barışıq, Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması sahəsində fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Mənə məlumdur ki, mən hələ Azərbaycan prezidenti seçilməzdən əvvəl məhz sizin təşəbbüsünüzlə siz, bütün Qafqaz müsəlmanlarının şeyxülislamı və Ermənistan katolikosu – əvvəlki katolikos və indiki katolikos – görüşlər keçirmisiniz. Bu səylərinizə görə sağ olun. Bu, yüksək qiymətə layiqdir, çünki mən belə bir mövqe tutmuşam ki, bir daha qan tökülməməlidir. Biz münaqişəni sülh yolu ilə nizama salmalıyıq və bu məqsəd üçün bütün imkanlardan istifadə edilməlidir. Xalq arasında isə ruhanilərin, din xadimlərinin nüfuzu çox vaxt daha yüksək olur və dövlət rəhbərlərinin fəaliyyətinə nisbətən daha güclü təsir göstərir. Odur ki, indiyədək gördüyünüz işlərə görə sağ olun. Lakin Sizin bu fəaliyyətinizin davam etdirilməsinə hələ bizim ehtiyacımız var.

Biz 1994-cü ilin mayında hərbi əməliyyatları dayandırdıq, atəşkəs haqqında razılığa gəldik. Artıq yeddi ildir hərbi əməliyyatlar aparılmır və diqqətəlayiq haldır ki, hər hansı xarici sülhyaratma qüvvələrinin müdaxiləsi olmadan Ermənistan tərəfi də, Azərbaycan tərəfi də atəşkəs rejiminə əməl edir. Bu onu göstərir ki, Azərbaycanda da, Ermənistanda da məsələnin dincliklə həll olunmasını istəyirlər.

Bu yeddi ildə biz bir çox danışıqlar aparmışıq. Bilirsiniz ki, hələ 1992-ci ildə ATƏT xüsusi qrup, Minsk qrupu yaratmışdır. Münaqişənin dincliklə nizama salınmasına kömək göstərilməsi üçün indi bu qrupa Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. Ötən bütün illər ərzində bu qrup daim fəaliyyət göstərmiş, həmin məsələ ilə məşğul olmuşdur. Doğrudur, bəzən fəal, bəzən də fasilələrlə. Şadam ki, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin, Birləşmiş Ştatların prezidenti Corc Buşun, Fransa prezidenti Jak Şirakın simasında Minsk qrupunun həmsədrləri münaqişənin nizama salınması üçün son vaxtlar öz aralarında daha fəal əməkdaşlıq edirlər. Deməliyəm ki, biz əvvəllər belə fəallıq, belə sıx əməkdaşlıq müşahidə etmirdik və münaqişənin dincliklə həll olunmamasının səbəblərindən biri bəlkə də budur.

Biz şadıq ki, indi qarşılıqlı anlaşma var, Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa arasında əməkdaşlıq arzusu var. Biz buna böyük ümid bəsləyirik. Bilirsiniz ki, 1999-cu ildən bəri biz Azərbaycan və Ermənistan prezidentlərinin vaxtaşırı görüşlərini keçiririk. Böyük ölkələrin – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın rəhbərləri bizə tez-tez deyirlər ki, razılığa gəlmək imkanını ən əvvəl siz özünüz tapmalısınız. Bu bəlkə də doğrudur, amma burada biz bərabər vəziyyətdə deyilik. Əvvəla, Ermənistan müxtəlif səbəblərə görə Dağlıq Qarabağı işğal edə, bütün azərbaycanlıları oradan qova bilmişdir. Lakin Ermənistan bununla kifayətlənməyərək, Azərbaycanda daxili sabitsizliklə əlaqədar özü üçün yaranmış əlverişli imkandan istifadə edərək, döyüş əməliyyatları zonasını genişləndirdi və ancaq azərbaycanlıların yaşadıqları daha yeddi rayonu işğal etdi. Ermənistandan da bütün azərbaycanlılar qovuldular, orada bir nəfər də azərbaycanlı qalmayıbdır. Ona görə bizdə bir milyon qaçqın var.

Qaçqınların məskunlaşdıqları yerlərdən birinə getdiyinizə görə Sizə təşəkkür edirəm. Söz düşmüşkən, bu, qaçqınların qaldıqları yerlər arasında ən yaxşısıdır. Çünki onlar, hər halda, Bakı şəhərində digər, hansısa bir binadadırlar, hərçənd bu bina tam tikilib qurtarmamışdır.

**II A l e k s i:** Binanın damı varmı?

**H e y d ə r Ə l i y e v:** Bəli, dam var. Əgər iki-üç saatlıq məsafədə yerləşən yaxın rayonlara – mən bütün düşərgələrdə oluram – getsəniz, görərsiniz ki, orada insanlar artıq yeddi, səkkiz, hətta doqquz ildir çadırlarda yaşayırlar. Çadırlarda uşaqlar doğulur. Biz çadırlarda şərait yaratmışıq ki, onlar oxuya bilsinlər. Çadırlarda yeni-yeni ailələr qurulur. Çadırlarda insanlar dünyalarını dəyişirlər, bəs onları harada dəfn etməli? Hər kəs istəyir ki, öz doğma torpağında dəfn olunsun. Bu hər bir insan üçün təşəkkül tapmış ənənədir. Lakin o, çadırda ölür və çadırların yaxınlığında yeni qəbiristanlıqlar salmaq lazım gəlir, onun cənazəsini öz doğma torpağına aparmağa isə imkan yoxdur, çünki orada hər şey dağıdılmış, yağmalanmışdır. Mən hələ onu demirəm ki, bu işğal edilmiş torpaqlarda bütün qəbiristanlıqlar, müqəddəs yerlər dağıdılmışdır.

Öz fikirlərimi belə faciəli notlarla davam etdirmək istəmirəm. Bu baxımdan Ermənistanla vəziyyətimiz bərabər deyildir. Onlar bu baxımdan üstünlüyə malik olduqlarına görə təkid edirlər ki, şərtləri qəbul edilsin. Onların şərtləri isə Dağlıq Qarabağa müstəqillik statusu verilməsindən ibarətdir. Azərbaycan ərazisində ikinci bir erməni dövləti ola bilməz, ola bilməz! Eləcə də Dağlıq Qarabağ Ermənistana birləşdirilə bilməz! Beynəlxalq

hüququn, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in əsas prinsipləri hər bir dövlətin ərazi bütövlüyündən, mövcud sərhədlərin toxunulmazlığından ibarətdir. Ermənilər isə tələb edirlər ki, ərazimizin bir hissəsini onlara verək, bunun əvəzində onlar Dağlıq Qarabağın ətrafında yerləşən, işğal etdikləri rayonları azad etsinlər. Yəqin ki, bu rayonlar azad edildikdən hələ 50 il sonra da insanlar öz ev-eşiklərini qurmaqla məşğul olmalıdırlar, çünki orada hər şey dağıdılmış, hər şey talan edilmişdir.

Minsk qrupu həmsədrlərinin – Amerika Birləşmiş Ştatlarının, Rusiya və Fransanın nümayəndələri bu yaxınlarda burada oldular. Onlar Ağdam rayonunda atəş xəttini keçdilər, Dağlıq Qarabağa getdilər. Bizim belə bir iri rayonumuz var, orada 160–170 min adam yaşayırdı. Özü də o, qədim mədəniyyət mərkəzlərindən biri, öz gözəlliyi, öz xüsusiyyətləri olan şəhərdir. Ən başlıcası isə budur ki, orada bu qədər adam yaşayırdı. Həmsədrlərin nümayəndələri əvvəllər də orada olmuşlar, indi isə təsdiqləmişlər ki, orada hər şey dağıdılmış, hər şey qarət edilmişdir. Ona görə də biz sülh istəyirik, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Lakin eyni zamanda, erməni tərəfi də daha konstruktiv mövqe tutmalıdır. Təəssüf ki, biz bunu hələlik görmürük. Əgər vəziyyət belə qalsa, onda bunun çox ağır nəticələri ola bilər. Çünki xalqımızda, əhalimizdə belə bir əhval-ruhiyyə getdikcə güclənir ki, axı torpaqlarımızın işğalına nə qədər dözmək olar, biz vuruşmalıyıq, torpaqlarımızı öz qanımızla, nəyin bahasına olursa- olsun, azad etməliyik.

Son vaxtlar Rusiya münaqişənin dincliklə nizama salınmasına fəal kömək göstərir. İyunun 1-də Minskdə Müstəqil Dövlətlər Birliyi ölkələri dövlət başçılarının görüşü keçiriləcəkdir. Yəqin ki, orada prezident Vladimir Vladimiroviç Putinin, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli görüşü olacaqdır. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana rəsmi səfər etməsi, özü də yeni əsrin əvvəlində, yeni minilliyin əvvəlində səfər etməsi çox mühüm rol, müstəsna rol oynamışdır. O, yanvarın 9-da buraya gəldi. Xalqımız bunu çox yüksək qiymətləndirdi. Mən inciklik hissi ilə deməliyəm ki, biz neçə illərdi Rusiya prezidentini də, Baş nazirini də dəvət edirdik, amma müsbət bir cavab almırdıq. Lakin mənim dəvətimdən sonra qısa müddətdə Vladimir Vladimiroviç Putin onu qəbul etdi və buraya gəldi. Siz gördüyünüz kimi, o da vəziyyəti özü gördü.

Fəxri doktor adına layiq görüldüyünüz elə həmin Slavyan Universitetində o da fəxri doktor adı aldı. Yeri gəlmişkən, universitetin tarixində iki nəfər onun fəxri doktoru olmuşdur – Rusiya prezidenti Vladimir Vladimiroviç Putin və Moskvanın və bütün Rusiyanın müqəddəs patriarxı. Əlbəttə, bütün bunlar onun üçün müəyyən dərəcədə gözlənilməz idi, eləcə də sizin üçün. Yəni, Azərbaycanla Rusiya arasında münasibətlərin gərginləşməsi üçün müxtəlif qüvvələrin yaratdıqları əhval-ruhiyyə bu gün də var. Lakin bununla belə, prezidentin hər şeyi öz gözü ilə görməsinin və hər hansı informasiyadan istifadə etmədən vəziyyəti artıq özünün qiymətləndirməsinin və bütün Rusiya patriarxının hər şeyi öz gözü ilə görməsinin, özünün qiymətləndirmək imkanına malik olmasının böyük əhəmiyyəti var. Biz buna ehtiyac duyuruq. Təkrar edirəm, ehtiyac duyuruq. Çünki respublikamızda bir milyon qaçqın var, hər şey bir yana, onlar faciəli, qeyri-insani şəraitdə yaşayırlar. Bu isə bizim üçün maliyyə çətinlikləri, maddi çətinliklər də yaradır. Çünki onlar işləmirlər, öz torpaqlarında işləsəydilər, əvvəllər nə əkib-becərirdilərsə, onu da əkib-becərərdilər. Bu torpaqlar çox bərəkətlidir. Onlar məhsul istehsal edərdilər və ya özlərinin başqa işləri ilə məşğul olardılar.

Respublikamız belə bir mürəkkəb vəziyyətdə inkişaf edir, Qərblə Şərq arasında, Qafqazda yerləşdiyinə görə son dərəcə böyük coğrafi-strateji əhəmiyyəti var. Respublika böyük təbii ehtiyatlara malikdir və öz xalqımıza daha yaxşı həyat şəraiti təmin etmək üçün də, əlbəttə, qonşularımızla, Rusiya ilə ticarət münasibətlərini və digər münasibətləri daha fəal genişləndirmək üçün də bütün bunlardan daha səmərəli istifadə etmək imkanımız var. Bizim bəzi layihələrimiz var, məsələn, Rusiyanın «LUKoyl» şirkəti burada fəal işləyir və təbii ki, fayda götürür və bu birgə işdən Azərbaycan da faydalanır.

**II A l e k s i:** Hər halda, iş yerləri də açılır.

**H e y d ə r Ə l i y e v:** Əlbəttə, indi bizdə 32 Qərb şirkəti işləyir. Təəssüf ki, Rusiyanın təkcə bir şirkəti var, halbuki mən Rusiyanın bir çox şirkətlərini dəvət etmişəm. Görünür, onların Rusiyada hələ çox nefti var, ona görə də bir yana getmək istəmirlər.

Bütün bunlar nəzərə alınaraq, sizin sülhyaratma missiyanız böyük əhəmiyyətə malikdir. Odur ki, sizdən öz fəaliyyətinizi davam etdirməyinizi xahiş edirəm. Bizim Şeyxülislam bu baxımdan fəaldır. O sizinlə görüşləri barədə, əlaqələr barədə, köməyinizə bəslədiyi ümid barədə mənə tez-tez məlumat verir. İstərdim ki, bütün bunlar səmərəli nəticələnsin. Sülh hər yerdə lazımdır. Minskdə Qafqaz dördlüyünün görüşü olacaqdır. Çünki indi dünyada, xüsusən, postsovet məkanında hamı beynəlxalq terrorizm, ekstremizm sarıdan narahatdır. Şimali Qafqazda nələr baş verdiyini siz çox yaxşı bilirsiniz, Gürcüstanda münaqişə var, Ermənistanla Azərbaycan arasında münaqişə var.

Dünyanın Qafqaz kimi nadir diyarı hazırda elə bir vəziyyətdədir ki, burada terrorçular üçün də, hər cür ekstremistlər üçün də şərait mövcuddur.

Bizi narahat edən daha bir məsələ var. Bu, dini ekstremizmin yayılmasıdır. Din cəmiyyətdə insan fəaliyyətinin həmişə ən nəcib sahəsi hesab olunmuşdur və hesab edilir. Ayrı-ayrı dini cərəyanların qarşılarına terrorizm, ekstremizm vəzifələri qoyması, yaxud din pərdəsi altında tamam əks əməllərlə məşğul olması və xalqlara, ölkələrə, ayrı-ayrı insanlara ziyan vurması, əlbəttə, qətiyyən dözülməz haldır. Yeri gəlmişkən, biz

təkcə Azərbaycanı deyil, bütün Qafqazı bundan qorumalıyıq. Siz Şimali Qafqazdakı, Mərkəzi Asiyadakı vəziyyəti bilirsiniz. Biz bundan da qorunmalıyıq.

Əlbəttə, mən hər şeydən çox istərdim ki, siz Ermənistanla Azərbaycan arasında sülh yaradılmasına, işğal olunmuş torpaqların azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və qaçqınların öz yaşayış yerlərinə qayıtmasına daha fəal kömək göstərəsiniz. Lakin bununla yanaşı, mən bu işə eqoistcəsinə, ancaq Azərbaycanın məhdud mövqelərindən yanaşmıram. Mən sizinlə bu söhbəti apararkən onu nəzərdə tuturam ki, bir siyasi xadim kimi, məni bütün bəşəriyyətin, hər halda, regionumuzun, Yer kürəsinin bu guşəsinin taleyi narahat edir, bütün bu təhlükələrin daha da inkişaf etməməsi üçün siz müvafiq qüvvələri onlara qarşı qaldıra biləsiniz.

Başa düşürəm, sizin imkanlarınız elədir ki, sizdən xahiş etdiyim məsələlərin həllinə ancaq bu imkanlar daxilində kömək edə bilərsiniz. Bu gün vəziyyətin necə olduğunu, gələcəkdə daha nə kimi çətinliklərin yarana biləcəyini və xalqlar, ölkələr, dövlətlər arasında sülhün və dinc qarşılıqlı münasibətlərin təmin edilməsi üçün bizim nə kimi işlər görməli olduğumuzu xatırlatmaq məqsədi ilə öz fikirlərimi sizinlə bölüşürəm. Yeri gəlmişkən, dinin həmişə ən birinci məqsədi sülh olmuşdur.

Mən təbliğat aparmıram və bu məlum həqiqətləri sizə söyləmək istəmirəm. Siz onları gözəl bilirsiniz. Mən, sadəcə olaraq, öz baxışlarımı, öz fikirlərimi bildirirəm. Mən Sizə bir daha və yenidən təşəkkür edirəm. Məni təltif etdiyiniz ordenin isə mənim üçün müstəsna əhəmiyyəti var. Təbii ki, bu hadisə bioqrafiyamda öz layiqli yerini tapacaqdır. Sağ olun.

**II A l e k s i:** Sağ olun. Çox hörmətli Heydər Əliyeviç, sağ olun ki, öz fikirlərinizi bölüşdünüz. Çünki Qafqazda baş verən hadisələr bizi narahat etməyə bilməz. Çünki Qafqaz xüsusi, bərəkətli, xeyir-dualı torpaqdır, burada isti cənub günəşi altında torpaq bəhrələr verir. Bu torpaqlar viran edildikdə və insanlar bir-biri ilə qarşı-qarşıya durduqda qan tökülür. Əlbəttə, bu bizi narahat etməyə bilməz. O ki qaldı bizim üçtərəfli qarşılıqlı münasibətlərlə bağlı problemlərə, qardaşım şeyx həzrətləri mənə dedi ki, belə görüşün keçirilməsinin zəruriliyi barədə fikir yeni katolikos tərəfindən də səslənmişdir. Zənnimcə, burada din xadimləri belə bir yekdil fikirdədirlər ki, görüşmək, məsələnin dincliklə həlli yollarını axtarmaq lazımdır.

Çeçenistanda baş vermiş faciə zamanı biz də həmişə bu faciəyə cəlb edilmişik. Törədilən terror aktları hətta Qafqazın hüdudlarından kənarda da yayılırdı. Moskvada, Buynakskda evlərin partladılması dinc sakinlərin həlak olmasına gətirib çıxartdı. Orada insanların girov götürülməsi kimi mənəviyyata çox zidd olan biznes həyata keçirilir. Biz də üç keşiş itirdik. Onlar Qroznıda xidmət edirdilər və girov götürülərək, çeçen əsirliyində həlak oldular. Bu da başımıza gələn faciədir. Dolanacaq imkanlarından məhrum olmuş və indi müxtəlif ətraf rayonlarda yaşayan qaçqınların məsələləri də bu qəbildəndir.

Lakin burada, Azərbaycan torpağında olarkən ilk əvvəl kömək etmək lazımdır ki – bu məsələdə qardaşımız Şeyxülislamla tamamilə həmrəyik – münaqişənin həlli üçün mümkün olan hər bir iş görülsün.

Biz siyasi qərar qəbul edə bilmərik, lakin mənəviyyat, insanlıq baxımından dövlət xadimlərinə üz tutacağıq ki, bu problem həll olunsun. Çünki bu problemin arxasında milyonlarla insanın taleyi durur.

Sizin çox obrazlı dediyiniz kimi, onlar çadırlarda, başları üstündə dam olmadığı bir şəraitdə doğulur, yeni ailələr qurur, həyatdan gedirlər. Bax, bu, həmin məsələnin həllinə çağırmaq üçün bizi mümkün olan bütün tədbirləri, bizdən asılı olan tədbirləri görməyə bir daha sövq etməlidir.

Azərbaycana dəfələrlə dəvət etdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirmək istərdim. Düşünürəm ki, hər şey zamanın xeyrinə edilir. Məsələn, Vladimir Vladimiroviç də XXI əsrdə, üçüncü minillikdə xaricə ilk səfərini Azərbaycana etmişdir.

Bu, XXI əsrdə, üçüncü minillikdə mənim Moskvadan kənara ilk səfərimdir. Bu, yaxşı başlanğıcdır və o, davam etdiriləcəkdir. Burada gördüyümüz qonaqpərvərlik də çox səmimi oldu, qəlbimizi riqqətə gətirdi. Biz onu heç vaxt unutmayacağıq. Qardaşımız Şeyxülislam Paşazadə ilə, Sizin tapşırığınızla bizi müşayiət etmiş dövlət müşavirinizlə bu günlər ərzində həmişə birlikdə olduğumuza görə minnətdarıq. Biz Azərbaycanın bir çox dövlət xadimləri ilə görüşdük, onların sülhə sadiqliyinin və Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın çiçəklənməsini istədiklərinin şahidi olduq.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

## TƏLƏBƏLƏRİN, ŞAGİRDLƏRİN VƏ İDMANÇILARIN BİR QRUPUNA AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞININ İLK ŞƏXSİYYƏT VƏSİQƏLƏRİNİ TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ

*Prezident iqamətgahı*

*29 may 2001-ci il*

Əziz gənclər, idmançılar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin bir vacib tədbiri də həyata keçirilməyə başlanır. Azərbaycan müstəqillik əldə edəndən sonra, təbiidir ki, bütün qanunlar, qaydalar Azərbaycanın dövlət müstəqilliyinin bütün cəhətlərini nümayiş etdirməlidir. Bu baxımdan Azərbaycan vətəndaşlarının vətəndaşlığını təsdiq edən sənədlərin də hazırlanması lazım idi. Bizim Milli Məclis bu barədə qanunlar qəbul etmiş, müvafiq nazirliklər onlara verilən tapşırıqlar əsasında müəyyən işlər aparmış və indi Azərbaycanda vətəndaşların vətəndaşlığını təsdiq edən sənədlər hazırlanır. Bunların bir qismi verilib, böyük hissəsi də verilməyə hazırdır.

Məndən xahiş etdilər ki, Azərbaycanın gənclərinə, qabaqcıl idmançılarına, yəni Azərbaycanın gələcəyinə ilk vətəndaşlıq vəsiqəsini mən təqdim edim. Ona görə də mən buna razılıq vermişəm, siz buraya dəvət olunmusunuz. İndi mən vətəndaşlıq vəsiqələrini sizə təqdim edəcəyəm.

Müstəqil Azərbaycanın vətəndaşlıq vəsiqəsini almağınız münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm.

Hər bir Azərbaycan vətəndaşı fəxr etməlidir ki, onun müstəqil dövləti var, onun dövləti dünyada tanınıb və öz layiqli yerini tutur, onun dövləti Azərbaycan xalqını, ölkəmizin bütün vətəndaşlarını gələcəyə uğurla aparır. Siz birinci belə vətəndaşlardansınız. Ancaq burada məlumat verdilər ki, Azərbaycanın bütün vətəndaşları vətəndaşlıq vəsiqəsini alacaqlar. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Daxili İşlər Nazirliyinin yerlərdəki müvafiq təşkilatları bu işi lazımi səviyyədə təşkil edəcək, həyata keçirəcək, heç bir qanun pozuntusuna yol verməyəcəklər. Necə ki bu gün mən xoş sifətlə, çox böyük sevinc hissi ilə bu vəsiqələri Azərbaycanın gənc vətəndaşlarına təqdim etdim, eləcə də hər bir bölgədə, rayonda Azərbaycanın dövlət orqanının nümayəndələri, Daxili İşlər Nazirliyinin işçiləri bu vəzifəni şərəflə yerinə yetirməlidirlər. Onlar bilməlidirlər ki, bu mənim üçün – Azərbaycan prezidenti üçün şərəfli olduğu kimi, bu işi görən hər bir Azərbaycan məmuru üçün də şərəfli olmalıdır. Azərbaycanda, müstəqil ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi artıq yüksək səviyyədədir. Biz dövlətimizi qurmaq, yaratmaq, inkişaf etdirmək üçün çoxlu qanunlar, məcəllələr qəbul etmişik. Bunun nəticəsində Azərbaycan dövlətini müstəqillik elan edildikdən indiyə qədər, tutduğumuz yolla – demokratiya, azadlıq yolu ilə irəliyə aparırıq.

Biz dünən, ondan öncəki günlər Azərbaycanın milli bayramını – İstiqlaliyyət günü, Respublika günü bayramını qeyd etdik. Azərbaycan ictimaiyyəti həm o ərəfədə, həm də bayram günlərində bu barədə bizim gördüyümüz işlər haqqında kifayət qədər məlumat aldı.

Bu ilin sonunda Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd edəcəyik. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Bunun üçün dövlət tərəfindən lazımi sənədlər yaradılıbdır. Mən geniş fərman vermişəm. Tədbirlər planı hazırlanıb həyata keçirilir. Burada hər bir təşkilatın, hakimiyyət orqanının üzərinə düşən vəzifələr var. Bu vəzifələri layiqincə yerinə yetirmək lazımdır.

Biz müstəqilliyimizin onuncu ildönümünə gedərkən iftixar hissi ilə deyə bilərik ki, ötən dövrdə çox iş görmüşük. Ən əsası da ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyini qorumuşuq, saxlamışıq və Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və onun böyük gələcəyi artıq xülya deyildir, bizim gözlərimizin qarşısında görünən perspektivlərdir.

Mən dəfələrlə demişəm ki, Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Bunu bu gün də demək istəyirəm. Müstəqil Azərbaycanın atributlarından biri olan şəxsiyyət vəsiqəsinin məhz sizə – gənclərə təqdim olunması onu göstərir ki, həqiqətən, bizim ümidimiz, gələcəyimiz gənclərdir, sizsiniz.

Mən güman edirəm ki, siz bugünkü bu hadisəni yüksək qiymətləndirəcəksiniz. Ancaq təkcə siz yox, çünki Azərbaycanın bütün gənclərini, təbiidir ki, bir yerə toplamaq çox çətin olardı, amma siz bütün Azərbaycan gəncliyini təmsil edirsiniz.

Sizin simanızda mən bu gün Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsini bütün gənclərə təqdim edirəm. Ümid edirəm ki, gənclər bizim işlərimizin sədaqətli davamçısı olacaqlar.

İşlərimiz çoxdur. Nailiyyətlərimiz də var. Amma hələ həll olunmayan problemlər də vardır. Qarşıdakı yolumuz da hələ asan deyildir. İndiyə qədər çox ağır bir dövr yaşadıq. Çox enişli-yoxuşlu yollardan keçdik. Dövlətimizi yaşatdıq. Ancaq dövləti daim müstəqil yaşatmaq üçün, müstəqilliyimizi əbədi etmək üçün heç vaxt arxayınlaşmaq olmaz. Əldə olunan nailiyyətlərlə heç vaxt kifayətlənmək olmaz. Bizim hər addımımız, hər bir irəliləyişimiz bizə daha da çox güc verir. Bizim hamımıza gələcəyin yolunu göstərir. Azərbaycanın prezidenti kimi, şəxsən mən öz vəzifəmi, öz həyatımı belə təsəvvür edirəm. Yəni burada təkcə təsəvvürdən söhbət getmir, bu, Azərbaycan prezidenti kimi, mənim fəaliyyətimin reallığıdır. Ancaq təkcə mən yox, Azərbaycanın hakimiyyət orqanları, respublikamızın vətənpərvər insanları, ölkəmizin ziyalıları, böyük söz sahibləri, Azərbaycanın Milli Ordusu və dövlətimizin müstəqilliyini qoruyan, ölkəmizdə artıq bir çox ildir ki, ictimai-siyasi sabitliyin qorunub saxlanmasında xidmətlər göstərən orqanların hamısı indiyədək gördükləri işlərdən daha da çox işlər görməlidirlər. Biz bunu edəcəyik. Estafet sizə veriləcəkdir.

Arzu edirəm ki, siz bizdən də yaxşı işləyəsiniz, Azərbaycanı bizdən də yüksəklərə qaldırasınız. Biz bunun üçün əsas yaradırıq. Deyə bilərəm ki, çox dəyərli əsas yaradırıq. Bunun üçün siz bəlkə də bizim keçdiyimiz bu faciəli yollardan keçməyəcəksiniz. Bəlkə də bizim rastlaşdığımız təhlükələrlə üzləşməyəcəksiniz. Amma eyni zamanda, bilmək lazımdır ki, Azərbaycan bir müstəqil dövlət kimi, daim öz müstəqilliyinin qorunması keşiyində durmalıdır, iqtisadiyyatı daim inkişaf etdirməlidir. Azərbaycan vətəndaşlarının rifah halını yaxşılaşdırmalıdır.

Bizim təbii sərvətlərimiz, böyük iqtisadi, intellektual potensialımız onu deməyə əsas verir ki, Azərbaycan gələcəkdə inkişaf etmiş dövlətlər sırasında ola bilər. Xalqın, demək olar ki, hamısının rifah halını yüksəklərə qaldırmaq mümkündür. Ancaq bunun üçün gərək tutduğumuz yolla gedək, ardıcıl surətdə hərəkət edək və işimizə maneçilik törədənlərin qarşısını alaq.

Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə hələ də Azərbaycanın bir müstəqil dövlət kimi yaşamasına, irəliləməsinə mane olmaq üçün müxtəlif təxribatlar, terror aktları törədən və başqa ziyankar işlər görən qüvvələr vardır. Onların hamısı bir tərəfdən, cinayətkarlığa yuvarlanmış adamlardır, ikinci tərəfdən isə, bu keçid dövründə qeyri-sağlam fikirlərlə yaşayaraq öz şəxsi ambisiyalarını həyata keçirmək məqsədi güdən adamlardır. Ancaq bununla yanaşı, Azərbaycanın böyük iqtisadi potensialı və böyük gələcəyi, Azərbaycanın dünyada çox əhəmiyyətli olan coğrafi-strateji mövqeyi başqa ölkələrin də nəzər-diqqətini cəlb edir.

Biz hər bir ölkə ilə qarşılıqlı surətdə faydalı, sülhməramlı əməkdaşlıq etməyə hazırıq və edirik. Ancaq, təəssüflər olsun, elə ölkələr var ki, onlar hələ böyük ambisiyalarla yaşayırlar, başqa ölkənin hesabına ya öz ərazisini genişləndirmək istəyirlər, yaxud başqa ölkənin iqtisadiyyatını əlinə keçirib özləri üçün mənfəət götürmək istəyirlər. Bu faktlar hələ vardır. Amma təkcə indi yox, bu, keçmişdə də olubdur, bu gün də var, gələcəkdə də olacaqdır. Ona görə də gənclər bizim tariximizi, keçmişimizi, xüsusən, son on ildə Azərbaycanın bir müstəqil dövlət, ölkə kimi keçdiyi yolu, onun tarixini yaxşı öyrənməlidirlər. Hər şeydən əvvəl sədaqətli vətəndaş, vətənpərvər azərbaycanlı olmalıdırlar.

Azərbaycan vətənpərvərliyi, müstəqil Azərbaycana sədaqət– bunlar hər bir gəncin ümdə vəzifəsidir. Bizim təhsil ocaqlarında – həm orta məktəblərdə, həm ali məktəblərdə – hər yerdə insanları təhsilləndirənlərin hamısı bu yolla getməlidir. Kimsə bizim gənclərimizi bu yoldan sapdırmaq istəyirsə, onların qarşısı alınmalıdır. Gənclər bu barədə cəsarətli, iradəli olmalıdırlar.

Bir daha deyirəm, Azərbaycanın xoşbəxt gələcəyi üçün gənclər layiqli Azərbaycan vətəndaşı adını şərəflə daşımalıdır, öz ölkəsinin, millətinin, öz xalqının vətənpərvər övladı olmalıdır. Mən bu ümidlərlə, bu arzularla bu gün sizinlə bu görüşə gəlmişəm. Azərbaycan vətəndaşlığının ilk vəsiqələrini verərkən sizə və bütün gənclərə bir daha, bir daha böyük ümidlər bəslədiyimi bildirmək istəyirəm. Sizin hamınıza cansağlığı arzu edirəm. Təhsilinizdə, gələcək işlərinizdə uğurlar arzulayıram. Hər birinizə ailə səadəti arzulayıram. Hər birinizə xoşbəxt gələcək arzulayıram. Sağ olun.

**BMT-nin AZƏRBAYCANDAKI REZİDENT–ƏLAQƏLƏNDİRİCİSİ ERCAN MURAT VƏ BU TƏŞKİLATIN ÖLKƏMİZDƏKİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*30 may 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli Ercan Murat!

Hörmətli dostlar!

Mən belə başa düşürəm ki, bugünkü görüş hörmətli Ercan Muratın Azərbaycandan getməsi ilə əlaqədardır. Bu diplomatik işin, təbiidir, özünün müəyyən qaydaları vardır. Qoymurlar ki, insan bir yerdə çox işləsin, dəyişdirirlər. Yəqin ki, sizi də buna görə dəyişdiriblər. Ancaq belədir ki, biz ölkəmizdə işləyən adamlara öyrəşirik və onların Azərbaycandan getməsinə o qədər də razı olmuruq.

Siz burada işlədiyiniz dövrdə Azərbaycanın müxtəlif təşkilatları ilə səmərəli əməkdaşlıq etmisiniz. Ona görə də mən sizə təşəkkür edirəm. Güman edirəm ki, gələcək işinizdə bundan da yaxşı işləyəcəksiniz. Buyurun, mən sizi dinləyirəm.

**E r c a n M u r a t :** Cənab Prezident, icazə verin, vaxt tapıb bizi qəbul etdiyinizə görə öz adımdan, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı ixtisaslaşmış qurumlarına rəhbərlik edən və bu görüşün iştirakçısı olan həmkarlarım adından Sizə təşəkkürümü bildirim.

Siz Birləşmiş Millətlər Təşkilatının müxtəlif strukturlarının Azərbaycanda fəaliyyətinə daim dəstək vermisiniz. Ona görə bugünkü görüşü də biz müstəsna hal kimi qəbul etmirik.

Qərara aldıq ki, Sizinlə bugünkü görüşümüzdə son dörd ildə – həmkarlarımla birlikdə burada fəaliyyət göstərdiyim müddətdə həyata keçirdiyimiz tədbirlər, gördüyümüz işlər barədə Sizə qısaca məlumat verək. Ondan sonra gələcək planlarımızı Sizinlə bölüşək. Sizin tövsiyələrinizi və məsləhətlərinizi dinləyək.

**H e y d ə r Ə l i y e v:** Ancaq qısaca.

**E r c a n M u r a t:** Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda diqqət yönəltdiyi əsas sahə sizin hökumətinizin ölkənizdəki qaçqınların və məcburi köçkünlərin həyatının yaxşılaşdırılmasına yönəldilmiş səylərinə dəstək vermək olmuşdur. Biz bu sahədə əməkdaşlığımızın nəticələrindən çox məmnunuq. Xüsusilə biz bəzi məcburi köçkünlərin öz yurd-yuvalarına dönməsindən, məsələn, Horadiz qəsəbəsində öz əvvəlki yaşayış yerlərində məskunlaşaraq yeni həyata başlamalarından çox məmnunuq.

Bu baxımdan biz Abid Şərifovun idarəsi ilə çox müvəffəqiyyətlə əməkdaşlıq etmişik və bu işimiz davam edir. Eyni zamanda sizin hökumətinizlə, dövlət strukturları ilə iqtisadi və sosial sahələrdə də bir sıra layihələr həyata keçirmişik. O cümlədən dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iş yerlərinin açılması, uşaqların problemlərinin həll olunması sahələrində uğurlu əməkdaşlıq etmişik. Biz bu fəaliyyətimizi həyata keçirərkən, BMT-nin Azərbaycandakı altı təşkilatı kimi yox, vahid bir mərkəzdən əlaqələndirilmiş halda işləmişik. Hesab edirik ki, bu, səmərəli olubdur. O mənada ki, sizin hökumətiniz bizim fəaliyyətimizi daim dəstəkləyibdir, bizim ixtisaslaşmış ayrı-ayrı təşkilatlarımızı vahid mərkəz kimi qəbul edibdir. Biz də sizin hökumətinizlə bu sahədə uğurlu əməkdaşlıq etmişik.

Gələcək planlarımız barədə də fikirlərimi Sizinlə bölüşmək istəyirəm. Biz çox məmnunuq ki, sizin hökumətiniz olduqca mühüm qərar qəbul edərək, Azərbaycanı bu gün dünyada mövcud olan informasiya-texnologiya səviyyəsinə qaldırıbdır. Bu baxımdan biz xüsusilə cənab Ramiz Mehdiyevlə çox yaxından əməkdaşlıq edirik ki, sizin hökumətinizdə informasiya-texnologiya siyasətini tam yüksək səviyyəyə qaldıraq.

Biz həmçinin sizin təşəbbüs göstərərək Neft Fondu yaratmağınızı və bu fondda toplanan vəsaitlərin xalq üçün istifadə olunması sahəsindəki səylərinizi tam dəstəkləyirik. Həm də mənim həmkarlarım bu işdə sizə hər cür dəstək verməyə hazırdırlar.

Cənab Prezident, sonda onu bildirmək istəyirəm ki, masanın bu tərəfində əyləşən həmkarlarımla biz ölkəniz sülh əldə etdiyi zaman bir komanda halında ona yardım göstərməyə hazır olmağımız haqda yekdil fikrə gəlmişik.

Biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Sizin ardıcıl olaraq göstərdiyiniz səyləri çox heyranlıqla izləyirik və bildirirəm ki, Azərbaycan münaqişəni həll etdikdə, problem sülh yolu ilə aradan qaldırıldıqda, biz Azərbaycana yardım, hər cür kömək göstərməyə hazırıq.

Nəhayət, bir neçə kəlmə də şəxsi düşüncələrimi, müşahidələrimi Sizinlə bölüşmək istəyirəm. Cənab Prezident, mən burada, demək olar ki, dörd il çalışdım.

Bu müddətdə Azərbaycanı, Bakını, azərbaycanlıları çox sevdim. Mən burada çalışmağımdan çox böyük məmnunluq duydum. Özümü öz ölkəmdə olduğum kimi hiss etdim, öz dilimdə danışdım. Bütün bunlara görə Sizə və Sizin vasitənizlə bütün Azərbaycan xalqına dərin təşəkkürümü və minnətdarlığımı çatdırmaq istəyirəm.

Möhtərəm Prezident, əgər Sizin mənə və mənim həmkarlarıma hər hansı sualınız olarsa, cavab verməyə hazırıq.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Sualım yoxdur. Çünki sual vermək asandır, amma işləmək lazımdır.

Burada dörd il müddətində səmərəli fəaliyyət göstərdiyinizə görə sizə bir daha təşəkkür edirəm. Gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Siz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını dəstəkləyirsiniz. Sülh əldə ediləndən sonra siz Azərbaycana lazımi yardımlar edəcəksiniz.

Ona görə təşəkkür edirəm.

Ancaq öncə məsələni sülh yolu ilə həll etmək lazımdır.

Təəssüflər olsun, nə qədər acı da olsa, deməliyəm ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu məsələnin həll olunmasında çox passivlik göstəribdir. Biz dəfələrlə demişik ki, 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan–Azərbaycan münaqişəsinə dair dörd qətnaməsi olubdur. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü tanınıb və Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxması tələb olunubdur.

Mən Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin iclasında mərkəzi kürsüdən bir neçə dəfə çıxış edib bu məsələləri yada salmışam və Azərbaycanın bu barədə həm narazılığını, həm də arzularını, istəklərini, tələblərini bildirmişəm. Ancaq təəssüflər olsun ki, bunların heç biri hələ nəticə verməyibdir. Doğrudur, Birləşmiş Millətlər Təşkilatı onunla kifayətlənir ki, indi bu məsələ ilə ATƏT, onun Minsk qrupu və bu qrupa rəhbərlik edən dünyanın üç böyük dövləti məşğul olurlar. Amma bu, Birləşmiş Millətlər Təşkilatının və onun Təhlükəsizlik Şurasının üzərində olan məsuliyyəti heç də götürmür.

Bu günlərdə mən Azərbaycanın milli bayramı – Respublika günü münasibətilə Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annandan təbrik məktubu almışam. Bu təbrik məktubunda da cənab Kofi Annan bəyan edir ki, məsələnin sülh yolu ilə həll olunmasını istəyir və münaqişə sülh yolu ilə həll edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının torpaqlarımızda bərpa işlərinə yardım edəcəyini bəyan edir. Bu arzulara görə təşəkkür edirəm. Ancaq əsas məsələ həll olunmalıdır. Əgər əsas məsələ həll olunmasa, münaqişə aradan qaldırılmasa, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmasa, verilən sözlər havadan asılı qalacaqdır.

Mən bilirəm ki, siz bu işlərə bilavasitə cavabdeh deyilsiniz. Amma siz Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda nümayəndələrisiniz. Ona görə də mən bunları sizə bilavasitə deyərək, eyni zamanda ümid edirəm ki, siz bizim bu narazılığımızı və tələblərimizi Birləşmiş Millətlər Təşkilatının rəhbərliyinə və Təhlükəsizlik Şurasına çatdıracaqsınız.

Biz real hərəkətlər və nəticələr gözləyirik. Amma indi bizə verilən vədlərin hamısı bundan sonrakı işlərə aiddir. Mən yenə də bildirirəm ki, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Amma nə qədər çətinliklər olduğunu siz görürsünüz. Qaçqın kimi çadırlarda yaşayan insanların vəziyyətini, yəqin ki, siz hamıdan çox görürsünüz. Dünyanın heç bir ölkəsində bu qədər qaçqın yoxdur. Dünyanın heç bir ölkəsində yerini-yurdunu itirmiş insanlar bu qədər ağır vəziyyətdə yaşamırlar. Amma beynəlxalq təşkilatların bu məsələlərə biganə yanaşması, təbiidir ki, bizi təəccübləndirir və incidir.

Mən görülən işlər üçün sizə bir daha təşəkkür edirəm. Siz başqa yerə işə gedirsiniz. Amma burada iştirak edən sizin həmkarlarınız Azərbaycandadırlar. Arzu edirəm ki, onlar mənim bu sözlərimi də daim nəzərə alsınlar.

**E r c a n M u r a t:** Cənab Prezident, çox sağ olun. Bizə verdiyiniz məsləhətləri açıq-aydın eşitdik. Əmin ola bilərsiniz ki, mən sizin ölkənizi tərk etməmişdən öncə Sizin bu fikirlərinizi Birləşmiş Millətlər Təşkilatının Baş katibinə də yetirəcəyəm. Bizi qəbul etmək üçün vaxt ayırdığınıza və verdiyiniz dəstəyə görə Sizə «çox sağ olun!» deyirəm. Mən həm Sizə, həm də Azərbaycana gələcəkdə daha böyük uğurlar arzulayıram. Sağ olun.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

## LİVAN RESPUBLİKASI BAŞ NAZİRİNİN ŞƏXSİ NÜMAYƏNDƏSİ, PARLAMENTİN ÜZVÜ ƏKBƏR ŞUHEYB İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*30 may 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mənə dedilər ki, dostum, Livanın Baş naziri cənab Həririnin tapşırığı ilə Azərbaycana gəlmisiniz. Buyurun, sizi dinləyirəm.

**Ə k b ə r  Ş u h e y b**: Cənab Prezident, hər şeydən əvvəl, bizi qəbul etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Mən eşitdiyimə görə, Siz səfərə hazırlaşırsınız. Belə məhdud vaxt çərçivəsində məni qəbul etdiyinizə görə Sizə minnətdaram və səfərinizdə Sizə uğurlar diləyirəm. Eyni zamanda, Sizin razılığınız olmasına baxmayaraq, bu görüşə gecikdiyimizə görə üzr istəyirik. Çünki bizim regionda yaranmış vəziyyət bura gəlməyimizə bir qədər mane oldu.

Mən Baş nazir cənab Həririnin tapşırığı ilə onun məktubunu Sizə təqdim etmək üçün Azərbaycana gəlmişəm. Eyni zamanda, cənab Həririnin təşəkkürünü Sizə yetirmək istəyirəm. Cənab Həririnin hakimiyyətdə olub-olmamasından asılı olmayaraq, Siz daim onu diqqət və qayğı ilə əhatə etmisiniz. Biz bunu həqiqi dostluğun və xoş münasibətlərin təzahürü kimi qəbul edirik. Eyni zamanda, fürsətdən istifadə edib, cənab Həririnin Sizə Livana səfər etmək barədə dəvətini çatdırmaq istəyirəm. Cənab Həriri də yaxın zamanlarda Azərbaycana gəlmək niyyətindədir. Amma eyni zamanda, onun Sizi də Livanda görmək arzusunda olduğunu bildirirəm. Təbii ki, bu səfərlər xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin, dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Baş nazir Həriri regionumuzda yaranmış vəziyyətlə bağlı son dərəcə məşğuldur. Bilirsiniz ki, Yaxın Şərqdə vəziyyət çox təhlükəlidir. O, bununla yanaşı, Parisdə keçirilmiş birinci görüşdən sonra orada keçiriləcək ikinci görüşə hazırlıq işləri ilə məşğuldur. Paris görüşləri, əsasən, müharibədən sonra Livanda yaranmış çətin vəziyyətdə ölkəyə sərmayə qoyuluşu, investisiyaların cəlb olunması məqsədini daşıyır. Bu həmin görüşlərin bizə aid olan hissəsidir.

Digər bir məsələ ilə də bağlı cənab Həririnin sözlərini Sizə çatdırmaq istəyirəm. Biz Azərbaycanın qanunlarına son dərəcə böyük hörmətlə yanaşırıq. Bildiyiniz kimi, Azərbaycanda bir neçə gənc Livan vətəndaşı həbs olunmuşdur. Onların valideynləri Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərirlər. Onlar böyük investorlardır. Bu gənclər Azərbaycana gələn ilk livanlılardır. Təbiidir ki, müəyyən problemlər yaranmış və onlar da Azərbaycanın qanunlarına hörmətlə yanaşmamışlar. Onlar indiyədək saxlanılırlar.

Cənab Prezident, Baş nazir Həriri Sizdən xahiş edir ki, bu məsələyə humanizm mövqeyindən yanaşaraq, mümkün olan köməyi göstərəsiniz. Eyni zamanda, cənab Həriri onlara göstərilən diqqətə və xoş rəftara görə təşəkkürünü bildirir. Təbiidir ki, bu Sizin üçün yeni bir hadisə deyildir. Mən göstərəcəyiniz mərhəmətə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Mən çox məmnunam ki, dostum cənab Həriridən mənə salamlar və məktub gətirmisiniz. Mən onun dəvətini qəbul edib Livana mütləq ziyarətə gələcəyəm. Eyni zamanda, mən bir daha onu Azərbaycana dəvət edirəm və bundan çox məmnun olardım. Bilirsiniz ki, o bir dəfə burada olubdur, biz görüşmüşük və çox yaxşı danışıqlar aparmışıq.

Mən onun məktubunu diqqətlə oxuyacağam. Tezliklə bu məktuba cavab verəcəyəm.

Sizin qaldırdığınız məsələ haqqında məndə heç bir məlumat yoxdur. Bir halda ki, Siz bu məsələni qaldırırsınız və mən belə başa düşdüm ki, sizin Baş nazir bu barədə narahatdır. Mən müvafiq orqanlara mütləq göstəriş verəcəyəm ki, onlar, birincisi, bunu araşdırsınlar, həmin adamlar nə üçün cəzalandırılıblar. İkincisi, onların vəziyyətini yüngülləşdirmək və yaxud onları bu cəzadan azad etmək üçün nə etmək olar. Hər halda, hamısı qanun çərçivəsində olmalıdır.

Mən prezident kimi, qanunu poza bilmərəm. Qanun məndən yüksəkdir.

Ancaq, hər halda, qanun çərçivəsində çalışarıq ki, edək.

Sağ olun. Sizə bir də təşəkkür edirəm. Mənim salamlarımı və xoş arzularımı dostum Həririyə çatdırın.

**Ə k b ə r  Ş u h e y b:** Cənab Prezident, bir məsələ qaldı.

**H e y d ə r  Ə l i y e v:** Bəli.

**Ə k b ə r  Ş u h e y b:** Bir məsələni də qeyd etmək istəyirəm ki, mən parlamentdə Valid Cumbulatın təmsil etdiyi partiyanın nümayəndəsiyəm.

**Heydər Əliyev:** Hə...

**Əkbər Şuheyb:** Cənab Prezident, onun atası Kamal Cumbulat idi. Valid Cumbulat Sizə salam yetirməyi mənə tapşırıbdır.

**Heydər Əliyev:** Kamal Cumbulatı mən tanıyırdım. Çox sağ olun. Mənim də salamlarımı yetirin.

**Şibli Şəfiq əl-Misri** (*Qonaqla birlikdə Azərbaycana gəlmiş tərcüməçi*): Cənab Prezident, icazə verin, Sizə tərcüməçi kimi müraciət edim. Mən Sizi çoxdan tanıyanlardanam. Mən Sovet İttifaqına 1973-cü ildə gəlmişdim. Hələ o zaman Sizin adınız kifayət qədər məşhur idi. Ancaq Sizin kimi güclü, müdrik insan, siyasətçi hakimiyyət sükanı arxasında bu qədər uzun müddət dura bilərdi. Mən Sizə, Sizin həyat təcrübənizə, müdrikliyinizə dərin hörmətimi bildirirəm. Buraya cənab Həririnin nümayəndəsi kimi, biz Sizin köməyinizə ümidlə gəlmişik.

Xalqlarımızın tarixində ümumi cəhətlər çoxdur. Düşünürəm ki, biz çətinlikləri birlikdə dəf edəcəyik. Sizə və Sizin rəhbərliyinizlə Azərbaycana böyük gələcək arzulayırıq.

**Heydər Əliyev:** Sağ olun. Belə başa düşdüm ki, Siz Livan vətəndaşısınız, amma rus dilini bilirsiniz.

**Şibli Şəfiq əl-Misri:** Mən livanlıyam, amma Moskvada oxumuşam, Həririnin müşaviriyəm.

**Heydər Əliyev:** Siz Sovetlər İttifaqına 1973-cü ildə gəlmişdiniz?

**Şibli Şəfiq əl-Misri:** Mən Sovetlər İttifaqına 1973-cü ildə gəlmiş və oradan 1984-cü ildə getmişəm.

**Heydər Əliyev:** Bəs harada oxumusunuz?

**Şibli Şəfiq əl–Misri:** Mən Moskva Baytarlıq Akademiyasında oxumuşam, hələ o vaxtlar siyasi fəaliyyətlə məşğul olurdum.

**Heydər Əliyev:** Çox xoşdur. Zənnimcə, Cumbulat məhz 1973-cü ildə burada olmuşdu. Biz burada görüşmüşdük. Sonralar mən onun fəaliyyətini izləyirdim. Sonra o, dünyasını dəyişdi. Yerinə qardaşı keçdi. Xoş sözlərinizə görə Sizə təşəkkür edirəm, uğurlar arzulayıram. İstədiyiniz vaxt Azərbaycana gəlin.

**Şibli Şəfiq əl-Misri:** Bizim üçün çox əhəmiyyətli olan bu görüşə görə təşəkkür edirəm.

**Heydər Əliyev:** Sağ olun.

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QAPALI İCLASI**

*Minsk,*
*Belarus Respublikası Prezidentinin iqamətgahı*

*1 iyun 2001-ci il*

*İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Gürcüstan, Moldova, Özbəkistan, Rusiya və Ukrayna prezidentləri iştirak edirdilər.*

*İclası giriş sözü ilə açan Belarus prezidenti Aleksandr Lukaşenko dövlət başçılarını səmimiyyətlə salamlayaraq dedi ki, indiki toplantı faciəli bir hadisənin – Böyük Vətən müharibəsinin başlanmasının 60-cı ildönümü ərəfəsinə təsadüf edir.*

*MDB Ölkələri Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının prezidenti Vladimir Putin növbəti görüşün yüksək səviyyədə təşkilinə görə Belarus tərəfinə, cənab Aleksandr Lukaşenkoya prezidentlər adından təşəkkürünü bildirdi. Eyni zamanda Dövlət Başçıları Şurasının iclasında ilk dəfə iştirak edən Moldova prezidenti Vladimir Voronini təqdim etdi və həmin vəzifəyə seçilməsi münasibətilə onu hamının adından təbrik etdi.*

*İclasda beynəlxalq vəziyyət, MDB-nin yaranmasının 10 illiyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Vladimir Putin Şuranın növbəti iclasının işinə uğurlar arzuladı.*

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ İCLASI**

*Minsk,*
*Belarus Respublikası Prezidentinin*
*iqamətgahının Respublika salonu*

*1 iyun 2001-ci il*

*Gündəliyə Böyük Vətən müharibəsinin başlanmasının 60 illiyi ilə əlaqədar MDB ölkələri dövlət başçılarının birliyin üzvü olan ölkələrin xalqlarına və dünya ictimaiyyətinə müraciəti haqqında, kompüter informasiyası sahəsində cinayətkarlıqla mübarizədə əməkdaşlıq barədə saziş haqqında, Çernobıl AES-də qəzanın 15 illiyi ilə əlaqədar tədbirlər haqqında, MDB Ölkələrinin Antiterror Mərkəzi barədə Dövlət Başçıları Şurasının qərarının yerinə yetirilməsinin gedişi haqqında məlumat, azad ticarət zonasının formalaşdırılmasının gedişi haqqında məlumat, 2000-ci ildən 2003-cü ilədək olan dövrdə cinayətkarlıqla birgə mübarizə tədbirlərinə dair dövlətlərarası proqramın və 2003-cü ilədək olan dövrdə beynəlxalq terrorizmlə və ekstremizmin digər təzahürləri ilə mübarizəyə dair proqramın yerinə yetirilməsinin gedişi barədə bir sıra digər məsələlər daxil idi.*

*İclasa sədrlik edən Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının prezidenti Vladimir Putin müzakirə olunacaq məsələlərdən danışarkən, Böyük Vətən müharibəsinin başlanmasının 60 illiyini xüsusi vurğuladı.*

*O dedi ki, muharibənin ağır dərsləri insanların yaddaşında həmişəlik qalmalı, zəkaya deyil, zor işlətməyə üstünlük verənlərə sərt xəbərdarlıq olmalıdır.*

*Cənab Putin beynəlxalq terrorizmə qarşı mübarizənin aktuallığına toxunaraq, Antiterror Mərkəzin dəqiq və səmərəli işləməsinə nail olmağın vacibliyini söylədi. Onun fikrincə, gürcü-abxaz münaqişəsi zonasında sülhün qorunmasına beynəlxalq təminat yaradılmasında BMT və ATƏT-lə yanaşı, MDB də fəal iştirak etməlidir.*

*MDB-nin yaranmasının 10-cu ildönümündən söhbət açan Dövlət Başçıları Şurasının sədri vurğuladı ki, bu yubiley birliyin fəaliyyətinə yekun vurmaq və onun inkişaf perspektivlərini müəyyən etmək üçün yaxşı imkandır. Rusiya prezidentinin fikrincə, MDB-nin gələcəyi mücərrəd sxemlər və dəbdəbəli şüarlar deyil, praqmatizm və işgüzar əhval-ruhiyyə üzərində qurulmalıdır. Ona görə də qarşıda böyük və gərgin iş durur və bu sahədə uğurlar bizim fəaliyyətimizin səmərəliliyindən və nəzərdə tutulan nəticələrə nail olmaq bacarığımızdan asılı olacaqdır.*

*Sonra gündəlikdəki məsələlərlə bağlı müzakirələr oldu.*

*İclasda Böyük Vətən müharibəsinin başlanmasının 60 illiyi ilə əlaqədar birliyin üzvü olan dövlətlərin xalqlarına müraciət, Çernobıl AES-də qəzanın 15 illiyi ilə əlaqədar BMT-nin üzvü olan dövlətlərə müraciət, habelə gündəlikdəki digər məsələlər haqqında qərarlar qəbul edildi.*

*Dövlət Başçıları Şurasının növbəti iclasının 2001-ci il noyabrın 30-da Moskvada keçirilməsi qərara alındı.*

*Sonra sənədlərin imzalanması mərasimi keçirildi.*

## MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MİNSK ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ NÖVBƏTİ GÖRÜŞÜNDƏN QAYIDARKƏN, BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*1 iyun 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Sizi, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının sammitində iştirakım və yəqin ki, orada aparılan söhbətlər, onların nəticəsi, qəbul olunan sənədlər maraqlandırır. Bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Çünki hesab edirəm ki, bunların hamısı televiziya və radio vasitəsilə işıqlandırılıb, verilibdir.

Yəqin ki, bizim üçtərəfli, dördtərəfli görüşlərimiz sizi daha çox maraqlandırır. Bilirsiniz ki, dünən, Minskə gəldiyim gün prezident Putin, Ermənistan prezidenti, bir də mən üçtərəfli görüş keçirdik. Çox geniş müzakirə apardıq.

Müzakirə nəticəsində belə fikrə gəldik ki, sülh danışıqlarını hələ bundan sonra da davam etdirmək, bəzi məsələlərə yenidən baxmaq, beləliklə, münaqişənin sülh yolu ilə həll edilməsinə nail olmaq lazımdır. Mən sizə bu barədə başqa heç nə deyə bilmərəm. Təbiidir ki, bu söhbətlər məxfi xarakter daşıyır, üç prezident arasındadır. Amma nəticəsi bundan ibarətdir.

Dünən dördtərəfli görüşlər də oldu. Orada da əsasən, yenə Qafqazda sabitlik, əməkdaşlıq məsələləri müzakirə olundu. Təbiidir ki, biz bu prosesdə iştirak edirdik. Amma mən əvvəllər də bəyanat vermişəm, dünən də bəyanat verdim. Dünən mətbuat konfransı oldu, orada da mən dedim ki, təbiidir, bizə dördtərəfli əməkdaşlıq lazımdır, onu davam etdirmək gərəkdir. Ancaq Ermənistan–Azərbaycan münaqişəsi həll olunmasa, o danışıqlar bir o qədər əhəmiyyətli ola bilməz. Çünki Gürcüstan Ermənistanla, təbiidir, bütün sahələrdə əməkdaşlıq edə bilər. Gürcüstan Rusiya ilə, Rusiya Ermənistanla, Gürcüstanla, Azərbaycanla, eləcə də Gürcüstan Azərbaycanla əməkdaşlıq edə bilər. Amma biz məsələ həll olunana qədər, yəni sülh əldə edilənə kimi Ermənistanla heç bir iqtisadi əməkdaşlıq edə bilmərik.

Təkcə dövlət başçılarının iştirak etdikləri görüşlərdə, ümumiyyətlə, beynəlxalq aləmdə vəziyyət müəyyən qədər təhlil olundu, fikir mübadiləsi aparıldı.

Müstəqil Dövlətlər Birliyinin on illiyi tamam olur. Biz bu barədə, başqa bir çox məsələlər haqqında fikir mübadiləsi etdik. Danışıqlarda yenə də ancaq prezidentlər iştirak edirdi, başqa heç kəs olmurdu. Ona görə də qalan detalları deməyə ehtiyac yoxdur. Başqa elə bir sözüm yoxdur.

**S u a l: Cənab Prezident, Köçəryanla görüşünüzdən sonra Cenevrədə görüş keçirmək ehtimalı artdı, yoxsa azaldı?**

**H e y d ə r Ə l i y e v:** Mənə elə gəlir ki, azaldı.

**S u a l: Cənab Prezident, burada olmadığınız müddətdə ABŞ səfirliyində bu ölkənin Minsk qrupundakı həmsədri Keri Kavano Azərbaycan və Ermənistan jurnalistləri üçün telekörpü təşkil etmişdi. O belə bir ifadə işlətdi ki, Cenevrə danışıqlarının təxirə salınmasının səbəbi odur ki, münaqişənin həlli yollarının xalqlara çatdırılması üsulları tapılmalıdır. Konkret variantlar varmı və onlar nə vaxt xalqlara çatdırılacaqdır?**

**C a v a b:** Bilirsinizmi, əvvəl gərək variantlar olsun, ondan sonra həmin variantları çatdırmaq olar. Çünki keçən dəfə də onların hamısı birlikdə burada olanda Ağcabədiyə gedərək qaçqınlarla, başqa adamlarla görüşmüşdülər. Mən bilirəm ki, ABŞ-ın buradakı səfirliyi də ictimaiyyətin bu məsələyə münasibətini daim izləyir. Bilirsiniz ki, Kavano bir dəfə Yerevanda olarkən, ya oradan qayıtdıqda demişdi ki, bu məsələlərin həll olunmasında ən çətini odur ki, həm Ermənistan, həm də Azərbaycan ictimaiyyəti bunları qəbul edə bilsin. O bunu deyibdir, yəqin eyni şeyi təkrar edir. Ancaq ictimaiyyətə çatdırmaq üçün gərək əvvəlcə müəyyən razılıq olsun. Əgər bu razılıq olsa və razılığa inanmaq mümkün olarsa, razılığa tam əminlik yaranarsa, ondan sonra başqa proses gedəcəkdir. Yəqin ki, ondan sonra bu məsələyə parlamentdə baxılacaqdır, sonra bu, xalqa çatdırılacaqdır. Nəticədə hamı – həm Ermənistanda, həm də Azərbaycanda – əldə olunan razılıqları qəbul etsələr, deməli, onda məsələnin praktiki olaraq həll edilməsinə başlamaq olar. Ona görə də proses belədir.

**S u a l: Cənab Prezident, Siz Minskə getməzdən əvvəl belə bir ifadə işlətdiniz ki, Cenevrə görüşlərinin, ümumiyyətlə, yay fəslində baş tutub-tutmaması Minsk danışıqlarından asılı olacaqdır. Bu danışıqlarda da Rusiya prezidentinin və Xarici İşlər nazirinin Qarabağla əlaqədar çıxışları onu göstərirdi ki, Rusiya bu məsələdə fəallaşıbdır. Bütün bunlardan sonra Cenevrə görüşlərinin yay fəslində baş tutmasını gözləmək olarmı?**

**C a v a b:** Fəallaşıb, doğrudan da Rusiya fəallaşıbdır. Mən bu gün bunu mətbuat konfransında dedim, eşidəcəksiniz. Mən dedim ki, Rusiya fəallaşıbdır. Rusiya indi Minsk qrupunun həmsədrləri ilə səmimi əməkdaşlıq

edir. Birbaşa Rusiyanın özü də fəallaşıbdır. Məsələn, prezident Putinin iki prezidentlə ayrıca görüşməsi birinci dəfə deyildir. Bu görüş prosesinin əhval-ruhiyyəsi bu sözləri deməyə mənə əsas verir. Amma bu heç də Rusiyanın bu məsələni ayrıca, Cenevrəsiz həll etməsi deyildir. O, yerində qalır. Məsələn, mən Putinlə danışarkən – o, ayın 16-da Lyublyanada Buşla görüşəcəkdir – mənə dedi ki, onların orada olacaq danışıqlarının gündəliyində həmin məsələ də durur.

Həm üç həmsədr ölkələri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa prezidentləri arasında əməkdaşlıq var, həm də ki, Rusiya bu regiona daha yaxın olduğuna görə özü fəallaşıbdır. Əvvəllər biz narazı idik ki, münaqişənin həllində Rusiya fəal iştirak etmir, yaxud da ki, bizim başqa iradlarımız var idi. Amma indi mənim hələ ki, elə bir irad tutmağa əsasım yoxdur.

**S u a l: Cənab Prezident, Keri Kavano həmin telekörpüdə bildirdi ki, danışıqlar sona yaxın mərhələdədir. Ermənistan pozucu mövqeyindən doğrudanmı geri çəkilibdir?**

**C a v a b:** Onu Kavanodan soruşun.

**S u a l: Cənab Prezident, həmsədrlər bildirdilər ki, onları ən çox narahat edən həm də Qırğızıstanın Ermənistanı silahlandırması məsələsidir. Qırğızıstanın Ermənistana silah satması məsələsini Minsk görüşlərində qaldırdınızmı?**

**C a v a b:** Qaldırdın-qaldırmadın, əhəmiyyəti nədir? Deyəsən, ona deyiblər. Mən özüm ona heç bir şey demədim. Çünki bilirəm ki, indiyə qədər neçə ildir, 7 ildir ki, bu söhbətləri aparıram. Onların bu işə münasibətini bilirəm. Amma mənə elə gəlir ki, ondan soruşublar, o da deyibdir ki, xəbəri olmayıbdır, bunu hansısa firma satıbdır. Patronlar haqqında söhbət gedir.

**S u a l: Cənab Prezident, Kavano həmçinin bildirdi ki, Cenevrədən əvvəl Moskvada da Köçəryanla görüşünüz ola bilər. Bu nə dərəcədə düzgündür?**

**C a v a b:** Biz artıq Minskdə görüşdük. Lazım olsa, yenə də görüşəcəyik. Amma Moskva görüşü planlaşdırılmır.

**S u a l: Cənab Prezident, Sizin Rusiyaya rəsmi səfərinizin vaxtı Minskə səfəriniz zamanı dəqiqləşdirildimi?**

**C a v a b:** Dəqiqləşdirilməyib. Rusiya çox, elə ondan sonra da xatırladır ki, mənim rəsmi səfərim olmalıdır. Onlar bunu həqiqətən ürəkdən istəyirlər. Ancaq hələ vaxt var, dəqiqləşdirəcəyik.

**S u a l: Cənab Prezident, bu günlərdə məlum oldu ki, Türkmənistan dənizdə hərbi gücünü artırmaq üçün Ukraynadan 20 kater alır. Bildirdilər ki, bununla Xəzərdə öz hərbi gücünü möhkəmləndirməklə yanaşı, zəngin neft yataqlarına nəzarət etmək fikirləri də var. Azərbaycanın da belə bir addımı – hərbi gücünü artırması nəzərdə tutula bilərmi?**

**C a v a b:** Bilirsinizmi, mən bunu eşitməmişəm. Mən ayın 6-da Yaltada olacağam, orada biz görüşəcəyik. Kuçma ilə görüşəcəyik, mən bunu ondan soruşaram. Ancaq, təəssüflər olsun ki, Türkmənistan Xəzərin statusunun müəyyən edilməsində hələ indiyə qədər lazımi, konstruktiv mövqe tutmur. Biz Türkmənistan prezidenti ilə İstanbulda görüşmüşdük, danışmışdıq ki, ekspertlər görüşsünlər. O dedi ki, qoy gəlsinlər Aşqabada. Mən də bizim ekspertləri oraya göndərdim. Ancaq heç bir nəticə çıxmadı.

**S u a l: Cənab Prezident, Siz indicə dediniz ki, Minskdəki görüşlər Cenevrə görüşünün keçirilməsi ehtimalını azaltdı. Bu o deməkdirmi ki, tərəflər hələ də bir-birinə tamamilə zidd, əks mövqedədirlər?**

**C a v a b:** Bunlar başqa-başqa şeylərdir. Mən artıq izah etdim ki, planlaşdırıldığı kimi, sonrakı görüşün Cenevrədə keçirilməsinin baş tutması üçün şərait lazım idi. Biz dünən görüşdük, biz tamamilə əks mövqelərdə deyilik. Fikir ayrılığı çoxdur, nə ilsə onlar razı deyillər, nəyəsə biz razı deyilik. Amma əgər həmsədrlər görüşməyi təklif etsələr, mən bundan imtina etməyəcəyəm.

**S u a l: Cənab Prezident, həmsədrlər müxalifət nümayəndələri ilə görüşəndə kompromislər məsələsinə müxalifətin sərt münasibətinə cavab olaraq belə bir ifadə işlətdilər ki, «Siz də Heydər Əliyev kimi danışırsınız». Cenevrə görüşünün baş tutmamasının səbəbi onların təklif etdikləri, Sizi təmin etməyən kompromisləri sərt qarşılamağınızdırmı?**

**C a v a b:** Yenə də deyirəm, Kavano hər şey deyə bilər. Amma nə müxalifət mənim kimi danışır, nə də mən müxalifət kimi.

**S u a l: Hörmətli cənab Prezident, bugünkü zirvə görüşündə 10 dövlət başçısından dördü türkdilli ölkələrin dövlət başçıları idi. Özbəkistan, Qırğızıstan və Qazaxıstanın dövlət başçıları ikitərəfli görüşlərində Qarabağ problemi ilə əlaqədar Sizi, heç olmasa, şifahi olaraq dəstəklədilərmi?**

**C a v a b:** Yox. Heç vaxt bildirməyiblər. Hər dəfə deyiblər ki, məsələni həll etmək lazımdır.

**S u a l: Cənab Prezident, son bir ay ərzində xüsusilə Bakıda kriminogen vəziyyət çox gərginləşibdir. Biz bununla günaşırı, iki gündən, üç gündən bir rastlaşırıq. Bu gün də növbəti qətl hadisəsi baş veribdir. Mərkəzi Seçki Komissiyası katibinin qardaşını öldürüblər. Bununla bağlı hər hansı bir tapşırıqlar vermisinizmi?**

**C a v a b:** Bilirsinizmi, mən Azərbaycanda hər şeyə nəzarət etmirəm. Birincisi, sizin müxalifət qəzetləri, televiziyalar təbliğat aparırlar ki, Azərbaycanda kriminogen vəziyyət kəskinləşibdir – bu, düzgün deyildir. Mən bununla

razı deyiləm. Qənirə xanım bir-iki gün bundan öncə Ramil Usubovla danışırdı. O danışanda, bilirsiniz də, başqasına söz deməyə imkan vermir. Sualı verir, cavab almamış təzyiq edir. Onu tanıyırsınız. Mən o verilişə başdan-ayağa qulaq asdım. Birinci, hesab edirəm ki, Usubov bu barədə bizim ictimaiyyətə çox yaxşı məlumat verdi. Bəlkə də bu, lazım idi. Çünki bir var orada-burada yazırlar, bir də var ki, Daxili İşlər naziri çıxıb televiziyada danışır. Mən belə başa düşdüm ki, Qənirə xanım da Usubovla danışandan sonra başa düşdü ki, bunu şişirtməyə ehtiyac yoxdur. İndi siz deyirsiniz ki, bu gün bir hadisə olubdur. Bəli, Usubov mənə məruzə etdi. İndi bunu aydınlaşdırdılar. Onlar bir-biri ilə tanış olan adamlardır. Biri o birini tapanca ilə vurubdur və gəlib özünü təhvil veribdir. Burada bir kriminogenlik yoxdur. Olur ki, kişi arvadını öldürür, gəlib deyir ki, öldürmüşəm. Anasını öldürür, gəlib deyir ki, öldürmüşəm. Nə bilim, bacısını öldürür… belə şeylərlə Azərbaycanda kriminogen vəziyyətin səviyyəsini ölçmək olmaz.

**S u a l: Cənab Prezident, Beynəlxalq Valyuta Fondunun Yerevandakı nümayəndəsi belə bir bəyanatla çıxış edib ki, onun müşahidəsinə görə, Ermənistanda büdcədən hərbiyə ayrılan xərclər Azərbaycanda ayrıldığından çoxdur. Bu onu göstərir ki, orada güclü hərbi hazırlıq gedir. Azərbaycanda bu istiqamətdə hər hansı bir iş görüləcəkmi?**

**C a v a b:** Əgər onlar çox artırırlarsa, Valyuta Fondu niyə bunun qarşısını almır? Çünki Valyuta Fondu bizim büdcələrimizə nəzarət edir. Bizim büdcədə işlərə ayrılan pulların bir limiti var. Ondan artıq ayırmağa qoymur. Onlar bunu müşahidə ediblərsə, gərək ölçü götürsünlər. Amma hər bir ölkə nə etdiyini özü bilir.

**S u a l: Cənab Prezident, Siz, adətən, ölkə qarşısında xidmətləri olan şəxslərin adlarını əbədiləşdirirsiz. Əbülfəz Elçibəyin adını əbədiləşdirməklə bağlı hər hansı bir sərəncamınız gözlənilirmi?**

**C a v a b:** Bilirsinizmi, adam var ki, on il bundan qabaq vəfat edib, adını əbədiləşdirmişəm. Adam var ki, beş il, adam var ki, üç il… Mən indi nə deyə bilərəm, kim layiqdirsə, onun adı əbədiləşdiriləcəkdir.

## NORVEÇİN NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT KATİBİ XANIM BYORD SANDALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 iyun 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Bakı neft-qaz sərgisi sizi yenə də Azərbaycana gətiribdir. Neft-qaz sərgisi ilk dəfə keçirilməyə başlanandan, 1994-cü ildən biz sizinlə bərabərik və bu sərginin həyata keçirilməsində bir yerdə olmuşuq. Ona görə mən çox məmnunam ki, siz bu ənənələrə sadiqsiniz. Buyurun.

**B y o r d S a n d a l:** Cənab Prezident, çox sağ olun. İcazə verin, Sizinlə yenidən görüşməkdən böyük şərəf duyduğumu bildirim. Sizin ölkənizi yenidən ziyarət etmək imkanı əldə etməyimdən olduqca məmnunam. Mən Sizin ölkənizdə əvvəllər də olmuşam. Keçən il isə Bakıdakı neft və qaz sərgisində Norveçi ilk dəfə mən təmsil etmişdim. Bu il yenidən həmin neft və qaz sərgisində dövlətimizin nümayəndə heyətinin rəhbəri kimi, Azərbaycana gəlməyimdən çox məmnunam.

Bu fürsətdən istifadə edərək, mən Norveçin Baş naziri Yens Stoltenberqin ən xoş salamlarını və arzularını Sizə yetirirəm. Bilirsiniz ki, o, Azərbaycanın dostudur və Sizin ölkənizi əvvəllər zirayət edibdir.

**H e y d ə r Ə l i y e v:** Bəli. Təşəkkür edirəm.

**B y o r d S a n d a l:** Cənab Prezident, bir daha məmnun olduğumu bildirmək istəyirəm ki, biz bu sərgidə iştirak etmək üçün Sizin ölkənizi ziyarət edirik. Stolun bu tərəfində Sizin dostlarınız, eyni zamanda Norveçin «Statoyl» şirkətinin təmsilçiləri də əyləşiblər. Onlar Azərbaycanın neft və qaz sənayesində çox yaxından iştirak edən, sərmayə qoyan şirkətlərdən birinin nümayəndələridir. Hesab edirəm ki, belə neft və qaz sərgilərində ölkəmizin siyasi rəhbərliyinin nümayəndələrinin də iştirak etməsi ənənə halını alıbdır.

Biz Azərbaycan ilə münasibətlərimizin hərtərəfli inkişaf etdirilməsində çox böyük perspektivlər görürük və bunda çox maraqlıyıq. Burada olduğum zaman məlumatlar əldə etmişəm ki, Siz son dövrlər ölkənizin hökumət strukturlarında islahatları sürətlə həyata keçirməkdəsiniz. Bu gün sizin Yanacaq və Energetika naziriniz, eyni zamanda İqtisadi İnkişaf naziriniz ilə də bizim görüşümüz oldu. Bu görüşlər çox maraqlı keçdi, amma biz Sizinlə görüşümüzü çox səbirsizliklə gözləyirdik.

Cənab Prezident, Sizin ölkənizdə olduğu kimi, Norveçdə də enerji olduqca mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, bizim ölkələrimizi bir-birinə sıx bağlayan məhz bu məsələdir. Biz bu sahədə çox yaxşı əməkdaşlıq edirik. Hökumətinizdə apardığınız struktur dəyişikliklərində Sizə və Azərbaycan xalqına gələcəkdə də uğurlar arzulayıram.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizin dediyiniz sözlərlə tamamilə razıyam. Həqiqətən Norveç ilə Azərbaycan arasındakı əlaqələr artıq bir neçə ildir ki, yaranıb və çox sürətlə inkişaf edir. Təbiidir ki, bu, birinci növbədə, enerji sektoru ilə əlaqədardır. «Statoyl» Azərbaycanın Xəzər dənizindəki sektorunda bizimlə birgə iş görmək üçün ölkəmizə gələn ilk şirkətlərdən biridir. Xatırlayıram ki, 1994-cü ildə biz ilk sərgini də bir yerdə keçirmişdik və həmin il, 1994-cü ilin sentyabr ayında ilk müqavilə – «Əsrin müqaviləsi» adlanmış müqavilə imzalanmışdır. Həmin müqavilədə «Statoyl»un böyük hissəsi var. Güman edirəm siz də, biz də məmnunuq ki, bu müqavilə özünü doğruldubdur, həyata keçirilibdir və artıq 1997-ci ildə biz neft hasil etmişik, həmin nefti ixrac edirik və mənfəət götürürük. «Şahdəniz» müqaviləsində də «Statoyl» yenə də bizimlə bərabər işləyən şirkətlərdən biridir. Bildiyiniz kimi, biz bu sahədə də yaxşı nəticələr əldə etmişik. Ondan sonra başqa yataqlarda da «Statoyl» təşəbbüslər göstəribdir. Amma təkcə «Statoyl» yox, Norveçin bir çox başqa şirkətləri də – bilavasitə neft hasilatı ilə məşğul olmayan, ancaq neft hasilatını təmin etmək üçün müxtəlif işlər görən şirkətləri də Azərbaycanda çox uğurla fəaliyyət göstərirlər.

Sizin ölkəniz Azərbaycan kimi kiçik ölkə olmasına baxmayaraq, respublikamızda fəaliyyət göstərən şirkətlər içərisində Norveç şirkətləri öncül sıradadırlar. Təbiidir ki, bu, birinci növbədə, onların yüksək səviyyəli iş görməsi ilə əlaqədardır. Eyni zamanda bu bizim ölkələrimiz arasında yaranmış dostluq, əməkdaşlıq əlaqələrinin nəticəsidir. Ölkənizin Baş naziri cənab Stoltenberq Enerji naziri olduğu zaman Azərbaycana bir-iki dəfə səfər edibdir. Biz onunla bir neçə yaxşı görüşlər keçirmişik. İndi məmnunam ki, o sizin ölkənizin Baş naziridir. Mənim salamlarımı və ən xoş arzularımı ona çatdırmağınızı xahiş edirəm.

**B y o r d S a n d a l:** Cənab Prezident, Sizin bu salamlarınızı Baş nazirimizə mütləq çatdıracağam.

Bildiyiniz kimi, Norveçin neft və qaz tarixi Sizin ölkənizlə müqayisədə çox kiçikdir, qısadır. Bununla belə, bizim həm bəxtimiz gətirib, həm də işi ağıllı təşkil etdiyimizə görə kiçik zaman çərçivəsində Norveçdə güclü neft və qaz sənayesi qurub yarada bilmişik.

Cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən Norveç şirkətləri haqqında söylədiyiniz yüksək fikirlərdən məmnun olmaqla bərabər, həm də qürur duydum. Biz də hazırda ölkəmizin enerji sektorunda, neft və qaz sənayesində hökumət siyasətinin müəyyənləşdirilməsində son dövrlər misli görünməmiş dəyişikliklər etməyə başlamışıq. Bu struktur dəyişiklikləri ilk növbədə «Statoyl» şirkətini əhatə edir. Bütün bu dəyişikliklərin əsas məqsədi «Statoyl» üçün daha da güclənmək imkanları, şəraiti yaratmaqdan ibarətdir.

Cənab Prezident, Siz doğru qeyd etdiniz ki, son illər «Statoyl» şirkəti Azərbaycandakı bir sıra layihələrdə fəal iştirak edir. Siz də, mən də hökumət üzvü olaraq, şübhəsiz, investisiyalarda çox maraqlıyıq. Bu baxımdan onu xüsusilə qeyd etmək istəyirəm ki, Norveçin «Statoyl» şirkəti indiyə qədər Azərbaycanın enerji sənayesinə investisiya qoymuş ikinci ən böyük şirkətdir. İnvestisiyaların həcminə görə biz ikinci yerdəyik. Bildirmək istəyirəm ki, Norveçin «Statoyl» şirkəti sizin ölkəniz ilə əməkdaşlığa bundan sonra da sadiq olacaqdır. Onlar Azərbaycanda yeni layihələrlə fəal iştirak etmək niyyətindədirlər. «Statoyl» şirkəti Azərbaycanın inkişafında artıq yeni üfüqlərin meydana çıxdığını da yaxşı görür. Cənab Prezident, mənim üçün çox xoş oldu ki, Sizin dilinizdən həm «Statoyl»un, həm də Norveçin digər şirkətlərinin buradakı fəaliyyəti barədə müsbət fikirlər eşitdim. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

Bəli, sizin ölkənizin neft istehsalı sahəsində tarixi böyük deyil. Amma doğru dediniz, yəqin ki, birincisi, sizə Allah kömək edibdir, əvvəllər Şimal dənizində gözlənilməyən neft və qaz yataqları açılıbdır. İkincisi odur ki, siz neft və qaz sənayesini təmin edən başqa sənaye sektorlarını qısa müddətdə sürətlə inkişaf etdirib yüksək dünya standartları səviyyəsinə çatdıra bilmisiniz. Ona görə də həm «Statoyl», həm də sizin başqa şirkətlər Şimal dənizindən əlavə, indi Xəzər dənizində də işləyirlər, dünyanın başqa yerlərində də iş görürlər. Ölkənizin bu sahədə perspektivləri böyükdür. Dediniz ki, struktur dəyişiklikləri də aparırsınız. Güman edirəm ki, bu sizin işləri daha da yaxınlaşdıracaqdır. Biz sizinlə başqa layihələrdə də əməkdaşlıq etməyə hazırıq. Sizin ölkəniz və şirkətləriniz çox iş görür, ancaq çox ambisiyalı deyillər. Biz burada da bir-birimizə yaxınıq. Ona görə də mən hesab edirəm ki, bizim birgə işlərimizin yaxşı gələcəyi vardır.

**B y o r d S a n d a l:** Cənab Prezident, mən bunu eşitməkdən çox məmnun oldum. Bilirəm ki, sizin ölkəniz və hökumətiniz enerji sektorunda çox ciddi böyük qərarlar qəbul etmək ərəfəsindədir. Mən də öz növbəmdə bu qərarların qəbul olunmasında və həyata keçirilməsində Sizə və ölkənizə uğurlar arzulayıram.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

**B y o r d S a n d a l:** Cənab Prezident, məmnun olduğumu bir daha bildirirəm ki, mən neft və qaz sərgisində iştirak etmək üçün Bakıya gəlmişəm. Sabah həmin neft və qaz sərgisinin açılışında Sizin iştirak edəcəyinizi səbirsizliklə gözləyirəm. Sizi orada yenidən görməkdən məmnun olacağam. Mən sabahkı neft və qaz sərgisində iştirak etməklə bərabər, sərgi çərçivəsində həyata keçirilən konfransda da iştirak edəcəyəm. Bundan əlavə, ölkənizdə olduğum müddətdə mən Norveçin Qaçqınlar Şurasının həm Bakıda, həm də onun ətraf rayonlarında həyata keçirdiyi bir sıra yardım layihələri ilə tanış olacaq, qaçqın düşərgələrinə böyük məmnuniyyətlə baş çəkəcəyəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Mən bundan çox məmnunam.

**B y o r d S a n d a l:** Cənab Prezident, vaxtınızı ayırıb bizi qəbul etdiyinizə görə və bu görüş üçün Sizə bir daha təşəkkürümü bildirirəm. Norveç hökuməti adından bəyan edirəm ki, biz Azərbaycan ilə münasibətlərimizi və əməkdaşlığımızı bundan sonra daha da genişləndirmək, hətta deyərdim ki, daha da gücləndirmək niyyətindəyik. Mən sabah yenidən görüşmək arzusu ilə Sizə təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Biz də belə fikirdəyik. Yəni əməkdaşlığımızı genişləndirmək, gücləndirmək fikrindəyik. Sabah da bir yerdə olacağıq.

**B y o r d S a n d a l:** Məmnuniyyətlə.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

## XALQ ARTİSTİ XURAMAN QASIMOVAYA

Hörmətli Xuraman xanım!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycanda milli vokal sənətinin, opera ifaçılığının inkişafında, onun yeni mərhələyə yüksəlməsində böyük xidmətləri olan bir sənətkar kimi, dərin hörmət qazanmısınız. Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının Sizin ifanızda səslənən əsərləri yaradıcılığınızın ən müxtəlif çalarlarını üzə çıxarır. Sənətkarlığınızın dərin və yaradıcı gücü sayəsində böyük professionallıqla ifa etdiyiniz bu nadir sənət inciləri dinləyicilərimizin yaddaşına birdəfəlik həkk olunmuşdur.

Axtarışlarla dolu qaynar yaradıcılıq fəaliyyəti Sizi sənət meydanında layiq olduğunuz zirvələrə ucaltmışdır. Məlahətli səs, böyük ustalıq və yüksək səhnə mədəniyyəti ilə səciyyələnən bu yaradıcılıq dünyası sənətkar şəxsiyyətinizin parlaq ifadəsidir. Uzun illərdən bəri solisti olduğunuz Azərbaycan Dövlət Opera və Balet Teatrında ifa etdiyiniz partiyalar milli musiqi mədəniyyətimizin zəngin xəzinəsinə əbədi daxil olmuşdur.

Ölkəmizdə və eləcə də onun sərhədlərindən uzaqlarda bir sıra qastrol səfərlərindəki çıxışlarınızla siz Azərbaycan musiqi mədəniyyətini ləyaqətlə təmsil etmiş, onun şöhrətini yüksəklərə qaldırmısınız.

Kinofilmlərdə yaratdığınız obrazlar istedadınızın çoxşaxəli xarakter daşımasına dəlalət edir. Musiqi Akademiyasında vokal kafedrasının müdiri kimi göstərdiyiniz pedaqoji fəaliyyət də təqdirəlayiqdir. İnanıram ki, çoxlu sayda sənətkar Sizin keçdiyiniz və hələ neçə illər keçəcəyiniz yaradıcılıq yolundan bir məktəb kimi, bundan sonra da bəhrələnəcək və musiqi mədəniyyətimizin daha da çiçəklənməsi işinə öz töhfələrini verəcəkdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni yaradıcılıq sevincləri arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyun 2001-ci il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MOŞE KATSAVA**

Hörmətli cənab Prezident!

Təl-Əviv şəhərində baş vermiş partlayış nəticəsində insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciəli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailə üzvlərinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyun 2001-ci il*

**İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ARİEL ŞARONA**

Hörmətli cənab Baş nazir!
Təl-Əviv şəhərində baş vermiş partlayış nəticəsində insan tələfatı xəbəri məni dərindən kədərləndirdi.
Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyun 2001-ci il*

## 8-ci BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Bakı,*
*Idman-sərgi kompleksi*

*5 iyun 2001-ci il*

Hörmətli sərgi və konfrans iştirakçıları!
Hörmətli qonaqlar, xanımlar və cənablar!
Sizi 8-ci beynəlxalq «Xəzər neft-qaz» sərgisinin və konfransının açılışı və başlaması münasibətilə ürəkdən təbrik edirəm, sərginin və konfransın işinə uğurlar arzulayıram.

Səkkiz ildir ki, ardıcıl olaraq Azərbaycanda beynəlxalq neft-qaz sərgisi keçirilir, konfrans keçirilir. Sərgi ilə tanışlıq, şübhəsiz ki, dünyanın neft və qaz sənayesi ilə məşğul olan şirkətlərin təcrübə mübadiləsini təmin edir və konfransda aparılan diskussiyalar, müzakirələr, söylənilən fikirlər də hər bir sərgi iştirakçısı üçün, neft və qaz sənayesi ilə məşğul olan hər bir ölkə üçün çox faydalı olur.

Azərbaycanda 8-ci beynəlxalq neft-qaz sərgisinin keçirilməsi heç də təsadüfi hal deyildir. Məlumdur ki, Azərbaycan qədim neft diyarıdır. Dünyada sənaye üsulu ilə neft ilk dəfə məhz Azərbaycanda, Bakıda hasil olunubdur. Deməк, Azərbaycanda, Bakıda neft hasilatı dünyada bəşəriyyət üçün çox lazım olan bu təbii sərvətin istifadə olunması üçün əsaslar qoyubdur. Azərbaycan bu illər müddətində böyük yol keçibdir. Keçmişdə də Azərbaycanda neftin hasil olunması üçün dünyanın böyük sahibkarları, sonra isə neft şirkətlərinə çevrilmiş təşkilatlar fəaliyyət göstəriblər. Bu da bütün dünyada, hesab edirəm ki, öz rolunu oynayıbdır.

Azərbaycanda neft öncə quruda hasil olunubdur. Təsadüfi deyil ki, Azərbaycana «Odlar diyarı» deyirlər. Mən indi bu sözün mənşəyini dəqiq müəyyənləşdirmək istəmirəm. Ancaq bizim tarixçilərin fikrincə, məhz Azərbaycanda hələ qədim zamanlardan, heç insanın özünün müdaxiləsi olmadan yerdən qazın çıxması, onun yanması Azərbaycanı odlar diyarına çevirib və tarixən Azərbaycan «Odlar diyarı» kimi məşhur olubdur.

Mən bu gün bir daha cəsarətlə deyə bilərəm ki, ötən dövrdə Azərbaycanın nefti dünyada sənayenin inkişafına, müxtəlif ölkələrdə neft sənayesinin yaranmasına və inkişafına öz təsirini göstəribdir. Ona görə də Azərbaycan həmişə neft sənayesi ilə, neftçilərlə, neft sahəsində ixtisaslaşmış alimlərlə, mühəndislərlə fəxr edibdir. Çünki onlar Azərbaycanın yeraltı sərvətlərinin öyrənilməsi ilə məşğul olaraq, ardıcıl surətdə yeni-yeni neft yataqlarının kəşfinin və bunlardan istifadə edilməsinin səbəbkarları olmuşlar.

Mən görürəm, burada, bizim konfransda ən qədim neftçilərdən biri, bakılı, azərbaycanlı Nikolay Konstantinoviç Baybakov oturubdur. Bu yaxınlarda biz hamımız Nikolay Konstantinoviç Baybakovun 90 illik yubileyini qeyd etdik. Doxsan il yaşayasan, ən çətin bir sahədə böyük işlər görəsən, indi də, XXI əsrin əvvəlində yenə də bu sənətindən əl çəkməyərək, gəlib Bakıda neft-qaz sərgisinin iştirakçısı olasan – bu, asan məsələ deyildir.

Nikolay Konstantinoviç, mən sizi salamlayıram. 90 illiyiniz münasibətilə mən sizə təbrik teleqramı göndərmişdim. İndi bu fürsətdən istifadə edərək, yubileyiniz münasibətilə sizi bir daha və bir daha təbrik etmək istəyirəm. Əminəm ki, biz sizinlə birlikdə 100 illiyinizi də qeyd edəcəyik.

Nikolay Baybakov 40 il SSRİ kimi böyük dövlətin neft naziri olubdur. Sonra hökumətin sədrinin müavini olubdur. Çox işlər görübdür. Amma bizim üçün ən önəmlisi odur ki, o bizimdir, bakılıdır, Azərbaycanın yetirməsidir. Azərbaycan Neft İnstitutunun məzunudur. Onun böyük və şərəfli həyatı məhz Azərbaycanda – Balaxanıda, Sabunçuda başlayıbdır. Ondan sonra isə dünya şöhrəti alıbdır. Bu kiçik bir ştrix, güman edirəm ki, bütün konfrans, sərgi iştirakçılarına Azərbaycanın keçmişdə neft hasilatı sahəsində nə qədər əhəmiyyətli rolu olduğunu bir daha nümayiş etdirir.

Təbiidir, mən demirəm ki, Azərbaycan həmişə dünyanın bütün ölkələrindən çox hasil edibdir. Yox. Ancaq neft hasilatının, neft geologiyasının başlanğıcı Azərbaycanda olduğuna görə, Azərbaycan bu gün də böyük iftixar hissi keçirir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra onun həyatının yeni səhifələri başlanmışdır. Mən bu məsələnin siyasi cəhətinə toxunmaq istəmirəm. Təbiidir ki, hər bir insan – indi burada dünyanın böyük ölkələrinin, müxtəlif ölkələrin vətəndaşları toplaşıblar – azad, müstəqil ölkədə yaşamaq istəyir. Azərbaycan xalqı da azad, müstəqil, demokratik ölkədə yaşamaq istəyirdi və 10 il bundan öncə Sovetlər İttifaqı dağılan zaman Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Bu, Azərbaycan xalqı üçün tarixi hadisədir və eyni zamanda Azərbaycanda neft və qaz hasilatı sahəsində yeni mərhələnin başlanğıcıdır. Biz bu mərhələni çətin bir zamanda başladıq. Çünki keçmişdə SSRİ-nin tərkibində bütün neft və qaz sənayesi bir mərkəzdən idarə

olunduğu halda, indi biz özümüz müstəqil olaraq, başqa işlərlə bərabər, Azərbaycanın ən zəngin təbii sərvəti olan neft və qazın hasilatını təmin etməliyik.

Mən bu gün cəsarətlə deyə bilərəm ki, əvvəlki illər Azərbaycan həmişə keçmiş SSRİ tərkibində bu sahədə qabaqcıl yerlərdə olubdur. Bir faktı da qeyd etmək yerinə düşərdi. Azərbaycan dünyada ilk dəfə sənaye üsulu ilə neft hasil edən ölkə olmaqla yanaşı, həm də dünyada ilk dəfə dənizin dərinliklərindən, dənizin dibindən neft hasil edən ölkə olubdur. Bu işlər təxminən 20-ci illərdə başlayıbdır. Ancaq çox böyük inkişaf edə bilməyibdir. 1949-cu ildə Azərbaycan geoloqları, neftçiləri əfsanəvi Neft Daşlarında neft buruqları qurub ilk dəfə suyun dərinliyindən, dənizin dibindən neft çıxarmağa başlayıblar.

Azərbaycan burada da dünyada birinci yeri tutur. Bunlar hamısı Azərbaycanda neft və qaz sahəsində böyük təcrübənin, böyük tarixin və ənənələrin olduğunu göstərir. Ancaq təbii ki, sonralar dünyanın müxtəlif regionlarında böyük neft yataqları kəşf edilibdir. Onlardan Azərbaycana nisbətən çox-çox artıq neft və qaz hasil olunubdur. Yeni texnologiya yaranıbdır. O texnologiyadan istifadə edərək, təbiidir ki, neft və qaz hasilatının səmərəliliyi artırılıbdır.

Məsələn, Norveçin Neft Sənayesi və Energetika nazirinin müavini, bu gözəl qadın dünən mənimlə danışanda da, bu gün də deyirdi ki, Norveç neft sənayesində gənc ölkədir, 30 ildir neft hasilatı ilə məşğul olur. Bu həqiqətdir. Amma Allah onlara qismət edib, Şimal dənizində çox zəngin neft yataqları aşkar olunubdur və ən əsası da ondan ibarətdir ki, dünyada mövcud olan ən müasir texnikadan, texnologiyadan istifadə edərək, külli miqdarda neft və qaz hasil etməyə nail olublar. İndi Norveç kimi kiçik bir ölkə böyük bir neft ölkəsinə çevrilibdir.

Bunu dünyanın başqa regionlarında olan ayrı-ayrı ölkələr haqqında da demək olar. Bunları deyərək, mən onu qeyd etmək istəyirəm ki, indi dünyada çox zəngin neft yataqları olan bölgələr var. Dünyanın neftə, qaza həddindən çox ehtiyacı var. Artıq indi alimlər, mütəxəssislər belə fikirlər söyləyirlər ki, dünyada neftə və qaza olan tələbat artır. Ancaq neft və qaz hasilatı bu artımı, ola bilər, istənilən səviyyədə təmin edə bilməsin. Bunların hamısı onu göstərir ki, dünyanın hər bir bölgəsində yeni neft və qaz yataqlarının kəşf edilməsi, onlardan səmərəli istifadə olunması, təkcə o bölgə üçün, yaxud o ölkə üçün yox, dünya üçün lazımdır, bəşəriyyət üçün lazımdır.

Bəlkə də mənim bu fikrim səhv olsa, mütəxəssislər onu düzəldə bilərlər. Amma hesab edirəm ki, bütün yeraltı sərvətlərdən, təbii sərvətlərdən bəşəriyyət üçün, insan həyatı üçün bu gün də, gələcəkdə də neft və qaz kimi dəyərli və çox lazımlı ikinci bir sərvət yoxdur. Məsələn, dəmiri, yaxud da başqa metalları indi kimyəvi üsulla hazırlanmış materiallarla əvəz edirlər. Amma o materiallar da neft və qaz məhsullarından alınır. Əgər neft və qaz olmasa, o materialları almaq mümkün deyil. Atom enerjisi icad olunubdur. Amma onun nə qədər xeyri, nə qədər zərəri var, yəqin ki, bunu da bilmək çətin deyildir. Ona görə də dünyanın neftə və qaza olan tələbatı artır və beləliklə, hər bölgədə yeni-yeni neft və qaz yataqlarının açılması, onlardan istifadə edilməsi bəşəriyyət üçün lazımdır, dünyanın gələcəyi üçün lazımdır.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, təbiidir ki, biz əvvəlcə özümüz haqqında düşünürdük, öz ölkəmizin, öz xalqımızın iqtisadiyyatı haqqında düşünürdük. Xalqımızın rifah halı haqqında düşünürdük. Ona görə də bizim bu zəngin təbii sərvətlərimizdən əvvəlki illərə nisbətən daha da səmərəli istifadə etmək məqsədini qarşımıza qoyduq. Bunun da əsası var idi. Çünki Azərbaycanın sektorunda hələ işlənilməmiş neft yataqları var.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə biz çox gözəl bilirdik ki, Xəzər dənizi dünyanın zəngin neft və qaz yataqlarına malik olan bir bölgədir. Bu da bir fərziyyə deyildir. Azərbaycanın alimləri, geoloqları, mühəndisləri, neftçiləri uzun illər neft hasilatı ilə yanaşı, eyni zamanda Xəzər dənizində yeni-yeni neft yataqlarının aşkar edilməsi ilə ardıcıl surətdə məşğul olublar. Onların çoxu bu gün bizimlə deyil, dünyalarını dəyişiblər. Nə xoşbəxtlikdir ki, Nikolay Konstantinoviç Baybakov kimi insanlar hələ bizimlədir. Amma onun dostları, silahdaşları, onunla bərabər Bakıda çalışmış və Xəzər dənizinin neft yataqlarını aşkar etmiş insanların bir hissəsi artıq yoxdur, dünyalarını dəyişiblər. Həmişə dediyim kimi, bu gün də deyirəm, biz onları böyük minnətdarlıq hissi ilə xatırlamalıyıq. Onlara minnətdar olmalıyıq ki, həm öz biliklərini, elmini, həm də öz əməyini sərf edərək, Xəzər dənizində böyük neft yataqlarının aşkar olunmasını təmin ediblər.

Biz dövlət müstəqilliyini əldə edəndə belə bir mənzərəni görürdük. Ancaq bu mənzərədir. Mənzərə həmişə gözəl görünür. Amma bu mənzərədən nə cür istifadə etmək, nə etmək – bu daha da çətin məsələdir. Yəni çox çətin məsələdir. Ona görə də biz 1994-cü ildə Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin neft strategiyasını, konsepsiyasını işləyib hazırladıq. O da ondan ibarət oldu ki, Azərbaycan öz imkanları ilə çox zəngin neft və qaz yataqlarını işlətməyə, neft və qaz hasil etməyə qadir deyildir. Demək, burada dünya təcrübəsinə müraciət etmək, dünyanın daha da böyük imkanlara malik olan, böyük vəsaitə, müasir texnikaya, texnologiyaya malik olan ölkələrlə, şirkətlərlə əlaqə qurmaq lazım idi. Biz də bunu etdik.

Doğrudur, bu o vaxtlar birmənalı qəbul olunmurdu. Azərbaycanda da bəziləri hesab edirdilər ki, nə üçün biz öz neft yataqlarımızı xarici şirkətlərlə bərabər işlətməliyik, nə üçün onları buraya dəvət etməliyik. Təbiidir ki, bunlar dünyanın inkişafından geri qalmış adamlardır. Onlarla heç hesablaşmaq da lazım deyildi. Biz isə dünyada gedən prosesləri bilirdik və dünyada neft və qaz sahəsində əldə olunmuş böyük nailiyyətləri bilirdik. Ona görə də

böyük neft şirkətlərinin Azərbaycana dəvət olunması, onların, birincisi, buraya sərmayə qoyması, investisiya gətirməsi, ikincisi isə, onların imkanlarından istifadə edilməsi, onların malik olduğu texnikadan, texnologiyadan istifadə olunması zəruri idi. Bizim neft strategiyamızın əsasını təşkil edən ana xətt bundan ibarət olmuşdur. Artıq indi, səkkiz ildən sonra – elə səkkiz il bundan öncə də inandığım kimi – təsdiq olunur ki, Azərbaycanın neft strategiyası düzgün müəyyən edilib, düzgün təyin olunub və o, artıq öz nəticələrini verir.

Bu yolda ilk addım 1994-cü ilin sentyabr ayında Azərbaycanda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin dünyanın bir çox şirkətləri ilə birlikdə işlənilməsi üçün müqavilə imzalanması idi. Biz bunu etdik. Bugünkü kimi yadımdadır.

1994-cü ilin 20 sentyabrı Azərbaycan tarixində ən parlaq səhifələrdən biridir. O bizim nəzəri olaraq hazırlanmış neft strategiyamızın əməli surətdə həyata keçirilməsinin əsasını, başlanğıcını qoydu. Biz səhv etmədik. Biz düz yolda olduq və o vaxtdan da düz yol ilə gedirik.

Ancaq məlumdur, bunlar heç də asan başa gəlmirdi. O vaxt bizə maneçilik göstərənlər çox idi. Bir neçə dövlətlər, bir neçə ölkələr buna çox etiraz edirdilər. Bəhanə gətirirdilər ki, hələ Xəzər dənizinin sektorları, yaxud da ki, istifadə olunması prinsipləri müəyyən olunmayıbdır. Təxribatlar aparırdılar. O təxribatlar məlumdur. Bunlar Azərbaycanda terror hadisəsinə gətirib çıxartdı. Azərbaycanda silahlı çevriliş cəhdlərinə gətirib çıxartdı. Bizi başqa dəhşətli hadisələrlə rastlaşdırdı və təzyiqlər hər il davam edirdi. Hələ bu gün də bu təzyiqlər var. Ancaq müstəqil Azərbaycanın dövləti tutduğu yoldan nəinki geri çəkilmədi, heç şübhə də etmədi. Bu yol ilə ardıcıl surətdə getdi və gedir.

Biz xarici şirkətlərlə birlikdə – indi ona Beynəlxalq Əməliyyat Şirkəti adı verilibdir – 1997-ci ildə «Çıraq» neft yatağından ilk neft aldıq. Biz bu nefti alarkən, artıq şimal istiqamətində neftin ixracı üçün boru xətti yaratmışdıq. Sonra 1999-cu ilə qədər biz qərb istiqamətində Gürcüstanın Qara dənizdəki limanına yeni bir ixrac kəməri, Bakı – Supsa kəməri hazırladıq. Bu işlərin hamısı birlikdə gedirdi. Biz bilirdik ki, əgər nefti çıxarıb onu ixrac edə bilməyəcəyiksə, bu neftin əhəmiyyəti olmayacaqdır. Bunların hamısını biz həyata keçirdik.

İndiyədək «Çıraq» neft yatağından 14 milyon ton neft hasil olunub və ixrac edilibdir. Həmin konsorsiuma daxil olan şirkətlər artıq indi bu müqavilədən mənfəət götürürlər, o cümlədən Azərbaycan da – Dövlət Neft Şirkəti də, Azərbaycan dövləti də mənfəət götürür.

Bizim bu addımımız Xəzər dənizinə nəzər-diqqəti cəlb etdi. Bu addımımız və əldə olan nəticələr dünyanın bir çox neft şirkətlərini Azərbaycanda real imkanlar olmasına inandırdı və Azərbaycana ardıcıl surətdə təkliflər gəldi. Biz ötən dövrdə 21 müqavilə imzalamışıq. 14 ölkədən 30 neft şirkəti ilə bizim müqavilələrimiz vardır. Ümumi sərmayə əvvəldən nəzərdə tutulub, təxminən 60 milyard dollara qədər olacaqdır.

Biz bu yaxın günlərdə *bp*-nin rəhbərlik etdiyi həm Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin, həm də «Şahdəniz» yatağında aparılan işlərin rəhbərlərinin məruzəsini dinlədik, gördükləri işlərin təqdimatını etdilər.

Onlar bəyan etdilər ki, dünyanın ən böyük şirkətlərindən olan *bp* şirkəti buraya 8 milyard dollar sərmayə qoymağı qərara almışdır və əlavə etdilər ki, *bp* heç vaxt hansısa bir yerdə bu qədər məbləğdə sərmayə qoymayıbdır. Bunlar görülən işlərdir və bizim gələcək işlərimizin nə qədər uğurlu olduğunu göstərir.

Bizim ikinci müqavilə «Şahdəniz» yatağına aiddir. Orada gözləmədiyimizdən artıq qaz kəşf olunubdur. Mənim yaxşı xatirimdədir, 1996-cı ildə iyunun 4-5-i idi. Biz bu sərgini keçirəndə, ikinci gün «Şahdəniz» neft və qaz yatağı haqqında müqavilə imzaladıq. O vaxt buna maneçilik etmək istəyənlər çox idi. Bizim içərimizdə Azərbaycanın iqtisadiyyatının əleyhinə olan adamlar buna maneçiliklər edirdilər. Ancaq bizim neftçilərimiz, geoloqlarımız və bizimlə bərabər artıq o sahədə iş aparmış *bp*-nin və başqa şirkətlərin mütəxəssisləri müəyyən etdilər ki, həqiqətən orada işə başlamaq olar.

Güman edirəm, bunu deməyə lüzum yoxdur ki, təcrübəli neft şirkətləri yaxşı bilirlər, haraya vəsait qoymaq olar. Əgər onlar bir balaca şübhələnsələr ki, vəsait qoymaq olmaz, onu heç vaxt qoymazlar. Onlar da, biz də eyni fikirdə olduq. Ancaq o vaxt nə biz, nə onlar, yəni *bp* və başqa şirkətlər təsəvvür edə bilməzdilər ki, orada nəzərdə tutduğumuzdan çox qaz var.

Yadımdadır, bizim çox təcrübəli geoloqumuz Xoşbəxt Yusifzadədən – indi o buralardadır – bir neçə dəfə soruşanda ki, de görüm, «Şahdəniz»də nə qədər qaz var? O mənə dedi ki, 400 milyard kubmetrə qədər qaz var. Dedim, bəlkə çoxdur? Dedi, yox, çox ola bilməz, amma o qədər ola bilər. Amma indi aparılan işlər, qazılan buruqlar onu göstərdi ki, orada bir trilyon kubmetrdən də çox qaz var. Hələ bu da son rəqəm deyildir. Çünki bu işi aparan şirkətlər, adətən, həmişə ehtiyatla danışırlar. Həmişə çalışırlar ki, proqnozdan bir az aşağı rəqəm elan etsinlər, yəni sonra onları günahlandırmasınlar ki, niyə çox demişdiniz, indi az verirsiniz. Bizim üçün fərqi yoxdur. Allah eləsin ki, bir trilyon olsun. Amma bir trilyona şübhə yoxdur. Hesab edirəm ki, bir trilyondan da çox olacaqdır.

Başqa yataqlarda da. Məsələn, indi «Şevron» şirkəti «Abşeron» yatağında böyük işlər görür. «Şevron»un rəhbərləri mənə deyiblər ki, biz sizə «Şahdəniz»dən də çox nəticələr təqdim edəcəyik. Mən də deyirəm ki, sizin raportunuzu gözləyirəm.

Beləliklə, qısa bir zamanda Xəzər dənizinin Azərbaycan sektorunda nə qədər böyük imkanlar olduğu müəyyən edilibdir. Hesab edirəm ki, Azərbaycanın, habelə səkkizinci dəfə keçirilən Xəzərneftqaz sərgisinin

əsas xidmətlərindən biri ondan ibarətdir ki, biz Xəzər dənizinin nəinki Azərbaycan sektorunda, bütün başqa Xəzəryanı ölkələrə məxsus olan sektorlarında da nə qədər çox neft və qaz yataqlarının olduğunu nümayiş etdirdik.

Açıq danışmaq lazımdır, əvvəl bunu çoxları bilmirdi. Ancaq Azərbaycanda görülən işlər, əldə olunan nəticələr onları ruhlandırdı, onlar bu işə girişdilər. Xarici şirkətlər gəldilər, həmin ölkələrlə iş apardılar. Məsələn, indi Xəzərin Qazaxıstan sektorunda «Kaşaqan» yatağı kimi böyük bir yataq açılıbdır. Mən buna çox sevinirəm. Deməк, bizim Xəzər dənizinin böyük neft və qaz ehtiyatlarına malik olması haqqında vaxtilə alimlərimizin söylədikləri fikirlər və ondan sonra Azərbaycan dövlətinin fikirləri və həyata keçirdikləri tədbirlər Xəzər dənizini dünyanın böyük neft regionlarından biri kimi tanıdıbdır.

Doğrudur, indi də bəzi ölkələrdə müxtəlif qüvvələr Azərbaycana, yaxud da, ümumiyyətlə, başqa Xəzəryanı ölkələrə zərər gətirmək üçün cürbəcür məqalələr yazırlar ki, nə bilim, əvvəlki proqnozlar özünü doğrultmadı, yaxud da gözlənilənlər alınmadı, filan olmadı. Qoy onlar çığırsınlar, bağırsınlar, bizim üçün fərqi yoxdur. Biz özümüz bilirik ki, nə var, nə yoxdur, nə alındı, nə alınmadı. Təbiidir ki, ola bilər, hər şey alınmasın. Məsələn, ola bilər, bir yerdə quyu qazasan, oradan neft çıxmasın. Amma ondan bir az o tərəfdə qazasan, oradan çıxsın. Əsas odur ki, o regionlar, yəni o hissələr düzgün müəyyən olunsun. Bir tərəfindən çıxmayıbsa, o biri tərəfindən çıxacaqdır. Bunları isə Azərbaycan neftçiləri, Azərbaycan alimləri çox düzgün müəyyən ediblər.

Beləliklə, əvvəl dediyim kimi, bu səkkizinci sərgi heç də təsadüfi deyildir. Çünki birincisi, artıq Xəzər hövzəsi özünü böyük neft və qaz ehtiyatlarına malik olan bir bölgə kimi dünyada tanıdıbdır. İkincisi, bu işin başlanğıcını Azərbaycan qoyubdur və təsadüfi deyil ki, bu sərgi də Azərbaycanda başlayıbdır, səkkizinci dəfədir keçirilir və bundan sonra da keçiriləcəkdir.

Məsələnin ikinci tərəfi, hasil olan neftin və qazın ixrac olunmasıdır. Mən sizə bildirdim ki, ilkin neftin ixrac olunması üçün biz vaxtında imkanlar yaratdıq: Bakı–Supsa neft kəməri və Bakı–Novorossiysk neft kəməri. Ancaq bunlar ilkin neft üçündür. Böyük nefti bu kəmərlər buraxa bilməzlər. Ona görə biz hələ 1994-cü ildə müqaviləni imzalayanda Bakı–Ceyhan – indi isə biz ona Bakı–Tbilisi–Ceyhan adı vermişik – neft kəmərinin tikilməsinin zəruri olduğunu həmin o müqavilədə yazmışıq.

O vaxtdan indiyə qədər biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yaranması üçün həddən ziyadə çox iş görmüşük. Əgər bir tərəfdən, Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə maneçilik törətmək istəyən qüvvələr var idisə, ondan da çox Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikilməsinə maneçilik törədənlər var idi. Çünki əgər Azərbaycanda neft varsa, onu çıxardırıq. Buna maneçilik törədənlər var idi. Amma bu maneçilik nəticə verə bilməzdi. Biz bu nefti, qazı çıxartdıq. Ancaq çıxarılan neftin, qazın qiyməti təkcə bunda deyil ki, sən onu çıxartdın, gərək onu ixrac etməyə sənin imkanın olsun. Çünki bəzi mane olanlar istəmirdilər ki, məsələn, bu marşrutla ixrac edilsin, istəyirdilər ki, başqa marşrutla ixrac olunsun. Amma bizim əvvəldən qərarımız belə idi ki, ixrac kəməri Bakı–Tbilisi–Ceyhan olacaq. Biz bu qərarı qəbul etmişdik. Bu qərarı Türkiyə qəbul etmişdi. Bu qərarı Gürcüstan qəbul etmişdi. Məmnuniyyət hissi ilə demək istəyirəm ki, Azərbaycanda işləyən böyük neft şirkətləri və onların mənsub olduğu ölkələr – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, başqa ölkələr – Avropa ölkələri məhz bu marşrutun həyata keçirilməsini dəstəkləmişlər. Əgər onların dəstəyi olmasaydı, mən sizə deyim ki, bu layihəni həyata keçirmək bizim üçün çətin olardı. Düzdür, keçirəcəkdik, amma çətin olacaqdı.

Bakı–Tbilisi–Ceyhan böyük imtahanlardan keçdi. Nəhayət, 1999-cu ildə biz İstanbulda onun son sənədini imzaladıq. Ondan sonra böyük mühəndis-maliyyə işləri aparıldı. İndi artıq əməli işə başlanıbdır və verilən proqnozlara görə, yaranmış plana görə – mən buna inanıram – Azərbaycan nefti, Xəzər nefti, bizim hamımızın birlikdə hasil etdiyimiz neft 2004-cü ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə Gürcüstandan, Türkiyədən keçərək, Aralıq dənizində Ceyhan limanına gedib çatacaqdır.

Hesab edirəm ki, burada artıq heç bir problem olmamalıdır. Çünki həm Türkiyə, həm də Gürcüstan belə bir qəti mövqedədirlər ki, Bakı–Tbilisi–Ceyhan layihəsi vaxtında reallaşdırılmalıdır.

Görürsünüz, həyat yeni-yeni hadisələr gətirir. Biz «Şahdəniz» yatağında işləməyə başlayarkən bilirdik ki, orada daha çox qaz var, nəinki neft. Ancaq bu qədər olduğunu bilmirdik. İndi artıq bizim qarşımızda məsələ durur – qazın ixrac olunması. İndi o da bizə məlumdur. Türkiyənin qaza çox böyük ehtiyacı var, Avropanın qaza çox böyük ehtiyacı var. Gürcüstanın qaza ehtiyacı var. Ona görə də biz qərar qəbul etmişik ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinə paralel olaraq, Bakıdan Türkiyənin sərhədinə qədər qaz kəməri çəkilməlidir. Biz də bu işə başlamışıq. Burada hörmətli nazir qeyd etdi ki, mən mart ayında Türkiyədə, Ankarada rəsmi səfərdə olarkən, Azərbaycanın «Şahdəniz» yatağından çıxarılacaq qazın ilkin mərhələdə 6 milyard kubmetrinin Türkiyəyə satılması, ixrac olunması haqqında Azərbaycan dövləti ilə Türkiyə dövləti arasında saziş imzalamışıq. İndi bu saziş gərək Gürcüstanla da imzalansın. Güman edirəm ki, bu, yaxın vaxtlarda olacaqdır. Çünki işə başlamaq lazımdır. Biz söz vermişik ki, 2002-ci ildə «Şahdəniz» yatağından Türkiyəyə qaz çatdırılacaqdır. Bunun üçün vaxt itirmək olmaz. Sazişlərin imzalanması, başqa məsələlərin həll olunması təmin edilməlidir ki, tezliklə inşaat işlərinə başlanılsın.

Bunlar bizim əldə etdiyimiz ilkin nailiyyətlərdir. Ancaq görün, bizdə nə qədər böyük ümidlər yaradır. Görün, bunlar nə qədər perspektivlər açır. Təkcə Azərbaycan üçün yox, bütün Xəzəryanı ölkələr üçün və təkcə onlar üçün yox, bütün dünya üçün.

Burada biz Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Corc Buşun təbrik məktubunu böyük məmnuniyyətlə dinlədik.

Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyrin təbrik məktubunu dinlədik. Onlar bu işə nə qədər böyük maraq göstərir, nə qədər böyük əhəmiyyət verir və nə qədər də dəstək verirlər. Bu, artıq göz qabağındadır. Mən indiyə qədər bizə verilən dəstəyi – təkcə onlar tərəfindən yox, burada Fransanın da nazir müavini çıxış etdi – bizimlə işləyən bütün ölkələrin bu işə münasibətini yaxşı bilirəm, çox yaxşı bilirəm.

«Şahdəniz» yatağında İranın da payı var, xeyir götürəcəkdir. İranın səfiri burada oturubdur. Ona görə də çalışmalıdır ki, tezliklə bu qaz kəməri tikilsin, siz oradan xeyirinizi götürəsiniz. İranın başqa müqavilələrdə də payı var.

Bir də deyirəm, burada təkcə Azərbaycanın maddi maraqları yox, həm bütün bölgənin strateji maraqları həll olunur, bölgədə təhlükəsizliyin təmin olunması üçün böyük təminat yaranır, həm də dünyanın bir çox ölkələrinin, Qərb ölkələrinin həm neftə, həm də qaza ilbəil artan tələbatının təmin olunmasının əsası qoyulubdur.

İndi bizdə olan proqramın XXI əsrin əvvəlində, 2001-ci ildən başlayaraq, təxminən 10–15–20 ilə həyata keçirilməsi, təbiidir ki, çox böyük yeniliklər yaradacaqdır. Bütün bunlar müqavilələrdə və bu işlərdə iştirak edən ölkələr üçün, xalqlar üçündür. Ona görə də biz Azərbaycanın dövlət neft strategiyasının nə qədər düzgün-doğru olduğunu bu gün bir daha nümayiş etdiririk.

Bildiririk ki, bundan sonra da ardıcıl olaraq, təbiidir ki, hər mərhələnin özünəməxsus tələbləri var, o tələblərə uyğun olaraq öz işimizi aparacağıq. Bizimlə əməkdaşlıq edən şirkətlərlə, ölkələrlə əlaqələrimiz daha da sıxlaşacaq, daha da genişlənəcək, daha da yaxınlaşacaqdır. Təbiidir ki, hər bir ölkə kommersiya maraqlarını üstün tutur. Biz də belə fikirləşirik. Ancaq bu, təkcə kommersiya maraqları deyildir.

Əgər ölkələr arasında kommersiya əlaqələri böyük yer tutursa, onda bu ölkələr arasında siyasi əlaqələr də və başqa humanitar əlaqələr də ona uyğun olmalıdır. Bunlar bir-biri ilə ziddiyyətdə ola bilməz, heç vaxt ola bilməz! Biz belə fikirdəyik və güman edirəm ki, bu gün burada qonaqlar tərəfindən deyilən sözlər və elan olunmuş təbriklər də məhz bunları əyani surətdə sübut edir.

Sərgi hər il daha da genişlənir. Birinci sərgidə 12 ölkədən, gərək ki, 150 şirkət iştirak edirdi. İndi 25 ölkədən 340-a qədər şirkət iştirak edir. Görürsünüz nə qədərdir. Mən buraya gələndə bu sərgini təşkil edən hörmətli xanım dedi ki, sərgidə təmsil olunan şirkətlərin üçdə biri ilk dəfə iştirak edir. Azərbaycanda təkcə neft şirkətləri işləmir. Nə qədər çox başqa şirkətlər işləyir. Məsələn, Norveçi yada salmaq istəyirəm. Norveçin bir şirkəti var – «Statoyl». O burada çox iş görür. Amma onunla bərabər, Norveçin bir neçə başqa şirkətləri burada çox əhəmiyyətli işlər görürlər – «Kverner» şirkəti, digər şirkətlər. Onların adlarını hörmətli xanım burada çəkdi. Eləcə də burada nə qədər çox Amerika şirkətləri işləyirlər. Nə qədər çox Böyük Britaniya şirkətləri işləyirlər. Onlar birbaşa neft şirkətləri deyillər. Amma neft hasil etmək üçün nə qədər texniki işlər, nə qədər başqa işlər görmək lazımdır. Onların hər birini görən ixtisaslaşmış şirkətlər var.

Beləliklə, indi burada, Azərbaycanda dünyanın çox ölkələrindən tarixdə olmadığı qədər şirkətlər işləyir, bu ölkələrin vətəndaşları bizimlə bərabərdirlər. Bu da bizim həm iqtisadi, həm humanitar, həm də siyasi əlaqələrimizi genişləndirir və möhkəmləndirir. Bizi bir-birimizlə yaxınlaşdırır, təcrübə mübadiləsini təmin edir və insanlar bir-biri ilə daha da yaxınlaşırlar. Çünki XXI əsr insanların daha da sülh, əmin-amanlıq şəraitində yaşaması əsri olmalıdır. XXI əsrdə insanlar bir-biri ilə daha da səmimi əlaqələr qurmalıdırlar. XXI əsrdə insanlar heç bir millətə, heç bir başqa dinə mənsub olan ölkələrə ayrı-seçkilik qoymamalıdırlar. Çünki bu, sivilizasiyanın tələbidir. Bunu təmin etmək üçün də hər bir ölkə, hər bir təşkilat, hər bir vətəndaş öz xidmətini göstərməlidir.

Mən bu sərgini təşkil edənlərə təşəkkür edirəm. Sərgidə iştirak edən şirkətləri təbrik edirəm ki, onlar bu sərgidə öz işlərini nümayiş etdirmək hüququ qazanıblar. Sərginin və sərgidən sonra aparılacaq konfransın işinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**DƏMİR YOLLARI ƏMƏKDAŞLIQ**
**TƏŞKİLATI NAZİRLƏR**
**MÜŞAVİRƏSİNİN XXIX SESSİYASININ İŞTİRAKÇILARINA**

Hörmətli sessiya iştirakçıları!

Sizi – Dəmir Yolları Əməkdaşlıq Təşkilatının ali orqanı olan Nazirlər Müşavirəsinin XXIX sessiyasının iştirakçılarını salamlayıram və Azərbaycana xoş gəlmisiniz deyirəm.

Özündə 27 dövlətin dəmir yollarını birləşdirən bu mötəbər beynəlxalq təşkilatın ən yüksək forumunun Bakı şəhərində ilk dəfə olaraq keçirilməsindən məmnunluq duyuram və bunu təqdirəlayiq hal hesab edirəm.

Bu gün müstəqil Azərbaycan Respublikası geniş beynəlxalq əməkdaşlığa inteqrasiya olunaraq siyasi-iqtisadi əlaqələrin dərinləşməsinə böyük önəm verir. Azərbaycan bütün nüfuzlu beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir və belə əməkdaşlığın bundan sonra daha sürətlə inkişaf etməsi üçün bütün imkanlar mövcuddur.

1998-ci ildə Bakıda TRASEKA proqramı çərçivəsində tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi və burada qəbul olunmuş qərarlar, şübhəsiz ki, Azərbaycan üçün də geniş perspektivlər açmış, onun nəqliyyat sisteminin modernləşdirilməsini və fəaliyyətinin dünya standartları səviyyəsində yenidən qurulmasını aktuallaşdırmışdır.

Ümidvaram ki, yüksək təşkilatdaxili intizam nümayiş etdirən, ən zəruri qərarlar qəbul edən və onların icrasını təmin etməyi bacaran Dəmir Yolları Əməkdaşlıq Təşkilatı bu işdə öz töhfəsini əsirgəməyəcək, üzərinə düşən vəzifələrin tam yerinə yetirilməsinə nail olacaqdır.

Hörmətli sessiya iştirakçıları!

Bakıda olduğunuz günlərdə sizə səmərəli və məhsuldar iş, uğurlar, ölkələrinizə sülh, əmin-amanlıq arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 iyun 2001-ci il*

## GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YALTAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA VERDİYİ CAVAB

*6 iyun 2001-ci il*

**S u a l: Cənab Prezident, Yaltaya səfəriniz barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Yaltaya səfərim məlumdur, bunu elan etmişik.

GUÖAM ölkələrinin dövlət başçıları növbəti görüş keçirəcəklər. Bundan ötrü mən də oraya gedirəm. İlk görüş sabah olacaqdır. Bu gün isə ikitərəfli görüşlər olacaqdır. Bununla da qurtarıb gedəcəkdir.

**S u a l: Cənab Prezident, Azərbaycan Xəzərin hərbiləşdirilməsi məsələsini orada qaldıracaqmı?**

**C a v a b:** Bilirsinizmi, orada bütün Xəzəryanı ölkələr iştirak etmir axı. Biz əvvəldən Xəzərin demilitarizasiyasını qaldırmışıq. Lap əvvəldən. Biz buna həmişə tərəfdar olmuşuq. Bilirəm ki, bir neçə başqa ölkələr də, İran da bunun əleyhinədir. Ancaq hələ ki, bəzi ölkələr, deyəsən, bununla razı deyillər. Amma şəxsən mənim fikrimi bilmək istəsəniz, Xəzərdə hərbi qüvvənin saxlanılmasına heç bir ehtiyac yoxdur. Çünki Xəzəryanı ölkələr bir-birilə müharibə etmək istəmirlər və zənnimcə, etməyəcəklər. Ona görə də burada artıq qüvvə saxlamaq nəyə lazımdır?

**S u a l: Cənab Prezident, GUÖAM-ın genişlənməsinə necə baxırsınız?**

**C a v a b:** Artıq Rumıniya və Bolqarıstan belə təşəbbüs irəli sürüblər ki, onlar da bu birliyə daxil olmaq istəyirlər. Düzü, mən bunu dəqiq bilmirəm. Hər halda, orada fikir mübadiləsi gedəcəkdir.

**S u a l: Cənab Prezident, Yaltada hansısa sənədlər imzalanacaqmı?**

**C a v a b:** Bəli,Yalta xartiyası imzalanacaqdır.

**S u a l: Cənab Prezident, Minsk görüşlərindən sonra Qarabağ məsələsi üçün GUÖAM görüşü bir əhəmiyyət daşıyırmı? Bu məsələ orada gündəlikdə duracaqmı?**

**C a v a b:** GUÖAM görüşü Qarabağ məsələsində heç bir əhəmiyyət daşımır. Çünki Qarabağ məsələsi üçün gərək Ermənistan da orada olsun. Ermənistan orada yoxdur. Bu məsələ orada muzakirə olunmayacaqdır.

**S u a l: Cənab Prezident, Yalta sammitində GUÖAM-ın regional təşkilata çevriləcəyini gözləmək olarmı?**

**C a v a b:** İndi oraya gedirik. Baxaq, görək də.

**S u a l: Cənab Prezident, ORT kanalında Arkadi Qukasyanı qondarma «Dağlıq Qarabağ Respublikası»nın prezidenti kimi təqdim etdilər. Şamil Basayevlə müsahibə Bakıda efirə veriləndə isə Rusiya Azərbaycana nota göndərmişdi. Qukasyan bizim üçün hansı səviyyədədirsə, Şamil Basayev də Rusiya üçün o səviyyədədir. Bəs Azərbaycan nə üçün Rusiyaya nota göndərmir?**

**C a v a b:** Bunu sən belə fikirləşirsən. Qukasyan elə neçə ildir bunları deyir. Bir dəfə ORT-yə çıxıbdır, onda da, təbiidir ki, hansısa qüvvələr Azərbaycana qarşı təxribat etmək istəyirlər. Ancaq biz belə xırda şeylərə fikir verməməliyik. Bizim cəmiyyət öz fikrini deməlidir, amma dövlət səviyyəsində nə demək olar? Televiziya müstəqildir, sizin hamınız da müstəqilsiniz. Elə sözlər deyirsiniz, elə sizin özünüz də, o birisi də, bu birisi də… Deyirsiniz ki, nə bilim, bu, həqiqətdən tamam kənardır. Mən onlara cavabdehəm? Mən heç sizdən də soruşmuram, niyə bunu deyirsiniz? Amma daxilən tək mən yox, xalq da görür ki, belə uydurma şeylərlə məşğulsunuz.

**S u a l: Cənab Prezident, Putin və Buşun görüşündən, danışıqlarından Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində hər hansı irəliləyiş gözləmək olarmı?**

**C a v a b:** İrəliləyişlər olacağını bilmirəm, amma danışacaqlar. Mən bu barədə bilirəm, ABŞ-dan da məlumatım var və Putinlə danışığımızda bu məsələni biz müzakirə etmişik. İyunun 16-da onlar Lüblyanada görüşəcəklər. Bu məsələ də onların arasında müzakirə olunacaqdır.

**S u a l: Cənab Prezident, Türkmənistan burada öz səfirliyinin işini dayandırıb. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** Vallah, nə deyim. Bu, Türkmənistanın işidir. Biz Türkmənistanda indiyə qədər səfirlik aça bilməmişik. Ona görə yox ki, biz bunu istəməmişik. Maliyyə imkanlarımız buna yol verməyibdir. Hər bir ölkə öz səfirliyini aça da bilər… Onlar səfirliklərini tamam bağlamayıblar. Səfir Aşqabadda oturaraq, burada öz fəaliyyətini aparacaqdır. Bizdə belə hallar çoxdur. Bizdə səfirlər var ki, Ankarada oturublar, Moskvada oturublar,

eyni zamanda öz ölkələrinin Azərbaycanda səfirləridirlər. Mən onları, etimadnamələrini qəbul edirəm. Vaxtaşırı gəlirlər, bizim təşkilatlarla görüşürlər. Burada elə bir hadisə yoxdur.

**S u a l: Cənab Prezident, Ermənistan Rusiya–Belarus İttifaqına qoşulmağı reallaşdırmaq istəyir. Ermənistan həmin ittifaqa qoşulsa, Azərbaycan özünü necə aparacaqdır?**

**C a v a b:** Biz özümüzü necə apara bilərik? Kim hansı ittifaqa qoşulursa,qoşulsun. Bilirsiniz, bunların hamısı müstəqil dövlətlərdir. Hər bir müstəqil dövlət öz siyasətini müəyyən edir və onu da həyata keçirir. Biz buna nə edə bilərik. Etiraz edə bilərik? Yox.

**S u a l: Cənab Prezident, ABƏŞ-in prezidenti Devid Vudvord dünyanın bir nömrəli informasiya agentliklərindən birinə – Assoşieyted Press Agentliyinə bildirib ki, Bakı–Ceyhan neft kəmərinin tikintisinə çəkiləcək xərclər 560 milyon dollar artacaqdır. Bu xəbər Türkiyənin NTV kanalında səsləndi. Devid Vudvord Türkiyənin həmin televiziya kanalına təkzib xarakteri daşıyan məlumatlar verir, bildirir ki, mən belə söz deməmişəm. Siz buna necə baxırsınız?**

**C a v a b:** Mənim məlumatım yoxdur. Amma sağ ol ki, sən mənə məlumat verdin.

**S u a l: Cənab Prezident, Təl-Əviv rəsmi şəkildə çıxış edibdir ki, Azərbaycan, nədənsə, Yaxın Şərqdə baş verənlərə münasibətini bildirmir.**

**C a v a b:** Necə yəni, mən dünən İsrailin həm prezidentinə, həm də Baş nazirinə başsağlığı göndərdim.

**S u a l: Cənab Prezident, Moldovanın prezidenti Voronin təşəbbüs irəli sürüb ki, GUÖAM-ın sammitində Rusiya da müşahidəçi qismində iştirak etsin. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** Belə bir təşəbbüs var. Biz bu barədə fikir mübadiləsi aparacağıq.

**S u a l: Cənab Prezident, milli bayramlarımız ərəfəsində əfv fərmanları imzalayırsınız. İyunun 15-də əfv fərmanlarının imzalanması gözlənilirmi?**

**C a v a b:** Sənin həbsxanada olan adamın var? Varsa, de görüm kimdir? Mən ona fərdi nöqteyi-nəzərdən baxım. Amma əfv fərmanını nə vaxt imzalayacağam, nə vaxt imzalamayacağam, bu mənim öz işimdir.

**S u a l: Cənab Prezident, «ABA» teleşirkəti ilə Vergilər Nazirliyi arasındakı münaqişədən xəbəriniz varmı?**

**C a v a b:** Eşitmişəm. İndi Vergilər Nazirliyi hər yerdə yoxlama aparır və hər yerdə də apara bilər. Vergi Məcəlləsi qəbul edilibdir. Vergilər Nazirliyi hər bir özəl təşkilatda və dövlət təşkilatında yoxlama apara bilər ki, görsün, vergilər nə qədər yığılır, nə qədər verilir. Bu onun hüququdur.

Amma burada münaqişəyə əsas yoxdur. Əgər onların günahı yoxdursa, niyə münaqişə aparırlar? Əgər günahları varsa, deməli, belə çıxır ki, kütləvi informasiya orqanları xüsusi statusa malikdir? Sizin hamınızda belə əhval-ruhiyyə vardır ki, siz nə etsəniz, gərək dövlət orqanları sizə toxunmasın. O dəqiqə deyəcəksiniz ki, bunun siyasi mənası var. Məsələn, bir nəfər, iki nəfər cinayət edir, hansısa partiyaya mənsubdur, heç o partiyanın özü qeydiyyata da alınmayıbdır. Ondan sonra dərhal hamınız deyirsiniz ki, bu, siyasi məhbusdur. Bu da elə bir şeydir. Mən hesab etmirəm ki, burada bir problem var. Bu, Vergi Nazirliyinin səlahiyyətlərinə aiddir, ona verilən səlahiyyətlər çərçivəsində də işləyir.

**S u a l: Cənab Prezident, bir qədər əvvəl həmkarım əfv barədə sual verdi. Əfv olunacaqlar arasında ən çox adı çəkilən Ələkram Hümbətov, Rəhim Qazıyev və İsgəndər Həmidovdur. Əfv fərmanını şəxsən Sizin imzalayacağınızı nəzərə alaraq, bu məsələyə, onların əfvinə münasibətiniz necədir?**

**C a v a b:** Sən onların qohumusan?

**J u r n a l i s t: Xeyr, Allah eləməsin. Ümumiyyətlə, jurnalist maraqları baxımından sual verirəm.**

**H e y d ə r Ə l i y e v:** Neçə yaşın var?

**J u r n a l i s t: 20-dən yuxarıdır.**

**H e y d ə r Ə l i y e v:** Onlar cinayət edəndə sən uşaq arabasında gəzirdin.

**J u r n a l i s t: Mən sualı onları müdafiə məqsədi ilə vermədim.**

**H e y d ə r Ə l i y e v:** Uşaq arabasında gəzirdin, hə…

Tarixi yaxşı öyrənin. Bunu mən hamınıza məsləhət görürəm. Tarixdən ibrət dərsi götürün. Başa düşürsünüzmü? Bugünkü günlə yaşamayın. Siz, burada olanlar, hamınız gənclərsiniz. 1990-cı ili xatirinizə salın. 1991-ci ili, 1992-ci ili, 1993-cü ili… İndi bizim televiziya və qəzetlər 1993-cü ilin hadisələrini verirlər. Bunları unutmayın. Çünki unutsanız, sabah sizin başınıza ondan da çox iş gələcəkdir.

O vaxtlar, Rəhim Qazıyevin vaxtında sən gəlib burada belə rahat sual verə bilərdin? İsgəndər Həmidovun vaxtında sən prezidentə rahat sual verə bilərdin? Sənə elə təpik vurardılar ki, 15 dəfə aşardın.

**J u r n a l i s t: Mən sualı onları müdafiə məqsədi ilə vermədim.**

**H e y d ə r Ə l i y e v:** Əgər müdafiə məqsədi ilə verməsən, onda bu, hökumətin işidir, dövlətin işidir. Dövlət hansı işi nə vaxt görəcəkdir, bu onun öz işidir.

**S u a l: Cənab Prezident, Azərbaycanın BMT-də, Cenevrədə nümayəndəsi var – İsfəndiyar Vahabzadə. O belə bir bəyanatla çıxış etmişdi ki, Azərbaycanın xarici ölkələrdəki səfirlərinin əksəriyyətinin anası erməni, yəhudi, rusdur… Onlar heç vaxt Azərbaycanın milli maraqlarını qoruya bilməzlər.**

**C a v a b:** Bu da demokratiyadır. Demokratiyadır, baxmayaraq ki, Xarici İşlər Nazirliyində işləyən adamlar siyasətlə məşğul olmalıdırlar. Yəni onlar xarici siyasətlə, dövlətin xarici siyasətinin həyata keçirilməsi ilə məşğul olmalıdırlar. Ancaq başqa fikirləri, dövlətin siyasətindən kənar, ya ona zidd olan fikirlər deməməlidirlər. Amma bilirəm ki, atası ondan çox narahatdır. Sağ olun.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV YALTA ZİRVƏ GÖRÜŞÜNDƏ**

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev GUÖAM təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının Yaltada keçirilən zirvə görüşündə iştirak etmək üçün iyunun 6-da Ukraynanın Simferopol şəhərinə gəldi.*

*GUÖAM-ın üzvü olan ölkələrin dövlət bayraqları ilə bəzədilmiş hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini hava limanında Krım Muxtar Respublikasının yüksək vəzifəli rəsmi şəxsləri qarşıladılar.*

*Milli geyimli qızlar dövlətimizin başçısına gül-çiçək, duz-çörək təqdim etdilər.*

*Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Respublikamızın rəhbəri onu qarşılamağa gəlmiş şəxslərlə səmimi görüşdü, yerli və xarici jurnalistlərə qısa müsahibə verdi:*

**S u a l: Xahiş edirəm deyəsiniz, GUÖAM-ın xartiyasını planlaşdırıldığı kimi, həmkarlarınızın hamısı imzalayacaqmı və hesab edirsinizmi ki, bu təşkilat yaxın vaxtlarda genişlənəcəkdir?**

**C a v a b:** Bilirsinizmi, Yalta xartiyası GUÖAM-ın bütün üzvləri ilə razılaşdırılmışdır. Düşünmürəm ki, burada problemlər olacaqdır.

**S u a l: Cənab Voronin təklif etmişdir ki, Rusiya müşahidəçi olmalıdır. Sizin buna münasibətiniz?**

**C a v a b:** Hər hansı təklifi müzakirə etmək olar.

**S u a l: Sizin münasibətiniz?**

**C a v a b:** Müzakirə edərik.

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyev avtomobil karvanının müşayiəti ilə Yaltaya – onun üçün ayrılmış iqamətgaha gəldi.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Yalta,*
*Azərbaycan Prezidentinin iqamətgahı*

*6 iyun 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Gürcüstanın prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü olmuşdur.*

*Yenidən görüşmələrindən çox məmnun qaldıqlarını bildirən qonşu və dost ölkələrin başçıları qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi apardılar.*

*Ölkələrimiz arasında dostluq, mehriban qonşuluq və qarşılıqlı faydalı əlaqələrin vəziyyətindən razılıqlarını vurğulayan prezidentlər GUÖAM çərçivəsində əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiklərini nəzərə çatdırdılar.*

*İki ölkə arasında münasibətlərin perspektivlərindən bəhs edən dövlət başçıları Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması, Bakı –Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi və «Şahdəniz» yatağından hasil olunan qazın nəqli üçün Azərbaycan – Türkiyə qaz kəmərinin Gürcüstan ərazisindən keçməsi ilə bağlı məsələləri ətraflı müzakirə etdilər.*

*Görüş zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

### Dövlətimizin başçısının görüşdən sonra Azərbaycan jurnalistlərinin suallarına verdiyi cavab:

**S u a l: Cənab Prezident, Gürcüstan prezidenti Eduard Şevardnadze ilə görüşünüz zamanı hansı məsələlər müzakirə olundu?**

**C a v a b:** Cənab Eduard Şevardnadze ilə biz hər dəfə çox danışıqlar aparırıq. Çünki bizim çox yaxın münasibətlərimiz var. Özü də bir regionda olduğumuza görə çox işlər görürük. Çox danışıqlar apardıq. Amma əsas bir məsələ idi. Mən Bakıda, sərgidə də bu fikri dedim. Çünki indi bizim «Şahdəniz» qaz yatağından çıxarılacaq qazı ixrac etmək üçün istəyirik ki, kəməri 2002-ci ildə hazır edək, Türkiyəyə qaz verək. Mənə dedilər ki, onların hökuməti bunu bir az gecikdiribdir və parlamentdə hələ baxmayıblar. Konsorsium narahatdır. Türkiyə baxıb, biz baxmışıq. Çünki əgər bir az geciksə, qış vaxtı bu, çətin olacaqdır. Əsas bu idi. Yəni burada müzakirə etməyə bir şey yox idi. O bilmirdi. Mən ona dedim. O da dedi ki, bu yaxında həll olunacaqdır. Başqa məsələlər barədə də fikir mübadiləsi etdik.

**S u a l: Cənab Prezident, sammit ərəfəsində mövqe razılaşdırılması da oldumu?**

**C a v a b:** Orada mövqe razılaşdırılmasına ehtiyac yoxdur. Çünki o xartiya hazırlanıbdır. Hamımız razılığımızı vermişik. Ola bilər, orada bəzi məsələlər meydana çıxsın. O barədə də bir az söhbət etdik.

**S u a l: Cənab Prezident, Sizin fikrinizcə, sammitin ən əsas hadisəsi hansı olacaqdır?**

**C a v a b:** Gələrsiniz, görərsiniz.

**S u a l: Cənab Prezident, dediyiniz bəzi məsələlərdə nələr ola bilər?**

**C a v a b:** İndi kimsə deyir ki, bəlkə başqa ölkələr də cəlb olunsun. İndi belə təkliflər var. Ona görə məsələ müzakirə oluna bilər.

**S u a l: Cənab Prezident, qonaq sifətində konkret olaraq Bolqarıstan, Rumıniya və Rusiya nəzərdə tutulur?**

**C a v a b:** Bəli, belə fikirlər var. Bir tərəfdən bunları deyirlər, o biri tərəfdən onları deyirlər.

**S u a l: Siz bununla razısınız?**

**C a v a b:** Mən orada öz fikrimi deyəcəyəm.

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**

*6 iyun 2001-ci il*

*Yalta,*
*Azərbaycan Prezidentinin iqamətgahı*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Moldova Respublikasının prezidenti Vladimir Voronin ilə təkbətək görüşü olmuşdur.*

*Bir-birini səmimiyyətlə salamlayan dövlət başçıları yenidən görüşmələrindən çox şad olduqlarını nəzərə çatdırdılar.*

*Müstəqillik əldə etdikdən sonra respublikamızın demokratikləşdirmə, bazar iqtisadiyyatı yolu ilə irəlilədiyini bildirən prezident Heydər Əliyev ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı birləşmələri tərəfindən işğal olunduğu, bir milyondan çox soydaşımızın doğma yurd-yuvasından zorla qovularaq çadırlarda dözülməz şəraitdə yaşadığı barədə ətraflı söhbət açdı. Lakin bütün bunlara baxmayaraq, Azərbaycanın münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu nəzərə çatdıran dövlətimizin başçısı bu istiqamətdə ölkəmizin göstərdiyi səylərdən bəhs etdi.*

*Öz ölkəsinin də müstəqillik qazandıqdan sonra ağır problemlə – Dnestryanı münaqişəsi ilə qarşılaşdığını xatırladan prezident Vladimir Voronin Moldovanın problemi sülh yolu ilə həll etmək əzmində olduğunu bildirdi və bu istiqamətdə aparılan işlər barədə Heydər Əliyevə söhbət açdı.*

*Regionda baş verən münaqişələrin ölkələrimizin iqtisadi tərəqqisi üçün böyük maneə olduğunu vurğulayan dövlət başçıları separatizmin, ekstremizmin və terrorizmin bütün hallarına qarşı mübarizədə təsirli tədbirlər görülməsinin, münaqişələrin aradan qaldırılması üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd etdilər.*

*İkitərəfli əlaqələrin inkişafından bəhs edən prezidentlər GUÖAM təşkilatı çərçivəsində ölkələrimizin əməkdaşlığına böyük əhəmiyyət verdiklərini vurğuladılar. Qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsi zərurətini nəzərə çatdıran dövlət başçıları ölkələrimizin beynəlxalq, fövqəlmilli layihələrdə birgə iştirakının hər iki tərəf üçün faydalı olduğunu bildirdilər.*

*Görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparıldı.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN**
**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**

*Yalta*

*6 iyun 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Ukrayna prezidenti Leonid Kuçma ilə təkbətək görüşü olmuşdur.*

*Bir-birini səmimiyyətlə qarşılayan prezidentlər GUÖAM ölkələrinin dövlət başçılarının Yaltada keçirilən bu görüşünün çox əhəmiyyətli olduğunu bildirdilər.*

*Ölkələrimiz arasında təşəkkül tapmış dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıqdan məmnuniyyətlə söhbət açan prezidentlər bu əlaqələrin hərtərəfli inkişafını razılıq hissi ilə vurğuladılar.*

*Azərbaycan – Ukrayna münasibətlərinin perspektivlərindən söhbət açan prezident Heydər Əliyev və prezident Leonid Kuçma GUÖAM təşkilatı çərçivəsində əməkdaşlığın inkişafının əhəmiyyətini də nəzərə çatdırdılar.*

*Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və nəqli ilə bağlı məsələlərə toxunan prezidentlər birgə layihələrin həyata keçirilməsində ölkələrinin maraqlı olduğunu bildirdilər.*

*Transmilli layihələrin regionun iqtisadi inkişafı, çiçəklənməsi üçün əhəmiyyətli olduğu da vurğulandı. Dövlət başçıları bu layihələrin gerçəkləşdirilməsi üçün ölkələrimizin hər cür səylər göstərməyə hazır olduğunu nəzərə çatdırdılar.*

*Görüş zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər də nəzərdən keçirildi.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN**
**ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**

*Yalta*

*6 iyun 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Özbəkistan Respublikasının prezidenti İslam Kərimov ilə təkbətək görüşü olmuşdur.*

*Bir-birini səmimiyyətlə salamlayan dövlət başçıları yenidən görüşmələrinə şad olduqlarını nəzərə çatdırdılar.*

*Prezident İslam Kərimov çox böyük hörmət bəslədiyi görkəmli siyasi xadim Heydər Əliyev ilə münasibətlərini yüksək dəyərləndirdiyini vurğuladı.*

*Müstəqillik əldə etdiyimiz ilk illərdə ölkələrimiz arasındakı münasibətlərdə aşkar soyuqluq yarandığını və bir sıra problemlərin meydana çıxdığını xatırladan prezident İslam Kərimov bildirdi ki, bütün bunlar Azərbaycanın o vaxtkı rəhbərliyinin, Xalq Cəbhəsi hakimiyyətinin siyasəti nəticəsində baş vermişdir. Xalqlarımız, ölkələrimiz arasında dərin tarixi köklərə malik olan dostluq və qardaşlıq münasibətləri yalnız prezident Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yenidən inkişaf etmiş və möhkəmlənmişdir.*

*Görüş zamanı ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişaf etdirilməsinə dair bir çox məsələləri nəzərdən keçirən dövlət başçıları ikitərəfli münasibətlərin indiki vəziyyətindən məmnunluqla söhbət açdılar və GUÖAM çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirdiklərini bildirdilər.*

*Prezidentlər regional, fövqəlmilli layihələrin gerçəkləşdirilməsinin əhəmiyyətindən və bu beynəlxalq layihələrdə ölkələrimizin yaxından iştirakından da danışdılar.*

*Söhbət zamanı prezidentlər separatçılığın, terrorçuluğun və ekstremizmin hər cür təzahürünə qarşı mübarizənin zəruriliyini xüsusi vurğulayaraq, bu işdə səylərin birləşdirilməsinin vacib olduğunu nəzərə çatdırdılar.*

*Görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər də müzakirə olundu.*

## GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Yalta,*
*Livadiya sarayı*

*7 iyun 2001-ci il*

Hörmətli Leonid Daniloviç Kuçma!
Hörmətli Eduard Amvrosiyeviç Şevardnadze!
Hörmətli İslam Əbdüqəniyeviç Kərimov!
Hörmətli Vladimir Nikolayeviç Voronin!
Hörmətli həmkarlar, xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanın nümayəndə heyəti adından salamlamaq, zirvə görüşümüzə uğurlar arzulamaq və əmin olduğumu bildirmək istəyirəm ki, bu zirvə görüşü təşkilatımızın – GUÖAM-ın daha da inkişaf etməsində mühüm mərhələ olacaqdır.

Bu növbəti görüşü keçirmək təşəbbüsünə görə Leonid Daniloviç Kuçmaya təşəkkür etmək istəyirəm, hərçənd bu baxımdan bizdə indiyədək planlılıq yox idi. Hesab edirəm ki, Leonid Daniloviç Kuçmanın təşəbbüsü GUÖAM təşkilatı ilə bağlı məsələlərimizin müzakirəsi üçün bizim buraya, Krıma, Ukraynanın gözəl diyarına ən yüksək səviyyədə toplaşmağımızda mühüm rol oynamışdır.

Qeyd etməyi lazım bilirəm ki, ötən dövr ərzində GUÖAM təşəkkül yolu keçmişdir və bu təbiidir. Qərar qəbul edildikdən, saziş əldə olunduqdan sonra hər bir təşkilatın təşəkkülü dərhal baş vermir, əksinə, bu, zamanın sınağını tələb edir. Bu gün biz deyə bilərik ki, GUÖAM təşkilatında birləşən ölkələrimiz zamanın sınağından çıxmışlar. GUÖAM yaşayır, mövcuddur və özünü hər hansı beynəlxalq təşkilata qarşı qoymur. Təbii ki, mənafelərimizlə bağlı bir sıra məsələlərin həllində ölkələrimizə kömək edir və zənnimcə, bundan sonra da kömək edəcəkdir.

Bunu demək vacibdir ki, bizim təşkilatımız ölkələrimizin, dövlətlərimizin müstəqilliyinin yetirməsidir. Bu il Sovet İttifaqının dağılmasının 10 ili tamam olur. Bu da bizim ölkəmizə, eləcə də Sovet İttifaqına daxil olmuş digər respublikalara müstəqil dövlətlər olmağa imkan vermişdir.

Müstəqilliyə gedən yol mürəkkəb prosesdir. Biz dövlət müstəqilliyini elan edərək, mühüm tarixi addım atdıq. Bununla bərabər, Azərbaycanın timsalında – zənnimcə, digər respublikalar da öz xüsusiyyətlərini nəzərə alaraq bu fikri söyləyə bilərlər – biz əmin olduq ki, xüsusən siyasi və iqtisadi sistemdə tamam əks tərəfə güclü dönüş edərək, bu müstəqilliyi möhkəmlətmək, qoruyub saxlamaq asan iş deyildi.

Məsələn, Azərbaycanda biz çox çətinliklərlə qarşılaşdıq. Respublikamızın xüsusiyyəti ondadır ki, müstəqillik əldə edilən zaman Azərbaycan qonşu Ermənistanla hərbi münaqişə vəziyyətində idi. Ermənistan hələ Sovet İttifaqı mövcud olduğu dövrdə, 1988-ci ildə Dağlıq Qarabağ vilayətini nəzərdə tutaraq Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başlamışdı. Ona görə də biz müharibə və hərbi əməliyyatlar vəziyyətində idik.

Uzun illər ərzində birlikdə yaşadığımız və çalışdığımız o sistemin – ölkələrin burada əyləşmiş rəhbərləri və mən öz timsalımızda bilirik ki, o quruluş, o sistem üçün çox işlər görmüşük – qüsurlarından biri də bu idi ki, biz çox ədalətsizliklərlə qarşılaşdıq.

Bu ədalətsizliklərdən birinə bizim respublikamız da məruz qaldı. Təəssüf ki, Sovet İttifaqı kimi böyük ölkə Ermənistan və Azərbaycan arasındakı bu münaqişənin qarşısını ala bilmədi və almaq istəmədi, bu münaqişə genişlənib müharibəyə çevrildi və indiyədək öz həllini tapmamışdır. Üstəlik, müxtəlif səbəblərə görə Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etdi, bütün azərbaycanlıları oradan didərgin saldı. Nəinki Dağlıq Qarabağ vilayətində – orada az miqdarda əhali yaşayırdı – həm də bu vilayətin ətrafındakı digər bölgələrdə bir milyon azərbaycanlı öz yaşayış yerlərindən qovuldu. Bir milyondan artıq adam qaçqın vəziyyətindədir və olduqca ağır şəraitdə yaşayır, onların çoxu artıq 8-9 ildir çadırlarda yaşayır. Bax, biz müstəqilliyimizi belə şəraitdə əldə etdik. Ölkəmizin daxilində baş vermiş sonrakı proseslər isə onunla bağlıdır ki, Dağlıq Qarabağda münaqişə ilə əlaqədar yaradılmış silahlı dəstələr ayrı-ayrı siyasi qüvvələrin əlində alətə çevrilmişdi. Bu isə ölkənin daxilində sabitliyin pozulmasına, hakimiyyət uğrunda mübarizəyə gətirib çıxarmışdı. Odur ki, 1993-cü ildə Azərbaycan əslində uçurumun kənarında, hərc-mərclik şəraitində idi və təbii ki, ölkənin parçalanması təhlükəsi vardı. Sonralar da müstəqilliyimizi möhkəmlətməyə mane olan hallar baş verdi. Ancaq indi böyük məmnunluq hissi ilə demək olar ki, biz bütün bunları dəf etməyə və müstəqilliyi qoruyub saxlamağa, möhkəmlətməyə müvəffəq olduq.

Bu gün müstəqil ölkə olaraq Azərbaycan Dünya Birliyində öz layiqli yerini tutmuşdur, müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən də beynəlxalq əhəmiyyət kəsb edən GUÖAM kimi təşkilata daxildir.

Ölkələrimiz, əvvəla, regional prinsiplərə görə, ikincisi, mənafelərin oxşarlığına görə, xüsusən də müstəqilliyi möhkəmlətməyin və daha da inkişaf etdirməyin zəruriliyi ilə, iqtisadi əməkdaşlıq üçün və təbii ki, bu çətin keçid dövründə bir-birini dəstəkləmək üçün daha əlverişli imkanların olması ilə əlaqədar birləşmiş və GUÖAM təşkilatını yaratmışlar.

Bəzən eşidirsən ki, deyirlər, GUÖAM nəyə gərəkdir, o nə olan şeydir, başqa təşkilatlarla ziddiyyət təşkil etmirmi? Məsələn, mən bu suallara həmişə cavab vermişəm və indi də deyirəm ki, onlar tamamilə əsassızdır. Dünyada regional təşkilatlar çoxdur və hətta MDB məkanında da GUÖAM-dan savayı, ayrı-ayrı regional təşkilatlar yaranmışdır. Onlar GUÖAM-dan bəlkə də əvvəl təşkil edilmişdir.

Bizim fikrimizcə, GUÖAM-ın özünü hər hansı təşkilata qarşı qoymaq məqsədi yoxdur, əksinə, hazırda baş verən dünya proseslərinə daha fəal qoşulmağın zəruriliyini öz vəzifəsi hesab edir. Dünyada gedən proseslər isə, açığını deyəcəyəm, mürəkkəb proseslərdir. Əgər biz bir vaxtlar soyuq müharibədən əzab-əziyyət çəkirdiksə, totalitar sovet rejimindən əzab-əziyyət çəkirdiksə, indi bir çox digər hallar meydana çıxır və onlar ölkələri və xalqları heç də az müsibətlərə və çətinliklərə düçar etmir. Əlbəttə, bu baxımdan müxtəlif regionlardakı hərbi münaqişələr daha da təhlükəlidir. GUÖAM-a daxil olan ölkələrdən Azərbaycan hərbi münaqişə vəziyyətindədir. Bizim qonşumuz qardaş Gürcüstan da hərbi münaqişədən əzab-əziyyət çəkir. Mərkəzi Asiya regionunda da davakar ekstremizm, dini fanatizim tərəfindən təhlükə meydana gəlmişdir. Şübhəsiz ki, Ukrayna yaranmış proseslərlə əlaqədar çox çətinliklərlə üzləşmişdir. Moldova Dnestryanı bölgədəki münaqişədən heç cür xilas ola bilmir. Hazırda GUÖAM-ı əmələ gətirən beş ölkəni götürsək, görərik ki, üçündə hərbi münaqişələr gedir. Bizdə isə əslində müharibə idi. Ona görə də bizim məqsədimiz təşkilatımızın çərçivəsində həyata keçirilə biləcək ümumi səylərlə münaqişələrin dincliklə nizama salınmasına nail olmaqdır. Biz bunu Azərbaycan üçün çox mühüm vəzifə hesab edirik.

Bu münaqişələr özü ilə bir çox digər təhlükəli hadisələr gətirmişdir. Ümumiyyətlə, hazırda təhlükəsizlik məsələləri dünyanın bir çox regionları üçün, xüsusən də bizim regionumuz üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Nə vaxtsa özünü hətta büruzə verməyən separatçılıq kimi təzahürlər nəinki təkcə ölkələrimizə – keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş Gürcüstana, Moldovaya, Azərbaycana çox böyük ziyan vurmuşdur, siz Balkan ölkələrinə, başqa ölkələrə də nəzər salın. Mən coğrafiyanı Asiyaya qədər genişləndirmək istəmirəm. Yaxud ekstremizm, dini fanatizm, separatizm – indi bunlar hamısı birlikdə qonşu Mərkəzi Asiya ölkələrində özünü büruzə verir. Ona görə də bunu bilmək, vaxtında qabaqlayıcı tədbirlər görmək, qarşılıqlı fəaliyyət göstərmək, bu təzahürlərlə mübarizə təcrübəsinin mübadiləsini aparmaq son dərəcə böyük əhəmiyyətə malikdir.

Təşkilatımız regional qurumdur. Qarşılıqlı iqtisadi fəaliyyət, iqtisadiyyat, humanitar münasibətlər, elm, mədəniyyət, təhsil sahəsində əməkdaşlıq burada, əlbəttə, ön sıraya çəkilir. Xəritəyə baxsaq görərik ki, GUÖAM ölkələri əslində bütöv bir zolağı təşkil edirlər – şimaldan başlayaraq Moldova, Ukrayna, Azərbaycan, Xəzərin o tayında da Özbəkistan. Burada əməkdaşlıq üçün, xüsusən də Avropa Birliyinin TRASEKA, Böyük İpək Yolunun bərpası kimi mühüm proqramların həyata keçirilməsi sahəsində əməkdaşlıq üçün çox böyük imkanlar var. Bütün bunlar həm bugünkü reallıqlarımız üçün, həm də gələcək üçün son dərəcə böyük əhəmiyyətə malikdir.

Biz, GUÖAM-da təmsil edilən ölkələr bu məsələlərlə fəal məşğul olmuşuq və TRASEKA proqramının gerçəkləşdirilməsinə fəal girişmişik. 1998-ci ildə Avropa Birliyinin himayəsi ilə Azərbaycanda ilk beynəlxalq konfrans keçirildi. Konfransda 32 ölkə, 15 beynəlxalq təşkilat təmsil olunmuşdu. Biz bir sıra qərarlar qəbul etdik, bir sıra sənədlər imzaladıq və əminəm ki, bunların hamısının böyük perspektivi, böyük gələcəyi var. Şərqlə Qərbi ən qısa yolla birləşdirən və həm də təhlükəsizlik baxımından daha sərfəli olan Böyük İpək Yolunun bərpası, şübhəsiz, bizim GUÖAM təşkilatının fəaliyyət dairəsinə daxil olan vəzifədir.

İqtisadi əməkdaşlığın böyük əhəmiyyəti var. Zənnimcə, biz öz təşkilatımız çərçivəsində belə bir yekdil fikirdəyik ki, iqtisadi əməkdaşlıq sahəsində hər bir ölkənin müxtəlif ölkələrlə, müxtəlif beynəlxalq təşkilatlarla, müxtəlif regionlarla ikitərəfli və ya çoxtərəfli maraqlarının istisna edilməsi, şübhəsiz, hansısa bir öhdəlik deyildir. Bu baxımdan, GUÖAM belə əməkdaşlığa əlavədir, həmin iqtisadi əlaqələrin daha fəal irəliləməsi üçün vasitədir.

Hesab edirəm ki, ötən dövr ərzində GUÖAM formalaşmışdır. İndi təkcə ölkələrimizi deyil, dünyanın bir çox regionlarını və ümumən bütün dünyanı da narahat edən təhlükəli təzahürlərin bəziləri – beynəlxalq terrorizm, ekstremizm, dini fanatizm, davakar separatizm əvvəllər, biz 1997-ci ildə GUÖAM-ı yaratdığımız vaxtlarda bu təzahürlərə heç də bütün ölkələrdə əhəmiyyət verilmədiyinə və bəzi ölkələr onları bəlkə də qabaqcadan görə bilmədiklərinə görə, bəlkə də təhlükəli görünmürdü. Bu təzahürlər geniş yayılmışdır. Görünür, gələcəkdə biz məhz bu istiqamətdə daha böyük təhlükələrlə, böyük çətinliklərlə qarşılaşa bilərik. Ona görə də dünyanın təhlükəsizliyi, onun müxtəlif regionlarının təhlükəsizliyi, Avropada, Qafqazda, Mərkəzi Asiyada, Şərqi Avropada təhlükəsizlik müstəsna əhəmiyyətə malikdir. Bu təhlükəsizliyi pozan və çox böyük çətinliklər yaradan amillər isə dediyim həmin təzahürlərdir. Ona görə də mən hesab edirəm ki, biz bu məsələləri ön sıraya çəkərək,

GUÖAM çərçivəsində bundan sonra da çox fəal əməkdaşlıq etməli, bir-birimizlə qarşılıqlı fəaliyyət göstərməliyik. Təcrübə mübadiləsi apararaq digər beynəlxalq təşkilatlarda dünyanın təhlükəsizliyi məsələlərinə dair fəal çıxış edərək, böyük təhlükə mənbəyi olan həmin meyllər barədə danışaraq çox iş görə bilərik.

Əvvəldə dediyim kimi, mənim fikrimcə, GUÖAM artıq formalaşmış təşkilatdır. Elə bugünkü Yalta görüşü də bu baxımdan ona görə dönüş görüşüdür ki, biz ilk dəfə olaraq burada təşkilatımızın Yalta xartiyasını və bəzi digər sənədləri imzalayacağıq. Məsələn, mən bu fikirdəyəm ki, biz təşkilatımızı inkişaf etdirməli və ona daha böyük güc, böyük fəallıq verməliyik. Odur ki, göstərdiyi təşəbbüsə və bugünkü görüşə görə Ukrayna prezidenti Leonid Daniloviç Kuçmaya bir daha təşəkkür etmək istəyirəm. Görünür, bu görüş gələcək fəal işlərimiz üçün, GUÖAM çərçivəsində daha güclü qarşılıqlı fəaliyyətimiz və əməkdaşlığımız üçün zəmin olacaqdır.

## GUÖAM-ın YALTA XARTİYASI

***Yalta zirvə görüşündə sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan prezidenti Heydər Əliyev, Ukrayna prezidenti Leonid Kuçma, Özbəkistan prezidenti Islam Kərimov, Gürcüstan prezidenti Eduard Şevardnadze və Moldova prezidenti Vladimir Voronin GUÖAM-ın Yalta xartiyasını imzaladilar. Dövlət başçıları GUÖAM-ın azad ticarət zonasının yaradılması haqqında sazişin layihəsi üzərində işi başa çatdırmağın zəruriliyini vurğuladılar.***
***GUÖAM-ın üzvü olan dövlətlərin konsulluq məsələlərində qarşılıqlı yardım göstərilməsi haqqında konvensiyasını isə Azərbaycanın, Gürcüstanın, Özbəkistanın, Ukraynanın, Moldovanın xarici işlər nazirləri imzaladılar. Zirvə görüşündə birgə rəsmi sənəd qəbul olundu***

Bundan sonra GUÖAM adlandırılan Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Özbəkistan Respublikası və Ukrayna, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin, habelə Helsinki Yekun aktinin, Yeni Avropa üçün Paris xartiyasının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Avropa Təhlükəsizliyi xartiyasinin müddəalarını rəhbər tutaraq,

GUÖAM dövlətləri başçılarının 1997-ci il 10 oktyabr tarixli Strasburq bəyannaməsinin, 1999-cu il 24 aprel tarixli Vaşinqton bəyanatının və 2000-ci il 6 sentyabr tarixli Nyu-York memorandumunun müddəalarını təsdiq edərək, demokratiya, əsas insan hüquqlarına və azadlıqlarına hörmət, hüququn aliliyi, bazar iqtisadiyyatı prinsiplərinə sadiq olaraq, regional əməkdaşlığın qloballaşma proseslərinin bir hissəsi olduğunu və bu əməkdaşlığın GUÖAM dövlətlərinin suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmlənməsinə töhfə verə biləcəyini, münaqişələrin sülh yolu ilə nizamlanmasına yardım göstərə və onların xalqlarının rifahını yaxşılaşdıra biləcəyini etiraf edərək, GUÖAM ölkələri və onların xalqları arasında ənənəvi dostluq münasibətlərindən çıxış edərək, hazırkı xartiyanın qəbul edilməsi haqqında razılığa gəlmişlər.

1. GUÖAM-ın əməkdaşlığının məqsədləri:

– Sosial-iqtisadi inkişafa yardım göstərilməsi;

– Ticarət-iqtisadi əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi;

– Nəqliyyat-kommunikasiya magistrallarının və onların ərazisində yerləşən müvafiq infrastrukturların GUÖAM ölkələrinin maraqlarına uyğun surətdə inkişafı və səmərəli istifadəsi;

– Bütün fəaliyyət sahələrində regional təhlükəsizliyin möhkəmləndirilməsi;

– Elm, mədəniyyət sahəsində və humanitar sahədə münasibətlərin inkişaf etdirilməsi;

– Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət;

– Beynəlxalq terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkobiznesə qarşı mübarizə.

2. GUÖAM-ın əməkdaşlıq prinsipləri:

GUÖAM çərçivəsində əməkdaşlıq beynəlxalq hüququn ümumi qəbul olunmuş normalarına və prinsiplərinə, xüsusilə iştirakçı dövlətlərin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə hörmət edilməsinə və onların daxili işlərinə qarışmamağa əsaslanır.

3. GUÖAM-ın əməkdaşlığının istiqamətləri:

– İqtisadiyyat, elm, texnologiyalar və ətraf mühit;

– Nəqliyyat, energetika, telekommunikasiya infrastrukturu;

– Birgə sərmayə və maliyyə layihələri;

– Humanitar sahə, mədəniyyət, təhsil, kütləvi informasiya vasitələri, turizm, gənclər mübadiləsi;

– Qarşılıqlı maraq doğuran digər istiqamətlər.

4. İştirakçı dövlətlər əməkdaşlıq sahələrinin genişləndirilməsinə dair təkliflər irəli sürə bilərlər.

5. GUÖAM onun əsas sənədlərində, o cümlədən bu xartiyada təsbit olunmuş məqsəd və prinsiplərə öz sadiqliyini tam dərəcədə təsdiq edən yeni iştirakçılar üçün açıqdır.

6.GUÖAM-ın təşkilati strukturu:

6.1. GUÖAM-ın ali orqanı dövlət başçılarının hər il keçirilən görüşüdür.

GUÖAM-da sədrlik iştirakçı dövlətlər tərəfindən əlifba sırası ilə dövlət başçılarının görüşləri arasındakı dövrdə həyata keçirilir. Dövlət başçılarının görüşlərində aşağıdakı qərarlar qəbul edilir:

– GUÖAM çərçivəsində siyasi, iqtisadi və humanitar əməkdaşlığın əsas istiqamətləri haqqında;

– GUÖAM-ın ixtisaslaşdırılmış orqanlarının yaradılması haqqında;

– Beynəlxalq həyatın qarşılıqlı maraq doğuran aktual məsələləri üzrə mövqelərin razılaşdırılması haqqında.

6. 2. GUÖAM-ın icra orqanı xarici işlər nazirlərinin, bir qayda olaraq, ildə iki dəfə keçirilən iclaslarıdır. Xarici işlər nazirlərinin iclaslarında GUÖAM çərçivəsində razılaşmaların yerinə yetirilməsi məsələlərinə baxılır,

habelə dövlət başçılarının görüşlərində baxılması üçün GUÖAM əməkdaşlığının daha da inkişaf etdirilməsinə və dərinləşdirilməsinə dair təkliflər hazırlanır.

6. 3.GUÖAM-ın işçi orqanı milli əlaqələndiricilər komitəsidir (MƏK). Onun tərkibinə hər bir iştirakçı dövlətdən bir nəfər olmaqla xarici işlər nazirləri tərəfindən təyin edilən milli əlaqələndiricilər daxildir.

MƏK iştirakçı dövlətlər arasında GUÖAM çərçivəsində fəaliyyəti əlaqələndirir, dövlət başçılarının görüşlərinin və xarici işlər nazirlərinin iclaslarının hazırlanmasını təmin edir.

MƏK-in iclasları hər rüb növbə ilə iştirakçı dövlətlərdə keçirilir. İştirakçı dövlətlərdən birinin təklifi ilə MƏK-in növbədənkənar iclasları keçirilə bilər.

6. GUÖAM çərçivəsində qərarlar konsensusla qəbul edilir.

7. GUÖAM-ın işçi dilləri rus və ingilis dilləridir.

2001-ci il iyunun 7-də Yalta şəhərində Azərbaycan, ingilis, gürcü, moldav, rus, özbək və Ukrayna dillərində bir əsl nüsxədə tərtib edilmişdir, bununla belə, bütün mətnlər eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev**
**Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze**
**Moldova Respublikasının Prezidenti Vladimir Voronin**
**Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov**
**Ukrayna Respublikasının Prezidenti Leonid Kuçma**

**GUÖAM TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA, VƏTƏNƏ QAYIDARKƏN BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ**

*7 iyun 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Mən dünən yola düşərkən nədən ötrü getdiyimi sizə demişdim. Ona görə də təkrar etməyə ehtiyac yoxdur. GUÖAM ölkələrinin sammiti Yaltada keçdi. Dünən ikitərəfli görüşlər oldu. Bu gün isə sammit çox yaxşı keçdi. Hesab edirəm ki, GUÖAM yaranandan indiyə qədər keçən vaxt ərzində inkişaf edibdir və Yaltadakı bugünkü sammit GUÖAM-ın beynəlxalq qurum kimi təşkilatlanması haqqında qərarlar qəbul etdi – Yalta xartiyası, sonra bəyanat. Biz belə qərar qəbul etdik ki, sənədlər Birləşmiş Millətlər Təşkilatına təqdim olunsun və GUÖAM beynəlxalq bir təşkilat kimi hər yerdə tanınsın.

Hesab edirəm ki, hamımız, yəni beş ölkənin prezidenti eyni fikirdəydik. Bu fikirlərimizi də orada ifadə etdik. Hesab edirəm ki, lazım olan bütün məsələlər xartiyada öz əksini tapıbdır. İndi kimin nə sözü var, buyursun.

**S u a l: Cənab Prezident, Azərbaycan–Türkiyə qaz kəmərinin Gürcüstandan keçməsi məsələsini prezident Eduard Şevardnadze ilə müzakirə etdinizmi?**

**C a v a b:** Bəli, müzakirə etdim. O mənə dedi ki, heç bir problem yoxdur. Bilirsiniz ki, mən iki gün öncə sərgidə də onların nümayəndəsinə demişdim. Dedi ki, heç bir problem yoxdur. Yaxın günlərdə onlar bütün sənədləri rəsmiləşdirəcək və parlamentdən keçirəcəklər.

**S u a l: Cənab Prezident, Rusiyanın müşahidəçi kimi GUÖAM-da iştirak etməsi məsələsi müzakirə olundumu?**

**C a v a b:** Yox, bu məsələlərə baxılmadı. Çünki əvvəllər bəzi prezidentlərdə müxtəlif fikirlər olmuşdur. Bu barədə yenə də fikir mübadiləsi aparıldı. Ancaq bu məsələlər müzakirə olunmadı. Ümumiyyətlə, bizim hamımızda belə əhval-ruhiyyə var ki, yəqin GUÖAM-a başqa yaxın ölkələr də daxil ola bilərlər.

**S u a l: Cənab Prezident, Rumıniya ilə Bolqarıstanın bu təşkilata daxil olması müzakirə edildimi?**

**C a v a b:** Deyirəm, müzakirə olunmadı. Amma fikir mübadiləsi aparıldı.

**S u a l: Cənab Prezident, Türkiyənin bu təşkilata daxil olması düşünülürmü?**

**C a v a b:** Ümumiyyətlə, qonşu ölkələrin hamısı haqqında fikir mübadiləsi aparıldı.

**S u a l: Cənab Prezident, Ermənistanın Xarici Işlər naziri Vardan Oskanyan bildirib ki, onlar danışıqlarda Paris prinsiplərinə razıdırlar. Ümumiyyətlə, Parisdə hər hansı bir prinsip olubmu və bu, ölkəmizin maraqlarına nə qədər ziddir ki, guya Azərbaycan bu prinsiplərdən çəkinir?**

**C a v a b:** Bilmirəm, onlar hansı prinsipləri deyirlər. İndi mən buna cavab verməyə hazır deyiləm.

**S u a l: Cənab Prezident, son zamanlar Azərbaycanda çeçenlərin törətdikləri qətllərin, silahlı basqınların sayı artır. Dünən Bakıda iki polisi öldürüblər. Azərbaycan bu sahədə Rusiya ilə əməkdaşlıq etməyə hazırlaşırmı?**

**C a v a b:** Azərbaycan Rusiya ilə bu barədə nə əməkdaşlıq edə bilər? Rusiya özü neçə illərdir Çeçenistanda müharibə aparır. Elə hər gün Moskva televiziyasından eşidirsiniz ki, orada çeçenlər Rusiyanın ya polis nümayəndələrini, yaxud başqa hərbi nümayəndələrini öldürürlər. Bəzən partlayış edirlər, bəzən odlu silahlardan istifadə edirlər. Hər halda, biz belə fikirdəyik ki, gərək bütün bu hadisələrə son qoyulsun. Balakəndə baş vermiş hadisə də məni çox narahat etdi. Ona görə mən hüquq-mühafizə orqanları ilə müzakirə etdim və onlara göstəriş verdim, lazımi tədbirlər düşünsünlər ki, biz vaxtında bunların qarşısını alaq.

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının Müdafiə naziri Ankarada olub və Türkiyəyə Ermənistanla əməkdaşlıq etməyi, sərhədləri açmağı təklif edibdir. Bunun cavabında Baş nazir Bülənd Ecevit iki şərt irəli sürüb ki, ermənilər Qarabağdan çıxmalı və Naxçıvana dəhliz verməlidirlər. Türkiyənin bu mövqeyi Ermənistana hər hansı təsir vasitəsi kimi qiymətləndirilə bilərmi?**

**C a v a b:** Bilirsiniz, Türkiyə bizim dostumuzdur. Türkiyə bizim ən yaxın müttəfiqimizdir. Türkiyə dəfələrlə bəyan edibdir ki, Türkiyənin Ermənistanla münasibətləri yalnız Ermənistan–Azərbaycan münaqişəsi aradan qaldırılandan sonra ola bilər. Köçəryanla birbaşa, həmsədrlərin vasitəsilə danışıqlarımızda da bu məsələ gündəlikdə durur. Yəni Türkiyə belə fikirdədir ki, əgər Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını azad etsə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsa və bu münaqişəyə son qoyulsa, sülh əldə edilsə, Türkiyə bunu edə bilər. Amma bunlar olmasa, Türkiyə, güman edirəm ki, heç bir şey etməyəcəkdir.

Mən bunu bilmirdim, siz mənə məlumat verirsiniz. Əgər hörmətli Bülənd Ecevit belə cavab veribsə, tamamilə düz cavab veribdir. Xatirinizdədir, mən mart ayında Türkiyədə olarkən danışıqların hamısında bu

məsələni çox kəskin qoymuşdum. Yəni burada bir fikir müxtəlifliyi yoxdur. Ancaq Türkiyədə bəzi tacirlər, filanlar şəxsi, kiçik mənfəətlərindən ötrü belə təkliflər irəli sürürlər. Bizə məlumdur.

Vaxtilə hörmətli Süleyman Dəmirəl Qarsda olanda orada yaşayan adamlar ondan xahiş etmişdilər ki, sərhədi açın, alış-veriş edək. Sonra Süleyman Dəmirəl bunu mənə dedi. Özü də dedi, bil ki, bunlar azərilərdir − bax, bunu da düşünün − məndən bunu xahiş edən azərilərdir. Amma Süleyman Dəmirəl onlara çox sərt cavab vermişdi. Demişdi ki, bir neçə qəpik-quruşdan ötrü belə böyük məsələlərə yol vermək olmaz. O bir neçə dəfə bəyan etmişdi ki, Ermənistan –Türkiyə sərhədinin açarı Ermənistandadır. Türkiyə bu mövqeyini dəyişməyibdir. İnanıram ki, dəyişməyəcəkdir. Baş nazir hörmətli Bülənd Ecevitin də belə cavabı həmin mövqenin dəyişmədiyini göstərir.

**S u a l: Cənab Prezident, dekabrın sonlarında İran və Ermənistan ümumi dəyəri 120 milyon dollar olan qaz kəmərinin çəkilişinə başlayacaqlar. İranla Ermənistanın bu yeni əməkdaşlığını Siz necə qiymətləndirirsiniz?**

**C a v a b:** İran Ermənistanla təkcə bu gün əməkdaşlıq edir? İran Ermənistanla neçə illərdir ki, əməkdaşlıq edir və Ermənistan da gizlətmir. Vaxtilə keçmiş prezident Levon Ter-Petrosyan demişdi ki, əgər İranla Ermənistan arasında iqtisadi əlaqələr iki gün kəsilsə, Ermənistan boğula bilər. Bu sözlər mənim xatirimdədir. Ona görə bu, yeni bir şey deyildir. Qaz kəməri haqqında da onlar çoxdan danışıqlar aparıblar. Bunlar məni təəccübləndirmir.

**S u a l: Cənab Prezident, dünən Türkiyənin ölkəmizdəki səfirliyində mətbuat konfransı keçirən Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Bakı – Tbilisi – Ceyhan layihəsinə toxunaraq demişdir ki, bu heç də siyasi layihə deyil və regiondakı xalqların firavanlığına, müstəqilliyinə, təhlükəsizliyinə xidmət edir. Bir də ki, bu layihənin xərclərinin 500 milyon dollar artması nə dərəcədə doğrudur?**

**C a v a b:** Bilirsiniz, təbiidir ki, hər bir belə layihə birinci növbədə kommersiya xarakteri daşıyır. Ancaq dəfələrlə Türkiyədə də, Azərbaycanda da deyilib və Qərb ölkələrində də deyilibdir ki, Bakı – Tbilisi – Ceyhan neft kəməri – indi biz qaz kəməri də çəkəcəyik – eyni zamanda bizim bölgədə sabitliyin, təhlükəsizliyin təmin olunmasına kömək edəcəkdir. Türkiyənin naziri bunu nə cür deyibdir, mən ona cavabdeh deyiləm.

500 milyon dollar deyirsiniz, belə bir şey yoxdur. Yəni, vaxtilə deyilmişdi ki, – artıq bu, layihədə əks olunubdur – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin qiyməti 2 milyard 400 milyon dollardır. Əvvəl Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu rəqəmlə razılaşmırdı. Kimsə onlara rəqəm vermişdi ki, bu, 3 milyard dollar, ondan da artıqdır. Elə buna görə də mübahisə bu məsələni bir az gecikdirdi. Ancaq o vaxt belə fikir də oldu ki, Türkiyə bu qiyməti dəyərləndiribdir – 2 milyard 400 milyon dollar. Əgər iş zamanı bu qiymətdən artıq məsrəf olsa, onları Türkiyə öz üzərinə götürəcəkdir. Onlar vaxtilə belə bəyanat veriblər. Amma indi heç bir şey deyə bilmərəm. Mən hesab edirəm ki, indiki durumda elə nəzərdə tutulmuş məbləğ bunu təmin edəcəkdir.

**S u a l: Cənab Prezident, «İnterfaks» agentliyi Türkmənistan diplomatiyasına istinadən belə bir məlumat yayıbdır ki, Azərbaycan mübahisəli yataqlar barəsində güzəştə getməsə, Türkmənistan Azərbaycana qarşı sərt tədbirlər görəcəkdir. Qeyd edilir ki, Azərbaycanın Türkmənistana 52 milyon dollar borcu var. Ümumiyyətlə, bu sərt tədbir nədən ibarət olar və belə bir borc varmı?**

**C a v a b:** Birincisi, o sərt tədbir nədən ibarət olar, onu siz Türkmənistandan soruşun. Mən bunu deyə bilmərəm. Bizim onlara borcumuz var. Amma 52 milyon deyil. Təəssüflər olsun ki, vaxtilə Azərbaycanda hərcmərclik dövründə bəzi vəzifəli şəxslər Türkmənistandan – deyə bilmərəm ki, hökumət vasitəsilə, orada da bizdəki kimi adamlar, yəni vəzifəsindən sui-istifadə edən adamlar var – guya Azərbaycana qaz alıblar. Bunun pulunun bir hissəsi qaytarılıb, bir hissəsi isə qaytarılmamışdır. Bu məsələ əvvəllər də qaldırılmışdı. Ancaq son zamanlar Türkmənistan bunu çox təkidlə qaldırır. Bu barədə Türkmənistan prezidenti mənə məktub yazmışdı. Mən Baş nazirə tapşırmışam. Bu məsələlərlə məşğul olur.

**S u a l: Cənab Prezident, Bakıda baş verən qətl hadisələrinə qayıtmaq istəyirəm. Sizcə, Azərbaycan ölüm hökmünün ləğvində tələsməyib ki?**

**C a v a b:** Yəni hesab edirsiniz ki, əgər ölüm hökmü qalsaydı, bu qətllər olmayacaqdı? Biz ölüm hökmünü ləğv edəndə həbsxanada ölüm hökmünə məhkum olmuş 130 nəfər var idi. Amma mən prezident olduğum zaman, qərarı qəbul edənə qədər – qərarı 1999-cu ildə qəbul etdik – bir nəfər haqqında da ölüm hökmü icra olunmamışdır. Ona görə də hesab edirəm ki, biz düz iş görmüşük. Guya ölüm hökmü qalsaydı, qətllər olmayacaqdı, yaxud da belə şeylər olmazdı – hesab edirəm, bunların əlaqəsi yoxdur.

**S u a l: Cənab Prezident, Siz 1993-cü ildə prezident seçilməzdən əvvəl Azərbaycan təcrid vəziyyətində idi. İslam Konfransı Təşkilatını və digər bir neçə beynəlxalq təşkilatı çıxmaq şərti ilə Azərbaycan heç yerdə təmsil olunmurdu, əməkdaşlıq etmirdi. İndi isə Sizin dövrünüzdə Azərbaycan bir neçə bey- nəlxalq və regional təşkilata üzv qəbul olunubdur. Bu əlaqələr Azərbaycana konkret olaraq hansı faydaları verir?**

**C a v a b:** Çox fayda verir. Dünyanın hər bir müstəqil dövlətinin nə qədər çox ölkələrlə yaxın əlaqələri olsa, o qədər də bundan faydalanacaqdır. Beynəlxalq təşkilatlarda təmsil olunmaq da özlüyündə hər bir ölkə üçün çox vacib məsələdir.

Sizin dediyinizə gəldikdə, həqiqətən biz təcrid olmuşduq. Biz dünən axşam söhbət edirdik. Bilirsiniz ki, vaxtilə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Özbəkistanla Azərbaycan arasında bütün əlaqələr kəsilmişdi. Azərbaycanın o vaxtkı rəhbərləri – Xalq Cəbhəsi hakimiyyəti hesab edirdi ki, Mərkəzi Asiyadakı bütün ölkələrdə demokratiya yoxdur, onlarla heç bir əlaqə saxlamaq lazım deyildir. Onları burada tənqid etməyə və bəzilərini də təhqir etməyə başlamışdılar. Ona görə də onlar əlaqəni kəsmişdilər.

Məsələn, vaxtilə Özbəkistanla bizim çox gözəl əlaqələrimiz olmuşdur. Təyyarə reysləri vardı, çünki orada çoxlu azərbaycanlı da yaşayır. İqtisadi əlaqələr də çox yaxşı idi. Mən prezident olandan sonra – dünən İslam Kərimovla söhbət edirdik, xatırlayırdıq – iki il lazım oldu, mən onları inandırım ki, indi Azərbaycanda onlara qarşı əvvəlki əhval-ruhiyyə yoxdur.

Əgər bir ölkə hansısa ölkəyə qarşı ədalətsiz olursa, yaxud da onun daxili işlərinə qarışmağa cəhd göstərirsə, əlbəttə, öz müstəqilliyinə, suverenliyinə dünya miqyasında hörmət edən ölkə o birisinə adekvat cavab verir. O vaxtlar Özbəkistanın prezidenti əmr vermişdi ki, Daşkəndlə Azərbaycan arasında bütün reyslər bağlansın.

Özbəkistan prezidenti İslam Kərimovla biz keçmişdən çox yaxın əlaqədə idik, bir yerdə işləmişdik. Mən Moskvada işləyəndə o, Özbəkistanda Baş nazirin müavini idi. Dəfələrlə mənim yanımda olmuşdu. Yəni şəxsən mənə çox böyük hörməti olan insandır. Ancaq burada özlərini yeganə «demokrat» adlandıran adamlar onu o qədər çox incitmişdilər ki, mənim kimi adam onun əhval-ruhiyyəsini dəyişdirə bilmirdi. Baxmayaraq ki, o məni çox istəyir və hər dəfə, o vaxt da görüşəndə mənə çox böyük hörmət göstərirdi. Ona görə əsas prinsip budur ki, heç bir ölkə başqa ölkənin daxili işlərinə qarışmamalıdır. Əgər sən öz ölkənin işlərini həll edə bilirsənsə, həll et.

Azərbaycanda bir məsəl var: özünə umac ova bilmir, başqasına əriştə kəsir. Burada, Azərbaycanda hərc-mərclik, xaos idi. Bu dövləti, ölkəni idarə edən adamlar, bəli, guya dünyanın «demokratları» idilər. Bunlar guya hər yerdə demokratiya yaratmaq istəyirdilər. Aqibəti də məlumdur. 1993-cü ildə elə bu günlərdə Azərbaycanın başına nələr gəlmişdi?

İndi Azərbaycan müxtəlif təşkilatlarda təmsil olunub, hətta bu yaxınlarda bizi Amerika Dövlətləri Təşkilatına müşahidəçi kimi qəbul ediblər. Bizim Amerika Birləşmiş Ştatları və Kanadadan başqa, oradakı digər ölkələrlə geniş diplomatik əlaqələrimiz yoxdur. Bizim buna sadəcə, maliyyə imkanlarımız yoxdur. Bəlkə də olmalıdır. Amma eyni zamanda Braziliya kimi bir ölkə GUÖAM təşkilatında iştirak etmək üçün öz fikrini bəyan edibdir. GUÖAM təşkilatını yaradanlar Azərbaycan, Gürcüstan, Moldova, Ukraynadır. Sonra isə Özbəkistan ona daxil olubdur. İndi bundan sonra da daxil olacaqlar. Ona görə də bu hər bir ölkə üçün vacibdir. Mən çox məmnunam ki, Azərbaycan indi dünyada bizim bölgələrə aid olan bütün beynəlxalq təşkilatlarda təmsil olunur.

**S u a l: Cənab Prezident, Siz ayda bir-iki dəfə brifinq keçirirsiniz və xalqımız hesabatları eşidir. Amma digər dövlət məmurları mətbuatdan qaçırlar. Onlar təhlükəsizlik xidmətinə tapşırıq veriblər ki, jurnalistləri buraxmasınlar. Siz gedəndən sonra bizi buraxırlar.**

**C a v a b:** Bilirsən, mən bunu deyə bilmərəm. Hər halda, mən onlardan soruşaram, niyə belə ediblər. Amma təxminən öz mülahizəmi deyə bilərəm. O da ondan ibarətdir ki, sizin bəzileriniz deyilən sözü əksinə ifadə edirsiniz, yaxud ona öz mülahizələrinizi əlavə edirsiniz. Ona görə də sizin sualınıza cavab verən məmur görür ki, özü belə deməyib, amma o gedib belə yazıbdır. İndi nə edəcəksən? Gedib jurnalistlə, müxbirlə döyüşməyəcəksən ki? Bu da onu incidir, narazı salır.

Mən heç bir şeydən çəkinmirəm. Kim nə sual verir, versin. Hamısına cavab verməyə hazıram. Ancaq istəyirsinizsə, suallarınıza hamı cavab versin, bəzi xəstəliklərdən qurtarmaq lazımdır. Çünki bilirsiniz, mən bir-iki dəfə demişəm, indi Azərbaycan bu barədə, yəni demokratiya, söz azadlığı, mətbuat azadlığı müəyyən qədər xəstəlik dövrü keçirir. Çünki insanlar var ki, demokratiya nədir, ağlına düşməyibdir. Başqa bir sənəti yoxdur, başqa bir işi yoxdur, səhərdən-axşama kimi demokratiya, demokratiya qışqırır.

Məsələn, mətbuat azadlığı. Azərbaycanda olan mətbuat azadlığı heç bir yerdə yoxdur. Türkiyə kimi böyük bir ölkədə – düzdür, orada mətbuat çox azaddır və bəzən də Türkiyənin dövlət adamları şikayətlənirlər ki, onlar da çox ədalətsiz hərəkətlər edirlər – 10–15 qəzet var. Amma burada qəzetin hörmətini aşağı salmısınız. Hərə bir qəzet çıxarır. Qəzetdə də yalan-yalan şeylər yazırlar. O gün mənə deyirlər, adını çəkmək istəmirəm, çünki mən hansı qəzetin adını çəksəm, onun hörməti qalxacaqdır – filan qəzetdə filan-filan şeylər yazılıbdır. Dedim, bu qəzet haradandır? Deyirlər, bəli, çıxır, özü də filankəsindir. Həmin adam bir tərəfdən deyir ki, acından ölürəm, mənə kömək edin. O biri tərəfdən də qəzet çıxarır. Heç olmasa, qəzetdə ədalətli şeylər yazsa...

Bilirsiniz, bizim həyatımızda nöqsanlar, çatışmazlıqlar, qanunsuzluqlar, rüşvətxorluq və başqa qüsurlar var. Əgər siz bunları olduğu kimi əks etdirsəniz və bütün qəzet, televiziya işini yalnız bunlara həsr edib başqa şeylərə toxunmayacaqsınız, onda biz bu xəstəlikdən tezliklə çıxarıq. Sən deyəsən «ANS» televiziyasındansan?

**J u r n a l i s t:** Bəli.

**H e y d ə r Ə l i y e v:** «ANS» başlayır ki, orada filankəsi öldürdülər, burada filankəsin arvadına bu sözü dedilər, orada filankəsin uşağına belə etdilər. Mən hərdənbir, vaxtım olanda sizin verilişlərə baxıram. Bir dənə müsbət şey yoxdu. Yəni, bu ölkədə bir müsbət şey yoxdurmu? Məsələn, mən səndən soruşuram, o gün bizdə böyük beynəlxalq sərgi keçdi. Elədirmi?

**J u r n a l i s t:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Bilmirəm, siz orada var idiniz, yoxsa yox idiniz. Deyəsən, heç yox idiniz.

**J u r n a l i s t:** Yox, çəkirdik.

**H e y d ə r Ə l i y e v:** Bu, böyük bir hadisədir ki, səkkiz ildir Azərbaycanda beynəlxalq neft və qaz sərgisi keçirilir və 25 ölkədən 340-dək şirkətin nümayəndəsi gəlibdir. Deməк, bu, Azərbaycanın gördüyü işlərin nəticəsidir və Azərbaycana olan marağın nəticəsidir. Bilirsiniz, onlar o stendləri düzəltməyə nə qədər xərc çəkirlər? Hərəsi çalışır ki, daha da gözəl etsin, daha da əyani etsin. Sübut etsin ki, onun gördüyü iş daha əhəmiyyətlidir ki, biz onunla iş quraq. Yaxud da onlar bunu bir-biri ilə iş qurmaq üçün edirlər. Soruşuram, «ANS» sərgiyə neçə dəqiqə həsr etdi?

**J u r n a l i s t:** «Xəbərçi»də iki dəqiqə.

**H e y d ə r Ə l i y e v:** Qalanları nəyə həsr olundu?

**J u r n a l i s t:** Qalanları da günün digər xəbərlərinə.

**H e y d ə r Ə l i y e v:** Hansı xəbərlər? Filan müxalifət bunu dedi. Sizin «ştatlı» adamlarınız var. Adlarını çəkmək istəmirəm. Bir neçə partiya başçılarıdır. Filankəsdən getdik soruşduq, bunu dedi. Sonra getdik filankəsdən soruşduq, bunu dedi. Siz anlayın. Beş-altı nəfər adam, guya özlərini siyasətçi edən, nə bilim, ya partiya rəhbəridir, ya başqanıdır, ya partiyanın ayağıdır, qoludur, qıçıdır, nəyidir – bunlar Azərbaycandakı ictimai fikri əks etdirirmi? Yox. Ona görə siz düşünün, fikirləşin. Məsələn, Moskva televiziyasına baxın. Moskvada demokratiya Azərbaycandan azdır? Moskvada qəzetlər var ki, – indi mən təyyarədə baxırdım – «Moskovski komsomolets» qəzeti, başqa qəzetlər. Axı onlar belə ədəbsiz verilişlər, yazılar vermirlər. Siz elə verilişlər verirsiniz ki, bu adamlar, ümumiyyətlə, sizinlə üz-üzə gəlmək istəmirlər. Çünki siz tikanlı adamlarsınız. Mənə bir şey batıra bilmirsiniz. Amma batırsanız da, mənim üçün fərqi yoxdur. Nə deyirsiniz, deyin.

**S u a l: Cənab Prezident, Türkiyənin Daxili Işlər naziri istefaya göndərildi. Bəlkə də bu, Türkiyənin daxili işidir. Amma strateji tərəfdaşlığı və digər yaxınlıqları nəzərə alsaq, bu istefa məsələsinə Sizin münasibətinizi bilmək olarmı?**

**C a v a b:** Birincisi, mən bunu səndən eşidirəm. Bilmirəm. İkincisi də, elə sən düz dedin. Bir ölkə başqa ölkənin daxili işlərinə qarışmamalıdır.

**S u a l: Cənab Prezident, Yaltada hərbi əməkdaşlıq məsələləri müzakirə olundumu?**

**C a v a b:** Yox. Bilirsiniz, orada elan etmişik, bu təşkilat hansısa bir başqa təşkilata, başqa ölkəyə qarşı müştərək hansısa hərbi işlər görmək üçün yaranmayıbdır. Ona görə də əvvəlki görüşlərdə də müzakirə olunmayıbdır.

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJİ SAMPAYYUYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı – Portuqaliya günü münasibətilə Sizi və dost Portuqaliya xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Portuqaliya Respublikası arasında təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyun 2001-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında təşəkkül tapmış dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, dost Böyük Britaniya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyun 2001-ci il*

## RUSİYANIN YOLLAR NAZİRİ NİKOLAY AKSYONENKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

**H e y d ə r  Ə l i y e v:** Köhnə iş yoldaşları ilə görüşmək həmişə xoşdur. Siz keçən dəfə burada, Azərbaycanda olarkən biz birgə işimizi xatırladıq. Mən Moskvada dəmir yoluna kuratorluq edərkən, siz təcrübəli dəmiryolçu kimi, bu məsələlərlə məşğul olurdunuz. Şadam ki, siz dəmir yol nəqliyyatı ilə – təkcə iqtisadiyyatın deyil, siyasi həyatın da bu çox mühüm sahəsi ilə məşğul olmaqda davam edirsiniz. Yeri gəlmişkən deyim ki, mən Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqda, digər vəzifələrlə yanaşı, nəqliyyat kompleksinə rəhbərlik vəzifəsini də öhdəmə qoydular. O vaxtlar isə nəqliyyat kompleksinin ölkə üçün çox böyük əhəmiyyəti vardı. Sovet İttifaqının bütün iqtisadiyyatı, əslində, dəmir yolunun normal işləməsindən asılı idi. O vaxt nazir, məncə, Pavlovski idi. Bir vaxtlar orada Konarev işlədi. Bilirsinizmi, mənə elə gəlirdi ki, bu kompleks çox mürəkkəbdir, ağırdır. Mən uzun illər burada Azərbaycanın bütün iqtisadiyyatına rəhbərlik etmişəm. Lakin respublikanın rəhbəri kimi, dəmir yol nəqliyyatı ilə xüsusi məşğul olmamışdım. Bilirsinizmi, mən bu işə nüfuz etdikdən, qısa vaxtda bu xidmətin bütün cəhətləri ilə tanış olduqdan sonra bu sahəni sevdim. Xatirimdədir, ilk geniş kollegiya iclası keçirilirdi, mən oraya gəldim, hamını dinlədim, çıxış etdim. Mən çoxlu – 17-18 nazirliyə rəhbərlik edirdim, bəzən isə onların sayı 20-yə çatırdı. Amma bu nazirlik mənim üçün, bir növ, doğma idi. Bunlar köhnə xatirələrdəndir. Mən sizi o vaxtdan xatırlayıram.

Siz burada böyük beynəlxalq müşavirə keçirmisiniz. Şadam ki, 24 ölkə nümayəndələrinin iştirakı ilə belə beynəlxalq görüş ilk dəfə Bakıda, Azərbaycanda keçirilmişdir. Mən bunu respublikamıza diqqət kimi qiymətləndirirəm və bu, müəyyən dərəcədə etiraf etmək deməkdir ki, Azərbaycanda dəmir yolu yaşayır, mövcuddur və mühüm rol oynayır. Hərçənd Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar, ərazimizin bir hissəsinin işğal olunması nəticəsində bizim dəmir yolunun müəyyən hissəsi iflic vəziyyətindədir. Buna baxmayaraq, Avropa Birliyinin həyata keçirdiyi proqramlar – TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası proqramı xüsusən respublikamızda dəmir yol nəqliyyatının işini aktuallaşdırır. Doğrudur, onun bir qolu işləyir, lakin başqası – Bakı–Yerevan qolu da var, oradan İrana, Təbrizə çıxmaq mümkündür. Bu, müasir şəraitdə ideal olardı. Amma bununla belə, hesab edirəm ki, biz dəmir yolu barəsində öz vəzifələrimizi yerinə yetiririk.

Mənə deyirlər ki, sizinlə – Rusiyanın Yollar Nazirliyini nəzərdə tuturam – çox yaxşı əlaqələrimiz var, bunsuz isə biz yaşaya bilmərik. Bu bizim üçün həyati əhəmiyyətli məsələdir. Şadam ki, siz bu nazirliyə başçılığı davam etdirirsiniz və ona görə də Azərbaycanın dəmir yoluna necə münasibət göstərməyiniz sarıdan narahatlığa əsas yoxdur. Sizinlə yenidən görüşməyimə şadam.

**N i k o l a y  A k s y o n e n k o:** Heydər Əliyeviç, Sizinlə görüşmək imkanına görə dərin ehtiramımı və təşəkkürümü bildirirəm. Böyük, nəhəng ölkənin bir çox nazirliklərinin, o cümlədən də Yollar Nazirliyinin işinə rəhbərlik etdiyiniz o illəri minnətdarlıq hissilə xatırlayırıq. O vaxt, həqiqətən, çoxlu çətinliklər vardı. Sizinlə birlikdə işləmiş bütün insanlar, bizim hamımız gördüyünüz işlərə görə Sizə təşəkkür edirik. Biz daim görüşür, bir-birimizi dəstəkləyir, hər hansı çətinliklər olduqda məsləhət alırıq. Heydər Əliyeviç, demək istəyirəm ki, Siz çox işlər gördünüz, çox işlərə rəvac verdiniz. Odur ki, Siz Moskvaya gələrkən, Sizi dəvət etməyə görə xəcalət çəkməyəcəyik. Bizim mərkəzi idarəetmə pultumuza gəlmənizi çox xahiş edirik və əgər gəlsəniz, mən də, Rusiyanın bütün dəmiryolçuları da bundan son dərəcə şad olacağıq. Bu indi ən yüksək texnologiyalarla işləyən nadir bir sistemdir. Rusiyanın bütün mənzərəsi, bütün dəmir yolları gözləriniz önündə açılacaqdır. İndi istənilən stansiyanı, istənilən dispetçer məntəqəsini, istənilən yolu bu pultdan idarə etmək olar. Mən buna çox şadam, Sizin bu pulta gəlməyiniz bizim üçün böyük xoşbəxtlik olardı.

**H e y d ə r  Ə l i y e v:** Mən bu imkandan məmnuniyyətlə istifadə edəcəyəm, çünki məndə o dövrkü işlə, xüsusən dəmir yolu ilə bağlı olduqca çoxlu xoş xatirələr qalmışdır. İndi siz idarəetmə pultundan söhbət saldınız, mənim isə yadımdadır, əvvəllər selektor rabitəsi vardı.

**N i k o l a y  A k s y o n e n k o:** İndi belə etmək olar. Siz bizim pultumuza gələcəksiniz və Sizi bütün ölkə görəcəkdir. Biz bütün yolları pulta qoşacağıq. Dəmir yollarının rəhbərlərinin hamısı orada olacaq, onlar Sizi görəcəklər, Siz də onları. Beləliklə, Sizin onlarla danışmaq imkanınız olacaqdır. Bu çox nadir bir sistemdir.

**H e y d ə r  Ə l i y e v:** O vaxt biz bir-birimizi görmürdük, ancaq eşidirdik.

**N i k o l a y  R y a b o v** (*Rusiyanın Bakıdakı səfiri*): Heydər Əliyeviç, mən bu bəndi səfərinizin proqramına yaza bilərəmmi?

**N i k o l a y  A k s y o n e n k o**: Bu il biz Transsibir dəmir yolunun yüzilliyini qeyd edəcəyik. Bu, böyük magistraldır. İndi o, haqq-təalanın, tanrının xeyir-duası ilə və müxtəlif dövlətlərin birinci şəxslərinin, ən əvvəl Vladimir Vladimiroviç Putinin dəstəyi ilə özünün yeni inkişafına qədəm qoyur. Mən Sizə bu barədə məlumat vermək istəyirdim. Lakin ilk öncə Böyük İpək Yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi

üçün gördüyünüz işlərlə əlaqədar ünvanınıza xoş sözlər söyləmək istərdim. Çünki bu, Qərb–Şərq marşrutu olaraq çox mühüm istiqamətdir.

Baş verən çox güclü proseslərə, iqtisadiyyatın qloballaşması, qarşılıqlı nüfuz proseslərinə nəzər salanda düşünürəm ki, bizə heç bir yol – nə Transsibir, nə TRASEKA, nə də dəniz yolları – kifayət etməyəcək. Onlar yükləri Şərqdən Qərbə və Qərbdən Şərqə daşıyaraq dəqiq işləməlidir. Ona görə də dərin təşəkkür və minnətdarlığımızı bildiririk.

Ehtimal ki, bu il Saxalinə quru yol ilə keçidin ilk hissəsinin bünövrəsini qoyacağıq. Mən prezident Vladimir Vladimiroviç Putindən bu tədbirdə iştirakını xahiş etmişəm. Bu, adanı yarımadaya çevirməli olan həmin köhnə layihədir. Kəşfiyyat işləri başa çatmaqdadır və biz bunu həyata keçirəcəyik. Biz polyaklarla, çexlərlə danışmışıq və Avropanın mərkəzinə, Çexiyaya enli dəmir yolu ilə çıxacağıq.

Mən Sizdən Şimal–Cənub layihəsini dəstəkləməyi artıq dərəcədə xahiş etmək istərdim. Bu işdə Hindistan, Pakistan, Oman, İran, Rusiya fəal iştirak edirlər. Əgər sizin xeyirxah razılığınızla Azərbaycan da bu layihəyə qatılsaydı, onda Hindistandan gələn və indi Süveyş kanalından keçərək Ümid burnunu dolanan yüklər üçün İranın Bəndər Abbas limanı vasitəsilə birbaşa buraya, Azərbaycana və buradan da o yana yol açılır. Sizin hökumətinizlə və həmkarlarımızla bu barədə fikir mübadiləsi apardıq. Yolun Astaradan keçməsi haqqında təkliflərimizi hamı dəstəklədi. Hazırda İranda Ənzəlidən limanadək dəmir yolu çəkilir, biz isə yolun həm Ənzəlidən və həm də ölkənin düzənlik hissəsindən Astarayadək çəkilməsini istəyirik.

**H e y d ə r Ə l i y e v:** Onlar tikinti işlərini Qəzvindən aparırlar?

**N i k o l a y A k s y o n e n k o:** Bəli, oradan aparırlar.

**H e y d ə r Ə l i y e v:** Mən bu məsələyə yaxşı bələdəm. Onlarda dəmir yolunun axırıncı nöqtəsi Qəzvin şəhəridir. Qəzvindən Astaraya təxminən 350 kilometrdir.

**N i k o l a y A k s y o n e n k o:** Onlar yolun 170 kilometrini özləri çəkirlər. Biz isə İrana təklif etmişik ki, düzənlikdə 170 kilometr məsafəni İranla birlikdə, yaxud İranın iştirakı olmadan Rusiya çəksin və sizin sərhədlərinizə çıxsın, burada sərhəddə yüklərin bir yoldan digərinə vurulması üzrə güclü terminal yaradılsın. Bu, Azərbaycan üçün iş yerləri yaradacaq və daşımaların həcmini təxminən 2-3 dəfə artıracaqdır. Maşinistlər, fəhlələr lazım olacaqdır. Bu, böyük həcmdə işdir və Azərbaycan dəmir yolu üçün böyük gəlir və insanlar üçün məşğuliyyət deməkdir. Bu birbaşa yolun açılmasının burada bizim hamımıza faydalı ola biləcək işdən başqa, digər mühüm cəhətləri də var. Düşünürəm ki, bunlar Azərbaycan üçün də, bizim hamımız üçün də çox xoş məqamlar olacaqdır.

Hökumətlərarası komissiyada əsas diqqət buna yönəldilmişdir. Heydər Əliyeviç, əgər indi Siz dəmir yol nəqliyyatına kuratorluq edən rəhbər işçilərinizə tapşırıq versəniz, Sizin xeyir-duanızla bu layihə ilə çox tezliklə məşğul olardıq və işlər gedərdi.

Bizim pulumuz var, istəyimiz var. İmkanlar var. Siz razılıq versəniz, biz bu istiqamətdə Cənubdan Şimala tərəf işə başlayarıq. Zənnimcə, bu çox perspektivli layihədir və yüklər çox olacaqdır. Şərq və Cənub yolları birləşdirildikdən sonra isə bütün bu yüklər – indi sizdən də, bizdən də yan keçən yüklər hamıya fayda gətirəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Nikolay Yemelyanoviç, bu məsələ mənə, ümumən, məlumdur. Siz yəqin bilirsiniz ki, Şimal–Cənub magistralı çox mühüm magistraldır. Amma bir neçə il əvvəl hansısa digər variantlar təklif edilirdi, sonra eşitdim ki, dəmir yolunu Həştərxandan başlayaraq Xəzərin sahili boyunca Qazaxıstan, Türkmənistan, İran ərazisi ilə və oradan da o yana çəkmək qərara alınmışdır. Mən bu variant barədə eşitmişdim. O vaxtlar mənə elə gəlirdi ki, Bakı–Astara–İran yolu ən kəsə və artıq sahmana salınmış yoldur. Yeri gəlmişkən, biz İranla bu mövzuda bir çox illər danışıqlar apardıq. Onlar deyirdilər ki, 358 kilometrlik Qəzvin–Astara yolunu çəkməyə vəsaitləri yoxdur. Pul elə bizdə də yoxdur. Onlar məsələni belə qoydular ki, bizim dəmir yolu İran Astarasına qədər uzadılsın. Bu bəlkə də kiməsə sərfəlidir, kimə isə yox. Ona görə də məsələ eləcə də qaldı. Hərçənd o bizim İran–Azərbaycan Birgə İqtisadi Komissiyasının gündəliyində həmişə olmuşdur. Əgər indi sizin elan etdikləriniz realdırsa, onda biz bu barədə təhlükəsizliyə və etibarlılığa tam təminata malik olmalıyıq. Biz bilməliyik ki, əgər, məsələn, Astara–Rəşt yolunu çəkmək lazım gələrsə, oradan Qəzvinə yol olacaq, yoxsa olmayacaqdır?

**Z i y a M ə m m ə d o v** (*Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin rəisi*): Olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Çünki mən belə başa düşdüm ki, onlar yolun bir qolunu da Ənzəliyə çəkmək istəyirlər. Mən bundan belə nəticə çıxarıram ki, görünür, təkcə dəmir yolundan deyil, dəniz nəqliyyatından da istifadə ediləcəkdir. Çünki Ənzəli limandır. Ənzəlinin yaxınlığında onların başqa yük limanı da var – Noşəhr. Amma biri o birinə mane olmur.

**N i k o l a y A k s y o n e n k o:** Əvvələ, yük çoxdur. İkincisi isə, hesab edirəm ki, quru yol daha sərfəlidir. Hər halda, orada yüklərin həcmi azı bir neçə dəfə çoxdur. İranlılar buna razıdırlar, çünki orada böyük həcmdə yüklər olacağı gözlənilir. Allah eləsin ki, bu işlərin öhdəsindən gəlmək mümkün olsun.

Biz Azərbaycanın və ya İranın ərazisində səhmdar şirkət yaratmağı və onu birlikdə maliyyələşdirməyi planlaşdırırıq. Zənnimizcə, bu, çətin deyildir. Mən Sizə sözün düzünü deyirəm. Əgər heç kəs iştirak etməsə,

amma hamının bir «hə» sözü ilə biz, Rusiya dəmir yolunu özümüz öz vəsaitimiz hesabına tikəcəyik. Biz əməkdaşlığa dəvət edirik. Siz tam əmin olmalısınız ki, biz bu vəzifəni yerinə yetirəcəyik, onu qısa müddətdə, keyfiyyətlə edəcəyik. Yaxşı texnologiyalardan istifadə olunacaqdır.

Tərəflərdən hər birinin, o cümlədən də Azərbaycan tərəfinin marağı nəzərə alınmışdır. Biz Azərbaycan ərazisində işləmək üçün Rusiyadan adamlar gətirməyəcəyik. Burada azərbaycanlılar işləməlidirlər. Bütün bunlar birlikdə bizim üçün də, Azərbaycan dəmir yolu üçün də perspektivdə yaxşı kömәkdir. Yüklərin daşınmasından ildə təxminən 260 milyon dollar gəlir götürmək olar, biz hesab edirik ki, bu yol ilə ildə 12 milyon tonadək yük daşına bilər. Bu layihəni hamı imzalamışdır.

**Heydər Əliyev:** Bəs bu barədə nə üçün belə gec danışırsınız? Siz yenə də bizdən yan keçmək istəyirdiniz?

**Nikolay Aksyonenko:** Axı Siz bir növ birləşdirici vəsilə, qızıl vəsilə kimisiniz. Biz Sizin yanınıza bütün şəkk-şübhələr aradan qaldırılmadan gələ bilməzdik. İndi isə hər şey artıq məlumdur. İndi son söz Sizindir. Dəmiryolçular kimi obrazlı desək, Siz yaşıl işıq yandırırsınız və biz bu layihənin gerçəkləşdirilməsi yolu ilə getməyə başlayırıq.

**Heydər Əliyev:** Bu layihə Azərbaycandan asılıdır?

**Nikolay Aksyonenko**: Sizdən asılıdır.

**Heydər Əliyev:** Bilirsinizmi, mən prinsipcə razıyam. Baş nazir sizin görüşünüz barədə mənə məlumat verdi. Mən ona tapşırıq verdim ki, müəyyən detallar nəzərdən keçirilsin. Çünki orada, əvvəla, söhbət ondan gedir ki, Bakı–Astara yolu çox ciddi şəkildə yenidən qurulmalıdır. Mən qatarla oraya getmək istədikdə, mənə dedilər ki, yol pis vəziyyətdədir. Odur ki, qatarla getməyi məsləhət görmədilər.

**Nikolay Aksyonenko:** Heydər Əliyeviç, əgər nəsə işləmirsə, biz ona baxarıq.

**Heydər Əliyev:** Bizim burada öz problemlərimiz var. Bu məsələni iranlılarla müzakirə edəndə, bizdən xahiş etdilər ki, dəmir yolunu Astara sərhədinədək–7 kilometr uzadaq. Orada isə yaşayış məntəqələri yerləşir, insanları başqa yerə köçürmək lazımdır. Belə çətinliklər var. İnsanları başqa yerə köçürmək olar, amma onlara kompensasiya ödəmək gərəkdir. Onları təmin etmək, yaxud evlər tikmək lazımdır, yəni bu problem də mövcuddur.

Növbəti problem. Avtomobil ilə daşımalar üçün istifadə edilən körpü artıq köhnəlmişdir. Buna görə də onu möhkəmləndirmək və yenidən qurmaq lazımdır. Lakin orada dəmir yolu üçün də körpü tikmək gərəkdir. Deməli, bu problem də var.

**Nikolay Aksyonenko:** Heydər Əliyeviç, biz hər şeyi edəcəyik.

**Heydər Əliyev:** Sonra, mən bilmirəm, Astara–Rəşt yolunun uzunluğu nə qədərdir.

**Ziya Məmmədov:** 180 kilometrdir.

**Heydər Əliyev:** Belə çıxır ki, 358 kilometrin 180 kilometri bizim tərəfimizə düşür, İranla yarıbayarıdır. Bu, ədalətli deyildir. Çünki bu yol İranın ərazisində olacaqdır. Biz bunu müzakirə etməliyik. Mən prinsipcə razıyam. O ki qaldı təfərrüata, kim hansı işi harada görməlidir, hansı hüquqları olacaqdır – bu, şübhəsiz, müzakirə tələb edir. Mən Baş nazirə tapşırıq vermişəm və sizinlə görüşdən sonra bir də tapşırıq verəcəyəm. O məni ümumən məlumatlandırdı, təfərrüatı açıqladı. Mən ona bir daha tapşıraram ki, bu işlə məşğul olsun və Azərbaycan bu layihəyə daxil olacaqdır. Əvvəla, siz bizsiz ötüşə bilməzsiniz, ikincisi isə, bu bizim xeyrimizədir.

**Nikolay Aksyonenko**: Heydər Əliyeviç, sağ olun. Ümumiyyətlə, biz bir-birimizə diqqətlə yanaşırıq. Ortaya çıxan məsələləri tez həll edirik. Biz hesab edirik ki, bu layihə bizi bir-birimizə daha sıx bağlayacaq, dostluğumuzu da möhkəmləndirəcək, bizi iqtisadi cəhətdən də birləşdirəcəkdir. Bu, son dərəcə faydalı olacaqdır.

**Heydər Əliyev:** Əlbəttə.

**Nikolay Aksyonenko:** Azərbaycan Şimal ilə Cənubun qovuşuğunda ciddi nəqliyyat qovşağına çevrilir. Bu hamıya çox sərfəlidir.

**Heydər Əliyev:** Başa düşürəm. Mən isə deyirəm ki, biz bu məsələ ilə neçə illərdir məşğul oluruq. Biz İranla razılığa gəlmişdik ki, təkcə bizim yüklərin deyil – bizdə o qədər yük yoxdur – başqa yüklərin də daşınması üçün onlar Qəzvindən Astarayadək yol çəksinlər. Şimaldan avtomobil yolu ilə böyük yük axını gəlsə də, əslində, İrana bir o qədər də böyük həcmdə yük getmir. Haqqında danışdığınız layihə – Şimal–Cənub–Avropa layihəsi barədə biz də danışıqlar aparmışıq. Onlar daim məsələ qoyurdular ki, yolu çəkin. Məgər biz gedib özgə ərazisində özümüzə o qədər də gərək olmayan yol çəkməliyik? Bizim o qədər vəsaitimiz də yoxdur.

**Nikolay Aksyonenko:** Heydər Əliyeviç, zəmanə dəyişir. Biz elə bir qərar qəbul etmişik ki, o bu istiqamətdə işin sabitliyi üçün yaxşı zəmin olacaqdır. Dəmir yolunu İran deyil, bir qrup iştirakçı çəkəcəkdir. Mən bir daha demək istəyirəm ki, hər bir tərəfin iştirak həcmi müəyyən edilmişdir. Biz Sizin prinsipial razılığınızı və müdrik siyasi qərarınızı gözləyirik.

Demək istəyirəm ki, Siz böyük problemlərlə məşğul olmuş, bir çox sahələrə kuratorluq etmiş insansınız. Sizin böyük ölkəniz var, Siz ona rəhbərlik edirsiniz. Əvvəllər kuratorluq etdiyiniz dəmir yoluna kömək

göstərilməsinə haradasa dərində istək və həvəsiniz də var. Siz bizə gələcəksiniz, görəcəksiniz, orada görülən işlərdən böyük məmnunluq duyacaqsınız. Orada heç nə hədər getməmişdir, hər şey normaldır. Odur ki, biz bu yolu da çox gözəl edəcəyik, o, sadəcə, nağıla bənzəyəcəkdir.

**Heydər Əliyev:** O vaxtlar Sovet İttifaqında dəmir yollarının uzunluğu 40 min kilometr idi. İndi Rusiyada nə qədər qalmışdır?

**Nikolay Aksyonenko**: Bəli, Siz haqlısınız. İndi onun təxminən 60 faizi qalmışdır. Hazırda yeni yollar çəkməyə başlamışıq. Ötən il dəmir yoluna ümumən 3 milyard dollar məbləğində vəsait qoymuşuq. Bu öz vəsaitimizdir. Cari ildə təxminən 4 milyard dollar öz vəsaitimizi qoyacağıq. Biz yeni elektrikləşdirilmiş yollar çəkirik, BAM-da tikinti işləri aparırıq.

**Heydər Əliyev:** BAM-da tuneli açdınızmı?

**Nikolay Aksyonenko:** Martın 30-da birləşdirdik, yoxladıq və qatarların hərəkətini ilin sonuna yaxın açacağıq. Bu da əlamətdar hadisədir. Axı aradan 25 il ötmüşdür.

**Heydər Əliyev:** Siz bilirsinizmi, mən bunun üçün nə qədər səy göstərmişəm?

**Nikolay Aksyonenko**: Tunelin tikintisində 53 adam həlak olmuşdur. Orada geoloji şərait ağırdır.

**Heydər Əliyev:** Mən orada olmuşam, Şərq tərəfdən də olmuşam, Qərb tərəfdən də. O vaxt orada 15 kilometrlik tunelin üç-dörd kilometrini, digər tərəfdən də təxminən bir o qədər qazmışdılar, yəni qazma işlərinin heç yarısı da görülməmişdi, çox hissəsi qalırdı. Mən Şərq tərəfdən də, Qərb tərəfdən də dizədək suya bata-bata üç kilometr piyada getdim, axı orada avtomobil yolu yox idi. Təbii ki, mənimlə birlikdə çoxlu adam vardı. Yuxarıdan su damırdı, rezin çəkmələr geymişdik. Bax, beləcə pay-piyada getdik. Mən bu tunellə məşğul olmuşam. O, nadir qurğudur.

**Nikolay Aksyonenko:** Yeraltı yol çəkilərkən mən də orada oldum, aşağıda düyməni basdım, axırıncı divarı partlatdıq. Bir görəydiniz, insanlar necə xoşbəxt idilər. Çünki orada artıq tikintini başlamış adamların övladları işləyirdilər. Lakin ən başlıcası budur ki, onlar xoşbəxt olacaqlar. Çünki bu çox qorxulu yerdə işlər görülüb qurtarmışdır. Axırıncı dəfə, 1998-ci ildə biz 380 metr dərinlikdə yeraltı çayla rastlaşdıq. Bu axırıncı kilometr çoxlu müsibət gətirdi. Bütün bunlar qurtardıqdan sonra hamı başa düşdü ki, orada daha ölüm halları olmayacaqdır. Çünki orada hər dəfə 2-3 adam həlak olurdu. Dəhşətli iş idi. Bu yaxşı layihə artıq başa çatdırılmışdır.

**Heydər Əliyev:** Ora ən çətin yerlərdən biridir. Qazma üçün 15 kilometr nədir ki? Heç nə. Amma bir baxın, 1974-cü ildə BAM-ın tikintisinə başlayanda onun sona çatdırılmasına 10 il vaxt qoyulmuşdu. 1984-cü ildə, yəni 10 ildən sonra mən BAM-da oldum, özü də 10 gün qaldım. Dəmir yolu ilə əvvəlcə Moskvadan Bratska qədər, sonra oradan Vladivostoka qədər, Naxodkaya qədər getdim, bütün stansiyalara baxdım. 15 kilometrlik tunel o qədər də böyük məsafə deyildir. Amma oranın geoloji şəraiti mürəkkəbdir. Mən komissiyanı dəfələrlə yığdım. Orada çoxlu akademik, mütəxəssis, seysmoloq vardı. Bəziləri dilə tutub deyirdilər ki, gəlin, tikintini dayandıraq, orada seysmiklik yüksəkdir. Bax, siz tuneli tikib başa çatdıracaqsınız, amma o, bir vaxt uçacaqdır.

**Nikolay Aksyonenko:** Bu, bütün dünya üçün məktəb oldu. Oraya hər yerdən – Amerikadan, Yaponiyadan, dünyanın bütün ölkələrindən adamlar gəlirdilər. Qazmada nadir texnologiya icad edildi. Biz işin öhdəsindən gəldik.

**Heydər Əliyev:** Təbrik edirəm. Orada mənim də əməyimin bir hissəsi var.

**Nikolay Aksyonenko:** Dəmir yol nəqliyyatında Sizin əməyiniz çox böyükdür. Biz Sizi məmnuniyyətlə gözləyirik. Çox xahiş edirik, əgər gəlsəniz, bizə də təşrif gətirin.

**Heydər Əliyev:** Bizim vaqonları təmir edirlərmi?

**Ziya Məmmədov:** Biz özümüz təmir edirik.

**Heydər Əliyev:** Mıtişşi zavodu işləyirmi? Onun tikilməsi haqqında qərarı mən qəbul etmişəm.

Məsələ uzun müddət müzakirə edildi. Sonra da yanıma gəlib dedilər ki, bunsuz mümkün deyildir. Mən qərarı imzaladım və zavodu tikdik. Bizim metronun vaqonları oradan alınır?

**Nikolay Aksyonenko:** Bəli.

**Heydər Əliyev:** Bizim vaqonlara ehtiyacımız var, çünki metromuzun əsaslı təmirə ehtiyacı var.

**Nikolay Aksyonenko:** İndi onlar yaxşı işləyirlər, yaxşı sifarişləri var, Yuri Qulko adlı yaxşı bir direktoru var.

Bizim dəmir yolunun rəmzi olan hədiyyəni yadigar olaraq Sizə təqdim etmək istəyirəm.

**Heydər Əliyev:** Bu mənim üçün çox əzizdir, çünki mənim atam dəmiryolçu olmuşdur.

**Nikolay Aksyonenko:** Bütün ləyaqətli adamların ya özləri, ya da valideynləri dəmiryolçu olmuşdur.

**Heydər Əliyev:** Vladimir Vladimiroviçə və məni xatırlayan bütün dəmiryolçulara salam yetirin.

## RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ İŞLƏRİ, FÖVQƏLADƏ HALLAR VƏ TƏBİİ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI NAZİRİ SERGEY ŞOYQU BAŞDA OLMAQLA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*8 iyun 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Sergey Kujugetoviç, sizi burada, Azərbaycanda görməyimə şadam. Bizim sizinlə yaxşı əlaqələrimiz var və bu əlaqələr əhəmiyyətlidir, çünki biz də müxtəlif fövqəladə hallarla qarşılaşırıq. Sizin təcrübəniz bizim üçün çox əhəmiyyətə malikdir. Biz artıq xüsusi nazirlik yaratmaq qərarına gəlmişik, çünki indiyədək Fövqəladə Hallar üzrə Komissiya vardı. Lakin biz islahatlar aparırıq, artıq çox işlər görülmüşdür. İndi bir iş – hər şeyi və bəzi digər şeyləri birləşdirəcək nazirlik yaradılması qalır. Bizdə də bu cür nazirlik yaradılacaqdır, amma bilmirəm, bizdə də sizin kimi nazir olacaqmı? Lakin belə bir nazirlik olacaqdır.

**S e r g e y Ş o y q u:** Cənab Prezident, xoş sözlərə görə Sizə təşəkkür edirəm.

Açığını deyim ki, bizim ötən söhbətimiz kağız üzərində qalmadı, həyata keçirildi. Bu bizim dövlətimizdə də, hər hansı digər dövlətdə də, həqiqətən yeni çox mühüm strukturdur. Vaxtilə biz müxtəlif ölkələrdə uzun illər ərzində toplanmış bütün təcrübəni birləşdirməyə çalışdıq. Deyərdim ki, nəticədə çox yaxşı hibrid alındı. Bizdə, bir tərəfdən, proqnozlarla məşğul olan analitik hissə və tədbir görülməsi ilə, yəni bilavasitə xilasetmə işləri ilə məşğul olan hissə var. Elm böyük hissədən ibarətdir. Əvvəlki görüşümüzdən ötən vaxt ərzində Sizin mütəxəssislər böyük iş görmüşlər. Bir neçə nümayəndə heyəti nazirliyimizə gəlmişdir. Göstərə biləcəyimizi onlara göstərdik, bildiklərimizin hamısını onlarla bölüşdük. Yeni nazirliyin təchizatı üzrə mütəxəssislərin böyük bir qrupu işlədi. Hər şey sahmanlandı, nəzərdə tutulan planların hamısı yerinə yetirildi.

Siz bilirsiniz ki, bizim akademiyada zabitlər–gələcək nazirliyin əməkdaşları oxuyurlar. Ümidvarıq ki, bu il onların sayı iki dəfə artacaqdır. Çünki bu akademiya MDB ərazisində böhranların idarə edilməsi sahəsində, fövqəladə hallar sahəsində mütəxəssislər hazırlayan yeganə təhsil ocağıdır. Sevindirici haldır ki, orada Azərbaycandan olan dinləyicilər də var.

Bundan başqa, Sizinlə ötən görüşümüzdə əldə olunmuş razılaşmanı və meydana gəlmiş ideyanı davam etdirmək və əməli məcraya yönəltmək istərdik – söhbət üçüncü ölkələrdə fövqəladə hallara birgə münasibət göstərilməsindən gedir. Biz buna çox diqqət yetiririk. İndi bizim istehkamçılarımız Kosovoda, Serbiya ərazisində işləyirlər. Biz İspaniyada hazırlıq mərkəzi açmışıq.

Minalardan təmizləmə mütəxəssislərini ispanlarla birlikdə hazırlayırıq. Siz bilirsiniz ki, israillilər azad edilmiş Livan ərazilərindən getmişlər, minalanmış sahələr isə qalır. Bu çox böyük problemdir – öz torpaqlarına qayıdan dinc insanlar həlak olurlar. Ona görə də belə bir xahiş alınmışdı və iki həftə əvvəl belə mütəxəssislərin ilk buraxılışı oldu.

Bu, üçüncü ölkələrdə böyük fəlakətlər zamanı görülən işlərə də aiddir. Biz burada qarşılıqlı tədbirlər üçün mexanizmi sahmanlayırıq. İsveçrəli həmkarlarımızla belə təcrübəmiz var. Hazırlıq elan edilən kimi, biz onları götürməyə gedirik, çünki onların nəqliyyat təyyarələri yoxdur. Biz onları götürüb zəlzələ zonalarına – Türkiyəyə, Yunanıstana, yenidən Türkiyəyə uçuruq. Amma onlar, təbii ki, bizimlə uzağa uçmurlar. Tayvanda, Kolumbiyada zəlzələlər olmuşdur, bu ölkələr onlar üçün uzaqdır. Bizim üçünsə ümumən əlçatan yerdir. İstərdik ki, Sizin mütəxəssisləriniz də bizim bu işimizə əvvəlcə cəlb edilsin, sonra isə bizimlə birlikdə işləsinlər. Bizə elə gəlir ki, bu, respublikanızda nəzərdə tutduğunuz və bizi həqiqətən sevindirən siyasi xəttin həyata keçirilməsində kifayət qədər vacibdir. Belə işlərdə bir-birinə kömək etmək yaxşıdır.

**H e y d ə r Ə l i y e v:** Elədir.

**S e r g e y Ş o y q u:** Biz Uzaq Şərqdə – Çinlə, Yaponiya ilə kifayət qədər fəal məsləhətləşmələr aparırıq. İndi Koreya, Vyetnam ilə çox fəal işləyirik. Sevindirici faktdır ki, strukturumuzu, təcrübəmizi bu ölkələrin mütəxəssisləri Sizin mütəxəssislərlə birlikdə öyrənmişlər. Lakin Yaponiyada Baş nazirlər çox tez-tez dəyişir. Ona görə də onlar nazirliyi, zənnimcə, Sizdən sonra yaradacaqlar.

**H e y d ə r Ə l i y e v:** Bizdə sabitlikdir.

**S e r g e y Ş o y q u:** Elədir, bu da sevindirir. Onlar üçün, əlbəttə, çox vacibdir. Çünki onlarda zəlzələlər həmişə baş verir. Özü də təkcə zəlzələlər yox, həm də kifayət qədər ciddi kimyəvi hadisələr, radiasiya hadisələri baş verir. Yaponiya ərazisində sonuncu radiasiya qəzası və ya atmosferə radioaktiv maddələr buraxılması ilə müşayiət olunan qəza iki il əvvəl baş vermişdir. Onda çoxlu adam şüalanmaya məruz qalmışdı. Mən bunu ona görə deyirəm ki, ötən bütün illərdə onlar bizi – mən keçmiş Sovet İttifaqını nəzərdə tuturam – stansiyalarımızı, Çernobıl AES-i, reaktorlarımızı güclü tənqid edirdilər. Çernobıldan sonra belə qəzalar Yaponiyada, Fransada da

baş vermişdir. Belə qəzalar Birləşmiş Ştatlarda da olmuşdur. Amma onların miqyası başqadır. Ona görə də indi biz fövqəladə hallarda qarşılıqlı yardım sahəsində imzalanmış sazişlərə, o cümlədən Almaniya və Birləşmiş Ştatlarla imzalanmış sazişlərə yenidən baxılması ilə məşğuluq. Yaxşı ki, yaponlar bu fəlakətin elə ilk saatlarında bizə müraciət etdilər. Mütəxəssislərimiz fəlakətin nəticələrinin aradan qaldırılması barədə onlara məsləhətlər, bütün lazımi izahatlar verdilər.

Əlbəttə, biz istərdik ki, Azərbaycanın Fövqəladə Hallar Nazirliyi də nəinki sizin ölkənizdə, həm də başqa ölkələrdə bütün fövqəladə hallar zamanı məsləhətlər verə biləcək mütəxəssislərə malik olsun. Bu, əməkdaşlığımızda yeni istiqamətdir və çox fəal inkişaf edir. Prezidentimizin Azərbaycana səfəri buna misaldır. Sizin onunla münasibətləriniz nazirliklər və idarələr arasında əlaqələrimizə də yaxşı təsir göstərir. Hər necə olsa da, həmişə dövlətin birinci şəxsinə, başçısına baxırsan. Dövlətlərin başçıları arasında münasibətlər necədirsə, başqalarının arasında da münasibətlər o cürdür.

**H e y d ə r  Ə l i y e v:** Doğrudur.

**S e r g e y  Ş o y q u:** Heydər Əliyeviç, bizim xidmətə göstərdiyiniz diqqətə görə, nazirlik yaradılması haqqında qərarınıza görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Keçmiş Sovet İttifaqının ərazisində belə bir nazirliyin və onun yaradılması haqqında qərarın olmadığı bir dövlət qalır – bu Gürcüstandır. Hazırda onlarda vəziyyət çətin, ağırdır, mürəkkəbdir. Ona görə də onlarda belə bir nazirliyin nə vaxt yaradılacağını deyə bilmərəm. Lakin Gürcüstanda ildə iki-üç dəfə iş görməyimiz göstərir ki, onların mütəxəssislərə ehtiyacı var.

Heydər Əliyeviç, səhhətinizin yaxşı olmağını, xoş əhval-ruhiyyədə olmağınızı görməyimə çox şadam. Siz dünən gəldiniz?

**H e y d ə r  Ə l i y e v:** Bəli, dünən axşam.

**S e r g e y  Ş o y q u:** Mən də dünən axşam gəlmişəm. Doğrudur, axşam demək çətindir, çünki gecə saat bir idi.

**H e y d ə r  Ə l i y e v:** Mən isə bir qədər əvvəl gəldim.

**S e r g e y  Ş o y q u:** Mən Bağdaddan gəldim.

**H e y d ə r  Ə l i y e v:** Oraya getmişdiniz?

**S e r g e y  Ş o y q u:** Bəli, orada tibbi avadanlıq, texnika, o cümlədən də xilasetmə üzrə çox iş vardı.

**H e y d ə r  Ə l i y e v:** Sizin onlarla bu sahədə əməkdaşlığınız var?

**S e r g e y  Ş o y q u:** Bəli, biz oraya texnika göndəririk. Biz orada həm öz şirkətlərimizlə, həm də Almaniyanın və başqa ölkələrin şirkətləri ilə əməkdaşlıq edirik. Oraya ağır maşınlar göndəririk. Dünən biz prezident Səddam Hüseynlə mina əleyhinə mərkəz yaradılması haqqında razılığa gəldik. Bilirsiniz ki, onların Şimalda çox böyük problemləri, minalanmış sahələri var. Bizim gəlişimizdən iki gün əvvəl mina partlayıb bütöv bir ailə həlak olmuşdur.

Heydər Əliyeviç, bir sözlə, yeni nazirliyin başçısı təyin olunan kimi, əgər etiraz etməsəniz, biz bu işi İraqda dərhal birlikdə görməyə çalışacağıq.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mən sözümün əvvəlində dedim ki, sizin təcrübəniz bizim üçün böyük əhəmiyyətə malikdir. Biz bu nazirliyin yaradılmasında gecikmişik, Nazirlər Kabinetində Fövqəladə Hallar üzrə Komissiyanın olması ilə kifayətlənmişik. Amma həyat göstərdi ki, bu, kifayət deyildir, respublikamızın bir sıra digər strukturlarını da özündə birləşdirən belə bir nazirlik lazımdır. Biz artıq belə bir qərar qəbul etmişik. Düşünürəm ki, ən yaxın vaxtlarda nazir də olacaq, nazirlik də. Şadam ki, bu müddət ərzində sizinlə yaxşı, səmərəli əməkdaşlıq edilir. Deməli, nazirliyimiz təcrübənizdən, dəstəyinizdən və sizdə təhsil alan mütəxəssislərdən və sizdə təcrübə keçmiş mütəxəssislərdən istifadə edəcəkdir. Bu vacibdir.

Yeri gəlmişkən, yadımdadır ki, Sovet İttifaqında, o cür böyük dövlətdə yüzdən çox nazirlik vardı. Ancaq belə nazirlik yox idi. Təəccüblüdür, yüzdən çox nazirlik olduğu halda, belə nazirlik yox idi. Amma indi həyat göstərir ki, belə nazirlik çox gərəkdir və iqtisadiyyatımızın, təkcə iqtisadiyyatımızın deyil, ölkələrimizin bütün həyatının mühüm qurumlarından biridir. Bu illər ərzində sizin nazirlik çox işlər görmüşdür. Yəqin siz haradasa hiss edirdiniz ki, belə nazirlik gərəkdir. Çünki Rusiya ərazisində olduqca çox bədbəxtliklər, cürbəcür fəlakətlər baş vermişdir. Elə götürək Yakutiyadakı axırıncı təbii fəlakəti. Bunu hətta təsəvvürə belə gətirmək çətindir. Heç vaxt, heç kim düşünməzdi ki, Yakutiyada – keçmişdə belə hadisələrin olub-olmadığını bilmirəm, hər halda, yadımda deyil – çay belə vəziyyətə düşə bilər. Axı orada hər şey donur. Mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən – mən nəqliyyatın işləri ilə məşğul olurdum – başlıca vəzifəmiz o idi ki, yaz-yay dövründə Lena çayı ilə yükləri bacardıqca tez daşıyaq. Orada bir liman var, mən o limanda olmuşam, biz yükləri oradan göndərirdik. İnsanların qışı keçirə bilməsi üçün lazım olan hər şeyin oraya göndərilməsinə hər gün nəzarət edirdik. İndi isə qış çıxar-çıxmaz belə daşqınlar başlamışdır. Hər halda, çayın belə vəziyyətdə olması yadıma gəlmir.

Hər halda, məsələ, sadəcə, nazirliyin olmasında deyil, həm də ondadır ki, sizin əməli fəaliyyətiniz ziyanın mümkün qədər az olmasında və insanların xilas edilə bilməsində öz rolunu oynadı. Mən keçmiş vaxtları da xatırlayıram. Yeri gəlmişkən, bizdə də əvvəlki illərdə belə hadisələr nə isə az-az baş verirdi. İndi isə tez-tez baş verir. Bilmirəm, bütün bunlar planetdə şəraitin dəyişməsi ilə bağlıdır, yoxsa, nə ilə. Ona görə də Rusiya bu

nazirliyi hələ neçə illər əvvəl yaratmaqla çox uzaqgörənlik etmişdir. Maraqlıdır ki, bu illər ərzində Rusiya hökumətində nazir vəzifələrində çox adam dəyişdirilmişdir, Sergey Şoyqu isə həmişə bu vəzifədədir.

**S e r g e y Ş o y q u:** Sizdə Abbasov kimi.

**H e y d ə r Ə l i y e v:** Bu müqayisəedilməzdir. Siz həmişə bu vəzifədəsiniz və öz fəaliyyətinizlə təkcə Rusiyada yox, başqa ölkələrdə də, o cümlədən Azərbaycanda da böyük nüfuz qazanmısınız. Rusiyanın hüdudlarından kənarda fəaliyyətinizin coğrafiyası barədə dedikləriniz də mənim fikrimi tamamilə təsdiqləyir. Əslində, mənim fikrim məhz buna əsaslanır. Ona görə də belə düşünürəm ki, biz nazirlik yaranandan və nazir təyin edəndən sonra çətinliklər olmayacaqdır, çünki sizdə belə nazirlik var, belə təcrübə var və Azərbaycana çox dostcasına münasibət bəsləyən belə nazir var.

O ki qaldı Rusiya ilə Azərbaycan arasında münasibətlərə, biz həmişə çalışmışıq və çalışırıq ki, bu münasibətlər çox yaxşı olsun. Prezident Vladimir Vladimiroviç Putinlə mənim aramda yaranmış münasibətlər də, şübhəsiz, əhəmiyyətə malikdir və digər bütün işlərə, sizin dediyiniz kimi, nazirliyinizin xətti ilə də qarşılıqlı münasibətlərimizə müsbət təsir göstərir. Düşünürəm ki, bu münasibətlər möhkəmlənəcək, inkişaf edəcəkdir. Ona görə ki, bu, Azərbaycanın mənafeyi üçün, Rusiyanın mənafeyi üçün, xalqlarımızın mənafeyi üçün gərəkdir. Bizim buna əsla şübhəmiz yoxdur.

İndiyədək göstərdiyiniz və yaxın vaxtlarda biz bu nazirliyi yaratdıqdan sonra daha çox göstərəcəyiniz köməyə, yardıma görə sizə bir daha təşəkkür etmək istəyirəm.

**S e r g e y Ş o y q u:** Heydər Əliyeviç, işimizə yüksək qiymət verdiyinizə görə sağ olun, bir daha sağ olun. Belə düşünürəm ki, bütün bunlar bəri başdan verilmiş qiymətdir.

**H e y d ə r Ə l i y e v:** Yox, yox. Bu, nəticələrə əsaslanan real qiymətdir.

**S e r g e y Ş o y q u:** Sağ olun, Heydər Əliyeviç. Biz hər il 8 minədək minanı zərərsizləşdiririk. Bu, 10 ildə təxminən 80 min edir. Bu, bir tərəfdən, böyük rəqəmdir, digər tərəfdən isə, həmin işin miqyası ilə müqayisədə bir damladır. Hətta damla da deyil, zərrəcikdir. Mütəxəssislərin hesablamalarına görə, əgər hər gün təxminən 5 milyon istehkamçı gecə-gündüz işləsə, Yer üzündəki bütün minaları 60 ilə zərərsizləşdirə bilər.

**H e y d ə r Ə l i y e v:** Bir görün, Yer kürəsini nə günə qoyublar!

**S e r g e y Ş o y q u:** Mən Sizə dərin hörmət bəsləyirəm, Siz ölkəmizdə böyük hörmətə, nüfuza maliksiniz. İcazə verin, Fövqəladə Hallar Nazirliyinin rəmzi olan bu hədiyyəni Sizə təqdim edim. Heydər Əliyeviç, Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin banisi və yaradıcısı kimi, Sizə sağ olun! – deyirik.

**H e y d ə r Ə l i y e v:** Sizə ən xoş arzularımı bildirirəm. Vladimir Vladimiroviçə məndən salam yetirin.

**N i k o l a y R y a b o v** *(Rusiyanın Bakıdakı səfiri)***:** Heydər Əliyeviç, 12 iyun Rusiyanın milli bayramıdır. Sizdən bu bayrama gəlməyi xahiş edirik, yolunuzu səbirsizliklə gözləyirik. Siz çox yüksək keyfiyyətlərə malik insansınız. Ona görə də Sizi bu bayramda görmək bizim üçün çox xoş olardı.

**A l e k s e y M o s k o v e t s** *(Rusiya Fövqəladə Hallar nazirinin birinci müavini)***:** MDB ölkələrinin Fövqəladə Hallar üzrə Dövlətlərarası Şurasının iki gün ərzində Bakıda iclası keçirilmişdir. İclasın yüksək səviyyədə təşkil edildiyinə görə çox sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi dövlət bayramı – Rusiya Federasiyasının Dövlət suverenliyi haqqında bəyannamənin qəbul olunması günü münasibətilə ürəkdən təbrik edirəm.

Rusiya ilə Azərbaycan arasında ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri bu gün ölkələrimizin və dövlətlərimizin hərtərəfli əməkdaşlığı və strateji tərəfdaşlığı üçün möhkəm bünövrədir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına yönəldilmiş səylərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya münaqişəsinin tezliklə ədalətli həlli üçün öz fəaliyyətini daha da genişləndirəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət və dövlət fəaliyyətinizdə uğurlar, qardaş Rusiya xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2001-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM QLORİYA MAKAPAQAL ARROYOYA**

Hörmətli xanım Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Filippin xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Filippin Respublikası arasında təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahına xidmət edərək daha da genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2001-ci il*

**İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLAVUR RAQNAR QRİMSSONA**

Hörmətli cənab Prezident!

İslandiya Respublikasının milli bayramı – Respublikanın elan edilməsi günü münasibətilə Sizi və dost İslandiya xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İslandiya Respublikası arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2001-ci il*

## «BAKILI OĞLANLAR» ŞƏN VƏ HAZIRCAVABLAR KLUBU KOMANDASININ YENİ PROQRAMLA ÇIXIŞINA* BAXDIQDAN SONRA KOMANDANIN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Respublika sarayı*

*10 iyun 2001-ci il*

Axşamınız xeyir olsun!

Mən sizi hazırladığınız bu yeni proqram münasibətilə təbrik edirəm. Bilirəm ki, siz bir neçə gündür ki, bu sarayda çıxış edirsiniz və çıxışlarınızın hamısı Azərbaycanda, Bakıda böyük həvəslə izlənilir, qəbul olunur. Deyirlər ki, Respublika sarayının salonunda boş yer yoxdur, yaxşı da pul qazanmısınız. Amma deyirlər ki, bugünkü çıxışınız pulsuzdur. Niyə? Gərək bugünkü çıxışınızı da pullu edəydiniz.

Təbiidir, 10 il müddətində siz çox irəliyə getmisiniz, inkişaf etmisiniz. Bu barədə siz özünüz də bu gün burada çox sözlər dediniz. Veteran Yuli Qusman da bu barədə çox geniş danışdı. Təbiidir ki, bu, Azərbaycan cəmiyyətinin, xalqımızın bir tərəfdən, incəsənət, o biri tərəfdən isə, ağıl, zəka nümayiş etdirmək nöqteyi-nəzərdən böyük bir sərvətidir. Bu sərvət bir-iki gündə yaradılmır, o, xırda-xırda toplanır və komandaya nə qədər istedadlı insanların cəlb olunmasından asılıdır. Bu istedad ikitərəfli olmalıdır. Bəzən səhnədə yaxşı istedad nümayiş etdirən insandan zəkasının da o qədər yüksək olması tələb edilmir. Amma sizin komandada vəziyyət başqa cürdür. Burada gərək həm artistlik istedadı, həm də bilik və zəka olsun. Yəni həm suallara cavab tapa biləsən, həm də ayrı-ayrı səhnələri göstərə biləsən.

Təbiidir ki, sizin bu çıxışlarınız daha çox yumor xarakteri daşıyır. Ortada suallar da təşkil edirsiniz, onlara cavab verirsiniz. Amma keçmişə nisbətən sizin bu çıxışlarınızın əsasını yumor təşkil edir. Bu da çox vacibdir, əhəmiyyətlidir. Çünki yumor insanlar üçün həmişə mənəvi bir qida olubdur. İkinci tərəfdən də, yumor, eyni zamanda ayrı-ayrı qüsurların tənqididir. Əgər keçmişə nəzər salsaq, yumoristlər keçmişdə müəyyən qədər müxalifətdə olubdur. Məsələn, bizim böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalında, yaxud öz əsərlərində o dövrdə xalqımızın, cəmiyyətin nöqsanlarını, xalqımızın bəzi məsələlərdə geri qalmasını çox yumoristik şəkildə əks etdirirdi. Həmin jurnalın nömrələrinə baxanda bəzi adamlar belə qəbul edirlər ki, bu sözlər, şəkillər sadəcə, insanı güldürməkdən ötrüdür. Amma orada iki məna var: həm insanı güldürür, həm də cəmiyyətə, insana başa salır ki, bu nöqsanları aradan qaldırmaq lazımdır.

Bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyov «Məşədi İbad» operettasını yaradıbdır. İnsanların, demək olar ki, əksəriyyəti – əgər mütəxəssisləri nəzərə almasaq – indiyə qədər hesab edirlər ki, «Məşədi İbad» operettası komediyadır, insanlar gəlib baxsınlar, istirahət etsinlər. Ancaq bu, bir tərəfdən, komediyadır, digər tərəfdən, əgər bu əsəri dərindən təhlil etsən aydın olar ki, bir tərəfdən, o dövrdə cəmiyyətdə gedən proseslər, ikinci tərəfdən də nöqsanlar, çatışmazlıqlar göstərilibdir. Eləcə də məsələn, Qoqolun əsərlərini götürsək, onun əsərlərindəki obrazlar indiyə qədər yaşayırlar. Ona görə də yumor iki məna, məqsəd daşıyır. Bir tərəfdən, insanlar həqiqətən gülür, istirahət edirlər. Deyirlər ki, sizin bu tamaşanız 3 saat 15 dəqiqə çəkibdir. Başqa bir tamaşada buna dözmək mümkün deyildir. Amma siz bir tərəfdən, insanları güldürürsünüz, ikinci tərəfdən isə, tənqid edirsiniz. Hesab edirəm ki, tənqidi də məhəbbətlə edirsiniz.

Bu gün siz Bakı şəhərinin yeni icra hakimiyyəti başçısı H.Abutalıbov haqqında danışdınız, göstərdiniz. Bəziləri elə başa düşər ki, siz onu mənfi tərəfdən göstərdiniz. Yox. Amma mən hesab edirəm ki, siz onu müsbət mənada göstərdiniz.

**A n a r  M ə m m ə d x a n o v:** Cənab Prezident, biz onu dəstəkləyirik, gördüyü işləri müdafiə edirik.

**H e y d ə r  Ə l i y e v:** Bəli, siz onu göstərdiniz, amma komik bir şəkildə göstərdiniz.

Siz məni də yaddan çıxartmırsınız. Görürəm ki, hər dəfə mövzunu bir az da genişləndirirsiniz. İndi oğlumu da buraya qatmısınız. Ola bilər, 2-3 tamaşadan sonra nəvələrimi də qatasınız. Hər halda, bunlar hamısı xeyirlidir, faydalıdır. Siz faydalı iş görürsünüz.

Siz burada dediniz ki, guya bu, vida konsertidir. Bilirəm, siz bununla caamatı aldadırsınız, sizə desinlər ki, getməyin, dayanın.

---

* 2000-ci il XX əsrin çempionları olmuş «Bakılı oğlanlar» Şən və Hazırcavablar Klubu komandası maraqlı süjetləri və incə yumorları ilə təkcə ölkəmizin deyil, başqa ölkələrin də tamaşaçılarının rəğbətini qazanmışdır.

Çıxışın sonunda «Bakılı oğlanlar» komandasının XX əsr çempionlarının turnirində qələbəsi şərəfinə Azərbaycanın milli himni səsləndi.

Konsertdə Yuli Qusman da çıxış etdi və dedi ki, siz onları haraya buraxırsınız, bunu etmək olmaz. Hətta məsələni səsə qoydu. Yəni, siz öz nüfuzunuzu daha da qaldırmağı qərara aldınız. Qaldırdınız da. Sizin nüfuzunuz yüksək səviyyədədir. Əlbəttə, adamlar zaman-zaman müəyyən janrdan, tamaşadan usanırlar. Amma siz burada da buna məharətlə yanaşa bildiniz. Hesab edirəm ki, siz heç yana getməyəcəksiniz, yaşayacaqsınız, yəqin ki, ŞHK-sız yaşaya bilməyəcəksiniz. Bəziləriniz qocalmayınca bu komandadan kənarda heç on il də yaşaya bilməyəcəksiz.

Sizi bir daha təbrik edirəm, hamınıza yeni uğurlar arzulayıram, sənə isə təşəkkürümü bildirirəm.

**Yuli Qusman:** Valideynlərimi xatırladığınıza görə də sağ olun.

**Heydər Əliyev:** Səni Azərbaycanda Şən və Hazırcavablar Klubunun banisi hesab edirlər. Yadımdadır, mən hələ DTK-da işlədiyim vaxtlarda bu komanda yenicə çıxış etməyə başlayırdı. O vaxtlar buna çox mənfi yanaşırdılar. Bu mən hələ DTK-nın sədri olmadığım vaxtlarda idi. Bu yenicə başlayırdı. O illərdə Komsomolun Mərkəzi Komitəsinin birinci katibi mərhum Maqsud Əlizadə idi. O vaxt çoxları bunu qavramırdı. Yadımdan çıxıb, siz hansısa salona toplaşmışdınız. Mən də oraya gəldim. Daha doğrusu, o məndən kömək göstərməyi xahiş etmişdi. Onda DTK-nın dəstəyi çox böyük rol oynayırdı, çünki sizin çıxışlarınız antisovet, dövlət əleyhinə çıxışlar kimi qiymətləndirilirdi və sair. Mən o görüşü xatırlayıram. Biz bu mövzuda söhbət edirdik. Maraqlı bir gecə alındı. Bu, gərək ki, 1966-cı ildə olmuşdur.

**Yuli Qusman:** Yadınızdadırmı, əgər Siz olmasaydınız, biz 1970-ci ildə qalib gələ bilməzdik. Moskvadan Lapin mətnimizi qadağan etmək istəyəndə Siz dediniz ki, biz büroda baxmışıq, mən oxumuşam, buraxın. Beləliklə, onlar buna mane ola bilmədilər. O vaxt bu, artıq son canlı efir idi. Bu, 1970-ci ilin iyulunda, 30 il əvvəl olmuşdur. Biz bu günədək birinci yerdəyik.

**Heydər Əliyev:** Odur ki, siz Şən və Hazırcavablar Klubunun inkişafında mənim xidmətlərimi unutmamalısınız.

**Yuli Qusman:** Yox, Siz bizim ən böyük KVN-çimizsiniz. Bilirsinizmi, dünən Zyuqanov Soçidə nə haray-həşir salmışdı. Deyirdi: «Mən üç il ŞHK-nın kapitanı olmuşam».

**Anar Məmmədxanov:** Cənab Prezident, mən burada dedim ki, həqiqətən, Siz olmasaydınız, Sizin dəstəyiniz olmasaydı, cəmiyyətdə indiki kimi vəziyyət yaranmasaydı, onda ŞHK, ümumiyyətlə, heç zaman olmazdı.

**Heydər Əliyev:** Əlbəttə.

**Anar Məmmədxanov:** Biz hər şeyi xatırlayırıq. 1992-93-cü illərdə iki dəfə çempion olmağımıza baxmayaraq, burada konsert verə bilmirdik.

**Heydər Əliyev:** Sən, gəl, bir dəfə ŞHK-da o dövrü göstər, qoy görsünlər ki, siz 1991–1993-ci illərdə hansı şəraitdə yaşayırdınız.

**Anar Məmmədxanov:** Əlbəttə, biz qorxduq ki, adamlar gələcək və sevinclərindən avtomatlarla tavanı gülləyə tutacaqlar.

**Heydər Əliyev:** Bax, sən növbəti tamaşa üçün yaxşı ideya verdin.

**Yuli Qusman:** Bəlkə prezident fərmanı gərəkdir ki, onlar desinlər ki, bax, biz getmək istəyirdik, amma bizə qadağan elədilər və dedilər ki, yeni nömrə hazırlayın.

**Heydər Əliyev:** Bəli, əgər onlar prezidenti göstərməkdən qorxmurlarsa…

**Anar Məmmədxanov:** Adamlar o vaxtları zarafatla da xatırlamaq istəmirlər.

**Heydər Əliyev:** O vaxtları unutmaq olmaz. O vaxtları unutsalar, adamlar indini qiymətləndirə bilməzlər. Bu günü qiymətləndirmək üçün keçmişi unutmamaq lazımdır. Bax, o deyir ki, dörd ay əvvəl şəhər başqa vəziyyətdə idi. Hər il elə belə də olur. Bunu unutsaq, onda bir ildən sonra, məsələn, Bakıda hamı düşünər ki, şəhər həmişə belə olmuşdur.

**Anar Məmmədxanov:** Adamlar sabitliyə öyrəşiblər, unudublar ki, artıq axşam saat 6-da küçələrdə ins-cins olmurdu. Bir dəfə, 1993-cü ilin mayında bizi komendantlığa apardılar, nə var ki, gecə yarısı küçəyə çıxmışdıq.

**Heydər Əliyev:** Növbəti tamaşa üçün ssenarinin yarısı artıq hazırdır. Sizi bir daha təbrik edirəm.

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüdü günü münasibətilə Sizi və dost Böyük Britaniya xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Böyük Britaniya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahına xidmət edərək daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 iyun 2001-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETAYA**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüdü günü münasibətilə Sizi və dost Böyük Britaniya xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Böyük Britaniya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsinə xüsusi əhəmiyyət verirəm. Əminəm ki, ikitərəfli əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 iyun 2001-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm.

Əminəm ki, bu gün dost ölkələrimizi birləşdirən mehriban qonşuluq, qarşılıqlı anlaşma və faydalı əməkdaşlıq münasibətləri daim genişlənəcək və möhkəmlənəcəkdir.

Ümidvaram ki, ikitərəfli sıx əlaqələrimiz bundan sonra da xalqlarımızın iradəsinə uyğun şəkildə inkişaf edərək regionumuzda sülhün və sabitliyin bərqərar olunmasına, ölkələrimizin çiçəklənməsinə mühüm töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, qardaş İran xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 iyun 2001-ci il*

## RUSİYANIN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*12 iyun 2001-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Rusiya Federasiyasının milli bayramı – Dövlət suverenliyi haqqında bəyannamənin qəbul olunması günü münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Mən dövlət dilində, Azərbaycan dilində çıxış etməliyəm, amma biz keçmiş vaxtlardan bir-birimizin dilini çox yaxşı mənimsəmişik, xüsusən azərbaycanlılar rus dilini daha yaxşı öyrənmişlər. Buna baxmayaraq, bizdə Azərbaycan dilindən rus dilinə tərcümə edə bilən ixtisaslı tərcüməçilər yoxdur, çünki keçmişdə tərcüməçilərə ehtiyacımız yox idi. İndi bizdə olduqca çox tərcüməçi var və onlar müxtəlif xalqların dillərinə tərcümə edirlər. Amma, məsələn, mənim nitqimi rus dilinə tərcümə etmək, zənnimcə, çətin olacaqdır.

Rusiya böyük ölkədir. Rusiyanın çoxəsrlik tarixi bir çox ictimai-siyasi hadisələrlə – sarsıntılarla, qələbələrlə, uğurlarla və məğlubiyyətlərlə səciyyələnir. Lakin XX əsrdə Rusiya bəşəriyyətin tarixində – çar imperiyasının süquta uğramasında, dünyada ilk sosialist inqilabının qalib gəlməsində, əvvəllər ancaq nəzəriyyə şəklində mövcud olan dövlət sisteminin qurulmasında, Sovet İttifaqının yaranmasında, sonra, əsrin axırlarında Sovet İttifaqının dağılması və əvvəllər Sovet İttifaqının tərkibinə daxil olmuş respublikaların müstəqil dövlətlərinin meydana gəlməsində xüsusi rol oynamışdır.

Bütün bunlar bir əsr üçün həqiqətən olduqca çoxdur. Amma bununla belə, gələcəkdə tarixçilər XX əsri təkcə bizim yerləşdiyimiz region üçün deyil, bütün dünya üçün də dərindən öyrənəcək və olmuş hadisələrin hamısına qiymət verəcəklər.

Əvvəllər Sovet İttifaqının tərkibinə daxil olmuş respublikalar arasında ilk olaraq Rusiyanın, Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamə qəbul etməsinin və bununla da sovet respublikalarının müstəqilliyinə, azadlığına, suverenliyinə doğru yol açmasının bizim üçün xüsusi əhəmiyyəti var. Bu mühümdür. Bunu qeyd etmək lazımdır, çünki bir vaxtlar, daha doğrusu, 1922-ci ildə Sovet İttifaqı ilk növbədə Rusiyanın və bəzi digər respublikaların səyləri ilə təşkil edilmişdi. 70 ildən artıq mövcud olmuş ictimai-siyasi, iqtisadi sistemi də Rusiya müəyyənləşdirirdi. Elə Rusiyanın özü də bu yolun səhv olduğuna inanaraq, dövlət suverenliyi haqqında bəyannamə qəbul etdi, o mənada ki, ən əvvəl Rusiya Federasiyasının dövlət müstəqilliyini, suverenliyini təmin etmək və başqa xalqlara, başqa respublikalara müstəqil olmağa və öz müstəqil, suveren dövlətini qurmağa imkan vermək lazım idi.

Həqiqətən, Rusiya dövlət suverenliyi haqqında bəyannaməni qəbul edərək, keçmişdə olanların hamısından imtina edərək, demokratik inkişaf yolunu tutmuşdur. Bu, sadə olmayan, mürəkkəb, çətin bir yoldur və əgər kimlərsə hər hansı qərarların, bəyannamələrin və ya konstitusiyaların qəbul edilməsi ilə bu yolu qısa müddətə keçməyin mümkün olduğunu düşünürlərsə, onlar yanılırlar, çünki müstəqilliyimizin onillik tarixi buna inandırıcı sübutdur.

Başlıcası budur ki, bunun nəticəsində Azərbaycan da dövlət müstəqilliyinə, azadlığa nail oldu, sərbəst inkişaf yoluna çıxdı, demokratik inkişaf, bütün sahələrdə demokratik islahatlar aparılması yoluna, Dünya Birliyi ilə inteqrasiya yoluna çıxdı və Dünya Birliyində öz layiqli yerini tutdu. Rusiya Federasiyasının 1990-cı ildə qəbul etdiyi dövlət suverenliyi haqqında bəyannamənin nə kimi əhəmiyyətə malik olduğundan qısaca danışmaq lazım gəlsə, onun çox böyük əhəmiyyəti olduğunu deyə bilərik.

Bəziləri düşünürlər ki, müstəqillik uğrunda mübarizə bu və ya digər xalqı onsuz da müstəqilliyə gətirib çıxaracaqdı. Bu, səhv fikirdir. XX əsr tarixində baş vermiş proseslər böyük imperiyaların dağılmasına və bir çox müstəqil dövlətlərin yaranmasına gətirib çıxartdı. 20-ci yüzilliyin son dövründə Sovet İttifaqında və dünyada baş vermiş proseslər də Sovet İttifaqının süqutu üçün, Sovet İttifaqının tərkibində olmuş respublikaların azad və müstəqil olması üçün məhz bir əsasa çevrildi.

Əlbəttə, biz çox çətinliklərlə qarşılaşdıq. İlk növbədə, Rusiyanın özü də təkcə 1991-ci ilin avqustunda deyil, başqa vaxtlarda da çox çətinliklərlə üzləşdi. Nə yaxşı ki, 1991-ci ilin avqust hadisəsi baş verdi. Əgər o vaxtın hadisələri olmasaydı, Azərbaycanın müstəqilliyə qovuşması prosesi bəlkə də hələ uzanardı. Rusiyanın taleyinin həqiqətən həll edildiyi 1993-cü ilin oktyabrındakı hadisələr, eləcə də bu qısa zaman kəsiyini səciyyələndirən bir çox digər hadisələr tarixdə təkcə sizin üçün deyil, Azərbaycan üçün də, keçmişdə bir ümumi dövlətə – Sovet İttifaqına daxil olmuş başqa respublikalar, müstəqil ölkələr üçün də son dərəcə böyük əhəmiyyətə malikdir.

Biz Rusiyada gedən prosesləri diqqətlə izləyirik. Biz bir-birimizlə sıx bağlıyıq, talelərimiz bağlıdır, təxminən iki yüz il bir dövlətdə olmağımızla bağlıyıq. Ona görə də Rusiyada nə baş verirsə, onların hamısı bizim üçün də böyük əhəmiyyətə malikdir. Əgər Rusiyanın demokratik dəyişikliklər, demokratik inkişaf, demokratik hüquqi dövlət, hüquqi cəmiyyət quruculuğu yolunu tutduğunu nəzərə alsaq, onda bunun bizim üçün nə kimi əhəmiyyəti olduğunu müəyyənləşdirmək mümkündür.

Azərbaycanda biz də bu yolu keçirik. Cənab səfirin burada dediyi kimi, əgər Rusiya başqa nəticələrə, çox fəlakətli nəticələrə gətirib çıxara biləcək hadisələrlə iki dəfə qarşılaşmışsa, Azərbaycan hələ dövlət müstəqilliyini əldə etdiyi vaxt çox ağır vəziyyətdə idi, ona görə ki, 1988-ci ildən etibarən Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, münaqişəyə başlamış, sonra da Azərbaycana, sözün əsl mənasında, hərbi təcavüz etmişdir. Azərbaycan dövlət müstəqilliyini belə şəraitdə qazanmışdır.

1990-cı il yanvarın 20-si isə Azərbaycan tarixində ən ağır gün oldu. Elə götürün sonrakı vaxtları, 1993-cü ili, bax, indi biz həmin dövrün 8-ci ildönümünü yaşayırıq. O vaxt Azərbaycan od içində yanırdı, vətəndaş müharibəsi gedirdi və Azərbaycan əslində parçalanmaq həddində idi və uçuruma doğru gedirdi. Sonra Azərbaycanda 1994-cü ilin, 1995-ci ilin hadisələri, silahlı dövlət çevrilişi cəhdləri oldu. Bilirsinizmi, bütün bunlar tarixi baxımdan çox qısa müddət ərzində baş verdi. Bir baxın, insanların həyatı necə də ağırlaşır, Rusiyanın öz problemləri var, bizim də öz problemlərimiz var. Əlbəttə, hamınız yəqin razılaşarsınız ki, ötən onillikdə və bu gün Azərbaycanda problemlər Rusiyada olduğundan qat-qat çoxdur. Ancaq əhəmiyyətlisi odur ki, bütün bu çətinliklər, bütün bu maneələr bizi getdiyimiz yoldan, müstəqillik yolundan, azadlıq yolundan, demokratik dəyişikliklər yolundan döndərə bilmədi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi keçmiş Sovet İttifaqı məkanında, bəlkə də, ilk münaqişə idi və nəhəng fövqəldövlətin, Sovet İttifaqının müvafiq dövlət orqanları o illərdə bunun qarşısını ala bilərdilər. Amma bunu etmədilər və Sovet İttifaqından bizə bir çox digər mənfi hallarla yanaşı, daha bir ağır miras – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi qaldı. Bu münaqişə Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasına, bir milyondan çox insanın yurd-yuvasından qovulmasına gətirib çıxartdı, onlar artıq neçə illərdir dözülməz şəraitdə, çoxu da çadırlarda yaşayırlar. Biz məsələnin sülh yolu ilə nizama salınması üçün tədbirlər görürük. Biz müharibə istəmirik. Hərçənd, olduqca çox zərər çəkmişik, hərçənd, intiqam almağa mənəvi haqqımız var, lakin bizə belə böyük ziyan vurulduğuna görə yox, işğal olunmuş ərazilərin azad edilməsi üçün.

Cənab səfir burada öz dövlətinin rəyini ifadə edərək bir daha bildirdi ki, Rusiya beynəlxalq hüquq, hər bir dövlətin ərazi bütövlüyü, beynəlxalq birliyin tanıdığı sərhədlərin toxunulmazlığı, pozulmazlığı mövqelərində möhkəm dayanmışdır. Amma neçə illərdir biz beynəlxalq hüququn, Helsinki aktının bütün bu prinsiplərinin ölkəmiz barəsində pozulduğu bir vəziyyətdəyik. Dostluğumuzun – mən Rusiya–Azərbaycan dostluğunu nəzərdə tuturam – böyük tarixi var və biz bu tarixi qiymətləndiririk. Müstəqillik əldə etdikdən sonra Azərbaycan, hər halda, Azərbaycan xalqı həmişə Rusiya ilə Azərbaycan arasında dostluq, qarşılıqlı fəaliyyət, qarşılıqlı faydalı əməkdaşlıq mövqeyində durmuşdur. Son illər dostluq münasibətlərimizin ardıcıl inkişafı ilə, Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafı və möhkəmlənməsi ilə səciyyələnir.

Bu baxımdan Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin bu il yanvarın 9-da Azərbaycana rəsmi dövlət səfərinin olduqca böyük əhəmiyyəti var. Xalqımız iftixarla deyir ki, Rusiya Federasiyasının prezidenti XXI əsrin əvvəlində, üçüncü minilliyin əvvəlində özünün ilk dövlət səfərini məhz Azərbaycana etmişdir. Məsələ təkcə bunda deyildir, məsələ həm də ondadır ki, Rusiya ilə Azərbaycan arasında mehriban münasibətlərin əhəmiyyətini, təəssüflər olsun, on il Moskvada heç də hamı başa düşmürdü və yüksək səviyyədə belə səfər də olmamışdı.

Ona görə də xalqımız bu səfəri olduqca böyük məmnunluq hissi ilə və eyni zamanda böyük ümidlə, dostluq münasibətlərimizin daha da inikişaf edib möhkəmlənəcəyinə, iqtisadi əlaqələrimizin inkişaf edəcəyinə ümidlə, regionumuzda təhlükəsizliyə, Rusiyada yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan rusların təhlükəsizliyini ümidlə qarşıladı. Ən çox da belə bir ümidlə qarşıladı ki, Rusiya Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə və Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına və sərhədlərinin toxunulmazlığının təmin edilməsinə əvvəlki illərə nisbətən indi daha fəal qoşulacaqdır. Məlumdur ki, 1992-ci ildən başlayaraq bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur, onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Amma bildirməliyəm ki, həmsədrlərin bu tərkibi 1997-ci ilin əvvəllərində yaranmışdır. Rusiya isə münaqişənin əvvəlindən və xüsusən 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradıldıqdan sonra bu münaqişənin dincliklə nizama salınmasının fəal iştirakçıları sırasında həmişə olmuşdur. Lakin təəssüf ki, o illərdə göstərilmiş səylər yetərli olmamışdır və münaqişə indiyədək həll edilməmiş qalır. Ona görə də Vladimir Vladimiroviç Putin Rusiya Federasiyasının prezidenti seçildikdən sonra onun istər Rusiya üçün, istərsə də beynəlxalq münasibətlər sahəsində bir çox digər dövlət qərarları ilə yanaşı, bizim üçün ən önəmlisi odur ki, Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması məsələsində Rusiyanın mövqeyi çox əhəmiyyətli dərəcədə dəyişmişdir.

Bu qısa müddətdə prezident Vladimir Vladimiroviç Putinlə çox görüşüm olmuşdur. Üç prezidentin – Rusiya, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri keçirilmişdir və Müstəqil Dövlətlər Birliyi ölkələri prezidentlərinin bu yaxınlarda Minskdəki zirvə toplantısında biz yenidən görüşdük. Özü də əvvəlcə xüsusi olaraq Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması yollarının müzakirəsi üçün üç prezidentin görüşü, sonra isə dörd prezidentin – mən Gürcüstanı da nəzərdə tuturam – görüşü keçirildi. Bu görüş bütün Qafqazda təhlükəsizlik məsələlərinə və ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsinə həsr olunmuşdu.

Bu və bir çox digər faktlar indi Rusiya rəhbərliyinin və ən əvvəl prezident Putinin Qafqaza, ümumən regionumuza və Ermənistan–Azərbaycan münaqişəsinin həllinə necə böyük əhəmiyyət verdiyini göstərir. Təkrar edirəm, xalqımız bu məsələdə Rusiyanın fəal roluna böyük ümidlər bəsləyir. Rusiyanın bunda fəal rol oynaya bilməsini sübut etməyə, məncə, lüzum yoxdur.

Dövlətlərarası münasibətlərimiz bütün əvvəlki illərdəkinə nisbətən indi ən yüksək səviyyədədir və bu bizim arzularımıza, yəni Azərbaycanın xarici siyasət prinsiplərinə tam uyğundur. Şadam ki, burada da aramızda tam anlaşma var, mən Rusiyanın və xüsusən Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana münasibətində çox mühüm dəyişikliklər olduğunu hiss edirəm.

Biz Rusiyaya onun qarşısında hələ də duran bütün mübahisəli məsələləri uğurla həll etməyi arzulayırıq. Problemlər və məsələlər çoxdur. Bayaq dediyim kimi, biz hadisələrin gedişini dostcasına, çox diqqətlə izləyirik, təcrübənizi öyrənməyə çalışırıq. Biz hesab edirik ki, Vladimir Vladimiroviç Putin Rusiyada prezident seçildikdən sonra elə bir dövr başlamışdır ki, indi bütün bu çətin, mürəkkəb məsələlər Rusiya Federasiyası xalqlarının rifahı naminə, regionumuzda sülhün və təhlükəsizliyin möhkəmlənməsi naminə daha tez, daha uğurla həll olunacaqdır. Mən bu gün bu bayrama, bax, belə hisslərlə, böyük sevinc hissləri ilə gəlmişəm. Sizi təbrik edirəm və bütün rusiyalılara, Rusiya Federasiyasının bütün xalqlarına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Rusiyada demokratik dəyişikliklərin həyata keçirilməsində yeni-yeni uğurlar arzulayıram, özümə dost bildiyim Rusiya prezidenti Vladimir Vladimiroviç Putinə uğurlar və nailiyyətlər diləyirəm.

Hörmətli xanımlar və cənablar, bu böyük bayram münasibətilə sizi bir daha təbrik edirəm. Bütün rusiyalılara səmimi-qəlbdən cansağlığı, firavanlıq arzulayıram.

**N i k o l a y  R y a b o v** (*Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfiri*):Sizə xoş sözlərə görə təşəkkür edirəm, cənab Prezident.

Şübhəsiz ki, Vladimir Vladimiroviç Putin Sizi özünə dost bilməkdən xoşbəxtdir. Siz bunu yaxşı bilirsiniz. O, müdrikliyinizə görə, ardıcıllığınıza görə, prinsipiallığınıza görə, səmimiliyinizə görə MDB-nin rəhbərləri arasında yəqin ki, heç kimə Sizə bəslədiyi qədər hörmət bəsləmir. Heydər Əliyeviç, xoş arzularınıza görə sağ olun.

**İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏHƏD QƏZAİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*13 iyun 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən, birincisi, sizdə son prezident seçkiləri keçirilməsi münasibətilə sizi təbrik edirəm. Mən hörmətli cənab Xatəmiyə öz təbrik məktubumu göndərdim. Bilirsiniz. Ancaq indi səfirlə görüşərkən də təbrik edirəm. Çox məmnunam ki, orada namizədlər çox olubdur. Doğrusu, mən onları tanımıram. Ancaq ağayi Xatəmi əvvəlki prezidentliyi dövründə çox işlər görübdür. Görünür ki, xalqın hörmətini, rəğbətini qazandı. Ona görə də xalqın əksəriyyəti ona səs veribdir. Mənim üçün çox xoşdur ki, indi bizim aramızda yaxşı şəxsi əlaqələr yaranıbdır. Mən inanıram ki, onun indiyə qədərki fəaliyyəti zamanı olduğu kimi, bundan sonrakı fəaliyyəti dövründə də İran–Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün biz birgə iş görə bilərik və çox iş görə bilərik.

**Ə h ə d  Q ə z a i:** Çox sağ olun. Sizin təbrikiniz birinci təbriklərdən idi ki, ağayi Xatəmi prezident seçiləndən sonra ona çatdı. Təbrikə görə çox sağ olun. İnşallah, qismət olar ki, cənab Xatəminin bu dövrdə İranda birinci qonağı cənab Heydər Əliyev olar.

**H e y d ə r  Ə l i y e v:** Ola bilər.

**Ə h ə d  Q ə z a i:** Ondan sonra yeni prezidentlik dövründə ağayi Xatəminin də ilk səfəri Azərbaycana olar. Qardaş və yaxın qonşu ölkələr kimi, aramızda əlaqələr davam edir. Mən təşəkkür edirəm ki, Siz öz məhəbbətinizi, münasibətinizi göstərdiniz. Keçən bir neçə ay ərzində gözlədiyimiz o idi ki, Siz İrana səfər edəcəksiniz, bu da münasibətlərin geniş inkişafına səbəb ola bilər. Əlbəttə, iqtisadi-ticarət münasibətləri və siyasi münasibətlər addımbaaddım qabağa gedir. Bu cəhətdən həmişə çalışırıq ki, ölkələrimiz arasında, insanlar arasında işgüzarlıq artsın. İranlı tacirlərimiz, investisiya gətirənlərimiz Azərbaycanda böyük işlər görürlər və çalışırlar. Amma İranın imkanları daha artıqdır. Yəqin ki, bunu özünüz məndən də yaxşı bilirsiniz. Əminəm ki, gələcəkdə bu əlaqələr daha da yaxşılaşacaqdır. Sizin dəstəyinizlə İranın təcrübəsindən, imkanlarından Azərbaycanda da istifadə olunacaqdır. İran indi Azərbaycanda ehtiyac duyulan işləri görməyə hazırdır. İran Azərbaycanda yollar çəkilməsinə yaxşı kömək edə bilər. Mən bu sahədə İrandan bir neçə şirkətlərin – özəl, dövlət şirkətlərinin nümayəndələrini buraya gətirmişəm. Onlar baxıblar, işləməyə hazır olduqlarını bildiriblər. İnşallah, gələcəkdə bu münasibətlər, əlaqələr daha da yaxınlaşacaq və bu imkanlardan istifadə edərək bir-birimizdən faydalanacağıq.

Prezident seçkilərini izləmək, seçkilərə nəzarət etmək üçün İrana bütün dünyadan gəlmişdilər.

**H e y d ə r  Ə l i y e v:** Gəlmişdilər?

**Ə h ə d  Q ə z a i:** Bəli, mətbuat nümayəndələri də gəlmişdilər. Hətta Azərbaycandan da bir televiziya kanalından gəlmişdilər. Biz elan etmişdik ki, kim istəyir, gəlsin. İmkan yaratmışdıq. Amma təkcə «Lider» kanalından gəldilər. Dünyanın 35 ölkəsindən gəlmişdilər. Seçkilərin necə keçdiyini özləri gördülər və bütün dünyaya yaydılar. Bu seçkilərdə ən fəal iştirak edən gənclər oldu. Seçkilər göstərdi ki, nüfuzu, ötən dövrə nisbətən cənab Xatəmini dəstəkləyənlər daha da artmışdır. Seçicilərin 78 faizi Xatəmiyə səs verdi. Bu özü göstərdi ki, camaat prezidentdən islahat istəyir. Artıq inqilabın 22 ili tamam olur. İndi cavanlar, yeni nəsillər o şəxsə səs verirlər ki, onların istədiklərini yerinə yetirsin. Ağayi Xatəmi də yeni prezidentlik müddətində əvvəl seçdiyi siyasətin istiqamətini yeni səviyyədə təqdim etdi. O öz fikrini həyata keçirirdi. Məqsədi o idi ki, islahat olsun və gərək hökumət xalqın istəyinə əhəmiyyət versin, onların istəyi ilə irəliyə getsin. Bu fikirlərinə görə yenə ona yüksək səviyyədə səs verdilər və yenidən prezident seçildi. İnşallah, özünüz yaxından görüşüb söhbət apararsınız.

**H e y d ə r  Ə l i y e v:** İndi yeni mərhələ başladı.

**Ə h ə d  Q ə z a i:** Cənab Prezident, bizim qanunumuza görə, prezidentlik müddəti seçkidən bir ay sonra qurtarır. Hələ prezident bir ay əvvəlki kimi işləyir. Əgər başqası seçilsəydi, prezidentliyi bir aydan sonra təhvil verəcəkdi.

**H e y d ə r  Ə l i y e v:** Amma o prezident idi, indi prezidentliyini aparır.

**Ə h ə d  Q ə z a i:** Bəli. Qanunumuza görə, seçkidən bir ay sorna dəyişikliklər olur.

**H e y d ə r  Ə l i y e v:** Amma  indi nə dəyişiklik?

**Ə h ə d  Q ə z a i:** Bəli, dəyişiklik olmayacaq, ancaq gərək səkkizinci dövr üçün ona yenidən prezidentlik səlahiyyəti təqdim olunsun.

**H e y d ə r Ə l i y e v:** Yəqin ki, ali rəhbərin fərmanı olsun.

**Ə h ə d Q ə z a i:** Bəli, fərman olur.

**H e y d ə r Ə l i y e v:** Onun da bir ay vaxtı var.

**Ə h ə d Q ə z a i:** Bəli, bir ay vaxtı var.

**H e y d ə r Ə l i y e v:** Təbiidir, bir halda ki, xalq səs veribdir…

Bizim əlaqələrimizdə çox məsələlər var, həm İran tərəfi, həm bizim tərəfimiz hazırdır ki, bunları həll edək. Birincisi, iqtisadi məsələlərdir. Biz əməkdaşlığımızı çox genişləndirməliyik və imkanlar da çoxdur.

Yəqin ki, siz bilirsiniz, bu yaxınlarda Rusiyanın yollar naziri Aksyonenko buraya gəlmişdi. Mənə söylədi ki, Rusiya ilə İran arasında və Hindistan arasında müqavilələr imzalanmışdır ki, şimaldan cənuba qədər bir dəmir yolu xətti çəkilsin. Mən onu keçmişdən tanıyıram. Çünki mən Moskvada Baş nazirin birinci müavini olanda nəqliyyat işlərinə də, dəmir yoluna da baxırdım. Mən o vaxt onu vəzifəyə təyin etdim. Nazir vəzifəsinə yox, amma Leninqrad Dəmir Yolu İdarəsinin rəisi vəzifəsinə təyin etmişdim. Ona görə də şəxsi tanışlığımız da var idi. Onun mənə verdiyi məlumatlar televiziyada verildi. Yəqin ki, siz bilirsiniz. Hesab edirəm ki, çox maraqlı idi. Mən onunla bir az zarafat da etdim. Dedim, yaxşı, siz İran ilə müqavilə bağlayırsınız, Hindistanla müqavilə bağlayırsınız, bəs ortada Azərbaycan var. Bunu Azərbaycansız edə bilməzsiniz. Dedi, əlbəttə ki, Azərbaycansız edə bilmərik, amma biz bilirik ki, Azərbaycan buna etiraz etməyəcəkdir. Mən dedim, etiraz etmirəm.

Həqiqətən, əgər bu, ciddi bir proqram kimi həyata keçirilsə, çox əhəmiyyəti olacaqdır. Həm İran üçün, həm Rusiya üçün, həm Avropa üçün, həm də Hindistan üçün. Məsələn, görürsünüz, heç bizim xəbərimiz olmadan belə bir plan tərtib etmisiniz. Yəni Azərbaycan ilə İran arasında coğrafi vəziyyət elədir ki, İranın şimal tərəfindən əlaqələri Azərbaycansız ola bilməz. Azərbaycanın da cənub tərəfindən əlaqələri İransız ola bilməz. Biz bunları da nəzərə almalıyıq və imkanlardan istifadə etməliyik.

Amma təkcə bu deyil, bir neçə başqa məsələlər də var. Onlar keçmişdə bir neçə dəfə müzakirə olunub, ancaq hələ ki, öz həllini tapmayıbdır.

Bizim müştərək iqtisadi komissiyanın Azərbaycan tərəfdən həmsədri bu yaxınlarda təyin olunacaqdır. Gərək onlar bu işi bir az irəliyə aparsınlar, o cümlədən bizim başqa təşkilatlar vasitəsi ilə də. Xarici İşlər Nazirliyindən mənə məlumat verdilər ki, qarşılıqlı səfərlər nəzərdə tutulub. Hesab edirəm, bunları da etmək lazımdır. Nəhayət, gərək imkan verəsiniz ki, İranı mən də ziyarət edim.

**Ə h ə d Q ə z a i:** İnşallah, gözləyirik.

**H e y d ə r Ə l i y e v:** Ona görə ki, işlərimiz çoxdur. İndi hörmətli cənab Xatəmi də yenidən xalqın dəstəyini alandan sonra, hesab edirəm ki, bu işlərə vaxtında müdaxilə edəcəkdir. Mənim isə bu barədə mövqeyimi bilirsiniz. Bunları edəcəyik. Hesab edirəm ki, İran–Azərbaycan əlaqələri bütün sahələrdə inkişaf etməlidir. Bu bizim üçün öncül bir sahədir.

İranla həm tarixi əlaqələrimiz, həm coğrafi əlaqələrimiz, həm də şəxsi əlaqələrimiz var. Bizim İranla nə qədər uzun sərhədimiz var. Başqalarını demək istəmirəm. Bunlar hamısı məlumdur. Belə bir görüşdə buna ehtiyac yoxdur. Bütün bunlar bizim əlaqələrimizin daha da genişlənməsinə imkan yaradır.

İranda müxtəlif islahatların keçirilməsi bizi çox sevindirir. Təbiidir ki, hər ölkənin öz xüsusiyyətlərinə uyğun olan islahatlar keçirilməlidir. Dünyada iki ölkə tapa bilməzsən ki, onlar bir-birilə tam eyni olsunlar. Yəni, bizdə bir söz var, əkiz olsun. Qətiyyən tapmaq mümkün deyil. Ancaq təəssüf ki, bəzən ayrı-ayrı dairələrdə, dünyanın beynəlxalq təşkilatlarında hesab edirlər ki – biz buna ştamp deyirik ki – bu ştampı buna da vurmaq olar, ona da vurmaq olar, o birisinə də vurmaq olar. Mən həmişə bunun əleyhinə çıxmışam, bu gün də bunun əleyhinəyəm. Məsələn, Azərbaycanın öz xüsusiyyətləri var.

Biz Avropa Şurasına daxil olmuşuq. Ancaq Azərbaycanın xüsusiyyətləri nəzərə alınmalıdır, Azərbaycanın keçdiyi yol nəzərə alınmalıdır, milli-mənəvi dəyərlər, xalqın mentaliteti nəzərə alınmalıdır. O cümlədən İran. İndi İranda keçirilən islahatlar, təbiidir ki, ilk dəfə olan islahatlardır. Hesab edirəm ki, bu, İran üçün böyük tarixi hadisədir. Ancaq bunu İran özü bildiyi kimi etməlidir. Heç kəs xaricdən diktə etməməlidir ki, sən bunu belə et, onu belə et.

Ümumiyyətlə, o prinsip ki, var, heç bir ölkə başqa bir ölkənin daxili işinə qarışmamalıdır, bu, dünyanın beynəlxalq hüquq normalarının əsas, təməl prinsiplərindən biridir. Belə olan halda həm dövlət quruluşunu, həm islahatlarını, həm də başqa işlərini gərək hərə özü müəyyən etsin. Hesab edirəm ki, İran son illər bu sahədə irəliləyibdir, islahatlar həyata keçirilir. Güman edirəm, bundan sonra da keçiriləcəkdir. Cənab Xatəmiyə 78 faiz səs verilməsi onu göstərir ki, əhalinin əksəriyyəti bu islahatların tərəfdarıdır. Çünki cənab Xatəmi İranda islahatçı prezident kimi tanınıbdır. Bizim bu barədə də mövqelərimiz bir-birinə çox yaxınlaşır və şərait yaradır ki, bütün sahələrdə əlaqələrimiz daha da genişlənsin, daha da inkişaf etsin. Bizim əlaqələrimizdə əsas prinsip ondan ibarətdir ki, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır, sərhədlərinin toxunulmazlığını tanıyır və Azərbaycanın daxili işlərinə qarışmır. Azərbaycan da İranın böyük bir dövlət kimi, həm ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, həm də suverenliyini tanıyır. İranın daxili işlərinə qarışmır və qarışmayacaqdır. Bu prinsip bizim ölkələrimiz üçün çox vacib bir prinsipdir. Bu həm İran üçün vacibdir, həm də Azərbaycan üçün vacibdir. Hesab edirəm ki, biz bu prinsip əsasında bundan sonra da əlaqələrimizi inkişaf etdirəcəyik.

**Ə h ə d  Q ə z a i:** Cənab Prezident, çox sağ olun. Sizin söylədiyiniz bütün sözlər həqiqətdir. Cənab Xatəminin xarici işlər barəsində siyasəti ondan ibarətdir ki, biz gərək bütün dünya ilə münasibətlərimizi yaxşılaşdıraq.

Amma onların içərisində qonşular birinci yerdədir. Xüsusən müsəlman ölkə olan Azərbaycan. Mən buraya gəlməmişdən əvvəl gedib cənab Xatəmi ilə görüşmüşəm. O mənə yenə də təkid etdi ki, Azərbaycanın xüsusi yeri vardır. Bizimlə qonşudur, qardaş müsəlman ölkəsidir və ona görə də gərək münasibətlərimizi bundan yaxşı edək.

Cənab Prezident, Xatəmi prezidentliyi dövründə xarici siyasətdə İranın mövqeyini xeyli nümayiş etdirdi. Artıq bir neçə xarici ölkələr İranla münasibətlərini genişləndirirlər. İranın beynəlxalq səviyyədə mövqeyi getdikcə yüksəlir. Prezident Xatəmi birinci dəfədir dünya səviyyəsində danışıqlar, görüşlər keçirir.

İndi başqa dinlər arasında da danışıqlar gedir. Gərək bəşəriyyət problemlərini danışıqla, dərk etməklə, düşünməklə həll etsin, dövlətlər yaxınlıq axtarsınlar. Hətta bu gün islam dini ilə başqa dinlər arasında yavaş-yavaş anlaşıqlıq yaranır. İslam dini də, məsihi də ilahi dinlərdir. Bu cəhətdən dünyada indi fikir dəyişikliyi yaranıbdır. Bunlar hamısı prezident Xatəminin böyük dünyəvi fikridir ki, insanlar arasında münasibətləri yaxınlaşdırır. Əminəm ki, biz çalışacağıq, heç olmasa, yaxın qonşularla bir-birimizi başa düşək.

Cənab Prezident, Rusiya ilə İran arasındakı müqavilə barədə danışdınız. Bu çox düzgündür. Ona görə ki, indi Şərqlə Qərb arasında yük aparmaq, yük daşımaq yolları axtarılıbdır. Amma Şimalla Cənub arasında yol İran ilə Azərbaycandan keçməlidir.

**H e y d ə r  Ə l i y e v:** Ancaq.

**Ə h ə d  Q ə z a i:** Bu həm İran üçün, həm də Azərbaycan üçün böyük mövqedir. Bunun üzərində çoxdan iş gedirdi və müzakirə olunurdu. Amma əməli sürətdə indi üzə çıxıbdır. Azərbaycan bu müqaviləyə qoşularkən bu iş təkmilləşəcəkdir. Azərbaycandan Astaraya kimi dəmir yolu vardır. Biz gərək Astaradan Qəzvinə, oradan da Fars körfəzinə kimi yeni xətt çəkək. Yük bilavasitə Avropadan və Rusiyadan Fars körfəzinə gedəcəkdir və bu da yükdaşımanın müddətini bir həftə yaxınlaşdıracaqdır. Bunun iqtisadiyyatda böyük mənası vardır. Yəni yükün Avropadan Asiyaya getməsi bir həftə tezləşir. Bu, iqtisadiyyatda böyük dəyişikliklər yaradır.

**H e y d ə r  Ə l i y e v:** Bir həftə yaxınlaşır, nə qədər də ucuzlaşır.

**Ə h ə d  Q ə z a i:** Bəli, həmin yaxınlaşma onun qiymətinə təsir edir. Ona görə də bunu Rusiya da, Hindastan da istəyir. Yüklərin Şimaldan Cənuba getməsi bu ölkələrə imkan yaradır ki, iqtisadi cəhətdən mübadilə etsinlər. Bu, Azərbaycan və İran üçün də əhəmiyyətlidir.

Cənab Prezident, mən Sizin çıxışınızı eşitdim və çox sevindim ki, Siz buna şəxsən maraq göstərirsiniz və tapşırıq vermisiniz. İnşallah, biz də öz vəzifəmizi yerinə yetirib, bunu sürətlə başa çatdıracağıq.

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, bu layihə yeni bir şey deyil. Bir neçə il bundan öncə bu məsələni İran da, biz də qaldırmışdıq. Rusiya bizimlə bu barədə danışıqlar aparmışdı. Amma nədənsə, o vaxtlar bu, irəliyə getmədi. Amma çox təəssüf olsun, biz vaxt itirdik. Bilirsiniz, əgər 3-4 il bundan öncə bu layihə, bu fikir meydana çıxmışdısa, biz bunu başlasaydıq, indi artıq bu yol işləyirdi.

Biz Şərqlə Qərbi, İpək Yolunu bərpa etdik. Bu çox lazımdır. Bunun da çox böyük əhəmiyyəti vardır. Amma bu, Şimal–Cənub yolunu əvəz etmir. Qətiyyən əvəz etmir. Amma eyni zamanda, Kürreyi-Ərzin bu hissəsi ki, var, yollar burada kəsişir. Təbiidir ki, əgər İpək Yolu yaransa, Çindən, yaxud Yaponiyadan Avropaya yüklər daha da qısa müddətdə, ucuz gedəcəkdir və bundan bütün ölkələr xeyir götürəcəklər. Çin, yaxud Yaponiya bu yükləri başqa yerdən apara bilməz. Amma Avropanın böyük bir hissəsi təkcə Şərqlə yox, Cənubla da iqtisadi əlaqələr qurmaq istəyir. Təkcə Rusiya deyil, Avropa ölkələri. Məsələn, Finlandiyadan, digər Skandinaviya ölkələrindən tutmuş, ta bu tərəfə qədər.

Buradakı yolun bərpası daha da asandır. Çünki burada dəmir yollarının çoxu mövcuddur. İndi Rusiyadan Azərbaycana gələn dəmir yolu çox yaxşı vəziyyətdədir. Azərbaycanda Lənkərana, Astaraya qədər dəmir yolu vardır. Təbiidir ki, o, gərək müəyyən qədər təmir olunsun. Biz o vaxtlar bu məsələni qaldıranda İran tərəfində çətinlik əmələ gəldi ki, Qəzvin ilə Astara arasında təxminən 350 kilometr yol çəkmək lazımdır. Təbiidir ki, bunu İran öz ərazisində çəkməli idi. Amma yəqin ki, o vaxt imkanı yox idi. Ancaq İran dövlətli ölkədir, gərək tapaydı. Amma indi fikir yaranıbdır ki, bəli, bu, lazımdır. Bu, təkcə İran üçün lazım deyil. İrandan o tərəfə Hindistan üçün lazımdır, Fars körfəzi sahilləri üçün lazımdır. Ona görə mən bunu bəyənmişəm.

Mənə Rusiyanın naziri Aksyonenko dedi ki, dəmir yolunun tikilməsi haqqında guya İranda artıq 2002-ci ilin büdcəsinə müəyyən vəsait ayrılıbdır. Bu da çox yaxşı haldır. Ancaq mən ona dedim, sizə də deyirəm, gərək burada, bizim ərazimizdə olan problemləri də həll edək. Çünki birincisi, bilirsiniz ki, bizim dəmir yolunun Astaradan sərhədə qədər çatması üçün 7 kilometr yol çəkilməlidir. Sonra gərək yeni dəmir yolu körpüsü salınsın. Başqa bir neçə problem də var. Bunlar xırda problemlərdir. Əsas odur ki, layihə meydana çıxıbdır və bütün ölkələr bu layihəni dəstəkləyir.

Dediyim kimi, başqa problemlər də var. Yəni iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün. Onların bir çoxu 7-8 ildir müzakirə olunur, amma həll olunmur. Güman edirəm, vaxt gəlib çatıb ki, bunları da həll edək.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC BUŞA**

Əziz cənab Prezident!

Bakıda keçirilən «Xəzər neft, qaz, neftayırma və neft kimyası VIII beynəlxalq sərgi və konfrans» münasibətilə mənə göndərdiyiniz məktuba görə Sizə təşəkkür edirəm.

Haqlısınız ki, artıq ənənə halını almış bu konfransın Bakıda keçirilməsi və onun işində dünyanın müxtəlif ölkələrini təmsil edən çoxsaylı şirkətlərin iştirak etməsi ölkəmizi Xəzər regionunda enerji sahəsinə qoyulan investisiyaların mərkəzinə çevirmişdir.

Məmnunam ki, enerji sektorundakı əməkdaşlığımız uğurla davam edir. Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz ehtiyatlarının işlənilməsində və ixrac olunmasında Amerika şirkətləri xüsusi yer tutur. Azərbaycanda indiyə qədər imzaladığımız 21 neft müqaviləsinin 12-də Amerikanın 9 nəhəng enerji şirkəti fəal iştirak edir, iqtisadiyyatımızın müxtəlif sahələrində 100-dən çox digər Amerika şirkətləri və birgə müəssisələri müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Təkcə «Əsrin müqaviləsi» üzrə layihədən Amerika şirkətləri indiyə kimi yarım milyard dollara qədər mənfəət əldə ediblər. Bütün bunlar böyük işlərin yalnız başlanğıcıdır.

Mən Şərq–Qərb enerji-nəqliyyat dəhlizinin Azərbaycan və bütün regionumuza gətirəcəyi faydalar barədə Sizin fikirlərinizlə də tamamilə razıyam. Ümidvaram ki, Siz və rəhbərlik etdiyiniz administrasiya regionumuzun iqtisadi çiçəklənməsində və region dövlətlərinin azadlığının və suverenliyinin möhkəmləndirilməsində olduqca böyük əhəmiyyət kəsb edən bu nəhəng layihələrin həyata keçirilməsində bundan sonra da öz köməyinizi əsirgəməyəcəksiniz.

Mən Azərbaycanın tezliklə güclü, sabit və dinamik inkişaf edən iqtisadiyyata malik bir dövlət olacağına qəti əminəm. Bunun üçün ölkəmizə sərmayə qoymaq istəyən xarici şirkətlərdən ötrü əlverişli şərait yaratmaq məqsədi ilə biz bundan sonra da əlavə tədbirlər görəcək, apardığımız məqsədyönlü islahatları davam etdirəcəyik.

Ümid edirəm ki, biz bütün regionun inkişafına əngəl olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Sizin köməyinizlə sülh yolu ilə həll edilməsinə də nail ola biləcəyik. Bir daha Sizə bildirirəm ki, mən xalqımızın, dövlətimizin və regionumuzun gələcəyini düşünərək, sülhün, əmin-amanlığın bərqərar olunmasının bütün regionun dirçəlişinə və xalqlarımızın firavan yaşamasına necə böyük və müsbət təsir edəcəyini gözəl anlayaraq lazımi addımlar atmağa hazıram. Lakin bunun üçün gərək Ermənistan rəhbərliyi də konstruktiv mövqe tutaraq qarşılıqlı addımlar atsın.

Cənab Prezident!

Məktubunuza görə Sizə bir daha təşəkkür edirəm. Sizi əmin edirəm ki, biz Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı çoxtərəfli, qarşılıqlı surətdə faydalı siyasi, iqtisadi əlaqələrin genişləndirilməsinə, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə daim sadiq qalacağıq və bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

*Dərin hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 iyun 2001-ci il*

## MDB ÖLKƏLƏRİ – BELARUS, QAZAXISTAN, QIRĞIZISTAN, GÜRCÜSTAN, MOLDOVA, RUSİYA, TACİKİSTAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN İŞLƏR İDARƏLƏRİ MÜDİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN GÖRÜŞ* İŞTİRAKÇILARI İLƏ SÖHBƏT

*Prezident sarayı*

*14 iyun 2001-ci il*

**Qalina Juravkova** (*Belarus Respublikası Prezidentinin İşlər İdarəsinin müdiri*): Cənab Prezident, icazə verin ölkənizdə iyunun 15-də qeyd olunan bayram – Azərbaycan xalqının Milli Qurtuluş günü münasibətilə görüş iştirakçıları adından Sizə gül-çiçək dəstəsi təqdim edim və qarşıdakı bayram münasibətilə təbriklərimizi bildirim.

**Heydər Əliyev:** Mən sizi Azərbaycanda ürəkdən salamlayıram. Mən bilən, bu görüş MDB-yə daxil olan ölkələrin prezidentlərinin işlər idarələri müdirlərinin Azərbaycanda toplaşdıqları ilk görüşdür. Bu, yaxşı işdir. Bilirəm ki, belə görüşlər başqa respublikalarda da keçirilmişdir. Görünür, indi növbə Azərbaycana çatmışdır. Sizin də müəyyən dərəcədə öz təşkilatınızı yaratmağınız çox yaxşıdır. Çünki MDB ölkələri arasında bütün məsələlərdə, bütün istiqamətlərdə təcrübə mübadiləsi vacibdir.

Keçmişdə biz hamımız bir dövlətin tərkibində idik və hamımız eyni qaydalarla yaşayırdıq. Demək olar, on ildir müstəqil dövlətlərik, buna baxmayaraq, keçmişdən də çox şey qalmışdır, yenidən də nə isə götürmək lazımdır. Bu strukturların başqa ölkələrdə – mən keçmişdə də azad, müstəqil olmuş ölkələri nəzərdə tuturam – necə fəaliyyət göstərdiklərini bilmirəm, amma MDB çərçivəsində təcrübə mübadiləsi, şübhəsiz, gərəkdir.

Dövlət başçıları olaraq biz indi müntəzəm surətdə görüşürük, Baş nazirlər, xarici işlər nazirləri, digər idarələrin başçıları səviyyəsində görüşlər keçirilir. Deməli, buna zərurət var. Mən iş planınıza, görüşünüzün gündəliyinə, müzakirə və qəbul etməyi nəzərdə tutduğunuz sənədlərə baxdım. Hesab edirəm ki, bütün bu işlər çox düzgün istiqamətdədir. Biz bir-birimizə kömək etməliyik.

Əlbəttə, burada əyləşənlər arasında bu xidmətin veteranı da var – o, Gürcüstan Prezidentinin İşlər İdarəsinin müdiridir. Onu 70-ci illərdən, mən burada, Azərbaycanda, Eduard Amvrosiyeviç Şevardnadze isə Gürcüstanda KP MK-nın birinci katibi işlədiyimiz vaxtlardan xatırlayıram. Biz bir-birimizə qonaq gedib-gəlirdik, görüşürdük. Şevardnadzenin respublikadan kənarda olduğu vaxtlarda sizin bu vəzifədə işləyib-işləmədiyinizi bilmirəm. Lakin bizim Azərbaycanda dəyişikliklər baş verdi, çünki mən Moskvaya işləməyə getdikdən və beş il sonra bütün vəzifələrdən istefa verdikdən sonra Azərbaycanda çox böyük dəyişikliklər oldu.

Güman etmirəm ki, siz Qamsaxurdianın da vaxtında İşlər İdarəsinin müdiri işləmisiniz. Belə ki, yeni adamların yeni kadrları olur. Əslinə qalsa, onların bəziləri keçmişdə bu vəzifədə də və ya digər əlaqədar vəzifələrdə də təcrübə toplamışlar, bəziləri isə təzədir. Ona görə də görüşmək, təcrübə mübadiləsi aparmaq, bir-birinə kömək etmək zəruridir.

Azərbaycanda toplaşdığınıza görə məmnun olduğumu bir daha bildirirəm. Belə başa düşürəm ki, siz artıq işləmisiniz, şəhərimizlə tanış ola biləcəksiniz. Bütün bunlar şəhərimizlə tanış olmayanların və ya buraya çoxdan gəlməyənlərin xeyrinədir və görüşün hər bir iştirakçısının xeyrinədir.

**Vladimir Kojin** (*Rusiya Federasiyası Prezidentinin İşlər İdarəsinin müdiri*): Qonaqpərvərliyə görə Sizə və Azərbaycan Prezidentinin İşlər İdarəsinə şəxsən öz adımdan və bütün həmkarlarımın adından təşəkkür etmək istərdim. Bakıda keçirilən görüşümüz heç də, sadəcə olaraq, növbəti, üçüncü görüş deyildir. Təmtəraqlı sözlər işlətmək istəməzdim, lakin biz bir növ məsləhətləşərək belə qərara gəldik ki, bu, tarixi görüşdür. Çünki bir az öncə, bir saat əvvəl biz «MDB Ölkələri Prezidentlərinin İşlər İdarələri Müdirlərinin Şurası haqqında Əsasnamə» adlı sənədi birlikdə bəyəndik. Odur ki, indi biz həm de-fakto, həm də de-yure mövcuduq və bu, Bakıda, qonaqpərvər Azərbaycan torpağında baş verdi. Zənnimcə Siz ən başlıca cəhəti xatırladaraq bildirdiniz ki, ümumi köklər olduqca çoxdur, olduqca çox şeylər keçmişlə bağlıdır və bu gün təcrübəmiz göstərir ki, əməkdaşlığımız, sadəcə, zəruridir. Mən bu gün də dedim ki, bizim nümunə götürməyimiz üçün adamlar var – biz prezidentlərimizdən nümunə götürə bilərik. Bir halda ki, siz toplaşaraq indi bu məkanın qarşılaşdığı ən mürəkkəb, ən çətin vəzifələri və problemləri həll edirsiniz, onda biz nə üçün toplaşmayaq?! Bizim bir-birimizə kömək etməyə, müxtəlif sahələrdə əməkdaşlıq etməyə imkanımız var və bunların hamısını fəal surətdə həyata keçirmək niyyətindəyik. Bu gün biz bu əməkdaşlığın hüquqi təməlini qoyduq.

* Görüşdə Monqolustan Prezidentinin İşlər İdarəsinin müdiri U.Enxtuvşin də iştirak edirdi.

Zənnimcə, görüşümüzün çox vacib olduğunu söyləsəm, həmkarlarım məni dəstəkləyərlər. Amma ən başlıcası budur ki, indi biz məhz ən səmərəli əməkdaşlığa başlamaq niyyətindəyik. Elə bu məqsədlə toplaşırıq.

Bizi qonaqpərvərliklə, çox mehribanlıqla qarşıladıqlarına görə, tədbirlərimizin səmimilik şəraitində keçdiyinə görə həmkarımıza – sizin İşlər İdarənizin müdirinə də, Prezidentin İşlər İdarəsinin bütün kollektivinə də bir daha dərin minnətdarlığımızı bildirmək istərdim.

**H e y d ə r Ə l i y e v:** Nə deyirəm, çox xoşdur.

**İ r a k l i A n d r i a d z e** (*Gürcüstan Prezidentinin Dövlət Təminatı Xidmətinin rəisi*): Çox hörmətli cənab Prezident Heydər Əliyeviç, bizi qəbul etməyə vaxt tapdığınıza görə çox sağ olun.

İcazə verin, sadiq dostunuz Eduard Şevardnadzedən Sizə qardaş salamı yetirim. Fürsətdən istifadə edərək demək istəyirəm ki, biz bir-birimizi 30 ildən çoxdur tanıyırıq. Bu mənim sözlərim deyildir. Onları bir həftə əvvəl Yaltada məhz Siz söylədiniz. İcazə verin, Sizin tarixinizin bəzi məqamlarını xatırladım.

Mən 1969-cu ili yadıma salıram. O vaxt siz Azərbaycan KP MK-nın birinci katibi oldunuz və dərhal xalq təsərrüfatının müxtəlif sahələrində – təkcə kənd təsərrüfatında, sənayedə deyil, bir çox digər sahələrdə də islahatlar aparmağa başladınız. Özü də Siz qısa bir müddətdə nəinki Cənubi Qafqazda, həm də bütün Sovet İttifaqında böyük nüfuz qazandınız. Mən 1976-cı ilin yanvarını xatırlayıram. Səhv etmirəmsə, onda Sov.İKP MK plenumu Sizi Siyasi Büro üzvlüyünə namizəd seçdi.

**H e y d ə r Ə l i y e v:** Siz səhv etmirsiniz.

**İ r a k l i A n d r i a d z e:** Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməniz və Siyasi Büronun üzvü seçilməniz də yadımdadır. İşləmədiyiniz vaxtları da xatırlayıram. Belə vaxtlar da olmuşdur. Amma Siz öz xalqınızı, öz ölkənizi heç zaman unutmadınız. Xatirimdədir, Siz bu barədə həmişə düşünürdünüz, bu istiqamətdə işləyirdiniz. Nəhayət, Azərbaycan Respublikasının Prezidenti olduğunuzu da, bu vəzifəyə 1998-ci ilin oktyabrında ikinci dəfə seçildiyinizi də xatırlayıram. Allah Sizə möhkəm cansağlığı, xoşbəxtlik versin.

Siz təkcə doğma Azərbaycanınız üçün deyil, bütün Cənubi Qafqaz üçün də çox işlər görmüsünüz.

Eduard Amvrosiyeviçlə birlikdə gerçəkləşdirməyə başladığınız İpək Yolu layihəsi bütün ölkələr üçün tarixi yola çevriləcəkdir. Sizə həyatda səadət, cansağlığı, dünyanın bütün nemətlərini diləyirəm. Biz Sizi çox sevirik, Sizə böyük hörmətimiz var.

Eyni zamanda demək istəyirəm ki, Siz bu tədbirin Bakıda keçirilməsinə icazə verdiniz. Gələn il onu bizdə, Tbilisidə keçirmək niyyətindəyik. Bu gün demək istəyirəm ki, Akif Şəmsəddinoviç başda olmaqla, Prezidentin İşlər İdarəsi bu görüşü çox yüksək səviyyədə təşkil etmişdir. Sağ olun.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Sağ olun ki, keçmişdəki birgə işimizi xatırlayırsınız. Dostum Eduard Amvrosiyeviç Şevardnadzedən salam yetirdiyinizə görə sağ olun. Mənim də səmimi salamımı və xoş arzularımı ona yetirin.

Gürcüstanla Azərbaycan arasında münasibətlər həmişə mehriban, xoş, qardaşlıq münasibətləri olmuşdur. Amma bu münasibətlər müəyyən bir dövrdə zəiflədi və Eduard Amvrosiyeviç Gürcüstanda rəhbərliyə qayıtdıqdan, bu gözəl xanımın burada dediyi kimi, uzaq səfərdən qayıtdıqdan sonra – bir müddətdən, aradan 11 il ötəndən sonra mən də qayıtdım, o orada prezident oldu, mən də burada – biz artıq müstəqil dövlətlər kimi yeni həyata başladıq. Biz artıq çox işlər görə bilmişik.

Hesab edirəm ki, indi Gürcüstanla Azərbaycan arasında münasibətlər səmimilik baxımından, əməkdaşlıq baxımından nümunəvidir.

İpək Yolunun bərpası da bizim birgə təşəbbüsümüzdür və artıq onu gerçəkləşdirməyə başlamışıq. Biz güclü Bakı – Supsa neft kəmərini çəkmişik, siz müəyyən sahəni əhatə etmisiniz, uzunluğu 2 min kilometrdən artıq olan möhtəşəm Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlayırıq. Tezliklə Azərbaycandan Gürcüstan ərazisi ilə Türkiyəyə qaz kəmərinin inşasına başlayacağıq. Qaz Türkiyəyə də gərəkdir, Gürcüstana da. Eləcə də bir çox digər məsələlər. Elə götürək Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan, Gürcüstan vasitəsilə Qara dənizlə və oradan o yana Avropa ilə və əks istiqamətdə birləşdirən Transqafqaz magistralını. Onun təkcə bizim iki ölkə üçün deyil, Mərkəzi Asiya ölkələri üçün də, Şərqi Avropa ölkələri üçün də çox böyük əhəmiyyəti var. İpək yolu qədimlərdə Yaponiyadan başlayaraq İspaniyada qurtarırdı. Bir sözlə, biz bu yolu yaratmağa və bərpa etməyə başlamışıq. Əlbəttə, bunu bir-iki ilə edə bilməzsən. Amma yaxşı bünövrə qoymuşuq və məncə, biz özümüz hələ çox işlər görə biləcəyik. Həyata keçirməyə macal tapmadıqlarımızı isə gələcək nəsillərimiz edəcəklər, çünki bünövrə çox möhkəmdir.

Ona görə də mən sizi burada, Azərbaycanda görməyə çox şadam. Mən hər dəfə Tbilisiyə gələndə sizinlə hökmən görüşürəm, biz dövlət başçılarının görüşləri zamanı da görüşürük və mənə xoşdur ki, siz keçmişi xatırlayır və indini qiymətləndirirsiniz. Sağ olun.

Maraqlıdır ki, İşlər İdarəsi müdirləri arasında qadın da var.

**V l a d i m i r K o j i n:** Bu təsisatın tarixində ilk dəfə olaraq.

**H e y d ə r Ə l i y e v:** Əgər keçmiş Sovet İttifaqı dövrünü götürsək, ilk dəfə. Mən bu vəzifədə qadınlara heç vaxt rast gəlməmişəm. Qadınlar, adətən səhiyyə, maarif, mədəniyyət nazirləri və ya MK-nın təbliğat şöbəsinin müdiri, yaxud Nazirlər Soveti sədrinin mədəniyyət üzrə müavini olurdular. Qadın İşlər İdarəsinin

müdiri – bu, yeni bir hadisədir. Mən bunu alqışlayıram. Görünür, Aleksandr Qriqoryeviç bu məsələdə irəliyə doğru addım atmışdır. Ağıllı, düzgün addımdır. Əlbəttə, mən öz İşlər İdarəmin müdirini qadınla əvəz etmək fikrində deyiləm. Əvvəla, onu dəyişməyə hələ lüzum yoxdur. İkincisi isə, əgər onu harayasa təyin etmək lazım gəlsə, bizdə onu əvəzləyə biləcək qadın yoxdur. Buna baxmayaraq, bu təcrübə çox maraqlıdır.

Xahiş edirəm, mənim səmimi salamımı və ən xoş arzularımı dostlarıma – ölkələrinizin dövlət başçılarına, prezidentlərinə yetirin. Şadam ki, son vaxtlar MDB daha müntəzəm şəkildə, səmərəli işləməyə başlamışdır. İşimiz planlı xarakter daşıyır və hər belə görüş – mən öz təəssüratımdan danışa bilərəm – şübhəsiz, böyük fayda gətirir. Söhbətimizin əvvəlində dediyim kimi, dövlət başçılarının görüşləri və qalan digər səviyyələrdə görüşlərlə yanaşı, bu görüşlərin də keçirilməsi, təbii olaraq, birliyimizi daha da sıxlaşdırır, daha güclü edir və biz də buna çalışırıq.

Əlbəttə, siz çox mühüm bir işi yerinə yetirirsiniz. Prezidentlərin aparat əməkdaşlarının fəaliyyəti üçün, onların səmərəli fəaliyyəti üçün, prezidentlərin özlərinin fəaliyyəti üçün sizin işinizdən çox şey asılıdır. Bir sözlə, bu, faydalı, nəcib işdir və mən sizə bu işdə uğurlar arzulayıram.

Bir daha xahiş edirəm, dostlarıma – prezidentlərə mənim salamımı yetirin. Sağ olun.

## POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSU RƏHBƏRİNİN MÜAVİNİ, NAZİR MAREK DUKAÇEVSKİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT*

*Prezident sarayı*

*15 iyun 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən sizi Azərbaycanda salamlayıram. Burada keçirdiyiniz görüşlər barədə mənə danışdılar. Ümidvaram ki, görüşləriniz səmərəli, uğurlu olmuşdur. Belə düşünürəm ki, sizin Azərbaycana qısa müddətə səfərinizdən məqsəd Polşa ilə Azərbaycan arasında münasibətləri daha da genişləndirməkdir. Ona görə də mən bu səfəri çox mühüm hesab edirəm.

Bizim Polşa ilə və prezident Kvasnevski ilə çox yaxın və səmimi münasibətlərimiz var. Polşa Respublikasının elçilərini qəbul etməyimə şadam.

**M a r e k  D u k a ç e v s k i:** Çox hörmətli cənab Prezident, bizi bu gün – dövlət bayramı günü qəbul etməyiniz mənim üçün şərəfdir. Bilirəm ki, çox məşğulsunuz. Bu imkana görə çox sağ olun. Daxili İşlər naziri, Milli Təhlükəsizlik naziri ilə çox maraqlı görüşlər keçirmək imkanına görə də təşəkkür etmək istərdim. Bu gün Müdafiə naziri ilə də görüşəcəyik. Biz milli təhlükəsizlik problemlərini müzakirə etdik. Prezident Kvasnevski ilə Sizin dostluq münasibətləriniz çox əhəmiyyətlidir. Cənab Kvasnevski xahiş etdi ki, onun salamını və şəxsi məktubunu Sizə çatdırım. Qarşılıqlı maraq doğuran problemləri sizin nazirlərinizlə müzakirə etməyə imkan verdiyinizə görə bir daha çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Dediyim kimi, biz Polşa ilə münasibətlərimizə çox böyük əhəmiyyət veririk. Bu münasibətlər cənab Kvasnevskinin Azərbaycana rəsmi səfəri və mənim Polşaya rəsmi səfərim zamanı imzaladığımız sənədlərdə öz əksini tapmışdır. Mən bu səfəri böyük məmnunluqla xatırlayıram. Səfər çox səmərəli oldu. Biz çox maraqlı görüşlər, söhbətlər keçirdik. Biz cənab Kvasnevski ilə beynəlxalq təşkilatlarda görüşürük, ikitərəfli münasibətlərlə bağlı məsələləri və təbii ki, bütün dünya prosesinə aid olan və Polşanı da, Azərbaycanı da eyni dərəcədə maraqlandıran məsələləri müzakirə etmək və onların barəsində fikir mübadiləsi aparmaq imkanını əldən vermirik.

Mən şadam ki, siz buraya gəlmisiniz, görüşlər keçirmisiniz. Amma çalışmaq lazımdır ki, bu əlaqələr nəinki qırılmasın, əksinə, daim inkişaf etsin. Şadam ki, bizim dövlət xadimləri ilə keçirdiyiniz görüşlərdən, söhbətlərdən razısınız.

**M a r e k  D u k a ç e v s k i:** Cənab Prezident, mən Azərbaycana ilk dəfə gəlmişəm. Bilməzdim ki, Azərbaycanda olduğum vaxtda belə böyük səmimiyyətlə, mehribanlıqla qarşılaşacağam. Biz həmkarlarımızla dialoqu davam etdirməyi qərara aldıq. Sentyabrda bizdə parlament seçkiləri keçiriləcək və ümidvaram ki, bu gün bünövrəsi qoyulan dialoq seçkilərdən sonra da davam etdiriləcəkdir.

* Görüşdə Polşanın Milli Təhlükəsizlik Şurası Departamenti direktorunun müavini Vitold Smedovski də iştirak edirdi.

**TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ
BAŞ QƏRARGAHININ ƏMƏLİYYAT RƏİSİ, KORPUS GENERALI KÖKSAL KARABAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*15 iyun 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Sizin bu günlərdə Azərbaycanda olmağınızdan çox məmnunam. Mən bilirəm ki, siz bu günlər Azərbaycan Silahlı Qüvvələrinin, ordumuzun bəzi hissələrində olmusunuz. Buna görə təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bütün sahələri əhatə edir, Allaha şükürlər olsun ki, bütün sahələrdə inkişaf edir.

Mən bu ilin mart ayında Türkiyədə rəsmi səfərdə olarkən bir çox görüşlər keçirdim. Təbiidir ki, hörmətli prezident Əhməd Necdət Sezərlə, Baş nazir hörmətli Bülənd Ecevitlə, Baş nazirin müavinləri ilə, Baş Qərargah rəisi hörmətli Hüseyn Kıvrıqoğlu ilə və digərləri ilə görüşlər keçirdim. Böyük Millət Məclisində nitq söylədim. Mən orada da, başqa görüşlərimizdə də Azərbaycanın Türkiyə ilə əlaqələrinə nə qədər qiymət verdiyimizi və bu əlaqələrin bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etdim. Yəni, bəlkə bunları təkrar etməyə o qədər də ehtiyac yoxdur. Çünki Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bizim Türkiyə ilə əlaqələrimiz xüsusi xarakter, prioritet xarakter daşıyır. Yəni bu, strateji əməkdaşlıq xarakteri daşıyır. Amma eyni zamanda, bunları vaxtaşırı deməklə, insanlara, cəmiyyətə, millətimizə çatdırmaqla biz bu dostluğu, qardaşlığı daha da möhkəmləndiririk.

Bizim Türkiyə ilə əməkdaşlığımızın bir sahəsi də budur ki, siz artıq bir neçə ildir Azərbaycan Silahlı Qüvvələrinə təlim məsələsində yardım edirsiniz. Mən bunu çox yüksək qiymətləndirirəm. Yəni biz bu sahədə ancaq Türkiyə ilə əməkdaşlıq edirik. Başqa heç bir ölkə ilə bu sahədə əməkdaşlığımız yoxdur. Hesab edirəm ki, sizin həm Baş Qərargah rəisinin, həm də ondan aşağı vəzifələrdə olan, çalışan insanların vaxtaşırı Azərbaycana gəlməsi, buradakı işlərin vəziyyəti ilə tanış olması bizim üçün çox əhəmiyyətlidir. Ona görə təşəkkür edirəm və çox məmnunam ki, siz buradasınız və mən də sizinlə görüşürəm.

**K ö k s a l K a r a b a y:** Hörmətli Cümhur başqanım, sağ olun. Mən bugünkü böyük bayramınızı ürəkdən təbrik edirəm. İnşallah, bu bayram illərlə yaşayacaqdır.

Cənab Prezident, Sizin çox gözəl bir kəlamınız var: Biz bir millət, iki dövlətik. Biz hər şeyi bu şəkildə düşünürük və işbirliyimiz də bu çərçivədə həyata keçirilir.

Mən beş il bundan öncə, Engin Paşa burada attaşe olarkən Bakıya gəlmişdim. Beş ildən sonra, indi Azərbaycanda istər iqtisadi, istər siyasi sahədə, istərsə də silahlı qüvvələrdə çox böyük inkişaf gördüm. Türkiyə və Azərbaycan vətəndaşları Sizin söylədiyiniz kimi, böyük bir millət olaraq, birgə çox gözəl çalışmışlar, böyük inkişaf əldə etmişlər. Türkiyə ilə Azərbaycanın qardaşlığı hər zaman davam edəcəkdir.

Cənab Prezident, mən hörmətli Baş Qərargah rəisimizin salamlarını, hörmət və ehtiramını Sizə çatdırıram. Çox sağ olun.

Mən bizə göstərilən qonaqpərvərlik və səmimi qəbul üçün də Sizə dərin minnətdarlığımızı bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Çox təşəkkür edirəm. Sizin bu fikriniz mənim üçün çox əhəmiyyətlidir. Çünki Azərbaycan bir müstəqil dövlət kimi, gəncdir və ordumuz da, silahlı qüvvələrimiz də gəncdir.

Siz bilirsiniz ki, Azərbaycan keçmişdə Sovetlər Birliyində olanda heç bir cümhuriyyətin – Sovetlər Birliyinə 15 cümhuriyyət daxil idi, o cümlədən Azərbaycan – öz ordusu yox idi. Bir ordu var idi – sovet ordusu. Azərbaycanın da hansı ki, orduda xidmət etmək yaşına çatan vətəndaşları gedib orada xidmət edirdilər. Amma bəzi azərbaycanlılar da hərbi məktəblərdə, akademiyalarda təhsil alıb, sovet ordusunun müxtəlif yerlərində xidmət edirdilər. Biz ildə 60–70 min gənci sovet ordusuna göndərirdik. Onda orduda iki, üçillik xidmət müddəti var idi. Ancaq hərbi ali məktəblərdə oxumaq və peşəkar hərbçi olmaq, xidmət etmək – azərbaycanlılarda buna maraq o qədər də çox deyildi. Məsələn, burada, Azərbaycanda sovet ordusunun bir çox böyük hissələri dururdu. Amma hamısında başqa millətlərin nümayəndələri xidmət edirdi, içində bir-iki nəfər azərbaycanlı var idi.

Məsələn, indi görürsünüz, general Ağahüseynov çox az-az insanlardan biridir ki, o vaxtlar orduda müxtəlif yerlərdə xidmət etmişdir. Sonra da Berlində, Stalinqradda hava hücumundan müdafiə qüvvələrində xidmət edibdir. Sonra mən Azərbaycana rəhbərlik edən zaman dedim ki, bir azərbaycanlı da gəlsin. Ondan öncə bizim həmin o sahə üzrə bir generalımız vardı – Hüseyn Rəsulbəyov, o da burada hava hücumundan müdafiə

qüvvələrində xidmət edirdi. Bunlar çox az idilər. Elə bizim Müdafiə nazirimiz də o azlıqların içində olan bir adamdır ki, gedib Moskvada Hərbi Akademiyanı bitirmişdi, haradasa xidmət edirdi.

Mən o vaxt Azərbaycana rəhbərlik edəndə çox düşünürdüm ki, nə üçün azərbaycanlılardan elm adamları var, mədəniyyət adamları var, alimlər var, mühəndislər var, yəni bütün sahələrdə – sənayedə, başqa sahələrdə çalışan çox dəyərli insanlarımız var, amma orduda yoxdur? Ona görə də çalışırdım ki, bizim Azərbaycanın gənc insanlarını hərbi məktəblərə daha çox cəlb edim. Çünki birincisi, onların özündə o qədər həvəs yox idi. İkincisi, bir neçə çətinliklər də var idi. Hərbi məktəbdə oxumaq üçün gərək rus dilini biləydin. Rus dilini isə bizdə bilənlər çox idi, amma bilməyənlər də çoxdu. Deməli, əgər rus dilini bilmirsə, o, hərbi məktəbə girə bilməzdi. Siz bilirsiniz ki, gərək fiziki hazırlıq olsun. Orada komissiyalar, filanlar baxırdılar. Üçüncüsü də, bəziləri rus dilini az-çox bilirdi, fiziki hazırlığı da var idi, amma bizimkiləri o qədər də qəbul etmirdilər. Mən bu işlərlə çox məşğul olurdum.

İndi mənə dedilər, siz hərbi liseydə, Naxçıvanski adına Hərbi Məktəbdə olmusunuz. Mən onu 70-ci illərdə yaratdım. O vaxtlar bu, Sovetlər Birliyində ilk lisey idi. Moskvadan mənə çox iradlar tutdular ki, bu nəyə lazımdır, nə istəyirsən? Yəni bunlar hamısı Sovetlər Birliyinin Müdafiə Nazirliyinin tərkibində olmalıdır. Amma mən bunu Müdafiə Nazirliyinin xaricində yaratdım. Onlar da dedilər ki, bu qanunsuzdur. Moskvadan bir neçə dəfə gəldilər, araşdırdılar. Məni məcbur edirdilər ki, bunu bağlayım. Dedim, olmaz. Bunu nə üçün etdim? Çünki onillik məktəbdir, məqsədim yeddinci sinifdən sonra buraya gələn uşaqlara üç il ərzində həm rus dilini öyrətmək, həm də hərbi peşəyə həvəs oyatmaq, onları fiziki cəhətdən hazırlamaq, sonra isə hərbi ali məktəblərə göndərmək idi.

Burada iki hərbi məktəb var idi. Biri ümumkomandirlər məktəbi, biri də hərbi dənizçilik məktəbi idi. Hərbi dənizçilik məktəbi Sovetlər Birliyində öz səviyyəsinə görə ikinci yerdə duran məktəb idi. Biri Leninqradda idi, ikincisi burada. Başqa yerlərdə də var idi. Amma bu çox güclü bir məktəb idi. Mən o məktəblərə getdim, görüm burada nə qədər azərbaycanlı var. Ümumkomandirlər məktəbinə ildə 350 nəfər daxil olurdu. Neçə azərbaycanlı qəbul olunurdu – 15–20 nəfər. Qalanları kim idi – SSRİ-nin digər millətlərindən. Sonra hərbi donanma məktəbinə getdim ki, görüm oraya ildə neçə azərbaycanlı qəbul olur. Bir, ya iki nəfər. Bəs müəllimlərdən kim var? İki-üç nəfər. Dedim ki, belə şey olmaz, gərək azərbaycanlılar da daxil olsunlar. Amma mənə deyirdilər ki, azərbaycanlılar imtahan verə bilmirlər. Ona görə də mən bu liseyi yaratdım ki, bundan gələcəkdə istifadə edək. Amma burada çalışdığım son illərdə – mən Moskvaya 1982-ci ildə getdim – artıq buradakı hərbi məktəblərin kursantlarının 50 faizindən çoxu azərbaycanlılar idi. Hətta Moskvadan şikayət edirdilər ki, siz bu məktəbləri əlinizə keçirmisiniz. Şikayət edirdilər.

Təbiidir, mən o vaxtlar, birincisi, istəyirdim ki, azərbaycanlılar hər yerdə olsun. İkincisi də, düşünürdüm ki, nə vaxtsa bizə öz milli ordumuz lazım olacaqdır. Ona görə də mən bu işləri etdim. İndi görünür ki, bunları düz etmişəm. İndi bunlar lazımdır.

Bizim milli ordu yarananda kadrlarımız olmamışdır. O kadrlar, hansılar ki, Rusiyanın məktəblərində oxumuşlar, gəlmişlər, amma bir qismi də gəlməmişdir. Sonra bilirsiniz ki, Azərbaycanda sabitlik olmamışdır. Ermənistan ilə savaş gedirdi. Ona görə də bu dövr çox çətin, ağır bir dövr idi. Amma indi biz sizin yardımınızla bu işlərlə məşğul oluruq. Mənə belə gəlir ki, siz həmin hərbi məktəblərdə oldunuz, gördünüz. Hər halda, indi beş ildən sonra gəlib dəyişiklikləri görürsünüz, sizin qiymətiniz mənim üçün çox əhəmiyyətlidir, önəmlidir. Çünki mən çox sıxılıram. Nazirə də deyirəm, bunu etmədin, onu etmədin. Amma siz gəlib deyəndə ki, beş il müddətində inkişaf var, bu məni sevindirir. Amma mən yenə də narazıyam. Yenə də hesab etmirəm ki, bu yetərlidir. Yetərli deyil, hələ çox iş görmək lazımdır.

**K ö k s a l K a r a b a y:** Hörmətli Cümhur başqanım, biz Müdafiə Nazirliyinizlə çox gözəl işbirliyi həyata keçiririk. Hər şeyi bir gündə etmək mümkün deyil, insanı yetişdirməyin özü zaman, vaxt tələb edir. Amma bu gün Azərbaycanın ordusu var. Dünya standartlarına uyğun hərbi məktəbi var, bu il ilk məzunları olacaqdır. Hərbi məktəblərdə Azərbaycanın özünün müəllimləri var. Bu, gələcəkdə daha da gözəl olacaqdır. Azərbaycanın hərbi akademiyası var. Ali təhsilli hərbçilər yetişdirir. Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin akademiyası var. İnşallah, bu il Azərbaycanda piyadalar, topçular, tankçılar üçün məktəblər yaradacağıq. Bunlar daxili qoşunlar, sərhəd qoşunları və Müdafiə Nazirliyinə bağlı hərbi hissələr üçün də olacaqdır. Azərbaycanın komandirləri var, gözəl silahlı qüvvələri var. Ümumiyyətlə, hər şey bəllidir. Sizin söylədiyiniz müstəqil ordu quruldu. Amma təbii ki, inkişafın sərhədi yoxdur.

Ona görə də biz bu gözəl işbirliyimizi davam etdirəcəyik. Amma indi Sizin söylədiyiniz kimi, Azərbaycan hər şeyə milli ordusu, məktəbləri ilə başladı. Biz də bundan böyük iftixar, qürur duyuruq. Mən burada olarkən qardaş ölkədəki gözəl inkişafdan çox sevindim, məmnun oldum.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

Əldə etdiyimiz bütün bu nailiyyətlərə görə, bizə göstərilən yardıma görə mən Türkiyə Cümhuriyyətinə təşəkkür edirəm. Türkiyə ordusuna, xüsusən, Baş Qərargah rəisinə, sizlərə, burada çalışan müdavimlərinizə, generalınıza – hamısına təşəkkür edirəm. Güman edirəm ki, bu işbirliyi bundan sonra daha da sürətlə davam edəcəkdir.

Dediniz ki, bu gün bayram günüdür. Bəli, bu da tarixi bir gündür. Səkkiz il bundan öncə mənim Azərbaycana rəhbərlik, başqanlıq etməyim günüdür. Doğrudur, mən hesab etmirəm ki, bu, böyük bir hadisədir. Çünki mən keçmişdə də, sovet vaxtında Azərbaycana 14 il rəhbərlik etmişdim. Ancaq 1993-cü ildə Azərbaycan dağılırdı. Bunu bilirsiniz. Dağılırdı, parçalanırdı. Ola bilərdi ki, Azərbaycan olmasın. Amma xalq məni tələb etdi, gəldim. Çox böyük imtahanlardan keçdik, sınaqlardan keçdik. İndi Azərbaycan müstəqil bir dövlət kimi, ayaq üstə möhkəm dayanır. Siz dediyiniz kimi, iqtisadi cəhətdən inkişaf edir, hər şey inkişaf edir. Bundan sonra da inkişaf edəcəkdir.

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

2001-ci il iyunun 5–8-də Bakıda keçirilmiş ənənəvi «Xəzər neft, qaz, neftayırma və neft kimyası VIII beynəlxalq sərgi və konfrans» ilə əlaqədar mənə göndərdiyiniz və Böyük Britaniya hökumətinin Azərbaycana olan marağını və dəstəyini bir daha təsdiq edən dərin məzmunlu məktuba görə Sizə təşəkkür edirəm.

Həmişə olduğu kimi, dünyanın müxtəlif ölkələrini təmsil edən çoxsaylı şirkətlərin və yüksək səviyyəli qonaqların iştirak etdiyi bu dəfəki sərgi və konfrans da çox uğurlu keçdi. Əvvəlki illərdə olduğu kimi, bu tədbirdə də Britaniya şirkətləri geniş təmsil olunmuşdular.

Haqlısınız ki, Britaniya şirkətləri Azərbaycanda fəaliyyət göstərən digər Qərb ölkələrinin şirkətləri arasında aparıcı yer tutur. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Böyük Britaniyanın güclü şirkətləri Azərbaycanda neft sənayesi ilə yanaşı, bank, sığorta, telekommunikasiya, mühəndislik, xidmət və digər sahələrdə də müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Hesab edirəm ki, onların bu fəaliyyəti Azərbaycanın etibarlı partnyor olduğunu sübut etməklə bərabər, digər Britaniya şirkətləri üçün nümunədir və onların ölkəmizə sərmayə qoyması, faydalı iş görməsi üçün Azərbaycanda əlverişli biznes mühiti və geniş imkanlar olduğundan xəbər verir.

Son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində əldə etdiyimiz nailiyyətlərə verdiyiniz yüksək qiymət məni məmnun etdi. Biz müstəqil Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına, onların işində səmərəli fəaliyyət göstərməsinə və imkanlarından faydalanmasına Böyük Britaniyanın daim verdiyi dəstəyi yüksək qiymətləndiririk. Bu baxımdan cari ilin əvvəlində Azərbaycanın Avropa Şurasına qəbul olunmasına, Ümumavropa ailəsinin bərabərhüquqlu üzvünə çevrilməsinə verdiyiniz dəstək və bu münasibətlə mənə göndərdiyiniz məktub bizi çox ruhlandırdı. İndi isə Azərbaycanın dünya ticarət təşkilatına daxil olması üçün, habelə Ermənistan ilə münaqişədə sülh əldə edilərsə, Böyük Britaniya hökumətinin və sizin Avropa Birliyindəki tərəfdaşlarınızın ölkəmizə hər cür yardım göstərməyə hazır olduğunu bildirirsiniz. Bütün bunlara görə Sizə təşəkkür edirəm.

Biz Böyük Britaniya ilə əlaqələrimizin bütün sahələrdə inkişaf etdirilməsinə olduqca böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, neft və qaz sənayesindəki əməkdaşlığımız uğurla davam edir. Məmnuniyyətlə qeyd edirəm ki, əsası 1994-cü ilin sentyabrında bizim tərəfimizdən qoyulmuş və artıq Xəzər dənizinin əməkdaşlıq üçün bütün dünyaya açılması ilə nəticələnən, onun zəngin neft və qaz ehtiyatlarının Qərbin aparıcı enerji şirkətləri ilə birgə işlənilməsinə, bu resursların dünya bazarına çoxşaxəli, təhlükəsiz və etibarlı yollarla ixrac olunmasına yol açan müstəqil Azərbaycanın yeni neft strategiyası ardıcıl surətdə və müvəffəqiyyətlə həyata keçirilməkdədir.

1994-cü ildən bəri biz artıq dünyanın 14 ölkəsini təmsil edən 32 böyük neft və qaz şirkəti ilə müqavilələr bağlamışıq. Lap yaxın dövrlərə qədər bəzilərinin röya kimi baxdığı Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin, habelə Azərbaycanın zəngin qaz ehtiyatlarını Türkiyə və Avropaya nəql edəcək qaz kəmərinin çəkilməsi üçün çox böyük işlər görülmüş və xeyli tərəqqi əldə edilmişdir. Heç şübhə etmirəm ki, bir neçə ildən sonra biz sizinlə birlikdə bu nəhəng layihələrin reallığa çevrildiyi günü məmnuniyyətlə bayram edəcəyik.

Məmnunam ki, prezident Putinin bu ilin əvvəlində Bakıya səfəri zamanı biz Xəzərin hüquqi statusunun müəyyən olunması istiqamətində də mühüm irəliləyiş əldə etdik. Biz bu sahədəki səylərimizi bundan sonra da davam etdirəcəyik.

Azərbaycanın yeni neft strategiyası ölkəmizin iqtisadi cəhətdən çiçəklənməsi, dövlətimizin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi üçün təminat yaratmaqla bərabər, bütün Xəzər regionunun iqtisadi dirçəlişi və təhlükəsizliyi üçün də yaxşı imkanlar açır.

Bu strategiyanın həyata keçirilməsində Böyük Britaniyanın Azərbaycanda fəaliyyət göstərən şirkətlərinin ən parlaq və fəal nümayəndəsi, Azərbaycanın neft və qaz sənayesində artıq xüsusi çəkiyə malik olan, ölkəmizin iqtisadi və sosial həyatında mühüm rol oynayan *bp* şirkətinin əhəmiyyətli yeri var.

Bir neçə həftə bundan əvvəl mən *bp* şirkətinin Azərbaycandakı rəhbərlərini qəbul edərək, onların gördüyü işlərlə yenidən şəxsən maraqlandım. Onların mənə verdiyi məlumatlardan sonra bir daha əmin oldum ki, bizim əməkdaşlığımızın həm Böyük Britaniya, həm də Azərbaycan üçün qarşılıqlı fayda gətirəcək çox böyük perspektivləri vardır. Əmin ola bilərsiniz ki, biz bu sahədəki ardıcıl və qətiyyətli siyasətimizi davam etdirəcək və Böyük Britaniya hökuməti və şirkətləri ilə sıx əməkdaşlığımızı bundan sonra daha da artıracağıq.

Ümidvaram ki, biz Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə həllinə nail ola biləcəyik. Bildiyiniz kimi, 1999-cu ildən bəri Ermənistan prezidenti ilə bir neçə dəfə təkbətək görüşüb danışıqlar

aparmışıq və ATƏT-in Minsk qrupu həmsədrlərinin köməyi ilə münaqişənin dinc yolla aradan qaldırılmasına çalışırıq.

Təəssüf ki, Ermənistan müvəqqəti hərbi üstünlüyündən, Azərbaycanın torpaqlarının 20 faizini işğal etməsindən, etnik təmizləmə apararaq bir milyondan çox azərbaycanlını öz yurd-yuvasından zorla qovub onları qaçqın düşərgələrində dözülməz şəraitdə yaşamağa məcbur etməsindən sui-istifadə edərək, danışıqlarda qeyri-konstruktiv mövqe tutur.

Sülhün əldə edilməsi üçün biz bundan sonra da səylər qoyacaq və yorulmadan çalışacağıq. Bununla belə, Avropanın və dünyanın ən nüfuzlu, ən qüdrətli dövlətlərindən biri kimi, Böyük Britaniyanın da köməyinə ehtiyacımız var.

Hörmətli cənab Baş nazir!

Mənə göndərdiyiniz məktuba görə təkrar təşəkkür edirəm. Seçkilərdə əldə etdiyiniz parlaq qələbə münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

Əminəm ki, xalqlarımızın mənafeyi, rifahı və regionumuzun tərəqqisi naminə Sizinlə və hökumətinizlə sıx əməkdaşlıq edərək, dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq, dostluq və əməkdaşlıq münasibətlərini keyfiyyətcə yeni mərhələyə qaldıra biləcəyik.

*Səmimiyyətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 iyun 2001-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**TİBB İŞÇİLƏRİNƏ**

Hörmətli tibb işçiləri!

Sizi müstəqil respublikamızda ilk dəfə qeyd olunan peşə bayramınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq, həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə – insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Keçid dövrünü yaşayan digər ölkələr kimi, Azərbaycan da hazırda bir çox sosial problemlərlə üzləşmişdir. Belə bir şəraitdə əhalinin sağlamlığının mühafizəsi və tibbi xidmətin yaxşılaşdırılması istiqamətində irəliyə doğru atdığınız addımlar və əldə etdiyiniz uğurlar bizi sevindirir.

Azərbaycan XX əsrdə tibb elminin sürətli inkişafı, çoxprofilli səhiyyə şəbəkəsinin yaradılıb genişləndirilməsi və tibb işçilərinin hazırlanması sahələrində böyük nailiyyətlər qazanmışdır. Hazırda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanın çoxsaylı tibb işçiləri ordusu var. Respublikanın sosial inkişafında onun xidmətləri təqdirəlayiqdir. Məhz həmin nailiyyətlər yeni minilliyin və yeni əsrin ilk ilində bu peşə bayramı gününün təsis edilməsi üçün möhkəm zəmin yaratdı. Dövlət müstəqilliyinin 10 illik yubileyini qeyd etməyə hazırlaşan respublikamızın tibb işçilərinin Azərbaycan Xalq Cümhuriyyətindən yadigar qalmış bu günü əziz bayram kimi keçirməyə tam haqları vardır.

Xalqımız on ildən artıqdır ki, Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları və hərbi təcavüzü nəticəsində yaranmış bir çox çətinliklərlə üzləşmişdir. Torpaqlarımızın işğal olunması nəticəsində bir milyondan artıq soydaşımız öz ev-eşiyindən didərgin düşərək, olduqca acınacaqlı şəraitdə qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalmışdır. Bu insanlarımızın da sağlamlığı problemlərinin həlli qarşımızda dayanan ən vacib məsələlərdəndir. Belə məsuliyyətli vəzifənin ağırlığının böyük bir hissəsi isə əhalinin öz sağlamlığını etibar etdiyi şəxslərin – siz tibb işçilərinin üzərinə düşür.

Əmin olduğumu bildirirəm ki, peşə andınıza sədaqət göstərərək, əhalimizin sağlamlığının qorunması naminə bundan sonra da var qüvvə ilə çalışacaq, bu mühüm işin öhdəsindən layiqincə gəlmək üçün bilik və bacarığınızı əsirgəməyəcəksiniz. Belə məsuliyyətli və nəcib bir məqsədə yönəlmiş fəaliyyətinizdə sizə yeni-yeni uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 iyun 2001-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ**
**XARİCİ İŞLƏR NAZİRİNİN AVROPA VƏ**
**AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ,**
**XƏZƏR DƏNİZİNİN STATUSU MƏSƏLƏSİ ÜZRƏ İRANIN XÜSUSİ NÜMAYƏNDƏSİ**
**ƏLİ AHƏNİNİN BAŞÇILIQ ETDİYİ**
**NÜMAYƏNDƏ HEYƏTİ İLƏ**
**GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*16 iyun 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Sizi salamlayıram. Xoş gördük hamınızı!

**Ə l i  A h ə n i:** Zati-aliləri, məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Sizi bir daha görməyimdən şadam. Cənab Xatəminin Sizə səmimi və hərarətli salamlarını çatdırmaqdan çox şadam. Onun yenidən prezident seçilməsi münasibətilə göndərdiyiniz səmimi məktuba görə də bir daha təşəkkürümüzü bildirirəm.

Münasibətlərimizin inkişafı üçün böyük imkanların mövcud olması baxımından, hər iki tərəfin bu əlaqələri daha da inkişaf etdirməyə möhkəm iradəsinin olduğu nəzərə alınmaqla, gələcəkdə görüləcək işlər üçün yeni planlar hazırlamaq çox əhəmiyyətlidir. Biz Azərbaycanla münasibətlərimizə xüsusi diqqət yetirir və əhəmiyyət veririk. Biz münasibətlərimizi qarşılıqlı hörmət və ehtiram əsasında qurmalıyıq və bu münasibətlərə xələl gətirmək istəyən qüvvələrə qarşı mübarizə aparmalıyıq. Qarşılıqlı məsləhətləşmələr həyata keçirmək yolu ilə münasibətlərimizi inkişaf etdirmək üçün yeni-yeni uğurlar əldə edə bilərik.

Bu gün Azərbaycanda fəaliyyət göstərən İran Tacirlər Birliyi Təşkilatının üzvləri ilə görüşüm oldu. Onlar razılıqlarını bildirdilər ki, Azərbaycan dövləti burada onların işlərinə kömək edir. Buradakı işlərindən və eyni zamanda onlar üçün yaradılmış şəraitdən razı qaldıqlarını söylədilər. Onlar burada işləməkdən məmnundurlar.

Bu gün cənab Vilayət Quliyev ilə çox faydalı görüşümüz oldu. Bizim münasibətlərimizin inkişafına dair fikir mübadiləsi apardıq. Dünən Xəzər dənizinə dair keçirilmiş toplantı haqqında da fikrimi söylədim və razılığımı bildirdim. Burada keçirilən toplantı beş Xəzəryanı dövlətin mövqelərinin yaxınlaşması üçün öz müsbət təsirini göstərdi. Belə qərara gəldik ki, Xəzəryanı dövlətlərin hamısının ümumi razılığa gəldiyi halda bu məsələni birdəfəlik həll edə bilərik. Belə olan halda xarici şirkətlər buraya rahat sərmayə qoya və işlərini nigarançılıqla yox, arxayın davam etdirə bilərlər. Belə qərara gəldik ki, ekspertlər səviyyəsində danışıqlar və müzakirələr davam etdirilsin.

Sözsüz ki, beş ölkənin mövqelərini yaxınlaşdırmaq üçün məsləhətləşmələr hələ çox aparılacaq. Biz bu məsləhətləşmələrə böyük əhəmiyyət veririk. O cümlədən, Azərbaycanla məsləhətləşmələrə. Hesab edirik ki, bu yeganə yol ilə biz məsələni həll edib, yekunlaşdıra bilərik.

Zati-aliləri, məni belə hövsələ ilə dinlədiyinizə görə təşəkkürümü bildirirəm. Eyni zamanda Sizdən üzr istəyirəm ki, vaxtınızı çox aldım. Mən gərək qısa danışaydım.

**H e y d ə r  Ə l i y e v:** Çox mənalı idi. Çox vaxt getməsi o qədər də əhəmiyyətli deyil.

Ağayi Xatəminin İranın yenidən prezidenti seçilməsi münasibətilə sizi və bütün İran xalqını bir daha təbrik edirəm.

Mən təbrik məktubu göndərdim. Ümid edirəm ki, ağayi Xatəminin ikinci prezidentlik muddəti zamanı İran ilə Azərbaycan arasındakı əlaqələr daha da sürətlə inkişaf edəcəkdir.

Mən bu günlərdə sizin səfirlə görüşdüm və çox ətraflı söhbət etdik. Ona dediklərimi sizə də demək istəyirəm ki, Azərbaycanın xarici siyasətində İran ilə əlaqələr xüsusi yer tutur. Bunun səbəbləri məlumdur. İzah etməyə ehtiyac yoxdur. Ona görə biz bu siyasətimizi bundan sonra da ardıcıl surətdə həyata keçirəcəyik.

Mən çox məmnunam ki, sizin tacirlər, iş adamları Azərbaycanda gördükləri işdən və onlar üçün burada yaradılmış şəraitdən razıdırlar. Bunun özü çox yaxşı göstəricidir. Elə bu onu sübut edir ki, iqtisadi əlaqələrimiz uğurla inkişaf edir. Doğrudur, İranda Azərbaycan tacirləri hələ yoxdur, varsa da, azdır. Güman edirəm ki, bizdə də geniş tacirlər təbəqəsi yaranandan sonra Azərbaycan tacirləri İranda fəaliyyət göstərəcəklər. Çünki həm İran, həm də Azərbaycan sərbəst bazar iqtisadiyyatı yolu ilə gedir. Ona görə də insanlara sərbəstlik, imkanlar yaratmaq lazımdır ki, onlar iş görsünlər və onların gördüyü işdən də, təbii, iqtisadiyyatın inkişafı, insanların rifah halının yaxşılaşması çox asılıdır.

Amma eyni zamanda bir çox məsələlər var ki, bunlar iki dövlət arasında iqtisadi əlaqələrə aiddir. Biz bu istiqamətdə əlaqələri inkişaf etdirmək istəyirik. Ona görə də İran – Azərbaycan müştərək iqtisadi komissiyası var.

Doğrudur, bu komissiya son vaxtlar işini bir az zəiflədibdir. Mən iki, üç günə Azərbaycan tərəfindən komissiyanın sədrini təyin edəcəm. Güman edirəm ki, ondan sonra ikitərəfli görüşlər keçirilə bilər və bir çox maraqlı layihələr həyata keçirilə bilər.

Dünən sizin burada keçirdiyiniz görüş də çox əhəmiyyətlidir. Beş Xəzəryanı ölkənin nümayəndələri burada müzakirə aparıblar və Xəzərin statusunun müəyyən edilməsi haqqında fikirlər söyləyiblər. Ümumiyyətlə, mən bu işi və xüsusən dünən sizin gördüyünüz işi müsbət qiymətləndirirəm. Məmnunam ki, İran tərəfini təmsil edən bir şəxs kimi, siz də bu məsələyə müsbət qiymət verirsiniz.

Biz, Azərbaycan həmişə hesab etmişik ki, Xəzərin statusunun müəyyən edilməsi yalnız Xəzəryanı ölkələrin müştərək səyləri nəticəsində sona çata bilər. Ona görə belə ardıcıl surətdə görüşlərin keçirilməsi lazımdır. Mən hiss edirəm, siz də bunu qeyd etdiniz ki, hər bir görüş bu məsələdə bizi irəliyə aparır.

Qeyd etmək lazımdır ki, Xəzər dənizi mövcud olandan indiyə qədər Xəzərin statusu haqqında heç vaxt heç bir ölkə digər ölkə ilə danışıq aparmayıbdır. Bu, ilk hadisədir. Heç vaxt da Xəzərin ətrafında beş müstəqil ölkə olmayıbdır. Ona görə də təbiidir ki, burada çətinliklər də var. Məsələni bir dəfə, iki dəfə görüşməklə həll etmək mümkün deyildir. Amma mən ümidvaram ki, sizin bu mütəmadi görüşləriniz, nəhayət, mövqeləri bir-birinə yaxınlaşdıracaq və bundan sonra bizə, dövlət başçılarına hamınızın razı olduğu bir layihəni təqdim edəcəksiniz.

Siz doğru dediniz, onda xarici şirkətlər də burada daha rahat işləyəcəklər. Amma indi rahat işləyənlər var. İranın «OİK» şirkəti Azərbaycanda çox rahat işləyir. Bizim ən böyük qaz yatağı olan «Şahdəniz» qaz yatağında onun 10 faiz payı var. Siz yəqin xatırlamalısınız, bu işin təşəbbüskarı mən oldum ki, İran şirkəti gəlib Azərbaycandakı bu böyük layihədə iştirak etsin. «OİK» şirkəti ilə bizim başqa layihələrdə də əməkdaşlığımız var. Amma təbiidir, bunların hamısı Xəzərin statusu müəyyən olunandan sonra daha da səmərəli olar və hamı daha da rahat olar. Biz bunu çox istəyirik. Çünki sizə də məlumdur ki, Xəzərdə neft və qaz hasilatına ilk dəfə, hələ 50 il bundan öncə Azərbaycan başlayıbdır. Ona görə indi, Xəzəryanı ölkələr müstəqil dövlət olduğu üçün biz çox maraqlıyıq ki, bu məsələ həll olunsun.

Dünənki görüşlərinizə görə sizi təbrik edirəm. Çox məmnunam ki, artıq siz bu işə planlı istiqamət vermisiniz. Mənə bildirdilər ki, gələn görüş Qazaxıstanda, Astanada olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan tərəfi bu sahədə bütün səylərini qoyacaqdır. Ona görə hamı çalışmalıdır, siz də çalışmalısınız, biz də çalışmalıyıq, başqa Xəzəryanı ölkələr də çalışmalıdır ki, hərə bir az irəliyə getsin. Onda ümumi məxrəcə gələ bilərik. Biz bunun tərəfdarıyıq.

**Ə l i  A h ə n i:** Zati-aliləri, dediyiniz xoş sözlərə görə təşəkkürümü bildirirəm. Biz Azərbaycan şirkətləri ilə əməkdaşlıq etməyi alqışlayırıq. Bundan sonra da çalışacağıq və hazırıq ki, Azərbaycan şirkətlərinin İranda fəaliyyət göstərməsi üçün lazımi şərait yaradaq. Onlar orada rahat fəaliyyət göstərə bilsinlər.

Biz təəssüf edirdik ki, Azərbaycan tərəfindən müvafiq bir nazirin müştərək komissiyaya həmsədr təyin olunmaması işlərimizdə bir qədər lənglik əmələ gətiribdir. Zati-aliləri, indi Sizin dediyiniz sözlər bizi bir qədər sakitləşdirdi. Belə başa düşdük ki, yaxın günlərdə hər hansı bir naziri həmsədr kimi təyin edəcəksiniz və işlərimiz sürətlənəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Hər hansı bir nazir yox, yaxşı nazirlərdən birini.

**Ə l i  A h ə n i**: Zati-aliləri, müştərək komissiyanın işinin sürətlənməsi münasibətlərimizin, o cümlədən iqtisadi-ticarət əlaqələrimizin sürətlənməsinə müsbət təsirini göstərəcəkdir. Odur ki, bu iş həyata keçirilsə, biz bunu alqışlayacağıq.

Cənab Prezident, Xəzər dənizinin statusunun həll olunması məsələsinə bu qədər diqqətlə yanaşdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Bu bizi çox sevindirir. Sözsüz ki, bu məsələ, Xəzər dənizinin statusu nə qədər tez həll olunsa, şirkətlər burada bir o qədər də rahat işləyə bilərlər və onlar əməkdaşlıq fəaliyyətini daha da genişləndirərlər. Ola bilsin ki, bu gün kimsə, yaxud şirkətlər fikir müxtəlifliyi olan sahələrə dair qəti qərar qəbul edə bilmir. Əgər bu məsələ həll olunsa, onda onlar həmin sahələrə sərmayə qoyub fəaliyyət göstərmək üçün qəti qərara gələ bilərlər.

Biz azərbaycanlı tərəfdaşlarımızla çalışacağıq ki, xarici işlər nazirləri müavinlərinin Astanada keçiriləcək beşinci toplantısı səmərəli olsun və bu istiqamətdə uğurlu bir nəticə əldə etsin. Belə olan halda Xəzəryanı ölkələrin dövlət başçılarının payızda nəzərdə tutulan zirvə toplantısı üçün yaxşı zəmin yarada bilərik. Beş Xəzəryanı ölkənin dövlət başçılarının zirvə toplantısının birinci iclası yəqin ki, bu sahədə öz tarixi əhəmiyyətini göstərəcəkdir. Çalışmalıyıq ki, bu iclas istər region məsələlərində, istərsə də beynəlxalq səviyyədə əhəmiyyətli toplantı kimi, yadda qalan birinci toplantı olsun. Diqqətinizə görə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mənim ağayi Xatəmiyə və İranın başqa rəhbərlərinə salamımı, xoş arzularımı bir daha çatdırın. Sağ olun.

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT ASSAMBLEYASININ XVII PLENAR SESSİYASININ İŞTİRAKÇILARINA

Hörmətli assambleya üzvləri!

Sizi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının XVII plenar sessiyasının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

On bir dövlətin parlamentlərini birləşdirən bu mötəbər beynəlxalq təşkilatın ən yüksək forumunun Azərbaycanın paytaxtı Bakı şəhərində ikinci dəfə keçirilməsindən məmnunluq duyuram və bunu əlamətdar hadisə kimi qiymətləndirirəm.

Bu gün respublikamız geniş beynəlxalq əməkdaşlığa inteqrasiya olunaraq siyasi-iqtisadi əlaqələrin dərinləşməsinə böyük önəm verir və bütün nüfuzlu beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir.

İri beynəlxalq qurum olan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Assambleyası region dövlətləri arasındakı münasibətlərin genişlənməsinə qüdrətli təkan verir və ölkələrimizin parlamentlərarası dialoquna geniş perspektivlər açır. Bu təşkilat coğrafi yaxınlığımızdan, tarixi keçmişimizdən və mədəni birliyimizdən irəli gələn üstünlüklərdən istifadə edərək region dövlətlərinin ikitərəfli və çoxşaxəli əməkdaşlıq etməsi üçün münbit şərait yaradır.

Dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd edən Azərbaycan Respublikası öz münasibətlərini bütün ölkələrlə mehriban qonşuluq, maraqların tarazlaşdırılması, digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaq və onların daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurur. Biz hesab edirik ki, Qara dəniz regionunda irimiqyaslı iqtisadi əməkdaşlığın inkişafı üçün ilk növbədə mövcud olan münaqişələrin dinc yolla həll olunması lazımdır.

Azərbaycan Respublikası Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına sədrlik etdiyi dövrdə qarşılıqlı inamın möhkəmlənməsi yolunda vacib meyar sayılan qanunun aliliyinə və siyasi sabitliyə xüsusi diqqət yetirmişdir. Ümidvaram ki, işiniz bundan sonra da məhz bu ruhda davam edəcəkdir.

Hörmətli assambleya üzvləri! Azərbaycanda olduğunuz günlərdə sizə səmərəli və məhsuldar iş, uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik, ölkələrinizə sülh, əmin-amanlıq, tərəqqi arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 iyun 2001-ci il*

## BAKI ALİ BİRLƏŞMİŞ KOMANDİRLƏR MƏKTƏBİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*20 iyun 2001-ci il*

Əziz Azərbaycan əsgəri!

Əziz əsgərlər, zabitlər, generallar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümdən böyük məmnunluq hiss edirəm.

Azərbaycan bu il dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd edəcəkdir. Bu, Azərbaycanın çoxəsrlik tarixində mühüm və demək olar ki, indiyə qədər heç vaxt olmamış bir hadisədir.

Azərbaycan xalqı öz dövlət müstəqilliyinə, azadlığına nail olub, öz müstəqil dövlətini qurub və Azərbaycan dövləti dünyanın inkişaf etmiş dövlətləri ilə sıx əlaqə yaradaraq, müasir dövrün tələblərinə uyğun olaraq dövlət quruculuğu prosesini həyata keçirir.

Azərbaycanın dövlət quruculuğunda siyasəti ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət qurmaqdır. Biz bu sahədə çox iş görmüşük. Artıq Azərbaycanda belə bir dövlət, belə bir cəmiyyət mövcuddur. Ancaq eyni zamanda, bizim müstəqilliyimiz gənc olduğu kimi, qurduğumuz, yaratdığımız dövlət də və dövlətin bütün sahələri də gəncdir. Biz Azərbaycanda dövlət quruculuğu prosesini həyata keçirərək, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycan xalqının demokratiya yolu ilə, azad, sərbəst inkişafını təmin etmək, azad, sərbəst iqtisadiyyat qurmaq məqsədi ilə bir çox islahatlar həyata keçirmişik və keçirəcəyik. Bir şey artıq dünyaya məlumdur. Bizim əsgərlərimiz də, bizim ordumuz da bilməlidir ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə, azad iqtisadiyyat yolu ilə gedir. Biz bundan sonra da ardıcıl olaraq bu yolla gedəcəyik və bu yolu müstəqil Azərbaycanın möhkəmlənməsi, inkişaf etməsi üçün yeganə yol hesab edirik.

Bilirsiniz ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman çox böyük çətinliklərlə pastlaşmışdı. Çünki o vaxt Ermənistanın Azərbaycana qarşı hücumu bir neçə il idi ki, davam edirdi. Azərbaycanın ərazisi olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə Ermənistan tərəfindən başlanmış təcavüz müstəqillik əldə edən zaman Azərbaycan xalqı üçün çox böyük çətinliklər, böyük problemlər yaratmışdı. Ona görə də Azərbaycanda ordu quruculuğu prosesi ləng getmişdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ordu quruculuğu haqqında bəyanatlar verilsə də, həqiqi, Azərbaycanın müstəqilliyinə cavab verən ordunun yaradılması üçün hələ çox işlər görmək lazım idi. Bu işləri çətinləşdirən bir də o idi ki, bir tərəfdən, Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzünün qarşısı alınmalı idi, eyni zamanda dövlət qurulmalı və Azərbaycanın Milli Ordusu yaranmalı idi.

Biz belə çətin illər yaşamışıq. O illərdə Azərbaycanın mütəşəkkil, yüksək peşəkar hərbi kadrları olsaydı, onda, təbiidir ki, biz torpaqlarımızın müdafiəsini daha da yaxşı təmin edə bilərdik və Ermənistan silahlı qüvvələrinin təcavüzünə lazımi cavab vermək mümkün olardı. Ancaq, təəssüf ki, bunlar olmayıbdır. Əlavə etsək ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi zaman Azərbaycanın daxilində ictimai-siyasi sabitlik pozulmuşdu, burada müxtəlif siyasi qüvvələr hakimiyyət uğrunda mübarizə apararaq, o vaxt bizim onsuz da az olan hərbi kadrlarımızı hərəsi bir tərəfə çəkib, hərəsi onlara öz təsirini göstərmək, hərəsi onlardan öz məqsədləri üçün istifadə etmək istəyirdi, onda təsəvvür edə bilərsiniz ki, Azərbaycanda ordu quruculuğu nə qədər çətin bir dövr keçibdir.

Ancaq, şükürlər olsun ki, keçmişdə, hələ sovet hakimiyyəti zamanı – 70-ci illərdə, ondan sonrakı illərdə biz Azərbaycanın gələcəyi haqqında düşünərək, ölkəmizin milli zabit kadrlarının hazırlanması ilə çox ciddi məşğul olmuşduq. Bu da hamıya məlumdur. 1970-ci ildə Naxçıvanski adına Orta Hərbi Məktəbin – indi ona hərbi lisey deyirik – yaranması və ondan sonrakı illərdə sovet ordusunun Azərbaycanda mövcud olan iki ali hərbi məktəbində hər il azərbaycanlı gənclərin sayının artırılması, SSRİ məkanında təxminən 140-dan artıq hərbi məktəbə Azərbaycan gənclərinin göndərilməsi – bunların hamısı 70-ci illərdən başlayaraq azərbaycanlı zabit kadrları hazırlanmasının əsasını qoymuşdur.

Təsəvvür edə bilərsiniz ki, əgər bunlar olmasaydı, Ermənistan müxtəlif ölkələrin hərbi birləşmələrindən istifadə edərək və Azərbaycana təcavüz üçün müəyyən hazırlıqlar görərək ölkəmizə hücum etdiyi zaman Azərbaycan nə qədər ağır vəziyyətə düşərdi. O vaxt Azərbaycanda ordu quruculuğunun əsasını keçmiş illərdə bizim hazırladığımız hərbi kadrlar təşkil etdi.

Ancaq bu, müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün heç də yetərli deyildir. Azərbaycanın güclü ordusunu qurmaq, Azərbaycan ordusunu dünya standartlarına qaldırmaq üçün bizə müasir tələblərə uyğun olan hərbi məktəblər və bu məktəblərdə milli zabit kadrlarının hazırlanması lazım idi. Təəssüflər olsun ki, o dediyim səbəblərə görə, biz bu işə vaxtında başlaya bilmədik. Ancaq 1995–96-cı illərdən sonra, birincisi, Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə olunandan sonra, ikincisi, Azərbaycanın daxilində ictimai-

siyasi vəziyyəti sabitləşdirəndən sonra biz hərbi məktəblərimizin təşkil edilməsi, onların yüksək səviyyəyə qaldırılması işi ilə ciddi məşğul olmağa başladıq. Bu gün də məşğul oluruq və bundan sonra da məşğul olacağıq.

Bəli, burada – keçmiş Sovetlər İttifaqının çox qabaqcıl bir Ali Hərbi Dənizçilik Məktəbinin yerləşdiyi yerdə, bu böyük kompleksdə Azərbaycanın milli ali hərbi məktəbinin yaranması, 1997-ci ildə işə başlaması və dörd il müddətində yüksək təhsil almış zabit dəstəsinin bu ilki buraxılışı Azərbaycan ordusunun güclənməsinə təsir edəcək və ordu quruculuğumuz üçün mühüm hadisə olacaqdır.

Amma bu, işin başlanğıcıdır. Bizdə Hərbi Akademiya yaranıbdır. Bu məktəbi qurtaran məzunlar Hərbi Akademiyada da bir il təhsil alandan sonra ən yüksək hərbi biliyə, hərbi peşəyə malik olacaqlar. Bunların hamısı bizdə daha da güclü, daha da peşəkar, dünya standartlarına daha da cavab verən ordunun yaranmasına kömək edəcəkdir.

Mən sizin dəvətinizi qəbul edirəm. Avqust ayında burada keçiriləcək buraxılışa gələcəyəm. Bu hərbi məktəbi ən əla qiymətlə bitirənlərə diplomları mən özüm təqdim edəcəyəm. Bilin ki, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan ordusunun qurulması üçün, ölkəmizdə ordunun tələbatını təmin etmək məqsədi ilə hərbi məktəblərin inkişaf etməsi, genişlənməsi, onların səviyyəsinin qaldırılması üçün, bir prezident kimi, Ali Baş Komandan kimi, lazım olan bütün tədbirləri görəcəyəm.

Mən bu gün sizin məktəbinizin bəzi hissələri ilə tanış oldum. Bəzi siniflərdə oldum. Dərs verən zabitləri dinlədim, gənc kursantları dinlədim. Bunlar məni sevindirdi. Sevindirdi ona görə ki, burada artıq yüksək səviyyədə hərbi təhsil təşkil olunubdur. Bunu, təbiidir, bir ildə, iki ildə təşkil etmək mümkün deyildir. Dörd il bundan öncə burada ilk ali hərbi təhsilə başlayan gənclər bu il təhsili bitirib orduda xidmət etməyə gedəcəklər. Bu çox əlamətdar hadisədir.

Mən burada sizin siniflərinizdə, laboratoriyalarınızda, təcrübə otaqlarınızda müasir tələblərə uyğun olan cihazları gördüm və müəllimlərin – təbiidir ki, gördüyüm müəllimlərin – biliklərini hiss etdim və o qənaətə gəldim ki, bizdə artıq ali hərbi məktəb yaranıbdır. Bu ali hərbi məktəb bu il birinci buraxılışını edəcək, hər il yeni-yeni buraxılışlar edəcək və qısa bir müddətdə – demək olar ki, 4-5 il içərisində bizim ordumuzda bu məktəbi bitirmiş yüksək səviyyəli zabit heyəti öz xidmətini göstərməyə nail olacaqdır.

Hərbi quruculuq – ordu quruculuğu çətin prosesdir. Mən qeyd etdim ki, bunu bir ilə, iki ilə etmək mümkün deyildir. Bizim yaratdığımız silahlı qüvvələr keçmişdə hazırladığımız kadrlar əsasında yaranmışdır. Amma indi isə bizim silahlı qüvvələrə, ordumuza müstəqil dövlətin yaratdığı ali hərbi məktəblərdə təhsil almış, müasir tələblərə uyğun olan səviyyəyə çatmış zabit heyəti ilbəil daxil olacaqdır. Bu, gələcəkdə Azərbaycanda ordu quruculuğu sahəsində dövlətin strategiyasını həyata keçirmək üçün ən əsas şərtlərdən biridir. Biz bunu edirik, bundan sonra da edəcəyik.

Bu məktəbi lazımi səviyyəyə qaldırmaq üçün və ümumiyyətlə, Azərbaycanda hərbi təhsili istənilən səviyyəyə qaldırmaq üçün hələ çox işlər görmək lazımdır. Mən sizin bu işlərinizi müsbət qiymətləndirərək, eyni zamanda, hərbi məktəblərin təşkil olunması və onların istənilən səviyyədə fəaliyyət göstərməsi ilə əlaqədar Mudafiə Nazirliyinin nöqsanlarını da bilirəm, onları da qeyd edirəm. Sizin məktəbinizdə də nailiyyətlərlə bərabər, nöqsanlarınız, çatışmazlıqlarınız vardır. Ona görə də əldə olunanlarla heç də arxayınlaşmaq olmaz.

Biz bununla qane ola bilmərik. Əldə olunanlar bizim böyük işimizin, müstəqil dövlətimizin gələcəkdə daha da güclü ordusunun yaranmasının ilk addımlarıdır. Ancaq bundan sonra addımlar daha da iri, daha da güclü olmalıdır. Əldə olunan təcrübədən daha da səmərəli istifadə etmək lazımdır ki, gələcəkdə, buraxılışdan-buraxılışa məzunların səviyyəsi daha da yüksək olsun. Buraxılışdan-buraxılışa bizim ordumuza gedən zabitlər daha da yüksək standartlara cavab verən zabitlər olsun.

Burada siz çox fənlər keçirsiniz. Hamısı lazımdır. Təbiidir ki, birinci növbədə hərbi peşəni mənimsəmək əsas şərtdir. Çünki nə qədər güclü, nə qədər qəhrəman adam olsa da, əgər o şəxs hərbi peşəni və dünyada olan hərbi nailiyyətləri mənimsəməsə, onlardan istifadə etmək qabiliyyətinə yiyələnməsə və bunu təmin edə bilməsə, onda, əlbəttə ki, istənilən nəticə əldə oluna bilməz. Ona görə də bu sahə – əsas sahədir. Mən güman edirəm ki, siz, həm zabit-müəllim heyəti, həm də kursantlar bunlara daha da çox fikir verəcəksiniz. Bizim Müdafiə Nazirliyi də bu sahədə öz işini gücləndirəcəkdir.

Burada xarici dillər öyrədilir. Onlara ciddi fikir vermək lazımdır. Çünki indi bizim ordumuz dünyanın bir çox ölkələrinin ordusu ilə əməkdaşlıq edir. Biz NATO-nun «sülh naminə tərəfdaşlıq» proqramında və başqa proqramlarda iştirak edirik. Ona görə də xarici dilləri bilmək çox vacibdir. Təkcə bir dili yox, bəlkə də neçə dili bilmək lazımdır.

Siz gənc insanlarsınız. Sizin həyat fəaliyyətiniz yeni başlayır. 18-19-20-21 yaşında olan adamlarsınız. Bilin, böyük həyat yaşayan adam kimi, mən sizə demək istəyirəm ki, bu, insanın ən xoşbəxt dövrüdür və bu dövrdən səmərəli istifadə etmək lazımdır. İtirmək lazım deyildir. Bu dövrdə, bu yaşda itirilən kiçik bir imkan sonra insanın həyatında böyük çətinliklər yaradır. Ona görə mən sizə tövsiyə edirəm və Ali Baş Komandan kimi əmr edirəm ki, təhsil prosesində bütün fənləri yüksək səviyyədə mənimsəməyə çalışmalısınız. Bunun üçün də təbiidir ki, mən zabit-müəllim heyətindən tələb edirəm ki, onlar öz səviyyələrini də qaldırsınlar və təhsil işini daha da yaxşı qursunlar. Bizim bu gənc kursantlara müxtəlif fənləri öyrətmək üçün can yandırsınlar, çalışsınlar.

Çünki hər bir vicdanlı Azərbaycan vətəndaşının, azərbaycanlının borcu, vəzifəsi ondan ibarətdir ki, bizim gələcək nəslimiz daha da bilikli olsun, daha da sağlam olsun, dünya təcrübəsini daha da mənimsəmiş olsun. Ümidvaram ki, siz həm nöqsanların aradan qaldırılması ilə məşğul olacaqsınız, həm də öz səylərinizi artıracaqsınız.

Hərbi peşədə xidmət göstərmək üçün fiziki hazırlıq çox vacibdir. Hər bir gənc adam istəsə, fiziki cəhətdən çox güclü ola bilər. Əgər o öz bədəninin, vücudunun fiziki imkanlarından doğrudan səmərəli istifadə etsə, düzgün, doğru həyat tərzi keçirsə, mənfi hallara meyl göstərməsə, həmişə sağlam, fiziki cəhətdən güclü olacaqdır. Bu, insanın özü üçün lazımdır. Amma bizim ordumuz üçün, hər bir zabit üçün, dövlət üçün də lazımdır. Ona görə də bunları deyərək, mən birincisi, dövlətin bizim gənclərimizə, vətəndaşlarımıza qayğısını ifadə edirəm, ikincisi, mən bizim ordumuzun bütün zabit heyətinin, şəxsi heyətinin istənilən tələblər səviyyəsində olması qayğımızı ifadə edirəm. Ancaq fiziki hazırlıqla yanaşı, mənəvi saflıq, mənəvi sağlamlıq da çox vacibdir və böyük yer tutur. Hesab edirəm ki, bu sizin təlim-tərbiyə işinizdə, bütün müəllim-zabit heyətinin fəaliyyətində əsas yer tutmalıdır.

Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün həsr edir? Deməkي, vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gəncin əsas məqsədi budur. Əgər siz hamınız həqiqətən bu məqsədi nəzərə alaraq özünüzü hərbi peşəyə həsr etmək istəyirsinizsə və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, bizim orduda, silahlı qüvvələrdə xidmət etmək istəyirsinizsə, demək, siz sağlam mənəviyyata malik olmalısınız.

Sağlam mənəviyyat isə Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, millətimizə sədaqət – bunlardan ibarət olmalıdır. Bu keyfiyyətlərə malik olmayanlar yaxşı olar ki, nə özlərini əziyyətə salsınlar, nə hərbi məktəbə gəlsinlər, nə də orduda xidmət etsinlər.

Təəssüf ki, bizim orduda hələ bu tələblərə cavab verməyən şəxslər var. Güman edirəm, bunlar bu keçid dövrünün əlamətləridir. Biz bunları aradan qaldıracağıq. Mən bu vəzifəni Müdafiə Nazirliyinin qarşısında, hərbi hissələrin qarşısında dəfələrlə qoymuşam.

Azərbaycanın dövlətinə, müstəqilliyinə sədaqətli olmayan adam, xalqa xidmət etməyi özünə şərəf kimi qəbul etməyən adam silahlı qüvvələrdə xidmət edə bilməz. Ona görə də burada təhsil müddətində müəllim-zabit heyəti bu vəzifəni təmin etməlidir. Sizin hər biriniz bilməlisiniz ki, bu mənəvi dəyərlərə, mənəvi keyfiyyətlərə malik olmasanız, bütün başqa biliklərinizə baxmayaraq, siz müstəqil Azərbaycan ordusunun dəyərli zabiti, dəyərli döyüşçüsü ola bilməzsiniz.

Mən güman edirəm ki, bu işi daha çox Müdafiə Nazirliyi aparmalıdır. Ali məktəblərdə, o cümlədən bu ali məktəbdə müəllim-zabit heyətinin özünün mənəvi tələblərə, dəyərlərə cavab verməsini təmin etməlidir.

Burada sadəcə xidmət edib, bu xidmətinə görə maaş alıb, bu məktəbin imtiyazlarından istifadə edib, ancaq dövlətə, millətə, müstəqilliyimizə, dövlət quruculuğuna biganə qalan adamlar belə məktəblərdə işləyə bilməzlər, təhsil, təlim işi ilə məşğul ola bilməzlər. Ona görə mən məktəbin komandanlığından tələb edirəm, Müdafiə Nazirliyindən tələb edirəm ki, bu məsələ ilə ciddi məşğul olasınız və bəlkə də bu məsələni yüksək səviyyəyə qaldırmaq üçün müəyyən konkret tədbirlər görəsiniz.

İndi bizim ordumuz dünyanın bir çox ölkələrinin orduları ilə əməkdaşlıq edir. Ona görə də bizim ordumuzun beynəlxalq əlaqələri inkişaf edir və inkişaf etməlidir. Ancaq bizim ordu quruculuğumuzda, xüsusən ali hərbi məktəblərin və bütün hərbi məktəblərin yaranmasında, ordumuzda olan zabitlərin biliyinin, hərbi peşəsinin təkmilləşməsində qardaş Türkiyə Cümhuriyyətinin və onun çox şanlı-şöhrətli ordusunun nümayəndələri bizə daim yardım edibdir, bu gün də yapdım edir.

Ona görə mən bu gün fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyətinə, Türkiyə Silahlı Qüvvələrinə və onun Baş Qərargah rəisinə, Azərbaycanda xidmət edən qardaş Türkiyə zabitlərinə və generallarına təşəkkürümü, minnətdarlığımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əməkdaşlıq bundan sonra daha da güclənəcək, daha da genişlənəcəkdir.

Başqa ölkələrin həm təhsil mərkəzlərindən, həm də təcrübəsindən istifadə etmək bizim üçün, yəni sizin üçün vacib məsələlərdən biridir. Ona görə də Müdafiə Nazirliyi bu barədə indiyə qədər gördüyü işləri daha da təkmilləşdirməlidir, daha da genişləndirməlidir və lazımi tədbirlər görməlidir ki, Azərbaycan ordusu, Azərbaycan zabiti dünyanın inkişaf etmiş ölkələrinin ordusunun, zabitinin səviyyəsində ola bilsin.

Mən bu vəzifələri sizin qarşınızda qoyaraq ümidvar olduğumu bildirmək istəyirəm ki, hərbi məktəblərin təşkil olunma prosesi bundan sonra da inkişaf edəcək və gələcək illərdə bizim hərbi məktəblərimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Burada, sizin hərbi məktəbin yerləşdiyi bu kompleksdə çox böyük imkanlar var. Keçmişdə burada çox yaxşı binalar tikilibdir, böyük əraziniz var. Demək olar ki, Azərbaycanda heç bir ali məktəbin, mən təkcə hərbi məktəb demirəm, ümumi ali məktəbin, universitetin bu qədər geniş ərazisi və bu qədər də binaları yoxdur. O vaxtlar bunlar hamısı sovet ordusuna mənsub idi. Sovet ordusu da öz gücünü daim artıraraq, bu kimi

məktəblərin maddi-texniki şəraitini inkişaf etdirmək üçün hər il çox işlər görürdü. Ancaq bizim keçid dövründə burada müəyyən durğunluq olubdur. İndi görürəm ki, siz bəzi hissələrdə yaxşı təmir aparmısınız, maddi-texniki təminat işləri görmüsünüz. Amma bu, bütün korpusları, ərazini əhatə etmir. Görülən işləri bəyənirəm, ancaq bundan sonra bütün bu ərazidə olan korpuslar müasir səviyyəyə qaldırılmalı və burada təhsil alanlar, zabit-müəllim heyəti onlardan daha da səmərəli istifadə etməlidirlər.

Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir, yəni hərbi peşədir. Siz özünüzü bu işə sərf etməyi qərara almısınız. Mən sizin bu qərarınızı dəstəkləyirəm və Azərbaycan gənclərini dəvət edirəm ki, onların daha çoxu bu yolu seçsinlər. Çünki bu yol şərəfli yoldur, ən şərəfli peşədir. Mən məmnunam ki, Azərbaycan gənclərinin bu peşəyə marağı ilbəil artır. Biz isə – dövlət, mən Ali Baş Komandan bu peşənin Azərbaycanda, təhsil sahəsində inkişaf etməsi üçün hər bir şeyi edəcəyik.

İnanıram, siz gələcəkdə də heç vaxt heyfsilənməyəcəksiniz ki, bu peşəni seçmisiniz. İnanıram, siz gələcəkdə daha çox iftixar hissi keçirəcəksiniz ki, bu peşəni seçmisiniz. Eyni zamanda inanıram ki, hər bir Azərbaycan vətəndaşı da, bizim müstəqil dövlətimizin cəmiyyəti də bu peşəni seçən adamlara, bu peşə ilə məşğul olan adamlara, bu yolla gedən adamlara daha da böyük hörmət, ehtiramla yanaşacaqlar. Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir. Tutduğunuz bu yolda sizə uğurlar arzulayıram. Məktəbi qurtarandan sonra orduya gedəcəksiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz orduda, hər bir hissədə daha da yüksək peşəkarlıq səviyyəsini təmin edəcəksiniz, daha da sağlam ab-hava yaradacaqsınız, daha da sağlam mühit yaradacaqsınız. Çünki siz dörd il müddətində burada təhsil almış, müstəqil Azərbaycan dövlətinin imkanları ilə özünüzü hərbi peşəyə həsr etmiş insanlarsınız. Bu dörd illik təhsilinizin nəticəsini biz hərbi hissələrdə sizin xidmətinizdə görmək istəyirik. O orada daha da düzgün qiymətləndiriləcəkdir: sizin bu təhsiliniz bizim hərbi hissələrin döyüş qabiliyyətini, döyüş keyfiyyətini, nizam-intizamını və mənəvi təmizliyini nə qədər təmin edəcəkdir. Ümidvaram ki, biz bunların şahidi olacağıq.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Tutduğunuz bu şərəfli yolda sizə böyük-böyük uğurlar arzulayıram. Sağ olun.

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYA-HƏZRƏT KRALİÇA II YELİZAVETANIN AD GÜNÜ MÜNASİBƏTİLƏ HƏMİN ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**

*«Hyatt-Recensi – Naxçıvan» mehmanxanası*

*20 iyun 2001-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Mən Böyük Britaniya və Şimali İrlandiya kraliçasının təvəllüd günü, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı günü münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm və dost ölkənin bütün vətəndaşlarına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Azərbaycan ilə Böyük Britaniyanın əlaqələrinin tarixi o qədər də böyük deyildir. Yəni ölkəmizin dövlət müstəqilliyinin əldə olunması ilə Azərbaycanla Böyük Britaniya arasında da diplomatik əlaqələr yaranıb və sonra isə qısa müddətdə bu əlaqələr sürətlə inkişaf edibdir.

Biz bu ilin sonunda Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü bayram edəcəyik. Deməli, eyni zamanda, Azərbaycan ilə Böyük Britaniya arasında yaranmış dövlətlərarası əlaqələrin də onuncu ildönümü olacaqdır.

Mən bu gün qeyd etməliyəm ki, Böyük Britaniya Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ölkəmizlə diplomatik əlaqələr qurmuş və Azərbaycana böyük maraq göstərmiş ilk Qərb ölkələrindən biridir.

Mən bu gün Böyük Britaniyanın hökumətinin dəvəti ilə 1994-cü ilin əvvəlində bu ölkəyə rəsmi səfərimi xatırlayıram. O səfər zamanı ölkələrimiz arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi və gələcək layihələrin həyata keçirilməsi üçün görülmüş böyük işləri xatırlayıram. Məmnunam ki, ondan sonra bu əlaqələr ardıcıl surətdə inkişaf edib və indi yüksək səviyyədədir. Bu əlaqələr həm siyasi, iqtisadi, həm mədəni, humanitar sahələri, həm də bütün başqa sahələri əhatə edərək, ölkələrimiz arasında sıx münasibətlər yaradıbdır.

Təbiidir ki, dövlətlərarası əlaqələrin inkişaf etməsi üçün iqtisadi əməkdaşlığın yaranmasının və o sahədə istənilən nailiyyətlərin əldə edilməsinin böyük əhəmiyyəti var. Bu baxımdan mən qeyd etmək istəyirəm ki, Böyük Britaniya Azərbaycanla iqtisadi əlaqələrdə, ölkəmizə investisiyanın gəlməsində maraqlı olan, Azərbaycana ən böyük həcmdə sərmayə qoyan ölkədir. Bu, əsasən neft və qaz sektoruna aiddir. Ancaq təkcə bu sektorda yox, indi artıq iqtisadiyyatın başqa sektorlarında da bizim əməkdaşlığımız inkişaf etməkdədir.

Bilirsiniz ki, Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və təbii ehtiyatların hasil olunması sahəsində 30-dan çox şirkət fəaliyyət göstərir. Bunlar 14 ölkəni təmsil edirlər. Lakin bunların içərisində *bp* liderlik edir. Deməli, Böyük Britaniya liderlik edir. Güman edirəm ki, bu liderliyi bundan sonra da əlindən verməyəcəkdir.

Biz 1994-cü ilin sentyabr ayında Xəzər dənizinin Azərbaycan sektorunda olan «Azəri», «Çıraq», «Günəşli» yataqlarının işlənilməsi və neft hasilatına dair ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayarkən bu günə qədər *bp* şirkətinə rəhbərlik edən hörmətli Con Braun 11 şirkətin adından çıxış etdi və xatirimdədir ki, mənə gözəl, olduqca gözəl, indiyə qədər heç görmədiyim büllur bir vaza təqdim etdi. Doğrudur, sonra onu evə aparanda salıb sındırdılar. Ancaq bunu bilən kimi, onun eynisini mənə bir daha gətirib verdilər.

O vaxt biz bu müqaviləni imzalayanda buna inananlar da çox idi, inanmayanlar da vardı. Ancaq Azərbaycan xalqının hamısının arzusu ondan ibarət idi ki, bu müqavilə real olsun, həyata keçirilsin, öz nəticələrini versin. O inanmayanların və bizim bu işlərimizin getməsinə mane olanların, necə deyim, acığına, müqavilə uğurla həyata keçirilir, öz nəticələrini verir. 1997-ci ildə ilkin neft alınıbdır, artıq iki marşrutla ixrac olunur.

İndi artıq əsas ixrac kəmərinin – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlanılır. *bp*-nin xoşbəxtliyi ondadır ki, ikinci müqavilədə – «Şahdəniz» yatağının işlənilməsi ilə bağlı müqavilədə də həm liderlik edir, həm də onların bəxti gətirdi ki, orada gözlənildiyindən çox qaz ehtiyatı kəşf olunubdur. Təbiidir ki, bu sərvət hasil olunacaq, xarici ölkələrə, birinci növbədə, Türkiyəyə ixrac ediləcəkdir.

Bu günlərdə *bp*-nin prezidenti hörmətli Con Braun Azərbaycana gələcəkdir. Biz gələcək işlərin proqramını müzakirə edəcəyik. Onlar görəcəkləri işlər haqqında bizə, hökumətimizə, dövlətimizə geniş məlumat verəcəklər. Güman edirəm ki, bunların hamısı ictimaiyyətə də məlum olacaqdır. Çox məmnunam ki, qarşıda gözəl perspektivlər vardır. Böyük Britaniya, *bp* və başqa şirkətlər də bu məsələlərə çox böyük əhəmiyyət verirlər.

Ölkələrimiz arasındakı əlaqələrin sürətlə inkişaf etməsində 1998-ci ildə Böyük Britaniya hökumətinin dəvəti ilə mənim Böyük Britaniyaya rəsmi səfərim xüsusi rol oynayır. O vaxt biz Baş nazir hörmətli Toni Bleyrlə və

hökumətin başqa üzvləri ilə çox ətraflı danışıqlar apardıq, çox maraqlı söhbətlərimiz oldu. Hər iki tərəf də bəyan etdi ki, bizim əlaqələrimiz gələcəkdə daha da genişlənəcəkdir.

Hörmətli Toni Bleyr və onun partiyası son seçkilərdə yenidən uğur qazandı, hökuməti təşkil etdilər. Hətta xatirimdədir, bu ayın əvvəlində Azərbaycanda keçirilən beynəlxalq neft və qaz sərgisində Böyük Britaniyanın hökumət üzvlərindən heç kəs iştirak edə bilməmişdi. Baş nazir hörmətli Toni Bleyr mənə göndərdiyi məktubda bunun məhz seçkilərlə əlaqədar olduğunu bildirmişdir.

Mən cənab Toni Bleyrin yenidən Böyük Britaniyanın Baş naziri seçilməsi münasibətilə göndərdiyim təbriklərə əlavə olaraq, bu gün – Böyük Britaniyanın milli bayramı günü onu və onun partiyasını bir daha təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim əməkdaşlığımız daha da sürətlə inkişaf edəcəkdir.

Bu ayın əvvəlində Bakıda beynəlxalq neft və qaz sərgisinin açılışı münasibətilə cənab Toni Bleyrin mənə göndərdiyi məktubda təkcə təbrik sözləri yox, eyni zamanda, Böyük Britaniya ilə Azərbaycan arasında olan əlaqələrin gələcək perspektivləri və inkişaf yolları haqqında çox dəyərli fikirlər söylənmişdir. Baş nazir Toni Bleyrin bu məktubunu mən çox böyük məmnuniyyətlə qəbul etdim və onun orada ifadə etdiyi fikirlərin hamısına razı olduğumu bildirdim. Eyni zamanda, ona göndərdiyim məktubda bunların hamısını təsdiq edərək, bizim gələcək əməkdaşlığımız üçün fikirlərimizin eyni olduğunu bildirmişəm. Bu məktub, yəni, Baş nazir Toni Bleyrin məktubu xüsusi əhəmiyyət kəsb edir. Çünki orada bizim əməkdaşlığımıza, xüsusən iqtisadi və başqa sahələrdə əlaqələrimizə aid çox konkret fikirlər irəli sürülübdür. Azərbaycanın Avropa Şurasına qəbul olunması münasibətilə Baş nazir Toni Bleyrin təbriki və müsbət fikirləri də bizi ruhlandırır. Onların bizə verdiyi dəstəyə görə təşəkkür edirəm. Baxmayaraq ki, Böyük Britaniyadan olan bəzi deputatlar orada kiçik məsələlərlə bizə əngəllər yaratmaq istəmişdilər.

Müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün ən əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulması, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Cənubi Qafqazda Ermənistanla Azərbaycan arasında sülh yaranmasıdır.

Bu məsələnin həll olunması üçün Böyük Britaniya hökumətinin bizə yardımı, daha da güclü fəaliyyəti çox lazımdır. Mən məmnunam ki, Baş nazir Toni Bleyrin adını çəkdiyim məktubunda göstərilir ki, əgər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunarsa, Böyük Britaniya və onun Avropa Birliyindəki tərəfdaşları Azərbaycanın işğal olunmuş torpaqlarında bərpa işlərinin aparılmasında və yerindən-yurdundan didərgin düşmüş insanların həyatının yaxşılaşmasında lazımi yardım edəcəklər. Düşünürəm ki, əgər Baş nazir Toni Bleyr belə fikirlər irəli sürürsə, deməli, o bu məsələnin həll olunacağına inanır. Əgər inanırsa, deməli, bu məsələnin həll olunmasına kömək etməlidir. Onda həm Böyük Britaniyanın, həm də Avropa Birliyinin Azərbaycana lazım olan köməyi, təbiidir ki, bizim üçün çox əhəmiyyətli olacaqdır.

Bir sözlə, ölkələrimiz, dövlətlərimiz, xalqlarımız arasındakı əlaqələr bizi sevindirir. Ancaq hesab edirəm ki, bu əlaqələr daha da genişləndirilməli və inkişaf etdirilməlidir. Azərbaycan dövləti buna nail olmaq üçün öz üzərinə düşən vəzifələrin hamısını bundan sonra da yerinə yetirəcəkdir.

Hörmətli cənab səfir, mən sizi, Böyük Britaniya hökumətini, ölkənizin vətəndaşlarını bu bayram münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm və sizin xalqınıza xoşbəxt gələcək arzulayıram.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının prezidenti vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Pakistan arasında təşəkkül tapmış möhkəm dostluq və sıx əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Pakistan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 iyun 2001-ci il*

## QEYDLƏR

**1. Zərifə xanım,** Ə l i y e v a Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 5–9.

**2. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadimi, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 5.

**3. Sevil Əliyeva,** S e v i l H e y d ə r q ı z ı (d.1955) – şərqşünas, ictimai xadim, tarix elmləri namizədi. Ümummilli lider Heydər Əliyevin qızı. Bəstəkarlıq fəaliyyəti göstərir, bir sıra musiqi əsərlərinin müəllifidir. Sevil Əliyeva 1990-cı illərin birinci yarısından fəal ictimaiyyətçi, müstəqil Azərbaycanda qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. «Sevil» Azərbaycan Qadınlar Məclisinin sədri, «SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası»nın prezidentidir.

Sevil Əliyevanın İngiltərə–Azərbaycan ictimai-mədəni əlaqələrinin genişləndirilməsində də xidmətləri var. – 6.

**4. Fikrət Qoca,** Q o c a y e v F i k r ə t G ö y ü ş o ğ l u (d.1935) – Azərbaycanın xalq şairi. «Qobustan» incəsənət toplusunun Baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 6.

**5. Oqtay Sadıqzadə,** O q t a y S e y i d H ü s e y n o ğ l u (d.1921) – Azərbaycan boyakarı və qrafiki, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Yazıçı, publisist Seyid Hüseynin oğludur. Əsasən, kitab qrafikası sahəsində fəaliyyət göstərmişdir. Tematik tablo, kompozisiya, portret və s. Boyakarlıq əsərləri də çəkmişdir. Azərbaycan şairlərindən Qətran Təbrizi, Qönçəbəyim, Heyran xanımın portretlərinin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 9.

**6. Nəsibə Zeynalova,** N ə s i b ə C a h a n g i r q ı z ı (1917–2003) – Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cahangir Zeynalovun qızıdır. 1941-ci ildən Azərbaycan Musiqili Komediya Teatrının solisti olmuşdur. N.Zeynalova Azərbaycan komediya tarixinə daxil olmuş unudulmaz səhnə obrazları yaratmışdır. Zeynalovanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəlikləri̇lə açmaq bacarığı, milli kolorit səciyyəvidir. Nəsibə xanım bir sıra filmlərdə də çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 9.

**7. Rüstəm İbrahimbəyov,** R ü s t ə m M ə m m ə d i b r a h i m o ğ l u (d.1939) – görkəmli yazıçı, dramaturq, kinossenarist. Azərbaycanın xalq yazıçısı. Azərbaycan, Rusiya və SSRİ Dövlət mükafatları laureatı.

Pyesləri isə keçmiş sovet məkanında və xarici ölkələrin teatrlarında mütamadi olaraq tamaşaya qoyulmuşdur. Onun ssenariləri əsasında respublikamızda və xaricdə onlarla film çəkilmişdir. 1981–90-cı illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, 1990-cı ildən isə sədridir. 1996-cı ildə «Günəşdən usanmışlar» kinofilminin ssenarisinə görə Amerika Kino Akademiyasının «Oskar» mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 9.

**8. Eldar Quliyev,** E l d a r T o f i q o ğ l u (d.1941) – kino rejissoru. Azərbaycan Respublikasının xalq artisti. Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Kəskin sosial problemlərə həsr olunmuş «Bu cənub şəhərində» filmi onun ən gözəl filmidir. Yaradıcılığında mənəvi-əxlaqi məsələlərin tədqiqi başlıca yer tutur. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 9.

**9. Ömər Eldarov,** Ö m ə r H ə s ə n o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. 1995-2002-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 9.

**10. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 9,10-12,25,34,35,37,45,46,67–69,70–81,107,173–174,214, 280,281,289,295,315,316,317,340,385–391,414.

**11. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 12,67,68,69,72,75,76,385.

**12. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 12,92,258.

**13. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 13,383–384.

**14. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı olmuşdur. 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 13,383,384.

**15. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 14–27,286–323.

**16. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 14.

**17. Süleyman Tatlıyev,** S ü l e y m a n B a y r a m o ğ l u (1925) – Azərbaycan Ticarət - Sənaye Palatasının prezidenti. Müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. – 14–27.

**18. Azərbaycan Ticarət–Sənaye Palatası –** 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə «Qızıl Merkuri» beynəlxalq mükafatına layiq görülmüşdür. – 14.

**19. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 15,16,27,152,211,284,306,327,372,380,381.

**20. Cürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 15,16,20,25,35,37,47,99,100, 116, 156,157,180,232,250–259,276,280,281,286–323,341,379,381.

**21. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Cümhuriyyətin 1,2 və 3-cü kabinələrində Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur (1918). Tiflisdə «Daşnaksutyun»un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. – 16,186.

**22. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Görkəmli hüquqşünas, siyasi və dövlət xadimi, diplomat, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri. Paris (Versal) sülh konfransında (1919-20) Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 16,186.

**23. Şevardnadze** E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 16,180,294–296,302, 309–312,313,377,380.

**24. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 16,32,33,35,37,49,279, 280,289,294,316,317,380,393,419.

**25. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 17,20,24,124–128,176,196,250–259,286–323.

**26. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 17,124,127,128,257,302,308,309–312.

**27. Petru Luçinski** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997–2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdur. – 18.

**28. Sovetlər İttifaqı**, S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t t i f a q ı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın

21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 21,22,26,57,59,79,88,100,185,217,222,224, 225,303,306,335,342,358,360,387,388.

**29. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 24,72,230, 241–245,252,291,313.

**30. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 24,82–88,89–104,105–109,129–141,143,164,165,176,184,204,215–235,250–259,287, 296,314,326–337,338–345,346,357–364,371,372,373,375.

**31. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 25,37,280.

**32. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 26,151,152,153,154, 155,156,157,158,171,306,393.

**33. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 26,151,152,211,284,306, 327,328,329.

**34. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 28–29,139,147,212,228,230,244,252.

**35. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 28–29,99,103,105,106,107,109,129–141,143,146,147,204,206, 228,244,254,362,394.

**36. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. –28–

29,42,49,51,57,59,77,99,100,129–141,143,164,165,176,204,206,228,230, 244,254,255,280,281,288,315,320,336,340,362,374,375.

**37. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1995-2000-ci illərdə Texas ştatının qubernatoru olmuşdur. – 28,133,138,139,228,255,374–375.

**38. Florida** – ABŞ-ın cənubunda ştat. Sahəsi 152 min km$^2$, əhalisi 9,7 milyon nəfərdir. İnzibati-mərkəzi Tallahassi şəhəridir. Qış kiroqtudur. Kanaveral burnunda raket texnikası sınağı poliqonu və kosmodrom var. – 29,130,143,162,164,204.

**39. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İr-landiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 30–52,57,59,280,281,325,354,355,392–395, 417–421.

**40. *bp*,** «Britiş Petroleum», – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 30–52,276,277,418,419.

**41. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «BP–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 30–52,289.

**42. Natiq Əliyev,** Natiq Agaəli oğlu (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 30–52.

**43. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 31,35,40,43,46,276.

**44. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 32,33,34,35,36,38,44,45,262,276,277, 278,281,294,295,419.

**45. «Botaş»** –Türkiyə dövlət xam neft və mavi qaz kəmərlərinin və ticarət dövlət kompaniyası. «Botaş» 1974-cü ildə Kirkuk – Ceyhan kəmərinin tikilməsi və istismarı üçün yaradılmışdı. 1987-ci ildən «Botaş», həmçinin mavi qazın ötürülməsində və satılmasında iştirak edir. «Botaş» Nabukko kəmərinin layihəsində də iştirak edir. – 34.

**46. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 40,43,197,243.

**47. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. –42,136,142–144,145–149,170,172,340.

**48. Milli Bank,** Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici

valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 43.

**49. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 46,107,224, 281,286,316,329,330,331,333,334,356,365–373,418.

**50. Meksika körfəzi** – Şimali Amerika sahillərində, Florida və Yukatan yarımadaları və Kuba adası arasında Atlantik okeanın yarımqapalı dənizi. Sahəsi 1543 km$^2$, suyunun həcmi 2332 min km$^3$, maksimum dərinliyi 5203 m-dir. Körfəzin şimal-qərb şelf zonası neftlə zəngindir. – 47.

**51. «Şevron» –** dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 51,278.

**52. «Eksson» korporasiyası** – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Xaricdəki ilk filialı 100 il əvvəl təsis edilmişdir. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 51.

**53. «Mobil»** – dünyanın ən iri neft şirkətlərindən biri. 1986-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, neft və qaz hasilatı, satışı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmi-tədqiqat işləri ilə məşğul olur. – 51.

**54. «AMOKO» –** dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42 000 işçisi var. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 51.

**55. Con Braun** (d.1948) – «Britis Petroleum» şirkətinin prezidenti. 1969-83-cü illərdə Alyaskada, Nyu-Yorkda, Londonda neft və qazın çıxarılması və kəşfiyyatı istehsalı ilə məşğul olan böyük şirkətlərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır.

Bütün tapşırıqları əla yerinə yetirdiyinə görə 36 yaşında «Bi-Pi» qrupunun xəzinədarı və «Bi-Pi» şirkətinin Finance İnternationalının Baş direktoru təyin edilir. 1987-ci ildən isə Standard Oil of Ohio «Bi-Pi» ilə iş birliyindən «Bi-Pi» Amerika təmsilçisi üzrə maliyyə üzrə vitse prezidenti və Standard Oil of Ohionun başçısı təyin edilir. – 51,418.

**56. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 53–64,80,114,250,251,252.

**57. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin (1941–45) ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 53–64.

**58. Məzahir Abbasov,** M ə z a h i r  H ə m i d  o ğ l u (1918-2002) – Böyük vətən müharibəsi qəhrəmanı, tarix elmləri doktoru, professor. Tədqiqatları, əsasən, İkinci dünya müharibəsi haqqındadır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 53–64.

**59. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 54.

**60. Şeyx Şamil** (1797–1871) – Dağıstan və Çeçenistanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri, imamlığın başçısı. 1835-ci ilin yayında imam seçilmiş və o vaxtdan dağlıların azadlıq mübarizəsinə başçılıq etmişdi.

Təşkilatçılıq bacarığı və iradəsi sayəsində Şamil dağlıları birləşdirə, yerli feodalları özünə tabe edə bilmiş və hərbi teokratik dövlət – imamlıq yaratmışdı.

1870-ci ildə Məkkəyə ziyarətə gedərkən o, Məkkəyə çatmamış Mədinədə vəfat etdi. – 54.

**61. Xalq Cəbhəsi,** A z ə r b a y c a n  X a l q  C ə b h ə s i (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 55,62,319.

**62. Adolf Hitler** (1889–1945) – Nasional-Sosialist Partiyasının füreri (rəhbəri), alman-faşist dövlətinin başçısı (1933-cü ildən reyxkansler). Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə arvadı Yeva Braunla birlikdə özünü öldürmüşdür. Nürnberq prosesində hərbi nasist cani elan edilmişdir. – 56,57,59,60.

**63. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 57,129–141,143,155,159,164,165,170,171,204,228,230,255,280,340,362.

**64. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 61.

**65. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan XII əsrin 30-cu illərindən 70-ci illərin ortalarınadək Azərbaycan atabəyləri dövlətinin paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən respublikanın paytaxtı oldu. – 62,63,80,173,315.

**66. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 62,177.

**67. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 63,144,218.

**68. Ziya Bünyadov,** Z i y a   M u s a   o ğ l u (1923–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 63.

**69. Norveç,** N o r v e ç   K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (stortinq laqtinq və odelstinq) parlamentdir. Paytaxtı Oslodur. – 65,66,260–264,272,282,283.

**70. Harald V** (d.1937) – 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. – 65.

**71. Stoltenberq Yens** (d.1959) –Norveçin dövlət və siyasi xadimi. Əvvəllər Norveçin Energetika, Ticarət, Maliyyə nazirləri vəzifəsində çalışmışdır. 2000–2002-ci illər, 2005-ci ildən isə yenidən Norveçin Baş naziri olmuşdur. Onun hökuməti gender (10 kişi, 10 qadın nazir) bərabərliyində fəaliyyət göstərir. – 66,260,262.

**72. İsmayıl Cəm** – (1940–2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997–2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. – 69.

**73. «Mərmərə» qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 70–81.

**74. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 70, 74,316.

**75. Dəniz Baykal** (d.1938) – 1988-2010-cu illərdə Türkiyədə Cümhuriyyət Xalq Partiyasının lideri və Baş katibi olmuşdur. Bu partiya ölkədə böyüklüyünə görə ikinci, parlamentdə isə əsas müxalifət partiyasıdır. O müxtəlif illərdə Türkiyədə Baş nazirin müavini, Maliyyə, Energetika və Xarici İşlər naziri vəzifəsində çalışmışdır. – 71.

**76. Anar,** R z a y e v   A n a r   R ə s u l   o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və mədəniyyət məsələləri komissiyasının sədri, 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 71.

**77. Asya Manafova,** A s y a S ə r d a r q ı z ı (d.1941) – mühəndis-texnoloq. 2 çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 71,72.

**78. Vaqif Arzumanlı,** V a q i f M i n a d o ğ l u (d.1947) – filologiya elmləri doktoru, professor. Azərbaycan Millit Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunun direktoru və Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin vitse-prezidenti olmuşdur. – 71.

**79. Zəhra Quliyeva,** Z ə h r a T a h i r q ı z ı (1923–2005) – oftalmoloq, tibb elmləri doktoru, professor. Tədqiqatı, əsasən, traxoma, gözün refraksiyası, rəng duyğusu və ona müxtəlif amillərin təsirinə həsr olunmuşdur. Quliyeva 1972–1983-cü illərdə Azərbaycan Dövlət Tibb Universitetinin rektoru olmuşdur. SSRİ Ali Sovetinin deputatı olmuşdur. Əməkdar elm xadimi adına layiq görülmüşdür. 1998-ci ildən Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 72.

**80. Zeynəb Xanlarova,** Z e y n ə b Y ə h y a q ı z ı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ xalq artisti. Xanlarovanın pereprtuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 72.

**81. Ecevit Bülənd** (1925–2006) – Türkiyənin görkəmli siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 75, 214,314,385.

**82. Dövlət Baxçalı** (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 75.

**83. Hüseyn Kıvrıqoğlu** (d.1934) – Türkiyə hərbi xadimi, ordu generalı. Türkiyə Silahlı Qüvvələrinin Baş qərargah rəisi olmuşdur. – 75,385.

**84. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 75,77,78.

**85. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 75.

**86. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 77,78.

**87. Ziyafət Əsgərov,** Z i y a f ə t A b b a s o ğ l u (d.1963) –hüquqşünas. Hüquq elmləri namizədi, professor. Birinci, ikinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavinidir. Hazırda Milli Məclisin Təhlükəsizldik və müdafiə məsələləri daimi komissiyasının sədri və NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. – 78.

**88. Hüseyn Cavid,** H ü s e y n  A b d u l l a  o ğ l u  R a s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 79.

**89. İlham Əliyev**, İ l h a m  H e y d ə r  o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 80.

**90. Yakovlev Veniamin Fyodoroviç** (d.1932) – hüquqşünas. 1992-ci ildən Rusiya Federasiyası Ali Arbitraj Məhkəməsinin sədridir. – 82–88.

**91. Cəfər Vəliyev,** C ə f ə r  C ə b r a y ı l  o ğ l u (d.1930) – hüquqşünas. 1962-79-cu illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1987-92-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, 1992-2000-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. –82–88.

**92. Stalin,** İ o s i f  V i s s a r i o n o v i ç (1879–1953) – 1922–53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. Sosializm quruculuğuna dair Lenin planını, SSRİ-nin Böyük Vətən müharibəsində (1941–45) müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və s. rəhbər kimi iştirak etmişdir. Fəaliyyətində nəzəri və siyasi səhvlərin çoxluğu, kobud qanun pozuntuları, bəzi mənfi xüsusiyyətləri Stalinin şəxsiyyətinə pərəstişin yaranması ilə nəticələndi. 30-cu illərdə baş verən və milyonlarla insanın repressiyasına səbəb olan qanlı cinayətlər məhz onun səhvlərinin nəticəsidir. Təkcə 1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi 29 min nəfər güllələnmiş və ya sürgün edilmişdi. – 83.

**93. D ö v l ə t  D u m a s ı** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 84.

**94. Nikolay I,** N i k o l a y  P a v l o v i ç  R o m a n o v (1796-1855) – Rusiya imperatoru (1825-55) «Avropa jandarmı» kimi ,tanınan I Nikolay, milli və inqilabi hərəkatları (Şamil hərəkatı, 1830-31-ci il, Polşa üsyanı, 1848-

49-cu il Macarıstan inqilabı) amansızlıqla yatırır, qeyri-rus xalqların zorla ruslaşdırılması, xristianlaşdırılması siyasəti aparırdı. – 85.

**95. Andropov Yuri Vladimiroviç** (1914–1984) – SSRİ-nin partiya və dövlət xadimi. 1967-ci ildən SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, 1982–1984-cü illərdə Sov.İKP MK-nın Baş katibi olmuşdur. – 88.

**96. Ruşaylo Vladimir Borisoviç** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildən Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildən isə nazir, 2001-ci ildə isə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 89–104.

**97. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – Rusiyanın görkəmli siyasi və dövlət xadimi. 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 89,90,91,92,93,101,103,104,105,106,108,112,113, 132,133,138,139,224,228,231,235,250–259,328,329,337,344,346,361,362, 363,364,394.

**98. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 98,110–117,118, 176,195,198,230,250–259,305,339,345,362,364,376–382.

**99. Kamerun,** K a m e r u n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. – 122.

**100. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 123.

**101. Abdullah Saleh** (d.1932) – marşal, 1994-cü ildən Yəmən Respublikasının prezidenti. – 123.

**102. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978-80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 90,91,93,103,243.

**103. Trubnikov Vyaçeslav İvanoviç** (d.1944) – Rusiya dövlət xadimi, ordu generalı. 1996–2000-ci illərdə Rusiya Federasiyası Xarici Kəşfiyyat İdarəsinin direktoru, 2000-2004-cü illərdə Xarici İşlər nazirinin birinci müavini, 2004-cü ildən Hindistanda fövqəladə və səlahiyyətli səfirdir. – 99,105–109,130.

**104. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 100.

**105. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 100.

**106. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 102,129–141,143,144,147,153,154,163,188, 204,212,218,221,222,229,230,255,259,287,297,303,304,315,360,361,375, 394,407,421.

**107. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmişdi, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 109.

**108. Sergey İvanov** (d.1953) – Rusiya dövlət və hərbi xadimi. 1998-ci ildə Federal Təhlükəsizlik Xidməti İdarəsində direktor müavini, 1999-cu ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 2001–2006-cı illər isə Rusiyanın Müdafiə naziri olmuşdur. Hazırda Rusiya Federasiyasında Baş nazirin müavinidir. – 110–117.

**109. Leonid Kravçuk,** L e o n i d M a k s i m o v i ç (d.1934) – Ukraynanın dövlət və siyasi xadimi. Ukraynanın ilk prezidenti (1991-1994) –124.

**110. Boris Paton** (d. 1918) – matellurgiya və qaynaq sahəsində görkəmli sovet alimi. Ukrayna EA-nın akademiki və prezidenti. B.Paton iki dəfə Sosialist Əməyi Qəzrəmanı, Lenin mükafatı və SSRİ Dövlət mükafatları laureatı olmuşdur. – 124.

**111. İohann Pavel II,** d ü n y ə v i a d ı K a r o l V o y t u l a (d.1920-2007) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri qeyri-italyan mənşəli (polyak) ilk Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəiflədilməsində böyük xidmətləri var. II İoann Pavel 1978-ci ildə Roma Papası seçilmişdirdır. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 126.

**112. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 101,6 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 131,137,140,207,230.

**113. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 133,134,138,139, 228.

**114. Yoşka Fişer** (d.1948) – Alman siyasətçisi. 1998-2005-ci illərdə Almaniya Xarici İşlər naziri və vitse – kansler olmuşdur. – 142–144,145–149.

**115. Kolin Pauell** (d.1937) – ABŞ generalı. 1980–89,1989–92-ci illərdə Amerikanın Dövlət katibi olmuşdur. – 143.

**116. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 144.

**117. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 145–149.

**118. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 147,152,154,157,171,202,208,393.

**119. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elelktroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 148.

**120. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi mərkəzi. Azərbaycanda Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 148.

**121. Ç e r h a r d Ş r ö d e r** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–2006-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 149.

**122. Karpov Anatoli Yevgenyeviç** (d.1951) – şahmat üzrə on ikinci dünya çempionu, beynəlxalq qrossmeyster, SSRİ Əməkdar idman ustası. – 150.

**123. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 151–166.

**124. Avropa Parlamenti** – Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir. AP aylıq sessiyaları Strasburqda, fövqəladə iclasları AP-nin komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. – 151–166.

**125. TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 151,211.

**126. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. – 151, 211.

**127. Atəşkəs rejimi –** 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 163, 189,204,228.

**128. İhsan Doğramacı** (d.1915-2009) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidenti, 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektoru. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 167–174.

**129. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min $km^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka, Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı – Ulan Batordur. – 179.

**130. Natsaqinn Baqavandi** (d.1950) – 1997–2005-ci illərdə Monqolustan prezidenti. – 179.

**131. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–şərqində dövlət. Sahəsi 2780 min $km^2$, əhalisi 34,9 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos–Ayresdir. – 181.

**132. Fernando De La Rua** (d.1937) – 1999-2001-ci illərdə Argentina prezidenti. – 181.

**133. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı- ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min $km^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 182.

**134. II Abdulla,** A b d u l l a b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 182.

**135. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 183–210,217.

**136. Məmməd Əmin Rəsulzadə** (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövdət xadimi, publisist, «Müsavat» partiyasının yaradıcılarından biri. Onun Azərbaycanın mili-azadlıq hərəkatında müstəsna rolu olmuşdur.1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 186.

**137. Nəsib bəy Yusifbəyli,** U s u b b ə y o v N ə s i b b ə y Y u s i f o ğ l u (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının Qırmızı ordu tərəfindən işğalından və ADP süqutundan sonra N.B. Usubbəyli faciəli surətdə qətlə yetirilir. – 186.

**138. Qorbaçov,** M i x a i l  S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 187.

**139. OMON** – 1992–95-ci illərdə Daxili İşlər Nazirliyinin tərkibində olan Xüsusi Təyinatlı Polis Dəstələri (XTPD) – 191.

**140. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 213.

**141. Mesiç Stepan** (d.1934) – hüquqşünas. 2000–08-ci illərdə Xorvatiya Respublikasının prezidenti. – 213.

**142. Aleksi II (1929–2010) –** 1990-2010-cu illərdə Moskvanın və Bütün Rusiyanın patriarxı; xristian dinini qorumaq hərəkatının görkəmli nümayəndələrindən biri; Rusiya pravoslav kilsəsində əmin-amanlıq hərəkatının rəhbəri, Avropa Kilsələr Konfransı Şurasının sədri olmuşdur. – 215–235.

**143. Əlağa Şıxlinski,** Ə l a ğ a  İ s m a y ı l  A ğ a  o ğ l u (1865–1943) – hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya məktəbini bitirmişdir. Rusiya–Yaponiya müharibəsində (1904–05) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə görə «Qızıl qılıncla» mükafatlandırılmışdır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə general-mayor rütbəsi almışdır. Birinci dünya müharibəsində (1914-18) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski rus ordusunda «artilleriyanın allahı» adını qazanmışdır. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdır. – 216.

**144. XX əsrin əvvəlində Rusiya –Yaponiya müharibəsi (1904-1905)** – Çin və Koreyanı bölüşdürmək uğrunda başlanmış müharibə. Müharibəni yaponlar başlamış 1904-cü il yanvarın 27-nə keçən gecə yaponlar qəfildən Port-Artura hücum edib, Sakit okean eskadrilyasını darmadağın etdilər. İyulda Yapon ordusu Saxalunu tutdu. Müharibənin son mərhələsi Susima vuruşması (1905) oldu. Müharibə Portsmum sülh müqaviləsi (1905) ilə başa çatdı. – 216.

**145. Səməd bəy Mehmandarov,** S ə m ə d b ə y  S a d ı q b ə y  o ğ l u (1856–1931) – hərbi xadim. 1908-ci ildən artilleriya general-leytenantı. 1918–20-ci illərdə Azərbaycan Demokratik Respublikasının Hərbi naziri olmuşdur. 1921–28-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. – 216.

**146. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 218,360.

**147. 1993-cü il iyun hadisələri –** Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 218,360.

**148. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 222,223,225,235.

**149. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 223.

**150. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 232.

**151. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 244.

**152. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 244.

**153. Kofi Annan** (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 244.

**154. Livan,** Livan Respublikası – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min $km^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 muhafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 246–249.

**155. Rafiq əl–Həriri** (1944–2005) – Livanın siyasi və dövlət xadimi. 1992–2005-ci illərdə Livanın Baş naziri olmuşdur. Terror nəticəsində həlak olmuşdur. – 246,247,249.

**156. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 250–259.

**157. Vladimir Voronin (d.1941) –** Moldova dövlət xadimi. 2001-2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 250–259,293,297–298,302,309–314.

**158. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-nin 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radiaktiv çirklənməyə məruz qaldı. Bunun nəticəsində AES-nin 30 km-ndə yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 251,252.

**159. Qənirə Paşayeva,** Qənirə Ələsgər qızı (d.1975) – pediatr və hüquqşünas. 3 və 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. 2005-ci ildən Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəridir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının və Avropa Şurasının Raplament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. – 258.

**160. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə

balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 259.

**161. Elçibəy,** Əliyev Əbülfəz Qədirqulu oğlu (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-ci ilin iyunundan 93-cü ilin iyununa qədər Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 259.

**162. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 261,262,263,283.

**163. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 261,418.

**164. Xuraman Qasımova,** Xuraman Əkrəm qızı (d.1951) – Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Kinofilmlərə də çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 265–266.

**165. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 265.

**166. Bakı Musiqi Akademiyası** – Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. Buranın 4 fakültəsi var. Təhsil iki pilləlidir - bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində Opera studiyası və musiqi məktəb studiyası fəaliyyət göstərir. – 265.

**167. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 267, 268.

**168. Moşe Katsav** (d.1945) – İsrail dövlət xadimi. 2000–07-ci illərdə İsrail prezidenti olmuşdur. – 267.

**169. Ariel Şaron** (1928–2006) – 2001–06-cı illərdə İsrailin Baş naziri olmuşdur. 1998–2001-ci illərdə İsrailin Xarici İşlər, Kənd Təsərrüfatı, Tikinti və Müdafiə naziri vəzifələrində çalışmışdır. «Likud» partiyasının liderlərindən biri olmuşdur. – 268.

**170. Nikolay Konstantinoviç Baybakov** (1911–2008) – Rusiya Federasiyasının dövlət xadimi. Bakı şəhərinin Sabunçu qəsəbəsində doğulmuşdur. Lenin mükafatı laureatı. 1965–90-cı illərdə SSRİ Nazirlər Soveti sədrinin müavini və SSRİ Dövlət Plan Komitəsinin sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 270, 274.

**171. Neft Daşları** – Abşeron yarımadasından 42 km cənub–şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 272.

**172. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 276,279,380.

**173. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti** (**ABƏŞ**) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 276,289,317.

**174. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 277.

**175. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 279.

**176. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 281,325,354,392–395,419,420.

**177. «Kverner»** – Norveç neft şirkəti. Bir çox böyük və kiçik milli sənaye müəssisələrin təchizat, texniki, tikinti, xidmət, modifikasiya və əməliyyat işlərini yerinə yetirir. Kompaniya 1841-ci ildə yaradılmış, mənzil qərargahı Oslodadır. «Kverner» bir çox ölkələrdə dənizdə və quruda yeni neft və qaz yataqlarının tapılmasında, istismarında və avadanlığın quraşdırılmasında iştirak edir. – 283.

**178. ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB –də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 287.

**179. Şamil Basayev** (1965-2006) – terror təşkilatının üzvü, Çeçenistanda separatçı hərəkatın aktiv iştirakçısı, tanınmamış (Çeçen İçkeriya Respublikasının başçılarından biri olmuşdur. – 287.

**180. Rusiya və Belarus İttifaqı** – 1997-ci ildə təşkil edilmişdir. Burada hər iki ölkənin ali idarəçilik sisteminin vahid pul, sərhəd, parlament yaradılması, rus və belarus xalqlarının birləşməsi və s. nəzərdə tutulmuşdur. – 288.

**181. Assoşieyted Press** – ABŞ-ın ən iri informasiya agentliklərindən biri. 1848-ci ildə Nyu-Yorkda yaradılmışdır. Amerika qəzet naşirlərinin xüsusi mülkiyyəti olan A.p. agentliyi ABŞ-da bütün informasiya işinə nəzarət edir. – 289.

**182. Əlıkram Hümbətov,** Ə l ə k r a m Ə l ə k b ə r o ğ l u – 1993-cü ildə Azərbaycan Respublikasını parçalamaq məqsədilə qanunsuz hərbi qruplaşmaya rəhbərlik etmiş, qondarma «Talış-Muğan Respublikası»nı yaratmaq cəhdi göstərmişdir. – 290.

**183. Rəhim Qazıyev,** R ə h i m H ə s ə n o ğ l u (d.1943) – texnika elmləri namizədi. 1992-93-cü illərdə Azərbaycan Respublikasının müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur. – 290,291.

**184. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 300–301,302,309–312.

**185. Helsinki aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 309.

**186. Paris xartiyası –** Parisdə 1990-cı il noyabrın 21-də ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları imzalamışdır. Burada ilk dəfə olaraq «soyuq müharibə»nin nəticələrini yekunlaşdıran və yeni eranın başlandığını bildirən çoxtərəfli sənədlər imzalanmışdır. – 309,314.

**187. «İnterfaks»** – Moskvada müstəqil informasiya agentliyi. 1989-cu ildə yaradılmışdır. Rusiya və xarici kütləvi informasiya vasitələri, xarici dövlətlərin nümayəndəlikləri, dövlət, iqtisadiyyat və başqa təşkilatlar üçün siyasi, iqtisadi və başqa informasiyalar yayır. – 317.

**188. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 318.

**189. Amerika Dövlətləri Təşkilatı** (ADT) – beynəlxalq təşkilat. 1948-ci ildə Amerikada Dövlət katibi Marşall tərəfindən kommunizm ilə mübarizə üçün yaradıldı. 35 üzv ölkəsi var. Mənzil-qərargahı Vaşinqtondadır. Birinci iclasında ilk dəfə insan haqları və vəzifələri haqda nizamnamə qəbul edildi. Nizamnamədə həmçinin, qitədə sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, biri-birinin daxili işlərinə qarışmamaqla demokratik prinsiplərə riayət edilməsi qeyd olundu. 2005-ci ildən ADT-nin Baş katibi Xose Migel İnsulsdur. – 320.

**190. «ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 321,322.

**191. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 324.

**192. Jorji Sampayyu** (d.1939) – Portuqaliya siyasi xadimi. 1996–2006-cı illərdə Portuqaliya Respublikasının prezidenti olmuşdur. – 324.

**193. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996-2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 326–337.

**194. Aksenenko Nikolay Yemelyanoviç** (1949-2005) – dəmiryolçu mühəndis. 1997-ci ildən Rusiya Federasiyasının rabitə naziri, 1999-cu ildə Nazirlər Sovetinin birinci muavini olmuşdur. – 326–337,367,373.

**195. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV-XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826-28-ci illər Rusiya-İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 327.

**196. Baykal-Amur magistralı (BAM)** - Şərqi Sibirdə və Uzaq Şərqdə Rusiyanın Sakit okeana dəmir yolu ilə çıxışı. Ümumi uzunluğu 4300 km-dir. – 335.

**197. Səddam Hüseyn (1937-2006)** – İraq dövlət, siyasi və hərbi xadimi. 1979-2003-cü illərdə İraq Respublikasının prezidenti olmuşdur. Ölkədə diktatura rejimi yaratmışdı.1980-ci ildə İranla, 1990-cı ildə isə Küveytlə müharibə etmişdi. BMT-nin silahlanmaya qarşı inspeksiyasını ölkəyə buraxmadığı üçün ABŞ və NATO ölkələri İraqa qarşı genişmiqyaslı hərbi əməliyyata başladılar. 2004-cü ildə Səddam Hüseyn həbs edildi. 2006-cı ildə isə edam edildi. – 342.

**198. Filippin,** Filippin Respublikası – Cənub–Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqan ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 347.

**199. Qloriya Makapaqal Arroyo** (d.1947) – 2001-ci ildən indiyə qədər Filippin prezidenti. Ölkə tarixində ilk prezident qadın. Keçmiş prezident Diosalado Makapalnın qızı. İqtisad elmləri doktoru. – 347.

**200. İslandiya,** İ s l a n d i y a R e s p u b l i k a s ı – Atlantik okeanın şimalında, İslandiya adalarında dövlət. Sahəsi 103 min km$^2$, əhalisi 270 min nəfərdir. İnzibati ərazisi 23 rayonu (sisla) olan 8 mahala bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (altinq). Paytaxtı Peykyavikdir. – 348.

**201. Olavur Raqnar Qrimsson** (d.1943) – 1996-ci ildən indiyə qədər İslandiyanın prezidenti. Politologiya elmləri doktoru. – 348.

**202. Yuli Qusman,** Y u l i S o l o m o n o v i ç (d.1943) – tanınmış kinorejissor və ictimai xadim, Azərbaycan Əməkdar incəsənət xadimi və xalq artisti. 1993-95-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının üzvü olmuşdur. – 349–353.

**203. Anar Məmmədxanov,** A n a r C a m a l i o ğ l u (d.1970) – mexanik-riyaziyyatçı, 1991–95-ci illərdə Bakı Şən və Hazırcavablar klubunun prezidenti və «Bakılı oğlanlar» komandasının kapitanı idi. 1995-2010 illər Azərbaycan Respublikası Milli Məclisinin deputatı. – 349–353.

**204. Cəlil Məmmədquluzadə,** M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 350.

**205. Üzeyir bəy Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 350.

**206. Q o q o l,** N i k o l a y V a s i l y e v i ç (1809-52) – məşhur rus yazıçısı, dramaturq. Qoqol rus ədəbiyyatında tənqidi realizmin möhkəmlənməsi və inkişafında müstəsna rol oynamışdır. – 350.

**207. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 351.

**208. DTK** – Dövlət Təhlükəsizlik Komitəsi.

**209. Y e l i z a v e t II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 355,417–421.

**210. Xatəmi,** S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 356,365,366,367,370,371, 398,399,400.

**211. Ağahüseynov Tofiq,** T o f i q Y a q u b o ğ l u (d.1923) – artilleriya qoşunları general-polkovniki. Böyük Vətən müharibəsi zamanı 1-ci Belorusiya cəbhəsində Visla-Oder və Berlin əməliyyatlarıfnda iştirak etmişdir. Bakı Hərbi- Hava Müdafiə dairəsi komandanının birinci müavini və Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. – 387.

**212. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 404–405.

**213. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 422.

**214. Pərviz Müşərrəf** (d.1943) – 2001–07-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 422.

## Şəxsi adlar göstəricisi


**Abbasov Aslan** – 71
**Abbasov Məzahir** – 53–64
**Abdulla II** – 182
**Abutalıbov Hacıbala** – 351
**Ahəni Əli** – 398–410
**Ağahüseynov Tofiq** – 387
**Axvlediani Quram** – 14–27
**Akimov Dmitrii** – 124–128
**Aksyonenko Nikolay** – 326–337,367,373
**Aleksi II** – 215–235
**Alpoğlan Yiqit** – 67–69
**Anar** – 71
**Andropov Yuri** – 88
**Andriadze İrakli** – 376–382
**Anisimov** – 84
**Annan Kofi** – 244
**Arroyo Qloriya** – 346
**Arzumanlı Vaqif** – 71
**Aslanov Həzi** – 53–64
**Averbax M.İ.** – 5,6
**Ayrım Şamil** – 77
**Baxçalı Dövlət** – 75
**Baqavandi Natsaqiyn** – 179
**Basayev Şamil** – 287
**Baybakov Nikolay** – 270,274
**Baykal Dəniz** – 71
**Bayramova Mələk** – 72
**Beduin Mariann** – 155
**Birrel Qordon** – 30–52
**Biyya Pol** – 122
**Bleyr Toni** – 281,325,354,392–395,419,420
**Braun Con** – 51,418
**Buş Corc** – 28,133,138,139,228,255,374–375
**Bülənd Ecevit** – 75
**Bünyadov Ziya** – 63
**Cəm İsmayıl** – 69
**Cənnət** – 7
**Cumbulat Kamal** – 248
**Çibber Ajay** – 71
**Daniil** (*Moskva knyazı)* – 226
**De La Rua Fernando** – 181
**Dəmirəl Süleyman** – 70,74,316
**Dəmirli Mail** – 72
**Doğramacı Ayser** – 172,173
**Doğramacı Əli** – 172
**Doğramacı İhsan** – 167–174

| | |
|---|---|
| **Dö Suremeyn Filip** | – 129–141 |
| **Dukaçevski Marek** | – 383–384 |
| **Dupui Olivyer** | – 151–166 |
| **Ecevit Büənd** | – 75,214,314,385 |
| **Elçibəy Əbülfəz** | – 259 |
| **Eldarov Ömər** | – 9 |
| **Engin Raşa** | – 186 |
| **Ercan Taner** | – 81 |
| **Əl-Misri Şibli** | – 248,249 |
| **Əliyev Əziz** | – 5 |
| **Əliyev İlham** | – 80 |
| **Əliyev Natiq** | – 30–52 |
| **Əliyeva Sevil** | – 6 |
| **Əliyeva Zərifə** | – 5–9 |
| **Əlizadə Maqsud** | – 352 |
| **Ərtan Paşa** | – 68 |
| **Əsədov Əli** | – 30–52 |
| **Əsgərov Ziyafət** | – 78 |
| **Fikrət Qoca** | – 6 |
| **Fişer Yoşka** | – 142–144,145–149 |
| **Follmer Antye** | – 145–149 |
| **Hacıbəyov Üzeyir** | – 350 |
| **Harald V** | – 65 |
| **Həmidov İsgəndər** | – 290,291 |
| **Həriri Rafiq** | – 246,247,249 |
| **Hitler Adolf** | – 56,57,59,60 |
| **Hümbətov Ələkram** | – 290 |
| **Hüseyn Cavid** | – 79 |
| **Hüseynzadə Rəfiqə** | – 72 |
| **Xanlarova Zeynəb** | – 72 |
| **Xatəmi Məhəmməd** | – 356,365,366,367,370,371,398,399,400 |
| **Xoyski Fətəli xan** | – 16,186 |
| **İbrahimbəyov Rüstəm** | – 9 |
| **İoann Pavel II** | – 126 |
| **İvanov Sergey** | – 110–117 |
| **Jiravkova Qalina** | – 376–382 |
| **Karabay Köksal** | – 385–391 |
| **Karafotias Merkurios** | – 151–166 |
| **Kareyev İqor** | – 93,103,104 |
| **Karpov Anatoli** | – 150 |
| **Katsav Moşe** | – 267 |
| **Kavano Keri** | – 28–29,99,106,129–141,254,256,257 |
| **Kərimov İslam** | – 300–301,302,309–312 |
| **Kıvrıqoğlu Hüseyn** | – 75,385 |
| **Klinton Bill** | – 100 |
| **Kojin Vladimir** | – 376–382 |
| **Konarev** | – 326 |
| **Köçəryan Robert** | – 102,106,130,131,133,140,315 |
| **Krasnevski Aleksandr** | – 13,383,384 |
| **Kravçuk Leonid** | – 124 |

**Kuçma Leonid** – 17,124,127,128,257,302,308,309–312
**Kuku Çeorgi** – 14–27
**Kulurianos Dmitrios** – 151–166
**Kuzmik Aleksandr** – 124–128
**Qamsaxurdia** – 377
**Qarton Per** – 151–166
**Qasımov Vaqif** – 71,72,77,81
**Qasımova Xuraman** – 265-266
**Qazıyev Rəhim** – 290,291
**Qəzai Əhəd** –365–373
**Qoqol** – 350
**Qorbaçov Mixail** – 187
**Qribkov Nikolay** – 129–141
**Qrimsson Olavur** – 348
**Quliyev Eldar** – 9
**Quliyev Vilayət** – 144,399
**Quliyeva Zəhra** – 72
**Qulko Yuri** – 337
**Qusman Yuli** – 349–353
**Luçinski Petru** – 19
**Lukaşenko Aleksandr** – 250–259
**Manafova Asya** – 71,72
**Mehdiyev Ramiz** – 90,91,93,103,243
**Mehmandarov Səməd bəy** – 216
**Mesiç Stefan** – 213
**Məmmədxanov Anar** – 349–353
**Məhəmməd** (*Əleyhissəlam*) – 223
**Məmmədov Ziya** – 320–337
**Məmmədova Dürrə** – 53–64
**Məmmədquluzadə Cəlil** – 350
**Moskovets Aleksey** – 338–345
**Murat Ercan** – 241–245
**Müşərrəf Pərviz** – 422
**Nikolay I** – 85
**Niyazov Xalid** – 72
**Oskanyan Vardan** – 314
**Paşayeva Qənirə** – 258
**Paşazadə Allahşükür** – 222,223,225,235
**Paton Boris** – 124
**Pauell Kolin** – 143
**Pavlovski** – 326
**Putin Vladimir** – 89,90,91,92,93,101,103,104,105,106, 108,112,113,132,13,138,139,224,228, 231,235,250–259,328,329,337,344,346, 361,362,363,364,394
**Ramiz Əsgər** – 71,72
**Rasizadə Artur** – 14
**Rəsulbəyov Hüseyn** – 387
**Rəsulzadə Məmmədəmin** – 186
**Ruşaylo Vladimir** – 89–104
**Ryabov Nikolay** – 220, 320–337,338–345,364

| | |
|---|---|
| **Sabirov Müzəffər bəy** | – 14–27 |
| **Sadıqzadə Oqtay** | – 9 |
| **Saleh Abdullah** | – 123 |
| **Sampayyu Jorji** | – 324 |
| **Sandal Byord** | – 260–264 |
| **Sezər Əhməd Necdət** | – 12,67,68,69,72,75,76,385 |
| **Sezər Səmra** | – 72 |
| **Səddam Hüseyn** | – 342 |
| **Smerdyukov** | – 83 |
| **Stalin İosif** | – 83 |
| **Stoltenberqer Yens** | – 66,260,262 |
| **Suvər Akkan** | – 70–81 |
| **Şaron Ariel** | – 268 |
| **Şevardnadze Eduard** | – 16,180,294–296,302,309–312,313,377, 380 |
| **Şeyx Şamil** | – 54 |
| **Şərifov Abid** | – 242 |
| **Şumilin** | – 83 |
| **Şirak Jak** | – 133,134,138,139,228 |
| **Şıxlinski Əlağa** | – 216 |
| **Şoyqu Sergey** | – 338–345 |
| **Şröder Çerhard** | – 149 |
| **Şuheyb Əkbər** | – 246–249 |
| **Şvayser Ursula** | – 151–166 |
| **Tatlıyev Süleyman** | – 14–27 |
| **Ter-Petrosyan Levon** | – 316 |
| **Topçubaşov Əlimərdan bəy** | – 16,186 |
| **Trubnikov Vyaçeslav** | – 99,105–109,130 |
| **Usubov Ramil** | – 12,92,258 |
| **Vahabzadə İsfəndiyar** | – 291 |
| **Vəliyev Cəfər** | – 82–88 |
| **Voronin Vladimir** | – 250–259,293,297–298,302,309–312 |
| **Vudvord Devid** | – 30–52,289 |
| **Yakovlev Veniamin** | – 82–88 |
| **Yalman Aytac** | – 10–12 |
| **Yalov Yüksəl** | – 71 |
| **Yanovski Viktor** | – 14–27 |
| **Yarov** | – 113 |
| **Yelizaveta II** | – 355,417–421 |
| **Yılmaz Nuri** | – 71 |
| **Yusifbəyli Nəsib bəy** | – 186 |
| **Yusifzadə Xoşbəxt** | – 277 |
| **Zeynalova Nəsibə** | – 9 |
| **Zappala Stefano** | – 155 |
| **Zyuqanov** | – 352 |

## Coğrafi adlar göstəricisi


**Ağcəbədi** – 131,137,207,254
**Ağdam** – 131,137,140,207,230
**Albaniya** – 72
**Almaniya** – 42,136,142–144,145–149,170,172,340
**Amerika Birləşmiş Ştatları** – 28–29,42,49,51,57,59,77,99,100,129–141,143,164,165,176,204,206,228,230, 244,254,255,280,281,288,315,320,336, 340,362,374,375
**Anadolu** (*yarımada*) – 173
**Anqola** – 47
**Ankara** – 67,68,69,76,167,281,288,315
**Aralıq dənizi** – 25,280
**Araz çayı** – 161
**Argentina** – 181
**Asiya** – 152,372
**Astana** – 402
**Astara** – 329,331,334,371,373
**Avrasiya** – 71
**Aşqabad** – 257
**Avropa** – 27,49,57,59,152,153,156,158,159,172, 176,185,307,329,371,372,380,393
**Bağdad** – 341
**Bakı** – 13,23,24,27,29,37,50,57,59,68,79,102, 103,109,110,111,119,121,132,135,136, 139,142,148,150,173,179,180,182,184, 211,212,213,214,219,226,243,260,266, 267,268,270,274,280,285,295,314,318, 324,325,327,328,345,346,347,348,354, 355,356,375,380,395,397,405
**Balaxanı** – 271
**Belarus** – 24,196,250–259,376–382
**Berlin** –387
**Bəndər Abbas** – 329
**Birləşmiş Ərəb Əmirlikləri** – 247
**Bolqarıstan** – 27,72,287,296,314
**Bonn** – 149
**Böyük Britaniya** –30–52,57,59,280,281,325,354,355,392–395,417–421
**Braziliya** – 320
**Bratsk** – 336
**Brüssel** – 154,156,157,160
**Buynaksk** – 234
**Cenevrə** – 106,108,162,254,255,257,291
**Ceyhan** – 25,37,280
**Cənubi Qafqaz** – 60,95,112,132,160,199,379,380
**Çeçenistan** – 108,116,234,315
**Çexiya** – 15
**Çernobıl** – 251,252,340
**Çikaqo** – 169
**Çin** – 27,340,372
**Dağıstan** – 59
**Dağlıq Qarabağ** – 102,129–141,143,144,147,153,154, 163,188,204,212,217,221,222,229,230, 255,259,287,297,303,304,315,361,375, 394,407,421
**Daşkənd** – 319
**Dnestryanı** – 116,297,305
**Ənzəli** – 329,331
**Ərzurum** – 34

**Fars körfəzi** – 371,373
**Filippin** – 347
**Finlandiya** – 171,372
**Florida** (*ABŞ-da ştat)* – 29,130,143,162,164,204
**Fransa** – 57,129–141,155,159,164,170,171,204, 228,230,255,280,340,362
**Gəncə** – 184
**Gürcüstan** – 15,16,20,25,34,35,47,99,100,116,156, 157,180,232,250–259,276,280,281,286–323,341,379,381
**Həştərxan** – 330
**Hindistan** – 73,329,368,372
**Horadiz** – 242
**Xəzər dənizi** – 23,46,48,49,59,161,172,196,219,257, 261,263,273,274,278,279,280,286,294, 330,375,381,393,394,399,400,401,402, 403,418
**Xorvatiya** – 213
**İordaniya** – 182
**İran** – 46,107,224,281,286,316,329,330,331, 333,334,356,365–373,398–403
**İslandiya** – 348
**İspaniya** – 27,172,381
**İsrail** – 267,268
**İstanbul** – 71
**İsveç** – 162
**İtaliya** – 155,156,171,172
**Kamerun** – 122
**Kanada** – 320
**Ki-Uest** – 28–29,99,105,107,108,131,136,141, 143,204,205,206,207
**Kiyev** – 126
**Klivlend** – 169
**Kolumbiya** – 340
**Koreya** – 340
**Kosovo** – 339
**Krım MR** – 292
**Kuba** – 105
**Kür çayı** – 161
**Qafqaz** – 57,59,60,90,91,95,96,97,99,101,108, 116,118,135,147,151,153,211,212,224, 227,232,233,234,307,363
**Qara dəniz** – 47,276,405
**Qars** – 316
**Qazaxıstan** – 250–259,278,331,402
**Qəzvin** – 329,330,331,334,373
**Qırğızıstan** – 250–259
**Qroznı** – 234
**Latviya** – 15
**Leninqrad** – 368,388
**Lənkəran** – 373
**Litva** – 15
**Livan** – 246–249,339
**Lüksemburq** – 151
**Lyublyana** – 255,288
**Maştağa** – 80
**Meksika** (*körfəz)* – 47
**Mərkəzi Asiya** – 112,116,233,303,307,381
**Minsk** – 95,96,108,109,230,232,255,256,287
**Moldova** – 19,20,72,112,250–259,280,286–323
**Monqolustan** – 179
**Moskva** – 57,83,91,94,95,99,103,215–235,226, 234,252,256,288,319,322,323,326,336, 343,368,377,388

**Naxçıvan** – 62,63,80,173,315
**Naxçıvan MR** – 62,177
**Naxodka** – 336
**Norveç** – 65,66,260–264,272,282,283
**Noşəhr** – 331
**Nyu-York** – 15,106,136,168
**Oman** – 329
**Orta Asiya** – 59,116,151
**Osetiya** – 116
**Özbəkistan** – 19,20,21,26,250–259,286–323
**Pakistan** – 329,422
**Paris** – 18,130,134,247
**Polşa** – 13,383–384
**Port-Artur** – 216
**Portuqaliya** – 324
**Poti** – 47
**Rumıniya** – 27,72,287,296,314
**Rusiya** – 24,82–88,89–104,105–109,129–141,143, 164,165,176,184,204,215–235,250–259, 287,296,314,326–337,338–345,346,357–364,371,372,373,378
**Sabunçu** – 271
**Saxalin** – 329
**Serbiya** – 339
**Simferopol** – 292
**Skandinaviya (*yarımada*)** – 372
**Coçi** – 352
**Stalinqrad** – 57,387
**Şərqi Avropa** – 20,21,60,307,381
**Şimal dənizi** – 263,272
**Şimali Afrika** – 59
**Şimali Qafqaz** – 59,99,108,233
**Şuşa** – 61
**Tailand** – 340
**Tayvan** – 340
**Tbilisi** – 16,160,162,184,212,380,381
**Təbriz** – 327
**Təl-Əviv** – 289
**Türkiyə** – 9,10–12,25,32,34,35,37,45,46,67–69,70–81,107,173–174,214,280,281,289,295,315, 316, 317,340,385–391,414
**Türkmənistan** – 45,46,256,257,288,317,318,331
**Ukrayna** – 17,20,24,124–128,176,196,250–259,286–323
**Ural** – 59
**Uzaq Şərq** – 57,340
**Vaşinqton** – 100
**Vladivostok** – 336
**Vyana** – 106,108,136
**Vyetnam** – 340
**Yaxın Şərq** – 247,289
**Yakutiya** – 343
**Yalta** – 286–323
**Yaponiya** – 27,57,336,340,381
**Yerevan** – 102,137,254
**Yəmən** – 123
**Yunanıstan** – 72,155,157,159,171,340
**Zaqafqaziya** – 118–119

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət* Orucov**

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 30,0.
Uçot vərəqi 30,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.